ÇARLZ DİKKENS

İKİ ŞƏHƏRİN HEKAYƏTİ



ROMAN

Tərcümə edən: Ramiz Abbaslı

KLASSİKLƏR

Çarlz Dikkens

İKİ ŞƏHƏRİN HEKAYƏTİ

roman

Tərcümə:
Ramiz Abbaslı

Azərbaycan Milli
Kitabxanası

Charles Dicken

A TALE OF TWO CITIES

Çarlz Dikkensin "İki şəhərin hekayəti" əsəri ingilisdilli ədəbiyyatda populyar romanlardan biri hesab olunur. Elə təkcə ingilis dilində bu roman 200 milyon tirajla çap olunub.

Əsərin əsas qəhrəmanları Lüsi Manett və Çarlz Darney iki düşmən ailənin gəncləridi. Bu düşmənçilik ona gətirib çıxarır ki, Lüsinin atası doktor Manett iyirmi il həbsxanada yatır və nəticədə ağlını itirir. Təsadüf elə gətirir ki, Lüsi ilə Çarlz tanış olub bir-birini sevir, evlənirlər.

Həmin vaxt Böyük Fransız İnqilabı yetişmək üzrəydi. 1789-cu ildə Bastiliyanın alınmasıyla inqilab başladı. Fransa qan gölündə üzürdü; inqilab qurban tələb edirdi. Həmin qurbanlardan biri də Çarlz Darney olmalıydı və iş elə gətirdi ki, Çarlz Darney inqilabçıların əlinə keçdi. Artıq sağalıb ağlı başına gəlmiş doktor Manett, Lüsi, ailənin yaxın dostu, qoca bank işçisi mister Lorri gənc Çarlzı xilas etmək üçün əllərindən gələni edirlər. Lakin heç bir nəticə alınmır. Bu yerdə istedadlı vəkil, Lüsini hədsiz dərəcədə sevən, lakin onunla evlənə bilməyən vəkil Sidni Karton işə qarışır. Karton bu işə qarışmaya da bilərdi, lakin qarışdı və öz həyatı bahasına Lüsinin həyat yoldaşını ölümdən xilas etdi...

Dramatik hadisələrlə dolu, çox maraqlı bir əsər olan "İki şəhərin hekayəti" romanı Azərbaycan dilində ilk dəfə çap olunur.

Charles Dickens A TALE OF TWO CITIES
Çarlz Dikkens İKİ ŞƏHƏRİN HEKAYƏTİ
Bakı, QANUN nəşriyyatı, 2017, 424 səh., 500 tiraj
Çapa imzalanmışdır: 07.10.2017

Tərcüməçi: Ramiz Abbaslı

QANUN Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Тел.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-421-7

© QANUN Nəşriyyatı, 2017
© Charles Dickens, 1859

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

Müəllifin ön sözü

Uşaqlarım və dostlarımla birlikdə mister Uilki Kollinsin "Buz bağlamış girdab" dramını tamaşaya qoyduğumuz vaxt romanın əsas ideyası ağlıma gəldi. Tamaşaçının qəlbini ələ alıb onu maraqlandırmaq üçün rola girib bu ideyanı təcəssüm etdirmək istəyi mənə rahatlıq vermirdi, bunun üçün ilk növbədə hansı məqamları qabartmağın zəruri olduğunu təsəvvürümdə canlandırmağa çalışırdım.

Axır ki, ideyanın nədən ibarət olduğu mənə aydın oldu və tədricən indiki formaya düşdü. Əsəri səhnələşdirdiyimiz vaxt ideya bütövlükdə ruhuma hakim kəsilmişdi, o səbəbdən romanda təsvir olunan hadisələr başıma gəlmiş, yaxud gözümlə görüb şahidi olduğum hadisələrdən heç nə ilə fərqlənmir.

Fransız xalqının inqilabdan əvvəlki və inqilab dövründəki həyat və məişətiylə bağlı təsvirlərin (hətta ən əhəmiyyətsiz görünən detallar belə) reallığına gəlincə, burada hər şey kifayət qədər etibarlı mənbələrə əsaslanmışdır. Ümid edirdim ki, o dəhşətli dövrün daha yaxşı anlaşılması üçün populyar və cəlbedici görünə bilən yeni səhifələr yaza bilərəm, amma, sən demə, mister Karleylin gözəl kitabının fəlsəfəsinə nəsə əlavə etmək barədə düşünməyə dəyməzmiş.

Tavistok Haus
Noyabr, 1859-cu il

BİRİNCİ KİTAB

HƏYATA QAYTARILMIŞ

I fəsil

TARİXİ DÖVR

Yaxşı zaman idi, bəlkə də, çox pis idi, müdriklik vaxtıydı, ya da sərsəmlik vaxtıydı, inam zamanıydı, şübhələr dövrüydü, aydınlıq vaxtı, qaranlıq vədəsiydi, ümidlərin baharıydı, ümidsizliyin qışıydı, qarşıda hər şey var idi, heç nə də yox idi, biz göylərə qalxırdıq, ya da tamam başqa bir yolla gedirdik, – sözün qısası, indikinə oxşamayan başqa zaman idi və o dövrün hay-küyçü avtoritetləri qışqırıb tələb edirdilər ki, istər yaxşı, istərsə də pis mənada olsun, hər halda, o dövrdən danışanda ən yaxşı epitetlərdən istifadə olunmalıdır.

O vaxt İngiltərənin taxt-tacı iri çənəli kralın və heç də qəşəng olmayan kraliçanın, Fransanın taxt-tacı isə iri çənəli kralın və qəşəng kraliçanın əlindəydi. Hər iki ölkənin hakim dairələri zərrə qədər də şübhə etmirdi ki, mövcud qayda-qanun dəyişməzdir, əbədidir.

1775-ci il idi. İndi olduğu kimi, həmin o diqqətəlayiq dövrdə də göylərdən İngiltərəyə elə bil vəhy gəlmişdi. Missis Sautkott 25 yaşının tamam olmasını təzəlikcə qeyd eləmişdi və bu münasibətlə kralın şəxsi mühafizə dəstəsinin sıravi üzvlərindən olan bir nəfər uzaqgörənlik eləyib demişdi ki, yubiley günü fəlakət baş verəcək: London Vestminsterlə birlikdə çöküb yerlə yeksan olacaq. Fövqəladə cəfəngiyyatlar danışan əvvəlki spiritualistlərin hamısı kimi, o dünyadan gəlib xəbərlər gətirən Kok-leyn cadugərinin susdurulub sakitləşdirildiyi vur-tut on iki il olardı. Son vaxtlar Amerikadakı Britaniya təbəələri konqresindən ingilis kralına və xalqına ünvanlanmış, çox sadə dildə yazılmış məktublar gəlməyə başlamışdı və nə qədər qəribə olsa da, o məktublar Kok-leyn cücələrindən gələn məktublarla müqayisədə bəşəriyyət üçün daha ciddi əhəmiyyət kəsb edirdi.

Qalxanla və üçdişli nizəylə silahlanmış bacısıyla müqayisədə ruhların az himayə etdiyi Fransa kağız pullar kəsib dövriyyəyə buraxdı və uçuruma yuvarlandı. Xristian keşişlərin fitvasına uyaraq, yağışlı gündə 50-60 yardlıq məsafədən ötüb-keçən iyrənc monax dəstəsinə baş əyib, dizini palçığın içində yerə atmadığı üçün gənc bir yeniyetməni amansız cəzaya – hər iki qolu kəsilib dili kökündən çıxardılandan sonra diri-diri odda yandırılma cəzasına məhkum etməklə Fransa humanizm sahəsində də böyük nailiyyətlər əldə etmişdi. O bədbəxt yeniyetmə əzablar içində edam edildiyi vaxt sonradan icad olunmuş və insanlıq adına ləkə gətirmiş gilyotinin – bıçaqlı, torbalı başkəsən maşının hazırlanmasında material kimi istifadə olunacaq və bu səbəbdən də odundoğrayanların Tale adlandırdıqları ağaclar Fransayla Norveçin meşələrində, olsun ki, hələ təzə-təzə pöhrələnib boy atmağa başlamışdı. Ola da bilər ki, edam günü Paris yaxınlığındakı kəndlərdən birində yaşayan kəndlinin həyətində qoşqudan açılıb çardağın altındakı dalda yerdə saxlanmış, içində toyuqlar yatışıb, altında donuzlar xortuldaşan palçıqlı, kobud arabanı Ölüm seçib bəyənmiş, İnqilab arabası kimi manşırlamışdı. Odundoğrayanla Ölüm saman altdan su yeridib gizli işləyirlər, nə vaxt yaxınlaşdıqlarını heç kim hiss eləmir, amma kim desə ki, onlar həmişə oyaqdır, heç vaxt yatmırlar, o adamı dərhal allahsız və qiyamçı elan edirlər.

İngilislər öz ölkələrindəki firavan həyatla, möhkəm qayda-qanunlarla öyünsələr də, buna əsas yox idi; belə ki, nəinki hansısa əyalətdə, hətta paytaxtın özündə də hər gecə silahlı quldur dəstələri yolkəsənlik eləyir, soyğunçuluqla məşğul olurdu; hakimiyyət nümayəndələri əhalini ehtiyatlı olmağa çağırır, şəhəri tərk etməli olan ailələrə tövsiyə edirdilər ki, mənzillərini tərk etməmişdən öncə ev əşyalarını təhlükəsiz saxlanc yerlərinə təhvil versinlər; gündüzlər ticarətlə məşğul olan sakit bir adam gecələr quldur dəstəsinə qoşulub soyğunçuya çevrilirdi; basqına məruz qalmış bir tacir soyğunçulara başçılıq eləyənin öz şəriki olduğunu görüb onu adıyla çağırır, dəstəbaşı isə dostunun təpəsinə bir güllə çaxıb atını çaparaq aradan çıxıb; yeddi nəfərdən ibarət olan silahlı dəstə poçt karetinə hücum edib, mühafizəçi onlardan üçünü öldürsə də, hamısını məhv etməyə gülləsi çatmayıb, özü isə aldığı güllə yarasından ölüb, bundan sonra quldurlar tam bir sakitlik şəraitində kareti soyub talayıblar; Fernem çəmənliyində günün günorta çağı silahlı quldur Londonun lord-merini saxlayıb: şəhər merini müşayiət edənlərin gözü

qarşısındaca onu soyublar, nəyi varsa, götürüb aradan çıxıblar; London həbsxanalarında məhbuslarla nəzarətçilər arasındakı toqquşmaları yatırtmaq üçün məhbuslara atəş açılır; kral sarayının qəbul otaqlarına soxulmuş oğrular zadəganların boynundan asılmış brilyant işləməli qızıl xaçların hamısını kəsib aparıblar; əsgərlər Sent Cayls kilsəsinə soxulub orada qaçaqmalçılıq yoluyla daşınan mal axtardıqları vaxt adamlar əsgərlərə atəş açıb, əsgərlər də cavab atəşi açıblar və bu mənzərəni seyr edənlər əsla təəccüblənməyiblər. Belə bir şəraitdə cəllad lazım idi və o da var idi, yorulmadan da işləyirdi: baxırdın ki, ya uzun cərgələrə düzülüb növbə gözləyən caniləri bir-bir asır, yaxud çərşənbə axşamı ələ keçmiş mənzil qarətçisini şənbə günü edam edir, ya da Nyuqeyt həbsxanası məhbuslarını qızmış dəmirlə damğalayır, yaxud Vestminsterin giriş qapısı tərəfdə bir yığın pamfleti yandırmaqla məşğuldur; bu gün qaniçən qatili edam edirdi, sabahkı gün də 6 pens oğurlamış bədbəxtin birini asırdı, – cəllad bax beləcə gecə-gündüz işləyir, cinayətkarları vaxtlı-vaxtında cəzalandırırdı, amma bunun bir xeyri olmurdu.

Bu cür və buna bənzər minlərlə hadisə artıq keçmişdə qalmış həmin o gözəl 1775-ci ildə baş verirdi. Bu cür hadisələrlə zəngin olan həmin o dövrdə Odundoğrayanla Ölüm gecə-gündüz yatmayıb öz işlərini görür, səssizcə yaxınlaşırdılar, iki yekəçənə kral və biri qəşəng, o biri isə çirkin olan iki kraliça da firavanlıq içində şad-xürrəm yaşayır və hesab edirdilər ki, mövcud qayda-qanun əbədidir, dəyişməzdir. Beləliklə, 1775-ci il külli-ixtiyar sahibi olan hakimi-mütləqləri və saysız-hesabsız xırdaca adamları – bizim salnamədə onların bəzilərindən danışılacaq – zamanın yollarıyla irəliyə doğru aparmaqdaydı.

II fəsil

POÇT

Noyabr ayının axırı, cümə günü, gecə vaxtıydı, romandakı personajlardan birinin gözü qarşısında Duvr yolu qalxıb üzüyuxarı diklənirdi. Əslində, o adam taqqataraqla Şuters Hill yoxuşunu qalxmaqda olan poçt karetinin arxada qoyduğu yolu görürdü; o biri sərnişinlər kimi, o da yoxuş yolda palçığın içiylə yeriyərək faytonun arxasınca gedirdi və həm də ona görə yox ki yağışlı pis havada sərnişinlər bir qədər gəzişib ayaqlarının uyuşuğunu açmaq istəyirdilər. Yüklü poçt kareti ağır idi, palçıqlı yol yoxuş idi deyə atlar yorulub əldən düşmüşdü, artıq üç dəfə dayanıb nəfəslərini dərməli olmuşdular, hətta bir dəfə az qalmışdı etiraz əlaməti olaraq geri dönüb Blekhitə tərəf getsinlər. Yüyən, qamçı, faytonçu və mühafizəçinin birgə təsiri atlara sanki hərbi nizamnamənin qadağasını xatırlatdı: onlar ram olub öz vəzifələrinin icrasına başladılar; bu isə göstərir ki, ilk baxışda şüursuz kimi görünən bəzi heyvanlar, əslində, ağılsız deyillər.

Palçıqlı yoxuş yolda atlar başlarını aşağı salıb quyruqlarını titrədərək, nəfəsləri kəsilə-kəsilə elə gərgin işləyirdilər, adam fikirləşirdi ki, bu saat onlar daşa çırpılmış şüşə qab kimi sınıb parça-parça olacaqlar. "Oho-ho, dayan görüm!" – deyib faytonçu arada nəfəslərini dərmək üçün onları saxlayanda arxa qoşqudakı aparıcı at qəzəblə başını silkələyib fınxırır, qoşqu ləvazimatını elə cingildədirdi, sanki demək istəyirdi ki, kareti dartıb təpənin üstünə qaldırmaq mümkün deyil. At hər dəfə belə eləyəndə faytonun yanına düşüb gedən sərnişin qəflətən nədənsə qorxmuş əsəbi adamlar kimi diksinib titrəyirdi.

Dərələrə dolmuş duman dincəlmək üçün rahat yer axtaran, amma tapa bilməyən lənətlənmiş ruh kimi təpənin döşüylə sürünüb yuxarı

qalxırdı. Adamın sümüyünə işləyən soyuq, yapışqan kimi duman havada yayılıb yavaş-yavaş elə qalxırdı, elə bil qorxunc dəniz dalğalanırdı. Duman elə sıx idi, karetin fənərlərindən başqa heç nə görünmürdü, onların işığı isə özlərini və bir də cəmisi 2-3 yard uzunluqda olan yolu azca işıqlandırırdı; qan-tər içində çırpınıb yol gedən atlardan qalxan buxar dərhal dumana qarışıb yox olurdu deyə elə təsəvvür yaranırdı ki, ətrafı bürümüş çən-duman da onların bədənindən qalxıb yayılır.

Həmin sərnişindən başqa, digər iki sərnişin də faytonun arxasınca düşüb güc-bəlayla da olsa, palçıqlı yolda piyada gedərək təpənin döşüylə üzüyuxarı dırmaşmaqdaydı. Sərnişinlərin üçü də uzunboğaz çəkmə geyinmişdi, altdan-üstdən bərk-bərk geyinib bürünmüşdülər, şərflə boğazlarını, üzlərini və qulaqlarını elə bağlamışdılar, bircə gözləri açıq qalmışdı. O üç nəfərdən heç biri o biri iki nəfərin necə adam olduğu, hansısa əlamətləri barədə heç nə deyə bilməzdi; onlardan hər biri o biri iki nəfərin nəinki gözündən, hətta fikrindən də yayınıb gizlənməyə çalışırdı. O dövrdə yola çıxan hər kəs çox ehtiyatla davranır, təsadüfi adamlarla tanışlıqdan uzaq olmağa çalışırdı, çünki hər bir təsadüfi adam ya soyğunçu, ya da soyğunçu dəstəylə əlaqəyə girmiş adam ola bilərdi. Əgər hər poçtda və kafedə quldurbaşına xidmət eləyən muzdlular vardısa və onlar poçt müdirindən tutmuş aşağı rütbəli əhəmiyyətsiz bir adam, məsələn, adi mehtər də ola bilərdisə, onda şübhələrin heç də əsassız olmadığı məlum olur. Həmin o cümə günü, 1775-ci ilin soyuq noyabr gecəsi Şuters Hill təpəsinə diklənib yoxuşu qalxan poçt karetinin arxasındakı xüsusi dayanacaqda dayanaraq ayağının birini götürüb o birini qoyan mühafizəçi belə düşünürdü, eyni zamanda o düz qarşısındakı silah-sursat yeşiyindən əlini çəkmir, daim ona göz qoyurdu; yeşiyin dibində bir yığın əyri xəncər, onların üstündə atəş açmaq üçün yararlı olan 7-8 süvari tapançası, lap üstdə isə atəş açmaq üçün hazır vəziyyətdə saxlanılan qısalülə tüfəng var idi.

Duvr poçt kareti öz həmişəki vəziyyətindəydi, mühafizəçi sərnişinlərdən şübhələnirdi, sərnişinlər bir-birindən, eyni zamanda mühafizəçidən şübhələnirdilər, – hamı bir-birindən şübhələnirdi. Faytonçu isə atlardan başqa hamıdan şübhələnirdi, indi o, müqəddəs kitaba əl basıb and içərək tam səmimiyyətlə deyə bilərdi ki, bu cür yolda belə atları faytona qoşmaq düz deyil.

– Dəh, dəh! – deyib faytonçu atları dəhmərlədi. – Az qalıb! Bir az da güc verin, yoxuşun başına lap az qalıb. Çər dəymişlər, siz məni çərlətdiniz. Co!

– Eşidirəm! – mühafizəçi onun səsinə səs verdi.

– Necə bilirsən, Co, saat neçə olar?

– Yəqin, haradasa saat 12-yə 10 dəqiqə işləmiş olar.

– Dədə, vay! – faytonçu təəssüflə dedi. – Saat 12-yə işləyir, biz hələ Şuters yoxuşunu qalxırıq! Dəh, dəh! Bir tərpənin görüm!

Gahgir at qətiyyətlə başını yelləyib etiraz eləyəndə aldığı şallaq zərbəsindən sonra dartınıb qabağa getdi, o biri üç at da ondan geri qalmamağa çalışdı. Duvr poçt kareti yenidən sürünərək irəli getdi, uzunboğaz çəkmə geyinmiş sərnişinlər də yerlərindən dəbərib palçığı şappıldatdılar; karet dayanan kimi onlar da dayanırdılar və bacardıqca yaxın dayanıb toplum halında hərəkət edirdilər. Əgər o üç nəfərdən biri cəsarətli tərpənib yol yoldaşlarından hansınasa zülmətə qərq olmuş dumanın içinə tərəf bir addım atmasını təklif etsəydi, soyğunçu kimi dərhal yerindəcə güllələnərdi.

Sonuncu cəhd və budur, poçt kareti artıq təpənin zirvəsindədir. Atlar dayanıb nəfəslərini dərdilər, mühafizəçi düşüb eniş üçün əyləcləri nizama saldı, karetin qapılarını açdı ki, sərnişinlər keçib içəridə otursunlar.

– S-s-s! Co! – faytonçu oturduğu yerdən aşağı baxıb həyəcanla dedi.

– Nə olub, Tom?

Hər ikisi qulaq kəsilib dinşədi.

– Bu tərəfə gələn at səsidir, Co.

– Məncə, at çaparaq gəlir, Tom. – Mühafizəçi əlini faytonun qapısından çəkib cəld öz yerinə keçdi. – Centlmenlər! Kralın naminə! Hamı bir nəfər kimi!

Mühafizəçi andiçmə mərasimini tez yekunlaşdırıb tüfəngin tətiyini geriyə çəkdi, döyüşə hazır vəziyyətdə dayandı.

Haqqında danışdığımız sərnişin həmin anda faytonun pilləkənindəydi, başını aşağı əyib içəri keçmək istəyirdi, o biri iki sərnişinsə lap yaxında dayanıb öz növbəsini gözləyirdi. Pilləkəndəki sərnişin bədəninin yarısı faytonun içində, yarısı da bayırda olmaqla yerindəcə donub-qaldı, digər iki sərnişinsə ondan aşağıda – yolun içində dayanmışdı. Sərnişinlər üçü də faytonçuya, mühafizəçiyə baxdı, eyni zamanda həm də qulaq kəsilib dinşədilər. Faytonçu çevrilib geri baxdı, mühafizəçi də çevrilib arxa-

ya boylandı, hətta yoxuşu qalxmaq istəməyən gahgir at da qulaqlarını şəkləyib geriyə çevrildi, amma etiraz eləyib mübahisəyə girişmədi.

Taqqataraqla səs salıb gedən faytonun dayanmasından sonra yaranmış sakitlik gecənin sükutuna qarışıb əsl sükuta çevrildi. Təngnəfəs olmuş atlar nəfəs alıb-verdikcə fayton da titrəyirdi və elə təsəvvür yaranırdı ki, qorxudan əsməcəyə düşüb. Sərnişinlərin ürək döyüntülərini eşitmək elə də çətin deyildi; amma, hər halda, nəfəsini çəkib həyəcan içində dayanaraq nəsə gözləyən adamın ürəyi daha şiddətlə döyünür.

Yoxuşu çaparaq birnəfəsə qalxan at ayağının tappıltıları təpənin üstündən eşidildi.

– Ey, eşidirsən? – mühafizəçi var gücüylə qışqırdı. – Orada kimdir? Dayan! Atəş açacağam!

At dayandı, amma palçıqlı yolda ayaqlarını götürüb-qoyaraq şappıltı saldı, dumanın içindən gələn kişi səsi eşidildi:

– Bu, Duvr poçtudur?

– Nəyinə lazımdır? – mühafizəçi dedi. – Sən özün kimsən?

– Duvr poçtudur bu?

– Nə demək istəyirsən?

– Əgər Duvr poçtudursa, orada bir sərnişin olmalıdır, mənə o lazımdır.

– Hansı sərnişin?

– Mister Carvis Lorri.

Artıq bizə tanış olan sərnişin bildirdi ki, adı soruşulan adam odur. Mühafizəçi, faytonçu və o biri iki sərnişin şübhəylə ona baxdılar.

– Yerindən tərpənmə! – mühafizəçi dumanın içindən gələn səsə tərəf qışqırdı. – Əgər indi mən bir balaca səhv eləsəm, sənin üçün heç də yaxşı olmayacaq. Özünü Lorri kimi təqdim edən centlmen, cavab verin.

– Nə olub? – sərnişin soruşdu, sonra da titrəyən yumşaq səslə dedi: – Məni soruşan kimdir? Cerri, sənsən?

Mühafizəçi öz-özünə deyinib dedi: "Bu Cerrinin səsi heç xoşuma gəlmədi. Elə xırıldayır, adamın əti ürpəşir".

– Mənəm, mister Lorri.

– Nədir yenə, nə olub?

– Sizə təcili məktub var. Məni Tellson Bankdan göndərdilər.

– Mən bu adamı tanıyıram, – mister Lorri mühafizəçiyə müraciətlə dedi, pilləkəndən aşağı düşüb yolda dayandı; digər iki sərnişin bu vaxt ona nəzakətlə olmasa da, tələsik kömək elədilər, dərhal da faytonun

içinə girib qapını bağladılar, pəncərəni qaldırıb örtdülər. – Qorxulu bir şey yoxdur, ona icazə verin yaxına gəlsin.

– Bəlkə də, qorxulu heç nə yoxdur. Amma mən siz deyən kimi eləyə bilmərəm; hər adamın sözünə inanmaq olmaz, – mühafizəçi öz kobud monoloqunu yekunlaşdırdı. – Ey, eşidirsən?

– Eşidirəm! Siz necə, mənim səsimi eşidirsiniz? – Cerri xırıltısı bir az da artmış səslə dedi.

– Addım-addım gəl! Eşitdin nə dedim? Yəhərdə silahın varsa, əlini o tərəfə uzatma. Yoxsa mən səhvə yol verərəm, sənə də yaxşı olmaz. Hə, indi çıx görüm kimsən!

Duman burulğanının içindən at və atın üstündə oturmuş insana oxşayan bir qaraltı çıxdı, poçt karetindən düşüb yerdə gözləyən sərnişinə tərəf yaxınlaşdı. Süvari atı saxladı, gözünü mühafizəçidən çəkmədən əlində tutduğu kağızı sərnişinə verdi. At qan-tərə batmışdı, atı da, süvarini də elə bil palçığa batırıb çıxartmışdın.

– Mühafizəçi! – sərnişin işgüzar əminliklə sakitcə dedi.

Yuxarı qaldırılmış tüfəngin lüləsindən sol əliylə, tətiyindən isə sağ əliylə tutmuş sayıq mühafizəçi gözünü süvaridən çəkmədən qısa danışdı:

– Bəli, ser.

– Burada qorxulu heç nə yoxdur. Mən Tellson Bankda işləyirəm. Siz, yəqin, Londonda Tellson Bankı tanıyırsınız. Mən indi işlə əlaqədar olaraq Parisə gedirəm. Bu kronu da çaypulu verirəm. Kağızı oxuya bilərəm?

– Oxuyun, ser, amma cəld olun.

Sərnişin kağızı faytonun fənərinə yaxın tutub əvvəlcə ürəyində oxudu, sonra bərkdən dedi:

– Burada yazılıb: "Duvrda ləngiyib madmazeli gözləyir". Hə, gördünüzmü, mühafizəçi, bir göz qırpımında məsələni həll elədik. Cerri, mənim cavabımı olduğu kimi onlara çatdır: "Həyata qaytarılmışdır".

Cerri yəhərdə qurcalandı, xırıltılı səslə dedi:

– Nəsə çox qəribə cavabdır.

– Sən elə bu cür də deyərsən, onlar özləri biləcəklər ki, mən məktubu almışam. Yolçu yolda gərək, yaxşı yol. Gecən xeyrə qalsın.

Sərnişin sözünü tamamlayıb faytonun qapısını açdı, içəri daxil oldu; amma bu dəfə o biri iki sərnişindən heç biri ona kömək eləmədi, çünki bu müddət ərzində onlar tez-tələsik pul kisələrini və saatlarını

çəkmələrinin boğazında gizləyib gözlərini yumaraq özlərini yuxuya vurmuşdular. İndi onları yalnız bir şey düşündürürdü: təki sağ-salamat qurtarıb gedə biləydilər.

Fayton taqqıldayıb yola düşdü, hər tərəfdən onları bürüyən sıx duman təpədən aşağı endikcə sıxlaşırdı. Mühafizəçi tüfəngi silah yeşiyinə qoydu, oradakı digər silahların yerində olub-olmadığıyla maraqlandı, toqqasından asdığı ehtiyat tapançaları yoxladı, lap axırda isə oturacağın altındakı sandıqçada saxlanılan dəmirçi alətlərini, fakelləri, çaxmaqdaşını yoxlayıb baxdı ki, görsün hər şey yerindədirmi. Bütün bu ləvazimat ona görə lazım idi ki, çox pis havada əgər külək fənərləri söndürsəydi, – belə hadisə dəfələrlə olmuşdu, – onda gözətçi faytonun içində gizlənərək çaxmaqdaşı və tezalışan materialın köməyi ilə cəmi dörd-beş dəqiqə ərzində (əlbəttə, əgər bəxti gətirsə) od əldə edib fənəri yandıra bilərdi; amma ehtiyatlı olmalıydı ki, qığılcım samana düşüb yanğın törətməsin.

Arf 309329

– Tom! – mühafizəçi faytonun üstündən faytonçunu yavaşca səslədi.

– Nədir, Co?

– Sən onun cavabını eşitdin?

– Eşitdim, Co.

– Bir şey başa düşdünmü, Tom?

– Heç nə başa düşmədim, Co.

– Deyirəm işə bax, – mühafizəçi təəccübünü bildirdi, – mən də heç nə başa düşmədim.

Dumanlı, qaranlıq havada gecə vaxtı tək qalmış Cerri atdan düşdü və tək ona görə yox ki yorulub əldən düşmüş at nəfəsini dərib özünə gəlsin, həm də ona görə ki üz-gözünə suvanmış palçığı silsin, üstündə az qala yarım qallon su yığılıb qalmış şlyapasını silkələyib təmizləsin. Atın yüyənini zığ-palçığa bulaşmış qoluna dolayıb xeyli dayandı, fayton uzaqlaşıb təkərlərin səsi tamamilə eşidilməz olandan, hər tərəfə əsl gecə sükutu çökəndən sonra çevrilib təpədən aşağı enməyə başladı. Madyanı nəzərdən keçirib dedi: "Templ Bardan burayacan dördəmə çaparaq gələndən sonra mən səni ancaq düzənliyə çıxanda minə bilərəm, qoca ledi; sənin qabaq ayaqlarına cavabdeh deyiləm. Hələ bir sözə bax: "Həyata qaytarılmışdır". Qəribə cavabdır. Bunun sənə bir xeyri olmayacaq, Cerri. Mən sənə söz deyirəm, Cerri. O dünyadakıları həyata qaytarmaq dəbə düşsə, heç bilmirəm bu işlərin axırı necə olacaq, Cerri".

Azərbaycan Milli Kitabxanası

III fəsil

GECƏ KÖLGƏLƏRİ

Ən çox təəccüb doğuran fakt ondan ibarətdir ki, hər bir insan digər insanlar üçün, sözün həqiqi mənasında, anlaşılması mümkün olmayan müəmma və sirlərlə dolu olan bir dünya olaraq qalmaqdadır. Hər dəfə gecə vaxtı böyük şəhərə daxil olanda fikirləşirəm ki, bir yerə toplaşmış qaranlıq evlərin toplusu olan hər kvartalın, hər evin öz gizli sirri var, o şəhərdə döyünən yüz minlərlə ürəyin hər birinin öz sirri var və o sirr o ürəyə ən yaxın olan ürək üçün də həmişə sirr olaraq qalacaqdır, – belə fikirləşirəm və mənə elə gəlir ki, bu, ölümün özüylə müqayisə olunacaq dərəcədə dəhşətlidir. Çox sevdiyim bu kitabın səhifələrini artıq vərəqləyə bilmirəm, özümü aldadıb nahaq yerə ümid edirəm ki, nə vaxtsa mən onu başdan-ayağacan oxuyacağam. O dibsiz dəryanın dərinliklərini artıq görə bilmirəm, yalnız bircə anlığa düşən işıqda isə orada dəfn olunmuş dəfinələr və başqa şeylər dəymişdi gözümə. Sən demə, əvvəlcədən müəyyən olunduğu kimi, mən o kitabın birinci səhifəsini oxuyub başa çatan kimi dərhal da örtülməliymiş, özü də həmişəlik. Sən demə, heç nədən şübhələnməyərək mən sahildə dayanıb üstündə şəfəqlərin oynaşdığı suları seyr etdiyim vaxt qəflətən o donub əbədi buzlaq altında qalmalıymış. Mənim dostum ölüb, qonşum ölüb, dünyalar qədər sevdiyim əziz sevgilim ölüb; heç vaxt açılmayacağı insafsızcasına təsdiq olunub möhürlənmiş o sirri hər kəs içində saxlayıb özüylə gəzdirir, mən də gəzdirirəm, ölənəcən də gəzdirəcəyəm. Şəhər qəbiristanlığının yanından ötüb-keçəndə fikirləşirəm ki, görəsən, burada uyuyan ölülər özləri, yoxsa bu şəhərin diri sakinləri mənim üçün və mən də onlar üçün daha anlaşılmaz sirr ola bilərik?

Eynilə kral kimi, dövlət naziri kimi, Londonun ən varlı taciri kimi, poçt karetinə məktub çatdıran çapar da təbiətin verdiyi və hər bir insanın atributu olan o xüsusiyyətə malik idi. Köhnə poçt karetinin darısqal kabinəsində oturmuş üç sərnişin də eləydi: onların hər biri o birilər üçün elə anlaşılmaz sirr idi, sanki hər kəs öz faytonunda altı nəfərlə, yaxud öz faytonunda altmış nəfərlə gedirdi və onu ən yaxın yol yoldaşından böyük bir qraflığın ərazisi ayırırdı.

Çapar geri qayıdanda tələsmədən gedirdi, hərdən yolüstü ayaq saxlayıb yaxındakı yeməkxanaya girir, bir balaca içirdi, amma kiminləsə söhbət eləməyə əsla həvəs göstərmirdi, hətta tanınmasın deyə şlyapasını gözünün üstünə endirmişdi. Onun gözləri xarici görkəminə çox uyğun idi: qara gözlərində dərinlik yox idi, amma bir-birinə o qədər yaxın idi, sanki azca aralanacaqları təqdirdə təklənib ələ keçəcəklərindən qorxurdular. Tüpürcəkqabına oxşayan üçbucaqşəkilli, köhnə şlyapanın altından və bir ucu sahibinin dizinəcən sallanan, o biri ucu isə çənəylə boğaza bağlanmış şərfin üstündən baxan o gözlərdən qəzəb yağırdı. Yolüstü dayanıb boğazını yaşlayanda sol əliylə şərfi aşağı endirir, sağ əlində tutduğu stəkanı qarnına boşaldırdı, dərhal da şərfi əvvəlki yerinə qaytarırdı.

– Yox, Cerri, yox! – çapar ayağa qalxanda hələ də onu sakit buraxmayan mövzu ətrafında fikirləşərək öz-özünə dedi. – Bu, yaxşı iş deyil, Cerri. Cerri, sən namuslu, zəhmətkeş adamsan, belə şeylər sənə yaraşmır. Qaytarılmış... Kim nə deyirsə desin, o, kefliydi!

Mister Lorrinin cavabı ona elə təsir eləmişdi ki, artıq neçənci dəfəydi şlyapasını çıxardıb başını qaşıyırdı. Başının keçəlləşmiş ortasından başqa, kəllənin hər yeri yastı və enli burnunun kökündən başlayaraq bitmiş qara, sərt tüklərlə örtülmüşdü; bu sanki bir dəmirçi işiydi, çünki tüklü başdan çox diş-diş, kələ-kötür divara oxşayırdı, hətta ən mahir eşşəkbeli oyunçusu da bu cür sərt maneələri dəf eləyə bilməzdi.

Çapar tələsmədən geri qayıdırdı ki, cavabı Templ Barın yaxınlığında, Tellson Bankın qapısındakı köşkdə dayanmış gözətçiyə çatdırsın və o da öz növbəsində daha yüksək vəzifəli rəislərə çatdırsın; gecə kölgələri onun xəyalında elə formalar alırdı ki, sanki onlar həmin o müəmmalı cavabdan törəyirdi. Madyana gəlincə, gecə kölgələri onun öz içindəki qorxudan əmələ gəlirdi; kölgələr o qədər çox idi ki, yoldakı hər qaraltı atı qorxudub diksindirirdi.

Kabinəsində bir-birinə yad, həm də bir-birindən çox uzaq üç adam olan poçt kareti silkələnib taqqataraq sala-sala uzun və darıxdırıcı yolla gedirdi. Gecə kölgələri onların da yuxulu gözlərinə görünürdü, yorğun xəyallarında canlanırdı.

Sərnişinlərdən biri – Tellson Bankın işçisi əlini dəri bağlamanın içinə soxmuşdu, fayton bərk silkələnəndə bağlama onu yaxın qonşusu olan sərnişinlə toqquşmaqdan qoruyurdu, fayton atılıb-düşəndə isə yerində saxlayırdı; gözləri yarıyumulu olan sərnişinin başı oturduğu yerdə enib-qalxırdı, faytonun kiçik pəncərəsi, fənərdən içəri düşən solğun işıq və qarşı tərəfdə oturmuş sərnişinin iri gövdəsi birdən-birə banka çevrildi, dərhal da orada işgüzar həyat qaynamağa başladı, – Tellson Bank poçt karetindəki kölgələrə təsir edirdi. Qoşqu ləvazimatının cingiltisi pulların cingiltisinə çevrildi, cəmi beş dəqiqə ərzində yerinə yetirilən bank əməliyyatları zamanı Tellson Bankın ödədiyi pulların miqdarı ölkə daxilindəki və ölkədən xaricdəki əlaqələr hesabına mümkün olan bütün ödəmələrin cəmini də dəfələrlə üstələdi. Sonra sərnişinin gözləri qarşısında Tellson Bankın zirzəmisindəki dəmir seyflərdə saxlanılan qiymətli şeylər, böyük var-dövlət canlandı, – sərnişin artıq o barədə bəzi şeylər bilirdi, amma bu özü də az deyildi; indi o bir əlində iri açarlar, o biri əlində isə zəif işıq salan şam tutub zirzəmidəki şeyflərin, sandıqların arasıyla gəzir və görürdü ki, axırıncı dəfə orada olarkən gördüyü kimi hər şey salamatdır, hər şey öz yerindədir.

Onu bankla bağlı ən müxtəlif görüntülər izləməkdəydi, o görüntülərdə fayton da var idi, amma xeyli solğun idi (sanki keyləşdirici vasitənin köməyi ilə zəifləmiş ağrıydı); üstəlik buraya başqa hisslərin axını da qoşulmuşdu: sən demə, o gedirdi ki, kimisə qazıb qəbirdən çıxartsın.

Gözləri qarşısında canlanmaqda olan çoxsaylı sifətlərin hansının dəfn olunan adama məxsus olduğunu isə gecə kölgələri demir, sirr olaraq saxlayırdı; hamısı 45 yaşlarında kişi sifətləriydi, amma müxtəlif hisslər ifadə edirdilər, çöhrələrinə həkk olunmuş yorğunluq, üzgünlük də hərəsində bir cür idi və fərqləri də bundan ibarət idi. Qürur, nifrət, lovğalıq, inadkarlıq, mütilik, şikayət – bu hisslər o sifətlərdə bir-birini əvəz edirdi, dərhal sümüyü çıxmış yanaq, torpaq rənginə çalan solğun dəri, qurumuş əl və bir dəri, bir sümük qalmış bədən də dəyişirdi. Əsasən, eyni bir sifət idi, başlar müxtəlif idi, hamısı da vaxtından əvvəl

ağarmışdı. Mürgüləməkdə olan sərnişin, bəlkə də, yüzüncü dəfəydi o kölgələrdən soruşurdu:

– Çoxdan dəfn olunmusunuz?

Həmişə də eyni cavabı alırdı:

– On səkkiz ildir.

– Yəqin ki, nə vaxtsa qazılıb çıxarılacağınızla bağlı ümidinizi itirmişdiniz, eləmi?

– Çoxdan.

– Xəbəriniz varmı ki, sizi həyata qaytarıblar?

– Onlar mənə deyiblər.

– Yaşamaq istəyirsinizmi?

– Heç nə deyə bilmərəm.

Qazır, qazır, qazır... O qədər qazır ki, nəhayət, iki sərnişindən birinin səbirsizliklə qurcuxması onu məcbur edir ki, pəncərəni bağlasın. Sonra əlini dəri bağlamanın içinə soxaraq mürgü döyən iki sərnişinin qaraltısına baxa-baxa xeyli fikirləşir, nəhayət, fikri yayınır, yenidən bank barədə, məzar barədə düşünür.

– Çoxdan dəfn olunmusunuz?

– On səkkiz ildir.

– Yəqin ki, nə vaxtsa qazılıb çıxarılacağınızla bağlı ümidinizi itirmişdiniz, eləmi?

– Çoxdan.

Bu sözləri elə aydın eşidirdi, sanki belə bir söhbət həqiqətən də olmuşdu və elə bu vaxt yorğun sərnişin üzünə düşən gündüz işığından diksinib ayıldı, gördü ki, gecə kölgələri yoxdur.

Sərnişin pəncərəni açıb üfüqdən yuxarı qalxmaqda olan günəşə baxdı. Şumlanmış torpaq sahəsində kotanın açdığı şırımlar görünürdü, kotan da şumdaydı – onu dünən axşam atları qoşqudan açandan sonra elə orada qoyub getmişdilər; şumun arxa tərəfində sakit pöhrəlik görünürdü, qızarmış, saralmış xeyli yarpaq hələ də ağacların üstündə qalırdı. Torpaq soyuq və yaş olsa da, göy üzü təmiz idi; parlaq günəş üfüqdən sakitcə qalxır, ətrafa işıq saçırdı.

– On səkkiz il! – sərnişin günəşə baxa-baxa dedi. – Böyük Yaradan! On səkkiz il diri-diri dəfn olunasan!

IV fəsil

HAZIRLIQ

Günortaya qalmış poçt kareti Duvra çatanda "Kral Corc" hotelinin baş xidmətçisi, adəti üzrə, faytonun qapısını özü açdı; bunu o, xüsusi təmtəraqla elədi, çünki qış vaxtı poçt karetində Londondan Duvra gəlmək asan məsələ deyildi, hətta bu münasibətlə romantik səyahətçini təbrik etməyə dəyərdi.

Həmin vaxt faytonda çətin səyahətin başa çatması münasibətilə təbrik edilməli olan bir sərnişin qalmışdı, o biri iki sərnişin hotelə çatmamış poçt karetini başqa yerdə tərk etmişdi. Faytonun qaranlıq kabinəsi içinə iyrənc qoxulu, nəm və çirkli küləş döşənmiş böyük it damına oxşayırdı. Faytondan çıxıb silkələnərək üst-başına yapışmış küləşi təmizləməkdə olan yeganə sərnişin – mister Lorri isə öz tüklü bürüncəyi, qulaqları yellənən şlyapası və palçıqlı çəkmələriylə kifayət qədər böyük olan itə oxşayırdı.

– Xidmətçi, necə bilirsiniz, sabah Kaleyə gəmi olacaqmı?

– Bəli, ser, əgər hava düzəlsə, səmt küləyi əssə, olacaq. Suyun çəkilməsi günortadan sonra saat 2-də başlayacaq, ser. Yatağınızı hazırlayımmı, ser?

– Gecə yatacağam, amma mənə yataq otağı və dəllək lazım olacaq.

– Sonra da səhər yeməyi yeyəcəksiniz, eləmi, ser? Oldu, ser. Buyurun, ser, bu tərəfdən gəlin. Konkordu göstərin! Centlmenin çamadanını Konkorda aparın, oraya isti su verin. Centlmenin çəkmələrini Konkordda çıxardın. (Otağınız əla qızdırılıb, ser). Konkorda dəllək göndərin. Bir az cəld olun, Konkorda nə lazımdır göndərin!

Hoteldə "Konkord" adlanan otaq poçt karetiylə gələn sərnişinlər üçün ayrılmışdı, o sərnişinlər isə, bir qayda olaraq, altdan-üstdən bərk-

bərk geyinib təpədən-dırnağacan bürünmüş olurdular; bu otaq "Kral Corc" hoteli üçün xüsusi maraq kəsb edirdi, çünki oraya daxil olan müştərilərin, demək olar ki, hamısı görkəmcə bir-birinə oxşasa da, oradan çıxanlar tamamilə fərqli adamlar olurdu. Ona görə də əyninə lap təzə olmasa da, kifayət qədər abırlı görünən, cibləri qatlama qapaqlı, kvadratvarı manjetli, qəhvəyi rəngli kostyum geyinmiş 60 yaşlarında centlmen Konkorddan çıxıb səhər yeməyi üçün bufetə gedəndə xidmətçilərdən biri, dəhliz növbətçilərindən ikisi, bir neçə digər xidmətçi qız və qadın dəhlizin müxtəlif yerlərində vurnuxurdular.

Həmin gün səhər yeməyi vaxtı bufetdə qəhvəyi rəngli kostyum geyinmiş centlmendən başqa, ayrı bir müştəri yox idi. Centlmenin səhər yeməyi süfrəsi sobaya yaxın olan stolda açılmışdı, üzünə düşən işıqda əyləşib yemək gözlədiyi vaxt o elə sakit görünürdü, sanki portret çəkdirmək üçün rəssam qarşısında oturmuşdu.

Əllərini dizlərinin üstünə qoyub oturmuş centlmen çox ədəb-ərkanlı, intizamlı görünürdü, onun qatlama yaxalıqlı jiletinin altındakı cib saatı bərkdən səs salıb elə çıqqıldayırdı, sanki zamanın ciddiyyəti və əbədiliyini sevincək çartıltıyla yanan ocağın yüngülməzaclığı və keçiciliyi ilə müqayisə edirdi. Yaxşı materialdan toxunmuş, dizəcən çəkilərək kip oturmuş qəhvəyi rəngli corablardan, eləcə də qotazlı, qəşəng, amma sadə ayaqqabılardan bilinirdi ki, centlmen öz yaraşıqlı ayaqlarıyla, belə demək mümkünsə, bir balaca öyünür də. Saman rənginə çalan parıltılı, sığallı qəribə parik balacaydı deyə centlmenin başına kip oturmuşdu; parik, çox güman ki, tükdən hazırlanmışdı, amma adama elə gəlirdi ki, ipəkdən, ya da şüşədən düzəldilib. Əynindəki köynək isə corabları kimi zərif olmasa da, yaxınlıqdakı dənizin dalğaları sahilə çırpılarkən əmələ gələn köpük kimi, yaxud uzaqda görünən qayığın günəş şüaları altında parıldayan yelkəni kimi ağappaq idi. Parikin altından, bir qayda olaraq, tutqun və sakit görünən sifəti nəm gözlərin parıltısından işıqlanırdı; illər keçdikcə böyük əzablar bahasına olsa da, sahibi o gözləri Tellson Bank işçisinə xas olan sakit ciddiyyətə alışdıra bilmişdi. Yanaqlarında sağlam qızartı var idi, qayğılar və yaşadığı həyəcanlı anlar üzündə qırış izləri də qoymuşdu. Tellson Bankın etibar qazanmış işçiləri, bir qayda olaraq, subay qocalır və ömrü boyu özgələrin problemiylə yaşayırlar, özgə dərdi də, məlumdur ki, özgə adamın paltarı kimidir, onu geyinə də bilərsən, soyuna da.

Portret çəkdirən adamlar kimi pozada oturub gözləyən mister Lorri yuxuya getdi. Səhər yeməyi gətiriləndə isə ayıldı və stulunu qabağa çəkərək xidmətçiyə dedi:

– Mən sizdən xahiş edirəm, gənc ledi üçün otaq hazırlayasınız. Dəqiq vaxtını bilmirəm, amma bu gün gələcək və mister Carvis Lorrini soruşacaq; ola da bilər ki, Tellson Bankda işləyən centlmeni soruşsun. Xahiş edirəm, dərhal mənə xəbər verəsiniz.

– Baş üstə, ser. Londondakı Tellson Bankı deyirsiniz?

– Bəli.

– Baş üstə, ser. Biz Parisdən Londona və əks-istiqamətdə səfərə çıxan centlmenləri qəbul etmək şərəfinə tez-tez nail oluruq, ser. Tellson Bankdan və kompaniyadan bu cür səfərlərə çıxanlar çoxdur, ser.

– Elə də olmalıdır, çünki biz həm ingilis, həm də fransız bankıyıq.

– Elədir, ser. Siz özünüz, yəqin ki, bu cür səfərlərdə az olursunuz, elədirmi, ser?

– Son illər belə səfərim olmayıb. Axırıncı dəfə biz, daha doğrusu, mən Fransada on beş il əvvəl olmuşam.

– Doğrudanmı, ser? O vaxt mən burada işləmirdim. Buradakı adamlardan əvvəl olub. O vaxt bu hotel başqa adamların əlindəydi.

– Yəqin ki, elədir.

– Amma mərc gələ bilərəm ki, Tellson Bank və kompaniya nəinki on beş il əvvəl, hətta əlli il əvvəl də çiçəklənmə dövrünü yaşayırdı, elədirmi, ser?

– Siz rəqəmləri üçqat artırıb yüz əlli il də desəniz, burada heç bir şişirtmə olmayacaq.

– Həqiqətən elədir, ser!

Ağzını açaraq gözünü bərəltmiş xidmətçi bir addım stoldan kənara çəkildi, sağ biləyinin üstündəki dəsmalı sol biləyinin üstünə sərdi, müşahidə qülləsində dayanıb baxan gözətçi kimi yerini rahladı və qonaq yeyib-içməklə məşğul olduğu müddətdə ondan gözünü çəkmədi, – həmişə belə olub, xidmətçi peşəsinin əsas cəhətlərindən biri də budur.

Səhər yeməyindən sonra mister Lorri dəniz kənarında gəzməyə getdi. Əyri xətt boyunca uzanan balaca, darısqal Duvr şəhəri sahildən xeyli aralı, dalda bir yerdəydi; şəhərin o biri başı gedib təbaşir qayalığına dirənirdi və bu görkəmlə o, dəvəquşuna oxşayırdı. Dəniz daş qalaqlarını sahildə dəli kimi ora-bura ataraq tüğyan eləyirdi; o hər şeyi uçurub-dağıtmaq istəyirdi – nə bilirdi onu da eləyirdi. Dəniz quruldayıb şəhərə tərəf cumurdu, qayalara çırpılırdı, sahildə qarşısına çıxan hər şeyi yerlə yeksan edirdi. Evlərin arasında balıq qoxusu elə tünd idi, adam istər-istəməz fikirləşirdi ki, yəqin, xəstə insan dənizə girdiyi kimi, xəstə balıq da gəlib burada özünü havaya verir. Çox adam gecə vaxtı, əsasən də su qabarıb sahili basanda buralarda gəzib-dolaşır, dənizə tərəf baxırdı. Ticarətdə əli gətirməyən xırda biznesmenlərin bir də görürdün bəxti gətirdi: hansı yollasa yaxşı qazanc əldə elədi; diqqətçəkən bir məqam da ondan ibarət idi ki, burada fənər ustalarından heç kimin xoşu gəlmirdi.

Günorta vaxtı hava açıq idi, arada hətta Fransa sahilləri də göründü, amma gün əyilib hava qaralmağa başlayanda nəmişlik artdı, yenə duman gəldi, sanki buna bənd imiş kimi mister Lorrinin fikirləri də dumanlanmağa başladı. Axşam düşüb hava qaralanda isə səhər yeməyi ərəfəsində olduğu kimi bufetdəki sobanın qarşısında oturub nahar yeməyi gözləyən mister Lorri yenə öz aləmindəydi: qazırdı, qazırdı, qazırdı; sobadakı qırmızı köz qalağını qazırdı.

Nahardan sonra bir şüşə Bordo çaxırı içmək sobadakı köz qalağını qazan adamın işinə əngəl törətməz, amma, bir qayda olaraq, işləmək həvəsini öldürə bilər. Mister Lorrinin boş-bikar oturub vaxt öldürməsi çox çəkdi, nəhayət, çaxırın qalığını süzüb badəsini sonuncu dəfə doldurdu və bu vaxt onun üzündə yaxşı qalmış yaşlı centlmenlər kimi butulkanın sonuna çatmaqdan məmnunluq hissi göründü, amma sonuncu badəni içməyə macal tapmadı, çünki elə həmin anda üzüyuxarı qalxan ensiz küçədən gələn fayton təkərlərinin taqqıltısı yaxınlaşıb hotelin həyətindən eşidildi. Mister Lorri dodağına yaxınlaşdırdığı badəni qaytarıb stolun üstünə qoydu və dedi: "Madmazel gəldi!"

Bir neçə dəqiqədən sonra xidmətçi daxil olub elan etdi ki, miss Manett Londondan gəlib, Tellson Bankdan olan centlmeni görmək istəyir.

– Belə tez?

Məlum oldu ki, miss Manett yolüstü yemək yeyib, ac deyil, amma çox istərdi, əlbəttə, əgər bu, mümkündürsə və narahatçılığa səbəb olmayacaqsa, vaxt itirmədən dərhal Tellson Bankı təmsil edən centlmenlə görüşsün.

Tellson Bankdan olan centlmen görəndə ki, getmək lazımdır, çıxılmaz vəziyyətdə qalmış adamlar sayağı biganəliklə axırıncı badəsini də

içdi, saman rənginə çalan balaca, qəribə pariki qulaqları tərəfdən aşağı dartıb düzəltdi və xidmətçiylə bərabər miss Manettin qaldığı otağa tərəf getdi. Miss Manettin otağı böyük olsa da, qaranlıq idi, otağı dəfn mərasimi üslubunda düzəldilmiş qara mebel bəzəyirdi, qara rəngli iri stollar darısqallıq yaradırdı. Stollar yağla silinib o qədər sürtülmüşdü ki, otağın ortasında qoyulmuş iki şamın işığı onların hər girinti-çıxıntısında əks olunurdu, elə təsəvvür yaranırdı ki, guya şamlar qırmızı ağacdan düzəldilmiş tabutda dəfn olunub və qazılıb qəbirdən çıxarılmayınca işıq elə bu cür də zəif olacaq.

Qaranlıq otaqda pis görən mister Lorri nimdaş türk xalçasının üstüylə gedə-gedə fikirləşdi ki, miss Manett, yəqin ki, qonşu otaqdadır, amma üstünə şam qoyulmuş stolun yanından keçərkən şamlarla sobanın arasında həsir şlyapanın lentindən yapışıb əlində tutmuş, səfər plaşını hələ də soyunmamış 17-18 yaşlarında gənc bir qızın ayaq üstə dayandığını və çox güman ki, onu gözlədiyini gördü. Mister Lorri balaca, zərif və gözəl insan fiqurunu, qızılı rəngli gur saçları, sual dolu baxışlarla onun gözünə baxan mavi gözləri, geniş alnı gördü (o anda həm də bu insanın necə gənc olduğunu da xatırladı) və orada heyrətamiz şəkildə əks olunan çaşqınlıq, təəccüb, həyəcan, yaxud, sadəcə, diqqət, ya da bəlkə, bunların hamısını birlikdə gördü; qəflətən də dənizin gurlayıb dalğalandığı, bərk dolu yağdığı soyuq bir gündə elə həmin bu La-Manş boğazını keçərkən qucağında tutduğu balaca uşaq gözünün qabağına gəldi. Gənc ledinin arxa tərəfindəki bədənnüma güzgünün çərçivəsində huri-qılmanlardan ibarət olan toplumun (hamısı da əlil, bəzilərinin hətta başı da yox idi) qadın cinsindən olan hansısa qaradərili Allaha qara səbətlərdə Ölü dənizin meyvələrini pay verdikləri mərasim təsvir olunmuşdu, – həmin güzgünün səthindəki nəfəs ləkəsi kimi, mister Lorrinin xəyalında canlanan görüntü də bir göz qırpımındaca silinib getdi və o baş əyib miss Manettlə salamlaşdı.

– Xahiş edirəm, əyləşin, ser, – deyən təmiz, gənc və ecazkar səsdə azacıq, sözün həqiqi mənasında, lap az hiss olunan xarici ləhcə var idi.

– Mən sizin əlinizi öpürəm, – mister Lorri keçmiş dövrün adamlarına xas olan nəzakətlə dedi, yenə ədəb-ərkanla baş əyib stulda əyləşdi.

– Mən dünən bankdan məktub almışam, ser, orada yazılıb ki, guya yeni nəsə bilmirəm...

– Hər deyilən sözə fikir vermək də olmaz, miss. Söz elə də vacib deyil.

– ... yazıq atamdan qalan kiçik miras barədədir; atam çoxdan ölüb, mən onun üzünü də görməmişəm.

Mister Lorri stulda qurcuxdu, həyəcanlı nəzərləri güzgünün çərçivəsindəki qaradərili huri-qılmanlara zillənib qaldı, – sanki vəziyyətdən çıxış yolunu onların gülünc səbətlərində axtarıb tapacaqdı.

– ... bu məsələ ilə əlaqədar olaraq Parisə gedirəm, məhz bu işə görə oraya gedərək bir centlmenlə görüşməliyəm.

– O adam mənəm.

– Mən də elə zənn edirdim, ser.

Miss Manett azca əyilib reverans elədi (o vaxt gənc ledilərdə bu bir qayda idi). Bununla da centlmenin yaşda ondan çox böyük və ağıllı olduğunu etiraf elədi. Mister Lorri yenə baş əydi.

– Mən banka cavab yazıb bildirdim ki, əgər bu işə bələd olan adamlar məndən öz məsləhətlərini əsirgəməyib Fransaya getməli olduğumun zəruriliyini deyirlərsə, gedəcəyəm, amma mən yetim və kimsəsiz bir qızam, elə bir dost-tanışım da yoxdur ki, məni müşayiət etsin, odur ki səfər boyu məni öz himayəsinə götürüb müşayiət etməyə razılıq vermiş o ləyaqətli centlmenə təşəkkürümü bildirirəm. O centlmen artıq Londondan çıxıb, amma, bildiyimə görə, onun dalınca adam göndərib xəbərdar ediblər ki, mərhəmət göstərib məni burada gözləsin.

– Çox xoşbəxtəm ki, bu iş mənə həvalə olunub; çalışıb yerinə yetirə bilsəm, daha da xoşbəxt olaram, – mister Lorri dedi.

– Mən sizdən çox razıyam, ser, təşəkkür edirəm. Sizə necə minnətdar olduğumu bildirmək üçün söz tapa bilmirəm. Bankdan yazmışdılar ki, o centlmen məsələnin bütün detallarını mənə izah edəcək, həm də bəzi gözlənilməz məqamlara da hazır olmaq lazımdır. Mən əlimdən gələni etmişəm ki, bu iş üçün hazırlaşım, eyni zamanda gözlənilməz məqamların nədən ibarət olduğunu da bilmək istərdim.

– Bu çox təbiidir, – mister Lorri dedi. – Bəli, ... mən...

Mister Lorri bir qədər fasilə verib xırçıldayan, saman rəngli parikini qulaqları tərəfdən dartıb düzəltdi, sonra əlavə etdi:

– Bu işin başlanğıcı çox çətindir.

Mister Lorri tərəddüd içində ləngiyib qıza baxdı, qız da ona baxdı. Gənc qızın alnı nəsə xüsusi, eyni zamanda gözəl və xarakterik olan

bir hissiyyatın təsiriylə yuxarı qalxdı, özündən asılı olmayaraq, əli də yuxarı elə qalxdı, sanki ötüb-keçməkdə olan hansısa kölgəni tutub saxladı.

– Siz, doğrudanmı, məni heç tanımırsınız, ser?

– Tanımıram? – Mister Lorri nəyisə sübut edirmiş kimi gülümsəyərək əllərini açıb qabağa uzatdı.

Qadınsayağı balaca burunla qaşların arasındakı incə, gözəl xətt hansısa güclü hissiyyatın təsiriylə bir qədər də dərinləşdi, bayaqdan bəri ayaq üstə dayanmış miss Manett fikirli halda stulu çəkib oturdu. Mister Lorri həmsöhbətinin çaşıb-qaldığını görürdü, qız növbəti dəfə başını qaldırıb ona baxanda dedi:

– Miss Manett, ikinci vətəniniz olan bu ölkədə mən sizə gənc bir ingilis ledisi kimi müraciət edə bilərəmmi?

– Buyurun, ser.

– Miss Manett, mən iş adamıyam. Öz üzərimə düşən vəzifəni yerinə yetirməliyəm. Hesab edin ki, mən bir danışan maşınam, dediklərimə münasibətiniz də elə olsun: sanki burada yoxam. İcazənizlə indi mən sizə müştərilərimizdən birinin başına gələn əhvalatı danışmaq istərdim.

– Əhvalat!

Mister Lorri öz ağzından çıxan sözün təkrar olunduğuna sanki qəsdən fikir verməyib tələsik əlavə elədi:

– Bəli, müştərinin. Bank işiylə bağlı əlaqə yaratdığımız adamları biz, adətən, müştəri adlandırırıq. O adam bir fransız centlmeniydi, çox savadlı adamdı, öz işini gözəl bilən yaxşı bir həkim idi.

– Bovedən deyildi ki?

– Bəli, Bovedən idi. Sizin atanız müsyö Manett kimi, o centlmen də boveliydi. Sizin atanız müsyö Manett kimi, o da Parisin tanınmış adamlarından idi və mən də onunla orada tanış olmuşdum. Bizim əlaqələrimiz işgüzar xarakterliydi; o adam mənə inanır, etibar edirdi. O vaxt mən bizim bankın fransız filialında işləyirdim; deyim də... Oh! İyirmi il əvvəl.

– İcazənizlə soruşa bilərəmmi, ser, o vaxt deyəndə siz hansı vaxtı nəzərdə tutursunuz?

– Mən iyirmi il əvvəlki vaxtdan danışıram, miss. O adam bir ingilis qızıyla evləndi. Mən onun müvəkkiliydim. Bir çox fransız centlmenləri və ailələri kimi, onun da bütün maliyyə məsələləriylə Tellson Bank

məşğul olurdu. Mən əvvəllər də, indinin özündə də müştərilərimizin bank hesablarıyla, maliyyə, eləcə də əmlak məsələləriylə bu və ya digər dərəcədə məşğul oluram. Bizim əlaqələrimiz təmiz biznes əlaqələridir, miss; burada dostluq söhbəti ola bilməz, şəxsi maraq da yoxdur, sentimentallıq və s. barədə danışmağa dəyməz. İşlədiyim dövrdə müştərinin biri o birini əvəz edirdi. Sözün qısası, heç bir hissiyyatım yox idi. Mən, sadəcə olaraq, bir maşınam, ölənəcən də belə olacağam.

– Bu mənim atamın başına gələn əhvalatdır, ser. – Qızın alnında maraq ifadə edən qırışlar əmələ gəldi. – Əvvəlcə atam, cəmi iki il sonra anam vəfat etdi, mən yetim qaldım. Hesab edirəm, hətta əminəm ki, o vaxt məni İngiltərəyə gətirən də siz olmusunuz.

Mister Lorri inamla ona tərəf uzanan, amma tərəddüd edən balaca əli öz əlinə alıb nəzakətlə dodaqlarına yaxınlaşdırdı. Sonra gənc ledinin təzədən qayıdıb stulda oturmasına kömək elədi, sol əliylə stolun arxasından tutub dayandı, sağ əliylə gah çənəsini qaşıdı, gah parikini qulağına tərəf dartıb düzəltdi, ya da dediyi sözə uyğun jestlər elədi. Qız dinməzcə oturub altdan-yuxarı ona baxırdı, o isə danışa-danışa yuxarıdan aşağı qıza baxırdı.

– Miss Manett, o adam mən idim. Siz özünüz də görürsünüz ki, müştərilərlə münasibətinin ancaq işgüzar xarakterli olduğunu, heç bir hissiyyatın olmadığını iddia edərkən şişirtməyə yol verməmişəm; hər halda, özünüz də şahidsiniz ki, o vaxtdan bəri sizi bir dəfə də görməmişəm. Amma yox; o vaxtdan bəri siz Tellson Bankın himayəsindəsiniz, mən isə bankın müxtəlif işlərini yerinə yetirməklə məşğulam. Hisslər! Mənim elə işlərə nə vaxtım olub, nə də imkanım. Ömrüm boyu ancaq nəhəng pul maşınını fırlatmaqla məşğul olmuşam.

Öz gündəlik iş rejiminin qəribə təsvirindən sonra mister Lorri başındakı saman rəngli pariki sığallayıb qaydaya saldı (bu isə heç lazım deyildi, çünki parik onsuz da sığallıydı və par-par parıldayırdı), sonra da əvvəlki pozada dayandı.

– Bu yerə qədər, miss (artıq özünüz də qeyd elədiyiniz kimi), əhvalat sizin bədbəxt atanızın başına gələnlə eynidir, amma sonrası fərqlidir. Əgər sizin atanız dəfn olunanda ölməmişdisə... Qorxmayın! Siz niyə diksindiniz?

Qız həqiqətən diksindi, mister Lorrinin biləyindən ikiəlli yapışdı.

– Allah xatirinə, – mister Lorri qızı sakitləşdirməyə çalışaraq sol əlini stolun söykənəcəyindən götürdü, biləyindən yapışıb yalvarışla titrəyən barmaqların üstünə qoydu, – xahiş edirəm, özünüzü ələ alın. Bu bir işgüzar söhbətdir. Artıq dediyim kimi...

Qız qorxu içində elə baxdı ki, kişi həyəcanlanıb susdu, çaşıb bir anlığa nə deyəcəyini bilmədi, sonra yenə sözünə davam elədi:

– Artıq dediyim kimi, əgər müsyö Manett ölməsəydi, sanki oğurlanıbmış kimi qəflətən sakitcə yoxa çıxsaydı, onun hansı dəhşətli məkana getdiyini ağıla gətirmək, hətta izinə düşmək belə mümkün olmasaydı, əgər öz həmvətənləri arasında çox imkanlı düşməni olsaydı (o vaxt bələləri barədə ən cəsarətlilər də nəsə bir söz deməyə qorxurdular) və o adam öz səlahiyyətlərindən istifadə edərək onun adını uzunmüddətli həbs cəzası almış məhbusların artıq kral tərəfindən imzalanıb təsdiq olunmuş siyahısına sonradan yazdırmaq yoluyla həbsxanaya salınmasına nail olsaydı, onun arvadı krala, kraliçaya, məhkəməyə, din xadimlərinə müraciət edib ərinin taleyi barədə nəsə öyrənmək üçün çox əlləşib-vuruşsa da, heç nəyə nail olmasaydı, – hər şey belə olsaydı, onda sizin atanızın başına gələnlər Bovedən olan bədbəxt centlmenin başına gələnlərlə eyni olardı.

– Sizə yalvarıram, ser, davam edin, danışın.

– Danışacağam. Amma bilmirəm siz axıracan məni dinləyə biləcəksinizmi?

– Hazırkı qeyri-müəyyənlikdən başqa hər şeyə dözərəm.

– Siz ağıllı adamsınız, özünüzü ələ almağı bacarırsınız. Bu çox yaxşıdır! (Əslində, onun sözləri hərəkətlərindən daha inamlı təsir bağışlayırdı). Biz işgüzar söhbət edirik, özü də elə bir məsələyə toxunuruq ki, onu həll etmək lazımdır. Deməli, doktorun arvadı çox cəsarətli və dözümlü adam olsa da, uşaq anadan olmamışdan əvvəl o qədər dəhşətli əzablar çəkib ki...

– O uşaq qız idimi, ser?

– Qız idi. Biz... biz işgüzar söhbət edirik, həyəcanlanmayın. Miss, deməli, yazıq qadın uşaq anadan olmamışdan əvvəl çox əzab çəkdiyi üçün qərara gəlib ki, övladını bu əzablardan qorusun, bu məqsədlə də onu inandırıb ki, atası yoxdur – ölüb. Yox, diz çökməyin! Allah xatirinə, elə eləməyin. Axı siz niyə mənim qarşımda diz çökməlisiniz?

– Həqiqət naminə. Xeyirxah, əziz və gözəl insan, həqiqət naminə!

– Biz işgüzar söhbət edirik. Siz məni həyəcanlandırırsınız; əgər mən həyəcanlıyamsa, işgüzar söhbət edə bilərəmmi? Gəlin ayıq başla danışaq. Məsələn, siz əgər doqquz dənə doqquz penslik neçə eləyər, yaxud 20 gineyada neçə şillinq olduğunu mənə deyə bilsəniz, bir xeyli sakitləşərdim. Mən sizə görə çox narahatam, çünki əhvalınız yaxşı deyil.

Qız bu müraciətə birbaşa cavab vermədən elə sakit oturdu ki, mister Lorri onu ayağa qaldıranda biləyindən yapışmış əllərin qətiyyətini, artıq titrəmədiyini görüb xeyli sakitləşdi.

– Hə, yaxşı, lap yaxşı. Cəsarətli olun! Qarşıda sizi çox işlər gözləyir, faydalı işlər gözləyir. Miss Manett, ananız bu addımı sizə görə atdı. O qadın uzun müddət atanızı axtarandan sonra öləndə – məncə, dərddən öldü – iki yaşınız var idi, siz atanızın uzun illər həbsxanada yatmaqdanmı, yoxsa azadlığa çıxmaq üçün cəhd edərkən öldürüldüyü barədə heç nə bilmədən xoşbəxt və qayğısız böyümüsünüz.

Belə deyib o, qızın qızılı saçlarına heyranlıq və təəssüflə elə baxdı, sanki onların vaxtından əvvəl ağara biləcəyi fikrindən diksinib qorxmuşdu.

– Bilirsiniz, valideynlərinizin əmlakı elə də böyük deyil, nə vardısa, ananızla sizə qalıb. Onlara məxsus olan daşınmaz əmlak, ya da pul vəsaiti barədə hələ ki yeni bir məlumat yoxdur, amma...

Həmin anda mister Lorri biləyinin bərk sıxıldığını hiss edib susdu. Qızın alnı onun diqqətini daha çox cəlb edirdi, indi də gördü ki, orada donmuş kimi görünən ifadə dərinləşib ağrı və dəhşətə çevrildi.

– Atanız tapılıb; o ölməyib, sağdır. Olsun ki, çox dəyişib, bəlkə də, elə üzülüb əldən düşüb ki, quru nəfəsi qalıb; amma, hər halda, ümid edək ki, vəziyyət lap pis də deyil. Hələ ki sağdır. Onu keçmiş qulluqçularından birinin Parisdəki evinə aparıblar, biz də indi ora gedirik: mən gedirəm ki, görüm onu tanıya biləcəyəmmi, siz isə onu öz qayğınızla, məhəbbətinizlə rahatlığa və həyata qaytarmağa gedirsiniz.

Qızın bədənindən bir titrəmə keçdi; bu, mister Lorriyə sirayət edib onu da titrətdi. Qız qorxu və dəhşət içində yavaşdan, amma anlaşılan bir pıçıltıyla, sanki yuxu görürmüş kimi danışaraq dedi:

– Mən kölgə görəcəyəm! Orada onun özü olmayacaq, kölgəsi olacaq!

Mister Lorri biləyindən yapışıb sıxan əlləri yavaşca sığalladı.

– Hə, yaxşı, sakit olun! Özünüzü ələ alın! Yaxşı da, pis də nə varsa, hamısı artıq sizə məlumdur. Siz indi nahaq yerə incidilmiş bir centlmenin yanına gedirsiniz; sizi yaxşı bir dəniz səyahəti gözləyir, sonra quru yolla gedəcəksiniz, tezliklə də əziz adamın yanında olacaqsınız.

Qız eynilə bayaqkı kimi pıçıldayıb dedi:

– Mən azad idim, xoşbəxt idim; onun kölgəsi də məni narahat eləmirdi!

– Onu da deməliyəm ki, – mister Lorri qızın diqqətini cəlb etmək üçün xüsusi bir gərginliklə dedi, – o, başqa ad altında yaşayır, əvvəlki adı çoxdan unudulub, ya da bəlkə, gizli saxlanılır. Niyə belə olub, bu illər ərzində ona necə baxıblar, niyə qəsdən həsbxanaya salıblar? Bu suallara cavab axtarmaq indi mənasızdır, xeyirdən çox ziyan gətirə bilər, hətta deyərdim ki, təhlükəlidir. Yaxşısı budur ki, bu barədə heç vaxt heç kimə heç nə deyilməsin; hər ehtimala qarşı, müvəqqəti də olsa, onu Fransadan kənara çıxartmaq lazımdır. İngiltərə vətəndaşı kimi məni heç bir təhlükə gözləməsə də, Tellson Bank Fransa dövlətinə kredit verdiyi üçün böyük avtoritetə malik olsa da, biz bu işlə əlaqədar olaraq kiminsə adını çəkməyi lazım bilmirik. Mənim əlimdə məsələnin mahiyyətinə birbaşa aidiyyəti olan heç bir sənəd yoxdur. Bu xidmət tam məxfidir. Mənim mandatlarım, yaddaş üçün etdiyim qeydlərin hamısının bir ümumi adı var: "Həyata qaytarılmışdır". Bu da çox mənada yozula bilər. Bu nədir? Qız heç nə eşitmir! Miss Manett!

Miss Manett əsla dinib-danışmadan, stulun arxasına söykənmədən yalnız mister Lorrinin biləyindən yapışaraq, tam hərəkətsiz, huşunu itirmiş halda yerindəcə donub-qalmışdı; açıq qalmış gözləri altdan-yuxarı baxırdı, alnında axırıncı dəfə ifadə olunan dəhşət isə qazmaqla, ya da yandırmaqla həkk olunubmuş kimi silinib getmirdi. Əllərilə tutduğu biləyi qız elə bərk sıxırdı, mister Lorri ona xəsarət yetirmədən qolunu xilas edə bilməyəcəyini görüb yerindən tərpənmədi, bərkdən qışqırıb köməyə adam çağırdı.

Mister Lorri nə qədər həyəcanlı olsa da, gördü ki, başına qrenader papağına, ya da "Stilton" pendirinin böyük parçasına oxşayan qəşəng şlyapa qoymuş, əyninə kip oturmuş qəribə paltarda, saçı qırmızı, bütövlükdə özü də qırmızı rəngdə olan dəlisov görkəmli bir qadın hotel xidmətçilərini itələyib otağa girdi, əzələli əliylə kişinin sinəsindən vurub divar tərəfə tulladı və bir andaca onu gənc ledidən ayırdı.

Mister Lorri divara çırpıldığı anda beynindən bir fikir keçdi: "Bu hər kimdirsə, kişi xeylağı olmalıdır!"

– Nə durub baxırsınız?! – deyə qadın hotel xidmətçilərinin üstünə qışqırdı. – Burada boş-bikar dayanıb baxanacan gedin lazım olan şeyləri gətirin! Nə baxırsınız? Demədim gedin lazım olan şeyləri gətirin? Tez olun, gedin iyləmək üçün duz gətirin, soyuq su gətirin, sirkə gətirin. Tez olun, yoxsa...

Xidmətçilər dərhal hərəsi bir tərəfə dağıldı ki, gedib ayıldıcı vasitələri gətirsinlər, qadın isə "Mənim var-dövlətim! Mənim göyərçinim!" deyib oxşayaraq miss Manetti divana uzatdı, qızın üzünə dağılmış gur, qızılı saçları nəvaziş və iftixarla geri eləyib çiyninin üstünə aşırdı.

– Qəhvəyi kostyumlu! – qəzəbli tonda danışan qadın mister Lorriyə müraciət elədi. – Siz bu qızı nə günə salmısınız? Söz deyəndə adamı qorxudub öldürürlər? Görün onun gözəl sifəti necə ağappaq olub, əlləri buza dönüb. Adam bankir olanda belə eləyər?

Bu sualdan sonra halı tamam pozulan mister Lorri bilmədi nə cavab versin, kənarda dayanıb daha çox heyranlıq və utancaqlıq ifadə edən baxışlarla baxmaqdan başqa əlindən heç nə gəlmədi. Güclü qadın isə hotel xidmətçilərini rədd olub getməyəcəkləri təqdirdə anlaşılması çətin olan cəzayla hədələyib qovduqdan sonra bütün diqqətini pasiyentinə yönəltmişdi. Görəndə ki, qız özünə gəlir, başını qaldırıb öz çiyninə qoydu.

– Yəqin ki, indi halı yaxşılaşacaq, – mister Lorri dedi.

– Əgər yaxşılaşsa da, sizə təşəkkür düşmür, qəhvəyi kostyumlu! Mənim gözəl mələyim!

– Siz, yəqin ki, – mister Lorri bir qədər pauzadan sonra həmin o utancaqlıq və heyranlıq ifadə edən baxışlarla baxaraq dedi, – miss Manetti Fransayacan müşayiət edəcəksiniz.

– Danışmağa söz tapdı, – qüvvətli qadın cavab verdi. – Əgər alnıma duzlu sulardan keçmək yazılsaydı, necə bilirsiniz, tale məni gətirib adaya atardımı?

Bu suala da cavab vermək çətin idi, mister Carvis Lorri fikirləşmək üçün uzaqlaşdı.

V fəsil

ŞƏRAB DÜKANI

Böyük şərab çəlləyi küçədə yerə düşüb sındı. Hadisə yükü arabadan boşaldanda baş verdi: çəllək diyirlənib tappıltıyla yerə düşdü, taxtaları sıxıb saxlayan bağlar qırıldı və o, daşa çırpılmış qoz kimi parça-parça olub dağıldı.

Ətrafda dolaşıb nəsə bir iş görənlər işlərini yarımçıq qoydular, bikar adamlar bikarçılıqdan əl çəkdilər, hamı hadisə yerinə qaçdı ki, çaxır içsin. Sanki küçədə gedənlərə xəsarət yetirmək üçün qəsdən necə gəldi düzülmüş kələ-kötür daşlar axıb gedən çaxırın qarşısını kəsərək gölməçələr əmələ gətirdi, hər gölməçənin ətrafında onun böyük-kiçikliyindən asılı olaraq, xeyli adam toplaşıb itələşməyə başladı. Kişilərin bəziləri diz üstə çöküb əllərini qoşalayaraq ovuclarını doldurub içirdilər, eyni zamanda həm də onların başı üstündən qabağa əyilərək bir şey içməyə çalışan qadınlara kömək edir – ovuclarındakı çaxırdan onların da içməsinə imkan verirdilər. Bəzi kişilər və qadınlar saxsı qab qırıqlarını çaxır gölməçəsinə soxur, doldurub başlarına çəkirdilər, ya da qadın baş örtüyünü gölməçəyə salıb sonra da uşaqların ağzına sıxırdılar; bəziləri çaxır axınının qarşısını almaq üçün palçıqdan balaca bəndlər düzəldirdi; bir xeyli adam isə başını pəncərədən çıxardıb yuxarıdan baxanların diktəsiylə ora-bura qaçır, yeni yaranmış axınların qarşısını almağa çalışırdı; yerə səpələnmiş taxta parçalarını götürüb yalayanlar, soranlar, hətta nəm taxtanı acgözlüklə çeynəyənlər də var idi. Çaxırın axıb getməsi üçün nə nov, nə də arx var idi, odur ki yerə tökülmüş bir çəllək çaxır içilib qurtaranda illərlə yığılıb qalmış nə ki palçıq və zir-zibil vardısa, hamısı yox olmuşdu, – sanki oradan möcüzələr yaradan süpürgəçi keçmişdi.

Çaxır içilib qurtaranacan küçədə kişilərin, qadınların və uşaqların şən qışqırtıları, gülüş səsləri eşidildi. Bir qədər kobud görünsə də, bu, dinamik bir oyun idi. İştirakçılar arasında bir dostluq, yoldaşlıq ab-havası var idi, heç kimdən geri qalmamaq, ehtiyacı olan hər kəsə kömək etmək istəyi aydınca hiss olunurdu, yüngülməzac əhli-keflər isə daha çox canfəşanlıq edirdilər: kimi görsələr, əlini sıxır, bir-birinin sağlığına içir, qucaqlaşırdılar, əl-ələ verib birlikdə rəqs edirdilər. Çaxırın axanı axdı, gölməçələrdə qalanı içib qurtardılar, dibini də qaşıdılar; nəhayət, daşların üstündə ancaq barmaq izləri qaldı və o anda qəflətən başlayan küçə tamaşası qəflətən də sona yetdi. Odundoğrayan kötüyün üstündə qoyub getdiyi mişarın dəstəyindən yapışıb işə başladı; qadın özünün, uşağının soyuqdan donan əl-ayağını qızdırmaq üçün haradansa tapıb gətirdiyi və qapının girəcəyində atıb getdiyi köz doldurulmuş qabı götürüb evə apardı; zirzəmilərdən qalxıb qış gününün işığına çıxmış qoluçirməkli, qat-qarışıq saçlı, solğunsifət kişilər yenidən qayıdıb öz qaranlıq zirzəmilərinə endilər, – bu yerlərə günəş şüasından daha çox yaraşan və daha təbii görünən tutqun məyusluq yenidən küçənin üstünü aldı.

Çaxır qırmızıydı, Parisin Sent Antuan qəsəbəsindəki ensiz küçəyə töküldüyü yerdə qırmızı ləkələr qaldı. Nə qədər əllər, üzlər, çılpaq ayaqlar, taxta başmaqlar çaxır ləkəsinə bulaşdı. Odundoğrayan kişinin əlləri odun parçalarını ləkələdi, əliuşaqlı qadın çaxır gölməçəsinə salıb çıxartdığı dəsmalı sıxandan sonra başına örtdüyü üçün alnında qırmızı ləkə qaldı. Sınmış çəlləyin taxtalarını acgözlüklə çeynəyənlərin ağzı qırmızı şərab zeyiylə haşiyələnmişdi və ovunu təzəcə parçalayıb yemiş pələng ağzına oxşayırdı; cındır torbaya oxşayan gecə papağı başının arxasından sallanan uzundraz kişi başdan-ayağa çaxıra bulaşmışdı və o, zarafat üçün barmağını çaxırlı palçığa batırıb divara yazdı: QAN.

Vaxt gələcək, o şərab da axıb küçələrə töküləcək, çoxlarının üst-başını ləkələyəcək.

Sent Antuanın üstünü indi buludlar almışdı, qaranlığı daimi məskənindən zəif işığın şəfəqi bir anlığa qova bilmişdi; ətrafa çökmüş qaranlıq ağır idi, soyuq idi, çirkliydi, xəstəlik, qabalıq və ehtiyac içindəydi, bunlardan sonuncusu – ehtiyac isə, demək olar ki, hər yerdə hökmranlıq edirdi. Qocaları cavanlaşdıran uydurma dəyirmanda yox, başqa bir dəyirmanda əzilib suyu çıxardılmış, üyüdülmüş adamlara hər addımda

rast gəlmək olar: onlar titrəyə-titrəyə evlərin tinində dayanır, hər qapıdan içəri girir, hər qapıdan çölə çıxırlar, hər evin pəncərəsindən boylanıb baxır, küləyin yelladiyi cındır geyimlərdə əsim-əsim əsirlər. Bu adamları üyüdən dəyirman cavanı qocaldır, uşaqların üzünü qocaldır, onların səsi də elə bil o dünyadan gəlir; hər qocanın, cavanın, uşağın və dünyaya təzə gələnin üzündə aclıq möhrü var. Bu hər tərəfdə yayılıb. Aclıq dirəklərdən və iplərdən asılmış cır-cındırı geyinib evlərdən çıxır. Aclıq evlərin açıq pəncərələrini, dəlmə-deşiklərini cındırla, taxtayla, kağız parçasıyla, küləşlə yamayıb orada gizlənir. Aclıq odundoğrayanın mişarladığı odunun hər qamqalağında görünür. Aclıq tüstüsüz qalmış bacaların başından boylanıb aşağı baxır. Aclıq zibilxanalarında dişə vurmağa bir şey tapılmayan üfunətli küçələrdə gəzib-dolaşır. Aclıq çörək dükanındakı rəflərə yazılıb, çörəkçinin ehtiyat üçün saxladığı kifli tikələrə yazılıb; aclıq kolbasa dükanında satış üçün hazırlanan ölmüş it cəmdəklərinin hər birinin üstünə yazılıb. Aclıq sacda qovrulan şabalıdların arasında sümüklərini şaqqıldadır. Aclıq bir-iki damcı günəbaxan yağında qızardılmış kartofun hər atomuna nüfuz edib.

Aclıq bu yerin daimi sakinidir, burada hər şey ona uyğunlaşıb. Cinayətlə dolu üfunətli, darısqal, əyri-üyrü küçədən üfunət və cinayət dolu başqa darısqal, əyri-üyrü küçələr ayrılır, onların hamısında əyninə cır-cındır geyinib başına gecə papağı qoymuş, sir-sifətlərindən zəhrimar yağan, üfunət qoxulu adamlar yaşayır. Ovçunun qovub yarğana qısnadığı vəhşi heyvan kimidir onlar – cana doyublar, adamın üstünə qayıdıb parçalaya bilərlər. Amma nə qədər əzilib alçaldılsalar da, gözlərindən od yağır, sıxılmış dodaqların qanı qaçıb – ağappaq ağarıb, düyünü açılmayan qaşların üstündəki alın damarları şişib dar ağacı kəndirinə dönüb. Dükanların üstündəki lövhələr (neçə dükan varsa, o qədər də lövhə var) ehtiyacın amansız illüstrasiyasından başqa bir şey deyil: ət dükanına arıq ət parçası çəkilib, çörək dükanına çörəyin qırıntıları və tikələri çəkilib, dibində çaxır yaxantısı görünən stəkanların üstünə əyilmiş, caniyə oxşayan, qaşqabaqlı adamlar təsvir olunan lövhə isə çaxır dükanını göstərir. O lövhələrdə ürəkaçan heç nə yoxdur, müxtəlif alətlər və silah satan dükanlarda isə vəziyyət başqadır: bıçaqçının bıçağı, baltaçının baltası itidir, par-par parıldayır, dəmirçinin çəkici ağırdır, tüfəngsatanın tüfəngi ölüm saçır. Palçıq gölməçələriylə dolu olan yollarda kələ-kötür daşlar necə gəldi döşənib, piyada keçidi yoxdur deyə

yol birbaşa evlərin qapısına dirənir. Çirkab suları gölməçələrdə göllənib qalır, güclü yağış yağanda isə küçənin ortasıyla axaraq gedib düz evlərin içinə dolur. Küçənin o üzündəki dirəyin başında kələ-kötür lampa asılıb, lampayandıran hər gün axşam lampaları aşağı endirib yandırır, təzədən yuxarı qaldırır; zəif közərən lampaların cərgəsi elə xəstəhal yellənir, sanki onlar quruda deyil, dənizdədir. Onlar, həqiqətən, dənizdədir; ekipaj da, gəmi də fırtına təhlükəsiylə üzləşib.

Amma nə vaxtsa bu yerlərin üzülüb əldən düşmüş ac müqəvvaları boş-bikar dayanıb lampayandıranın işinə baxa-baxa qəflətən ağıllarına bir fikir gələcək: zülmətə qərq olmuş bu qaranlıq diyarı işıqlandırmaq üçün lampa əvəzinə dirəklərdən adam asmaq lazımdır. O vaxt isə hələ ki gəlməyib və Fransa çöllərində əsən küləklər ac müqəvvaların cır-cındır geyimini boş yerə yelləyir, bəzəkli quşlar heç nəyə məhəl qoymadan gözəl nəğmələr oxuyur.

Şərab dükanı küçənin tinindəydi deyə o biri dükanlarla müqayisədə daha yaxşı görünürdü; sarı jilet, yaşıl şalvar geyinmiş dükan sahibi küçədə dayanmışdı, daşların arasıyla axıb getməkdə olan çaxırı içmək üçün adamların necə dartışıb itələşdiyinə baxırdı.

– Bu iş mənlik deyil, – dükan sahibi çiyinlərini çəkib dedi. – Çəlləyi bazarın işçiləri sındırdı, zəhmət çəksinlər başqasını gətirsinlər.

Elə həmin məqamda o, hündürboy təlxəyin divarı yazdığını gördü, yolun o üzünə tərəf səslənib dedi:

– Ey, Qaspar, sən orada neyləyirsən?

Divarı yazan zarafatcıl kişi bu xasiyyətdə olan adamlar kimi üzünə ciddi bir ifadə verib həkk elədiyi yazını göstərdi. Zarafatcıl adamların hamısında olduğu kimi, o da səhvə yol verdi, dərhal da ciddi müqavimətlə üzləşdi.

– O nədir? Deyəsən, sənin ağlın çaşıb, – dükan sahibi belə deyib küçəni keçdi, əyilib yerdən bir ovuc palçıq götürdü, yazının üstünü suvayıb pozmağa başladı. – Divarı niyə yazırsan? Yazı yazmağa başqa yer tapmadın?

Belə danışıb təlxəklik eləyən adama nəsihət verən dükan sahibi palçığa bulaşmamış əliylə onun sinəsinə toxundu, amma bilinmədi bunu qəsdən elədi, yoxsa təsadüfən belə oldu. Özünü təlxəkliyə vuran kişi öz əlini dükan sahibinin əlinin üstünə qoydu, cəld hoppanıb yuxarı atıldı, fantastik bir rəqsi ifa edirmiş kimi aşağı endi və bu vaxt o biri əliylə

çirkli ayaqqabılarından birini çıxardıb yuxarı qaldırdı. Bununla da öz məharətini göstərdi, amma, hər halda, o, təlxəkdən çox canavara oxşayırdı.

– Ayaqqabını geyin, ayaqqabını geyin, – dükan sahibi dedi. – Adi çaxırdır, başqa söz lazım deyil, vəssalam. – Təlxəyə öyüd-nəsihət verəverə çirkli əlini qəsdən onun paltarına silib təmizlədi, çünki əli təlxəyə görə bulaşmışdı. Bundan sonra o, yolu keçib şərab dükanına girdi.

Şərab dükanının sahibi 30 yaşlarında, görkəmcə hərbçiyə oxşayan və fiziki cəhətdən güclü bir adam idi; hava soyuq olsa da, pencəyi geyinmək əvəzinə, bir çiyninin üstünə atmışdı. Köynəyinin qolları çırmanmışdı deyə qəhvəyi rəngə çalan biləkləri dirsəyəcən açıq idi, – soyuğu vecinə almırdı, bu isə göstərirdi ki, istiqanlı adamdır. Qıvrım qara saçları qısa vurulmuşdu, başına papaq qoymamışdı. Ümumiyyətlə, o, qarayanız adam idi, bir-birindən aralı olan qəşəng gözləri var idi. Gülərüz sifətində qəddarlıq da hiss olunurdu; qətiyyətliydi və əgər nəsə bir iş görməyi qərara alırdısa, hökmən onu axıra çatdırırdı, – beləsiylə toqquşmaq yaxşı nəticə verməz.

Şərab dükanının sahibi içəri girəndə onun arvadı – madam Defarj piştaxtanın arxasında oturmuşdu. Madam Defarj əriylə, bəlkə də, eyni yaşda olan kök qadın idi, onun ayıq-sayıq gözləri sanki çox nadir hallarda konkret bir şeyə baxırdı, iri əllərinin barmaqlarında çoxlu üzük var idi, qətiyyətli sifətinin cizgiləri sərt idi, davranışı soyuqqanlıydı. Madam Defarjın xasiyyəti beləydi, üzünə baxan kimi hər kəs də hiss edirdi ki, ən mürəkkəb hesabda belə onu aldatmaq, kəf gəlmək asan iş deyil. Madam Defarj soyuqdəyməyə qarşı həssas olduğu üçün xəz dəriyə bürünüb oturmuşdu, başına əlvan şal bağlamışdı, amma bunu elə eləmişdi ki, qulağındakı iri sırğaların üstü örtülməsin. Nəsə toxuyurdu, amma indi onu piştaxtanın üstünə qoyub əlindəki çöplə dişini qurdalayırdı. Əri dükana daxil olanda o, sağ biləyini sol əlinə söykəyib oturmuşdu; heç nə demədi, yüngülvarı öskürdü və bu onun əlindəki diştəmizləyənin üstündə əyilmiş qara qaşıyla birlikdə ərinə göndərdiyi mesaj idi, demək istəyirdi ki, ehtiyatlı olsun, dükandan çıxdığı müddətdə gəlmiş təzə müştərilərə diqqət yetirsin.

Dükan sahibi dərhal göz gəzdirib baxdı, onun diqqətini küncdə oturmuş yaşlı kişiylə gənc ledi cəlb elədi. Dükanda başqa müştərilər də var idi: iki nəfər oturub kart oynayırdı, iki kişi domino oynayırdı, üç

müştəri isə piştaxtanın yanında dayanıb tələsmədən çaxır içirdi. Dükan sahibi piştaxtanın arxasına keçdiyi anda yaşlı centlmenin öz baxışıyla gənc ledi yə "Bizim axtardığımız adam budur" kimi başa düşüləcək bir işarə vurduğunu sezdi.

Müsyö Defarj ürəyində öz-özünə dedi: "Bunlar hansı cəhənnəmdən gəlib? Birinci dəfədir görürəm". Özünü elə göstərdi ki, guya təzə müştəriləri görmür; ayaq üstə dayanıb çaxır içən üç müştəriylə söhbətə girişdi.

– İşlər necədir, Jak? – üç müştəridən biri müsyö Defarja dedi. – Çaxırın hamısını içdilər?

– Hamısını, Jak. Bir damcı da qalmayıb, – müsyö Defarj cavab verdi.

Jak adı hallanmağa başlayanda madam Defarj diştəmizləyəni ağzından çıxartmadan yenə yavaşca öskürdü, qaşını bir qədər başqa cür əyib azca qaldırdı.

– Bu bədbəxt heyvanları da qınamaq olmur, – üç müştəridən ikincisi müsyö Defarja dedi. – Onlar həyatda qara çörəkdən və ölümdən başqa nə görürlər? Şərabın dadına baxmaq imkanı hər vaxt ələ düşmür. Elə deyil, Jak?

– Elədir, Jak, – müsyö Defarj cavab verdi.

Jak adı ikinci dəfə hallananda madam Defarj əvvəlki kimi, halını da pozmadan dişini qurtdalayaraq qaşlarını qaldırıb başqa xətt üzrə əydi.

Üç nəfərdən sonuncusu boş stəkanı piştaxtanın üstünə qoydu, dodaqlarını yalayıb dedi:

– Eh! Nə qədər pis olsa, onlar üçün bir o qədər yaxşıdır! Bu heyvanların ağzı ömrü boyu onsuz da acı dadır; onların həyatı da həyat deyil, Jak. Düz demirəm, Jak?

– Düz deyirsən, Jak, – müsyö Defarj dedi.

Jak adı üçüncü dəfə təkrarlananda madam Defarj diştəmizləyəni əlindən yerə qoyub qaşlarını yuxarı qaldırdı, stulda qurcuxdu.

– Yaxşı, gəlin bu söhbəti yığışdıraq, – madam Defarjın əri dedi. – Cənablar, bu mənim arvadımdır.

Müştərilər üçü də şlyapalarını çıxardıb madam Defarja baş əydilər. Madam Defarj da öz növbəsində yüngülcə baş əyib hər üçünə ani bir nəzər saldı, sonra laqeyd tərzdə bütün dükanı gözdən keçirdi, toxuduğu paltarı götürüb işə başladı.

– Yaxşı, hələlik, cənablar, – müsyö Defarj gözünü arvadından çəkmədən dedi. – Bayaq mən dükandan çıxanda siz təkadamlıq otaq barədə soruşurdunuz. Həmin otaq beşinci mərtəbədədir. Bir azca sol tərəfdəki balaca həyətdən pilləkənə çıxış var, – belə deyib əliylə göstərdi, – mənim dükanımın pəncərəsiylə yanaşıdır. Amma mənim yadıma gəlir ki, sizdən bir nəfər artıq orada olub: bələdçilik eləyə bilər, sağ olun, cənablar, hələlik!

Müştərilər çaxırın pulunu ödəyib dükandan çıxdılar. Müsyö Defarj arvadının necə toxuduğuna baxdığı vaxt küncdə oturan yaşlı centlmen yaxınlaşıb dedi ki, onunla danışmaq istəyir.

– Buyurun, ser, məmnuniyyətlə, – müsyö Defarj dedi, kişiylə birlikdə qapıya tərəf getdi.

Onlar az danışdılar, tez də razılaşdılar. Elə ilk andaca müsyö Defarj diksinib qulaq kəsildi; cəmi bir dəqiqə danışdılar, sonra o baş əyib çıxdı. Centlmen gənc lediyə başıyla işarə elədi, onlar da çıxdılar. Madam Defarjın çevik barmaqları sürətlə işləyirdi; nə baş verdiyini görmədi, qaşları da tərpənmədi.

Mister Carvis Lorriylə miss Manett şərab dükanından çıxıb müsyö Defarja həyətdə çatdılar; bir az əvvəl dükan sahibi üç müştərini də buraya göndərmişdi. Bu, üfunətli, balaca, iyrənc həyət xeyli əhalinin yaşadığı evlərin ümumi girişiydi. Kirəmitlə örtülmüş qaranlıq pilləkənə aparan kirəmitli qaranlıq girişdə müsyö Defarj bir dizini yerə qoyub keçmiş şefinin qarşısında övlad kimi diz çökdü, əlini öpdü. Bu çox nəzakətli davranış idi, amma burada bir nəzakətsizlik də var idi, bir neçə saniyə ərzində müsyö Defarj nəzərəçarpacaq dərəcədə dəyişdi, üzündəki xeyirxahlıq və səmimiyyət yox oldu, xəbis, qəzəbli və təhlükəli bir adama çevrildi.

– Çox hündürdür, ora qalxmaq çətindir. Yaxşısı budur, tələsməyək, – onlar pilləkəni qalxmağa başlayanda müsyö Defarj mister Lorriyə dedi.

– O, orada təkdir? – mister Lorri pıçıltıyla soruşdu.

– Təkdir! Allah evinizi tiksin, ondan başqa orada kim ola bilər? – müsyö Defarj eyni pıçıltıyla cavab verdi.

– Onda belə çıxır ki, həmişə təkdir, eləmi?

– Bəli.

– Özü belə istəyir?

– Yox, vəziyyəti tələb edir. Onlar məni axtarıb tapdılar, xahiş etdilər ki, onu qəbul edim, amma ehtiyatlı olum ki, heç kim bilməsin. Risk eləyib razılaşdım; ilk dəfə gördüyüm vaxt necəydisə, indi də elədir.

– Çoxmu dəyişib?

– Dəyişib!

Şərab dükanının sahibi ayaq saxlayıb yumruğuyla divarı vurdu, söyüş söydü, – daha inandırıcı cavab tapmaq, yəqin ki, elə də asan deyildi. Onlar yuxarı qalxdıqca mister Lorri hiss edirdi ki, ruhuna bir qaranlıq çökür, getdikcə də ağırlaşır.

Hətta indinin özündə belə Parisin əhalisi sıx olan məhəllələrindəki pilləkənlər öz zəruri ləvazimatlarıyla birlikdə ürəkaçan mənzərə deyil, o vaxt – adamların belə şeylərə adət eləmədiyi və hisslərin korşalmadığı o dövrdə isə bu, iyrənc təəssürat yaradırdı. Böyük bir zibil yuvası olan hündür binadakı hər otaqda yaşayan ailə zibilin bir hissəsini pəncərədən küçəyə atır, qalanını da qapını açaraq pilləkənin üstündəki meydançaya töküb tığ vururdu. Heç kimin təmizləmədiyi zibil çürüyüb iylənir, üfunətdən baş çatlayırdı; yoxsulluq və ehtiyacın da öz ağır üfunəti var, – bunlar birləşib dözülməz vəziyyət yaradırdı. Onlar çirkab və zəhərlə dolu, qaranlıq, darısqal quyunun içiylə qalxırdılar. Gənc ledinin getgedə artmaqda olan həyəcanı beynində qaranlıq fikirlər dolaşan mister Carvis Lorriyə də təsir edirdi və o artıq iki dəfə ayaq saxlayıb nəfəsini dərməli olmuşdu. İyrənc pəncərə barmaqlıqları qarşısında hər dəfə dayananda təmiz havanın içəri vuran zəif nəfəsini azacıq hiss elәsə də, üfunətli, ağır hava axını imkan vermir, duman kimi hər tərəfdən onu bürüyürdü. Paslı barmaqlıqlar arasından baxanda yaxın ətrafa səpələnmiş evlərin görüntüsündən çox üfunəti hiss olunurdu; Notr-Dam kilsəsinin qoşa qülləsinəcən cərgələnmiş evlərin hansındasa nəsə yaxşı, sağlam bir şey olacağına ümid yox idi.

Nəhayət, onlar pilləkənin sonuna çatıb üçüncü dəfə dayandılar. Buradan yuxarı – çardağa qalxmaq üçün darısqal və çox dik olan başqa bir pilləkən başlayırdı. Sanki gənc ledinin nəsə soruşacağından qorxurmuş kimi mister Lorri tərəfdən dəstənin qabağında gedən dükan sahibi geri çevrildi, çiyninə atdığı pencəyin cibindən açar çıxartdı.

– Deməli, qapı açarla bağlanır, eləmi, dostum? – təəccüblənmiş mister Lorri dedi.

– Ah, bəli, – müsyö Defarj tutularaq cavab verdi.

– Sizcə, bədbəxt centlmeni hökmən qapısı bağlı otaqda saxlamaq lazımdır?

– Mən hesab edirəm ki, qapını açarla bağlamaq lazımdır, – müsyö Defarj əyilib mister Lorrinin qulağına pıçıldadı, bir qədər də tutuldu.

– Niyə?

– Ona görə ki uzun müddət həbsdə olub, qapının açıq qaldığını bilsə, qorxuya düşər, qara basar onu, özünü didib-dağıdar, Allah bilir, daha neyləyər.

– Belə şey mümkündürmü? – mister Lorri həyəcanla dedi.

– Belə şey mümkündürmü? – müsyö Defarj acı kədərlə sualı təkrar elədi. – Bəli. Yaşadığımız bu gözəl dünyada nəinki indi dediyim, bir çox başqa şeylər də mümkündür; hətta nəinki mümkündür, həm də reallıqdır və eşidin, bilin, hər gün, özü də günün günorta çağı baş verir. Lənət şeytana. Gəlin gedək.

Bu dialoq zamanı onlar pıçıldaşıb elə yavaşdan danışırdılar ki, gənc ledi bir kəlmə də eşitmədi. Amma gənc ledi onsuz da güclü sarsıntı içində elə titrəyirdi, onun siması elə güclü həyəcan, əsasən də qorxu və həyəcan ifadə edirdi ki, mister Lorri onu sakitləşdirmək üçün bir-iki kəlmə söz deməyi özünə borc bildi.

– Cəsarətli olun, miss! Özünüzü ələ alın, cəsarətli olun! Biz iş görməliyik. Bir az da dözün, hər şey yaxşı olacaq; qapıdan içəri keçənəcəndir, sonra hər şey yoluna düşəcək. Sonra da sizin qayğılarınız, ona gətirdiyiniz xoşbəxtlik başlayacaq, həyatı yüngülləşəcək. İcazə verin dostumuz sizə kömək eləsin. Hə, lap yaxşı, əzizim Defarj. İndi gəlin. İş görmək lazımdır, iş!

Onlar ehtiyatla, yavaş-yavaş getsələr də, pilləkənin bu hissəsi qısaydı deyə tez qalxdılar. Pilləkənin sərt döngəsi qurtaran yerdəki meydançada üç kişi gördülər: onlar otağın qapısı tərəfdən başlarını aşağı əyib bir-birinə yaxınlaşdıraraq divardakı deşikdən içəri baxırdılar. Yaxınlaşan ayaq səslərini eşidib çevrilərək geri baxdılar və bu zaman məlum oldu ki, bayaq şərab dükanında çaxır içən, üçünün də adı eyni – Jak olan kişilərdir.

– Sizin gəlişiniz məni elə çaşdırıb ki, bunları tamam unutmuşam, – müsyö Defarj izahat verdi. – Yaxşı, siz gedin, uşaqlar, bizim burada işimiz var.

Kişilər sivişib aradan çıxdılar, səssizcə aşağı endilər.

Bu mərtəbədə başqa qapı yox idi; o üç nəfər gedəndən sonra mister Lorri qapını açmağa hazırlaşan müsyö Defarjın qulağına pıçıldayaraq bir qədər incik halda dedi:

– Siz burada müsyö Manett tamaşası göstərirsiniz?

– Özünüz gördünüz ki, göstərirəm; hamıya yox, xüsusi adamlara.

– Sizcə, bu, yaxşıdırmı?

– Hesab edirəm ki, yaxşıdır.

– Xüsusi adamlar kimdir: siz onları necə seçirsiniz?

– Mən əsl kişiləri seçirəm; mənim adım Jakdır, öz adaşlarımdan kimin belə şeylərdən xoşu gəlirsə, onları seçirəm. Gəlin bu söhbəti qurtaraq; siz ingilissiniz, bu iş sizlik deyil. Xahiş edirəm, burada bir az ləngiyəsiniz.

O birilərinin yaxınlaşmaması üçün bir jest eləyərək müsyö Defarj əyilib divardakı deşikdən içəri baxdı. Sonra o qəddini düzəltdi, qapını iki-üç dəfə döydü və çox güman ki, bunu səs salmaq üçün elədi. Yəqin ki, elə bu məqsədlə də bacardıqca daha çox səs salıb qapını açmamışdan əvvəl açarı onun üstünə sürtdü.

Qapı yavaş-yavaş otağın içərisinə tərəf açıldı, müsyö Defarj başını içəri salıb baxdı, nəsə dedi. Zəif eşidilən səs nəsə deyib ona cavab verdi. Onların hər birinin dediyi söz iki kəlmədən artıq olmazdı.

Müsyö Defarj çiyninin üstündən geri baxıb arxadakılara işarə elədi ki, içəri keçsinlər. Mister Lorri ehtiyat üçün qızın belindən tutub saxlamışdı və hiss edirdi ki, o yıxılmaq üzrədir.

– A-a-a, biz iş üçün gəlmişik, iş görməliyik! – mister Lorri qızı ürəkləndirmək üçün dedi, amma gözlərindən axıb yanaqlarını isladan yaş işgüzarlıq əlamətinə oxşamırdı. – Gəlin, içəri keçin!

– Mən qorxuram, – qız titrəyərək cavab verdi.

– Qorxursunuz? Nədən?

– Onu deyirəm, atamdan.

Miss Manettin vəziyyəti və müsyö Defarjın işarə verib onları içəri dəvət etməsi mister Lorridə bir ümidsizlik yaratdı, gənc ledinin titrəyən qolunu öz çiyni üstündən aşırıb onu yerdən azacıq qaldıraraq otağa apardı, qapıdan içəri girən kimi döşəmənin üstünə qoydu; qız ona yapışıb qalmışdı.

Defarj açarı çıxartdı, qapını örtdü, içəridən bağladı, sonra açarı təzədən çıxardıb əlində tutdu. Bütün bunları o, xüsusi metodla, həm

də bacardıqca daha çox səs salaraq elədi. Sonra da nizamlı addımla yeriyərək otağın o başına keçib pəncərənin ağzında dayandı, ətrafa nəzər saldı.

Odun və digər yanacaq materialı saxlamaq üçün nəzərdə tutulmuş çardaq tozluydu, qaranlıq idi; dama açılan şüşəsiz, balaca qapı, əslində, pəncərəni əvəz edirdi, Fransadakı bütün çardaq qapıları kimi, o da iki-taylıydı, onun üstündən asılmış balaca qarmaq isə hansısa yükü yuxarı qaldırmaq üçün istifadə edilirdi. Otaq soyumasın deyə çardaq qapısının bir tayı bərk bağlanmış, o biri tayı azacıq açıq saxlanmışdı. İçəri düşən işıq o qədər zəif idi ki, otağa daxil olan adam ilk anda, demək olar, heç nə görə bilmirdi; ancaq uzun müddət bu şəraitdə yaşamış adam tədricən öyrəşib nəsə eləyər, hətta xüsusi bacarıq tələb edən iş də görə bilərdi. Çardaqda elə bir iş, həqiqətən də, görülürdü: arxasını qapıya, üzünü isə qarşısında şərab dükanı sahibinin dayandığı pəncərəyə tərəf çevirmiş ağbaş kişi alçaq oturacaqda oturub belini əyərək işləyirdi – ayaqqabı tikirdi.

VI fəsil

ÇƏKMƏÇİ

—Hər vaxtınız xeyir! – müsyö Defarj ayaqqabı tikən adamın ağ başına baxıb dedi.

Ağ baş bir anlığa yuxarı qalxdı, sanki uzaqdan gəlirmiş kimi zəif səslə cavab verdi:

– Hər vaxtınız xeyir!

– Yaman bərk işləyirsiniz.

Xeyli sükutdan sonra ağ baş bir anlığa yenə qalxdı və səs cavab verib: "Bəli, işləyirəm", – dedi, bu vaxt onun üzü aşağı çevrilməyə macal tapınca üzülüb heydən düşmüş bir cüt göz sual verən adama baxdı.

Səsin zəifliyində yazıqlıq və dəhşət var idi. Bu təkcə fiziki zəiflikdən irəli gəlmirdi, hər halda, uzun müddət həbsdə olmağın, pis qidalanmağın da təsiri özünü göstərməkdəydi. Səsdəki özünəməxsus kədər tənhalıqla, eyni zamanda səs tellərinin istifadəsiz qalmasıyla bağlıydı. Səs elə bil çoxdan, lap çoxdan səslənmiş bir sözün zəif əks-sədasıydı. Bu səs insan səsinə xas olan həyatiliyi, ahəngdarlığı itirmişdi, onu eşidən hər kəsdə elə təəssürat yaranırdı, sanki bir vaxtlar gözəl və parlaq olan rəng bomboz bozarıb güclə sezilən ləkəyə çevrilmişdi. Səs elə sıxılmışdı, elə batıq idi, elə bil yerin altından gəlirdi. Ümidsizlik içində özünü itirmiş bu varlığın səsi səhrada azmış, ac-susuz və tək-tənha gəzib-dolaşmaqdan üzülüb əldən düşmüş insanın son nəfəsdə evini və dostlarını xatırlayaraq çıxardığı səsə oxşayırdı.

Bir neçə dəqiqə davam edən işdən sonra yorulub heydən düşmüş gözlər yenə yuxarı baxdı; bu nəsə öyrənib bilmək istəyiylə bağlı deyildi, bu, yanına gəlmiş adamın dayandığı yerdə gördüyü ləkənin hələ də

orada olub-olmadığını hiss etmək istəyinin yaratdığı mexaniki hərəkət idi.

– Mən istəyirəm ki, bura bir az da işıqlı olsun, – müsyö Defarj gözünü çəkməçidən çəkmədən dedi. – İşıq bir az çox olsa, sizə çətin olmaz ki?

Çəkməçi əl saxladı, qulaq kəsilib havanı dinşədi, nəsə axtarırmış kimi döşəmənin bir tərəfinə, sonra o biri tərəfinə baxdı, yenə başını qaldırıb danışan adama tərəf baxdı.

– Nə dediniz?

– Deyirəm işıq bir az çox olsa, sizə çətin olmaz ki?

– İşığı siz artıracaqsınızsa, dözməliyəm, – çəkməçi dedi, çox zəif hiss olunan vurğu axırıncı sözə düşdü.

Qapının açıq tayı bir qədər geniş açılıb o vəziyyətdə bərkidildi. Çardağa düşən işıq şüası böyüyüb gücləndi: hələ tikilib qurtarmamış ayaqqabını dizinin üstünə qoyub bir anlığa əl saxlamış çəkməçi aydın göründü. Onun ayaqlarının yanında, eləcə də oturacağın üstündə primitiv iş alətləri və müxtəlif dəri parçaları var idi. Kələ-kötür kəsilmiş ağ saqqalı uzun deyildi, yorğun sifəti, həddən artıq parlaq gözləri var idi. Sifətinin yorğunluğu, arıqlığı gözlərini böyük göstərirdi. Hələ də ağarmamış qara qaşlarının və qatma-qarışıq ağ saçlarının altından baxan gözlər başqa cür görünürdü: əslində, onun adi irilikdə olan gözləri çox böyük görünürdü. Boğaz tərəfdən düymələnməmiş sarı rəngli cındır köynəyin açıq yaxasından heysiz, arıq bədən görünürdü. O özü və əynindəki brezent xalat, sallaq corablar, paltarı əvəz eləyən cır-cındır hamısı həbsdə olduğu uzun illər ərzində günəş işığı və açıq havayla birbaşa təmasda olmadığı üçün saralıb solaraq elə rəng almışdı ki, nəyin necə olduğunu demək çətin idi.

Əlini qaldırıb gözlərini işıqdan daldalayanda elə təsəvvür yarandı ki, sümükləri şəffafdır. Bir anlığa əl saxlayıb hansısa naməlum nöqtəyə baxaraq oturmuşdu. Qarşısındakı adama baxmamışdan əvvəl öz yanyörəsinə baxırdı, sanki səsgələn tərəfi müəyyən etmək vərdişini yadırğamışdı, danışanda da deyəcəyi sözü unudubmuş kimi əvvəlcə mızıldayıb baş-ayaq vururdu.

– Əlinizdəki ayaqqabını bu gün tikib qurtara biləcəksinizmi? – müsyö Defarj deyib, həm də mister Lorriyə işarə elədi ki, qabağa gəlsin.

– Siz nə dediniz?

– Əlinizdəki ayaqqabı cütünü bu gün qurtara biləcəksinizmi?

– Deyə bilmərəm. Çox güman ki, qurtararam. Mən bilmirəm.

Verilən sual yadına saldı ki, əlində işi var, dərhal da belini əyib yenidən işləməyə başladı.

Mister Lorri gənc qızı qapının yanında qoyub səssizcə qabağa gəldi, müsyö Defarjın yanında dayandı. Bir-iki dəqiqədən sonra çəkməçi başını qaldırıb yuxarı baxdı. Başqa adamı görəndə təəccüblənmədi, amma bir əlinin titrəyən barmaqları dodağına tərəf qalxdı (dodaqları da, dırnaqları da solğun qurğuşun rəngindəydi), sonra əli aşağı endi, yenidən ayaqqabının üstünə əyildi, bir anlığa da olsa, məşğul göründü.

– Sizin yanınıza gələn var, gördünüz? – müsyö Defarj dedi.

– Nə dediniz?

– Bir nəfər gəlib, sizi görmək istəyir.

Çəkməçi işini dayandırmadan yuxarı baxdı.

– Gəlin! – müsyö Defarj dedi. – Bu müsyö bir dəfə baxmaqla yaxşı tikilmiş ayaqqabını tanıyır. Götürün baxın, müsyö.

Müsyö Lorri ayaqqabını götürdü.

– İndi müsyöyə deyin: bu ayaqqabı nə üçündür, onu tikən çəkməçinin adı nədir.

Xeyli davam edən fasilədən sonra çəkməçi dedi:

– Sizin məndən nə soruşduğunuz yadımdan çıxıb. Nə dediniz?

– Deyirəm ki, ayaqqabı barədə müsyöyə məlumat verə bilərsinizmi?

– Bu, qadın ayaqqabısıdır. Gənc ledilər bunu gəzməyə çıxanda geyinirlər. İndi belə ayaqqabılar dəbdədir. Nəyin dəbdə olduğunu görməmişəm. Məndə nümunəsi var idi, – belə deyib ayaqqabıya ani bir nəzər saldı, üzündə güclə hiss olunan bir qürur sezildi.

– Bəs ustanın adı nədir? – Defarj dedi.

İndi o işləmirdi, bikar dayanmış sağ əlinin barmaqlarıyla sol əlini, sol əlinin barmaqlarıyla sağ əlini sığalladı, sonra əlini qaldırıb tüklü çənəsini sığalladı və bu hərəkətləri aramsız olaraq təkrar etməyə başladı. Həmişə danışanda düşdüyü boşluqdan onu çəkib çıxartmaq xəstə adamı huşa gətirib ayıltmaq, yaxud can verən adamdan son anda nəsə soruşub öyrənmək qədər çətin bir iş idi.

– Siz mənim adımı soruşdunuz?

– Bəli, adınızı soruşdum.

– Yüz beş, Şimal qüllə.

– Elə bu?

– Yüz beş, Şimal qüllə.

Ah çəkməyə və iniltiyə bənzəməyən bir səs çıxarıb üzgün halda belini əydi, sükut yenidən pozulanacan işlədi.

– Mən bilən, sizin sənətiniz, əslində, çəkməçilik olmayıb, elədirmi? – mister Lorri gözünü ondan çəkmədən dedi.

Çəkməçinin yorğun gözləri Defarja tərəf elə çevrildi, sanki sualı da o tərəfə yönəltdi, amma oradan kömək gəlmədiyi üçün o tərəf-bu tərəfinə baxıb yeri axtardı və başını qaldırıb sual verənə baxdı.

– Mənim sənətim çəkməçilik olmayıb? Yox, mənim sənətim çəkməçilik olmayıb. Mən... mən burada öyrənmişəm. Özüm öyrənmişəm. Mən icazə almışam...

Bir neçə dəqiqəliyə də olsa çaşdı, bu vaxt ərzində əlinin ölçülüb-biçilmiş hərəkətiylə nəsə axtardı, nəyisə tapdı. Nəhayət, onun baxışları həmsöhbətinə tərəf yönəldi, üzünə baxdı, dərhal da diksindi və yuxudan ayılmış adam dünən axşam yarımçıq qalmış söhbətə qayıdan kimi, o da sözünü harada kəsmişdisə, oradan başladı:

– ... xahiş etmişəm ki, bu sənəti öyrənmək üçün mənə icazə versinlər. Çox çətinliklə də olsa, neçə ildən sonra, axır ki, istədiyimə nail oldum. O vaxtdan bəri də ayaqqabı tikirəm.

Belə deyib ayaqqabını geri almaq üçün əlini qabağa uzadanda hələ də onun üzünə baxmaqda olan mister Lorri dedi:

– Müsyö Manett, siz məni tanımırsınız?

Ayaqqabı tayı döşəməyə düşdü, çəkməçi isə oturduğu yerdə donub-muş kimi gözünü həmsöhbətinə zilləyib baxa-baxa qaldı.

– Müsyö Manett, – mister Lorri əlini Defarjın çiyninə qoydu, – siz, doğrudanmı, bu adamı tanımırsınız? Onun üzünə baxın. Mənə baxın. Keçmiş bankir, keçmiş işlər, keçmiş qulluqçu; keçmiş günlər yadınıza gəlmir, müsyö Manett?

Neçə illər həbsdə olmuş insan gah mister Lorriyə, gah da Defarja baxarkən onun alnında izləri lap çoxdan silinib getmiş fəal ağıl işığı qaranlıq qatı duman içindən özünü tədricən büruzə verirdi. O izlər zəif idi, qara bulud təzədən üstünü alıb yox elədi; amma, hər halda, o izlər var idi. Onu görmək üçün divar boyu sürünərək yaxınlaşan qızın keçirdiyi həyəcan onun gənc alnında aydınca ifadə olunurdu; əlləri qabağa uzanmışdı, amma əvvəlcə onu görməmək, qorxudan üzünü örtmək üçün belə eləsə də, indi qızın titrəyən əlləri kölgəyə oxşayan o başı qucaqlayıb sinəsinə sıxmaq, öz sevgisiylə həyata qaytarmaq, ona ümid vermək üçün uzanmışdı, – xaraktercə nə qədər güclü olsa da, gənc qızın gözəl sifətində o hisslər elə dəqiqliklə təkrar olunurdu, sanki hərəkət edən işıq şüasıydı, atadan qıza keçirdi.

Çəkməçinin başının üstünü qara bulud yenidən aldı. Qarşısında dayanmış iki nəfərə yönələn baxışındakı diqqət get-gedə azaldı, tutqun abstraksiya ifadə edən gözləri aşağı baxıb nəsə axtarmağa başladı. Nəhayət, dərindən köks ötürüb ayaqqabını qaldırdı, yenidən işləməyə başladı.

– Siz onu tanıdınız, müsyö? – Defarj pıçıltıyla soruşdu.

– Bəli, bir anlığa da olsa, tanıdım. İlk anda ümidim yox idi, amma sonra ani olaraq nə vaxtsa lap yaxşı bələd olduğum sifəti tanıya bildim. S-s-s! Gəlin bir qədər geri çəkilək. Sakit!

Qız çardağın divarından aralanıb çəkməçinin oturduğu kətilə yaxınlaşmışdı, indi əlini azca qabağa uzadıb ona toxuna bilərdi, amma bunda nəsə bir dəhşət var idi.

Nə bir səs çıxdı, nə bir söz deyildi. Qız onun böyründəcə kölgə kimi donub-qalmışdı, çəkməçi isə belini əyib işləyirdi.

Nəhayət, çəkməçi əlindəki aləti bıçaqla əvəz etməli oldu. Bıçağı götürmək üçün çəkməçi qızın dayandığı yerin əks tərəfinə çevrilməliydi. Bıçağı götürüb yenidən işləməyə başlayanda necə oldusa qızın paltarı gözünə dəydi. Başını qaldırıb qızın üzünü gördü. Hər iki müşahidəçi irəli atılanda qız əl işarəsiylə onları saxladı. Qızın heç ağlına da gəlmirdi ki, çəkməçi onu bıçaqla vura bilər, irəli atılan kişiləri qorxudan isə məhz bu idi.

Çəkməçinin qorxu ifadə edən baxışları qıza zilləndi, sonra onun dodaqları nəsə deyirmiş kimi bir hərəkət elədi, amma heç bir səs eşidilmədi. Çəkməçinin nəfəs alması sürətlənmişdi və arada onun dediyi iki kəlmə eşidildi:

– Bu nədir?

Göz yaşları sel kimi axan qız hər iki əlini dodaqlarına yapışdırıb onu öpürmüş kimi öpdü, sonra da çəkməçinin başını öz sinəsinə sıxırmış kimi bir jest elədi.

– Siz həbsxana gözətçisinin qızısınız?

Qız ah çəkdi.

– Yox.

– Bəs kimsiniz?

Öz səsinin tonuna hələ də əmin olmayan qız oturacaqda onun böyründə oturdu. Kişi diksinib geri çəkildi, qız əlini onun biləyinin üstünə qoydu. Qızın bu hərəkəti onun bütün bədənini titrətdi, qıza baxa-baxa bıçağı yerə qoydu.

Əlini yavaş-yavaş uzatdı, qızın geri atılıb kürəyinə və çiyninə tökülmüş qızılı saçlarına toxundu, bir çəngə tükü əliylə tutub baxdı. Amma çox baxa bilmədi, yenə beyni dumanlandı, dərin bir ah çəkib yenidən işə başladı.

Qız onun biləyini buraxıb, əlini çiyninə qoydu. Çəkməçi sanki əlin həqiqətən çiynində olduğuna inanmaq istəyirmiş kimi şübhə dolu baxışlarla iki-üç dəfə o tərəfə baxdı, sonra işləməyə ara verdi, əlini boğazına tərəf uzadıb ucuna balaca, cındır bükülü bağlanmış qara ipi dartıb qoynundan çıxartdı. Cındır bükülünü dizinin üstünə qoyub ehtiyatla açdı: orada qızılı rəngli iki-üç tük var idi; görünür, nə vaxtsa onları barmağına dolayıb burmuşdu.

Qızın saçlarından bir çəngə tükü yenidən əliylə tutdu və lap yaxından, diqqətlə baxdı.

– Odur, həmin saçlardır! Bu necə ola bilər?! Nə vaxt olub?! Necə olub?!

Çəkməçinin alnında gərgin işləyən şüurun izləri görünəndə bunun aydın ifadə olunan əlamətini o, qızın da alnında gördü. Qızı işığa tərəf çevirib baxdı.

– O gecə mən evdən çağırılanda o qız başını çiynimə qoymuşdu, mənim getməyim onu qorxutmuşdu, mən isə qorxmurdum. Şimal qülləsinə gətiriləndə məlum oldu ki, bu tüklər paltarıma yapışıb. Nəzarətçilərə dedim: "Onların məndə qalmasına icazə verərsinizmi? Onlar mənim bədənimi xilas edə bilməz, amma ruhuma dərman olar". Bax belə dedim, indiki kimi yadımdadır.

Nəsə deməmişdən əvvəl dodağı bir neçə dəfə sözün formasını alırdı, bu formaya uyğun sözü tapanda isə o birilər də ona ilişib ləng də olsa, bir-bir gəlirdi:

– Bəs necə olub? O sən idin?

Çəkməçi qorxunc tərzdə qəflətən qıza tərəf elə çevrildi, dayanıb onlara baxan hər iki kişi diksinib irəli atıldı. Onun ikiəlli tutduğu qız isə halını da pozmadan sakitcə dayanmışdı və yavaş səslə dedi:

– Sizə yalvarıram, əziz centlmenlər, bizə yaxın gəlməyin, danışmayın, yerinizdən tərpənməyin!

– Eşit! – çəkməçi həyəcanla dedi. – O səs kimindir?

Belə deyib qızı əlindən buraxdı, dəlisov bir hərəkətlə ağ saçlarını yolmağa başladı. Sonra sakitləşdi; bu vəziyyətdə ayaqqabı tikməkdən başqa onu heç nə maraqlandırmırdı. Tutqun halda başını silkələyib gözünü qızdan çəkmədən cındırı təzədən büküb bağladı, köynəyin altından qoynuna soxub gizlətdi.

– Yox, yox, yox; siz çox gəncsiniz, çox təravətlisiniz. Ola bilməz. Görün məhbus nə günə qalıb. O qızın gördüyü əllər deyil bu, o qızın tanıdığı üz deyil bu; bu səs onun eşitdiyi səs deyil. Yox, yox. O qız da, o kişi də Şimal qülləsində keçən uzun illərdən əvvəl, neçə il öncə olub. Sizin adınız nədir, mənim gözəl mələyim?

Kişinin danışıq tonu və yumşaq davranışından təsirlənib bir az da kövrələn qız diz üstə çökərək əllərini onun sinəsinə tərəf uzatdı.

– Ah, ser, adımı sonra bilərsiniz, anamın kimliyini, atamın kim olduğunu, onların başına gələn fəlakətləri, necə olub ki, mən bunlardan xəbərsiz olmuşam, – hamısını sonra bilərsiniz. Mən bu barədə sizə indi danışa bilmərəm, burada danışa bilmərəm. İndi, burada yalnız onu deyə bilərəm ki, yalvarıram, xahiş edirəm, mənə toxunun, xeyir-dua verin. Məni öpün, öpün! Oh, mənim əzizim, əzizim!

Kişinin soyuq, ağ başı gənc qızın hərarətli başına toxunub işindi, işıqlandı; sanki onun üstünə Azadlıq işığının şəfəqləri düşdü.

– Bilmirəm bu beladirmi, amma, hər halda, ümid edirəm ki, beladir: əgər mənim səsim xoş bir musiqi kimi nə vaxtsa ruhunuzu oxşamış səsi xatırladırsa, ona görə göz yaşı tökün, ağlayın! Əgər mənim saçlarıma toxunarkən gənc və azad olduğunuz vaxt köksünüzə sığınmış sevimli başı xatırlayırsınızsa, ona görə ağlayın, ağlayın! Əgər mən gələcəkdə bizi gözləyən evdə sizə sidqi-ürəkdən qulluq edib qayğınızı çəkəcəyimə eyham vururamsa və bu sizə başqa, lap çoxdan tərk etdiyiniz, hər dəfə yadınıza düşəndə yaralı qəlbinizi sızladan evi xatırladacaqsa, ona görə ağlayın, ağlayın!

Qız onun boynunu qucaqlayıb sinəsinə sıxdı, körpə uşağa layla çalırmış kimi yelləməyə başladı.

– Ah, mənim əzizim! Əgər mən deyirəmsə, sizin əzablarınız artıq sona yetdi, mən gəlmişəm ki, sizi buradan aparım – bu isə o deməkdir ki, gözəl həyatınız boş yerə puç olub, bizim ana vətənimiz olan Fransa sizinlə amansız rəftar edib və biz artıq İngiltərəyə gedəcəyik, orada sizi rahatlıq, əmin-amanlıq gözləyir, – buna görə ağlamağa dəyər, göz yaşı tökməyə dəyər! Mən sizə öz adımı deyəcəyəm, atamın adını deyəcəyəm, artıq bu dünyada olmayan anamın da adını deyəcəyəm və onda siz özünüz də görəcəksiniz ki, əziz atamın qarşısında diz çöküb yalvarmalıyam, gecələr yatmayıb göz yaşı tökərək üzr istəməliyəm, çünki əziz anamın məhəbbəti və qayğısı atamın çəkdiyi əzabları məndən gizli saxlayıb, – buna görə göz yaşı tökməyə dəyər, buna görə ağlamağa dəyər! Anama görə ağlayın, mənə görə ağlayın! Yaxşı insanlar, baxın! Mən üzümdə müqəddəs göz yaşlarımın nəmini hiss edirəm, onun hönkürtüləri mənim ürəyimlə birlikdə vurur. Budur, baxın! Böyük Yaradana şükürlər olsun!

Qızın qolları üstünə yıxılan kişinin üzü onun sinəsinə söykənmişdi, bu mənzərəni görən hər kəsin qəlbi riqqətə gələrdi, günahsız insanı dəhşətli əzablara düçar etmiş səhv var idi burada, – dayanıb baxan hər iki seyrçi əllərilə üzünü örtdü.

Çardaqdakı sükut uzun müddət pozulmadı, kişinin qalxıb-enən sinəsi, axır ki, sakitləşdi, – hər tufandan sonra belə olur, insan həyatı da bir tufandır, o da, axır ki, sakitləşib ram olur. Dayanıb bu mənzərəni seyr edən kişilər ata ilə qızı yerdən qaldırmaq üçün irəli gəldilər. Kişi tədricən döşəməyə yıxılaraq huşsuz halda uzanıb qaldı. Qız da aşağı enib yerini elə rahladı ki, atasının başı onun qolları üstündə bərqərar oldu, saçları isə pərdə kimi onun üzünü işıqdan daldaladı.

– Əgər onu narahat etmədən, – artıq neçənçi dəfədir burnunu çəkən mister Lorri onların üstünə tərəf əyilərək qız əlini yuxarı qaldırıb ona tərəf uzadaraq dedi, – dərhal, birbaşa elə buradan aşağı düşən kimi Parisdən çıxıb gedə bilsəydik, çox yaxşı olardı.

– Amma bir şeyi də nəzərə almaq lazımdır: bu vəziyyətdə olan adam o cür ağır səfərə dözə bilərmi? – mister Lorri dedi.

– Bu dəhşətli şəhərdə qalmaqdansa, onun tez bir zamanda buranı tərk etməsi yaxşıdır.

– Düz deyir, – deyilənləri yaxşı eşitmək və nə baş verdiyini görə bilmək üçün diz üstə çöküb aşağı əyilmiş Defarj dedi. – Bir çox səbəblər üzündən müsyö Manettin Fransanı tərk edib başqa ölkəyə getməsi daha məqsədəuyğundur. İndi deyin görüm, poçt atları və fayton sifariş edimmi?

– Bu artıq başqa məsələdir, – deyə mister Lorri özünəməxsus tərzdə yekunlaşdırdı. – Əgər bir işi görmək lazımdırsa, mən çalışıb onu axıra çatdırıram.

– Onda zəhmət olmasa, – miss Manett israredici tərzdə dedi, – buranı tərk edin. Özünüz də görürsünüz ki, artıq o sakitləşib, mənim burada onunla tək qalmağım əsla qorxulu deyil. Əslində, nədən qorxursunuz? Kənar adamların bizi narahat etməməsi üçün qapını çöldən bağlayın, mən sizi əmin edirəm ki, geri qayıdanda onu elə bu cür sakit vəziyyətdə görəcəksiniz. Burada olmadığınız müddətdə nə lazımdır özüm edərəm, siz qayıdıb gələn kimi dərhal yola düşərik.

Nə mister Lorri, nə də müsyö Defarj bu təklifi məqbul saymır, hesab edirdilər ki, onlardan biri hökmən burada qalmalıdır. Amma vaxt az idi – axşamtərəfiydi, görüləsi iş isə çox idi, fayton və poçt atları məsələsini həll etməklə bərabər, yol sənədləri də alınmalıydı, ona görə də, axır ki, razılaşmalı oldular, görülməli olan işləri öz aralarında bölüşdürüb tələsik çardağı tərk etdilər.

Artıq hava qaralırdı. Atası tərəfdən başını quru döşəmənin üstünə qoyub qız da uzandı. Hava get-gedə daha çox qaralır, axşam düşürdü. Divardakı deşikdən çardağın içinə düşən işıq artıb böyüyənəcən onlar sakitcə yanaşı uzandılar.

Mister Lorriylə müsyö Defarj səfər üçün zəruri olan işlərin hamısını yerinə yetirib gəlmişdilər, yolda istifadə etmək üçün səfər plaşları və büründəklərdən əlavə, özləriylə çörək, ət, şərab, isti kofe də gətirmişdilər. Müsyö Defarj gətirdiyi yemək şeylərini və lampanı çəkməçi kətilinin üstünə qoydu (çardaqda sınıq çarpayıdan başqa ayrı bir şey yox idi), mister Lorriylə köməkləşib məhbusu yerdən qaldırdılar, hərəsi bir tərəfdən yapışdı ki, yıxılmasın.

Qoca məhbusun qorxmuş sifətinə baxan hər kəs onun nə barədə fikirləşdiyini anlaya bilməzdi. Nə baş verdiyini bilirdimi, ona deyilən sözləri dərk edirdimi, azadlığa çıxdığını anlayırdımı – ən ağıllı adam

belə bu suallara cavab verə bilməzdi. Müsyö Defarjla mister Lorri onunla danışmağa çalışdılar, amma kişi elə çaşdı, cavab verəndə elə ləngidi ki, çox həyəcanlanıb özünü itirməsinə yol verməmək üçün qərara gəldilər ki, hələlik onu narahat etməsinlər. Əvvəllər onda belə şey müşahidə olunmadığı halda, bir də görürdün özünü unutmuş halda hər iki əliylə başını tutub fikrə getdi, amma, hər halda, hiss olunurdu ki, qızının səsi xoşuna gəlir – o danışanda, bir qayda olaraq, səsgələn tərəfə çevrilirdi.

Uzun illər məhbus həyatı yaşayıb əmrə tabe olmağa adət etmiş adam kimi nə verdilər yedi, nə verdilər içdi; isti pal-paltar geyindi, üstündən səfər plaşı geyindi. Qızı qolundan tutanda isə hər iki əliylə ondan bərk yapışıb buraxmadı.

Pilləkəni düşməyə başlayanda müsyö Defarj əlində lampa tutub lap öndə gedirdi, kiçik dəstədəki axırıncı adam isə mister Lorri idi. Uzun pilləkənin bir neçə pilləsini düşmüşdülər ki, kişi dayandı, boylanıb evin dam örtüyünə, divarlara baxdı.

– Buralar sizə tanış gəlirmi, ata? Buraya necə gəldiyiniz yadınıza düşdü?

– Nə dediniz?

Qız macal tapıb sualı təkrar edənəcən kişi mızıldayıb elə cavab verdi, sanki sualı təkrar eşitmişdi.

– Yadıma düşdü? Yox, mənim yadımda deyil. Lap çoxdan olub, yadımdan çıxıb.

Hiss olunurdu ki, həbsxanadan çıxardılıb bu evə gətirildiyini unudub. Dəstə üzvləri onun mızıldayıb öz-özünə "Yüz beş. Şimal qülləsi" dediyini eşidirdilər, boylanıb ətrafa baxarkən gördüyü divarları da, yəqin ki, uzun illər sakini olduğu həbsxananın möhkəm qala divarlarına bənzədirdi. Pilləkəni düşüb həyətə çıxanda asma körpünün hərəkətə gələcəyini gözləyirmiş kimi ləngiyib yerindən tərpənmədi, görəndə ki, heç bir asma körpü yoxdur və küçədə fayton dayanıb gözləyir, qızının biləyini buraxıb əlləriylə başını tutdu.

Qapının ağzı tərəfdə heç kim yox idi, evlərin çoxsaylı pəncərələrindən boylanıb baxan da yox idi, hətta küçədən ötüb-keçən hansısa təsadüfi bir adam da gözə dəymirdi. Burada qeyri-adi bir sükut və kimsəsizlik hökm sürürdü. Ancaq bir nəfər – madam Defarj gözə dəyirdi, o da qapının ağzı tərəfdən məhəccərə söykənib nəsə toxuyurdu, başı öz işinə elə qarışmışdı ki, heç nə görmürdü.

Faytona ilk olaraq məhbus mindi, sonra onun qızı içəri keçdi, mister Lorri ayağını qaldırıb pilləkənə qoyanda isə məhbus dillənib yazıq-yazıq dedi ki, yarımçıq ayaqqabı və çəkməçi alətləri yuxarıda qalıb. Elə o anda madam Defarjın səsi eşidildi: ərini səsləyib dedi ki, o şeyləri bu saat gətirəcək. Toxumağına ara verməyən qadın lampa işığında həyətə düşdü, az keçməmiş yaddan çıxıb qalan şeyləri gətirib verdi, dərhal da məhəccərə söykənib əvvəlki kimi toxumağa başladı, yenə başı işə qarışdı, sonra nə olduğunu görə bilmədi.

Defarj faytonçunun yanına qalxıb: "Poçta tərəf sür!" – dedi. Faytonçu əlindəki qamçını şaqqıldatdı, fayton havada yellənən asma lampaların altıyla taqqataraq səs salıb uzaqlaşdı.

Abad küçələrdə parlaq yanan, yoxsul küçələrdə isə güclə közərən asma lampaların altından keçdilər, işıqlı dükanların, çilçıraqlı kafelərin, teatr binalarının, şən yığıncaqların yanından ötüb şəhər qapılarından birinə yaxınlaşdılar. Əllərində fənər tutmuş əsgərlər keşikçi məntəqəsindən çıxdılar.

– Cənab sərnişinlər, sənədlərinizi göstərin!

– Cənab zabit, bir dəqiqə olarmı? – Defarj faytondan aşağı enərək ciddi bir görkəm aldı və zabiti kənara çəkdi. – İçəridəki ağbaş cənabın sənədləri budur. Sənədləri mənə onun özüylə bir yerdə veriblər; mən onu... – bu yerdə Defarj elə yavaş danışdı ki, səsi güclə eşidildi.

Fənərlər titrəşdi. Hərbçilərdən birinin əlindəki fənər faytonun içərisinə daxil oldu, sonra oraya iki göz zillənib baxdı; onlar gecə-gündüz buradan ötüb-keçənlərin heç birinə bənzəməyən ağbaş cənaba baxırdı.

– Hər şey qaydasındadır. Gedə bilərsiniz! – hərbçi dedi.

– Sağ olun! – Defarj dedi.

Fayton get-gedə seyrələrək solğun görünən asma lampalar meşəsinin altından keçib ulduzlu, sonsuz səmanın altına çıxdı.

Göy qübbəsindəki hərəkətsiz və əbədi ulduzlardan aşağıda böyük, qara kölgələr sıxlaşmaqdaydı; elm öyrədir ki, elə ulduzlar var, çox uzaqdadır, hətta onların işığı hələ də gəlib bizim bu balaca Yer kürəsinə çatmayıb, balaca bir nöqtədə baş verənləri işıqlandırmayıb. Mister Lorri dəfn olunmuş, amma qazılaraq qəbirdən çıxardılmış adamla üzbəüz

oturub fikirləşirdi ki, görəsən, normal insana xas olan əqli xüsusiyyətlər bu adamda nə vaxtsa bərpa olunacaqmı? Gecə kölgələri isə ona rahatlıq vermirdi, bütün gecəni səhərəcən eyni sualı təkrarlayıb soruşurdular:

– Həyata qayıtdığınız üçün sevinirsiniz?

Cavab həmişə eyni olurdu:

– Mən heç nə deyə bilmərəm.

İKİNCİ KİTAB

QIZIL SAP

I fəsil

BEŞ İL SONRA

Templ Barın yaxınlığında yerləşən Tellson Bank 1780-ci ildə də geridə qalmış, köhnə dəbli bank idi. Ora olduqca darısqal və qaranlıqdı, çox eybəcər, darıxdırıcıydı. Bank köhnə dəbliydi, amma müştərilər onun balacalığıyla, qaranlıq, eybəcər və darıxdırıcılığıyla fəxr edirdilər. Onlar bankın bu xüsusiyyətləriylə öyünürdülər, hətta əmin idilər ki, bankı bu qədər cəlbedici edən məhz bu çatışmazlıqlardır. Bu təkcə passiv bir inam deyildi, biznes aləmində bundan onlar hətta bəzən bir silah kimi də istifadə edirdilər. Onlar deyirdilər ki, Tellson Banka genişlik lazım deyil, işıq lazım deyil, bər-bəzək lazım deyil. Belə şeylər Noks və kompaniyaya, Snuk qardaşlarına lazımdır, amma, Allaha şükürlər olsun ki, Tellson Banka lazım deyil.

Bank müştərilərindən hər biri Tellson Bankı yenidən qurmaq fikrinə düşən oğulu varislik hüququndan məhrum edə bilərdi. Bu cəhətdən bank sahibi artıq çoxdandır ki, hədsiz dərəcədə köntöy, amma daha çox sayılan köhnəlmiş qanunları və adətləri dəyişdirib yaxşılarıyla əvəz etmək fikrinə düşən övladlarını varislik hüququndan məhrum edən ana Vətənimizin yoluyla gedirdi.

Tellson Bank da özünəməxsus çatışmazlıqların mükəmməlliyi üzərində bərqərar olmuş şöhrətiylə öyünürdü. Sərsəm bir inadkarlıqla açılmaq istəməyən qapı, axır ki, xəstəhal xırıltıyla açılandan sonra pilləkənlə cəmi iki pillə aşağı enib özünüzə gələndə görəcəksiniz ki, balaca və miskin bir dükanın içindəsiniz, oradakı iki balaca piştaxtanın arxasında oturmuş qoca kişilərdən daha qoca görünəni sizin əlinizdəki çeki alıb sanki külək yelləyirmiş kimi yelləyib xışıldadacaq, sonra onlar

Flit-strit tərəfdən fontan vuran palçığın çirkləndirdiyi pəncərədən düşən zəif işığa yaxınlaşdırıb çekdəki imzanın həqiqi olub-olmadığını yoxlayacaqlar; pəncərədən düşən işığı Templ Barın kölgəsi və paslı barmaqlıqlar da azaldırdı. Əgər işlə əlaqədar olaraq müdiri görməlisinizsə, sizi gətirib arxa tərəfdəki həbsxana kamerasına oxşayan xüsusi bir yerə dürtəcəklər, orada siz mənasız yaşanmış həyatınız barədə o qədər fikirləşəcəksiniz ki, bir də görəcəksiniz orada əlləri cibində bir kişi var, siz isə cansıxıcı ala-toranda onu ancaq indi görə bilmisiniz. Sizə verilən, eləcə də sizdən alınan pullar taxtasını qurd yemiş köhnə siyirmələrdə saxlanılırdı, hər dəfə o siyirmələr açılıb-bağlananda çürük taxta ovuntusu havaya qalxıb sizin burnunuza və boğazınıza dolurdu. Sizə verilən kağız pullar kif iyi verirdi, siz də onları cındır əsgi kimi zibilxanaya atmaq istəyirdiniz. Sizdən qəbul olunan qiymətli qab-qacağı çirkab quyusuna oxşayan çuxurlarda saxlayırdılar, bir-iki gündən sonra onların rəngi solur, gözəlliyi itirdi. Sənədlərinizi seyfi əvəz edən mətbəx mebelinin içində gizlədəcəklər, orada ona piy və yağ hopub iylənəcək, üfunət bankın hər tərəfinə yayılıb havanı korlayacaq. İçərisində ailənizə aid sənədlərin saxlandığı yüngül qutuları pilləkənlə yuxarı qaldırıb böyük zala aparacaq, böyük stolun üstünə yığacaqlar; əvvəllər olduğu kimi, 1780-ci ildə də o stolun üstündə nahar yeməyi yeyilmirdi, lakin keçmiş sevgilinizin və uşaqlarınızın öz əlləriylə sizə yazdıqları məktublar Templ Barda qəddarcasına kəsilmiş başların bərələ qalmış gözlərindən orada yalnız son vaxtlar kifayət qədər yaxşı qorunmağa başlamışdı.

Həqiqətən də, o vaxtlar ölüm cəzasına məhkum etmə sənətkarlıq və ticarətin bütün sahələrində olduğu kimi, Tellson Bankda da dəb idi. Ölüm elə bir dərmandır ki, Təbiət onunla bütün dərdləri müalicə edir və əgər elədirsə, Qanun niyə ondan istifadə etməsin? Ona görə də saxta pul kəsəni öldürürdülər, bank biletini saxtalaşdıranı öldürürdülər, başqasının məktubunu gizlicə açıb oxuyanı öldürürdülər, Tellson Bankın qapısı ağzında dayanıb atları saxlayan atı qaçırtsaydı, onu öldürürdülər, kiçik oğurluq edib 40 şillinq 6 pens oğurlayanı öldürürdülər, 1 şillinqi saxtalaşdıranı öldürürdülər, – sözün qısası, Cinayət Məcəlləsindəki cəzaların dörddə üçü ölüm cəzasıydı. Lakin cəzanın ağırlığı heç də cinayətin azalmasına gətirmir, əks nəticə verirdi; çünki hər konkret hala tətbiq olunan cəza fərdi xarakter daşıyır, digər hallara təsir göstərmirdi. Beləliklə, o dövrün digər biznes nəhəngləri kimi, Tellson Bank da çox-

larının həyatına son qoymuşdu və əgər onların başlarını Templ Barın qarşısında cərgəyə düzmək mümkün olsaydı, onda alt mərtəbəyə düşən azacıq işığın da qarşısı kəsilərdi.

Qoca kişilər ciddi bir ədayla Tellson Bankın şkafları, sandıqları, seyfləri arasındakı darısqallıqda vurnuxur, öz işlərini görürdülər. Əgər Tellson Bankın London kontorunda işləmək üçün cavan adamı işə götürürdülərsə, onu yaşa dolub qoca kişi olana qədər haradasa gizləyib saxlayırdılar; onu pendir kimi qaranlıq yerdə o qədər saxlayırdılar ki, Tellson Banka xas olan qoxu verirdi, üz-gözü, eləcə də bütün bədəni mavi rəngli kiflə örtülürdü. Yalnız bundan sonra o adamın qısa şalvarda, dizəcən çəkilmiş corablarda, təmsil elədiyi bankın ad-sanına uyğun ağayana ədayla oturub işlədiyini – qalın bir kitabın üstünə əyilərək onun hansısa səhifəsindəki qeydləri çox diqqətlə nəzərdən keçirdiyini görmək olardı.

Yalnız zərurət üzündən içəri çağırılıb nəsə bir tapşırıq verilən, qalan vaxtlarda isə Tellson Bankın dışarında dolaşıb gah yükdaşıyan, gah da kuryer kimi çalışan, dar ayaqda hamıya lazım olan və bankın az qala canlı simvoluna çevrilmiş bir nəfər də var idi. O kişi bütün günü öz yerində olurdu, əgər iş dalınca harasa göndərilsəydi, o halda onu təpədən-dırnağacan boz rəngdə olan, eynən də özünə oxşayan 12 yaşlı oğlu əvəz edirdi. Adamlar deyirdilər ki, Tellson Bankın bu cür adamların xidmətindən istifadə etməsi tolerantlıq əlamətidir. Bank əvvəllər də ora-bura buyurmaq üçün kiminsə xidmətindən istifadə edirdi, amma indi iş elə gətirmişdi ki, o yeri bu adam tutmuşdu. Onun familiyası Krançer idi, uşaq vaxtı qaranlıqdan qorxurdu deyə Haundsditç kilsəsində ona Cerri adı verilmişdi.

Təsvir olunan hadisə Uaterfrayers kvartalında, mister Krançerin Hauqinqsvord küçəsindəki şəxsi mənzilində baş verir; 1780-ci Anno Domini ilinin küləkli bir mart günü, saat 8-in yarısıdır (mister Krançer Anno Domini əvəzinə Anmino Domineos deyirdi, çünki hesab edirdi ki, hamı tərəfindən sevilən oyunu həmin qadın kəşf edib, ona öz adını verib, xristian erası da o vaxtdan başlayır).

Mister Krançerin mənzili heç də yaxşı yerdə deyildi, əgər şüşə nəfəslikli balaca anbarı da otaq saysaq, mənzil iki otadan ibarət idi. Mənzildəki səliqə-sahmana söz ola bilməzdi. Həmin o küləkli mart günü səhər tezdən olmasına baxmayaraq, mister Krançerin yatdığı ota-

ğın döşəməsi yuyulub səliqəyə salınmışdı, böyük stolun üstünə tərtəmiz ağ örtük sərilmiş, səhər yeməyi üçün fincanlar, nəlbəkilər, boşqablar düzülmüşdü.

Mister Krançer Arlekin kimi isti yorğanın altında mürgüləyir, istirahət edirdi. Əvvəlcə o, bərk yuxuya getsə də, bir qədər sonra oyanıb yerin içində qurcuxdu, o üz-bu üzə çevrildi; nəhayət, qalxıb oturdu. Saçları elə qatma-qarışıq, elə pırpız idi, sanki onlarla yorğan-döşəyi didib-parçalayacaqdı. Çarpayıda oturduğu yerdə qəflətən qəzəblə qışqırdı:

– Bu arvad yenə öz bildiyini eləyir!

Evin küncündə diz üstə oturmuş, görkəmindən səliqəli və işgüzar adama oxşayan qadın həyəcan içində tələsik ayağa qalxıb göstərmək istədi ki, bu sözlər onun ünvanına deyilir.

– Yaxşı! – Mister Krançer çarpayıdan qalxmadan boylanıb çəkməsini axtardı. – Sən yenə öz bildiyini eləyirsən?

Səhərin gözü açılandan bəri arvadına ikinci dəfə müraciət etdikdən sonra üçüncü müraciət əvəzinə əlinə keçən çəkməni ona atdı. Çəkmə çox palçıqlıydı. Bankda işini başa vurub evə qayıdanda, adətən, mister Krançerin çəkmələri tərtəmiz olurdu, amma səhərki gün yuxudan ayılanda isə görürdü ki, çəkmələri zığın-palçığın içindədir, – mister Krançerin evində belə qəribə hadisələr də baş verirdi.

– De də, – çəkməylə hədəfi vura bilməyən mister Krançer sözləri xüsusi vurğuyla tələffüz edərək dedi, – bir de görək, sən orada neyləyirdin?

– Dua edirdim.

– Dua edirdin! Sən yaxşı arvadsan! Dizini yerə qoyub mənə qarğış tökürdün?

– Mən sənə qarğış eləmirdim, dua edirdim.

– Yalan deyirsən. Tutaq ki, düz deyirsən, axı mən sənə icazə verməmişəm. Eşidirsən, oğlum, Cerri, gör sənin nə yaxşı anan var, ataya qarğış tökür ki, işi düz gətirməsin. Sənin anan çox sözəbaxan adamdır, oğlum. Sənin anan dindardır, mənim balam; bir az oyan-buyan olan kimi dizini yerə atıb Allaha yalvarır ki, yeganə övladının bir tikə çörəyini də dartıb ağzından çıxartsınlar.

Krançerin oğlu hələ ki ancaq köynəyini geyinmişdi, atasının sözləri ona pis təsir elədi, o səbəbdən də çox sərt şəkildə anasına dedi ki, şəxsən ona aid olan işlərə qarışıb heç bir dua etməsin.

– Hə, özündənrazı arvad, necə bilirsən, – mister Krançer özündən asılı olmayaraq, yersiz bir ədayla dedi, – sənin dualarının nəyəsə xeyri varmı? Oxuduğun duaların qiyməti varsa, de görək, onların dəyəri nədir?

– Mənim dualarım ürəkdən gəlir, Cerri.

– Düzdür, onların qiyməti bununla da müəyyən olunur, – mister Krançer təkrar elədi. – Elə isə sən deyən elə bir dəyəri də yoxdur. Amma hər necə olsa da, qulağını aç eşit, gör nə deyirəm, sənin dualarının mənə lazım deyil. Mən buna imkan verməzəm. Sənin dualarının sayəsində bədbəxt olmaq istəmirəm. Əgər sən hökmən dizini yerə atmaq istəyirsənsə, heç olmasa bunu ərinlə oğlunun ziyanına yox, xeyrinə elə. Əgər mənim fərli bir arvadım olsaydı, bu yazıq uşağın da fərli bir anası olsaydı, keçən həftə nə qədər pul qazanardım, amma sənin tərsinə elədiyin duaların və cürbəcür cəfəngiyyatların ucbatından hər şey əlimdən çıxdı. Cəhənnəm olsun! – Mister Krançer deyinə-deyinə paltarını geyinirdi. – Keçən həftə çəkdiyim əziyyət sənin ucbatından puç oldu! Oğlum, Cerri, səninləyəm, tez ol paltarını geyin, mən ayaqqabılarımı təmizlədiyim müddətdə gözün ananda olsun, elə ki gördün dizini yerə qoyub aşağı çökdü, tez məni çağırarsan. Bax budur, sənə deyirəm, – yenə arvadına müraciət elədi, – mən bu işi belə qoymayacağam, görərsən. Mən köhnə araba kimi sökülüb-dağılıram, belim-buxunum quruyub qaxaca dönüb, narkotik maddə istifadə edənlər kimi gözüm açılmır, heç özüm də bilmirəm bu nə dərddir, məni tapıb. Üstəlik cibim də boşdur. Mən səndən bərk şübhələnmişəm: bütün günü səhərdən axşamacan oturub Allaha yalvarırsan ki, işlərim pis getsin, bir şey qazana bilməyim. Mən artıq buna yol verməyəcəyəm, eşidirsən, ifritə? Yol verməyəcəyəm! Hə, indi nə deyirsən?

Mister Krançer çəkmələrini təmizləməyə, ümumiyyətlə, xidməti borcunu yerinə yetirmək üçün hazırlaşmağa başladı, amma eyni zamanda arvadının ünvanına kinayəli sözlər deməkdən də əl çəkmədi: "Yox, yox, nə danışırsınız?! Bilirik, sən dindarsan, əsl Allah adamısan. Bəyəm sən ərinlə övladının ziyanına nəsə eləyərsən? Yox, əsla yox! Kim eləsə də, sən elə iş görməzsən!" – mister Krançer bax belə deyinirdi, amma əli də işdən qalmırdı. Onun oğlu – eynən atası kimi pırpız-baş balaca Cerri eynilə atasının gözlərinə oxşayan, bir-birinə çox yaxın yerləşmiş gözlərini anasına zilləyib onu bir an da gözdən qoymurdu;

paltarını geyinə-geyinə arada balaca anbardan qırağa sıçrayıb qəzəblə: "Sən niyə diz üstə çökürsən, ana? Ata, eşidirsən?" – deyir, yalandan həyəcan təbili vurur, yazıq arvadı qorxudurdu, sonra da səfeh-səfeh gülümsəyərək geri qayıdırdı.

Mister Krançer səhər yeməyi üçün süfrəyə oturanda da əhvalı yaxşı deyildi. Arvadının üstünə qəzəblə qışqırıb dedi:

– Sən neyləyirsən? Yenə öz bildiyini eləyirsən?

Arvadı dedi ki, yeməkdən əvvəl dua eləmək istəyir.

– Eləmə! – mister Krançer belə deyib elə baxdı, sanki arvadının duaları süfrədəki çörəyi də yox edəcəkdi. – İmkan vermərəm ki, məni evimdən çıxardıb küçəyə atalar, bir parça çörəyə möhtac olam. Sənə dedilər ki, yerində otur!

Sanki bütün gecəni hansısa kef məclisində keçirmiş, amma oradan ac-susuz gəlmiş kimi gözləri qıpqırmızı qızarıb qan çanağına dönmüş mister Krançerin üz-gözündən zəhrimar yağırdı; o, stolda oturub səhər yeməyini elə yeyirdi, elə bil adam deyildi, yırtıcı heyvan idi. Saat 9-a qalmış sir-sifətini, üst-başını qaydaya saldı, təbii imkanları çərçivəsində işgüzar və nəcib görünməyə çalışaraq evdən çıxıb iş yerinə yollandı.

Onun işinə nəsə bir ad vermək də çətin idi, amma o özünü "vicdanlı iş adamı" kimi təqdim etməyi xoşlayırdı. İş yerində onun bütün mebeli arxası sınıb düşmüş kreslodan düzəldilmiş bir stuldan ibarət idi ki, onu da hər səhər atasının yanına düşüb gedən gənc Cerri gətirib bankın Templ Bara yaxın olan pəncərəsinin altına qoyurdu. Stulda əyləşmiş "vicdanlı iş adamı" küçədən keçən arabaların birindən bir çəngə ot, ya da saman götürüb ayağının altına döşəyir – özünə bir növ gündəlik düşərgə düzəldirdi ki, soyuqdan, nəmdən qoruna bilsin. Mister Krançeri Flit-stritdə və Templdə hamı tanıyırdı; bu adam nəinki məşhur idi, eyni zamanda həm də Templ darvazaları qədər dəhşətliydi.

Doqquza on beş dəqiqə qalmış öz yerində əyləşərək əlini üçbucaqlı şlyapasına toxundurmaqla Tellson Bankın işə tələsən qoca kişilərini hörmətlə salamlayan Cerri küləkli mart səhəri düz vaxtında öz işinə başladı. Gənc Cerri də atasının yanını kəsdirib durmuşdu, amma o, arabir yoxa çıxırdı: yoldan ötən balaca oğlan uşaqlarının dalınca qaçıb onları ya vurur, ya da acı sözüylə cırnadıb ağladırdı. Bir almanın iki parçası kimi bir-birinə oxşayan ata və oğul başlarını bir-birinə lap yaxınlaşdırıb – onların gözləri də bir-birinə çox yaxın idi – sakitcə da-

yanaraq səhər vaxtı Flit-stritdə ora-bura gedən adamlara elə baxırdılar, deyərdin yanaşı dayanmış iki meymundur. Bu oxşarlıq hansısa təsadüf nəticəsində zərrə qədər də azalmırdı; Cerri saman çöpünü dişləyib tez-tez yerə tüpürürdü, gənc Cerri isə parlaq gözlərini atasından çəkmirdi, eyni zamanda həm də Flit-stritdə baş verənlərin hamısını görürdü.

Bank kuryerlərindən biri Tellson Bankın aralanan qapısından başını çıxarıb dedi:

– Bura gəl görüm!

– Ura, ata! Bu gün lap tezdən iş var!

İş dalınca yollanan valideynə uğur arzulayan gənc Cerri boş qalmış stulda əyləşdi, atasının çeynəyib yerə tökdüyü saman çöplərini maraqla nəzərdən keçirərək fikrə getdi.

– Həmişə pasın içində olur! Barmaqları da həmişə paslı olur! – gənc Cerri öz-özünə mızıldandı. – Mənim atama bu pas haradan bulaşır? Axı burada paslı dəmir yoxdur!

II fəsil

MƏNZƏRƏ

—Siz, yəqin ki, Old Beyli yaxşı tanıyırsınız, elədirmi? – bankın qocaman işçilərindən biri buyruq dalınca göndərdiyi Cerriyə dedi.

– Bəli, ser, – Cerri qətiyyətlə cavab verdi, – Beyli tanıyıram.

– Deməli, belə. Mister Lorrini də tanıyırsınız.

– Mister Lorrini də tanıyıram, ser, – Cerri şahid ifadəsi verməyə həvəskar olanlar kimi dedi, – onu Beyldən yaxşı tanıyıram. Mən vicdanlı bir iş adamı kimi onu Beyldən də yaxşı tanıyıram.

– Çox yaxşı. Şahidlərin içəri keçdiyi qapını taparsan, mister Lorriyə çatacaq bu vəraqi gözətçiyə göstərərsən, o səni içəri buraxacaq.

– Məhkəmə zalına, ser?

– Məhkəmə zalına.

Mister Krançerin gözləri bir-birinə daha da yaxınlaşdı, onlar öz aralarında danışdılar, biri o birinə sual verdi: "Bu barədə fikrin nədir?"

– Mən məhkəmə zalında gözləməliyəm, ser? – Cerri də bu müzakirənin yekun nəticəsini ifadə edərək soruşdu.

– Mən elə onu demək istəyirəm. Qapıçı zərfi mister Lorriyə verəcək, siz də çalışın nəsə bir işarəylə mister Lorrinin diqqətini cəlb edəsiniz, harada olduğunuzu ona bildirəsiniz. Sonra da o sizi çağırıb nəsə bir tapşırıq verənəcən orada dayanıb gözləməlisiniz.

– Elə bu, ser?

– Bəli, elə bu. O istəyir ki, xəbər daşıyan adam yanında olsun. Bu yolla ona çatdırılacaq ki, həmin adam sizsiniz.

– Bu gün məhkəmədə saxtakarlıq işinə baxılır?

– Xəyanət məsələsidir.

– Dörd yerə şaqqalama verəcəklər, – Cerri dedi. – Dəhşətli cəzadır.

– Qanun tələb edir. – Təəccüblənmiş bank işçisi eynəyin üstündən ona baxdı. – Qanunun tələbi belədir.

– Məncə, insanı şaqqalayan qanun qəddardır. İnsanı öldürmək özü artıq qəddarlıqdır, şaqqalamaq isə dəhşətdir, ser.

– Elə deyil, – qoca bank işçisi dedi. – Qanuna hörmətlə yanaşmaq lazımdır. Dostum, bilirsən nə var, yaxşı olar ki, öz boğazınla səsin barədə fikirləşəsən, qanun öz başına çarə qılacaq, o barədə narahat olma. Mən bunu öz aramızda məsləhət üçün dedim.

– Boğazımın tutulması da, səsimin kallaşması da hamısı nəmişlikdəndir, ser, – Cerri dedi. – Özünüz görürsünüz ki, bir parça çörəyi nə əziyyətlər bahasına qazanıram.

– Yaxşı, yaxşı, – qoca bank işçisi dedi, – biz müxtəlif yollarla çörəkpulu qazanırıq. Kimisi nəmişlikdə, kimisi də quraqlıqda çalışır. Budur, bu da məktub. Get işinlə məşğul ol.

Cerri məktubu aldı, deyinib ürəyində "Ay qoca kaftar" dedi, amma bunu üzə vurmayıb baş əydi, yola düzəlib getdi. Öz oturduğu yerdən keçəndə hara getdiyini oğluna dedi, yenə yoluna davam elədi.

O vaxt cinayətkarları Londonun şimal-qərbində, Tayberndə asırdılar deyə Nyuqeyt həbsxanasının qarşısındakı küçə öz iyrənc şöhrətiylə ad çıxarıb məşhurlaşmamışdı, bu, sonradan belə oldu. Həbsxana özü çox iyrənc bir yer idi, orada hər cür pozğunluq baş alıb gedirdi, ora ən dəhşətli yoluxucu xəstəliklərin yuvasıydı; məhbuslar o xəstəliklərin mikroblarını məhkəmə zalına gətirir, hakimləri də yoluxdururdular. Elə də olurdu ki, başına qara papaq qoyub ölüm hökmü oxuyan hakim özünü də ölüm cəzasına məhkum edirdi, hətta çox vaxt məhbusdan əvvəl dünyasını dəyişirdi. Bundan əlavə, Old Beyl həm də ölüm düşərgəsi kimi məşhurlaşmışdı, rəngi saralıb-solmuş adamları mütəmadi olaraq burada faytonlara, arabalara doldurub dəhşətli səfərə – o dünyaya göndərirdilər; gediş-gəlişi çox olan küçəylə bu adamlar vur-tut 2 mil yarım yol gedirdilər, amma bəzən bu mənzərəni görüb xəcalət çəkən insanlar da tapılırdı. İnsanlar pis şeylərə öyrəşib adətkar olurlar, bunun qarşısını almaq çox çətindir, ona görə də lap əvvəldən onları yaxşı şeylərə öyrəşdirmək lazımdır. Orada qədim tarixə malik olmaqla bərabər, həm də dərin kök salmış bir cəza tədbiri – rüsvayetmə də vardı ki, onun hələ nə qədər davam edəcəyini, hansı nəticələr verəcəyini

heç kim deyə bilməzdi; orada siz qamçı cəzasına – insanların əxlaqını yumşaldıb humanistləşdirən qədim cəzaya məhkum olunanların necə döyüldüyünü də öz gözlərinizlə görə bilərdiniz; orada satqınlıq, yalançı şahidlik, rüşvətxorluq da geniş yayılmışdı ki, bu da şəxsi maraq zəminində digər cinayətlərin yayılıb vüsət almasına səbəb olmaqla bərabər, həm də ulu əcdadlarımızın müdrikliyini bir daha sübut edirdi. Ümumiyyətlə, o vaxt Old Beyl "o şey ki mövcuddur, o, düzdür" prinsipinin simvolu hesab oluna bilərdi, amma bu tənbəl aforizmdən kifayət qədər narahatlıq doğuran bir nəticə də çıxır: o şeylər ki olmayıb, onlar düz deyil.

Dəhşətli mənzərəni seyr etmək üçün hər tərəfdən axışıb gəlmiş üfunətli insan yığnaqlarını məharətlə keçib gedən qasid axtardığı qapını, axır ki, tapdı və məktubu içəri ötürdü. Old Beyldə baş verənlərə baxmaq istəyənlər üçün giriş pulluydu, Bedlam dəlixanasında baş verənlərə baxmaq üçün də pul vermək lazım idi, amma Old Beylə giriş baha başa gəlirdi. Ona görə də cinayətkarların içəri daxil olduğu və həmişə açıq olan qapıdan başqa digər qapıların hamısında gözətçi dayanırdı.

Xeyli çək-çevirdən, ləngimədən, etirazdan sonra qapı, axır ki, həvəssiz də olsa, bir balaca açıldı və mister Cerri Krançer sivişib məhkəmə zalına girdi.

– Burada hansı işə baxırlar? – mister Krançer pıçıltıyla danışaraq böyründəki kişidən soruşdu.

– Hələ ki heç bir işə baxılmır.

– Növbəti iş hansıdır?

– Xəyanət işidir.

– Dörd yerə şaqqalamaq, eləmi?

– Ah! – kişi xüsusi bir zövqlə dedi. – Onu yarımasılı vəziyyətdə dartıb meydançaya gətirəcəklər, sonra aşağı endirib özü baxa-baxa doğrayacaqlar, sonra da öz gözünün qabağında içalatını çıxardıb yandıracaqlar, sonra da bədənini şaqqalayıb dörd yerə bölәcəklər.

– Siz demək istəyirsiniz ki, əgər günahı sübut olunsa, elə eləyəcəklər, eləmi? – Cerri dəqiqləşdirmək istədi.

– Eh, nə danışırsınız, onlar onsuz da onun günahkar olduğunu sübut edəcəklər, – başqa bir kişi dedi. – Siz o barədə narahat olmayın.

Elə həmin anda mister Krançer əlində məktub tutub mister Lorriyə tərəf gedən mühafizəçini gördü. Mister Lorri parikli centlmenlərin arasında əyləşmişdi, əslində, o, müttəhimin vəkili olan və qarşısındakı stolun üstünə bir qalaq kağız yığılmış centlmenin böyründə, gözünü zalın tavanına zilləyib baxaraq əllərini cibinə soxub oturmuş centlmenlə üzbəüz oturmuşdu; mister Krançer sonra bir neçə dəfə o tərəfə baxdı, hər dəfə də gördü ki, əllərini cibindən çıxartmayan centlmen çox diqqətlə məhkəmə zalının tavanını nəzərdən keçirir. Mister Krançer bir neçə dəfə xırıltılı səslə öskürdü, əliylə müxtəlif jestlər elədi, nəhayət, mister Lorrinin diqqətini cəlb eləyə bildi və o da ayağa durub boylandı, sakitcə başını tərpətdi, sonra təzədən oturdu.

– Bu işin o adama aidiyyəti varmı? – Cerriylə danışan kişi dedi.

– Heç nə deyə bilmərəm, – Cerri dedi.

– Üzr istəyirəm, elə-belə maraq üçün bilmək istərdim: sizin özünüzün necə, bu işə aidiyyətiniz varmı?

– O barədə də heç nə deyə bilmərəm, – Cerri dedi.

Hakimin gəlişiylə zalda əvvəlcə bir canlanma oldu, sonra hamı sakitləşdi, o iki nəfərin dialoqu da sona yetdi. Dərhal da hamının diqqəti müttəhim kürsüsünə yönəldi. İki həbsxana nəzarətçisi tez zaldan çıxıb məhbusu içəri gətirdi.

Əllərini cibinə soxub diqqətlə tavana baxan centlmendən başqa hər kəsin nəzəri məhbusa çevrildi. Zaldakı adamların hamısının nəfəsi külək kimi, dəniz kimi, ya da bəlkə, alov kimi o tərəfə istiqamətləndi. Məhbusu görmək üçün künc-bucaqdan, sütunların dalından sifətlər acgözlüklə dartıldı; o adamın bir tükünü də gözdən qaçırmamaq üçün arxa cərgədəkilər ayağa durdular, zalın aşağı tərəfində oturanlar əllərini qarşı tərəfdəkilərin çiyninə qoyaraq ayaq barmaqlarının ucunda dayanıb yuxarı dartındılar, hansısa taxtanın üstünə qalxdılar, – bir sözlə, hər oyundan çıxdılar ki, məhbusu əməlli-başlı görə bilsinlər. Bu basabasda sanki cana gəlmiş Nyuqeyt divarının bürcləri kimi başının tükləri biz-biz dayanmış Cerrini görməmək mümkün deyildi: məhkəmə zalına gələndə yolüstü içdiyi pivənin qoxusunu o biri tamaşaçıların cin, pivə, çay, kofe və daha nələr qoxuyan nəfəsinə qatıb məhbusa tərəf yönəldirdi, müxtəlif qoxuların qarışığı olan nəfəs axını isə məhbusun arxasındakı böyük pəncələrin çirkli şüşələrinə dəyib dumana, suya çevrilirdi.

Adamları bu cür çaxnaşmaya salan, hamını gərgin maraq içində boylanıb baxmağa vadar edən haradasa 25 yaşlı, qaragöz, sifəti gündən

yanmış, boylu-buxunlu, yaraşıqlı bir oğlan idi. Görkəmindən bilinirdi ki, bu adam gənc bir centlmendir. Əynindəki paltar qara rəngdəydi, ya da çox tünd rəngli boz rəngdəydi, uzun, qara saçları geriyə daranaraq başının dalında rezinlə bağlanmışdı: bunu o, yaraşıq üçün deyil, saçı üzünə dağılıb mane olmasın deyə belə eləmişdi. İnsan psixikasında baş verən hər bir dəyişiklik onun bədənində əks olunduğu kimi, düşdüyü vəziyyətin təbii həyəcanından doğan sifət solğunluğu da gündən yanıb tutqun rəng almış yanaqlarında özünü büruzə verir – ruhun günəşdən güclü olduğunu sübut edirdi. Cavan oğlan əsla özünü itirmədən hakimə baş əyib sakitcə dayandı.

Adamların bu qədər maraqla, acgözlüklə ona baxmasının səbəbi insanlıq adına şərəf gətirən yüksək humanist duyğularla bağlı deyildi. Əgər cavan oğlanı qarşıda gözləyən dəhşətli cəzanın – daha doğrusu, tükürpədici cəzalar toplusunun – bircə detalı nisbətən az dəhşətli cəzayla əvəz edilsəydi, onda onun cəlbediciliyi də yox olardı. İndi hamının gördüyü o bədən – forma utanc gətirən doğranıb şaqqalanma cəzasına məhkum edilmişdi; ölməz, əbədi ruh dağılmış formanın hər zərrəciyində özünü göstərəcək: hər bədən parçasının öz hissiyatı, öz duyğusu olacaq. Hər tamaşaçı özünü aldadaraq bu acgöz marağı müxtəlif yollarla ört-basdır eləyib tamam başqa cür yozmağa çalışsa da, bunun kökü insanın əzəli qaniçənliyiylə bağlıdır.

Məhkəmə zalında sakitliyə riayət edin! Çarlz Darney dünənki məhkəmə iclasında ona qarşı irəli sürülən ittiham üzrə özünün günahkar olduğunu inkar elədi; əslində isə o bizim mərhəmətli, şan-şöhrətli, şövkətli və möhtərəm kralımıza xəyanət edərək Fransa kralına cürbəcür vasitələrlə, müxtəlif yollarla kömək etmiş, onun bizim mərhəmətli, şan-şöhrətli, şövkətli və möhtərəm kralımıza qarşı apardığı müharibədə qələbə qazanması üçün əlindən gələni etmişdir, belə ki, bizim mərhəmətli, şan-şöhrətli, şövkətli və möhtərəm kralımızın məmləkətiylə fransız kralı Lüdoviqin məmləkəti arasında ora-bura gedib-gələrək əxlaqsızcasına yalan danışıb satqınlıq etmişdir – fransız kralı Lüdoviqə bizim mərhəmətli, şan-şöhrətli, şövkətli və möhtərəm kralımızın nə qədər hərbi qüvvəyə malik olduğunu, eləcə də Kanadaya, Şimali Amerikaya göndərilmək üçün nə qədər əsgəri qüvvə hazırlandığını xəbər vermişdir.

Anlaşılmaz hüquq terminlərinin ağırlığı altında Cerrinin pırpız başının tükləri bir az da pırpızlaşdı, amma o, birbaşa olmasa da, dolayısı yolla hiss edir, çox çətinliklə, amma məmnuniyyətlə başa düşürdü ki, qarşı tərəfdə dayanmış və adı artıq neçənci dəfədir hallanan Çarlz Darneyin vaxtına az qalıb; odur, məhkəmə iclasçıları artıq and içdilər, indi də çıxış etmək üçün cənab baş prokuror hazırlaşır.

Zaldakılar müttəhimi (heç bilən yox idi o kimdir) artıq xəyalən də olsa, asılmış vəziyyətdə görürdülər, onun başı kəsilmişdi, bədəni şaqqalanıb dörd yerə bölünmüşdü. O isə hələ ki sağ-salamat idi, əsla özünü itirmir, artıq-əskik hərəkətə yol vermirdi, sakitcə dayanmışdı, çox böyük diqqət və maraqla işin gedişatını izləyirdi; əlini qarşıdakı taxta məhəccərə söykəyib elə sakit dayanmışdı, ovcunun altındakı quru otun bir çöpü də tərpənmirdi. Həbsxananın iyrənc üfunətini azaltmaq məqsədilə, eləcə də yoluxucu mikrobları məhv etmək üçün zalın hər tərəfinə quru ot döşəyib üstünə sirkə çiləmişdilər.

Müttəhimin başı üstündən güzgü asmışdılar ki, işığı əks edib onun üstünə salsın. Neçə caninin, neçə günahsız bədbəxtin surəti o güzgüdə əks olunmuş, sonra da heç bir iz qoymadan silinib getmişdi; onların izi Yer üzündən də o cür silinib getmişdi. Okean öz sularında boğulanların cəsədini üzə çıxartdığı kimi, bu güzgü də əks etdirdiyi simaları geri qaytara bilsəydi, məhkəmə zalı çox dəhşətli sifətlərlə dolardı. Məhbus ya güzgünün oradan asılmasını özü üçün təhqir saydı, ya da qəflətən gözünə işıq düşdü deyə başını qaldırıb yuxarı baxdı, güzgünü görəndə rəngi qızardı, taxtanın üstündəki otu sağ əliylə sivirib qıraға atdı və bu zaman onun üzü məhkəmə zalının sol tərəfinə çevrildi. Onun gözüylə eyni səviyyədə, şahidlər üçün ayrılmış yerin küncündə oturmuş iki nəfəri görəndə sifəti elə dəyişdi, zalda oturub diqqətlə ona baxan adamlar da çevrilib o iki nəfərə baxdılar.

O iki nəfərdən biri haradasa 20 yaşlı gənc lediydi, o biri isə, çox güman ki, qızın atasıydı; görkəmindən bir centlmen olduğu görünən kişinin əsas diqqətçəkən əlaməti ağappaq ağarmış saçlarıydı, bir də simasındakı sözlə ifadəsi çətin, bəlkə də, mümkün olmayan gərginlik idi ki, bu da beyinin fəal işləyib düşüncəyə dalması əlaməti deyildi, bu, insanın öz içinə çəkilib tək qalması, yalnız özüylə danışması, ya da nəyəsə qulaq asması kimi yozula bilərdi. Kişinin üzündə həmin o gərgin ifadə olanda çox qoca görünürdü, amma elə ki hərəkətə gəlib canlanırdı, –

indi qızıyla danışarkən olduğu kimi, – onda məlum olurdu ki, ortayaşlı, yaraşıqlı bir centlmendir.

Qız atasının böyründə oturub bir əliylə onun qolundan yapışmışdı, o biri əliylə də öz əlindən tutmuşdu. Gördüyü mənzərə qızı dəhşətə gətirmişdi; müttəhimə qarşı duyduğu mərhəmət hissinin təsiriylə atasına tərəf bir az da yaxınlaşaraq ona qısıldı. Mərhəmət, get-gedə artmaqda olan dəhşətli qorxu hissi qızın çöhrəsində aydınca ifadə olunurdu, görünürdü ki, qız o məhkumu gözləyən təhlükədən başqa heç nə görmür, hiss eləmir. Eyni zamanda bu mənzərə təbii olduğu qədər də böyük təsir gücünə malik idi, odur ki məhkumun halına zərrə qədər də acımayan tamaşaçılar özləri də qızın halını görüb həyəcanlandılar, zalda pıçıltı səsləri artdı, adamlar bir-birindən soruşdular: "Bunlar kimdir belə?"

Qasid Cerri məhkəmə zalında öz şəxsi müşahidələrini aparırdı, boynunu uzadıb baxır, o iki nəfərin kimliyini öyrənmək istəyirdi, həm də bu işə o qədər aludə olmuşdu ki, bütün barmaqlarını sorub pasını təmizləmişdi. Cerrinin ətrafındakı adamlar sıxlaşdılar, sualı bir-birinə ötürdülər, cavab da ötür-ötür həmin yolla geri qayıdıb Cerriyə çatdı:

– Şahidlərdir.

– Hansı tərəfin şahidləridir?

– Əks tərəfin.

– Əks tərəf nədir?

– Məhkuma qarşı.

Hakim hamının baxdığı tərəfə baxdı, kürəyini stulun söykənəcəyinə dirəyib yayxandı, lap sonda o insanın ki taleyi indi onun əlindəydi, ona tərəf baxdı; baş prokuror yerindən qalxıb kəndiri sahmana saldı, baltanın ağzını yoxladı, eşafotun taxtasına mismar vurdu.

III fəsil

MƏYUSLUQ

Cənab baş prokuror məhkəmə iclasçılarına məlumat verib dedi ki, indi onların qarşısında dayanmış məhkum gənc olsa da, artıq neçə illərdir ki, ölüm cəzasıyla cəzalandırılmalı olan xəyanətkarlıq fəaliyyətiylə məşğuldur. Bizim ümumi düşmənimizlə əlaqələri nə bu gün, nə də dünən başlamayıb, bu işlə bağlılığı keçən ilə, inişilə də aid deyil. Dəqiq məlumdur ki, müttəhim çoxdan bəridir Fransa ilə İngiltərə arasında ora-bura gedib-gəlir, hansısa gizli işlə məşğul olur və o barədə qənaətbəxş sayıla biləcək bir hesabat da verə bilmir. Əgər xəyanətin yolları açıq olsaydı (xoşbəxtlikdən, bu, heç vaxt mümkün olmur), müttəhimin cinayətkar fəaliyyəti də gizli qala bilərdi. Amma iş elə gətirmişdir ki, bir alicənab, qorxubilməz vətəndaş müttəhimin əsl niyyətinin nədən ibarət olduğunu biləndə dəhşətə gəlmiş, dərhal da cənab nazirə və çox hörmətli Gizli Şuraya o barədə məlumat vermişdir. İndi həmin o vətənpərvər insan məhkəmədə özü çıxış edəcək. Onun sözü ilə işi birdir, məqsədi alidir. Bir vaxtlar o, müttəhimlə dostluq etmişdir, lakin hansısa bir məqamda onun xəbis və şərəfsiz niyyətini başa düşüb, dərhal da qərara gəlib ki, belәsiylə dostluq eləyə bilməz, hökmən ədalət məhkəməsinə müraciət etməlidir. Əgər Qədim Yunanıstanda və Romada olduğu kimi, Britaniyada da vətən qarşısında xüsusi xidmətə görə vətəndaşa heykəl qoyulmasını rəsmiləşdirən bir qanun olsaydı, onda bu nümunəvi vətəndaş hökmən o şərəfə layiq görülərdi. Amma bizdə belə bir qanun yoxdur deyə, çox güman ki, bu adamın şərəfinə heykəl ucaldılmayacaq. Şairlərə istinadən deyə bilərik ki, insan comərdliyi başqalarına güclü təsir edir; o sətirləri burada təkrar

etməyə ehtiyac yoxdur, məhkəmə iclasçılarına onlar məlumdur və üzlərindən də görünür ki, sözbəsöz dillərinin ucunda dolaşmaqdadır (amma bu məqamda məhkəmə iclasçıları o sətirlərdən xəbərsiz olduqları üçün özlərini günahkar hiss edirdilər, üzlərindən oxunan da elə bu idi), vətənpərvərlik və patriotizm isə daha güclü təsir qüvvəsinə malikdir. Bunun da ən bariz nümunəsi, şübhəsiz ki, haqqında danışdığımız həmin o vətənpərvər insandır, hətta ən ləyaqətsiz işlərlə bağlı onun adının hallanmasını da şərəf sayaraq deməliyik ki, o vətənpərvər insan müttəhiminin xidmətçisiylə münasibət yaradaraq onu da müqəddəs iş üçün əməkdaşlığa sövq etmişdir, nəticədə müttəhimin cibləri, yazı stolunun siyirmələri yoxlanılmış, oradakı gizli sənədlər götürülmüşdür. Hal-hazırda o (cənab baş prokuror) həmin ləyaqətli xidmətçini öz bacı-qardaşından yaxın bilir, ata-anasından çox sevir, amma, bununla belə, indi o (cənab baş prokuror) məhkəmə zalında kimlərinsə o ləyaqətli xidmətçi barədə ləyaqətsiz fikirlərini də eşitməyə hazırdır. Eyni zamanda o əsla şübhə etmir ki, məhkəmə iclasçıları da onunla həmfikirdirlər. Bu iki şahidin ifadələri və onlara əlavə olunan sənədlər birlikdə sübut edir ki, dənizdəki, eləcə də qurudakı silahlı qüvvələrimizin sayı, onların yerləşdirilməsi, döyüş hazırlığı barədə müttəhim kifayət qədər məlumat əldə edib və şübhə yoxdur ki, adətən elədiyi kimi, onu da düşmən tərəfə ötürmüşdür. O vərəqləri müttəhimin yazdığı sübut olunmur, amma bunun elə bir əhəmiyyəti yoxdur və əslində, öz cinayətini ört-basdır etmək üçün onun çox ehtiyatlı tərpəndiyini, hiyləyə əl atdığını göstərir. Əldə olunmuş sənədlərin bəziləri beş il əvvəlki dövrə aiddir, bu isə göstərir ki, Britaniya və Amerika silahlı qüvvələri arasında baş vermiş ilk silahlı toqquşmadan bir neçə həftə əvvəl müttəhim artıq öz xəyanətkar fəaliyyətinə başlayıbmış. Ona görə də inanılmış, etibarlı (bunun belə olduğunu o özü yaxşı bilir) məhkəmə iclasçıları eyni zamanda həm də məsuliyyət daşıyırlar (bunu onlar özləri də yaxşı bilir) və indi müttəhimin günahını sübut edəcəklər, onun barəsində ölüm hökmü çıxaracaqlar, – bu onların ürəyincə olsa da, olmasa da, belə olacaq. Müttəhimin başı bədənindən ayrılmayınca onlardan heç biri öz başını yastığa qoya bilməz, xəyalına da gətirə bilməz ki, onun arvadı başını yastığa qoya bilər, yaxud təsəvvür edə bilməz ki, onun uşaqları başlarını yastığa qoyub rahat yata bilərlər, – sözün qısası, nə qədər ki müttəhimin başı bədənindən ayrılmayıb, nə onların özləri, nə

də yaxın adamları başlarını yastığa qoya bilməzlər. Ciddi bir ədayla öz tələblərini irəli sürən cənab baş prokuror çıxışını yekunlaşdırıb and içdi ki, müttəhim artıq onun üçün bu dünyada yoxdur, edam olunub.

Baş prokuror nitqini bitirəndə zalda uğultu qopdu, sanki müttəhimin başı üstündə vızıldaşan iri, göy milçəklər buludu qalxıb onun artıq cansız cəsədə çevrilmiş bədəninin ətrafında fırlanmağa başladı. Uğultu azalanda isə şahid ifadəsi verənlər üçün ayrılmış yerdə həmin o alicənab vətəndaş, ləkəsiz patriot göründü.

Cənab baş prokurorun müavini öz şefinin yoluyla gedərək patriotu dindirməyə başladı: Con Barsed adlı bir centlmendi. Onun dedikləri cənab baş prokurorun dedikləriylə üst-üstə düşürdü, burada yeganə səhv vardısa, o da həddən ziyadə dəqiqlik idi. Danışıb ürəyini boşaltmış şahid təvazökarlıqla çəkilib getmək istəyirdi ki, qarşısına bir qalaq kağız yığıb mister Lorrinin yanında əyləşmiş parikli centlmen dedi ki, şahidə bir neçə sual vermək istəyir. Qarşı tərəfdə əyləşmiş parikli centlmen hələ də gözünü tavana zilləyib oturmuşdu.

– Şahid özü necə, nə vaxtsa casusluqla məşğul olubmu?

– Yox, hətta bu eyhamın özünü də nifrətlə rədd edirəm.

– Yaşamaq üçün hansı gəlir mənbəyiniz var?

– Torpaq sahəsi var.

– Torpaq sahəsi haradadır?

– Torpaq sahəsinin harada olduğu dəqiq yadımda deyil.

– Orada nə var?

– Bunun heç kimə dəxli yoxdur.

– Torpaq sahəsi vərəsəlik yoluyla əldə edilib?

– Bəli.

– Kimdən?

– Uzaq qohumdan.

– Çox uzaq qohumdur?

– Kifayət qədər uzaq qohumdur.

– Həbsxanada olmusunuz?

– Heç vaxt.

– Borca görə həbsxanaya düşməmisiniz?

– Başa düşmədim, bunun məsələyə nə dəxli var?

– Borcunuz olduğu üçün həbsxanaya düşmüsünüzmü? Cavab verin, yenə soruşuram: həbsxanada olmusunuz?

– Olmuşam.
– Neçə dəfə?
– İki, ya da üç dəfə.
– Bəlkə, beş-altı dəfə?
– Ola bilər.
– Nə işlə məşğulsunuz?
– Centlmenəm.
– Döyüldüyünüz olubmu?
– Bəlkə də, olub.
– Çox olub?
– Yox.
– Sizi itələyib pilləkəndən aşağı salıblar?
– Yox, elə şey olmayıb. Cəmi bir dəfə pilləkənin başında məni döyüblər, amma pilləkəni özüm düşmüşəm.
– Qumar oynayanda fırıldaq gəldiyiniz üçün döyülmüsünüzmü?
– Mənə hücum eləyən əyyaşın birisi belə bir söz işlədib, amma bu, ağ yalandır.
– And içə bilərsinizmi ki, yalandır?
– And içərəm.
– Qumarda fırıldaq yoluyla qazandığınız pulların hesabına yaşadığınız olubmu?
– Heç vaxt.
– Azart oyunların sizin üçün həyat tərzinə çevrildiyi olubmu?
– O biri centlmenlərdə necə olubsa, məndə də elə olub.
– Müttəhimdən borc alırdınızmı?
– Alırdım.
– Bəs qaytarmaq necə?
– Yox, qaytarmırdım.
– Müttəhimlə dostluğunuz ondan ibarət olub ki, poçt karetində, mehmanxanada, gəmidə, – bir sözlə, harada görsəniz, əl çəkmirdiniz, elədirmi?
– Yox, elə deyil.
– Bu siyahıları müttəhimdə görmüsünüz?
– Əlbəttə, görmüşəm.
– Siyahılar barədə daha nə bilirsiniz?
– Heç nə bilmirəm.

– Siyahıları siz özünüz onun stolunun siyirməsinə atmamısınız ki?
– Yox.
– Bu fəaliyyətinizə görə nəsə alacağınıza ümid edirsiniz?
– Yox.
– Başqalarına tələ quran muzdlu agentsiniz, yoxsa sizə xüsusi olaraq belə bir göstəriş verilib?
– Oh, yox, nə danışırsınız, yox.
– Bəlkə, sizə başqa bir tapşırıq da verilib?
– Ah, yox, nə danışırsınız.
– And içə bilərsiniz?
– Nəyə desəniz and içərəm.
– Patriotizmdən başqa ayrı bir motiv yoxdur ki?
– Başqa motiv yoxdur.

Ləyaqətli xidmətçi Rocer Klay and içib hadisəylə bağlı şahid ifadəsi verməyə başladı. Heç nədən şübhələnməyən bu xeyirxah və sadəlövh insan dörd il əvvəl müttəhimə xidmətçilik etməyə başlayıb. Sərnişin gəmisiylə Kaleyə gedəndə o özü müttəhimə yaxınlaşaraq soruşub ki, sizə xidmətçi lazım deyil? Müttəhim də onu özünə xidmətçi götürüb. Yox, o, müttəhimə yalvarmayıb, deməyib ki, rəhm eləyib onu özünə xidmətçi götürsün; heç vaxt elə söhbət olmayıb. Xidmətçi kimi fəaliyyətə başlayan kimi də müttəhimdən şübhələnib və altdan-altdan ona göz qoyub, güdüb. Səyahət zamanı müttəhimin paltarını təmizləyib qaydaya salanda onun cibində dəfələrlə belə siyahılar görüb. Bu siyahıları o, müttəhimin yazı stolunun siyirməsindən götürüb, amma siyahıları əvvəlcədən oraya qoymayıb. Müttəhimin bu cür siyahıları Qaledə və Bulonda fransız centlmenlərə göstərdiyini öz gözüylə görüb. O öz vətənini sevir, ona görə də müttəhimin bu hərəkətinə göz yuma bilməyib, dərhal da lazım olan yerə məlumat verib. Gümüş çaynik oğurluğunda onun əli olmayıb, xardal qabına gəlincə, elə bir söhbət olub, amma sonra məlum olub ki, ona böhtan atırlar, xardal qabı gümüşdən deyil, gümüş suyuna çəkilmiş adi qabdır. Ondan əvvəl ifadə verən şahidlə yeddi-səkkiz il əvvəl, təsadüfən tanış olub. Təsadüflərin çoxu maraqlı olsa da, bu təsadüfdə o, maraqlı heç nə görmür. Həqiqi vətənpərvərliyin yeganə motiv olduğunu da o, maraqlı təsadüf kimi qiymətləndirmir. O əsl ingilisdir və əmindir ki, onun kimiləri az deyil.

Zalda mavi milçəklər yenidən vızıldaşdı, cənab baş prokuror bu dəfə mister Carvis Lorrini çağırdı.

– Mister Carvis Lorri, siz Tellson Bankda işləyirsiniz, eləmi?

– Bəli.

– 1775-ci ilin noyabr ayında, həftənin cümə günü, gecə vaxtı işlə əlaqədar olaraq Londondan Duvra getmisiniz?

– Bəli, getmişəm.

– Poçt karetində sizdən başqa da sərnişin olubmu?

– Olub. İki nəfər.

– Gecə vaxtı onlar yolda düşdülər?

– Bəli.

– Mister Lorri, müttəhimə yaxşı baxın. Həmin iki sərnişindən biri bu adam deyildi ki?

– Sərnişinlərdən birinin bu adam olduğunu deyə bilmərəm.

– O iki sərnişindən hansınasa oxşamır?

– Gecə qaranlıq idi, onlar bərk-bərk bürünmüşdülər; biz hamımız qorxu içindəydik, ona görə də bir-birimizlə danışmır, tanış olmurduq. O səbəbdən də mən onların üzünü görməmişəm və heç nə deyə bilmərəm.

– Mister Lorri, müttəhimə bir də baxın. Təsəvvür edin ki, o, bürüncəklidir, heç olmasa bədən quruluşuna, boy-buxununa görə o iki sərnişindən birinə oxşadığını demək mümkün deyil?

– Yox, mümkün deyil.

– Mister Lorri, and içə bilərsinizmi ki, o iki sərnişindən biri bu deyildi?

– Yox.

– Onda belə çıxır ki, siz onlardan birinin müttəhim ola biləcəyini inkar etmirsiniz?

– Bəli. Amma yadımdadır ki, o sərnişinlərin hər ikisi mənim kimi quldurlardan qorxurdu, müttəhim isə qorxaq adama oxşamır.

– Adamların qəsdən özlərini qorxaq kimi göstərdiklərini görməmisiniz, mister Lorri?

– Görmüşəm.

– Mister Lorri, müttəhimə bir də baxın. Tam əminliklə deyə bilərsinizmi bu adamı əvvəllər haradasa görmüsünüz?

– Görmüşəm.

– Nə vaxt?

– Həmin səfərdən bir neçə gün sonra mən Fransadan gəmiylə geri qayıdarkən Kaledə müttəhim bizim gəmiyə mindi; onda görmüşəm.

– Gəmiyə o nə vaxt mindi?

– Gecəyarısından bir az sonra mindi.

– Belə çıxır ki, gecəyarısı minib. Gecənin o vaxtı gəmiyə minən tək o idi?

– Bəli, elə oldu ki, ancaq o mindi.

– "Elə oldu ki" deməyin, mister Lorri. Deməli, gecənin gec vaxtı gəmiyə minən yeganə sərnişin bu adam olub, elədirmi?

– Bəli.

– Mister Lorri, siz səfərə tək çıxmışdınız, yoxsa ayrı yoldaşınız da var idi?

– İki yoldaşım var idi: bir centlmen, bir də onun qızı, gənc ledi. Onlar ikisi də buradadır.

– Onlar buradadırlar. Siz müttəhimlə nə barədəsə danışdınızmı?

– Demək olar ki, yox. Fırtınalı bir havaydı, yol uzaqdı, narahatçılıqdı deyə mən gəmiyə minən kimi divanda uzandım, səfər başa çatanacan da o vəziyyətdə qaldım.

– Miss Manett!

Hamının diqqətini bir qədər əvvəl özünə cəlb etmiş gənc ledi oturduğu yerdən ayağa durdu, zaldakı adamların baxışları yenidən o tərəfə yönəldi. Qızın əlini öz biləyiylə sıxıb saxlamış atası da onunla birlikdə qalxdı.

– Miss Manett, müttəhimə baxın.

Müttəhim üçün bu cür zəif, eyni zamanda bu qədər ciddi olan gənclik və gözəllik mücəssəməsiylə üzbəüz dayanmaq zaldakı adamların hamısıyla üzbəüz dayanmaqdan qat-qat çətin idi. Sanki o özü üçün qazılmış məzarın böyründə qızla yanaşı dayanmışdı, hətta acgöz maraqla baxan adamların baxışları da onu əvvəlki kimi özünü ələ alıb həyəcanını gizlətməyə məcbur edə bilmirdi. Onun sağ əli tələsik bir hərəkətlə qarşısındakı otları bölür, dəstələyir, xəyali bağın çiçək ləklərinə düzürdü; təngiyən nəfəsini nizamlamağa çalışırdı, dodaqlarını dişləmişdi ki, onların titrədiyi bilinməsin, dodağına allıq verən qan qayıdıb ürəyinə dolurdu. Mavi milçəklərin vızıldaşması yenə gücləndi.

– Miss Manett, siz müttəhimi əvvəllər görmüsünüz?

– Bəli, ser.

– Harada?

– Artıq burada qeyd olunduğu kimi, gəmiylə səfərə çıxanda görmüşəm.

– Bayaq haqqında danışılan gənc ledi sizsiniz?

– Ah, çox təəssüf ki, mənəm!

Qızın hüzn və kədər ifadə edən həzin səsini hakimin qəzəbli səsi batırdı:

– Sizə verilən suallara cavab verin, yersiz ifadələr işlətmək lazım deyil.

– Miss Manett, siz gəmiylə səyahətə çıxdığınız vaxt müttəhimlə söhbət etmisiniz?

– Bəli, ser.

– Nə barədə danışdığınızı yadınıza salın.

Zalda hökm sürən səssizlik içində qızın zəif səsi eşidildi:

– Centlmen gəmiyə minəndə...

– Siz müttəhimi nəzərdə tutursunuz? – hakim qaşlarını çatıb dedi.

– Bəli, milord.

– Onda zəhmət çəkin "müttəhim" deyin.

– Müttəhim gəmiyə minəndə mənim atamın vəziyyəti yaxşı deyildi, – qız belə deyib sevgi dolu baxışlarla böyründə dayanmış atasına baxdı, – o, xəstə idi, özünü pis hiss edirdi. Atamın vəziyyəti eləydi ki, mən onu təmiz havadan kayuta aparmağa qorxurdum, ona görə də kayutun pilləkəni tərəfdən göyərtədə yer düzəltdim, özüm də yanında oturdum ki, gözüm üstündə olsun. Biz dörd nəfərdən başqa, o gecə gəmidə başqa sərnişin yox idi. Müttəhim lütfkarlıq eləyib dedi ki, icazə versəydiniz, atanızı küləkdən və pis havadan daha yaxşı qorumaq üçün sizə kömək edərdim. Mən bilmirdim gəmi limandan çıxandan sonra külək hansı tərəfdən əsəcək, ona görə də atamın yerini harada, necə düzəltməkdə çətinlik çəkirdim. Bütün bu işləri mənim əvəzimə müttəhim gördü. O mənim atama çox böyük canıyananlıq göstərib həssaslıqla yanaşdı, həm də o bunu sidqi-ürəkdən edirdi. Bizim söhbətimiz də bundan sonra başladı.

– İcazənizlə sözünüzü kəsməli olacağam. Gəmiyə minməyə gələndə o, tək idi?

– Yox.

– Onu neçə nəfər müşayiət edirdi?

– İki fransız centlmen.

– Onlar müttəhimlə danışırdılar?

– Bəli, o vaxtacan danışdılar ki, nəhayət, fransız centlmenlər gəmini tərk edib öz qayıqlarına qayıtmalı oldular.

– Onlar bir-birinə bu siyahılara oxşayan kağızlar vermədilər ki?

– Onlar bir-birinə hansısa kağızlar verdilər, amma nə kağız olduğunu bilmədim.

– Forma və ölçülərinə görə bu kağızlara oxşayırdı?

– Ola da bilər, amma, həqiqətən, dəqiq heç nə deyə bilmərəm. Düzdür, onlar mənim yaxınlığımda dayanıb öz aralarında danışırdılar, işıq düşsün deyə pilləkənin başında – lampa asılan yerdə dayanmışdılar, lampanın işığı zəif idi; onlar çox yavaşdan danışırdılar, demək olar ki, pıçıldaşırdılar, ona görə də nə dediklərini eşidə bilmədim, amma gördüm ki, hansısa kağızlara baxırlar.

– Miss Manett, indi də müttəhimlə sizin aranızda olmuş söhbətə qayıdaq.

– Atamın vəziyyətiylə əlaqədar olaraq, o vaxt mənim köməyə ehtiyacım var idi, müttəhim isə mənimlə olduqca səmimi davranırdı, atama qarşı qayğıkeşlik göstərir, əlindən gələn köməyi əsirgəmirdi. Mən əminəm ki, – qız belə deyib göz yaşlarını saxlaya bilmədi və hönkürüb ağladı, – inanıram ki, bu gün burada dediyim sözlərlə ona hansısa bir ziyan gətirməyəcəyəm.

Göy milçəklərin vızıldaşması eşidildi.

– Miss Manett, siz məhkəmədə ifadə verirsiniz; bu sizin borcunuzdur, siz bunu çox həvəssiz edirsiniz, – əgər müttəhim bunu başa düşmürsə, onda o bu cür fikirləşən yeganə adamdır. Xahiş edirəm, davam edin.

– O mənə dedi ki, səfərə çıxmağı çətin, çox da incə bir məsələylə bağlıdır, bu işə görə kiminsə başı ağrıya bilər, ona görə də səfərə başqa ad altında çıxıb. Dedi ki, bu işlə əlaqədar olaraq bir neçə gün bundan əvvəl Fransaya getməli olub, bir neçə gündən sonra yenə gedəcək; ola da bilər ki, Fransa ilə İngiltərə arasında ora-bura hələ çox gedib-gəlməli olsun.

– Sizinlə söhbət zamanı Amerika barədə nəsə bir söz dedimi, miss Manett? Mümkün qədər konkret danışın.

– O mənə konfliktin səbəbini izah etməyə çalışırdı, dedi ki, öz şəxsi mülahizələrinə görə, İngiltərə tərəfi səhvə yol verib, hətta ağılsızlıq eləyir. Zarafatyana şəkildə dedi ki, bəlkə də, vaxt gələcək, tarixdə Corc Vaşinqtonun adı III Corcun adından heç də az məşhur olmayacaq. Belə deməkdə onun heç bir pis niyyəti yox idi, sadəcə olaraq, zarafat edirdi ki, vaxtımız şən keçsin.

Səhnədə baş rolu ifa edən aktyorun üzündəki güclü hissiyyat zalda oturub maraqla ona baxan tamaşaçıların da simasında dərhal əks olunur; onlar bunu istəməsələr də, belə olur. Miss Manett ifadə verərkən, eləcə də susaraq dediklərini hakimin yazmasını gözləyəndə də onun simasındakı həyəcan və gərginlik yox olmurdu, sözlərinin necə təsir etdiyini görmək üçün arada vəkilə, ya da prokurora baxırdı. Məhkəmə zalının hər tərəfindən baxanların da üzündə eyni gərgin ifadə var idi, – Corc Vaşinqton barədə dəhşətli küfrü eşidəndə hakim qarşısındakı kağız-kuğuzdan başını yuxarı qaldırdı, şahidin üzündəki əzablı, gərgin ifadəni sanki yüzlərlə güzgüdə əks olunubmuş kimi zalın hər tərəfində gördü.

Cənab baş prokuror hakimə müraciət edərək dedi ki, məhkəmə prosesinin qayda-qanunlarına əməl olunması üçün gənc ledinin atasını da dindirmək lazımdır. O səbəbdən də növbəti dindirilən şahid doktor Manett oldu.

– Doktor Manett, müttəhimə baxın. Siz onu əvvəllər görmüsünüzmü?

– Bir dəfə görmüşəm. Mənim Londondakı evimə gəlmişdi. Haradasa üç il, ya da bəlkə, üç il yarım bundan əvvəl olub.

– Bu adamın gəmidə sizinlə birlikdə gəldiyini, qızınızla söhbət elədiyini təsdiq edirsinizmi?

– Yox, ser, dediklərinizin heç birini təsdiq edə bilmərəm.

– Sizi bu cür danışmağa vadar edən nədir; hansısa xüsusi, ya da ümumi bir səbəb varmı?

– Bəli, var, – doktor Manett güclə eşidilən səslə dedi.

– Bədbəxtlikdən, iş elə gətirib ki, siz öz vətəninizdə heç bir istintaqsız və məhkəməsiz uzun müddət həbsdə qalmısınız, səbəbi, bəlkə, budur, doktor Manett?

– Uzun müddət həbsdə olmağımdır, – şahid hər kəsin ürəyinə təsir edə biləcək yavaş bir səslə dedi.

– Haqqında danışdığımız vaxt siz həbsxanadan təzə çıxmışdınız?

– Elə deyirlər.

– O barədə heç nə xatırlamırsınız?

– Heç nə. Yaddaşım uzun müddət xarab olub; özüm də bilmirəm nə vaxt, necə olub. Onu bilirəm ki, həbsdə olanda ayaqqabı tikirdim, sonra bir də gördüm ki, əziz qızımla birlikdə Londondayam. Övladımdır, qayğımı çəkir, Allahın köməyi ilə ağlım-huşum da özümə qayıdıb; heç bilmirəm qızım bunu necə eləyib. Prosesin necə getdiyini xatırlamıram.

Cənab baş prokuror əyləşdi, ata ilə qız da əyləşdilər.

Məhkəmənin bundan sonrakı gedişatında bir dolaşıqlıq yarandı. Hakim çalışırdı sübut etsin ki, beş il əvvəl noyabr ayında, həftənin beşinci günü Londondan Duvra poçt karetində gedən müttəhim onu müşayiət edən adamla birlikdə gecə vaxtı hansısa naməlum yerdə düşüb, amma orada ləngiməyib, geri qayıdaraq haradasa 12 mil məsafədə yerləşən qarnizona və gəmi tərsanəsinə gedib ki, məlumat toplasın. Bu faktı təsdiq etmək üçün dəvət olunmuş şahid dedi ki, düz həmin vaxt qarnizon və gəmi tərsanəsi şəhərciyindəki hotelin bufetindəymiş, müttəhimin orada oturub kimisə gözlədiyini görüb. Müttəhimin vəkili şahidi çaşdırmaq üçün dolanbac suallar versə də, heç nəyə nail olmadı, şahid, sadəcə olaraq, dedi ki, müttəhimi sonra bir daha görməyib. Elə həmin vaxt məhkəmə başlayandan bəri gözünü tavana zilləyib baxan parikli centlmen balaca bir kağız parçası götürüb oraya bir-iki kəlmə söz yazdı və yumurlayıb vəkilə atdı. Vəkil imkan tapan kimi yumrulanmış kağız parçasını açıb gözdən keçirdi, sonra da çox diqqət və maraqla müttəhimə baxdı.

– Siz yenə deyirsiniz ki, həmin adamın müttəhim olduğuna əminsiniz, eləmi?

Şahid dedi ki, bəli, əmindir.

– Siz müttəhimə çox oxşayan başqa bir adam görmüsünüz?

Şahid dedi ki, adam adama oxşayar, amma kiminləsə səhv salınacaq qədər oxşayan adama rast gəlməyib.

– Bu centlmeni görürsünüz? – Vəkil ona kağız yumrulayıb atan centlmeni göstərdi. – Mənim dostumdur, özü də alim adamdır, ona diqqətlə baxın, sonra da müttəhimə baxın. Hə, nə deyirsiniz? Görürsünüz, onlar bir-birinə necə oxşayır?

Alim dosta gəlincə, onun xarici görkəmi biabırçı olmasa da, hər halda, çox səliqəsiz və pintiydi, amma, bununla belə, müqayisə edəndə görünürdü ki, müttəhimə çox oxşayır və bu oxşarlıq nəinki şahidi, hətta zalda oturanların hamısını təəccübləndirdi. Vəkil hakimə dedi ki, alim dosta parikini çıxartmağı təklif etsin. Hakim bu xahişi həvəssiz şəkildə yerinə yetirəndə isə oxşarlığın lap çox olduğu göründü, belə olanda hakim mister Strayverdən (müttəhimin vəkilindən) soruşdu ki, hə, necədir, mister Kartonu (alim dostun familiyası beləydi) xəyanətə görə cinayət məsuliyyətinə cəlb edib mühakimə etmək olarmı? Mister Strayver hakimə cavab verib dedi ki, yox, olmaz; amma o, şahiddən soruşmaq istəyir: bir dəfə baş verən hadisə ikinci dəfə təkrar oluna bilərmi və əgər o özünə bu qədər əmindirsə, amma öz tələskənliyinin əyani sübutunu öz gözüylə görürsə, bundan sonra da özünəəminliklə danışacaqmı və sairə... Nəticədə şahid ifadəsi divara çırpılmış saxsı qab kimi çilik-çilik olub yerə töküldü, ona əsaslanan ittiham isə mənasız irada çevrildi.

Çox böyük maraqla məhkəmə prosesini izləyən mister Krançer barmaqlarının pasını sorub yaxşıca nahar eləmişdi. İndi də o eyni maraqla mister Strayverin çıxışını dinləyirdi. Mister Strayver müştərinin əyninə kip oturan yaraşıqlı kostyum tikməkdə mahir olan dərzi kimi hər şeyi ölçüb-biçərək danışır, müttəhimin işi barədə məhkəməyə məlumat verərək sübut etməyə çalışırdı ki, özünü patriot kimi təqdim edən Barsed, əslində, xəyanətkardır, muzdlu casusdur, utanmaq nə olduğunu bilməyən qaniçən canidir; İudadan sonra bəşəriyyət bəlasını görməyib, bu adam elə sir-sifətdən də İudaya oxşayır. Xidmətçi Klay da əməkdaşlıq elədiyi yaxın dostu Barseddən geri qalmır, düz deyirlər ki, dost dosta tən gərək, bunlar da yaxşı tapışıblar. Dəqiqəbaşı yalandan and içən bu iki saxtakar növbəti qurban kimi müttəhimi seçib, çünki bu adam əslən fransalıdır və heç bir halda, hətta həyatı bahasına olsa belə, mahiyyətini açmaq istəmədiyi bir işlə – iki nəfər yaxın və əziz adamının şəxsi işiylə əlaqədar olaraq Duvr boğazını keçib Fransaya gedir və geri qayıdır. Gənc ledidən az qala güclə alınaraq tamam başqa cür yozulan şahid ifadəsinə gəlincə, bu, əslində, təzə tanış olmuş gənc centlmenlə gənc ledi arasında adi bir söhbətdir, bir-birinin xoşuna gəlmək, zarafat və əyləncə xatirinə dilxoşluqdur, Corc Vaşinqton barədə zarafatyana deyilən fikrə çox ciddi yanaşıb onu şişirtmək qa-

rışqanı fil eləməkdən başqa bir şey deyil. Hökumət dairələrinin populyarlıq xatirinə kütlənin qorxu və nifrətinə istinad edərək milli hisslərlə oynamaq cəhdi yolverilməzdir, əslində, zəiflikdən xəbər verir, – cənab baş prokuror bu gün məhz bu yolla getdi, oxşar məhkəmə proseslərində tez-tez rast gəlinən ikiüzlü, vicdansız şahid ifadələrindən başqa burada istinad etməli bir şey yoxdur və bu hal ölkənin məhkəmə sistemi üçün ciddi əngələ çevrilib. Bu yerdə hakim üzünə çox ciddi bir ifadə verdi, sanki deyilənlər həqiqət deyil, quru böhtan idi; vəkilin sözünü kəsib dedi ki, nə qədər ki o bu kresloda oturub, belə eyhamların səslənməsinə yol verməyəcək.

Bundan sonra mister Strayver bir neçə başqa şahid çağırdı ki, öz dediklərini təsdiq eləsin, mister Krançer onların da ifadələrini dinlədi, sonra gördü ki, cənab baş prokuror özü çıxış edir və mister Strayverin məhkəmə iclasçıları üçün tikdiyi kostyumu o, tərs üzünə çevirdi, özü də sübut etməyə çalışır ki, Barsed və Klay onun güman etdiyindən yüz dəfə yaxşıdır, müttəhim isə, əksinə, yüz dəfə pisdir. Nəhayət, hakim özü çıxış etdi, o isə kostyumun gah astarını üzünə, gah üzünü astarına çevirdi, orasını dartdı, burasını gödəltdi, axırda onu müttəhim üçün kəfənə çevirdi.

Axır ki, məhkəmə iclasçıları məşvərət otağına keçdilər, məhkəmə zalında isə göy milçəklərin vızıldaşması yenidən eşidildi.

Məhkəmə zalında oturub gözünü tavana zilləmiş mister Karton bu həyəcanlı məqamda da nə vəziyyətini dəyişdi, nə də yerindən tərpəndi. Onun alim dostu mister Strayver pıçıldayıb yanında oturan centlmenlərə nəsə dedi, arabir də həyəcan içində məhkəmə iclasçılarına tərəf baxdı; bu müddətdə tamaşaçılar da sakit otura bilmədilər, yığışıb orada-burada toplaşdılar; hakim özü də yerindən durdu, ora-bura gəzişdi, zalda pıçıldaşdılar ki, onun da vəziyyəti yaxşı deyil, özünə yer tapa bilmir. Yalnız bir nəfərin halında heç bir dəyişiklik yox idi, kürəyini stulun arxasına söykəyib oturmuşdu, nimdaş hakim mantiyası sürüşüb çiynindən aşağı düşmüşdü, hakimin xahişiylə bir anlığa başından çıxarıb təzədən başına qoyduğu parik yerinə yaxşı oturmamışdı, bütün günü olduğu kimi əllərini cibinə soxub zalın tavanına baxırdı. Rəftarında xüsusi olaraq özünü büruzə verən saymazlıq onu hansısa pozğuna oxşadırdı, bir qədər əvvəl müttəhimə oxşarlığı şübhə doğurmasa da, indi oxşarlıq azalmışdı, hətta yox olmuşdu və adamlar zalda danışıb deyirdilər ki, bu iki nəfərin

oxşarlığı barədə danışmağa dəyməz. Hətta mister Krançer də öz fikrini bildirib böyründə oturmuş kişiyə dedi: "Yarım gineyadan mərc gələrəm ki, heç bir məhkəmə işini ona etibar eləmək olmaz. Belə işlər onluq deyil. Düz demirəm?"

Mister Kartonun xarici görkəmi elə də diqqətli olmadığına dəlalət etsə də, miss Manettin başı əyilib atasının sinəsinə söykənəndə bunu ilk görən o oldu.

– Cənab zabit! Gənc lediyə baxın, centlmenə kömək edin qızı zaldan çıxartsın. Görmürsünüz, az qalır yıxılsın!

Qızı zaldan çıxardanda onun halına acıyanların və atasına qarşı rəğbət ifadə edənlərin səsi eşidildi. Həbsxana həyatının yada salınması, görünür, centlmenə pis təsir eləmişdi. Dindirilərkən keçirdiyi güclü daxili həyəcanın nəticələri də aydın sezilməkdəydi, belə ki, özünə qapılıb fikirləşəndə olduğu kimi artıq qoca görünürdü, sanki başının üstünü qara buludlar almışdı. O, zalı tərk edəndə məhkəmə iclasçıları məşvərət otağından çıxıb zala qayıtdılar və onlardan biri məlumat verdi.

Məhkəmə iclasçıları razılığa gələ bilmirdilər, ona görə də müzakirəni davam etdirmək istəyirdilər. Hələ də Corc Vaşinqton barədə fikirləşən hakim onların ümumi razılığa gəlməkdə çətinlik çəkdiklərini eşidəndə təəccübləndi; amma alicənablıq nümayiş etdirərək məhkəmə iclasçılarının nəzarət altında zalı tərk etmələrinə icazə verdi, özü də zaldan çıxdı.

Məhkəmə prosesi bütün günü davam etdi. Artıq hava qaralırdı, zaldakı lampaları yandırdılar. Söz gəzdi ki, məhkəmə iclasçıları tezliklə gəlməyəcəklər. Adamlar dağılışmağa başladılar; hamı ac-susuz idi, yorğun idi, bir stəkan su içmək, bir tikə çörək yemək istəyənlər var idi. Müttəhim də məhəccərdən aralanıb geri çəkildi, oturacaqda əyləşdi.

Gənc ledi ilə atası zalı tərk edəndə onlarla birlikdə çıxan mister Lorri geri qayıtdı, dərhal da Cerrini səslədi. Az keçməmiş Cerri gəldi.

– Cerri, aclığın varsa, gedib yemək yeyə bilərsən. Amma elə et ki, məhkəmə iclasçıları qayıdan kimi sən də burada olasan. Hökm oxunan kimi banka gedib oradakıları məsələdən hali etmək lazımdır. Sən diribaş qasidsən, şübhə eləmirəm ki, Templ Bara məndən tez çatacaqsan.

Cerrinin alnı balacaydı, amma, hər halda, barmaqla toxunmaq üçün orada kifayət qədər yer var idi, – Cerri barmağıyla alnına toxundu, bununla da həm nə etməli olduğunu başa düşdüyünü bildirdi, həm də

çaypulu kimi verilən şillinqə görə minnətdarlıq ifadə etdi. Elə bu vaxt mister Karton yaxınlaşıb mister Lorrinin qoluna toxundu.

– Gənc ledinin vəziyyəti necədir?

– Çox həyəcanlıdır, amma atası oradadır, çalışır ki, qızını sakitləşdirsin; zaldan çıxandan sonra halı bir az yaxşılaşıb.

– Mən indi gedib müttəhimə deyərəm. Sizin kimi hörmətli bir bank işçisinin hamının gözü qabağında gedib müttəhimlə danışması yaxşı deyil.

Mister Lorrinin rəngi allandı, sanki onun, doğrudan da, belə bir niyyəti var imiş və indi onu müzakirə edirmiş. Mister Karton isə müttəhim kürsüsünə tərəf getdi; zalın çıxışı o tərəfdə olduğu üçün dördgöz olub qulaqlarını şəkləmiş pırpızbaş Cerri də onun dalınca getdi.

– Mister Darney!

Müttəhim oturacaqdan qalxıb məhəccərə tərəf gəldi.

– Siz, yəqin ki, səbirsizliklə şahid miss Manett barədə xəbər gözləyirsiniz, vəziyyəti yaxşılaşır. Siz onu çox həyəcanlandığı vaxt görmüsünüz, indi yaxşıdır.

– Mən çox təəssüf edirəm ki, o mənə görə həyəcanlanıb. Mənim bu sözümü ona çatdırın, hədsiz dərəcədə minnətdar olduğumu da deyin.

– Çatdıraram, əgər siz belə istəyirsinizsə, çatdıraram.

Mister Kartonun davranışında meydan oxumaq kimi qiymətləndirilə biləcək bir saymazlıq var idi; məhəccərə söykənib, müttəhimə tərəf azca çevrilərək çiyninin üstündən danışırdı.

– Çox xahiş edirəm, çatdırın. Sizə olan səmimi təşəkkürümü də qəbul edin.

– Necə bilirsiniz, mister Darney, – müttəhimlə hələ də ancaq çiyninin üstündən danışan mister Karton dedi, – nə qərara gələcəklər?

– Ən pis.

– Ağıllı fikirdir, əslində, ən çox ehtimal olunan da budur. Amma onların orada ilişib qalması bizim xeyrimizədir.

Zalın çıxışı tərəfə gedən yolda dayanmağa icazə verilmirdi deyə Cerri ləngiyə bilmədi, eşitdiyi də ancaq bunlar oldu. Müttəhimlə mister Karton yanaşı dayanmışdılar, hər ikisi yuxarıdan asılmış güzgüdə əks olunurdu: xarici görkəmcə nə qədər oxşar olsalar da, xaraktercə tamam fərqli adam idilər.

Aşağıdakı dəhlizlərdə toplaşaraq pivə içən, qoyun ətindən bişmiş peraşki və qutab yeyən adamlar intizarla gözləyirdilər, saat yarım da belə keçdi. Səsi xırıldayan qasid toqqanın altını yüngülvarı bərkidib bir balaca da boğazını yaşlayandan sonra narahat da olsa, bir yer tapıb təzəcə mürgüləyirdi ki, uğultu qopdu, adamlar hərəkətə gəldilər, insan axını onu da götürüb pilləkənə tərəf apardı.

– Cerri! Cerri! – mister Lorri qapının ağzında dayanıb onu çağırırdı.

– Mən buradayam, ser! Burada basabasdır, tərpənmək çətindir. Buradayam, ser!

Mister Lorri adamların arasından kağızı ona tərəf uzadıb dedi:

– Tez ol! Kağız səndədir?

– Bəli, ser!

Kağızda isə tələm-tələsik yazılmış vur-tut iki kəlmə var idi: "Bəraət qazandı".

– Keçən dəfə olduğu kimi "Həyata qaytarılmışdır" yazılsaydı, mən bunun nə demək olduğunu daha yaxşı anlayardım, – Cerri çevrilib yola düzələndə öz-özünə mızıldandı.

Amma Old Beyldən çıxanacan onun nə öz-özüylə danışmağa, nə də fikirləşməyə imkanı olmadı, çünki adamlar çıxışa tərəf axışıb elə basabas saldılar ki, Cerri güclə ayaq üstə dayana bildi. Zalda uğuldayan kütlə leş iyinə gəlmiş, amma bir şey tapa bilməmiş milçək buludu kimi ətrafa səpələndi və elə təsəvvür yarandı ki, sanki milçəklər çürüyüb iylənmiş başqa bir leş axtarışına çıxıblar.

IV fəsil

TƏBRİK

Məhkəmə zalının yarıqaranlıq dəhlizlərində qaynaşan insan axını çirkabının axırıncı tullantıları da çəkilib gedəndən sonra doktor Manett, onun qızı Lüsi Manett, mister Lorri, müttəhimin vəkili mister Strayver elə indicə ölümdən xilas olub azadlığa çıxmış mister Çarlz Darneyin ətrafına toplaşaraq onu təbrik edirdilər.

Hətta daha işıqlı yerdə doktor Manettin ziyalılıq və nəciblik ifadə edən sifətinə baxan adam, çətin ki, onun bir vaxtlar Parisdəki çardaqlardan birində çəkməçilik eləyən kişi olduğuna inana bilərdi. Hərdən kədərli notlar ifadə edən yavaş səsinə, üstünü qara buludlar almış aydın səma kimi arabir tutulan çöhrəsinə hələ diqqət yetirməyə macal tapmamış adam da onun üzünə bir dəfə baxandan sonra yenə baxmaq istəyirdi. Bu gün məhkəmədə olduğu kimi uzun sürən məhbəs həyatını yadına salan bir səbəb olanda ruhunun dərinliklərində dolaşan qara buludlar qalxıb üstünü alır, çöhrəsini qaraldırdı, bəzən də bu heç bir səbəb olmadan, sanki günəşli bir yay günü 300 mil məsafədəki Bastiliyadan onun üstünə kölgə düşübmüş kimi anlaşılması çox çətin, bəlkə də, mümkün olmayan bir şəkildə baş verirdi, yenə başının üstünü qara buludlar alırdı.

Ruhuna çökmüş o qaranlığı dağıtmaq imkanına malik olan bir adam vardısa, o da öz qızıydı. Qızı onun çəkdiyi əzablı günlərdən əvvəlki keçmiş zamanı əzabları arxada qoymuş indiki zamanla birləşdirən qızıl bağ idi; qızın səsi, üzünün nuru, əlinin hər toxunuşu onun ruhunu təzələyir, dirçəldir, can verirdi. Bəzən də qızın gücü sanki tükənirdi, amma vur-tut bir, ya da iki dəfə belə olmuşdu və qız inanırdı ki, bir də heç vaxt təkrar olmayacaq.

Mister Darney minnətdarlıqla qızın əlini öpdü, mister Strayverə tərəf çevrilib ona da öz dərin təşəkkürünü bildirdi. Mister Strayver əslində olduğundan 20 yaş böyük görünən, 30 yaşlarında tökməbədən, səsküylü, qırmızısifət, açıq-saçıq, nəzakət qaydalarına o qədər də məhəl qoymayan bir adam idi, heç bir çətinlik çəkmədən istənilən kampaniyaya və söhbətə (istər maddi, istərsə də mənəvi cəhətdən) qoşula bilirdi və bu da həyatda müvəffəqiyyət qazanmaqda ona çox kömək edirdi.

Mister Strayver hələ də parikini və mantiyasını çıxartmamışdı, müdafiə elədiyi sonuncu müştəriyə yaxınlaşanda isə yazıq mister Lorrini az qalmışdı sıxışdırıb dəstədən aralaşdırsın.

– Çox şadam ki, sizi bu bəladan qurtarmaq şərəfinə nail olmuşam, mister Darney. Bu çox iyrənc bir məhkəmə prosesiydi, həddən artıq iyrənc proses idi və məhz elə bu səbəbdən də burada nəyəsə nail olmaq ehtimalı çox az idi.

– Bütün həyatımla sizə borcluyam, – mister Darney onun əlindən tutaraq dedi.

– Mən əlimdən gələni elədim, mister Darney, əgər var gücümlə çalışıb kiməsə yaxşılıq etmək istəyirəmsə, bu iş məndə başqalarından heç də pis alınmır.

Bu məqamda kimsə replika atıb: "Başqalarından qat-qat yaxşı alınır", – dedi; bu sözü mister Lorri dedi, özü də candərdi dedi, çünki o anda yeganə istəyi öz əvvəlki yerinə qayıtmaq idi.

– Siz belə hesab edirsiniz? – mister Strayver dedi. – Yaxşı, siz deyən olsun. Siz prosesin əvvəlindən zaldaydınız, hər necə olsa da, nəyin necə olduğunu yaxşı bilirsiniz. Həm də nəzərə almaq lazımdır ki, siz iş adamısınız.

– Belə olan halda mən doktor Manettə təklif edərdim ki, – istedadlı vəkilin sıxışdırıb dəstədən uzaqlaşdırdığı mister Lorri öz əvvəlki yerinə qayıdandan sonra dedi, – müzakirəni yekunlaşdırsın, hər kəsin öz evinə getməsi barədə göstəriş versin. Miss Lüsi gözümə yaxşı dəymir, mister Darney isə dəhşətlə dolu bir gün yaşayıb; biz hamımız yorulub əldən düşmüşük.

– Öz əvəzinizə danışın, mister Lorri, – mister Strayver dedi. – Mən hələ bütün gecəni işləməliyəm. Öz əvəzinizə danışın.

– Mən öz əvəzimə danışıram, – mister Lorri dedi, – mister Darneyin və miss Lüsinin əvəzinə danışıram. Necə bilirsiniz, miss Lüsi, hamının

əvəzinə danışa bilərəmmi? – Axırıncı cümləni xüsusi vurğuyla deyib gözaltı qızın atasına baxdı.

Doktor Manettin nəzərləri mister Darneyə zillənib qalmışdı: bu adam nəsə ürəyinə yatmırdı, ona inanmırdı, hətta qorxurdu, ona görə də qaşqabaqlıydı. Üzündə qəribə bir ifadə donub-qalmış halda fikri haradasa uzaqlarda dolaşırdı.

– Ata, – deyib Lüsi yavaşca onun əlindən tutdu.

Doktor Manett çöhrəsindəki kölgəni özündən kənar eləyib qızına tərəf çevrildi.

– Evə gedəkmi, ata?

Kişi dərindən nəfəs alıb:

– Gedək, – dedi.

Azadlığa çıxmış məhkumun dostları bu gecə onun azad ola bilməyəcəyini fikirləşib dağılışdılar, – dostlarında bu fikri o özü yaratmışdı. Dəhlizlərdəki işıqların, demək olar ki, hamısı söndürüldü, dəmir qapılar cırıltı və taqqıltıyla bağlandı; bu dəhşətli məkan səhərəcən boş qalacaq, sabah dar ağacından asılanlara, rüsvayçılıq dirəyinə bağlananlara, hamının gözü qarşısında qamçıyla döyülənlərə, qızmış dəmirlə damğalananlara baxıb zövq almaq istəyənlər yenə axışıb bura gələcəklər. Bir tərəfdən atasının, o biri tərəfdən isə mister Darneyin əhatəsində gedən miss Manett açıq havaya çıxdı. Faytonçunu səslədilər, ata ilə qız faytona oturub getdilər.

Mister Strayver dəhlizdə dəstədən ayrıldı ki, soyunub-geyinmə otağına gedib paltarını dəyişsin. Dəhlizdə bu adamlara qoşulmayan, heç kimlə kəlmə kəsib danışmayan, kölgə düşən tərəfdən divara söykənib baxan bir nəfər də var idi, dəstənin arxasınca o da küçəyə çıxdı və fayton uzaqlaşıb gözdən itənəcən dayanıb baxdı. Sonra da yolda dayanmış mister Lorri ilə mister Darneyə tərəf getdi.

– Deməli, belə, mister Lorri! İşgüzar adam indi mister Darneylə danışa bilərmi?

Bugünkü məhkəmə prosesində mister Kartonun neylədiyi barədə heç kimin məlumatı yox idi, bu barədə fikirləşmək heç kimin ağlına da gəlməmişdi. Mister Karton mantiyasını soyunmuşdu, amma bu da onun görkəmində heç nəyi dəyişdirməmişdi.

– Mister Darney, işgüzar adamın daxilində yüksək insani hisslərlə spesifik biznes hissləri arasında necə gərgin mübarizə getdiyini bilsəydiniz, çox təəccüblənərdiniz.

Mister Lorrinin sifəti allandı, bir qədər həyəcanlanaraq dedi:

– Siz o sözü artıq bir dəfə demisiniz, ser. Biz iş adamıyıq, firmanın maraqlarına xidmət edirik və tamamilə onun ixtiyarındayıq. Biz özümüzdən çox firmanın taleyi barədə düşünməliyik.

– Bilirəm, bilirəm, – mister Karton saymazyanalıqla dedi. – Özünüzdən çıxmayın, mister Lorri. Siz başqalarından pis deyilsiniz, hətta deyərdim ki, xeyli yaxşısınız.

– Həqiqətən də elədir, ser, – mister Lorri ona fikir vermədən sözünə davam elədi, – düzü, mən bilmirəm bunun sizə nə dəxli var? Mən yaşda sizdən böyüyəm; belə danışdığıma görə üzr istəyirəm, amma, hər halda, bu sizin işiniz deyil.

– Biznes! Allah şahiddir ki, mənim heç bir biznesim yoxdur, – mister Karton dedi.

– Çox heyif ki, yoxdur, ser.

– Mən də o fikirdəyəm.

– Biznesiniz olsaydı, siz də bir işlə məşğul olardınız, – mister Lorri dedi.

– Yox, nə danışırsınız, ser? O barədə heç fikirləşmirəm də, – mister Karton dedi.

– Yaxşı, ser! – soyuqqanlı adam olsa da, artıq özündən çıxmış mister Lorri qışqırdı. – Biznes çox yaxşı şeydir, çox da diqqətəlayiq məsələdir. Ser, əgər biznes hərdən susmağı, özünü ələ almağı diktə edirsə, müəyyən maneələr yaradırsa, mister Darney də gənc bir əsilzadə kimi konkret şəraitdə nə etməli olduğunu yaxşı bilir. Gecəniz xeyrə qalsın, mister Darney, Allah köməyiniz olsun, ser! Əminəm ki, bu gün Allah sizi hifz edərək gələcək xoşbəxt həyat üçün saxladı. Ey, faytonu bura verin!

Nəfəsindən çaxır iyi gələn, davranışından dəm olduğu görünən Karton gülüb Darneyə tərəf çevrildi.

– Hər halda, sizinlə məni burada taleyin qovuşdurması da həddən ziyadə maraqlı məsələdir. Küçədəki daşların üstündə özünüzə çox oxşayan bir adamla üzbəüz dayandığınız gecə də az maraqlı olmamalıdır, eləmi?

– Hələ də inana bilmirəm ki, – Çarlz Darney dedi, – bu dünyaya qayıtmışam.

– Burada təəccüblü heç nə yoxdur: bir az bundan əvvəl az qalmışdı sizi vurub o dünyaya gedən yola atalar. Nəsə çox halsız danışırsınız.

– Halsız olduğumu özüm də hiss edirəm.

– Qəribə adamsınız, bəs niyə oturub bir tikə çörək yemirsiniz? O kütbeyinlər sizi bu dünyada saxlamaq, yoxsa o biri dünyaya göndərmək barədə fikirləşib baş sındıranda mən nahar elədim. İcazə verin yaxşı nahar eləmək üçün ən yaxın restoranı sizə göstərim.

Mister Karton onun qoluna girdi, onlar Ludqeythildən üzüaşağı – Flit-stritə tərəf endilər, sonra da üstüörtülü yolla gedib restorana çatdılar. Onları balaca bir otağa apardılar; orada mister Darney dadlı xörək yeyib şərab içə-içə özünə gəlməyə başladı. Stolun o biri tərəfində mister Karton oturmuşdu, özü üçün ayrıca şüşədə sifariş elədiyi portfeyni içərək, yekəxanalığa oxşayan bir ədayla Darneyə baxırdı.

– Hə, necədir, mister Darney, indi özünüzü bu fani dünyanın sakini hesab edirsinizmi?

– Zaman və məkan məsələsində əməlli-başlı çaşqınlıq var, amma bu çaşqınlığı hiss etdikcə vəziyyətim də yaxşılaşır.

– Yəqin ki, bu çox böyük bir səadətdir!

Mister Kartonun bu sözündə acı bir kinayə var idi və belə deyib o öz stəkanını yenidən şərabla doldurdu; stəkan isə böyük idi.

– Mənə qalsa, bircə arzum var: bu dünyanın sakini olduğumu unutmaq. Bu dünyada bu şərabdan başqa yaxşı heç nə görmürəm. Bu mənada biz heç də oxşar deyilik. Həqiqətən də, mən artıq o fikirdəyəm ki, sizinlə mən heç nə ilə bir-birimizə oxşamırıq.

Gün ərzində yaşanmış həyəcandan və sanki yuxu görürmüş kimi öz oxşarıyla üzbəüz dayanmaqdan özünü itirmiş kimi görünən Çarlz Darney bilmədi nə desin, ona görə də cavab vermədi.

– Siz artıq nahar elədiniz, mister Darney, – mister Karton dedi, – indi kiminsə sağlığına içmək olar. Niyə bir tost demirsiniz?

– Kimin sağlığına? Nə tost?

– Özünüz bilirsiniz kimin sağlığına, adı da dilinizin ucundadır. Mərc gələrəm, and da içərəm ki, belədir.

– Onda miss Manettin sağlığına!

– Yaxşı, miss Manettin sağlığına!

Darney öz stəkanını içib boşaldanacan ona baxa-baxa gözləyən mister Karton əlindəki boş stəkanı çiyninin üstündən geri atıb divara çırpdı, stəkan divara dəyib çilik-çilik oldu; Karton başqa stəkan sifariş elədi.

– Gecə vaxtı qaranlıqda o cür gənc ledinin əlindən tutub faytona mindirmək heç də pis olmazdı, mister Darney! – Karton öz təzə stəkanına çaxır süzə-süzə dedi.

Mister Darneyin qaşları azca çatıldı və o, kəsə cavab verdi:

– Elədir.

– O cür gözəl və gənc ledi sənin üçün heyifsilənib, göz yaşı tökürsə, onda insan hansı hisslər keçirər? Başqa birisinin sənə görə belə heyifsilənməsi, bu qədər halına yanması üçün öz həyatını da qurban verməyə dəyər, elədirmi, mister Darney?

Darney bu suala da cavab vermədi.

– Sizin mesajı ona verəndə həddən artıq sevindi. Düzdür, üzə vurmadı, amma, məncə, çox sevindi.

Həmsöhbətinin atmacalarından əsəbiləşməyə başlayan mister Darney birdən onu da xatırladı ki, bu gün düşdüyü o çətin vəziyyətdə bu köntöy adam könüllü olaraq ona kömək eləyib, ona görə də mövzunu dəyişib həmin məsələyə qayıtdı və öz təşəkkürünü bildirdi.

– Təşəkkür eləmək lazım deyil, elə bir xidmətim də yoxdur, – Karton etiraz elədi. – Əvvəla, mənim üçün o işi görmək, əslində, heç nə idi. Özüm də bilmirəm niyə elə elədim. Mister Darney, icazənizlə sizə bir sual vermək istəyirəm.

– Buyurun, xeyirxahlığınızın əvəzində nəsə bir iş görə bilsəm, sevinərəm.

– Mənim sizə xüsusi hörmətim olduğunu hiss edirsinizmi?

– Düzü, mister Karton, – özünü çox narahat hiss edən mister Darney dedi, – mən özümə belə bir sual verməmişəm.

– Siz o sualı özünüzə indi də verə bilərsiniz.

– Elədiyiniz hərəkətə görə bu suala müsbət cavab vermək olar, amma, məncə, elə deyil.

– Mən də o fikirdəyəm, – Karton dedi. – Mən artıq sizin hər şeyi anlayan bir adam olduğunuz barədə fikirləşməyə başlamışam.

– Hər halda, mənə elə gəlir ki, – Darney belə deyib qalxdı ki, zəngi basıb ofisiantı çağırsın, – burada elə bir şey yoxdur, mən indi deyərəm hesabı çəksinlər, biz də münasibətlərimizi poza biləcək heç bir hərəkətə yol vermədən ayrılıb öz evimizə gedərik.

Karton etiraz eləmədi, Darney ofisiantı çağırdı.

– Siz hesabın hamısını ödəmək istəyirsiniz? – Karton soruşdu, müsbət cavab alıb ofisianta müraciət elədi: – Ofisiant, bayaq içdiyim çaxırdan bir şüşə də gətirin, özünüz də düz saat 10-da gəlib məni oyadarsınız.

Çarlz Darney hesabı ödəyib ayağa durdu, Kartona "gecəniz xeyrə qalsın" dedi və getməyə hazırlaşdı. Karton ona xeyirli gecə arzulamadı, amma o da qalxdı, hədələyici tonda dedi:

– Bir sualım da var, mister Darney. Siz elə bilirsiniz mən sərxoşam?

– Məncə, siz içkilisiniz.

– Sizcə? Siz bilirsiniz ki, mən içmişəm.

– Əgər elədirsə, bəli, mən bunu bilirəm.

– Onda siz mənim niyə sərxoş olduğumu da bilməlisiniz. Mən ömrü boyu eşşək kimi işləyib heç nəyə nail olmamış bir adamam, ser. Bu gün dünyada heç kimin dərdini çəkmirəm, heç kim də mənimlə maraqlanmır.

– Çox təəssüf. Siz öz istedadınızdan daha səmərəli istifadə edə bilərdiniz.

– Bəlkə də, elədir, mister Darney, bəlkə də, elə deyil. Amma öz ayıq başınızla çox da öyünməyin, sonra nə olacağını bilmək olmaz. Gecəniz xeyrə qalsın.

Tək qalmış bu qəribə adam şamı götürüb divardan asılmış güzgüyə yaxınlaşdı və diqqətlə özünə baxmağa başladı.

– Deməli, sən o adama hörmətlə yanaşırsan, eləmi? – güzgüdəki əksinə müraciətlə dedi. – Sənə oxşayan adama niyə də hörmət etməlisən? Axı sənin özündə xoşagələn heç nə yoxdur və sən özün bunu çox yaxşı bilirsən. Ay, səni lənətə gələsən! Gör özünü nə günə salıb! Buyur bax, gör nə idin, kim olmalıydın, kim olmusan. O adamla öz yerini dəyiş, sən onun yerində olsaydın, həmin o mavi gözlər, o həyəcanlı sifət sənə baxıb halına yanardımı? Yaxşı, düz danış, etiraf elə, de ki, sən o adama nifrət edirsən!

Özünü sakitləşdirmək üçün şərab butulkasının ağzını açdı və bir neçə dəqiqədəcə son damlasınacan içib boşaltdı, sonra da başını əllərinin üstünə qoyub qatma-qarışıq saçları stola dağılmış halda yuxuya getdi; yandıqca əriyən şamın damcıları onun üstünə tökülürdü.

V fəsil

ÇAQQAL

O vaxt çox içmək nöqsan hesab olunmurdu deyə kişilərin əksəriyyəti çox içirdi. Ötən illər ərzində insanların həyat tərzi dəyişib və əgər o vaxt bir kişinin öz sağlamlığına ciddi ziyan vurmadan bir gecə ərzində içdiyini indiki kişinin içdiyi şərabın miqdarıyla müqayisə etsək, o qədər böyük fərq alınır ki, adamın inanmağı gəlmir. Baxusa səcdə – içki aludəliyi məsələsində qanun keşikçiləri digər peşə sahiblərindən heç də geridə qalmırdılar; mister Strayver də öz tanınmış hüquqşünas həmkarlarından içməkdə və başqa sahələrdə geri qalmamaq, daha gəlirli əməli fəaliyyətə başlamaq üçün nə lazımdırsa eləyirdi.

Old Beylin, eləcə də onun səyyar iclaslarının favoriti olan mister Strayver vəzifə karyerasında yüksəldikcə nərdivanın aşağı pillələrini çox ehtiyatla kəsib atırdı. Səyyar iclaslar, hətta Old Beylin özü də indi o favoriti öz ağuşuna çəkmək istəyirdi; odur ki mister Strayver Kral məhkəməsinin baş hakimiylə yaxınlaşmaqdaydı, onun günəşə tərəf çevrilmiş böyük günəbaxana oxşayan qırmızı sifəti parikli sifətlər cərgəsində hər gün görünür, parlayaraq dikəlib qalxır, daha çox nəzərə çarpırdı.

Bir vaxtlar onun haqqında danışanda deyirdilər ki, mister Strayver yaxşı natiqdir, cəsarətlidir, fərasətlidir, amma onda yaxşı vəkil üçün çox vacib olan başlıca xüsusiyyət – qatma-qarışıq hadisələr çoxluğunda əsas olanı tez bir zamanda seçib işin mahiyyətinə vara bilmək qabiliyyəti yoxdur. Lakin son vaxtlar nəzərəçarpacaq keyfiyyət dəyişikliyi baş verdiyini görməmək mümkün deyildi. Mister Strayver yorulmadan işləyir, get-gedə ən mürəkkəb işlərin mahiyyətinə varmaqda ustalaşırdı, hətta

Sidni Kartonla gecə keçənəcən oturub əyyaşlıq etməsinə baxmayaraq, səhər açılanda ən çətin işi də udmaq üçün nə etməli olduğunu yaxşı bilirdi.

Sidni Karton nə qədər tənbəl və avara adam olsa da, onun gələcəyi yaxşı heç nə vəd etməsə də, hər halda, o, Strayverin ən yaxın müttəfiqiydi. Qış məhkəmə sessiyasından payız sessiyasına qədərki dövrdə bu iki adamın birlikdə içdiyi şərab əgər hansısa çuxura axıdılsaydı, qayıq üzə bilən yaxşı bir göl əmələ gələrdi. Strayver hansı prosesdə iştirak edirdisə, Karton da əllərini cibinə soxub gözünü məhkəmə zalının tavanına zilləyərək orada əyləşirdi; səyyar iclaslara da onlar birlikdə gedir, gecə keçənəcən davam edən əyyaşlıqdan sonra vaxt olurdu gün qalxıb günorta olanda Karton evdən qovulmuş pişik kimi Strayverin mənzilindən çıxıb səndirləyə-səndirləyə öz mənzilinə gedirdi. Nəhayət, bu cür məsələlərə maraq göstərənlər belə bir nəticəyə gəldilər ki, Sidni Kartondan yaxşı heç nə çıxmayacaq, yəni o, şir olmayacaq, amma o, yaxşı bir çaqqaldır və elə bu səbəbdən də Strayverin yan-yörəsində fırlanıb qulluq göstərir, ona quyruq bulayır.

– Saat 10-dur, ser, – Kartonun göstərişini yerinə yetirib onu oyatmağa çalışan ofisiant dedi, – saat 10-dur, ser.

– Nə olub, nə deyirsən?

– Deyirəm saat 10-dur, ser.

– Nə demək istəyirsən? Axşam saat 10-dur?

– Bəli, ser. Özünüz tapşırmışdınız ki, sizi oyadım.

– Ah, düzdür! Yadıma düşdü. Yaxşı, çox yaxşı.

Bundan sonra o, təzədən yuxulamaq üçün bir neçə cəhd elədi, amma ofisiant buna imkan verməmək üçün beş dəqiqə ərzində sobanı qarışdıraraq qəsdən elə bərk səs saldı ki, Karton məcbur olub ayağa qalxdı, şlyapasını götürüb restorandan çıxdı. Templə tərəf yönəldi, Kral məhkəməsi və məhkəmə arxivinin qarşısından iki dəfə oyan-buyana keçərək gəzişdi, başı bir qədər açılıb özünə gələndən sonra Strayverin yaşadığı evə getdi.

Strayverin xidmətçisi müzakirələrdə iştirak etmirdi deyə artıq evinə getmişdi, qapını Strayver özü açdı. Onun ayağında ev başmağı, əynində isə yaxası açıq xalat var idi. Gözlərinin ətrafında dəlisov, gərgin, quruyub yanmış kimi görünən və üzüaşağı yönəlmiş izlər var idi; öz bildiyi kimi azad yaşayan əyyaşlar zümrəsi var ki, o özü də oraya aiddir, bu o

adamlarda müşahidə olunur və rəssamlar nə qədər ört-basdır etməyə çalışsalar da, Cefrisin çəkdiyi portretlərdən başlayaraq üzübəri içki aludəsi olan dövrün bütün portretlərində özünü büruzə verir.

– Siz bu gün bir qədər gecikmisiniz, möhtərəm Yaddaş, – Strayver dedi.

– Həmişə gəldiyim vaxtdır, ola bilər ki, on beş dəqiqə gecikmişəm.

Onlar kitabların cərgəylə düzüldüyü, orada-burada kağız yığılmış, sobası gur yanan tutqun otağa keçdilər. Sobanın üstündə çaynik buğlanırdı, kağız qalaqlarının ortasındakı stolun üstündə çaxır, konyak, rom şüşələri cərgələnmişdi, limon və şəkər də var idi.

– Sidni, mən görürəm ki, sən artıq öz şüşəni içib gəlmisən.

– İki şüşə içmişəm. Dünənki müştəriylə yemək yedik; daha doğrusu, o yeyirdi, mən baxırdım, – fərqi yoxdur, onsuz da hamısı birdir.

– Oxşarlıq məsələsində sən çox nadir hallarda rast gəlinən bir gediş elədin, Sidni. Bu fikir sənin ağlına haradan gəldi?

– Fikirləşdim ki, qəşəng oğlandır və əgər bəxtim gətirsəydi, mən özüm də belə bir oğlan olardım.

Mister Strayver yaşına uyğun olmayan iri qarnı silkələnə-silkələnə güldü.

– Ay səni, Sidni! Sən bunun gətirməyən bəxtinə bir bax! İşləmək lazımdır, iş görmək lazımdır.

Çaqqal dinməz-söyləməz paltarının yaxasını açıb sərbəstləşdi, qonşu otağa keçdi, böyük bir qabda soyuq su, ləyən və iki dəsmalla geri qayıtdı. Dəsmalları suya salıb yaxşıca islatdı, sonra sıxıb çox eybəcər şəkildə başına doladı, stolun arxasına keçib oturdu və dedi:

– Mən hazıram.

– Bu gecə sən deyən elə də çox sıxmaq lazım gəlməyəcək, möhtərəm Yaddaş, – kağızları gözdən keçirən mister Strayver kefikök ədayla dedi.

– İş çoxdur?

– Cəmi iki işdir.

– Hansı lap pisdirsə, onu mənə ver.

– İşlər budur, Sidni. Başlaya bilərsən!

Şir kürəyini divanın arxasına söykəyib üstü içkiylə dolu stolun bir tərəfində yerini rahatladı, çaqqal isə əks tərəfdə – stolun kağız-kuğuz qalaqlanmış qırağında oturdu, onun da böyründə butulkalar və badələr düzülmüşdü. Bu adamların hər biri istədiyi qədər içə bilərdi, amma

bunu hər kəs özünəməxsus üsulla edirdi: əllərini toqqasının altına soxmuş şir yarıuzanmış vəziyyətdə sobanın alovuna baxa-baxa hansısa sənədə elə-belə, ötəri bir göz gəzdirir və kefi istəyəndə badəsini doldurub içirdi; çaqqalın sifəti diqqət və gərginlik ifadə edirdi, qaşları çatılıb düyünlənmişdi, işə o qədər aludə olmuşdu ki, əlini şərab dolu badəyə uzadanda da gözünü kağızlardan çəkmirdi və onu tapmaq üçün kor kimi havada ora-buranı axtarırdı, tapan kimi də dodağına yaxınlaşdırırdı. Əlindəki işdə qarşılaşdığı çətinliklə əlaqədar olaraq, çaqqal iki-üç dəfə yerindən qalxıb dəsmalları təzədən islatmaq məcburiyyətində qalmışdı. Hər dəfə su bardağıyla ləyənə tərəf gedib-qayıdandan sonra nəm baş örtüyü o qədər qəribə görkəm alırdı ki, bunu sözlə ifadə etmək mümkün deyil, üzündəki gərgin ciddiyyət isə onu gülməli göstərirdi.

Nəhayət, çaqqal şir üçün bişirib hazırladığı yeməyi qazandan boşqaba boşaldıb divana yaxınlaşdı. Şir ona verilən hazır yeməyi çox ehtiyatla seçib sağmal-subay edir, sonra yeyirdi, arada nəsə iradları da olurdu, çaqqal bu yerdə də onun köməyinə gəlir, izahat verirdi. Çaqqalın bişirdiyi xörək hərtərəfli müzakirə olunduqdan sonra şir yenə əllərini toqqasının altına soxub uzandı, xəyala daldı. Çaqqal isə şərabla dolu iri stəkanı başına çəkib boğazını yaşladı, başına bağladığı dəsmalları təzədən isladıb sıxdı, şirin sifariş elədiyi ikinci xörəyi bişirib hazırlamaq üçün işə başladı. Bişmiş tikələrdən arada gətirib şirə verirdi; nəhayət, xörək bişib hazır olanda gecə saat 3-ü vurdu.

– İşimizi gördük, Sidni. Stəkanları punşla doldur, – mister Strayver dedi.

Çaqqal başına bağladığı dəsmalları açdı, dəsmallardan buğ qalxırdı; silkələndi, əsnədi, titrədi və şirin əmrini yerinə yetirdi.

– Sən budəfəki əsas şahid ifadələriylə bağlı yaxşı mülahizələr yürüdürsən, Sidni. Hər sualı xırda detalınadək dəqiq araşdırmısan.

– Mən həmişə dəqiq araşdırıram. Düz demirəm?

– Mən bunu inkar etmirəm. Sənə nə olub, gözümə birtəhər dəyirsən. Bir stəkan da punş iç, düzələcəksən.

Çaqqal ağzını marçıldatdı, göstərişə əməl elədi.

– Köhnə Şrusberi məktəbinin yetirməsi Sidni Karton, – Strayver başını tərpədib Kartona baxaraq elə dedi, sanki onun keçmişdə və indiki zamanda nə olduğunu yanaşı qoyub müqayisə edirdi, – oyuncaq Sidni, yelləncək yuxarı qalxır; baxırsan ki, kefi yaxşıdır, qəflətən halı pozulur.

– Ah! – Karton ah çəkdi. – Düzdür! Həmin o Sidnidir, yenə bəxti gətirir. Əvvəl də beləydi, o biri uşaqların dərsini hazırlayar, tapşırıqlarını yazardım, tək-tük hallarda öz dərsimi oxuyar, evə verilən tapşırıqları yerinə yetirərdim.

– Axı nə olmuşdu ki, belə eləyirdin?

– Allah bilir. Xasiyyətim belədir; Allah hərəni bir cür yaradır, mən də beləyəm.

Karton əllərini cibinə soxub, gözlərini sobanın alovuna zilləyərək ayaqlarını uzadıb oturmuşdu.

– Karton, – dostu dedi. Ona yaxınlaşıb elə danışdı, elə bil sobaya yox, dəmirçi kürəsinə və üstündə nəsə döyülüb hazırlanan zindana baxırdı, orada isə köhnə Şrusberi məktəbinin yetirməsi olan Sidni Karton üçün yalnız bir şey eləmək olardı və bu da ondan ibarət idi ki, onu götürüb dəmirçi sobasının içinə atasan. – Sən belәsən, əvvəldən də belə olmusan. Səninki yol deyil, topal cığırdır. Səndə qarşıya məqsəd qoyub onu yerinə yetirmək qətiyyəti yoxdur. Bura bax.

– Eh, bəsdir görək! – Sidni ironiya ilə güldü. – Sən də mənə əxlaq dərsi keçirsən!

– Mən həyatda nəyə nail olmuşam? – Strayver dedi. – Nəyə nail olmuşamsa, onu necə və hansı yolla əldə etmişəm?

– Hesab edirəm ki, nail olduqlarının bir qismini mənə haqq ödəməklə əldə etmisən. Amma indi o barədə danışmağa dəyməz. Nə eləmək istəyirsənsə, onu da eləyirsən. Sən həmişə cəbhənin ön xəttində olmusan, mən isə sənin arxanca gəlmişəm.

– Mən cəbhənin ön xəttinə keçmişəm, amma əvvəldən orada olmamışam. Elə deyil?

– Düzü, sənin ön xəttə keçməyin münasibətilə keçirilən mərasimdə iştirak etməmişəm, amma, məncə, sən elə əvvəldən də orada olmusan, – Karton dedi və yenə güldü. Strayver də ona qoşulub güldü.

– Şrusberiyə qədər, – Karton dedi, – Şrusberi vaxtı və Şrusberidən sonrakı dövrdə sən öz cərgəndə olmusan, mən də öz cərgəmdəki yerimi tutmuşam. Hətta tələbəlik illərində, Parisin tələbələr yaşayan məhəllələrində fransız dilini, fransız hüququnu və Fransaya aid olan, amma bizə dəxli olmayan nələrisə öyrənəndə də sən həmişə elə yerlərdə olmusan ki, mən ora yaxın düşə bilməmişəm.

– Səncə, günah kimdədir?

– And içə bilərəm ki, günahkarın sən olmadığına əmin deyiləm. Sən həmişə bir an da rahatlıq bilmədən o qədər vurnuxur, irəli atılır, dartınırdın, sıxırdın, itələyirdin ki, mən özüm barədə fikirləşməyə macal tapmır, oturub paslana-paslana gözləyirdim. Gecə keçib hava işıqlaşana yaxın oturub keçmişi xatırlamaq çox darıxdırıcı işdir. Mən indi getməliyəm, yaxşı olar ki, buranı tərk etməmişdən əvvəl başqa məsələdən danışaq.

– Yaxşı, sən deyən olsun! Qəşəng şahid yadındadır? Məhkəmədəki qızı deyirəm, onun sağlığına içək, – Strayver belə deyib əlindəki badəni yuxarı qaldırdı. – Hə, necədir, bu mövzu xoşuna gəlir?

Aşkar görünürdü ki, mövzu Kartonun xoşuna gəlməyib, çünki yenə tutuldu, qəm-qüssəyə qərq oldu.

– Hansı qəşəng şahidi deyirsən? – gözünü stəkandan çəkməyərək aşağı baxan Karton mızıldandı. – Mənim bu günə də, bu gecəyə də bəs edəcək şahidlərim var. Qəşəng şahid deyəndə sən onların hansını nəzərdə tutursan?

– Doktorun şəklə oxşayan qəşəng qızını deyirəm, miss Manett.

– O, qəşəngdir ki?

– Qəşəng deyil?

– Yox.

– Bir az yavaş danış, eşidən olar! Məhkəmə üzvlərinin hamısı heyran olmuşdu! Sən nə danışdığını bilirsən?

– Gör ha, məhkəmə üzvləri heyran olub! Old Beyl məhkəməsi nə vaxtdan bəri gözəllik məsələləri üzrə ekspert olub? Onun nəyi qəşəngdir? Sarısaç, adi kukladır, vəssalam!

– Bilirsən nə var, Sidni, – mister Strayver əliylə qırmızı sifətini sığallaya-sığallaya, öz iti nəzərlərini ondan çəkmədən dedi, – həmin an mənə elə gəldi ki, o sarısaç kukla sənin çox xoşuna gəldi, onun halı bir balaca pis olan kimi də ilk görən sən oldun. Bəlkə, düz demirəm?

– Hamıdan tez mən görmüşəm! Sarısaç kukla olsun, ya başqası olsun, nə fərqi var, əgər adamın gözünün qabağında kiminsə başı gicəllənir, ürəyi gedirsə, bunu görmək üçün xüsusi eynək taxmaq lazım deyil. İçməyə gəlincə, içək, amma onun gözəl olması fikriylə razı deyiləm. Bu badədən sonra içməyəcəyəm, yatmağa gedirəm.

Ev yiyəsi pilləkənlə düşən qonağın yolunu işıqlandırmaq üçün əlində şam tutub qapıdan çıxanda yeni günün soyuq işığı çirkli pəncərələrdən boylanırdı. Karton küçəyə çıxdı, soyuq hava adama qəm-qüssə gətirirdi;

göy üzünü buludlar almışdı, çayın bulanıq suları da tutqun rəngdəydi, – adama elə gəlirdi ki, heç bir canlının yaşamadığı səhraya düşüb. Toz qalxıb havada fırlanır, fırlanır, dövrə vururdu, – sanki uzaq səhradan qalxıb gələn və birazdan şəhərə hücum edəcək qum fırtınasından xəbər verirdi.

Öz gücünü boş yerə sərf etmiş insan və hər tərəfin cansız, boş səhra olduğu məkan, – yolüstü ayaq saxlayıb səhranı seyr edən Karton ilğım görürdü; yüksəliş ilğımını görürdü, şərəfli yüksəliş üçün inadla, özünü əsirgəmədən, lazım gələrsə, hətta bu yolda həyatını da qurban vermək istəyinin ilğımını görürdü. Bir gözəl şəhər görürdü, şəhərin yaraşıqlı qalereyalarından gözəllik və sevgi boylanıb baxırdı, bağlarda həyat meyvələri yetişirdi, ümid bulaqlarının göz yaşı kimi dumduru suyu hər tərəfdə bərq vururdu... Bütün bunları o, bir anlığa gördü, sonra hər şey yox oldu. Evlərin arasında quyuya oxşayan dar keçidlə üzüyuxarı qalxıb paltarını soyunmadan səliqəsiz çarpayının üstünə sərildi, çox keçmədi ki, göz yaşları yastığı islatdı. Günəş hüzn və kədərlə qalxır, kədərli mənzərəni işıqlandırırdı; qəlbi təmiz hisslərlə döyünən, istedadlı insanın həyatda özünə yer tapa bilməməsi, pis adətlərin əlində aciz qalıb onların əsirinə çevrilməsi və son nəticədə bədbəxt olmasından kədərli bir mənzərə, yəqin ki, yoxdur.

VI fəsil

İNSAN AXINI

Doktor Manettin müvəqqəti olaraq məskunlaşdığı xudmani ev Soho meydanının yaxınlığındakı sakit küçənin tinindəydi. Bazar günüydü, hava xoş idi. Günortadan sonra mister Carvis Lorri yaşadığı Klerkenvel tərəfdən çıxıb günəşli küçələrdən keçərək gəzə-gəzə doktor Manettgilə nahar eləməyə gedirdi; həmin o gurultulu xəyanət işi məhkəməsindən artıq dörd ay keçmişdi, zaman dənizinin aramsız dalğaları o hadisəni insanların yaddaşından süpürüb silmiş, izini itirmişdi. Təkrar olunan bir neçə işgüzar görüşdən sonra mister Lorri doktorla dostlaşdı və sakit küçənin tini indi həyatının işıqlı günəşinə çevrilmişdi.

Həmin o xoş bazar günü günortadan sonra mister Lorrinin Soho meydanı tərəfə getməsi artıq adət halını almış üç səbəblə bağlıydı. Birinci səbəb o idi ki, bazar günü nahardan əvvəl gedib doktorla Lüsini də götürür, gəzməyə çıxırdı; hava xoş olmayanda isə ailənin dostu kimi evdə oturub onlarla söhbət eləyir, kitab oxuyur, pəncərənin qarşısında dayanıb küçəyə baxırdı, bir sözlə, vaxtını keçirirdi və ikinci səbəb bundan ibarət idi; üçüncü səbəbə gəlincə, bəzi məsələləri dəqiqləşdirmək, yaranmış şübhələri dağıtmaq üçün hərdən onlara getməli olurdu, doktorun həyat tərzinə bələd olduğu üçün məhz bazar gününə üstünlük verirdi.

Londonu küçə-küçə axtarıb gəzsən, doktorun yaşadığı küçənin tini kimi mənzərəli bir yer tapmaq mümkün deyildi. Küçənin özündə gediş-gəliş yox idi, doktorun evi də onun qurtaracağındaydı; evin qabaq pəncərələrindən baxanda qarşı tərəfdə görünən mənzərənin sakit gözəlliyi insanda xoş bir ovqat yaradırdı. Oksford yolundan şimal

tərəfdə bir neçə bina var idi, talada meşə ağacları kükrəyib qalxmışdı, artıq yox olub getmiş çəmənliklərin yerində yabanı çiçəklər və çiçək açmış yemişan görünürdü. Odur ki təmiz hava heç bir əngəllə üzləşmədən Soho meydanına dolub dövr edirdi, başqa kilsəyə pənah gətirmiş evsiz-eşiksiz dilənçi kimi özgə qapılarının ağzında qalıb çürümürdü; cənub tərəfə baxan divarların yaxınlığında isə yay vaxtı şaftalı yetişirdi.

Yay gününün erkən saatlarında küçənin tini günəş şüalarına qərq olurdu, gün qalxıb o biri küçələri qızdıranda isə oraya kölgə düşürdü, amma kölgə elə də sıx olmadığına görə parlaq yay işığı burada da özünü göstərirdi. Kölgə düşən yer sərin idi, sakit, həm də qəşəng idi, ora səslərin qəribə əks-səda verdiyi təbii qayalıq kimi küçə səs-küyündən uzaq, xudmani liman kimi bir yer idi.

Bu cür sakit limana sülhməramlı gəmi yan almalıydı və o gəmi artıq orada lövbər salmışdı. Sakit və geniş binanın iki mərtəbəsini doktor tutmuşdu, həyətdə iş görən və müxtəlif peşə sahibi olan ustaların səsi gündüzlər, demək olar ki, eşidilmirdi, gecə vaxtı isə onlar əsla gözə dəymirdilər. Binanın arxa tərəfində olan həyətdəki çinar ağacının yarpaqları pıçıldaşdığı yerdə kilsə üçün musiqi aləti – orqan düzəldən ustanın emalatxanası gümüş əşyalar düzəldən ustanın otağıyla yanaşıydı; giriş qapısının üstündəki lövhədə sanki divarı zərblə deşərək çıxıbmış kimi görünən böyük, qızıl əl təsvir olunmuş və orada, çox güman ki, hansısa nəhəng, möcüzəli zərgərə məxsus olan zərgər dükanı da var idi, o lövhəni görən adama elə gəlirdi ki, dükan sahibi özünü qızıla çevirdiyi kimi, müştəriləri də döyüb qızıla çevirəcəyiylə hədələyir. Həmin ustalar, yuxarı mərtəbədə yaşayan tənha kirəkeş və binanın birinci mərtəbəsini kontora çevirmiş faytondüzəldən kişi çox nadir hallarda gözə dəyirdi, onların səsi də eşidilmirdi. Hərdən görürdün işçilərdən kimsə gödəkcəsini geyinib həyətdən keçərək harasa gedir, ya da hansısa nabələd adam boylanıb bu tərəfə baxır; bəzən də həyətdən gələn metal cingiltisi, yaxud nəhəng zərgərin işlətdiyi çəkicin küt tappıltısı eşidilirdi. Amma bunlar az təsadüf olunan kənaraçıxmalar idi və bir daha təsdiq edirdi ki, binanın arxasındakı çinar ağacına qonmuş sərçələrin cikkildəşməsi və tində eşidilən əks-səda bazar günü səhər tezdən düz gələn şənbə günü axşamacan burada hökmranlıq edəcək.

Doktor Manett xəstələri evdə qəbul edirdi, xəstələri ona cəlb edən isə əvvəlki ad-sanıyla yanaşı, həm də başına gəlmiş dəhşətli hadisələrlə

bağlı səngimək bilməyən söz-söhbət idi. Dərin biliyi, intuisiyası və topladığı təcrübə sayəsində bir həkim kimi hörməti günbəgün artmaqdaydı, eyni zamanda öz ehtiyaclarını ödəyəcək qədər pul da qazanırdı.

Bütün bu məsələlər mister Carvis Lorriyə artıq məlum idi, havanın xoş olduğu həmin bazar günü küçənin tinindəki sakit evin qapı zənginə toxunanda da o barədə fikirləşirdi.

– Doktor Manett evdədir?

– Birazdan gələcək.

– Miss Lüsi evdədir?

– Birazdan gələcək.

– Miss Pross evdədir?

Olsun ki, miss Pross evdədir, amma xidmətçi qız çəkindiyi üçün açıq danışmır, ona görə də miss Prossu soruşan adam onun evdə olub-olmadığını öyrənə bilmir.

– Elə isə onda mən özüm evdəyəm, – mister Lorri dedi, – yuxarı qalxacağam.

Doktorun qızı öz ana Vətənini əsla tanımırdı, amma öz həmvətənləri üçün xarakterik olan xüsusiyyət – ən xırda bir şeydən də maksimum yararlanıb daha çox fayda əldə etmək qabiliyyəti irsi olaraq onda da var idi. Mənzilin mebeli sadəydi, oradakı heç nə qiymətli sayıla bilməzdi, amma, bununla belə, hər xırda detal da zövqlə seçilib bir-birinə yaraşdırılaraq düzülmüş, son nəticədə valehedici bir effekt yaranmışdı. Ən böyük predmetdən tutmuş ən xırda detalacan hər şeyin rəngində, formasında, düzülüşündə zövq və qənaətcillik var idi, harmoniya və kontrast bir-birini əvəz edirdi; hiss olunurdu ki, bütün bunları gözəl zövqə malik olan bacarıqlı insan əli təmiz ürəklə, saf hisslərlə, aydın düşüncəylə qoşub-düzüb; hər şey ürəyəyatan idi; mister Lorri otağın içində dayanıb ətrafına baxanda sanki stollar və stullar artıq ona yaxşı tanış olan xüsusi bir ovqatla soruşurdu: hə, necədir, bura sizin xoşunuza gəlirmi?

Doktorun məskunlaşdığı mərtəbədə üç otaq var idi, onların qapıları taybatay açıq olurdu ki, təmiz hava maneəsiz dövr edə bilsin, ətrafındakı hər şeydə bir oxşarlıq görən mister Lorri gülümsəyərək bir otaqdan o birinə keçirdi. Birinci – ən yaxşı otaqda Lüsinin yazı stolu, iş stolu, sulu boyalar yığılmış qutu yerləşdirilmişdi, qızın kitabları, sevimli quşları və çiçəkləri də o otaqdaydı; ikinci otaq həm doktorun qəbul otağı, həm də yemək otağıydı; divarlarını həyətdəki çinar ağacından düşən

kölgənin bəzədiyi üçüncü otaq doktorun yataq otağıydı, bir vaxtlar Parisin Sent Antuan məhəlləsindəki şərab dükanıyla yanaşı binanın beşinci mərtəbəsindən yuxarıda yerləşən çardaqda doktorun istifadə etdiyi, indi isə istifadəsiz qalmış çəkməçi oturacağı və pinəçi alətləri yığılmış sini də bu otağın küncündəydi.

– Heç nə başa düşmürəm, – göz gəzdirib ətrafına baxan mister Lorri bir anlıq dayanıb öz-özünə dedi, – bu adam öz keçmiş əzablarını xatırladan şeyləri gözünün qabağında saxlayır!

– Burada təəccüblü nə var ki? – qəflətən eşitdiyi sual mister Lorrini diksindirdi.

Bu isə mister Lorrinin ilk dəfə Duvrdakı "Kral Corc" hotelində görüb tanıdığı, qırmızısifət, dəlisov, əldən iti miss Prossun səsiydi; o vaxtdan bəri münasibətləri xeyli yaxşılaşmışdı.

– Mən elə bildim ki, – mister Lorri cümləsini belə başladı.

– Pah! Siz elə bildiniz ki! – Miss Prossun bu sözündən sonra cümləni tamamlamadı.

– İşləriniz necə gedir? – həmin ledi özünəməxsus sərt tərzdə elə dedi, sanki bununla göstərmək istəyirdi ki, ürəyində ona qarşı heç bir kin yoxdur.

– Yaxşıyam, sağ olun, – mister Lorri yumşaq səslə cavab verdi. – Siz necəsiniz?

– Yaxşı bir şey yoxdur, – miss Pross dedi.

– Doğrudanmı?

– Ah, doğrudan! – miss Pross dedi. – Mən öz sevimli ledimdən çox nigaranam.

– Doğrudanmı?

– Allah xatirinə, "doğrudanmı"sız danışın, belə getsə, mən dəli olacağam, – miss Pross dedi; hündür boyuna baxmayaraq, onun xasiyyətində bir kəsəlik var idi.

– Yaxşı, həqiqətən elədir? – deyə nitqində düzəliş elədi.

– Bu cür pis deyil, hətta kifayət qədər yaxşıdır, – miss Pross dedi. – Bəli, mənim halım yaxşı deyil.

– Səbəbini soruşmaq olarmı?

– Sevimli ledimin ayağının tozuna da dəyməyən adamların ona baxmaq üçün dəstə-dəstə gəlib burada hərlənib-fırlanmağı heç xoşuma gəlmir, – miss Pross dedi.

– Deməli, ona baxmaq üçün onlarla adam gəlir?

– Yüzlərlə, – miss Pross dedi.

Miss Pross kimi adamların xasiyyəti belədir (belə adamlar əvvəllər də olub, indi də var), dedikləri sözə şübhəylə yanaşıldığını hiss edən kimi hər şeyi şişirdirlər.

– Allah, sən saxla! – mister Lorri çaşqın vəziyyətdə olsa da, öz münasibətini sakit tərzdə ifadə etdi.

– Mən öz sevimli ledimin yanında yaşayıram, yaxud o mənim yanımda yaşayır və buna görə mənə haqq da ödəyir, amma gərək belə eləməyəydi, başımla cavabdehəm, hətta istəsəniz, siz özünüz də görərsiniz ki, biz ancaq hava və su ilə kifayətlənə bilsəydik, mənə heç nə lazım olmazdı; qızın 10 yaşı var idi, o vaxtdan da mənimlə bir yerdədir. Bu, həqiqətən, çox ağırdır, – miss Pross dedi.

Əslində, nəyin çox ağır olduğunu dərk etməyə macal tapmamış mister Lorri başını silkələdi, öz bədəninin əsas hissəsindən istifadə edərək, sanki istənilən çətin vəziyyətdən çıxmaq üçün gözəl vasitə olan sehrli xalatını geyindi.

– Beş qəpiyə dəyməyən adamlardır, bir də görürsən gəlib buralarda fırlanırlar, – miss Pross dedi. – Bunu siz nə vaxt başlamısınız?

– Bunu mən başlamışam, miss Pross?

– Bəs kim başlayıb? Onun atasını həyata qaytaran kim oldu?

– Oh! Əgər hər şey oradan başlayırsa, – mister Lorri dedi.

– Bəs nədir, bəlkə, sonu olmalıydı? Demək istəyirəm ki, siz bu işi başlayanda da kifayət qədər çətin idi; mən doktor Manetti ittiham edib deyə bilmərəm ki, bu cür qızın atası olmağa layiq deyil, istənilən halda onsuz da belə bir adam tapmaq çox çətindir. İkiqat, üçqat pis olan isə odur ki, adamlar dəstə-dəstə axışıb doktorun yanına gəlir (yaxşı, deyək ki, bu, doktorun günahı deyil), amma bu adamlar araya girib gözəl ledimi məndən ayrı salırlar.

Mister Lorri bilirdi ki, miss Pross çox qısqanc adamdır, eyni zamanda onu da bilirdi ki, bu dəlisov qadın, əsasən, qadınlarda müşahidə olunan qeyri-adi fədakarlıq nümunəsidir, könüllü olaraq özünü artıq çoxdan itirdiyi gəncliyin, heç vaxt malik olmadığı gözəlliyin, onun üçün həmişə əlçatmaz olan bacarıq və istedadın, tutqun həyatını işıqlandıra biləcək ümidverici arzuların quluna çevirə bilər. Həyatın hər üzünü görmüş mister Lorri hesab edirdi ki, qəlbən sevə bilən vəfalı

qadından yaxşı heç nə yoxdur, heç bir şəxsi maraq güdmədən bu cür qadınlara qarşı o qədər rəğbət bəsləyirdi ki, bəzən öz aləmində onları şəxsi keyfiyyətlərinə görə cərgəyə düzüb baxır, qiymətləndirirdi (belə müqayisələri bu və ya digər dərəcədə biz hamımız edirik) və görürdü ki, Tellson Bankda şəxsi hesabları olan, Təbiətin və Sənətin bəxş etdiyi yüksək məziyyətlərə malik olan ledilərlə müqayisədə miss Pross aşağı rütbəli mələklərə daha yaxındır.

– Bu dünyada mənim sevimli ledimə layiq bir adam olmayıb və olmayacaq da, – miss Pross dedi. – Yalnız bir nəfər, mənim qardaşım Solomon ona layiq idi, o da həyatda səhvə yol verdi.

Əslində isə miss Prossun şəxsi həyatıyla bir balaca maraqlanan kimi mister Lorriyə məlum olmuşdu ki, onun qardaşı Solomon əclafın biridir, bacısını soyub talayır, əlində olan pulları alıb göyə sovururmuş, əsla utanmadan onu aldadaraq bütün pullarını alıb hansısa işə xərcləyib, sonra da yoxa çıxıb, yazıq qadını ömürlük dilənçi kökünə salıb. Qardaşına olan sarsılmaz inama (qardaşın yol verdiyi səhvlər də o inama ciddi bir ziyan vura bilməmişdi) görə mister Lorri bu qadına daha çox hörmət edirdi.

– İndi burada bizdən başqa ayrı adam yoxdur və ikimiz də işgüzar adamıq, – onlar qonaq otağına qayıdıb oturaraq dostyana söhbət edəndə mister Lorri dedi, – icazənizlə sizdən soruşmaq istərdim: Lüsi ilə söhbət edəndə olurmu ki, doktor nə vaxtsa çəkməçilik elədiyini yada salıb o barədə danışsın?

– Heç vaxt.

– Amma çəkməçi kətiliylə birlikdə o vaxt istifadə etdiyi alətləri hələ də göz qabağında saxlayır. Bəs bu nə üçündür?

– Ah! – miss Pross başını silkələyib dedi. – Axı mən demədim ki, keçmiş günləri o, tamam yaddan çıxarıb, yaxud öz aləmində heç vaxt o barədə fikirləşmir.

– Sizcə, doktor o barədə çoxmu fikirləşir?

– Məncə, çox fikirləşir.

– Siz təsəvvür edirsinizmi... – mister Lorri cümləsini tamamlaya bilmədi, miss Pross buna imkan vermədi.

– Mən heç nə təsəvvür etmirəm. Nəyisə təsəvvür edə bilmək qabiliyyəti məndə ümumiyyətlə yoxdur.

– Yaxşı, düzəliş edərəm. Siz hərdən fikirləşirsinizmi ki... üzr istəyirəm, fikirləşmək necə, siz hərdən fikirləşə bilirsiniz?

– Hərdən olur.

– Ağlınıza belə bir fikir gəlibmi ki, – mister Lorri gözlərini qıyıb gülə-gülə dedi, – doktor Manettin öz başına gələn bədbəxtliklə bağlı bu illər ərzində formalaşmış şəxsi fikri var, səbəbkarın adını da bilir, amma bu barədə susur?

– Sevimli ledimin öz dediklərindən başqa, o barədə mənim ağlıma heç bir fikir gəlmir.

– Sevimli ledi nə deyir ki?

– O deyir ki, doktor özü nəsə bilir.

– Bu suallara görə məndən inciməyin, çünki mən dardüşüncəli, küt bir iş adamıyam, siz də işgüzar qadınsınız.

– Küt adamsınız? – miss Pross halını da pozmadan soruşdu.

– Yox, yox, yox. Mən o mənada demədim, – yersiz söz işlətdiyindən peşman olmuş mister Lorri dedi. – Sözümün üstünə qayıdıram: doktor Manett heç bir cinayət törətməyib və biz hamımız bunu gözəl bilirik, belə olan halda necə ola bilər ki, bu adam bir dəfə də olsun o məsələyə toxunmasın? Təəccüblüdür, elə deyil? Mən onu neçə illərdir tanıyıram, biznes əlaqələrimiz çoxdan başlayıb, indi də yaxın dostuq, amma mən özümü nəzərdə tutmuram; gözünün ağı-qarası bir qızı var, onu çox sevir, qız da onu çox istəyir, dərdini heç olmasa öz qızına deyə bilməz? İnanın ki, miss Pross, sizi danışdırıb nəsə bir söz qopartmaq xatirinə soruşmadım, sadəcə olaraq, bilmək istəyirəm ki, kömək eləyə bilim.

– Hər halda, mən belə başa düşürəm ki, – miss Pross həmsöhbətinin üzrxahlıq etməsindən sonra bir qədər yumşaq tonda dedi, – doktor o məsələyə toxunmağa, o barədə danışmağa qorxur.

– Qorxur?

– Bəli, mən hesab edirəm ki, qorxur. O dəhşətin özünü yada salmaq da qorxuludur. Bu hadisə başına gələndən sonra o ağlını itirib. Bilmir ki, necə olub ağlını itirib, özünə necə gəldiyini də bilmir, yenidən ağlını itirməyəcəyinə isə əmin deyil. Mənim fikrimcə, əsasən, bu səbəblər üzündən o barədə danışmaq istəmir.

Mister Lorri bu qədər əsaslandırılmış cavab alacağını gözləmirdi.

– Düzdür, – dedi, – o barədə fikirləşmək özü də dəhşətdir. Amma, bununla belə, miss Pross, bir sual mənə rahatlıq vermir: başına gələn

dəhşətli hadisələr barədə bildiklərini öz içində gizləyib dərdini heç kimlə bölüşməmək doktor Manettə yaxşı nə vəd edir? Məsələnin bu tərəfi məni həqiqətən narahat edir, ona görə də sizinlə danışmaq istədim.

– Sizə yardım edə bilməyəcəyəm, – miss Pross başını silkələyib dedi. – Bu simə toxunmaq vəziyyəti dərhal pisləşdirə bilər. Yaxşısı budur, o barədə danışmayaq; bu, yaxşıdır, yoxsa pisdir, fərqi yoxdur, yaranın közünü qopardıb qanatmaq lazım deyil. Bir də görürsən gecənin yarısı oyanıb qalxır, otaqda ora gedir, bura gedir; biz də yuxarı mərtəbədən onun ayaq səslərini eşidib oyanırıq. Mənim gözəl mələyim də artıq bilir ki, doktorun beyni dumanlanıb, elə bilir əvvəlki kimi yenə türmədədir, ona görə də otaqda ora-bura gedir. Yazıq qız tələsik qaçıb gəlir, bu dəfə onlar birlikdə irəli-geri, irəli-geri gedib o qədər gəzirlər ki, nəhayət, doktor sakitləşir. Öz narahatlığının real səbəbi barədə qızına heç vaxt heç nə demir, qız da hesab edir ki, o barədə nəinki danışmaq, hətta eyham vurmaq belə lazım deyil. Dinib-danışmadan əl-ələ tutub ora gedirlər, bura gedirlər, ora gedirlər, bura gedirlər. Nəhayət, övladının həniri və sevgisi onu sakitləşdirib əvvəlki vəziyyətinə qaytarır.

Miss Pross iddia edirdi ki, onda nəyisə təsəvvür etmək qabiliyyəti yoxdur, amma əgər o, beyni dumanlanmış insanı xəyalən görməsəydi, eyni frazanı təkrarlamaqla onun vəziyyətini belə aydın təsvir edə bilməzdi, bu isə göstərirdi ki, əslində, onun təsəvvür qabiliyyəti heç də pis deyil.

Küçənin tininin səslərin əks-səda verməsi baxımından qəribə yer olduğu artıq qeyd olunub, indi də ayaq səslərinin əks-sədası eşidiləndə elə təsəvvür yarandı ki, yorğun ayaqların ora-bura getməsindən danışıldığı üçün səs bir az da çoxalıb.

– Gəlirlər! – miss Pross dedi, müzakirəyə son qoyub ayağa qalxdı. – Birazdan burada adam əlindən tərpənmək mümkün olmayacaq.

Öz akustik xüsusiyyətlərinə görə bu məkan, doğrudan da, qəribəydi, sanki buranın öz xüsusi qulağı var idi və indi mister Lorri açıq pəncərənin qarşısında dayanıb ata ilə qızı görmək üçün baxanda ona elə gəldi ki, onlar heç vaxt gəlib çatmayacaqlar. Addımlar uzaqlaşanda olduğu kimi əks-səda ölәziyib sönmədi, əvəzində isə sanki heç vaxt gəlib bura çatmayacaq tamam başqa yerişin əks-sədası eşidildi, gələnlər lap yaxınlaşanda o səs də kəsildi. Nəhayət, ata ilə qız göründü, miss Pross isə küçə qapısının ağzında dayanıb onları gözləyirdi.

Sevimli xanımını qarşılayan miss Prossa baxmaq özü bir tamaşaydı: bu dəlisov, qırmızısifət, qaşqabaqlı qadın birdən-birə dəyişdi, miss Manettin şlyapasını başından götürdü, dəsmalın ucuyla şlyapaya toxunub tozunu sildi, qızın mantiyasını çıxardıb səliqəylə qatladı və onun gur saçlarını elə fəxrlə sığalladı, sanki dünyanın ən gözəl qadını öz gözəl saçlarına baxıb qürrələnirdi. Miss Prossun sevimlisinin də gözü gülürdü: miss Prossu qucaqlayıb təşəkkür elədi, bu qədər əl-ayağa düşüb narahat olduğuna görə öz etirazını bildirdi, amma bunu zarafatla dedi, əks təqdirdə, miss Pross bərk inciyib öz otağına çəkilərək bütün günü ağlaya bilərdi. Dayanıb onlara baxan doktorun da görkəmi yaxşıydı; o, miss Prossa deyirdi ki, Lüsini ərköyün edib, amma onun danışıq tonundan və gözlərindən görünürdü ki, o cəhətdən özü də miss Prossdan geri qalan deyil, hətta imkanı olsaydı, qızını bir az da ərköyün edərdi. Mister Lorri də xoşbəxt görünürdü, başına qoyduğu səliqəli, balaca parikdə kişi sanki işıq saçırdı və qoca vaxtında bu evə pənah gətirə bildiyi üçün öz subay taleyinə minnətdarlıq edirdi. Amma buraya gəlməli olan insan axını gözə dəymirdi, mister Lorri də nahaq yerə boylanıb baxırdı ki, görsün miss Prossun dedikləri öz təsdiqini tapacaqmı.

Nahar vaxtıydı, dəstə-dəstə gəlməli olan adamlar isə hələ də görünmürdü. Elə də böyük olmayan evin təsərrüfatında ən ağır işlər miss Prossun üstünə düşsə də, o öz vəzifəsinin öhdəsindən məharətlə gəlirdi. Onun bişirdiyi xörəklər dəbdəbəli deyildi, amma çox dadlıydı, sidqiürəklə hazırlanıb incə bir zövqlə süfrəyə düzülürdü, bilmirdin fransız mətbəxidir, yoxsa ingilis, amma bu ləzzətli xörəklərdən yaxşı bir şey fikirləşib tapmaq da, yəqin ki, mümkün deyildi. Öz işinin xatirinə hamıyla yaxşı münasibət yaratmağa çalışan miss Pross Sohonu və ətrafdakı məhəlləsini gəzib soraqlayır, kasıb fransızları tapıb tanış olur, onları şirin dilə tutur, bir şillinq, ya da yarım kron verərək fransız mətbəxinin sirlərini öyrənirdi. Qalliyanın müflisləşmiş övladlarından miss Pross elə şeylər öyrənmişdi ki, bostandan dərilmiş bir-iki tərəvəzin, bazardan alınmış toyuğun, ya da dovşanın necə gözəl xörəklərə çevrildiyini görən xidmətçi qadınla qız onu, sözün həqiqi mənasında, sehrbaz hesab edirdilər.

Bazar günləri miss Pross doktor üçün açılmış süfrədə nahar edirdi, adi günlərdə isə kefi nə vaxt istəsə, onda nahar edirdi, yeməyini də ya aşağı mərtəbədə, ya da yuxarı mərtəbədəki mavi otaqda yeyirdi ki, ora-

ya da yalnız miss Pross daxil ola bilərdi. Bu bazar günü isə öz sevimli ledisinin gülümsər sifətini və ona göstərdiyi xoş münasibəti görüb ruhlanmış miss Pross həddən ziyadə xoşbəxt idi, nahar yeməyi də bu gün çox dadlıydı.

Günorta vaxtı hava bir qədər çox istiydi deyə Lüsi təklif elədi ki, nahardan sonrakı şərabı çinar ağacının kölgəsində oturub içsinlər. Bu evdə hər şey Lüsi üçün idi, hamı onun ətrafında toplaşmışdı, odur ki təklif qəbul olundu: çinar ağacının kölgəsinə getdilər, Lüsi də, əsasən, mister Lorri üçün nəzərdə tutulmuş şərab şüşəsiylə badələri götürüb ora apardı. Bir neçə gün əvvəl Lüsi elan edib demişdi ki, mister Lorrinin badəsinə şərab süzmək vəzifəsini rəsmi olaraq öz üzərinə götürür və indi də çinar kölgəsində oturub söhbət elədikləri vaxt çalışırdı ki, onun badəsi vaxtlı-vaxtında şərabla doldurulsun. Stol ətrafında oturanlar söhbət edirdilər, evlər öz müəmmalı görkəmiylə boylanıb bu tərəfə baxırdı, çinar ağacının yarpaqları isə onların başı üstündə pıçıldaşıb öz dillərində nəsə deyirdi.

Dəstə-dəstə axışıb gəlməli olan adamlar hələ də gözə dəymirdi. Aradan bir az keçmiş mister Darney gəldi, amma o, tək gəlmişdi.

Doktor Manett onu çox mehriban qarşıladı, Lüsi də eynən atası kimi davranırdı. Miss Prossa gəlincə, qəflətən halı dəyişdi, başıyla bədəni qıcolmaya bənzəyən bir vəziyyət aldı və o durub evə getdi. Hərdən baş verən bu halı o özü "əsməcəli başgicəllənmə" adlandırırdı.

Doktorun kefi yaxşıydı və sanki xeyli cavanlaşmışdı. Belə anlarda onunla Lüsi arasında olan oxşarlıq daha aydın görünürdü, ələlxüsus da o vaxt ki, onlar yanaşı otururdular, qız başını əyib onun çiyninə söykəyirdi, doktorun əli qızın oturduğu stulun söykənəcəyində olurdu – o məqamda onların bir-birinə çox oxşadığını görməmək mümkün deyildi.

Bu gün doktor ən müxtəlif məsələlər barədə yorulmaq bilmədən danışırdı; onda qəribə bir canlanma var idi.

– Doktor Manett, – mister Darney çinar ağacının kölgəsindəki söhbət zamanı dedi, həmin vaxt Londonun qədim binalarından danışırdılar, – siz Tauer qalasına yaxşı bələdsiniz?

– Cəmi bir dəfə Lüsi ilə getmişik, o da təsadüfən olub. Orada baxmalı, görməli çox şey var, biz də bir az gəzdik, baxdıq. Başqa nə deyə bilərəm ki?

– Əgər xatırlayırsınızsa, mən də orada olmuşam, – mister Darney gülümsəyərək dedi, onun sifəti qızarıb qəzəb ifadə elədi, – amma gəzib baxmaq üçün getməmişdim. Mən orada olanda çox maraqlı bir əhvalat eşitdim.

– Hansı əhvalatı eşitdiniz? – Lüsi soruşdu.

– Orada tikinti işi aparan fəhlələr bir dəfə yeraltı məhbəsə rast gəliblər; çox illər öncə tikilən məhbəs artıq unudulubmuş. İçəri tərəfdən məhbəs divarlarındakı hər daşın üstünə məhbuslar müxtəlif tarixlər, adlar, arzu və şikayətlər, dualar yazıblar. Divarın küncündəki daşlardan birinin üstünə isə, yəqin ki, ölüm cəzasına məhkum olunmuş məhbuslardan biri öz son sözünü yazıb və o da cəmisi üç hərfdən ibarətdir. Hərfləri hansısa küt alətlə, tələsik, özü də səriştəsizliklə yazıblar. İlk baxışda müəyyən olunub ki, daşın üstünə "QAR" yazılıb. Sonra daha diqqətlə baxanda isə görüblər ki, sonuncu hərf "R" deyil, "Z"dır. Hesab ediblər ki, bu hansısa məhbusun soyadı, adı və atasının adının baş hərfləridir. Amma adı bu cür hərflərlə ifadə olunan məhbusu müəyyənləşdirmək mümkün olmayıb. Digər ehtimalların araşdırılması da bir nəticə verməyib. Nəhayət, belə bir nəticəyə gəliblər ki, bu hərflər ad və soyadı ifadə etmir, bütöv bir sözdür – qaz. Yazının alt tərəfindən döşəməni diqqətlə gözdən keçirəndə daşın altındakı torpağın içində yarıyanmış kağız parçaları və bir də hansısa balaca dəri torbanın, ya da bəlkə, pul kisəsinin qalıqlarını tapıblar. Naməlum məhbusun nə yazdığı bilinmir, amma o nəsə başqa bir şey də yazıb və nəzarətçilərin əlinə keçməsin deyə ayrı yerdə gizləyib.

– Ata! – Lüsi həyəcanla dedi. – Sənə nə oldu?

Doktor əliylə başını tutub ayağa durdu; onun görkəmi və davranışı hamını dəhşətə gətirdi.

– Mənə heç nə olmayıb, qızım, xəstə deyiləm. Yağış yağır, iri damcılar qəflətən üzümə düşüb məni diksindirdi. Durun evə gedək.

Doktor artıq özünü ələ almışdı. Yağış isə doğrudan da yağırdı; seyrək, amma iri damcılarla yağırdı və doktor əlinin üstünə düşmüş damcıları göstərdi. Amma haqqında danışılan tapıntı barədə bir kəlmə söz belə demədi, onlar evə gedəndə isə mister Lorri öz nüfuzedici baxışlarıyla sezdi, ya da bəlkə, sezmədi, ona elə gəldi ki, doktor çevrilib Çarlz Darneyə baxanda onun üzünün ifadəsi məlum məhkəmə prosesindən

sonra dəhlizdə ona baxdığı vaxt üzündə görünən müəmmalı ifadəyə oxşadı.

Amma doktor tez özünü ələ aldı, üzünün ifadəsi də elə tez dəyişdi ki, mister Lorri fikirləşdi: bəlkə də, səhv edir. Dəstə zərgər dükanına çatanda doktor ayaq saxlayıb hamıya müraciətlə dedi ki, indinin özündə belə əhəmiyyətsiz şeylərdən diksinir (bunun bir sonu olacağını da bilmir) və indi də yağışdan diksindi, – həmin anda o, qızıl nəhəngin divarı deşib çıxmış əlinin altında dayanmışdı, amma hiss olunurdu ki, möhkəmlikdə o, qızıl əli üstələyir.

Çay süfrəsi hazırlanırdı, çay dəmləyən miss Prossun əsməcəsi hələ də özünü büruzə verirdi, dəstə-dəstə gəlməli olan yüzlərlə adam isə hələ ki gözə dəymirdi. Mister Karton yolüstü dönüb doktorgilə gəldi, amma mister Darneyi də nəzərə alanda vur-tut iki nəfər alınırdı.

Axşam vaxtı da hava istiydi; otaqların qapı-pəncərələrini taybatay açsalar da, istidən adamın ürəyi sıxılırdı. Çay içəndən sonra pəncərələrdən birinin qarşısında toplaşıb get-gedə qaralaraq qatılaşmaqda olan havaya baxırdılar.

Lüsi atasının böyründə, Darney də qızın yanında oturmuşdu, Karton pəncərənin qırağına söykənib ayaq üstə dayanmışdı. Küçəyə soxulmuş külək ağ, uzun pəncərə pərdələrini tavana tərəf qaldıraraq hansısa xəyali qanadlar kimi yelləyirdi.

– Təkəmseyrək, iri damcılar düşür, – doktor Manett dedi. – Yağış yağacaq, amma ləng gəlir.

– Ləngisə də, möhkəm yağacaq, – Karton dedi.

Dayanıb harasa baxaraq nəsə gözləyən adamlar kimi yavaş səslə danışırdılar; əslində, onlar qaranlıq otaqda oturub şimşək çaxacağını gözləyirdilər.

Yaxınlaşmaqda olan tufanı qabaqlayıb evə tez çatmaq istəyən adamların ayaq səsləri eşidilirdi, küçədə bir qaçaqaç, bir çaxnaşma başlamışdı; qəribə akustikası olan tində hər tərəfdən gəlib-gedən adamların addım səsləri eşidilirdi, amma bu tərəfə gələn bir adam da görünmürdü.

– Ətrafda gör nə qədər adam var, amma yenə adam özünü tənha hiss edir, – bir xeyli oturub küçədən gələn səslərə qulaq asandan sonra Darney dedi.

– Adam nəsə birtəhər olur, eləmirmi, mister Darney? – Lüsi soruşdu. – Hərdən axşamtərəfi burada o qədər otururam ki, ağlıma qəribə fikirlər

gəlir, indi, hər şeyin qaranlığa büründüyü bu gecə vaxtı onları yadıma salanda bədənim titrəyir.

– Deyin, biz də titrəyək. O barədə eşitmək maraqlı olardı.

– Deyərəm, amma sizə mənasız görünəcək. O cür qəribəliklər, məncə, kimin ağlına gəlirsə, ona təsir edir, başqalarına isə heç bir təsiri olmur. Axşamlar hərdən burada oturub addım səslərinin əks-sədasına qulaq asıram və bilmirəm nəyə görəsə mənə elə gəlir ki, səsini eşitdiyim bu addımlar nə vaxtsa bizim həyatımıza müdaxilə edəcək.

– Əslində, bizim həyatımıza nə vaxtsa böyük insan kütləsi müdaxilə etməlidir, – Sidni Karton özünəməxsus ciddiyyətlə dedi.

Addım səslərinin ardı-arası kəsilmirdi, onlar get-gedə daha tələsik və aramsız olurdu. Küçənin tinində addım səsləri əks-səda verirdi, adama elə gəlirdi ki, o səslərin bəziləri pəncərənin altından gəlir, bəziləri otağın içində eşidilir; bəziləri gəlir, bəziləri gedir, bəziləri bir anlığa da olsa, qəflətən dayanır, bəziləri tamam kəsilir və bütün bu səslər uzaq küçələrdən gəlir, onları buradan görmək olmaz.

– Miss Manett, bu addımlar hamımıza aiddir, yoxsa biz onları öz aramızda bölüşdürməliyik?

– Bilmirəm, mister Darney, axı mən dedim ki, bunlar hamısı boş fantaziyadır, siz özünüz məni o barədə danışmağa vadar elədiniz. Bu fikir ağlıma gələndə evdə tək idim və mənə elə gəldi ki, atamla mənim həyatıma müdaxilə etmək üçün gələn adamların ayaq səslərini eşidirəm.

– Mən onları özümə götürürəm! – Karton dedi. – Heç nə soruşmuram, heç bir şərt qoymadan götürürəm. Üstümüzə gələn böyük insan kütləsini mən artıq görürəm, miss Manett, şimşək işığında görürəm onları. – Son sözləri o, ildırım çaxıb qaranlıq səmanı parçalayan şimşəyin hər tərəfi işıqlandırmasından sonra dedi və bu zaman hamı gördü ki, o, pəncərənin içinə tərəf əyilib.

– Mən onların səsini eşidirəm! – ildırım çaxandan sonra o, yenidən əlavə elədi. – Bura gəlirlər, qaçaraq gəlirlər; qəzəblidirlər, amansızdırlar.

Onun sözləri artıq şarıltı və gurultuyla yağan yağışa aid idi, bu səsküyün içində Karton susmalı oldu, çünki onsuz da dediklərini heç kim eşitməyəcəkdi. İldırımın ara vermədən gurlayıb yeri-göyü lərzəyə saldığı və şimşəyin də aramsız çaxıb hər tərəfi işıqlandırdığı o əlamətdar tufanlı yağış gecəyarısınacan davam elədi. Gecəyarısı hava açıldı, Ay doğdu.

Yağış kəsib hava açılandan sonra mister Lorri küçəyə çıxanda Müqəddəs Pavel kilsəsinin zəngi gecə saat 1-i vurdu. Uzunboğaz çəkmə geyinib əlində fənər tutmuş Cerri orada dayanıb gözləyirdi ki, Klerkenvel küçəsindəki evinəcən onu müşayiət eləsin. Soho ilə Krekenvel arasındakı yolda qaranlıq dalanlar var idi və mister Lorri gecə vaxtı soyğunçuların əlinə keçməmək üçün Cerrinin xidmətindən istifadə etməli olurdu, amma adi gecələrdən fərqli olaraq, bu dəfə o, iki saat gec çıxmışdı.

– Görürsən nə gecədir, Cerri! – mister Lorri dedi. – Bu şaqqıltı, gurultu ölüləri də oyadıb qəbirdən qaldırar.

– Mən heç vaxt sizin dediyiniz elə bir gecə görməmişəm, nə vaxtsa görəcəyimə də inanmıram, – Cerri cavab verdi.

– Gecəniz xeyrə qalsın, mister Karton, – işgüzar kişi dedi. – Gecəniz xeyrə qalsın, mister Darney. Görəsən, nə vaxtsa belə bir gecəni sizinlə birlikdə yenə görə biləcəyikmi?!

Bəlkə də, görəcəksiniz. Bəlkə də, böyük bir insan axınının hayqıraraq üstümüzə yeridiyini də görəcəksiniz.

VII fəsil

ZADƏGAN ŞƏHƏRDƏ

Sarayın ən qüdrətli əyanlarından birinin Parisdəki möhtəşəm iqamətgahında qəbul günüydü, – bu cür qəbul iki həftədə bir dəfə baş tuturdu. Əyan hələ ki öz otağındaydı, otaqların ağzında toplaşmış adamlar üçünsə o yer nəsə çox müqəddəs və əlçatmaz bir məkan idi. Əyan şokolad içməyə hazırlaşırdı. Əslində, əyan heç bir çətinlik çəkmədən ən müxtəlif şeyləri uda bilirdi, hətta söz gəzirdi ki, istəsə, bütün Fransanı da uda bilər, amma aşpazdan başqa dörd güclü kişinin köməyi olmadan səhər şokoladını içə bilmirdi.

Bəli, düz dörd kişi, dördü də qızılla işlənmiş zərbaftalı kostyum geyinmişdi, onların başçısı isə əyanın dəb saldığı qayda üzrə cibində iki qızıl saat gəzdirirdi, – bu dörd sağlam və güclü kişi şokoladı əyanın dodaqlarına yaxınlaşdırırdı. Lakeylərdən biri şokoladı əyanın müqəddəs otağına aparırdı, ikinci lakey özüylə gəzdirdiyi və xüsusi olaraq ancaq bu iş üçün nəzərdə tutulmuş kiçik alətin köməyi ilə şokoladı qarışdırıb köpükləndirirdi, üçüncü lakey gözoxşayan dəsmalı verirdi, dördüncü (cibində iki qızıl saat gəzdirən) lakey isə şokoladı fincana süzüb hazır saxlayırdı. Göylərin də həsəd apardığı yüksəkliyə qalxmış əyanın o zirvədə dayana bilməsi üçün dörd şokolad lakeyinin hər biri öz yerində olmalıydı. Şokolad lakeylərinin sayı üçə ensəydi, bu, əyanın şərəfinə silinməz qara ləkə salardı; lakeylərin sayı ikiyə ensəydi, əyan bu dərdə dözməz, xiffətdən ölərdi.

Ötən axşam əyanın saraydan kənarda baş tutan kiçik şam yeməyi mərasimini Komediya Teatrının və Böyük Operanın gözəl aktrisaları bəzəyirdi. Əyan əksər axşamlar şam yeməyini kənarda yeyir, vaxtını

gözəl insanların arasında keçirirdi. Əyan o qədər nəzakətliydi, o qədər yüksək hisslərlə yaşayırdı ki, dövlət sirlərindən bezərək, yorucu dövlət işləriylə məşğul olduğu vaxtlarda da Fransanın maraqlarından çox Komediya Teatrının və Böyük Operanın maraqları üçün çalışırdı. Ona maraq göstərildiyini hiss edən hər bir ölkə kimi, Fransa da özünü xoşbəxt hiss edirdi; İngiltərənin də belə günləri olub: uzağa getmək lazım deyil, tək elə kefcil kral Stüartın ölkəni hərraca qoyduğunu yada salmaq bəs edər.

Ümumi dövlət idarəçiliyində əyanın əsas iş prinsipi ondan ibarət idi ki, hər şeyi öz axarına buraxıb heç nəyə müdaxilə etmək lazım deyil, birbaşa onun özünə dəxli olan məsələlərdə isə əyan praktikada özünü doğrultmuş başqa bir prinsipə əsaslanırdı: bu işlər məhz onun istədiyi kimi olmalıdır, son nəticədə isə hakimiyyətini möhkəmlətməklə bərabər, həm də cibini doldurmalıdır. İstər ümumi, istərsə də xüsusi əyləncələrə gəlincə, əyanın bu məsələlərdə rəhbər tutduğu əsas mötəbər prinsip ondan ibarət idi ki, bu dünya onun üçün yaranıb. Müqəddəs kitabda Allahın adından deyilmiş cümlədə ancaq şəxs əvəzliyini dəyişərək (bu elə də böyük bir şey deyil, qəbahət də hesab edilməməlidir) əyan belə bir göstəriş vermişdi: "Bu dünya və orada nə varsa, hamısı mənimdir".

Dərhal olmasa da, əyan tədricən gördü ki, onun ümumi və xüsusi maliyyə məsələlərində müəyyən çətinliklər yaranıb; bütün bu işləri yoluna qoymaq üçün o, baş icaraçiylə yaxınlaşmalı oldu. Dövlətin maliyyə məsələlərinin öhdəsindən gələ bilməyəcəyini görüncə məcbur olub o işi kim bacarırsa, onun öhdəsinə buraxdı. Şəxsi maliyyə məsələlərinə gəlincə, nəsil şəcərəsində ondan əvvəl gələnlər və əyan özü də kefləri istədiyi kimi yaşayıb pulları göyə sovurmuşdular deyə son vaxtlar o, xeyli kasıblaşmışdı, baş icaraçi isə varlıydı. Ona görə də monastırda olan bacısı ucuz rahibə paltarı geyinməyə macal tapmamış onu oradan çıxardıb mükafat və təminat kimi varlı, amma zadəgan nəslinə mənsub olmayan baş icaraçiyə ərə verdi.

Baş icaraçi qapının ağzında toplaşıb əyanı gözləyən adamların arasındaydı, əlində ucuna qızıl alma taxılmış əsa var idi, hamı ona hörmət edirdi; amma öz arvadı başda olmaqla əyanın bütün qohum-əqrəbası ona yuxarıdan aşağı ikrahla baxır, adam yerinə qoymurdu.

Baş icaraçi zəngin adam idi. Tövləsində otuz at var idi, evində iyirmi dörd lakey var idi, tək elə arvadının qulluğunda altı xidmətçi qadın

dayanmışdı. Nəsə bir iş görən adam görüntüsü yaratmaq fikrindən uzaq idi, imkan olan hər yerdə xalqı çapıb-talayır, soyğunçuluqla məşğul olurdu; nikah yoluyla əyana qohum olması sosial əxlaqa da təsir etmişdi – indi qəbul otağının qarşısında toplaşan adamların arasında baş icaraçi ən böyük reallıq idi.

Öz bər-bəzəyi, dövrün zövqü və tərəqqisinin zirvəsi sayıla biləcək zəngin dekorasiyasıyla göz oxşayan otaqlar, əslində, möhkəm təməl üzərində bərqərar olmamışdı, çünki onlara baxanda əyninə cır-cındır geyinib harada gəldi gecələyən ac-yalavac insanları yada salan hər kəs (odur, Notr-Damın keşikçi qüllələri hər iki qütbdən eyni məsafədə dayanıb, hər iki tərəfə baxır və nə baş verdiyini görür) anlayır ki, nə qədər təmtəraqlı olsa belə, bu dəmdəsgah əməlli-başlı laxlayır, amma o barədə fikirləşmək əlahəzrət əyanın qəbul otağı qarşısında toplaşan adamlardan heç birinin ağlına gəlmirdi. Hərbi işdən başı çıxmayan generallar, gəminin nə olduğunu bilməyən admirallar, səriştəsiz mülki zabitlər, üz-gözündən tamahkarlıq və şəhvət yağan, boşboğaz, əxlaqsız və pozğun kilsə xadimləri – bu adamların heç biri tutduğu vəzifəyə əsla layiq deyildi, amma dəridən-qabıqdan çıxıb hər rola girir, utanmaz-utanmaz yalan danışaraq sübut etməyə çalışırdılar ki, bu işlər onların boyuna biçilib; bu və ya digər dərəcədə əlahəzrət əyanın yaxın adamlarıydı deyə bütün gəlirli vəzifələr onlara paylanmışdı və belələrinin sayı-hesabı yox idi. Əlahəzrətin özüylə, eləcə də dövlət işləriylə birbaşa əlaqəsi olmayan, amma düzgün yol seçib nəsə real bir iş görənlərin siyahısına adı düşməyən adamlar da az deyildi. Mövcud olmayan hansısa xəyali xəstəlikləri sehrli dərmanların köməyi ilə müalicə edərək çoxlu vardövlət toplamış həkimlər əlahəzrətin qəbul otağı qarşısında öz yüksək vəzifəli pasiyentlərinin üzünə baxıb gülümsəyirdilər. Dövlət aparatının bütün strukturlarında özünə yuva salmış ən müxtəlif eybəcərlikləri aradan qaldırmaq üçün cürbəcür vasitələr təklif edən müxtəlif layihə müəllifləri əlahəzrətin qəbul otağı qarşısında toplaşanların zəhləsini tökküb öz orijinal metodlarının mahiyyətini izah edirdilər, amma onlardan heç biri vicdanla işə girişib mövcud eybəcərliklərdən heç olmasa birini aradan qaldırmaq üçün nə lazım olduğu barədə bir kəlmə də danışmırdı. Kağızdan Babil qəsri düzəldib, dünyanı sözün köməyi ilə dəyişdirmək iddiasında olan və heç nəyə inanmayan filosoflar əlahəzrətin qəbul otağı qarşısında toplaşmış, heç nəyə inanmayan və yalnız bütün metalların

qızıla çevrilməsi problemi üzərində gecə-gündüz baş sındırıb çalışan kimyagərlərlə söhbət edirdilər.

Kübar ailələrindən olan, çox da incə tərbiyə almış əzgin centlmenlər əlahəzrətlərin qəbul otağı tərəfdə boş-bikar gəzib-dolaşırdılar, o vaxt onları insanın təbii tələbatları əsla maraqlandırmırdı; bələləri indi də var. Parisin yüksək təbəqəsini təmsil edən bu məşhur adamların ailələrinə gəlincə, əlahəzrətin qəbul otağının qarşısında toplaşanların arasında gəzib-dolaşan və onların yarıdan çoxunu təşkil edən agentlərin özləri də axtarsaydı, yəqin ki, o ailələrdəki mələk görkəmli varlıqların arasından öz rəftarı və əxlaqına görə əsl ana adına layiq olan bircə qadın da tapa bilməzdi. Ana olmaq üçün qadın ilk öncə dünyaya övlad – qışqırıq salıb narahatçılıq yaradan bir varlıq gətirməlidir, Parisin yüksək təbəqələrində isə bu məsələnin reallaşması qadını əsla maraqlandırmır, çünki belə şeylər orada dəb deyil. Kəndli qadınlar dəbdə olmayan körpələri böyüdüb tərbiyə edirdi, 60 yaşlı mamlımatan nənələr isə özlərini 20 yaşlı qızlar kimi aparır, şit paltar geyinib dəbdəbəli saraylarda keçən şam yeməyi mərasimlərinə gedirdilər.

Əlahəzrətin qəbul otağı tərəfdə toplaşanların hamısı sosial cüzam xəstəliyinə yoluxmuş adamlar idi. Qəbul otağının qapısına lap yaxın dayanmış və xüsusi adamlar hesab olunan beş-altı nəfər son illər hiss edirdi ki, ümumiyyətlə götürəndə hər şey səhvdir, gedişat düz deyil. Həmin o yarım düjün xüsusi adamın düz yarısı – üç nəfər konvulzionistlər adlanan fantastik sektaya üzv yazılmışdı, onlar indi fikirləşirdilər ki, sektanın mərasimlərində adətən elədikləri kimi, bəlkə, yerə yıxılıb qıvrılaraq ağızlarından köpük tökülə-tökülə, qəzəblə qışqırıb hay-həşir salsınlar və bu yolla da əlahəzrətə bələdçilik eləsinlər, gələcəyə aparan düzgün yolu göstərsinlər. Dərvişləri çıxandan sonra altı xüsusi adamın üçü "Həqiqət mərkəzi" adlanan başqa bir sektanın üzvüydü, onlar hesab edirdilər ki, insan həqiqət mərkəzindən uzaqlaşıb – bunu sübut etməyə ehtiyac da yoxdu – və gəlib həqiqət çevrəsinin düz qırağına çatıb, əsas məsələ indi onun həqiqət çevrəsindən kənara çıxmasına imkan verməmək, geriyə – həqiqət mərkəzinə doğru itələməkdir ki, bunun da yolu oruc tutmaq, bir də ruhlarla əlaqəyə girməkdir. O üç nəfər ruhlarla daim əlaqə yaradır, bununla da dünyada baş verən hadisələri yaxşı məcraya yönəldirdi, amma bunun hansısa bir nəticə verdiyini demək hələ ki mümkün deyildi.

Qəbul otağının qarşısında toplaşanların bir ümumi və diqqətəlayiq cəhəti vardı ki, hamısı çox gözəl geyinmişdi. Əgər qiyamət günü həm də bir geyim sərgisinə çevrilsəydi, bu adamların hər birinin geyimi əbədi olaraq ən yaxşı hesab edilərdi. Saçlar nə gözəl burulub, pudralanıb, daranıb, yuxarı qaldırılıb, süni yollarla yaxşı saxlanılmış və oraburası düzəldilmiş sifətlər nə qəşəngdir, şpaqaların gözəlliyi adamı valeh edir, bura necə də gözəl və zərif qoxularla dolub və bütün bunlar hər şeyin yaxşı olduğuna, əbədi olaraq da bu cür davam edəcəyinə tam bir əminlik yaradır. Kübar ailələrində böyüyüb çox incə tərbiyə almış, əzgin görkəmli centlmenlərin hər birinin paltarından zınqırova, qandala oxşayan qızıl bər-bəzək şeyləri asılmışdı, centlmenlər hərəkət edəndə onlar cingildəyib balaca zəng səsinə oxşayan səs çıxarırdılar; qızıl bər-bəzəyin cingiltisi bahalı parçaların xışıltısına qarışıb mehə çevrilirdi, o da ac-yalavac Sent Antuan tərəfə yayılırdı.

Hər şeyin öz yerində olması və o cür də qalması üçün dəbdəbəli, gözəl geyim ən yaxşı talisman hesab olunurdu. Hamı elə geyinib bəzənirdi, sanki karnavala gedirdi, karnaval isə bitib-tükənmir, sona yetmirdi. Karnaval Tyulri sarayı və əlahəzrətin iqamətgahından tutmuş bütün palataları, saray adamlarını, nazirləri, hakimləri, bir sözlə, hamını (adamqorxudan uyuqlardan başqa) və hər yeri əhatə edirdi, hətta cəllad da karnavalda iştirak edirdi: amma cəllad öz vəzifəsini yerinə yetirərkən ümumi gözəlliyə xələl gətirməmək üçün hökmən "ayağına laklı ayaqqabı və ağ ipək corab geyinməli, başına pudralı, qıvrım parik qoymalı, əyninə qızılla işlənmiş qısaqol pencək – kamzol geyinməliydi". Cəllad istər dar ağacının yanında olsun, istərsə baltayla işləsin (o vaxt çox nadir hallarda baş kəsilirdi), fərqi yoxdur, Parisin monsenyoru – yepiskop ənənələrinə uyğun olaraq, əyalət kafedralarının professorları, Orlean monsenyoru və digər alim dostları onu bu cür adlandırırdılar – həmişə bu gözəl geyimdə olurdu. Amma 1780-ci ildə əlahəzrətin qəbul otağı qarşısında toplaşmış adamlardan heç kimin ağlına da gəlmirdi ki, ayağına laklı ayaqqabı, ağ ipək corab, əyninə qızılla işlənmiş qısaqol pencək – kamzol geyinmiş, başına isə pudralı, qıvrım parik qoymuş cəllada əsaslanan bu sistem əbədi deyil!

Əlahəzrət, dörd lakeyin köməyi ilə səhər şokoladını içdi, əmr etdi ki, müqəddəs məkanın qapıları taybatay açılsın. Nəhayət, o özü zala daxil oldu. Bundan sonra ac itlər kimi necə yaltaqlanmalar, necə quy-

ruqbulamalar, yerə yatıb sürünmələr, qul kimi baş əyib ikiqat olmalar, əmrə müntəzir mütilik ifadə edən jestlər başladı! Can-dildən əyilib yerə dəyən başların ruhları da alçalıb yerlə sürünürdü və belə baxanda dua etmək lazım da deyildi, yəqin ki, əlahəzrətə pərəstiş edənlərin Allahı öz dualarıyla narahat etməmələrinin bir səbəbi də bu idi.

Kimisinin üzünə gülən, hansısa qulbeçəyə iki kəlmə pıçıldayıb nəsə vəd edən, kimisinə əl eləyən əlahəzrət zalların qarşısından keçərək, lap axırda yerləşən Həqiqət çevrəsinə yaxınlaşır. Əlahəzrət burada çevrilib geri dönür, öz iqamətgahına qayıdır, şokolad tilsimkarları qapıları bağlayır, əlahəzrət isə bundan sonra gözə dəymir.

Tamaşa bitdi, havanın yüngülcə titrəməsi də artaraq tufanı xatırladan bir hala gəldi, qızıl qandalların və zınqırovların cingiltili xoru pilləkənlə üzüaşağı yönəldi. Kütlə tez bir zamanda seyrəlib dağıldı, ancaq bir nəfər qaldı, o da tütün qutusunu qoltuğunun altında sıxıb, şlyapasını əlində tutaraq güzgülərin arasından tələsmədən keçib zalın o başına tərəf yönəldi. Yolunun üstündəki axırıncı qapının ağzında ayaq saxladı, üzünü müqəddəs iqamətgaha çevirib dedi:

– Səni görüm lənətə gələsən!

Kişi belə deyib barmaqlarındakı tozu elə təmizlədi, sanki ayağının tozunu təmizləyirdi və bundan sonra yoluna davam edərək pilləkənlə aşağı düşdü.

Bu kişi 60 yaşlarında, yaxşı geyinib-kecinmiş, təkəbbürlü bir adam idi, sifəti də çox yaxşı düzəldilmiş maskaya oxşayırdı. Solğun, şəffaf sifətin hər cizgisi ifadə etdiyi hissiyyatla birlikdə aydın seçilirdi. Burun pərələrinin yuxarısında qəşəng burnu hər iki tərəfdən elə bil bir qədər sıxılmışdı. Bu sifətin canlı olduğunu büruzə verən də burundakı o iki çökəyin arabir tərpənib dəyişməsiydi. Bəzən də onların rəngi inadkarcasına dəyişirdi, bir də baxırdın zəif döyünən ürək kimi yığılıb-açıldı, sonra da bütün sifət xəyanət və amansızlıq ifadə elədi. Diqqətlə baxanda sifətin bu ifadəsini formalaşdıran əsas cizgilər də aydın görünürdü: bu məzmunu yaradan ağız xətti və göz orbitlərinin həddən ziyadə üfüqi yönəlmiş nazik xətləriydi, sifət isə öz ifadə etdiyi hisslərlə birlikdə qəşəng idi, cəlbediciydi.

Qəşəng sifətin sahibi pilləkənlə düşüb həyətə çıxdı, faytona minib getdi. Bugünkü qəbul zamanı onunla danışıb hal-əhval tutmaq istəyənlərin sayı az idi; bir növ təklənmiş kimi, hamıdan aralıda dayanmışdı, qəbul

vaxtı əlahəzrət özü də ona qarşı elə bir isti münasibət göstərmədi. Belə bir şəraitdə faytonun altında qalıb xurd-xəşil olmaqdan qorxaraq küçədə qaçıb dağılışan adamları görəndə xoşhal olur, qaşqabağı açılırdı. Faytonçu atları elə qovurdu, elə bil qabaqda qaçan düşmənə çatmaq istəyirdi, sərnişin isə bu dəlisov qaçaqaçdan əsla narahat olmur, halı da pozulmurdu. Darısqal küçələrdə varlıları aparan faytonların şığıyaraq kasıb-kusub adamları basıb əzməsinin, ömürlük şikəst etməsinin adi hala çevrildiyi həmin o susqunluq dövrü, o lal-kar şəhərdə də hərdən şikayət səsləri eşidilirdi. Amma o şikayətlərə baxan yox idi, hər kəs öz başına çarə qılmalıydı – bədbəxt insanlar onları gözləyən təhlükədən necə bacarırdılarsa, o cür də qorunmalıydılar. Fayton dar küçələrdə taqqataraq səs salıb şütüyür, döngələrdə ləngimədən burulub irəli şığıyır, qadınlar qışqırıb yoldan qaçır, kişilər bir-birini tutub itələyir, yoldan çıxardır, uşaqları az qala atların ayaqları altından dartıb çıxardırlar, – o dövrdə bu mənzərə adi hal idi, amma indiki insan bunun səbəbini anlaya bilmir. Nəhayət, fontanın yanındakı döngəni burulanda təkərlərdən biri nəsə iyrənc tərzdə qalxıb düşdü, orada toplaşmış adamların qışqırıq səsi eşidildi, atlar başlarını qaldırıb irəli dartındılar.

Bu hadisənin yaratdığı narahatçılıq olmasaydı, fayton dayanmayacaqdı, çox vaxt belə hadisə baş verəndə də fayton dayanmır, təkərlərin altında qalıb xurd-xəşil olmuş qurbanını arxada qoyaraq yoluna davam edirdi və belə baxanda nə eləməliydi ki? Amma bu dəfə lakey qorxmuş halda tələsik faytondan yerə düşdü, iyirmiyəcən əl eyni vaxtda uzanıb atların yüyənindən yapışdı.

– Nədir, orada nə olub? – markiz faytonun pəncərəsindən boylanıb sakitcə soruşdu.

Başına cındır gecə papağı qoymuş, hündürboy kişi atların ayaqları altından bağlamaya oxşayan nəsə bir şey dartıb çıxartdı, fontanın bünövrəsi tərəfdən yerə qoydu, palçığın və suyun içində diz çökərək vəhşi heyvan kimi ulamağa başladı.

– Cənab markiz, üzr istəyirəm, – cındır geyimli bir kişi müti görkəm alıb üzrxahlıq elədi, – bu... uşaqdır!

– Bəs o kişi niyə o cür iyrənc səs çıxarır? Uşaq onundur?

– Üzr istəyirəm, cənab markiz, bəli, onunkudur, yazıq uşaq...

Fontanın yerləşdiyi balaca meydança faytondan bir qədər aralıydı. Hündürboy kişi qəflətən yerdən qalxıb qaçaraq faytona tərəf elə gəldi ki, markiz dərhal əl atıb şpaqasının dəstəyindən yapışdı.

– Uşaq keçinib! – hündürboy kişi dəli kimi qışqırdı, əllərini başı üstündən yuxarı qaldırıb gözlərini markizə zillədi. – Ölüb!

Camaat axışıb onları dövrəyə aldı, hamı markizə baxırdı. O baxışlarda nə qəzəb, nə də hansısa bir hədə-qorxu yox idi; adamlar acgöz bir maraqla, ehtiyatla baxırdılar. Heç kim ağzını açıb bir kəlmə də danışmırdı, ilk anda qışqırıb səs salsalar da, hamı susub dinməzcə dayanmışdı. Bayaq markizlə danışan kişinin səsi həddən ziyadə müti və çəkingən idi. Cənab markiz adamlara ötəri bir nəzər saldı, amma elə baxdı, elə bil yuvalarından çıxıb faytonun ətrafına toplaşmış siçovul sürüsünə baxırdı.

Markiz pul kisəsini çıxartdı.

– Qəribə adamsınız, – markiz dedi, – heç vaxt nə özünüz barədə, nə də uşaqlarınız barədə fikirləşmirsiniz. Sizdən kimsə hökmən yolun içində olmalıdır, yollardan niyə yığışmırsınız? Heç bilmirəm atlarım necə zədələnib. Ey, eşidirsən? Bunu verərsən ona.

Markiz kisədən qızıl pul götürüb atdı ki, lakey götürsün; adamlar boyunlarını uzadıb yerə düşən pula baxdılar. Hündürboy kişi dəhşətli səslə bir də qışqırdı:

– Ölüb!

Adamların kənara çəkilib yol verdiyi bir nəfər yaxınlaşıb hündürboy kişini saxladı. Bədbəxt kişi bu adamı görən kimi hönkürüb ağlaya-ağlaya başını onun sinəsinə söykədi, o tərəfdə – fontanın yanındakı hərəkətsiz bağlamanın üstünə əyilərək vurnuxan qadınları göstərdi; eynilə kişilər kimi, qadınlar da əsla dinib-danışmırdılar.

– Bilirəm, hər şeydən xəbərim var, – təzə gələn kişi dedi. – Özünü ələ al, Qaspar! Bu cür yaşamaqdansa, uşağın ölməyi yaxşıdır. Bir göz qırpımındaca heç bir ağrısız, əziyyətsiz öldü. Bu dünyada bircə saat da xoşbəxt yaşaya bilmişdi?

– Sən buna bax! Mən görürəm ki, siz filosofsunuz, – markiz gülüb dedi. – Adınız nədir?

– Adım Defarjdır.

– Nə işlə məşğulsunuz?

– Cənab markiz, çaxır satıram.

– Çaxırsatan filosof, – markiz başqa bir qızıl pul da çıxardıb atdı, – onu götür, necə istəyirsən, elə də xərclə. Bax gör atlar necədir, zədələnməyiblər ki?

Faytonun ətrafına toplaşanlara ikinci dəfə baxmağı lazım bilməyən markiz oturacağın arxasına söykəndi, dəyərsiz bir şeyi təsadüfən sındırıb haqqını ödəyəndən sonra sakitcə yoluna davam eləyən adamlar kimi, o da çıxıb getmək istədiyi məqamda rahatlığı pozuldu: kiminsə yerdən götürüb atdığı qızıl pul faytonun içinə düşüb döşəmədə diyirləndi.

– Saxla! – cənab markiz dedi. – Atları saxla! Pulu kim atdı?

Markiz başını çıxardıb bir az əvvəl çaxırsatan Defarjın dayandığı yerdəki qaraltıya baxdı, orada indi bədbəxt ata üzüqoylu uzanıb qalmışdı, onun yanında isə qarabuğdayı, tökməbədən bir qadın dayanıb əlində nəsə toxuyurdu.

– İt uşağı! – markiz səsini qaldırmadan dedi, burnunun böyründəki çökəklərdən başqa üzünün bir cizgisi də dəyişmədi. – Yaxşı, eybi yoxdur, bu gündən sonra hansınız qabağıma çıxsa, basıb əzəcəyəm, kökünüzü kəsəcəyəm. Pulu faytona atan köpəkoğlu əlimə keçsəydi, o qulduru təkərin altına salıb xurd-xəşil edərdim.

Neçə illərdir başı bəlalar çəkmiş və çox belə hadisələr görüb həyat təcrübəsi keçmiş camaat bu adamın istər qanun çərçivəsində, istərsə də qanundan kənar olsun, istənilən halda onların başına nə oyun açа biləcəyini təsəvvür edəndə dəhşətli qorxu içində donub-qaldı, səsləri də çıxmadı; nəinki kiminsə əli, heç çeçələ barmağı da tərpənmədi, başlarını qaldırıb yuxarı baxa da bilmədilər. Kişilərdən heç kimin cəsarəti çatmasa da, qadınlardan biri – əlində nəsə toxuyan qadın markizin düz üzünə baxırdı. Qadını sayıb onun baxışına əhəmiyyət verməyi markiz öz ləyaqətinə sığışdıra bilməzdi, odur ki qadına və oraya toplaşmış siçovullara nifrətlə baxıb, yenidən oturacaqda yerini rahladı, geri söykənib bircə kəlmə dedi: "Getdik!"

Fayton yola düşdü. Onun dalınca da o birilər: nazirlər, icaraçılar, həkimlər, hakimlər, keşişlər, Komediya Teatrının və Böyük Operanın artistləri, – bir sözlə, karnaval iştirakçılarının faytonları bər-bəzəkli karvan kimi bir-birinin ardınca şütüyüb keçdi. Siçovullar öz yuvalarından çıxıb saatlarla bu mənzərəyə baxdılar. Əsgərlər və polislər fayton karvanıyla adamların arasından keçir, oradan-buradan boylanıb baxanların qarşısına sədd çəkirdilər. Bədbəxt ata bağlamanı da götürüb getmiş, haradasa gizlənmişdi, bayaq bağlama fontanın yanında olduğu vaxt onun ətrafında vurnuxan qadınlar elə oradaca oturub axan suya, sürətlə ötüb-keçən fayton karvanına baxırdılar, yalnız bir qadın – əlində

nəsə toxuyan qadın taleyin özü kimi halını da pozmadan öz işini görür, toxuyurdu. Fontanın suyu axıb öz yoluyla gedirdi, çayın suyu da sürətlə axırdı; gün keçir, axşam düşürdü; şəhərdə hər gün neçə adam ölür, həyat isə davam edir, zaman heç kimi gözləmir, həyatın axarı da heç kimi gözləmir; siçovullar öz qaranlıq yuvalarına çəkilib bir-birinə qısılaraq yatırlar; karnaval iştirakçılarının dəbdəbəli şam yeməyi mərasimində çilçıraqlar bərq vurur, hər şey öz yoluyla gedir.

VIII fəsil

MARKİZ KƏNDDƏ

Gözəl mənzərəli bir yerdə taxıl zəmiləri uzanıb gedir, amma məhsul bol deyil. Taxıl əkilməli olan yerdə sısqa darı bitmiş kiçik tarlalar, lobya və noxud əkilmiş sahələr var, payızlıq taxıl əkiləsi yerdə məsrəfsiz tərəvəz bitib. Bu cansız təbiəti, eləcə də onu becərən kişiləri və qadınları artıq bu cür ölüvay işləyib, ölüvay yaşamaq bezdirib və sanki onlar elə bu saat əllərindəki işi atıb yerə yıxılaraq öləcəklər.

Cənab markizin dörd poçt atı qoşulmuş faytonu yolun dik yoxuşuyla tələsmədən qalxır; iki faytonçunun idarə elədiyi faytonun yükü bu gün, deyəsən, elə də yüngül deyil. Cənab markizin üzü qızarıb, amma bu onun əsilzadəliyini şübhə altına almamalıdır; bu, markizin daxili aləmiylə də bağlı deyil, səbəb kənardadır – batmaqda olan günəşin qırmızımtıl şüaları qızardıb onun sifətini.

Yoxuşun başına çatanda faytonun içinə düşən günəş şüaları markizin sifətini al-qırmızı rəngə boyadı və o, əllərinə baxıb öz-özünə dedi: "Günəş indi batacaq; az qalıb, indi batacaq".

Həqiqətən də, günəş lap aşağı enmişdi və az keçmədi ki, üfüqdə yox oldu. Eniş vaxtı təkərlərə bərkidilmiş ağır əyləclərlə birlikdə fayton toz qaldırıb, ətrafa yanıq iyi yayaraq üzüaşağı enməyə başladı, günəşlə birlikdə markiz də aşağı enir, qızartdaq rəng azalırdı, aşağıda əyləcləri çıxaranda isə o rəng tamam yox olmuşdu.

Bu tərəf açıqlıq idi, təpənin ətəyində balaca kənd, geniş dərə, sonra yenə yoxuş başlayır; o tərəfdə kilsədir, yel dəyirmanıdır, bir az o yanda görünən meşədə ov eləmək olar. Sonra yenə qayalıq başlayır, oradakı qaladan indi həbsxana kimi istifadə olunur. Ətrafda hər şeyin tutqunlaş-

ması göstərirdi ki, axşam düşür, markiz də öz evinə yaxınlaşan adam kimi bu mənzərəni seyr edirdi.

Bir küçəsi olan kasıb kənddir bura, kasıb kəndin nəyi varsa, bu küçədədir: kasıb pivə sexi və dəri sexi, kasıb yeməkxana, poçt atları saxlanan kasıb pəyə, kasıb fontan. Kəndin camaatı da kasıbdır. Zillət içində yaşayan kasıb adamların çoxu indi öz qapısının ağzında oturub qara gün üçün saxladığı soğanı doğrayırdı ki, heç olmasa axşam yeməyə bir şey olsun, adamların bir qismi də fontanın yanında toplaşıb tapdığı yeməli otları və yarpaqları yuyurdu. Göz deşən yoxsulluq yoxluğun nəticəsi deyildi, camaatın nəyi vardısa, hamısını əlindən alır, soyub talayırdılar: dövlətin vergisi, kilsə vergisi, ümumi vergi, yerli vergi; onu ver, bunu ver, o birini də ver, onun haqqını ödə, bunun pulunu ver, – bir sözlə, bu balaca kəndin nəyi vardısa, əlindən alırdılar, bir o qalmışdı ki, özünü də udalar.

Kənddə bir-iki uşaq görünürdü, itlərin kökü kəsilmişdi. Kişi və qadınlara gəlincə, onlar ya gərək ömrü boyu dəyirmandan aşağıdakı balaca kənddə ac-yalavac yaşayaydılar, ya da əgər bununla razılaşmasalar, qayalıqdakı həbsxanada ölənəcən çürüyəydilər.

Axşamın ala-toranında faytonçuların əllərindəki qamçılar havada yellənib şaqqıldayaraq ilan kimi qıvrılırdı, qabaqdakı atlı lakeyin arxasınca gedən markizin faytonu poçtun darvazasına çatıb dayandı. Fontanın ətrafında toplaşıb iş görən kəndlilər əl saxlayıb markizə baxdılar. Markiz də onlara baxdı, amma çalışdı ki, arıq sifətlərdən və üzülüb əldən düşmüş bədənlərdən boylanan aclığın dəhşətli üzünü görməsin, – fransız arıqlığının bütöv bir əsr boyu ingilisləri heyrətə gətirməsi, onlarda hətta tutqun bir qorxu hissi yaratması, görünür, səbəbsiz deyilmiş.

Cənab markiz qarşısında baş əyib dayanmış insanların müti sifətinə baxdı, onun özü və onunla eyni zümrədən olan adamlar da əlahəzrətin qarşısında beləcə baş əyirlər, amma bir fərq var ki, bu müti insanlar heç nə ummadan sakitcə dayanıb başlarını əymişdilər. Elə bu vaxt üst-başı toza batmış yol təmiri ustası da gəlib adamlara qoşuldu.

– O gədəni bura gətirin, – markiz lakeyə dedi.

Şapkasını əlində tutmuş yol ustasını gətirdilər, eynən Parisdəki fontanın ətrafına toplaşan adamlar kimi, o biri oğlanlar da maraq xatirinə baxmaq, həm də danışılanları eşitmək üçün onu dövrəyə aldılar.

– Mən o tərəfdən keçəndə yolun qırağında dayanan sən idin?

– Bəli, mən idim, cənab. Siz oradan keçəndə yolun qırağında dayanmaq şərəfinə nail olmuşam.

– Yoxuşu qalxanda təpənin üstündə gördüyüm də sən idin?

– Bəli, cənab.

– Gözünü zilləyib nəyə baxırdın?

– Adama baxırdım, cənab.

Yol ustası belini əyib əlinə tutduğu mavi rəngli cındır şapka ilə faytonun altını göstərdi. O biri oğlanlar da əyilib faytonun altına baxdılar.

– Donuzun biri, adam nədir? Hansı adama baxırdın?

– Bağışlayın, cənab, o adam əyləcin zəncirindən asılmışdı.

– Kim asılmışdı? – tələbkar səs soruşdu.

– Adam asılmışdı, möhtərəm cənab.

– Sizi görüm lənətə gələsiniz, başdanxarab köpək uşağı! Adamın adı nədir? Sən bu camaatın hamısını tanıyırsan, o adam kim idi?

– Möhtərəm cənab! Bu tərəfdə yaşayan adamlardan deyildi, hələ indiyəcən mən onun sifətini bir dəfə də görməmişəm.

– Zəncirdən niyə sallanmışdı? Özünü asmaq istəyirdi?

– Tamamilə düz buyurursunuz, möhtərəm cənab, təəccüblü də bu idi. Onun başı belə, bax bu cür asılmışdı.

Yol ustası belə deyib faytona tərəf çevrildi, bədəniylə geri qanrılıb üzünü göyə çevirdi və başını dala atıb bir qədər aşağı sallanmış vəziyyətdə saxladı. Sonra özünü yığışdırdı, şapkasını əliylə əzişdirdi və baş əydi.

– Görkəmi necəydi?

– Möhtərəm cənab, sir-sifəti, özü təpədən-dırnağacan tozun içindəydi, lap dəyirmançıya oxşayırdı. Hündürboydu, elə bil cin-şəyatin idi.

Hadisənin təfsilatı adamlarda güclü təəssürat oyatdı, amma onlar bir-birinə baxmadılar, hamının nəzərləri markizə yönəlmişdi: baxırdılar ki, görsünlər həmin cin-şəyatin onun vicdanında məskunlaşmayıb ki.

– Deməzdim ki, sən düz hərəkət eləmisən, – markiz dedi və bədbəxt oğlanın bəxti gətirdi ki, qəzəblənib üstünə qışqırmadı, – gözünlə görürsən ki, oğru mənim faytonumu soymaq istəyir, ağzını açıb bir kəlmə danışmırsan. Müsyö Qabell, onu rədd elə getsin!

Müsyö Qabell poçt rəisiydi, eyni zamanda vergi yığılmasıyla bağlı bəzi məsələləri həll etmək hüququna malik idi; bugünkü istintaq zama-

nı öz köməyini əsirgəmir, müti itaətkarlıqla bacardığını eləyirdi, indi markizin sorğu-sual elədiyi oğlanın paltarından tutub saxlamışdı.

– Get buradan! – müsyö Qabell dedi.

– Bunun dediyi o yad adam bu gecə buralara gəlib-eləsə, tutarsınız, Qabell. Həm də öyrənin görün kimdir, nəçidir, buralarda nə gəzir.

– Baş üstə, monsenyor, əmrinizi can-başla yerinə yetirərəm.

– Oğlan hara getdi? O lənətəgəlmiş hanı?

Lənətəgəlmiş oğlan isə öz tay-tuşlarından beş-altısıyla birlikdə faytonun altına girmişdi, əlindəki mavi rəngli şapkanı uzadaraq zənciri göstərir, nəsə deyirdi. Tay-tuşları onu faytonun altından tələsik dartıb çıxartdılar, qorxudan rəng-ruhu qaçmış halda cənab markizin hüzuruna gətirdilər.

– Səninləyəm, axmağın biri, de görüm, biz əyləcə görə dayananda qaçıb getdi?

– Bəli, möhtərəm cənab, üzüaşağı enişlə elə yuvarlanıb getdi, elə bil özünü suya atdı.

– Bu işi araşdırarsan, Qabell. Getdik!

Həmin o beş-altı oğlan yenə faytonun altına girib təkərlərin arasında gic qoyun kimi vurnuxur, zəncirə baxırdı; fayton qəflətən hərəkətə gələndə isə az qalmışdı təkərlərin altında qalıb şikəst olalar, amma bəxtləri gətirdi – heç biri xəsarət almadı.

Taqqıldayıb səs salaraq yola düzələn fayton təpənin ətəyindəki dikdirə çatanda təkərlərin səsi eşidilməz oldu. Löhrəm gedən atlar tədricən yavaş yerişə keçdilər, fayton taqqıldayıb ləngər vuraraq füsunkar qoxulu yay gecəsində üzüyuxarı dikləndi. Başlarının üstündə minlərlə ağcaqanadın dövrə vurduğu faytonçular toxunma qamçılarını tələsmədən havada yelləyirdilər, lakey atların yanına düşüb gedirdi, öndə gedən aralaşıb gözdən itsə də, qarşıdakı qaranlığın içindən at ayaqlarının tappıltısı eşidilirdi.

Təpənin üstündəki balaca qəbiristanlıqda böyük xaçla birlikdə İsa peyğəmbərin çarmıxa çəkilmiş təsviri də var idi; kəndli ustanın ağacdan naşılıqla yonub düzəltdiyi heykəlin real cizgiləri göstərirdi ki, kiminsə, bəlkə də, heykəltəraşın öz bədəninə baxıb düzəldiblər, ona görə də peyğəmbər çox arıq alınmışdı.

Get-gedə artmaqda olan ağır əzabların simvolu olan bu heykəlin qarşısında bir qadın diz üstə çökmüşdü. Ekipaj yaxınlaşan kimi qadın cəld ayağa qalxdı, düz faytonun qapısına tərəf getdi.

– Möhtərəm cənab! Sizə deyiləsi sözüm var.

– Yenə nə olub? – markiz hövsələsi daralmış adam kimi dedi, amma üzünün ifadəsi dəyişmədi, boylanıb pəncərədən çölə baxdı. – Bunların xahişi bitib-tükənən deyil!

– Möhtərəm cənab! Allah xatirinə! Mənim ərim meşə gözətçisiydi.

– Sənin meşə gözətçisi ərinə nə olub? Hamımızın bir dərdi var. Hansısa borcunu ödəyə bilmir?

– Möhtərəm cənab, borclarının hamısını ödəyib. O ölüb.

– Hə, belə de. Canı qurtarıb. Mən indi sənin sözünlə onu narahat etməliyəm?

– Allah eləməsin, möhtərəm cənab! Ərim ölüb, o tərəfdəki balaca ot topasının altında basdırılıb.

– Elə niyə?

– Möhtərəm cənab, orada üstü otla birtəhər örtülmüş çoxlu məzar var.

– Hə, nə olsun?

Qoca görünsə də, qadın gənc idi. Onun davranışı dərin kədər ifadə edirdi; gah damarları çıxmış əllərini vəhşisayaq ehtirasla bir-birinə sıxır, gah da çəkinə-çəkinə əlinin biriylə faytonun qapısına elə toxunurdu, sanki bu qapı insan köksüydü və orada döyünən ürək onun dərdini duya bilərdi.

– Möhtərəm cənab, mənə qulaq asın! Mənim xahişimi eşidin! Mənim ərim ehtiyac üzündən öldü; aclıqdan neçə adam ölüb, hələ çoxları öləcək.

– Hə, nə olsun? Bəyəm mən onları yedirtməliydim?

– Möhtərəm cənab, Allah şahiddir ki, mən elə demədim. Mənim xahişim odur ki, icazə versinlər, ərimin dəfn olunduğu yerdə üstünə onun adı yazılmış bir daş, ya da ağac parçası basdırım. Əks təqdirdə, onun məzarı yerlə yeksan olub itəcək, yaddan çıxacaq; onu öldürən xəstəlik məni də öldürəndə ərimin yanında dəfn edə bilməyəcəklər, aparıb harada gəldi basdıracaqlar. Ot topalarının altında basdırılan o qədər adam var ki, hər gün də artır, çünki aclıq, səfalət baş alıb gedir. Monsenyor! Monsenyor!

Lakey qadını dartıb faytonun qapısından araladı, ekipaj yerindən tərpənib yola düzəldi, faytonçu atları qovdu, qadın arxada qaldı; markizi aparan faytonu Furiyaların başı üstündə qıvrılan ilanlar kimi şaqqıl-

dayıb havada qıvrılan qamçılar müşayiət edirdi, qəsrə çatmaq üçün hələ 2 mil yol var idi.

Yay gecəsinin ecazkar qoxuları markizi hər tərəfdən bürümüşdü, elə bil aramsız yağış yağırdı; bu qoxu fontanın ətrafındakı cındır geyimli, toz-torpağa bulaşmış, yorğun adamlar tərəfə də yayılırdı, orada isə mavi şapkasını əlində tutmuş yol təmiri ustası (bu şapkasız o heç nədir) hələ də faytonun altında gördüyü cin-şəyatinə oxşayan kişidən danışırdı, adamlar da yorulub bezənəcən qulaq asırdılar. Axır ki, onun rəvayətləri adamları bezdirdi, onlar bir-bir dağılıb getdilər. Daxmalarda işıq yandı; işıqlar sönüb pəncərələr qaralanda isə göydəki ulduzların sayı artdı, – sanki kənd evlərində sönən işıqlar indi göydə yanırdı.

Həmin vaxt markiz böyük qəsrin və hündür ağacların qatı kölgəsinin altındaydı, fakellər yandırılanda kölgə dəyişdi, fayton da dayandı, qəsrin geniş qapıları markizin qarşısında taybatay açıldı.

– Mən müsyö Şarlı gözləyirəm, İngiltərədən gəlməlidir. Gəlib çıxıbmı?

– Yox, monsenyor, hələ gəlməyib.

IX fəsil

QORQONUN BAŞI

Markizin qəsri geniş, daş həyətin içində böyük bir binaydı, iki daş pilləkən hər iki tərəfdən qalxıb ümumi giriş qapısı tərəfdən daş dəhlizdə birləşirdi. Burada hər şey daşdan idi: məhəccərlər, dibçəklər, çiçəklər, adamların üzləri, şirlərin başları... hara baxırdın daş görürdün, sanki iki əsr öncə bu bina tikilib qurtaranda bura yunan mifologiyasında bir baxışla insanları daşa döndərən Qorqon bacıları baxmışdı.

Cənab markiz faytondan düşdü, əlində fakel tutub yola işıq salan lakeyin arxasınca gedərək pilləkənlə yuxarı qalxdı; fakelin işığı qaranlığı diksindirdi, o tərəfdən ağacların arasındakı böyük at tövləsinin damında özünə yuva qurmuş bayquş ulayıb narahat edildiyi üçün etirazını bildirdi. Ətrafda hər şey sükuta qərq olmuşdu; pilləkəni işıqlandıran, eləcə də böyük qapının ağzında yanan fakel elə yanırdı, sanki onlar açıq havada deyil, qapı-pəncərəsi bağlı otaqda yanırdı. Bayquş ulartısı və bir də fontandan axıb daş hovuza tökülən suyun şırıltısından başqa, ayrı bir səs eşidilmirdi, – bu elə qaranlıq gecələrdən idi, nəfəsini çəkərək saatlarla sükuta qərq olan gecə sonra yavaşdan nəfəsini verib təzədən sükuta qərq olurdu.

Böyük qapı taqqıldayıb markizin arxasınca örtüldü, sonra o, müxtəlif qorxulu bıçaqların, xəncərlərin, qaban dişlərinin, daha da qorxulu olan ağır qamçı və şallaqların asıldığı zalın içindən keçdi; mülkədarın hirsli olduğu vaxtlarda bu qamçı və şallaqların necə ağır olduğunu hər bir kəndli öz üzərində dəfələrlə hiss edir, xilaskar ölüm gəlib kəndlini o dünyaya aparanacan da bu davam edir.

Gecə vaxtı qapıları artıq bağlanmış geniş zalların yanından ötüb-keçən markiz əlində fakel tutub öndə gedən lakeyin arxasınca gedərək

pilləkənlə yuxarı qalxdı, dəhlizdəki qapıya yaxınlaşdı. Qapı açıldı, markiz üç otaqdan – yataq və iki digər otaqdan ibarət olan mənzilə daxil oldu. Hündür tavanlı otaqların xalçasız döşəməsi sərin idi, qışda odun yandırılan sobaların içində iri dəmir altlıq görünürdü; hər şeydə markizin özünün, eləcə də ölkəsinin adına layiq təmtəraq və dəbdəbə var idi. Bahalı mebellər hakimiyyəti əbədi olan sülalənin sonuncu yox, ondan əvvəlki nümayəndəsi – XIV Lüdoviq dövrünün üslubundaydı, amma Fransa tarixinin daha qədim dövrlərinə aid olan ayrı-ayrı predmetlər bir qədər müxtəliflik yaradırdı.

Otaqların üçüncüsündə – qəsrin dörd ucuşiş qülləsindən birindəki dəyirmi otaqda iki nəfər üçün şam yeməyi süfrəsi açılmışdı. Hündür, amma balaca otağın pəncərəsi açıq olsa da, jalüz bağlıydı deyə qaranlıq gecənin tutqun zolaqları daş rənginə çalan enli zolaqlarla əvəz olunurdu.

– Mənim qardaşım oğlu, – markiz şam yeməyi süfrəsinə baxıb dedi, – deyəsən, hələ gəlib çıxmayıb.

Markizə cavab verildi ki, onun da məhz indi – markizlə birlikdə gələcəyi gözlənilirdi, amma hələ ki gəlib çıxmayıb.

– Ah! Gecənin bu vaxtı indən sonra onun gələcəyini gözləmək düz deyil; amma, hər halda, qoyun süfrə elə bu cür də qalsın. Mən də uzağı on beş dəqiqəyə hazır olacağam.

On beş dəqiqədən sonra markiz gəlib dadlı, gözəl xörəklər düzülmüş süfrədə şam yeməyinə oturdu. Onun kreslosu pəncərəylə üzbəüz idi və o, şorbanı yeyib Bordo şərabıyla dolu badəni dodağına yaxınlaşdıranda nəsə narahat oldu, badəni qaytarıb süfrəyə qoydu.

– Bu nədir? – markiz qara və boz zolaqlara diqqətlə baxaraq sakitcə dedi.

– Bunu deyirsiniz, monsenyor?

– Pəncərədən çöldədir. Jalüzləri açın.

Markizin əmri yerinə yetirildi.

– Nə olub?

– Monsenyor, heç nə yoxdur. Burada ancaq gecənin qaranlığıdır, bir də ağaclardır.

Markizlə danışan xidmətçi jalüzləri geniş açıb pəncərədən çölə – qaranlığa qərq olmuş boşluğa baxdı, sonra dayanıb növbəti göstərişi gözlədi.

– Yaxşı, – markiz halını pozmadan dedi, – jalüzləri təzədən bağla.

Bu göstəriş də yerinə yetirildi. Markiz şam yeməyini davam elədi. Şam yeməyinin yarısı yeyilmişdi, markiz növbəti dəfə əlində badə tutduğu halda diqqət kəsilib ətrafı dinşədi, amma bu dəfə təkər səsi eşitdi. Səs sürətlə qəsrin qapısına yaxınlaşırdı.

– Soruş gör gələn kimdir?

Gələn adam markizin qardaşı oğluydu. Günortadan bir az əvvəl o, markizdən bir neçə mil geridəydi və məsafə sürətlə azalırdı, amma markizə çatacaq qədər yetərli olmadı; poçtda ona dedilər ki, markiz bir az əvvəl buradan keçib.

Markiz xidmətçini göndərib ona çatdırdı ki, şam yeməyi süfrəsi hazırdır, buyurub gələ bilər. Az keçməmiş İngiltərədə Çarlz Darney kimi tanınan qardaşoğlu otağa daxil oldu.

Markiz onu çox nəzakətlə qarşıladı, amma onlar bir-birinin əlini sıxmadılar.

– Siz Parisdən dünən çıxmısınız, ser? – stolun böyründəki stula əyləşən qonaq soruşdu.

– Dünən çıxmışam. Bəs siz?

– Mən birbaşa bura gəldim.

– Londondan?

– Bəli.

– Səfəriniz uzun çəkib, – markiz gülümsəyib dedi.

– Yox, əksinə, birbaşa reyslə gəlmişəm.

– Üzr istəyirəm! Mən səfərin uzun çəkməsini nəzərdə tutmuram, səfər üçün nəzərdə tutulan vaxtı deyirəm.

– Məni ləngitdilər, – qardaşoğlu bir qədər fasilədən sonra dedi, – bəzi işlər oldu.

– Şübhəsiz ki, elədir, – əmi dedi.

Nə qədər ki xidmətçi otaqdaydı, onların arasında başqa söhbət olmadı. Kofe verilməndən sonra ikilikdə qaldıqları vaxt qardaşoğlu əmisinə baxdı, maskaya oxşayan sifətin baxışları da ona tərəf yönəldi; onlar yarımçıq qalmış söhbəti davam etdirdilər.

– Ser, yəqin, özünüz də bilirsiniz ki, hansı işə görə getmişdimsə, o işlə əlaqədar olaraq da geri qayıtmışam. Bu iş məni pis, hətta təhlükəli vəziyyətə salıb. Amma bu, müqəddəs məsələdir, hətta ölüm qorxusu da məni dayandıra bilməz.

– Ölüm yox, – əmi dedi, – ölüm barədə danışmaq lazım deyil.

– Əgər iş o yerə çatsaydı, məni ölüm cəzasına məhkum etsəydilər, – qardaşoğlu dedi, – mənim xilasım üçün nəsə edəcəyinizə şübhəm olardı.

Burunun yanlarındakı çuxurlar dərinləşdi, qəddar sifətin düz cizgiləri qorxunc hədə ifadə elədi, markiz gözəl bir jest ilə öz etirazını bildirdi, amma aradakı inamsızlığı azaltmaq üçün bu, yetərli olmadı.

– Həqiqətən də, ser, – qardaşoğlu dedi, – hərdən mənə elə gəlir ki, içində olduğum müəmmalı işlərin daha şübhəli görünməsi üçün siz elə bil qəsdən nəsə eləyirsiniz.

– Yox, yox, yox, – əmi guya təəssüf edirmiş kimi dedi.

– Olsun ki, siz deyəndir, – qardaşoğlu belə deyib şübhəylə əmisinə baxdı, – amma onu da bilirəm ki, siz mənə mane olmağa çalışırsınız, hətta bunun üçün əlinizdən gələni edirsiniz.

– Dostum, mən sizə demişəm, – burnunun böyründəki çökəklər ürək kimi döyünən əmi dedi, – neçə illər öncə mənim sizə nə dediyimi yadınıza salın.

– Nə dediyiniz yadımdadır.

– Minnətdaram, – markiz çox şirin bir səslə dedi.

Onun səsi hansısa musiqi alətinin səsi kimi səslənərək havada elə ləngidi, elə bil asılıb yuxarıda qaldı.

– Bilirsiniz, ser, – qardaşoğlu dedi, – mənim Fransada həbs olunmamağımın səbəbi sizin bəxtinizin gətirməməsindən çox, mənim bəxtimin gətirməsiylə bağlıdır.

– Mən sizi yaxşı başa düşmədim, – əmi kofedən bir qurtum içib dedi. – Mümkünsə, izah edə bilərsinizmi?

– Mən əminəm ki, sarayda sizin hörmətinizin düşməsi və bunun artıq neçə illərdir davam etməsi faktı ortada olmasaydı, məni indi yox, çoxdan həbs edərdilər.

– Ola da bilər, – əmi çox soyuqqanlıqla dedi. – Nəslimizin ad-sanını nəzərə alıb, mən özüm də sizi bu cür narahat edə bilərəm. Üzr istəyirəm!

– Belə başa düşürəm ki, adətən olduğu kimi, srağagün də saraydakı qəbulda soyuq qarşılanmağınız mənim xeyrimə olub, – qardaşoğlu belə deyib gözaltı əmisinə baxdı.

– Deməzdim ki, bu sizin xeyrinizə olub, ya da bəxtiniz gətirib, – əmi xüsusi bir nəzakətlə dedi, – mən buna əmin deyiləm. Tənhalıq və fikirləşmək üçün əlverişli şəraitin yaranması da az iş deyil; bütün bunlar taleyinizə sizin özünüzdən çox təsir edə bilər. Amma bu məsələni müzakirə etmək mənasızdır. Artıq qeyd etdiyiniz kimi, indi mən o qədər də yaxşı vəziyyətdə deyiləm. Bəzi məsələlərin həlli nəslimizin gücü və şöhrəti üçün yaxşı kömək olardı, elə də əhəmiyyətli görünməyən hörmət əlamətləri mənə həm də səni ağıllandırmaq üçün lazımdır. Amma onları əldə etmək üçün çox əlləşmək, kimisə maraqlandırmaq lazımdır. O vasitələri əldə etmək üçün çoxları gecə-gündüz çalışır, müqayisə edəndə isə görürsən ki, çox az adam istəyinə çatır. Əvvəllər belə deyildi, Fransada çox şey dəyişib, daha pis olub. Yaxın keçmişdə bizim əcdadlarımız qara camaatın həyat və ölüm məsələlərini həll etmək hüququna malik idi. İndi oturduğumuz bu otaqdan neçə yaramaz adam birbaşa dar ağacından asılmağa gedib; o biri otaqda (mənim yataq otağımda) bir nəfəri diri-diri doğrayıblar, mənim bildiyimə görə, o adam yekəxanalıq eləyib öz qızını müdafiə etmək fikrinə düşmüşdü. Bəli, öz qızını! Əlimizdən çox hüququmuz alınıb, yeni fəlsəfə dəb olub; indiki zamanda əvvəlki statusu bərpa etmək cəhdləri ciddi narahatçılıq yarada bilər (mən çox dərinə gedib demirəm ki, gətirər, amma, hər halda, gətirə bilər); vəziyyət pisdir, çox pisdir!

Markiz bir az burunotu götürüb başını elə hüznlə silkələdi, sanki heç də hər şeyin itirilmədiyi, yeniləşib ayağa qalxmaq imkanı hələ də qalmaqda olan Fransa barədə ancaq bu cür danışmaq olardı.

– Biz keçmişdə də, indiki zamanda da öz kimliyimizi təsdiq etmişik, – qardaşoğlu qaşqabaqlı görkəm alıb dedi, – bu gün bütün Fransada bizim qədər nifrət qazanmış ikinci bir nəsil tapmaq, yəqin ki, mümkün deyil.

– Məncə, düz deyirsiniz, – əmi dedi. – Özündən yuxarıdakılara nifrət etmək aşağıların təbii münasibətidir.

– Bizi əhatə edən bu tərəfin adamlarına baxanda isə tamam başqa bir mənzərə görürəm, – qardaşoğlu yenə qaşqabaqlı danışaraq dedi, – o adamların üzündə tutqun şəkildə ifadə olunan qorxu və qul mütiliyindən başqa heç nə yoxdur.

– Bu, nəslimizin əzəmətinə, böyüklüyünə olan hörmətdən irəli gəlir, – markiz dedi. – Nəslimiz bu əzəməti və qüdrəti uzun illər boyu qazanmışdır. Bəli! – markiz bunu deyib bir çimdik də burunotu götürdü, ayağını ayağının üstünə aşırdı.

Amma qardaşoğlu dirsəklərini stola söykəyib kədərli halda fikrə gedərək gözlərini əliylə örtəndə gözəl maska gözaltı ona diqqətlə, amma nifrət, amansızlıq, ümumiyyətlə, yaxşı heç nə vəd etməyən baxışla elə baxdı, bunu görəndə markizin heç nə ifadə etməyən üzünün, əslində, necə böyük nifrət gizlətdiyini anlamaq elə də çətin deyildi.

– Amansız cəza tədbirlərindən yaxşı bir şey fikirləşib tapmaq mümkün deyil. Qorxu və mütiliyin doğurduğu hörmət qamçı şaqqıltısıyla bağlıdır, dostum; bu itləri ram eləmək üçün qamçıdan başqa ayrı bir üsul yoxdur. Nə qədər ki, – markiz belə deyib yuxarı baxdı, – bu qəsrin damı çökməyib və biz hələ ki onun altında yaşayırıq, belə də olacaq.

Amma qəsrin damı markizin fərz elədiyi kimi o qədər də uzunömürlü olmayacaq. Əgər bir neçə ildən sonra onun qəsrinin, eləcə də əlli digər qəsrin şəklini çəkib həmin gecə markizə göstərmək mümkün olsaydı, yanıb-qaralmış, çapıb-talanmış xarabalıqlardan hansının nə vaxtsa onun qəsri olduğunu müəyyən etməkdə, yəqin ki, çətinlik çəkərdi. Onun tərifləyiri tavana gəlincə, tavanın özünü yox, oradakı qurğusunu əritməklə düzəldilmiş yüz minlərlə güllədən ölmüş insanların cəsədlərini tapa bilərdi.

– Amma, hər necə olsa da, – markiz dedi, – mən nəslimizin şərəfini və təhlükəsizliyini qoruyub saxlayacağam; sizi maraqlandırmasa da, bunu edəcəyəm. Yəqin ki, yorulmusunuz? Bugecəki müzakirəni, bəlkə, yekunlaşdıraq?

– Bir dəqiqə.

– Buyurun, lap bir saat da olar.

– Bilirsiniz, ser, – qardaşoğlu dedi, – biz çox səhvlərə yol vermişik, indi də onun bəhrəsini dəririk.

– Biz səhv eləmişik? – Markiz gülümsəyib təəccüblə baxdı, barmağını xüsusi bir nəzakətlə əvvəlcə qardaşı oğluna, sonra özünə tərəf tuşladı.

– Bizim nəslimiz, şan-şöhrətli nəslimiz; o nəslin şərəfi hər ikimiz üçün qiymətlidir, amma hər kəs onu öz bildiyi kimi başa düşür. Hətta atamın vaxtında da həddən çox səhv olub; kim ki kefimiz istədiyi kimi yaşamaqda bizə əngəl olmaq fikrinə düşüb, hamısını məhv etmişik. Niyə mən tək elə atamdan danışıram, o vaxt həm də sizin vaxtınız olub, elə deyil? Atamı öz əkiz qardaşından, şərikindən və varisindən necə ayırmaq olar?

– Ölüm ayırdı bizi!

– Məni də tək qoydu, – qardaşoğlu dedi, – qorxduğum, ona görə də məsuliyyət daşıdığım, içərisində yaşasam da, heç bir şey edə bilmədiyim bir sistemlə üz-üzə qoydu; əziz anamın son nəfəsdə vəsiyyət eləyib dediyi sözləri, son dəfə gözlərindən oxuduğum yalvarışı – haqsızlığa qarşı çıxıb ədaləti bərpa etmək xahişini yerinə yetirmək üçün çalışır, çapalayır, yollar axtarıram, çox nahaq yerə kimlərdənsə kömək də gözləyirəm.

– Nə qədər ki o köməyi məndən gözləyirsən, qardaşoğlu, – markiz şəhadət barmağıyla öz sinəsinə toxundu; indi onlar sobanın qarşısında yanaşı dayanıb danışırdılar, – heç nə almayacağına zərrə qədər də şübhə etməməlisən.

Onun solğun, amma düzgün quruluşlu, eyibsiz sifətinin hər cizgisində gərginlik, qəddarlıq və hiyləgərlik var idi; burunotu qutusunu əlində tutub sakitcə qardaşı oğluna baxırdı. Barmağını yenə qardaşı oğlunun sinəsinə toxundurdu, həm də bunu elə elədi, sanki barmağı balaca bir xəncərin iti ucuydu və onu çox məharətlə həmsöhbətinin ürəyinə soxurdu.

– Dostum, mən içində yaşadığım sistemi ölənəcən qoruyub saxlayacağam.

Belə deyib burunotundan bir çimdik də götürdü, sonra qutunun ağzını bağlayıb cibinə qoydu.

– Ağıllı olmaq, taleyin verdiyi qisməti zərurət kimi qəbul etmək lazımdır, – markiz dedi, sonra stolun üstündəki balaca zınqırovu götürüb zəng çaldı. – Amma mən görürəm ki, siz ağlınızı itirmisiniz, müsyö Şarl.

– Mülkiyyət və Fransa mənim üçün artıq itirilib, – qardaşoğlu kədərlə dedi, – mən onlardan imtina eləmişəm.

– Bəyəm onlar səninkiydi ki, imtina edəsən? Fransa bir yana, əmlakı götürək, bəyəm əmlak sənindir? Əmlakın qiyməti az deyil, amma, doğrudanmı, hesab edirsən ki, o sənə məxsusdur?

– Mən demək istəmədim ki, nəsə tələb edirəm. Fərz edək ki, günü sabah siz əmlakı mənə vermisiniz.

– Məncə, bunun reallaşması mümkün deyil.

– Yaxşı, iyirmi ildən sonra olsun...

– Siz çox lütfkarsınız, – markiz dedi, – bu ehtimal mənim xoşuma gəldi.

– O halda da imtina edərdim; mən başqa yerdə, başqa cür yaşayacağam. Belə baxanda burada nə qalıb ki? Hara baxırsan boş çöllərdir, üz-gözündən dərd-qəm yağan insanlardır, bir də xarabalıqlardır. Başqa nə var?

– O-oh! – markiz belə deyib öz dəbdəbəli iqamətgahını nəzərdən keçirdi.

– Düzdür, ilk baxışda göz oxşayır, amma yaxşı baxanda məlum olur ki, dərdi də az deyil: pis idarəçilik, soyğunçuluq, borclar, girovqoyma, zülmkarlıq, aclıq, dilənçilik, səfalət və qan-qarğış. Bütün bunlar nəzərə alınanda yaxşı heç nə qalmır.

– O-oh! – markiz özündənrazı halda yenə təkrar elədi.

– Əgər bütün bunlar nə vaxtsa mənim olsaydı, bu işi daha yaxşı bacaran bir adama verərdim ki, üstünə çöküb daim onu aşağı basan ağırlıqdan yavaş-yavaş azad eləsin; əlbəttə, əgər bu, mümkün olsaydı. O halda buranı atıb gedə bilməyən, hər cür zillətə dözərək hələ də yaşayan bədbəxt insanların gələcək nəsilləri özlərinə gəlib bir qədər rahat nəfəs alardı. Amma bu iş mənlik deyil. Buradakı hər şeyə lənət damğası vurulub.

– Bəs siz özünüz necə? – əmi dedi. – Şəxsi həyatınızla maraqlandığım üçün üzr istəyirəm. Amma, hər halda, maraqlıdır: bu yeni fəlsəfi fikirlərlə yaşaya biləcəksinizmi?

– Mən də yaşamaq üçün digər həmvətənlərimin getdiyi yolla gedəcəyəm. Hər halda, nə qədər ad-san sahibi olsalar da, onlar işləyib zəhmət çəkməli olacaqlar, mən də işləyəcəyəm.

– Yəqin ki, İngiltərədə?

– Bəli. O ölkədə nəslimizin şərəfi mənə görə ziyan çəkməyəcək. Nəslimizin adına da xələl gəlməyəcək; o ölkədə mənim adım başqadır.

Zəng səsindən sonra gələn xidmətçi yataq otağının işığını yandırdı. Yaraşıqlı yataq otağının içi açıq qapıdan görünürdü. Markiz otağa baxa-baxa xidmətçinin uzaqlaşmaqda olan addım səslərinə qulaq asırdı.

– İngiltərədə elə bir yüksək mövqe əldə etməmisiniz, amma, buna baxmayaraq, o ölkə sizi cəlb edir. – Sakit sifətində təbəssüm peyda olmuş markiz qardaşı oğluna baxdı.

– Artıq qeyd etdiyim kimi, İngiltərədəki nailiyyətlərimə görə sizə borcluyam, ser. Başqa məsələlərə gəlincə, ora mənim sığınacaq yerimdir.

– İngilislər özlərini öyüb deyirlər ki, o ölkə çoxları üçün bir sığınacaq yeridir. Siz də, yəqin ki, orada özünə sığınacaq tapmış digər həmvətənlərimizlə oturub-dursunuz? Mən doktoru nəzərdə tuturam.

– Bəli, elədir.

– Qızıyla?

– Bəli.

– Yaxşı, – markiz dedi. – Siz yorğunsunuz. Gecəniz xeyrə qalsın!

Markiz belə deyib nəzakətlə baş əydiyi vaxt onun gülümsər sifətində və dediyi axırıncı sözlərdə nəsə elə qəribə bir müəmma vardı ki, qardaşoğlu bunu sezib diksindi. Eyni zamanda gözlərin ensiz, dar kəsiyi, düz xətt boyunca bir-birinə sıxılmış nazik dodaqlar və burun pərələrindən yuxarıdakı çökəklər sarkazm ifadəsi olaraq titrədi, markizin qəşəng sifəti iblisə oxşadı.

– Bəli, – markiz təkrar elədi. – Doktorla qızı. Bəli. Yeni fəlsəfə bundan başlayır! Siz yorğunsunuz. Gecəniz xeyrə qalsın!

Markizin üzündən nəsə oxumaq indi qəsrin fasadındakı daşlaşmış sifətlərdən nəsə oxumaq qədər çətin idi, – qardaşoğlu da nahaq yerə əziyyət çəkib əmisinin üzünə baxır, özü üçün nəsə aydınlaşdırmaq istəyirdi.

– Gecəniz xeyrə qalsın! – markiz dedi. – Sabahkı gündə görüşmək ümidiylə. Sizə yaxşı istirahət arzulayıram! Qardaşım oğlunu otağına aparın, orada işıq yandırın! – markiz bunu deyib balaca zınqırovu əlinə götürdü ki, xidmətçini öz otağına çağırsın, amma zəng vurmamışdan əvvəl öz-özünə dedi: "Belə qardaşoğlunu yatdığı yerdə diri-diri yandırmaq lazımdır".

Xidmətçi gəldi, sonra da qayıdıb getdi, markiz isə geniş gecə xalatında var-gəl edir, isti yay gecəsi yuxuya getmək üçün hazırlaşırdı. Yumşaq ev ayaqqabılarında pələng kimi elə ehtiyatla gəzirdi, ancaq xalatın xışıltısı eşidilirdi; sanki o, nağıllardakı sehrbaz idi, gah markizə çevrilirdi, gah da çevrilib pələng olurdu.

Markiz zəngin bəzənmiş yataq otağında ora-bura gəzişirdi, özündən asılı olmayaraq, gündüz baş vermiş hadisələrin ayrı-ayrı detalları gözünün qabağına gəlirdi: günbatan çağı tələsmədən qalxdıqları yoxuş, günəşin batması, eniş, dəyirman, qayalıqdakı həbsxana, dərədəki balaca kənd, fontanın yanında yığışmış kəndlilər, əlindəki mavi şapka ilə faytonun altını göstərən yol ustası. Kənddəki fontan onun yadına

Parisdəki fontanı saldı; fontanın aşağısındakı formasız bağlama, bağlamanın üstünə əyilmiş qadınlar, əllərini göyə qaldırıb "Ölüb!" deyən hündürboy kişi gözünün qabağına gəldi.

– Deyəsən, tərim soyudu, sərinlədim, – markiz öz-özünə dedi, – indi uzanıb yatmaq olar.

Böyük sobanın üstündəki şamdan başqa qalanlarını söndürüb zərif pərdələri aşağı saldı, uzanıb yuxuya gedəndə isə gecənin uzun-uzadı nəfəs aldığını, dərin sükutun pozulduğunu eşidirdi.

Çöldəki divarların daş sifətləri üç saat idi gözlərini gecənin qaranlığına zilləyib kor kimi baxırdı, üç saat idi tövlədəki atlar ayaqlarını yerə döyüb səs salırdılar, itlər hürürdü, tövlənin damındakı bayquş heç də şairlərin təsvir elədiyinə oxşamayan bir səs çıxarırdı. Bu inadkar varlıqlar özləri üçün xarakterik olmayan qəribə səslər də çıxardırlar.

Üç saat idi ki, qəsrdəki daş insan sifətləri və daş şir sifətləri gözlərini gecənin qaranlığına zilləyib kor kimi baxırdı. Hər tərəf zülmət qaranlığa qərq olmuşdu, zülmət qaranlıq tozlu yolların sükutuna bir səssizlik də gətirmişdi. Zülmət qaranlıq qəbiristanlığın üstünə çöküb oradakı balaca ot təpəciklərini görünməz eləmişdi, ağacdan düzəldilmiş xaçın üstündəki insan fiquru istədiyi zaman oradan düşüb harasa gedə bilərdi, heç kim də onu görməzdi. Kəndin vergi yığanları da, vergi verənləri də yatmışdı. Vergiverənlər yuxuda yeyib-içmək məclisi görürdü (ac toyuq yuxusunda darı görər), ya da bəlkə, azadlıq və sərbəstlik görürdülər, – işləyib heydən düşmüş qul, boyunduruq boynunu yara eləmiş yorğun öküz yuxuda nə görə bilər?

Kəndin içindəki fontanın suyu axıb gedir, gözə görünmürdü, qəsrin həyətindəki fontanın suyu da axıb gedir, gözə görünmürdü; zaman bulağının dəqiqələri üç qaranlıq saat ərzində necə axıb getmişdisə, fontanların suyu da o cür axıb getmişdi. Sübhün ala-toranında fontanların boz-bulanıq suyu şırıldayıb səs saldı, qəsrin fasadındakı daş sifətlərin kor gözləri açıldı.

Hava işıqlaşırdı; bir az da işıqlaşdı və nəhayət, günəş şüaları ağacların başına toxundu, təpənin hər tərəfi işıqlandı. Üfüqdən qalxmaqda olan günəşin qızartdaq şüaları qəsrin həyətindəki fontanın suyunu elə qızartmışdı, sanki o, su deyildi, qan idi; fasaddakı solğun daş sifətlər allanıb moruğu rəng aldı, elə bil o sifətlərə qan çilənmişdi. Quşların şən nəğməsi eşidilirdi, balaca bir quş isə markizin yatdığı otağın yağış

və küləkdən zədələnmiş böyük pəncərəsinin çöl tərəfinə qonaraq candildən öz gözəl nəğməsini oxuyurdu. Lap yaxınlıqdakı daş sifət ağzını açıb alt çənəsi sallanmış halda təəccüblə balaca quşa baxırdı; bu nəsə çox dəhşətli bir sifət idi.

Günəş qalxıb üfüqdən boylananda kənd hərəkətə gəldi. Pəncərələr, qapılar cırıldayıb açıldı, evlərdən təmiz havaya çıxan adamlar təzə açılan səhərin soyuğunda titrəyib gərnəşdilər. Kənd camaatının ağır iş günü başladı: kimisi fontana tərəf getdi, kimisi tarlaya getdi, kişilər və qadınlar yer qazdı; bir dəri, bir sümük qalmış inəkləri otdan kasad örüşlərə, yol qıraqlarına çıxartdılar.

Kilsədəki xaçın qarşısında diz çöküb Allaha dua eləyən iki nəfərdən birinin örüşə çıxartdığı inək ora-bura boylanıb səhər yeməyi üçün nəsə bir şey axtarırdı.

Qəsr gec oyandı, öz vaxtında oyandı, amma tədricən, inamla oyandı. Təklikdə qalıb darıxan xəncərlərlə bıçaqlar keçmişdə olduğu kimi qızartdaq rəngə boyandı, iti tiyələr səhər günəşinin şəfəqləri altında bərq vurdu, qapılar, pəncərələr taybatay açıldı, tövlədəki atlar qanrılıb geri – qapıdan içəri düşən işığa və yeməyə tərəf boylandılar, dəmir barmaqlıqlı pəncərələrin qarşısındakı yarpaqlar xışıldayıb nə barədəsə pıçıldaşdı, zəncirə bağlanmış itlər atılıb-düşdülər, səbirsizliklə zəncirdən açılacaqlarını gözlədilər.

Qəsrin hər günü qayda halını almış bu cür xırdalıqlarla başlayır. Amma bu səhər fərqliydi: qəflətən qəsrin böyük zəngi vurdu, adamlar pilləkənlə aşağı-yuxarı qaçdılar, tələsib dəhlizdə basabas saldılar, ora-bura vurnuxdular, atları yəhərlədilər və minib çaparaq uzaqlara getdilər, – bəs bu nədir?

Yol təmiri ustası kəndin arxasındakı təpənin üstündə artıq işə başlayıb; bir qarğanı doydura bilməyəcək gündəlik yeməyini də özüylə götürüb və odur, çörək bağlamasını daş tığının üstünə qoyub. Amma heç cür baş açmaq olmur, qəsrdəki çaxnaşmanın küləyi onu nə tez vurdu? Bəlkə, uzaqlarda dənlənib geri qayıdan quşlar buğda dənəsini yerə atdıqları kimi, qəsrin bağçasında nəğmə oxuyan quşlar da o xəbəri gətirib tezcə ona çatdırıb? Hər necə olsa da, həmin gün səhər vaxtı yol təmiri ustası işini atıb təpənin döşüylə üzüaşağı qaçaraq gəlib kəndarası yola çıxdı, dizəcən toza bata-bata, təngnəfəs halda özünü fontana çatdırdı.

Kəndin camaatı axışıb fontanın yanına gəlmişdi, hamısı da çaşqın və qaşqabaqlı görünürdü; bir yerə toplaşıb yavaşdan pıçıldaşırdılar, sifətləri maraq və təəccübdən başqa ayrı heç nə ifadə eləmirdi. İnəyini otarmağa aparanlar tələsik heyvanı örüşdən geri qaytarıb fontanın yanına gətirmiş, ipini hara gəldi bənd eləmişdilər; nə baş verdiyini anlamayan inəklər səfehcəsinə dayanıb baxır, ya da yatıb gövşəyirdilər, əslində, gövşəməyə bir şey də yox idi, çünki bu səhər onlar otlamağa macal tapmamışdılar. Qəsrdəki adamların çoxu, poçt işçiləri, vergiyığan məmurların hamısı bu və ya digər dərəcədə silahlanaraq balaca küçənin o biri tərəfində toplaşmışdılar; mənasız vurnuxmalarından hiss olunurdu ki, əslində, nə baş verdiyini onlar özləri də bilmirlər. Nəhayət, budur, yol təmiri ustası əlliyəcən dost-tanışının bir yerə toplaşdığı dəstənin içinə girdi, əlində tutduğu mavi şapkasını sinəsinə vura-vura nəsə danışmağa başladı. Bütün bunlar və müsyö Qabellin at belində gəlmiş xidmətçiylə nə barədəsə danışandan sonra özünün də o atın tərkinə minib (ikisi bir atın belində) çaparaq harasa getməsi nə demək idi? Bəlkə, bu, Lenora adlı qızın qaçırılmasından bəhs edən alman balladasının yeni versiyasıdır?

Əslində isə bu o deməkdir ki, qəsrdəki çoxsaylı daş sifətlərin cərgəsinə biri də əlavə olunub.

Gecə vaxtı Qorqon yenə qəsrə gələrək oraya ötəri bir nəzər salmışdı, daş sifətlərin cərgəsində çatmayan sifəti, nəhayət, öz yerinə qoymuşdu; bu daş sifəti o düz iki əsr idi gözləyirdi.

O sifət cənab markizin yastığının üstündəydi. Gözəl maskaya oxşayan sifət sanki qəflətən qorxub diksinmiş, qəzəblənmiş və daşa dönmüşdü. Daşa dönmüş bədənin ürək nahiyəsində saplanmış bıçağın dəstəyindəki kağızda iki cümlə var idi: "Onu qəbrə tez apar. Bu da Jakın sənə cavabı".

X fəsil

İKİ VƏD

Aylar keçdi, il tamam oldu. İngiltərədə məskunlaşmış mister Çarlz Darney fransız dili müəllimi kimi fəaliyyətə başladı; çünki bir fransız kimi o, fransız dilini gözəl bilməklə yanaşı, həm də fransız ədəbiyyatına yaxşı bələd idi. İndiki zamanda o, professor ola bilərdi, amma o vaxt ancaq repetitor işləyirdi. O, vaxtı və həvəsi olan gənclərə artıq bütün dünyada ünsiyyət vasitəsinə çevrilmiş fransız dilini öyrədirdi, eyni zamanda Fransanın elmə, sənətə verdiyi töhfələrdən danışır, əlindən gələni edirdi ki, onlara daha çox məlumat versin. Bundan əlavə, ingilis dilində məqalələr yazır, fransız dilindən tərcümələr edirdi. Bu cür bacarıqlı adam tapmaq o vaxt asan iş deyildi, çünki keçmiş şahzadələr və gələcək krallar hələ ki müəllimliklə məşğul olmurdular, Tellson Bankın əsil-nəsilli müştəriləri bankın haqq-hesab kitablarından adları silinəndən sonra aşpazlıqla və dülgərliklə məşğul olmurdular. Bir repetitor kimi o, tələbələrini yaxşı öyrədirdi və onların da müvəffəqiyyəti göz qabağındaydı; tərcüməçiliyinə gəlincə, onun tərcümələri dəqiq olmaqla yanaşı, həm də özünəməxsus orijinallığıyla seçilirdi, ona görə də gənc mister Darney tez bir zamanda məşhurlaşdı, bu isə onu daha da ruhlandırdı. Hərtərəfli biliyə malik olan mister Darney öz ölkəsində baş verən hadisələrə böyük maraq göstərir, hər şeyi diqqətlə izləyirdi, eyni zamanda nə baş verdiyini də yaxşı bilirdi. Öz inadkarlığı və çalışqanlığı sayəsində yaxşı nailiyyətlər əldə edir, mövqeyini get-gedə yaxşılaşdırırdı.

Londonda o, yüngül həyat, asan qazanc axtarmırdı; əgər bu fikirlə yaşasaydı, heç nəyə nail olmayacaqdı. O işləmək istəyirdi, iş axtarırdı

və onu tapdı; özünü işə verib necə lazımdır çalışırdı, gözəl də nəticə alınırdı. Müvəffəqiyyət qazanmasının səbəbi də bu idi.

Onun vaxtının çoxu Kembricdə keçirdi; orada proqram üzrə universitet gömrüyündən keçib qanuni status almış latın və yunan dilləri öyrənən tələbələrə, belə demək mümkündürsə, qaçaqmalçılıq yoluyla canlı Avropa dilləri öyrədirdi. Qalan vaxtı isə Londonda keçirdi.

Cənnətdə yayın həmişə hökm sürdüyü ta qədim zamanlardan Yer kürəsinin çox yerində ilin çox vaxtının qış keçdiyi indiki zamanacan kişi dünyasının bir yolu olub, bu da qadına olan sevgi yoludur, – Çarlz Darney də o yolla gedirdi.

Həyatının bir tükdən asılı olduğu məhkəmə prosesindən sonra o, Lüsi Manetti sevirdi. Ömründə heç vaxt onun səsi qədər sevimli, şirin və qayğıkeş səs eşitməmişdi, özü üçün qazılmış qəbrin düz qırağında dayandığı günəcən o cür gözəl, elə zərif bir üz görməmişdi. Amma bu barədə qızın özüylə danışmamışdı; köhnə qəsrdə baş vermiş qətl hadisəsini ondan çox uzun su yolları və tozlu quru yollar ayırırdı, qəsrin möhkəm, daş divarları da artıq dumanlı xatirəyə çevrilmiş, il ötmüşdü, amma o, hələ də qıza öz ürəyini açmamışdı və bunun öz səbəbləri var idi.

İsti yay günüydü. Kollecdəki məşğələlərdən sonra Londona gec qayıdan mister Darney Soho dalanına döndü ki, imkan olsa, öz ürəyinin sirrini doktor Manettə açsın. Yay gününün sonuna az qalırdı və o bilirdi ki, Lüsi bu vaxtlar evdən çıxıb miss Prossla birlikdə gəzməyə gedir.

Doktor pəncərənin ağzındakı kresloda oturub kitab oxuyurdu. Başına gələn fəlakətlərə dözməkdə, eləcə də onları daha dərindən hiss etməkdə gərəkli olan əvvəlki gücü və enerjisi tədricən qayıtmaqdaydı. Sözün həqiqi mənasında, indi o çox fəal idi, öz məqsədinə çatmaq üçün qətiyyətliydi, güclüydü. Əvvəlki gücü qayıtsa da, qəflətən halının dəyişdiyi, ciddi narahatlıq keçirdiyi də olurdu, amma bu çox az olurdu, son vaxtlar isə, demək olar ki, baş vermirdi.

Doktor çox işləyir, az yatırdı, amma yorğunluq hiss etmirdi, əhvalı da yaxşı olurdu. Otağa daxil olan Çarlz Darneyi görən kimi kitabı örtdü və görüşmək üçün əlini uzatdı.

– Çarlz Darney! Sizi görməyimə şadam. Son üç-dörd gündə günləri sayırdıq ki, nə vaxt gələcəksiniz. Mister Strayverlə mister Sidni Karton dünən bizdəydilər, hər ikisi təəccüblənmişdi ki, sizə nə olub, buralara niyə gəlib-getmirsiniz.

– Mənimlə maraqlandıqları üçün onlara minnətdaram, – Darney dedi, onun səsində bir soyuqluq hiss olundu, amma bu haqqında danışılan adamlara aid idi, doktorun özünə gəlincə, onunla çox hərarətlə danışırdı. – Miss Manett necə...

– Yaxşıdır, – həmsöhbətinin ləngidiyini görən doktor tez cavab verdi. – Sizin gəlişiniz bizim hamımızı sevindirir. Lüsi ev işləriylə əlaqədar olaraq harasa getdi, indi gələr.

– Doktor Manett, mən bilirdim ki, o, evdə deyil. Onun evdə olmamasından istifadə edib sizinlə danışmaq istəyirəm.

Bir müddət heç biri danışmadı.

– Eləmi? – doktor aydın hiss olunan gərginliklə dedi. – Əyləşin, stulu qabağa çəkin, sözünüzü deyin.

Darney deyilən kimi eləyib stulda əyləşdi, lakin dərhal hiss elədi ki, danışmaq elə də asan olmayacaq.

– Doktor Manett, haradasa il yarıma yaxındır ki, mən bu evə gəlib-gedirəm və yaxşı qarşılandığım üçün özümü çox xoşbəxt hiss edirəm; ümidvaram ki, haqqında danışmaq istədiyim məsələ sizə...

Doktor əlini yuxarı qaldırıb onu dayandırdı. Onun əli bir anlığa o vəziyyətdə qaldı, sonra aşağı endi.

– Siz Lüsi barədə danışmaq istəyirsiniz?

– Bəli.

– İstənilən vaxt onun barəsində danışmaq mənim üçün çətindir. Onun barəsində sizin danışdığınız tərzdə danışmaq isə mənim üçün çox çətindir, Çarlz Darney.

– Mən onun barəsində böyük hörmət, həqiqi rəğbət və dərin məhəbbətlə danışıram, doktor Manett.

Qızın atası bir qədər susduqdan sonra dedi:

– Mən sizə inanıram. Həqiqətən inanıram.

Hiss olunurdu ki, doktor çətinlik çəkir, hətta belə çıxırdı ki, o bu barədə danışmaq istəmir, ona görə də Çarlz Darney tərəddüd elədi.

– Mən sözümə davam edə bilərəmmi, ser?

Yenə sükut.

– Yaxşı, davam edin.

– Siz mənim nə deyəcəyimi, yəqin ki, bilirsiniz, amma çox ciddi danışdığımı, bunu necə ciddi hiss etdiyimi bilmirsiniz, çünki hansı ümidlərlə yaşadığımı, niyə qorxub narahatlıq keçirdiyimi, ürək sirrimi

uzun müddət gizli saxlayıb açmamağımın səbəbini bilmirsiniz. Əziz doktor Manett, mən sizin qızınızı həqiqi, dərin və əbədi bir məhəbbətlə sevirəm. Qızınızı bu dünyada mümkün olan əsl məhəbbətlə sevirəm. Siz özünüz də nə vaxtsa sevmisiniz, qoy sizin keçmiş sevginiz mənim əvəzimə danışsın!

Doktor oturduğu yerdə üzünü yana çevirib gözlərini döşəməyə zilləmişdi. Mister Darneyin son sözlərini eşidəndə əlini qabağa uzadıb qışqırdı:

– Yox, ser, o barədə danışmayın! Sizə yalvarıram, o barədə danışmayın!

Onun qışqırtısı, həqiqətən, mövcud olan fiziki ağrının doğurduğu qışqırığı xatırlatdı və doktor susandan sonra da uzun müddət Çarlz Darneyin qulaqlarında səslənməkdə davam elədi. Doktor əlini qabağa uzadaraq həmsöhbətinin susmasını rica edən, yalvaran jestlər edirdi. Nəhayət, Darney onun xahişini qəbul edib susdu.

– Mən sizdən üzr istəyirəm, – xeyli sükutdan sonra doktor əzilmiş, məğlub olmuş adam kimi dedi. – Sizin Lüsini sevdiyinizə şübhəm yoxdur, buna əmin ola bilərsiniz.

Bu sözü deyəndən sonra Darneyə tərəf çevrildi, amma bir dəfə də olsun başını qaldırıb onun üzünə baxmadı; çənəsini əlinə söykəyib oturmuşdu, ağ saçları üzünə tökülmüşdü.

– Lüsi ilə danışmısınız?

– Yox.

– Məktub da yazmamısınız?

– Heç vaxt.

– Mənə qarşı xüsusi hörmətinizi, təmkinli fədakarlığınızı qeyd eləməsəm, bu çox böyük bir ədalətsizlik olardı. Qızın valideyni kimi sizə təşəkkür edirəm.

Doktor yenə başını qaldırıb baxmadan əlini uzatdı ki, Darneyin əlindən tutsun.

– Bilirəm, doktor Manett, – Darney ehtiramla dedi, – hər gün sizi bir yerdə görən mən bunu necə bilməyə bilərəm? Sizinlə miss Manett arasındakı ünsiyyət o qədər qeyri-adi, o qədər təsirlidir ki, bunu sözlə ifadə etmək çətindir; valideynlə övlad arasında bu cür münasibət, yəqin ki, qeyri-adi şəraitdə yarana bilər, hətta atanın öz övladlarıyla çox yaxın olduğu digər ailələrdə də belə münasibət, yəqin ki, mümkün deyil.

Bilirəm, doktor Manett, yaxşı bilirəm, artıq böyük qız olan övladınızın sizə olan məhəbbətində, fədakar qayğıkeşliyində sadəlövh uşaq inamını, uşaq sevgisini görməmək mümkün deyil. Qızınız hələ uşaq yaşlarından valideynsiz qalıb, ona görə də indi bu yaşa uyğun məhəbbət, qayğı və fədakarlığı sizi itirdiyi əvvəlki dövrə məxsus olan etibar və inamla birləşdirərək özünü bütövlükdə sizə həsr edib. Mən yaxşı bilirəm ki, əgər o biri dünyadan qayıdıb gəlmiş olsaydınız, sizi o bu cür qəbul edib, belə bir qayğıyla əhatə edərdi. Mən bilirəm ki, sizin boynunuzu qucaqladığı anda onun əlləri həm balaca bir qızcığazın, həm də artıq böyüyüb, özü də ana olmaq dövrünə çatmış böyük qızın əlləridir. Mən bilirəm ki, qızınız sizi sevib-əzizləyəndə özü yaşdakı gənc anasını gözü qarşısına gətirib onu da sevir, onu da əzizləyir, mənim yaşımda olan gənc atasını gözünün qabağına gətirir, onu sevib-əzizləyir, qəm-qüssə çəkməkdən qəlbi parçalanmış anasını sevib-əzizləyir, həyatın ən amansız zərbələrini almış, sonra yenidən övladının yanına qayıtmış atasını sevir, əzizləyir. Mən bunu evinizə gəldiyim ilk gündən bilirəm, gecə-gündüz də o barədə fikirləşirəm.

Qızın atası başını aşağı əyib dinməzcə oturmuşdu; keçirdiyi həyəcanın bütün əlamətlərini cilovlaya bilsə də, ürək döyüntüsü bir qədər artmışdı.

– Əziz doktor Manett, bunu bilə-bilə, sizi həmişə müqəddəs sevginin əhatəsində qızınızla görərək, mən özümü ələ alıb susmağı lazım bildim və bunu bir insan övladının bacardığı qədər elədim. Mən hiss edirdim, elə indi də hiss edirəm ki, aranıza başqa bir sevgiylə, hətta mənim sevgimlə də girmək sizin hisslərinizə və həyatınıza layiq olmayan bir müdaxilə olardı. Amma mən onu sevirəm. Allah özü şahiddir ki, mən onu sevirəm!

– Mən sizə inanıram, – qızın atası kədərlə dedi. – Mən bunu çoxdan hiss edirdim. Mən sizə inanıram.

– Amma mən inanıram, – doktorun kədərli səsi hələ də qulaqlarında bir qınaq kimi səslənən Darney dedi, – əgər qismətimə o qızla evlənib onu öz arvadım kimi görə bilmək səadəti yazılıbsa və əgər bu sizi bir-birinizdən ayırmaq yoluyla mümkün olsaydı, o halda mən bu gün sizinlə kəlmə kəsib danışmazdım. Mən bunun mənasız olduğunu bilirəm, amma, hər halda, bu cür ləyaqətsiz iş mənlik deyil. Belə bir fikir ağlıma gəlsəydi və onu hamıdan, hətta özümdən də gizli saxlayıb

nə vaxtsa həyata keçirmək barədə düşünsəydim, sizin ancaq hörmətə layiq əlinizi sıxa bilməzdim.

Bu cür danışa-danışa o, əlini doktorun əlinin üstünə qoydu.

– Yox, əzizim doktor Manett. Mən də sizin kimi könüllü olaraq Fransanı tərk etmişəm; sizin kimi, mən də oradakı başıpozuqluğu, zülmü, əzabları görməmək üçün uzaqlaşmışam; sizin kimi, mən də xoşbəxt gələcəyə inamımı itirməmək üçün çalışıram ki, öz əlimin halal zəhmətiylə yaşayım; mən sizin dərdinizə şərik olmaq, sizə dayaq olmaq, əlimdən gələn köməyi əsirgəmədən ömrümün axırınacan sizə sədaqətli olmaq istəyirəm. Mən Lüsinin sizə olan övladlıq, dostluq münasibətlərinə şərik çıxmaq istəmirəm, amma əgər bacarsam və əgər bu mümkün olsa, onu sizə daha möhkəm tellərlə bağlamaq fikrindəyəm.

O, hələ də qızın atasının əlindən tutmuşdu. Doktor bu əlin toxunuşuna cəmi bir dəfə, onda da soyuq olmayan cavab verdi, sonra isə əllərini kreslonun qoltuqaltılarına söykəyib sakitcə oturdu, amma danışıq başlayandan bəri ilk dəfə başını qaldırıb həmsöhbətinin üzünə baxdı; üzündən aşkar görünürdü ki, daxilində nəsə bir çəkişmə var, tək bircə dəfə baxdı, amma o baxışdan bilinirdi ki, çəkişmə tutqun şübhə ilə qorxu arasında gedir.

– Siz elə təmiz ürəklə, elə cəsarətlə danışdınız ki, Çarlz Darney, mən səmimi-qəlbdən təşəkkür etməliyəm, eyni zamanda öz ürəyimdəkiləri də sizə deyəcəyəm. Deyin görüm, Lüsinin sizi sevdiyinə əminsinizmi?

– Yox. Hələ ki yox.

– Ona görə də əvvəlcə mənimlə danışmaq istədiniz ki, sonra onun fikrini öyrənəsiniz?

– Yox, heç də elə deyil. Məndə belə bir ümidverici niyyətin yaranması üçün, bəlkə də, həftələr lazım olacaq; ola da bilər ki (bilmirəm, bəlkə, səhv edirəm, bəlkə də, yox), o ümid məndə elə günü sabah yaransın.

– Bu məsələdə sizə kömək etməyimi istərdinizmi?

– Mən heç nə istəmirəm, ser. Amma hesab edirəm ki, əgər siz buna layiq olduğuma şübhə etmirsinizsə, onda imkanınız daxilində nəsə bir kömək edə bilərsiniz.

– Nəsə bir vəd verməyimi necə, istərdinizmi?

– Bəli, istəyirəm.

– Məsələn, nə?

– Mən çox yaxşı başa düşürəm ki, sizin köməyiniz olmadan heç nəyə ümid edə bilmərəm. Onu da yaxşı başa düşürəm ki, əgər miss Manett öz pak qəlbində mənə azacıq bir yer ayırsa, – elə bilməyin ki, özüm haqda yüksək fikirdəyəm və elə bir ehtimalım da var, – atasına olan sonsuz məhəbbətin qarşısında mən onsuz da orada qala bilməzdim.

– Yaxşı, bəs məsələyə başqa cür yanaşanda necə, orada başqa nə görmək olar?

– Mən həm də yaxşı bilirəm ki, hansısa namizədin xeyrinə atasının dediyi bir kəlmə söz qızın özünün və yerdə qalan hamının fikrini üstələmək qüdrətinə malikdir. Ona görə də, doktor Manett, – Darney ciddi və qətiyyətli tonda dedi, – o sözü mənim xeyrimə deməyin; həyatım bahasına olsa belə, mənim xeyrimə nəsə deməyinizi istəmirəm.

– Mən buna əminəm. Sevən ürəklərin öz sirri olur, Çarlz Darney, birbirindən çox uzaq, hətta düşmən olanların da ürəyində sirr olur; bu çox incə məsələdir, onu anlamaq, mahiyyətinə varmaq çox çətindir, bəlkə də, mümkün deyil. Bu mənada qızım Lüsi mənim üçün bir sirr olaraq qalır; onun qəlbində nə baş verdiyini deyə bilmərəm.

– İcazənizlə soruşmaq istərdim, ser, hesab edirsinizmi ki, onu... – Darneyin dili dolaşdı və onun tərəddüd elədiyini görən doktor cümləni özü tamamladı:

– Onu istəyən başqa adam da varmı?

– Mən də bunu bilmək istəyirdim.

Cavab verməmişdən əvvəl qızın atası bir qədər fikirləşməli oldu.

– Siz özünüz də mister Kartonun bura gəlib-getdiyini görmüsünüz. Mister Strayver də hərdən gəlir. Belə baxanda onlardan hansısa biri ola bilər.

– Hər ikisi də ola bilər, – Darney dedi.

– Hər ikisini ehtimal etməzdim, hətta mən onlardan heç birini nəzərdə tutmuram. Siz istəyirsiniz mən nəsə vəd eləyim. Elədirmi?

– Doktor Manett, xahişim ondan ibarətdir ki, əgər günlərin birində mənim bu gün sizə etiraf elədiyim kimi, miss Manett də öz tərəfindən və öz adından belə bir etiraf edib ürəyinin sirrini sizə açsa, məndən eşitdiklərinizi ona çatdırın, mənə inandığınızı da deyin. Ümidvaram ki, münasibətimiz indiki kimi həmişə yaxşı olacaq və mənim xeyrimə olmayan nəsə deməyəcəksiniz. Bu məsələnin mənim üçün necə böyük əhəmiyyətə malik olduğunu deməyəcəyəm. Mənim xahişim bundan

ibarətdir ki, onu hansı şərtlə qəbul etsəniz, tələbinizi qəbul edib yerinə yetirəcəyəm.

– Mən heç bir şərt qoymadan xahişinizi qəbul edirəm, – doktor dedi. – Sözlərinizin səmimiliyinə inanıram. Əminəm ki, dünyada hər şeydən və hamıdan əziz olan qızımla məni bağlayan tellərin zəifləməsinə, qırılmasına yox, daha da möhkəmlənməsinə çalışacaqsınız. Əgər günlərin birində mənə desə ki, ancaq sizinlə xoşbəxt ola bilər, onu sizə verəcəyəm. Amma, Çarlz Darney, işdir, birdən...

Gənc oğlan doktorun əlini minnətdarlıqla sıxdı; doktor əlini çəkmədən sözünə davam etdi:

– İşdir, birdən onun həqiqətən sevdiyi adama qarşı müəyyən şübhələr, heç də yaxşı olmayan ehtimallar yaransa və həm də onlar nəinki indiki zamana, hətta keçmişə aid olsa da, fərqi yoxdur, qızımın xatirinə hər şey bağışlanacaq. Mənim üçün bu dünyada ondan əziz heç nə yoxdur; əslində, çəkdiyim əzablar, qarşılaşdığım ədalətsizlik hamısı... Eh! O barədə danışmağın yeri deyil.

Doktorun qəflətən danışığına ara verib sükuta qərq olması, susduğu vaxt hərəkətsiz baxışı elə qəribəydi, həmsöhbəti çaşdı; sonra o, əlini çəkdi və Darney öz əlinin də soyuduğunu hiss elədi.

– Siz mənə nəsə dediniz, – doktor gülümsəyib dedi. – Siz nə dediniz?

Darney özünü itirmişdi, ilk anda bilmədi nə desin, sonra yadına düşdü ki, şərtləşmək barədə danışırdılar. O, mövzuya qayıdıb cavab verdi:

– Mənə qarşı etibarınıza cavab olaraq deməliyəm ki, əsl adım başqadır; bəlkə də, yadınızda olar, anamın qızlıq familiyasını götürüb onu bir qədər dəyişdirmişəm. Mən bu barədə və İngiltərədə yaşamağımın səbəbi barədə danışmaq istəyirəm.

– Bəsdir! – boveli doktor dedi.

– Yox, mən belə istəyirəm; mənə olan etibarınızı saxlamaq istəyirəm, sizdən heç nə gizlətmək istəmirəm.

– Bəsdir!

Doktor belə deyib əllərivlə qulaqlarını tutdu, az sonra əlini qulağından çəkib Darneyin dodaqlarına yaxınlaşdırdı, danışmağa imkan vermədi.

– İndi yox, mən sizdən soruşanda danışarsınız. Təklifiniz bəyənilsə, Lüsi sizi sevsə, evlənəndən sonra danışarsınız. Söz verirsiniz?

– Məmnuniyyətlə.

– Əlinizi verin. Lüsi indilərdə qayıdıb gəlməlidir və yaxşısı budur ki, bu axşam o bizi bir yerdə görməsin. Gedin. Allah köməyiniz olsun!

Çarlz Darney doktorgildən çıxanda hava qaralırdı. Bir saat sonra Lüsi evə qayıdanda isə artıq axşam düşmüşdü. Miss Pross yuxarı – öz otağına qalxdı, Lüsi də tələsik öz otağına tərəf getdi, yolüstü baxıb atasını pəncərənin qarşısındakı kresloda görməyəndə təəccübləndi.

– Ata! – qız atasını səslədi. – Ata, əzizim!

Cavab verən olmadı, amma atasının yataq otağı tərəfdən zəif çəkic səsi eşidilirdi. Qız aralıq otağa keçdi, qulaq kəsilib dinşədi, nədənsə qorxubmuş kimi geri qayıtdı, ağlayıb öz-özünə: "Mən nə edim? Əlimdən nə gəlir?" – dedi.

Qızın çaşqınlığı çox çəkmədi, geri qayıdıb qapını döydü, yavaş səslə atasını çağırdı. Çəkic səsi kəsildi, doktor otaqdan çıxdı və onlar birlikdə xeyli müddət ora-bura gedib otaqda gəzişdilər.

Qız gecə yataqdan qalxıb aşağı mərtəbəyə düşdü, atasının necə yatdığına baxdı. Doktor dərin yuxuya getmişdi, otağın küncündəki çəkməçi alətləri və hələ tikilib qurtarmamış ayaqqabı əvvəlki kimi öz yerindəydi.

XI fəsil

DOSTYANA SÖHBƏT

—Sidni, – mister Strayver elə həmin gecə, ya da bəlkə, səhər tezdən öz çaqqalına dedi, – bir punş da qarışdır, mənim sənə deyiləsi sözüm var.

Sidni həmin gecə ikiqat işləmişdi; dünən gecə, srağagünkü gecə, ümumiyyətlə, son bir neçə gecə dalbadal bu cür gərgin işləyirdi ki, uzun müddət məzuniyyətə çıxmağa hazırlaşan mister Strayverin kağız-kuğuzlarını qaydaya salsın, hər şeyi yerbəyer eləsin. Səliqə-sahman işi, nəhayət, sona yetmişdi: noyabrın dumanlı günləri gəlib dumanlı məhkəmə işləri ortaya çıxanda dəyirman işə düşüb gələn dəni üyüdə biləcəkdi.

Sidni özünü nə qədər oda-közə vurub işləsə də, ümumi vəziyyətində yaxşılığa doğru bir dəyişiklik nəzərə çarpmırdı. Bir o vardı ki, bu gecə başına bağladığı yaş dəsmalları daha çox dəyişməli olmuşdu, hər dəfə dəsmalı dəyişməzdən əvvəl xeyli çaxır içmişdi; gecənin son altı saatında dəfələrlə isladıb başına bağladığı dəsmalı, axır ki, açıb su ləyəninin içinə atdı, amma əhvalı heç də yaxşı deyildi.

– Sən neyləyirsən, punşu qarışdırmadın? – Divanda uzanıb əlini toqqasının altına soxmuş cantaraq Strayver boylanıb ətrafına baxdı.

– Qarışdırıram.

– Eşit, gör nə deyirəm! İndi sənə elə şeylər danışacağam, təəccüblənəcəksən, hətta, ola bilsin, fikirləşəcəksən ki, elə də ağıllı adam deyiləm. Məsələ belədir ki, mən evlənmək istəyirəm.

– Eləmi?

– Bəli. Özü də pula görə evlənmirəm. İndi sözün nədir?

– Düzü, danışmağa həvəsim yoxdur. Kiminlə evlənirsən?

– Tap görüm.

– Mən onu tanıyıram?

– Onu da tapmalı olacaqsan.

– Mən səhər saat 5-də nəsə fikirləşib tapa bilmərəm, halım özümdə deyil, kəlləmin içində elə bil beynim qaynayır. Əgər nəsə fikirləşib tapmaq lazımdırsa, mən onu artıq tapmışam: sən məni yeməyə dəvət etməlisən.

– Yaxşı, elədirsə, özüm deyərəm, – Strayver belə dedi, tələsmədən qalxıb divanda oturdu. – Bilirsən, Sidni, səni başa salmaq çətin məsələdir, çünki sən heç bir hissiyyatı olmayan heyvan kimisən.

– Amma sən çox hissiyyatlısan, – Sidni punşu qarışdıra-qarışdıra dedi, – şair təbiətli adamsan.

– Bəlkə, elə deyil? – Strayver özündənrazı halda gülərək dedi. – Düzdür, hədsiz dərəcədə romantikaya uyan da deyiləm (yaxşı ki, bunu özüm bilirəm), amma, hər halda, səninlə müqayisədə mən çox hissiyyatlıyam.

– Bəxtigətirənəm desən, yaxşı olardı.

– Mən onu nəzərdə tutmuram. Demək istəyirəm ki, mən daha çox, necə deyim, daha çox belə...

– Elədirsə, onda daha çox nəzakətliyəm desən, yaxşı olar, – Sidni təklif elədi.

– Düzdür! Mən daha nəzakətliyəm. Deməli, o fikirdəyəm ki, – Strayver punşu qarışdırıb hazırlamaqla məşğul olan dostuna baxıb öyündü, – mən çalışıram daha çox xoşa gəlim; bunun üçün çalışıram və qadınlarla bir məclisdə olanda onların ürəyini necə ələ almağı səndən yaxşı bilirəm.

– De, sözünü axıracan de, – Sidni Karton dedi.

–Yox, əvvəlcə mən bir məsələyə toxunmalıyam, – Strayver belə deyib, hədələyici tərzdə başını silkələdi. – Doktor Manettgildə sən də mənim qədər, bəlkə də, çox olmusan. Səni o cür qaşqabaqlı görəndə xəcalət çəkirəm! Burnunu sallayıb dinməzcə otursan, elə bil dünya başına uçub! Öz canım üçün, həqiqi sözümdür, Sidni, səni elə görəndə utandığımdan az qalıram yerə girəm!

– Sənin kimi məhkəmələrdə çıxış etməli olan adam utancaqlıq hissini itirməyibsə, buna sevinmək lazımdır, – Sidni dedi. – Belə baxanda

gərək mənə təşəkkür edəsən.

– Sən gəl sözü yayındırma, Sidni, – Strayver dedi. – Əslində, səninlə bu barədə danışmaq mənim borcumdur və mən də öz borcumu yerinə yetirib üzünə deyəcəyəm ki, bəlkə, səhvini düzəldə bildin. Deməli, məsələ belədir ki, Sidni, sən cəmiyyət içində özünü apara bilmirsən, adamlarda iyrənc təəssürat oyadırsan.

Sidni qarışdırdığı punş badəsini birnəfəsə başına çəkib güldü.

– Eşidirsən nə deyirəm? – Strayver qəddini düzəltdi. – Əslində, səninlə müqayisədə adamların xoşuna gəlmək üçün çalışmağa elə bir ehtiyacım yoxdur, çünki heç kimdən asılı deyiləm. Amma, buna baxmayaraq, həmişə çalışıram ki, adamlarda xoş təəssürat oyada bilim. Bilirsən niyə belə eləyirəm?

– Mən heç vaxt cəmiyyət içində sənin belə davranışını görməmişəm, – Karton mızıldandı.

– Mən belə eləyirəm, ona görə ki bu da bir siyasətdir; prinsipə görə belə edirəm. Gözünü aç, bir yaxşı-yaxşı bax! İstədiyimə nail oluram.

– Sən sözü yayındırma, yaxşısı budur, nikah məsələsindən danış, – Karton laqeyd tərzdə dedi. – Mənim özümə gəlincə, sən hələ də başa düşməmisən ki, mən artıq düzələn deyiləm?

Sidninin bu sualında bir qədər ikrah hiss olunurdu.

– Ola bilməz ki, düzəlməyəsən, buna ixtiyarın yoxdur, – Sidninin dostu heç də sakit olmayan tonda dedi.

– Mənim, ümumiyyətlə, yaşamaq hüququm yoxdur və mən bunu dəqiq bilirəm, – Sidni Karton dedi. – Heç demədin ledinin adı nədir?

– İcazə versəydin, onun adını elan etməzdim, Sidni, qorxuram narahat olasan, – mister Strayver qondarma dostyanalıqla həmsöhbətini bir növ sirrin açılması üçün hazırladı, – çünki sən çox danışıb az fikirləşirsən. Əgər danışdığın kimi fikirləşsən də, bunun elə bir əhəmiyyəti yoxdur. Ona görə belə deyirəm ki, sən bir dəfə o ledi barədə ikrahla danışmısan.

– Mən?

– Bəli, sən. Özü də burada, bu otaqda danışmısan.

Sidni Karton punşla dolu badəyə baxdı, özündənrazı dostuna nəzər yetirdi; punşu içdi, sonra yenə özündənrazı dostuna baxdı.

– Sən həmin gənc ledini sarısaç kukla adlandırdın. O gənc ledi miss Manettdir. Əgər səndə bir qədər hissiyyat olsaydı, bir qədər nəzakətli adam olsaydın, o halda mən səndən inciyərdim, Sidni. Amma bu

keyfiyyətlər səndə yoxdur, ona görə də incimirəm. Rəsm əsərindən başı çıxmayan adam mənim çəkdiyim şəkli tənqid etsəydi, musiqi zövqü olmayan birisi mənim bəstələdiyim əsəri bəyənməsəydi, mən onlardan da incimərdim.

Sidni Karton punşla dolu badəni içdi; dostuna baxa-baxa, birnəfəsə içdi.

– Artıq sən hər şeyi bilirsən, Sid, – mister Strayver dedi. – Var-dövlət barədə fikirləşmirəm; gözəl qızdır, həyatdan zövq almaq istəyirəm və görürəm ki, buna imkanım da var. Qıza gəlincə, mənim kimi sürətlə yüksəlməkdə olan, pullu, həm də qəşəng kişi onun üçün göydəndüşmə olacaq; digər tərəfdən, o buna layiqdir. Hə, necədir, deyəsən, bərk təəccüblənmisən.

Karton punş içə-içə dedi:

– Burada təəccüblü nə var ki?

– Deməli, fikrimi bəyəndin?

Karton yenə punş içə-içə dedi:

– Niyə də bəyənməməliyəm?

– Yaxşı, – Strayver dedi, – sən bu məsələyə mənim təsəvvür elədiyimdən də sakit yanaşırsan, elə bir xəsislik də nümayiş etdirmədin, amma artıq bilirsən ki, sənin köhnə dostun möhkəm adamdır. Bax belə, Sidni, bu cür yaşadığım bəsdir, həyat tərzimi dəyişmək istəyirəm; məncə, adamın öz evi, ailəsi olsa yaxşıdır və sən də həmişə ora can atırsan (istəsən, getməyə də bilərsən); elə bilirəm ki, miss Manett mənə yaxşı həyat yoldaşı olacaq. Mənim fikrim belədir. Dostum Sidni, indi də sənin gələcəyin barədə danışmaq istəyirəm. Sən düz yolda deyilsən, özün də bunu bilirsən; sən, həqiqətən, çox pis yolla gedirsən. Pulu hara gəldi xərcləyirsən, həyatın ağır keçir və bir gün də ayılıb görəcəksən ki, xəstəlik səni yıxıb, cibin boşdur; sənə baxan, qayğını çəkən bir adam lazımdır.

Bu sözləri o elə yüksək bir himayədarlıq pafosuyla dedi ki, həmin anda bədəni özündən iki dəfə böyük göründü, həyasızlığı isə dördqat artmışdı.

– İndi isə, Sidni, icazə ver, – Strayver dedi, – sənə bir məsləhət verim: həqiqətin üzünə düz baxmaqdan çəkinmə. Mən özüm belə eləyirəm, sən də belə elə: həqiqətin üzünə öz gözünlə bax, amma çəkinmə, bax. Bir qadın tap, evlən, qoy sənin də qayğını çəkən bir adam olsun. Düzdür,

sən qadınlarla oturub-durmağı xoşlamırsan, onları bəyənmirsən, onların xoşuna gələ bilmirsən, amma vecinə alma. Bir qadın tap evlən. Yaxşı bir qadın tap, kasıb olmasın, öz ev-eşiyi olsun, yaxşı olar ki, pansionu olsun və sən də orada məskunlaşa biləsən; belə bir qadın tap evlən, qoy sabahkı gün köməyə ehtiyacın olanda yanında bir adam olsun. Bu sənə lazımdır, Sidni, gərək baş sındırıb fikirləşəsən.

– Mən o barədə fikirləşərəm, – Sidni dedi.

XII fəsil

NƏZAKƏTLİ ADAM

Mister Strayver uzunmüddətli məzuniyyətə çıxıb Londonu tərk etməmişdən əvvəl doktorun qızını gözləyən xoşbəxtlik barədə xəbəri ona çatdırmaq istədi. Öz aləmində hərtərəfli götür-qoy edib belə bir nəticəyə gəldi ki, məsələni ya məhkəmələrin payız sessiyasından əvvəl, ya da Milad bayramından iki həftə sonra başlayan qısa tətil vaxtı həll etməlidir.

Gəldiyi nəticənin düzgünlüyü barədə onda zərrə qədər də şübhə yox idi. Məsələyə sırf hüquqi nöqteyi-nəzərdən yanaşanda gün kimi aydın görünürdü ki, nə iləsə razılaşmayıb mübahisə etməyə heç bir əsas yoxdur. Mister Strayver öz aləmində qurduğu bir məhkəmə prosesinin iştirakçısına çevrilmişdi: iddiaçı özüydü, cavabdeh isə qız tərəfiydi, qısa dinləmədən sonra hər iki tərəfin mövqeyini müəyyənləşdirən hakim iclasçıların məşvərət zalına keçib məsələni müzakirə etmələrini də lazım bilməyib elə məhkəmə zalındaca iddiaçının xeyrinə qərar qəbul edirdi. Bax belə, öz iddia ərizəsiylə bağlı işi məhkəmədə araşdıran hakim Strayver hesab edirdi ki, hər şey gün kimi aydındır, burada şübhə doğura biləcək heç nə yoxdur.

Məzuniyyətə çıxdığı ilk gündən əməli fəaliyyətə başlayan mister Strayver miss Manetti Voksholl bağlarına gəzintiyə dəvət elədi, təklifi qəbul olunmayınca qızı Renle bağına dəvət elədi, amma bu təklifi də qəbul olunmadı və nəhayət, özü şəxsən Sohoya gedib gələcək xeyirxah planını orada təntənəli şəkildə elan etmək qərarına gəldi.

Ona görə də məzuniyyətdə olduğu ilk gözəl yay günlərinin birində mister Strayver Templdən çıxıb Sohoya tərəf yollandı. Həmin gün

Templ darvazası tərəfdə – Sent Dunstan yaxınlığında onu görən hər kəs zəif adamları basabasda az qala ayaqlayaraq keçib gedən və artıq öz böyüklüyüylə Sohoya kölgə salan bu güclü adamın hər şeyə qadir olduğunu dərhal anlayırdı.

Onun yolu Tellson Bankın yanından keçirdi, bir tərəfdən bankın əmanətçisi kimi, digər tərəfdən də doktor Manettin yaxın dostu mister Lorrini görmək və Soho səmasını işıqlandırıb nura qərq etməli olan planı barədə onu da məlumatlandırmaq məqsədilə yolüstü oraya baş çəkmək fikrinə düşdü. Beləliklə, mister Strayverin itələdiyi qapı cırıldayıb açıldı, girəcəkdəki iki pilləni düşərək o, iki qoca kassirin yanından keçdi, kif iyi verən küncdə, rəqəmlərin yazılması üçün xətlər çəkilib qrafalara bölünmüş qalın bank kitablarının arasında oturmuş mister Lorriyə tərəf getdi; mister Lorri perpendikulyar dəmir barmaqlıqlı pəncərənin qarşısında elə oturmuşdu, sanki pəncərə özü də xətlərlə qrafaya bölünmüşdü ki, oraya rəqəmlər yazılsın, sonra da dünyada nə varsa, hamısı cəm şəklində bir yerə toplansın.

– Salam! – mister Strayver dedi. – Necəsiniz, mister Lorri? Ümidvaram ki, hər şey yaxşıdır.

Mister Strayver üçün çox xarakterik olan əsas xüsusiyyət ondan ibarət idi ki, istənilən yerdə, istənilən məkanda o çox böyük görünürdü. İndi də Tellson Banka girən kimi bir darısqallıq yaratdı, uzaq küncdəki qoca kassirlər başlarını qaldırıb narazı halda elə baxdılar, sanki mister Strayver onları qısnayıb divara sıxmışdı. Lap o tərəfdəki otaqda əzəmətlə oturub qəzet oxuyan bank sahibinin özü də narazı halda gözünü qəzetdən çəkib elə baxdı, elə bil Strayver başını onun məsuliyyət simvolu olan jiletinə dirəyib itələmiş, yerini dar eləmişdi.

Oturuş-duruşunda ehtiyatlı adam olan mister Lorri mövcud şəraitdə necə danışmağın nümunəsini göstərirmiş kimi özünəməxsus tərzdə: "Salam, mister Strayver. Necəsiniz, ser?" – deyib onun əlini sıxdı. Bank sahibinin gözü qarşısında müştəriylə əl tutan Tellson Bankın bütün işçiləri kimi, mister Lorri də mister Strayverin əlini elə sıxdı, sanki bunu öz adından yox, bankın adından edirdi.

– Sizə nəsə lazım idi, mister Strayver? – mister Lorri işgüzarcasına soruşdu.

– Yox, sağ olun, mister Lorri, heç nə lazım deyil. Mən elə-belə gəldim, sizə deyiləsi sözüm var.

– Hə, lap yaxşı, buyurun, – mister Lorri belə deyib qulağını ona tərəf yaxınlaşdırdı, eyni zamanda bir gözüylə uzaq küncdə oturmuş bank sahibinə baxdı.

– Məsələ beləbir ki, mister Lorri, – belə deyib o, əlləriylə piştaxtaya söykəndi, piştaxtanın isə lazım olandan iki dəfə geniş olmasına baxmayaraq, yenə darısqallıq hiss olunurdu, – mən indi gedirəm sizin o balaca, qəşəng dostunuz miss Manettə evlənmək təklif edəm.

– Oh, sən bir işə bax! – mister Lorri bərkdən dedi, çənəsini qaşıya-qaşıya şübhəylə həmsöhbətinə baxdı.

– Necə yəni "Oh, sən bir işə bax!", ser? – mister Strayver belə deyib geri çəkildi. – Siz bununla nə demək istəyirsiniz, mister Lorri?

– Mənim fikrimi bilmək istəyirsinizsə, – işgüzar kişi dedi, – fikrim dostyanadır və əlbəttə, ürəyiniz istəyən hər bir işdə sizə uğurlar arzulayıram. Həqiqətən beləbir, mister Strayver, – mister Lorri belə deyib başını elə qəribə silkələdi, sanki özündən asılı olmayaraq ürəyində dedi: "Oralar sənin üçün azlıq edəcək, çox azlıq edəcək!"

– Deməli, belə! – mister Strayver dedi, gözlərini bərəldib dərindən nəfəs aldı, əlinin biriylə stolu döyəclədi. – Mən sizin sözünüzdən bir şey anladımsa, qoy gözüm kor olsun!

Mister Lorri balaca parikini hər iki qulağına tərəf çəkib yerinə oturtdu, quş lələyindən düzəldilmiş qələmin ucunu dişlədi.

– Bu nə söhbətdir, ser? – mister Strayver gözünü ona zilləyib dedi. – Bəyəm mən o qıza yaraşmıram?

– Yaraşırsınız, ser, çox yaraşırsınız! – mister Lorri dedi. – Əgər siz özünüzü layiq bilirsinizsə, deməli, layiqsiniz və yaraşırsınız.

– Bəlkə, mövqe tuta bilməmişəm? – Strayver soruşdu.

– Oh! O barədə danışmaya bilərsiniz, mövqe tutmusunuz, özü də yaxşı mövqe tutmusunuz, – mister Lorri dedi.

– Bəs gələcəyim necə?

– Sizin gözəl gələcəyiniz barədə heç kimdə zərrə qədər də şübhə ola bilməz, – mister Lorri bu danılmaz həqiqəti məmnuniyyətlə etiraf etdi.

– Onda bəs nə olub, mister Lorri? – Strayver hiss olunacaq dərəcədə çaşqınlıq keçirən adam kimi soruşdu.

– Yaxşı! Mən... Siz onlara elə indi gedirsiniz? – mister Lorri soruşdu.

– Bəli, buradan birbaşa onlara gedirəm! – Strayver dedi və yumruğunu piştaxtaya vurdu.

– Mən sizin yerinizdə olsaydım, elə eləməzdim.

– Niyə? – Strayver dedi. – Aha, mən sizi tutmuşam. – Barmağını hədələyici tərzdə silkələdi. – Siz işgüzar adamsınız, nəsə bir səbəb olmasa, belə danışmazsınız. Səbəbi deyin. Siz niyə getməzdiniz?

– Bu cür incə məsələdə uğur qazanacağıma əmin olmasaydım, mən ora getməzdim, – mister Lorri dedi.

– Bəli də, işimiz var! – Strayver qışqırdı. – Siz lap ağını çıxartdınız!

Mister Lorri o tərəfdə oturmuş bank sahibinə nəzər saldı, sonra da incimiş Strayverə baxdı.

– Siz işgüzar adamsınız, yaşınız heç də az deyil, neçə illərdir bankda işləyirsiniz, – Strayver dedi, – bir tərəfdən tam müvəffəqiyyət qazanmaq üçün zəruri olan üç əsas şərti sadalayırsınız, digər tərəfdən də deyirsiniz ki, bəri başdan heç nə demək olmaz, çünki uğur qazanmaq üçün kifayət qədər əsas yoxdur! Siz hansı başla fikirləşib belə danışırsınız?! – Mister Strayver son cümləni elə dedi, sanki həmsöhbətinin çiyinləri üstündə baş olmadığını görsəydi, bu qədər təəccüblənməzdi.

– Mən işin uğurlu alınması deyəndə gənc ledini nəzərdə tuturam; biz burada hansısa arqumentləri sadalayır, hansısa səbəblərdən danışırıq, amma gənc ledinin onları qəbul edəcəyi barədə danışmırıq. Gənc ledi, əzizim ser! – mister Lorri bunu deyib yavaşca Strayverin qoluna toxundu. – Hər şey gənc ledidən asılıdır.

– Sizin sözünüzdən belə çıxır ki, – Strayver dirsəyiylə piştaxtaya söykənib dedi, – haqqında danışdığınız gənc ledi yelbeyin, hərdəmxəyal bir qızdır. Elədirmi, mister Lorri?

– Yox, mən elə demədim. Mister Strayver, sizə demək istəyirəm ki, – mister Lorri bu sözləri deyəndə rəngi qızardı, – mən kiminsə o gənc ledi barəsində hörmətsiz danışmasına yol vermərəm. Əgər tanıdığım adamlardan kimsə qız barədə burada, mənim yazı stolumun yanında hörmətsiz danışacaq qədər kobudluq eləməyə qadirdirsə, – tanışlarım arasında, yaxşı ki, beləsi yoxdur, – ona layiq olduğu cavabı verərdim, hətta bank sahibi özü də məni fikrimdən döndərə bilməzdi.

Bərk əsəbiləşmiş mister Strayverin qan damarları təhlükəli dərəcədə şişib az qalırdı partlasın; damarlarındakı qan, adətən, sakitcə axan mister Lorrinin də halı yaxşı deyildi.

– Mən sizə bunu demək istəyirdim, ser, – mister Lorri dedi. – Xahiş edirəm, mənim sözlərimi yanlış yozmayasınız.

Mister Strayver xətkeşin ucunu ağzına soxdu, sonra hansısa melodiyanın ritminə uyğun olaraq xətkeşlə dişlərini döyməyə başladı və yəqin ki, dişi ağrıdı. Nəhayət, ağır sükutu pozdu.

– Bu mənim üçün bir yenilikdir, mister Lorri. Siz mənə – Kral Məhkəməsinin vəkilinə, doğrudanmı, Sohoya gedib evlənmək təklifi etməməyi məsləhət görürsünüz?

– Siz məndən məsləhət istədiniz, elədirmi, mister Strayver?

– Bəli, məsləhət istədim.

– Çox yaxşı. Mən sözümü dedim və siz onu necə eşitmisinizsə, o cür də təkrar elədiniz.

– Onu deyə bilərəm ki, – Strayver kinayəylə güldü, – ha-ha! Ömrümdə belə şey eşitməmişəm, ha-ha! Yəqin ki, gələcəkdə də eşitməyəcəyəm.

– Məni düzgün başa düşün, – mister Lorri dedi, – işgüzar adam kimi bu cür incə məsələlərdən baş açmıram, belə işlər mənlik deyil. Amma yaşlı adamam, bir vaxtlar miss Manetti öz əllərimdə gəzdirmişəm, indi də həm qız özü, həm də atası hörmətimi saxlayır, mənim də onlara böyük hörmətim var, ona görə də bu barədə sizinlə danışmağı lazım bildim. Necə bilirsiniz, bəlkə, düz eləməmişəm?

– Yox, mən elə deməzdim! – Strayver dedi və fit çaldı. – Mən adi, sağlam düşüncə tələb edən işlərə üçüncü adamın müdaxilə etməsinə yol verə bilmərəm, bu iş ancaq mənə aiddir. Mən, sadəcə olaraq, sizin fikrinizi öyrənmək istədim. Sizin sözünüzdən isə belə çıxır ki, mənasız söhbətdir. Bu mənim üçün yenilikdir, amma, olsun ki, siz düz deyirsiniz.

– İcazənizlə öz fikrimi ifadə etmək üçün özüm söz seçərdim, – deyə mister Lorri yenə həyəcanlandı. – Məni düzgün başa düşün, ser. Hətta burada, Tellson Bankda da mənim sözlərimi kiminsə təhrif etməsinə yol vermərəm.

– Üzr istəyirəm! – Strayver dedi.

– Təşəkkür edirəm. Mister Strayver, səhv elədiyinizi başa düşmək sizin üçün ağır olardı, sizinlə bu barədə danışıb nəsə izah eləmək mister Manett üçün də ağır olardı, miss Manettin bu barədə sizinlə danışıb izahat verməsi lap çətin olardı. Siz özünüz də yaxşı bilirsiniz məni o ailədə necə qəbul edirlər, necə hörmət edirlər. Əgər etiraz eləmirsinizsə, sizin adınızı hallandırmadan və öz üzərimə heç bir məsuliyyət götürmədən verdiyim məsləhətin nə dərəcədə düzgün olub-olmadığını yoxlaya

bilərəm. Əgər mənim dediklərim sizə inandırıcı görünməsə, özünüz də yoxlaya bilərsiniz. Digər tərəfdən, əgər mənim dediklərim sizi qane eləsə, hər iki tərəfi lazımsız izahatlar verməkdən xilas etmiş olaram. Əlavə nəsə demək istəyirsiniz?

– Bu məsələni həll etmək üçün şəhərdə oturub sizi çoxmu gözləməli olacağam?

– Yox, çox gözləmək lazım deyil, cəmi bir neçə saata həll oluna bilər. Bu gün axşamtərəfi Sohoya gedərəm, oradan qayıdanda yolüstü sizinlə görüşərəm.

– Yaxşı, elədirsə, mən razıyam, – Strayver dedi. – Deməli, mən indi ora getmirəm; düzü, heç həvəsim də yoxdur. Şərtinizi qəbul edirəm: axşam sizi gözləyəcəyəm. Hələlik, sağ olun.

Mister Strayver sözünü tamamlayıb çevik hərəkətlə çevrildi, bankdan elə sürətlə çıxdı, onun yeli hörmət əlaməti olaraq ayağa durub baş əyən iki qoca bank işçisini az qala vurub-yıxacaqdı. Qocalıb gücdən düşmüş iki bank işçisinin baş əyməyinə gəlincə, onların bu cür baş əyməsi adət halını almışdı, hətta söz gəzirdi ki, bankdan çıxan müştəriyə baş əyib yola salandan sonra kontorda başqa adam olmayanda da baş əyirlər ki, işdir, gələn olsa, bu işi təzədən başlamalı olmasınlar.

Vəkil ağılsız adam deyildi və başa düşürdü ki, bankirin əlində kifayət qədər əsas olmasa, öz ehtimallarında bu qədər dərinə getməz. Heç gözləmədiyi halda ona çox böyük bir həb vermişdilər, istəməsə də, onu udmalı oldu.

– Yaxşı, eybi yoxdur, – həb boğazından keçəndən sonra mister Strayver öz vəkil barmağını Templə tərəf silkələyib hədə-qorxu gəldi, – mən sizin başınıza bir oyun açaram, adınız da yadınızdan çıxar.

Bu, Old Beyl vəkilinin adi taktiki gedişiydi, indi də belə deyən kimi kükrəyən qəzəbinin sakitləşdiyini hiss edirdi. Xəyalən də olsa, gənc lediyə müraciətlə dedi: "Hə, xanım qız, sən məni barmağına dolaya bilməzsən. Amma baxarsan mən sənə neyləyirəm".

Axşam saat 10 radələrində mister Lorri gələndə isə mister Strayver qəsdən stolun üstünə yığılmış kitabların, kağız-kuğuzların arasında itib-batmış kimi görünürdü, hətta elə təsəvvür yaranırdı ki, gündüzkü söhbəti unudub. Mister Lorrini görəndə təəccübləndi, çünki işə o qədər aludə olmuşdu ki, bankirin niyə gəldiyini ilk anda anlaya bilmədi.

– Deməli, məsələ belədir, – xoşməramlı səfir yarım saat çalışıb, axır ki, vəkili gündüzkü söhbətin üstünə gətirəndən sonra dedi, – mən Sohoya getdim.

– Sohoya getdiniz? – mister Strayver soyuqqanlıqla təkrar elədi. – Hə, doğrudan... Mən nə barədə fikirləşirdim!

– Gündüz sizinlə danışanda da mən şübhə eləmirdim, – mister Lorri dedi, – sizə dediyim söz öz təsdiqini tapdı və mən məsləhətimi təkrar edirəm.

– Tam səmimiyyətlə deyirəm ki, – mister Strayver dostyanalıqla dedi, – sizə görə, qızın atasına görə ciddi narahatçılıq keçirirəm. Ailə üçün bunun necə ağır olduğunu başa düşürəm. Amma gəlin bir də o barədə danışmayaq.

– Mən sizi başa düşmürəm, – mister Lorri dedi.

– Mən hesab edirəm ki, – Strayver sanki həmsöhbətini sakitləşdirmək üçün başını silkələyib dedi, – heç nə baş verməyib, heç nə, heç nə.

– Yox, elə demək düz deyil, – mister Lorri razılaşmadı.

– Mən sizi əmin edirəm ki, bunun heç bir əhəmiyyəti yoxdur. Ehtiyatsızlıq edib lazım olmayan yerdə sağlam düşüncə və tərifəlayiq şöhrətpərəstlik axtarmışam, amma fərasətli tərpənib ciddi səhvə yol verməmişəm; əslində, heç bir itki yoxdur. Gənc qadınların bu cür ağılsız hərəkətlərə yol verdikləri əvvəllər də çox olub, amma sonra nə olur? Dilənçi kökünə düşüb həyatlarından bezərək peşmançılıq içində yanıb qovrulurlar. Tam səmimiyyətlə etiraf edirəm ki, o barədə danışdığıma görə peşman olmuşam, çünki məsələyə soyuq başla yanaşanda görürəm ki, bunun mənə heç bir xeyri olmayacaqdı. Eqoizm nöqteyi-nəzərindən yanaşdıqda isə bu işin düzəlməməsinə sevinirəm, əks təqdirdə, qazanacağım bir şey də olmayacaqdı. Hər şey yaxşı qurtarıb. Mən özüm şəxsən o qıza heç bir təklif etməmişəm, belə baxanda bu, mümkün deyil və mən də, yəqin ki, o dərəcəyə çatıb elə bir addım atmazdım. Mister Lorri, yelbeyin qızların hərdəmxəyal fikirlərini nəzarətdə saxlamaq olmur, boş yerə əziyyət çəkib mütəəssir olmağa dəyməz. Gəlin o barədə danışmayaq. Yenə deyirəm: mənim onlara yazığım gəlir. Özümə gəlincə, nəticədən razıyam. Məsələni aydınlaşdırmaqda mənə kömək etdiyiniz üçün, düzgün məsləhət verdiyiniz üçün sizə minnətdaram; siz gənc ledini məndən yaxşı tanıyırsınız, ona görə də düz dediniz ki, yaxşı bir nəticə alınacağını gözləmək olmaz.

Mister Lorri çox gülünc bir vəziyyətə düşmüşdü, gözlərini döyə-döyə mister Strayverə baxır, heç nə başa düşmürdü. Vəkil isə xeyirxahlıq, mərhəmət, dəyanət və səbirdən dəm vura-vura onsuz da çaşmış bankiri daha da çaşdırır, eyni zamanda onu qapıya tərəf qısnayırdı.

– Heç narahat olmağa dəyməz, ser, – Strayver dedi. – Gəlin o barədə danışmayaq. Mənə göstərdiyiniz köməyə görə sağ olun, gecəniz xeyrə qalsın!

Harada olduğunu başa düşməyə macal tapmamış mister Lorri bir də baxdı ki, gecə vaxtı küçədə qalıb. Mister Strayver isə divanda dalı üstə uzanıb otağın tavanına baxırdı.

XIII fəsil

KOBUD ŞƏXSİYYƏT

Sidni Kartonun eyni harada açılsa da, doktor Manettin evində bu mümkün olmurdu. Bir il ərzində həmin evdə o, dəfələrlə olmuşdu, həmişə də qaşqabaqlı, bikef olurdu, bikarçılıqdan bilmirdi neyləsin. Hansısa söhbətə qoşulub danışanda yaxşı danışırdı, amma biganəlik hissinin doğurduğu bədbinlik buludu üstünə çöküb alın yazısı kimi uzaqlaşmaq bilmirdi; qəlbinin nuru hərdən o qaranlığı dəlib keçir, az da olsa, işartı görünürdü.

Amma, bununla belə, doktorun evi tərəfdəki küçələrə qarşı, evin yanından ötüb-keçən yol və cığırlara döşənmiş hissiyyatsız daşlara qarşı biganə deyildi. Bəzən heç olmasa şərab da keçici bir sevinc gətirə bilməyəndə gecələr özünü itirmiş, bədbəxt bir görkəmdə saatlarla bu tərəflərdə gəzib-dolaşırdı. Neçə tutqun səhərin gözü açılanda onun hələ də tək-tənha oralarda ləngiyib getmədiyini müşahidə etmək olardı; üfüqdən qalxmaqda olan günəşin şüaları hündür binaları və kilsələrin qüllələrini işıqlandırıb bir andaca onların arxitektura gözəlliyini nümayiş etdirəndə, həmin o sakit səhər vaxtı, olsun ki, onun da qəlbində unudulmuş və artıq əlçatmaz olan gözəl hisslər oyanıb baş qaldırırdı. Son vaxtlar onun Templ Kartdakı yoxsul çarpayısı əksər hallarda səhərəcən boş qalırdı, yorğun halda gəlib çarpayıya səriləndə isə bu çox çəkmirdi – bir neçə dəqiqədən sonra ayağa qalxır, yenə gedib o tərəflərdə dolaşırdı.

Mister Strayver "evlənmək fikrindən daşındığı" barədə öz çaqqalını xəbərdar edib Devonşirə gedəndən sonrakı dövrdə gözəl bir avqust günüydü, şəhərin küçələrindəki çiçəklərin görkəmi və qoxusu xəstələrin

halını yaxşılaşdırırdı, xəbislərin qəlbini yumşaldırdı, qocaları cavanlaşdırırdı, – həmin gün Sidni Soho tərəfdəki küçələrdə gəzib-dolaşırdı. Heç özü də bilmirdi neyləyir, nə axtarır, vaxt daxilindəki güclü istəyə tabe olan ayaqları sanki özləri qərar verdi və onu götürüb doktorun qapısının ağzına gətirdi.

Xidmətçinin müşayiətiylə yuxarı mərtəbəyə qalxan Sidni gördü ki, Lüsi evdə təkdir: otaqda oturub əl işi görürdü. Qız heç vaxt özünü onun yanında sərbəst hiss eləmirdi, indi də stol arxasında onunla üzbəüz oturanda hətta bir qədər tutuldu, söhbətə başlayan kimi üzünə baxanda isə onda nəsə bir dəyişiklik baş verdiyini hiss elədi.

– Deyəsən, siz özünüzü yaxşı hiss eləmirsiniz, mister Karton!

– Yaxşı hiss eləmirəm. Miss Manett, əslində, mənim həyat tərzim elədir ki, bu cür yaşayan adam heç vaxt özünü yaxşı hiss eləmir. Həyatda özünə düzgün yol seçməyib neylədiyini bilməyən mənim kimi avara adamdan yaxşı nə gözləmək olar?

– Suala görə üzr istəyirəm, amma, hər halda, soruşacağam: bu cür yaşamaq sizi bezdirmir, özünüzə yazığınız gəlmir?

– Allah şahiddir ki, xəcalət çəkirəm!

– Bəs elədirsə, onda həyat tərzinizi niyə dəyişmirsiniz?

Lüsi belə deyib nəvazişlə ona baxdı, amma Sidninin gözlərində yaş görəndə həm təəccübləndi, həm də kədərləndi. Qızın sualına cavab verəndə onun səsi də ağlayırdı.

– Artıq çox gecdir. Mən düzələ bilmərəm. Gələcəkdə daha da pis olacağam.

Sidni dirsəyini stolun üstünə qoyub əliylə gözlərini örtdü. Araya sükut çökdü; stol titrəyirdi.

Qız heç vaxt onu belə görməmişdi və çox mütəəssir oldu. Sidni baxmasa da, bunu hiss edirdi.

– Üzr istəyirəm, miss Manett. Sizinlə danışmaq istəyirdim, özümü saxlaya bilmədim. Məni dinləməyə vaxtınız varmı?

– Mister Karton, əgər bu sizə lazımdırsa, əhvalınızı yaxşılaşdıracaqsa, sizə az da olsa, xoşbəxtlik gətirəcəksə, buyurun, mən sizi dinləməyə hazıram!

– Mənə qarşı göstərdiyiniz bu nəzakətə və mehribançılığa görə minnətdaram, Allah köməyiniz olsun!

Mister Karton əlini üzündən çəkdi, kifayət qədər inamla danışmağa başladı.

– Qoy mənim dediklərim sizi qorxutmasın, diksindirməsin. Mən bu dünyada yaşamıram, çoxdan, hələ gənc ikən ölmüşəm.

– Yox, mister Karton! Mən əminəm ki, həyatınızın daha yaxşı dövrü irəlidədir, inanıram ki, siz özünüzə layiq olan həyatı yaşayacaqsınız.

– Miss Manett, özüm yaxşı bilirəm; bədbəxt ürəyimin dərinliklərində sirr olaraq gizləyib saxlasam da, yaxşı bilirəm, amma, hər halda, siz deyin, mən bunu heç vaxt unutmayacağam!

Miss Manettin rəngi qaçmışdı, bədəni əsirdi. Yaxşı ki, hər şeydən əlini üzmüş mister Karton özü onun köməyinə gəldi, amma bunu elə bir fədakarlıqla elədi ki, onların söhbəti gözlənilmədən tamam başqa səmtə yönəldi.

– Miss Manett, əgər siz qarşınızdakı adamın – mənim hisslərimə cavab verə bilsəydiniz, əyyaş, mənasız və həyatda öz yolunu azmış, özü özünü məhvə sürükləyən adam olduğunu bilə-bilə onun hisslərinə cavab versəydiniz, onu xoşbəxt etsəydiniz, elə həmin dəqiqə də o deyərdi ki, sizə qəm, kədər və rüsvayçılıqdan başqa heç nə vəd eləmir, özüylə birlikdə sizi də uçuruma sürükləyəcək. Ovcumun içi kimi bilirəm ki, sizin mənə qarşı heç bir yaxşı hissiniz ola bilməz, əslində, bunu heç arzulamıram da, hətta sevinirəm ki, bu, mümkün deyil.

– Mister Karton, dediklərinizi olmadan mən sizə necə kömək edə bilərəm? Bəlkə də, yersiz görünə biləcək ifadəyə görə üzr istəyirəm, dediklərinizi olmadan həyatınızı dəyişmək üçün nəsə edə bilərəmmi? Mənə olan inamınızı necə doğrulda bilərəm? Siz öz ürəyinizi mənə açdınız, yəqin bilirəm ki, başqa bir adama belə deməmisiniz, – xeyli tərəddüddən sonra qız ciddi bir kədərlə, göz yaşları içində dedi. – Bunun əvəzində mən sizə nə yaxşılıq edə bilərəm, mister Karton?

Sidni başını silkələyib dedi:

– Yox, miss Manett, mümkün deyil. Bir az da səbirli olub məni dinləyə bilsəydiniz, mümkün olan hər şeyi etmiş olardınız. İstəyirəm biləsiniz ki, siz mənim qəlbimin son əlçatmaz arzususunuz. Nə qədər uçuruma yuvarlanıb özümə qəsd eləmiş olsam da, hər dəfə buraya gəlib sizi atanızla birlikdə bu evdə – məhz sizin sayənizdə gözəl məkana çevrilmiş evdə görəndə artıq unudulmuş, hətta tamamilə ölmüş hesab etdiyim duyğuların oyanıb hərəkətə gəldiyini hiss edirəm. Sizi ilk dəfə gör-

düyüm gündən bəri vicdan əzabı məni ayağa qalxıb özünü düzəltməyə səsləyir, amma o səsi çoxdandır eşitmirdim, hətta elə bilirdim o əbədi olaraq elə susub ki, bir də heç vaxt məni narahat etməyəcək. Tutqun şəkildə olsa da, hələ tam formalaşmamış fikirlər gəlir ağlıma: tənbəlliyi, əyyaşlığı bir kənara qoyub ayağa qalxmaq, hər şeyi təzədən başlamaq, həyat mübarizəsində əzmlə döyüşmək istəyirəm. Amma bunlar hamısı boş xəyallardan, şirin yuxulardan başqa bir şey deyil, – yatıb yuxu görən adam oyanıb heç nəyə nail olmur, mən də heç nəyə nail ola bilmirəm. Amma istəyirəm biləsiniz ki, məndə baş verən bu dəyişikliyi siz yaratmısınız.

– Doğrudanmı, heç nə eləmək mümkün deyil, mister Karton? Bir də fikirləşin, yenə cəhd edin!

– Yox, miss Manett, çox çalışmışam, mənasızdır... Artıq bilirəm ki, mən ləyaqətsiz adamam. Fəqət istəyirəm biləsiniz; yəqin ki, bu da zəifliyin bir təzahürüdür. Hər necə olsa da, çox istəyirəm ruhuma hakim kəsildiyinizdən xəbəriniz olsun: siz yanıb bir qalaq külə çevrilmiş varlığımı alovlandıra bilmisiniz, amma çox gecdir, alov o külü közərdir, işıqlandırır, yandırıb tonqala çevirə bilmir, çünki yanası bir şey qalmayıb.

– Mister Karton, bu artıq mənim bədbəxtliyimdir ki, siz məni gördüyünüz gündən bəri əvvəlki dövrlə müqayisədə özünüzü daha bədbəxt hiss eləməyə başlamısınız...

– Elə deməyin, miss Manett, məni xilas etmək mümkün olsaydı, siz bunu bacarardınız. Siz mənim daha da pis olmağıma səbəb olmamısınız.

– Sizdə baş verən dəyişiklik barədə dediklərinizi nəzərə alsaq, – bilmirəm nə dərəcədə düz başa düşmüşəm və fikrimi ifadə edə bilirəmmi, – bu, hər halda, mənim təsirim olub, əgər elədirsə, xeyrinizə olacaq təsirim mümkündürmü? Necə bilirsiniz, sizin düzəlməyiniz üçün nəsə eləyə bilərəmmi?

– Miss Manett, çox yaxşı oldu ki, mən buraya gəldim, ürəyimi sizə açdım. İcazə verin həyatda düzgün yol tuta bilməyən mən ömrümün qalan illərində bir xatirə kimi yadımda saxlayım ki, ürəyimi sizə açdım, bu hadisə sizi kövrəltdi, hətta göz yaşı tökdünüz.

– Mən sizə yalvarıram, xahiş edirəm, mister Karton, inanın ki, belə olmağı yaxşıdır, bunun daha çox xeyri olacaq.

– Buna görə mənə yalvarmayın, miss Manett. Mən çox çalışmışam, özümə də yaxşı bələdəm. Sizi narahat elədim, amma az qalıb, son sözlərimi də deyib gedirəm. Mən öz qəlbimin sirrini sizə – gözəl və məsum bir insana açdım, istərdim inanam ki, bu sirr ikimizin arasında qalacaq: siz heç vaxt onu heç kimə deməyəcəksiniz. Deyin, mən buna əmin ola bilərəmmi?

– Əgər bu sizi qane edirsə, az da olsa, qəlbinizi sakitləşdirirsə, əmin ola bilərsiniz, heç kimə deməərəm.

– Siz bu sirri heç kimə, hətta ən yaxın, ən əziz hesab etdiyiniz adama da açmayacaqsınız, eləmi?

– Mister Karton, – qız həyəcan içində bir qədər fasilə verdi, – bu sizin sirrinizdir, mənim deyil; söz verirəm ki, ona hörmətlə yanaşacağam, əmin ola bilərsiniz.

– Çox sağ olun. Yenə deyirəm: Allah köməyiniz olsun.

Mister Karton belə deyib qızın əlini öz dodaqlarına yaxınlaşdırdı, sonra çevrilib qapıya tərəf getdi.

– Miss Manett, mən bu söhbətin üstünə bir də heç vaxt qayıtmayacağam; onu təzələmək, o barədə nəsə bir eyham vurmaq barədə fikirləşməyəcəyəm, buna əmin ola bilərsiniz. Elə hesab edin ki, mən elə indi ölmüşəm, bu sirri də özümlə o dünyaya aparmışam. Ölərkən yeganə gözəl xatirəm o olacaq ki, qəlbimin ən gizli, ən müqəddəs sirrini sizə etiraf etmişəm, mənim adım, səhvlərlə dolu həyatım sizin gözəl qəlbinizdə özünə yer tapıb. Bundan yaxşı nə ola bilər?!

Mister Karton bu sözləri deyərkən, əslində, özünün yanlış görüntüsü olan o biri Kartona heç bənzəmirdi, bu isə onun nə qədər səhv yolda olduğunu, özündəki gözəl keyfiyyətləri necə insafsızcasına məhv etdiyini bir daha göstərirdi. O sevrilib geri baxanda miss Manett də bu barədə fikirləşirdi; qız özünü saxlaya bilməyib ağladı.

– Özünüzü ələ alın! – Karton dedi. – Mən bu cür münasibətə, belə hisslərə layiq deyiləm, miss Manett. Bir-iki saatdan sonra düşük hisslər, adət elədiyim iyrənc həyat tərzi yenidən məni öz ağuşuna alacaq, öz səviyyəmdə olan adamların cərgəsinə aparacaq; mən buna nifrət etsəm də, özümlə bacarmıram. Özünüzü ələ alın! Mənə görə göz yaşı tökməyin, mən buna layiq deyiləm, küçədən keçən hansısa bədbəxt layiqdir, amma mən layiq deyiləm. Sizə olan münasibətim həmişə bu cür də qalacaq; o hissləri qəlbimin dərinliklərində gizlədəcəyəm, başqa cür

görünəcəyəm, amma hisslərim belə də qalacaq, heç nə dəyişməyəcək. Sonuncu xahişim budur ki, siz mənə inanasınız.

– İnanıram, mister Karton.

– Əlbəttə, yaxşı bilirəm ki, sizinlə mənim aramda keçilməz bir maneə, hətta deyərdim ki, uçurum var. Mən indi sizi sizinlə heç bir ümumi cəhəti olmayan, az qala tamam başqa bir dünyanın adamı olan qonaqdan azad edəcəyəm. Amma son sözümü demək istəyirəm; bəlkə də, onu demək lazım deyildi, amma söz özü içimdən qalxıb məcbur eləyir ki, deyim. Sizin özünüz üçün, eləcə də sizə əziz olan adamlar üçün həyatda əlimdən gələni etməyə hazıram. Əgər cəmiyyətdə tutduğum mövqe nə vaxtsa sizin üçün, sizə yaxın olan adamlar üçün nəsə eləmək imkanı yaradarsa, heç nədən çəkinmədən istənilən riskə gedib, istənilən qurbanı verməyə hazıram. Sizə daim sadiq olacaq bir insanı hərdən yad etməyi də unutmayın. Az qalıb, elə bir gün gələcək ki, sizi isti və gözəl yuvanıza daha əziz, daha güclü tellər bağlayacaq. Miss Manett, yanınızda oturub oynayan körpənin çöhrəsində xoşbəxt atasının cizgilərini görərkən, eyni zamanda o üzdə öz gözəlliyinizin də əks olunduğunu hiss edərkən yadınıza salın ki, sizə əziz olan o varlığı xilas etmək üçün heç nədən qorxub çəkinməyən bir insan da var bu dünyada!

Karton sözünü tamamladı, sonra da: "Xudahafiz! Allah sizə yar olsun!" – deyib çıxdı.

XIV fəsil

ƏMƏLİSALEH ADAM

Mister Ceremiyə Krançer Flit-stritdə stul qoyub oturmuşdu, bədheybət oğlu da böyrünü kəsdirib durmuşdu, hər gün onların gözü qarşısından neçə adam keçirdi, hərəsi də bir cür idi. Kim Flit-stritdə oturub bütün günü səhərdən axşamacan ora-bura gedən – bir qismi günəşin hərəkət istiqamətində şərqdən qərbə, bir qismi də qərbdən şərqə hərəkət edən, lakin son nəticədə bir-ikisi günəşin batdığı yerdə qırmızı rəngə boyanmış üfüqə doğru istiqamətlənən – böyük insan axınına baxsaydı, ya ağlı başından çıxar, ya da qulağı kar olardı!

Neçə yüzillər öncə bu yerlərin qədim sakinlərindən birinin elədiyi kimi – çayı keçmək əvəzinə, o kəndçi sahildə oturub gözləyirdi ki, su nə vaxt axıb qurtaracaq – mister Krançer ağzındakı saman çöpünü çeynəyə-çeynəyə gözünü zilləyib bu iki insan axınına baxırdı, amma baxmaqdan yorulmurdu. Hərdən də hansısa utancaq, adətən, orta yaşdan yuxarı olan dolubədənli bir qadına Tellson Bank tərəfdən küçənin o biri tərəfinə keçməyə kömək edən mister Krançerin gündəlik gəliri cüzi də olsa, artırdı. Düzdür, bu yoldaşlıq qısamüddətli olurdu, amma mister Krançer o darmacalda imkan tapıb xanıma deyirdi ki, çox böyük məmnuniyyətlə onun sağlığına içmək istəyir. Bu cür xeyirxah işlərə görə qadınlardan aldığı mükafatlar hesabına onun gəliri az da olsa, artırdı; bu hal indi də müşahidə olunurdu.

Vaxt var idi şair küçəyə çıxıb adamların gur olduğu yerdə stul qoyub oturur, gedib-gələnlərə baxaraq xəyala dalırdı. Düzdür, mister Krançer şair deyildi, amma o da adamların gur olduğu yerdə stul qoyub

oturmuşdu, ətrafına baxırdı, öz imkanı daxilində az da olsa, fikirləşir, xəyala dalırdı.

Bir dəfə adamların küçədə az olduğu vaxtda mister Krançer yenə öz stulunda əyləşib camaata baxırdı, tərslikdən, küçənin bu tərəfindən o biri tərəfinə keçmək istəyən, köməyə ehtiyacı olan bir nəfər də olsun qadın yox idi. Ata Cerri artıq şübhələnməyə başlamışdı ki, miss Krançer, öz adəti üzrə, yəqin ki, yenə "üzüqoylu" yıxılır ki, onun işləri yaxşı getməsin. Elə bu vaxt mister Krançer gördü ki, bir dəstə adam Flit-stritdən keçib günbatan tərəfə gedir; diqqətlə baxanda isə gördü ki, bu adamlar kimisə dəfn etməyə aparırlar, bununla belə, adamlar bu dəfn mərasimindən narazıydılar, hətta qışqırıb öz etirazlarını bildirirdilər.

– Oğlum Cerri – mister Krançer övladına müraciət elədi, – deyəsən, kimsə ölüb, basdırmağa aparırlar.

– Ura-a! Kimsə ölüb! – oğlan qışqırdı. Oğlanın "ura!" deyib qışqırmasında nəsə sirli bir məna var idi, bu, atanın xoşuna gəlmədi, dərhal da oğlunun qulağı qarışıq sifətinə bir qapaz ilişdirdi.

– Nə anqırırsan? Nədir, nə olub, nə ura-ura salmısan? Başdanxarab, mən sənin atanam, nə demək istəyirsən? – mister Krançer oğluna tərs-tərs baxıb deyindi. – Buna bax, bunun ura deməyinə bax! Bir də elə danışdığını eşitsəm, şiltimini ataram! Eşitdin nə dedim?

– Mən neylədim ki? – balaca Cerri sifətini və qulağını əliylə sürtə-sürtə dedi.

– Buna bax, – mister Krançer dedi, – "mən neylədim ki?" deməyinə bax! Tez ol, stulun üstünə dırmaş, bax gör adamlar orada neyləyirlər.

Oğlan əmri yerinə yetirdi. Dəstə yaxınlaşmaqdaydı, kasıb-kasad faytonu və ondan da kasıb görünən cənazəni müşayiət edən adamlar qışqırır, fit çalırdılar; faytonda bu cür mərasimlərə xas olan ciddi görkəmli paltar geyinmiş cəmi bir nəfər oturmuşdu. Faytondakı adam özü də düşdüyü vəziyyətdən narahat idi, çünki hər tərəfdən üstünə gələn insan axını get-gedə böyüməkdəydi, adamlar onu lağa qoyur, gülür, ağız-burunlarını əyirdilər, "Buna bax! Özünü dartıb oturmağına bax! Fırıldaqçı! Yalançı!" – deyirdilər, hətta elə sözlər işlədirdilər ki, onları təkrar eləməyə adam xəcalət çəkir.

Dəfn mərasimləri mister Krançerin diqqətini həmişə cəlb edirdi, kimisə dəfn eləməyə aparan izdiham gəlib Tellson Bank tərəfdən keçəndə o özünü yığışdırır, nəsə bərk həyəcanlanırdı. Kimisə dəfn

etməyə aparan bugünkü dəstə də, təbii ki, onun diqqətini daha çox cəlb etmiş, daha çox həyəcanlandırmışdı, odur ki qaçaraq gəlib yanından ötən ilk kişidən soruşdu:

– Qardaş, bu nədir belə? Camaat niyə belə eləyir?

– Bilmirəm, – kişi dedi. – Xəbərçilər! Fırıldaqçılar! Yalançılar!

Mister Krançer başqa bir kişiyə müraciət elədi:

– Dəfn eləməyə apardığınız kimdir?

– Bilmirəm, – kişi dedi, eyni zamanda da əlləriylə ağzını döyəcləyib heyrətamiz həvəs, ilham və coşquyla qışqırdı: – Satqınlar! Fırıldaqçılar! Qurumsaqlar!

Nəhayət, daha çox məlumatlı bir kişi bu tərəfdən keçəndə nəyəsə ilişib ləngidi, mister Krançer fürsəti əldən vermədi, o kişidən soruşub öyrəndi ki, Rocer Klay adlı bir nəfəri dəfn etməyə aparırlar.

– Bəyəm o, xəbərçiydi? – mister Krançer soruşdu.

– Old Beylin xəbərçisiydi, – kişi dedi, dərhal da qışqırdı: – Xəbərçi! Old Beyl xəbərçisi! Fırıldaqçı!

İştirakçısı olduğu məhkəmə prosesi Cerrinin yadına düşdü və o da həyəcanla qışqırdı:

– Düzdür! Mən onu məhkəmədə görmüşəm. Deməli, ölən odur?

– İt kimi gəbərib, – həmin kişi dedi. – Ölməli köpəkoğluydu. Hamısı ölsə, yaxşı olardı! Satqınlar! O tərəfə dartın, sürüyün! Fırıldaqçılar!

Məqbul sayıla biləcək başqa bir ideya yox idi deyə kiminsə qışqırıb dediyi sözlər kütlə tərəfindən həvəslə qəbul olundu, hamı xorla qışqırıb dedi: "Dartın, sürüyün!" Dərhal da onun icrasına başladılar: adamlar hər tərəfdən axışıb faytonu elə dövrəyə aldılar ki, ekipaj dayanmalı oldu. Faytonun qapıları açılanda cənazəni müşayiət edən adam özü kütlənin qucağına atıldı, amma o elə qorxmuşdu, elə həyəcanlıydı ki, cəld tərpənib bir göz qırpımındaca adamların əlindən çıxdı, dar küçələrin biriylə qaçıb uzaqlaşdı; pencəyi, şlyapası, şlyapasının uzun lenti, ağ cib dəsmalı və yas mərasiminin digər simvolları isə ora-bura səpələnib qaldı.

Orada-burada düşüb qalmış bu şeyləri adamlar çox böyük məmnuniyyətlə tikə-tikə parçalayıb atdılar, bunu görən dükan sahibləri tez dükanları bağladılar, çünki o vaxt bu cür izdihamdan hamı qorxurdu – onlardan nə desən gözləmək olardı. Adamlar cənazəni dövrəyə alıb dartaraq onu yerə salmağa hazırlaşdıqları vaxt kiminsə ağlına çox

cəlbedici bir fikir gəldi: cənazəni qəbiristanlığa çatanacan yol boyu rəqslə, deyib-gülüb şənlənməklə, mahnı oxumaqla müşayiət eləmək heç də pis olmazdı. Bu təklif adamların da xoşuna gəldi; dərhal yeddi-səkkiz nəfər faytonun içinə doluşdu, on-on iki adam yanlardan yapışdı, bir o qədər həvəskar da bir göz qırpımındaca faytonun damına dırmaşdı. Cerri Krançer faytonu müşayiət edən ilk könüllülər arasında idi, amma Tellson Bankın pəncərələrindən boylanıb baxanlardan kiminsə onu görməməsi üçün can-dildən çalışıb pırpız başını faytonun daldasında gizlədirdi.

Dəfn bürosu işçiləri öz vəzifə borclarını yerinə yetirərək bu hərəkətlərə qarşı etiraz elədilər, amma təhlükəli dərəcədə yaxından axan çayın soyuq nəfəsi və izdiham iştirakçılarının bəzi adamları ağıllandırmaq üçün onların suya basılmasını tələb edən qışqırtıları bu zəif etiraz səslərini tez bir zamanda susdurdu. Görkəmini dəyişib başqa cür olmuş dəfn korteji yola düzəldi, faytonçunun yerində tüstü borularını təmizləyən kişi oturmuşdu, əsl faytonçu isə onun yanında əyləşib ancaq bəzi məsləhətlər verirdi, amma arxada oturanlar diqqətlə baxıb onun hərəkətlərinə göz qoyurdular; perajkisatan öz şefiylə birlikdə keçib öndə oturdu. Strend tərəfdə dəfn mərasiminə o vaxtların populyar küçə tiplərindən olan ayıgəzdirən də qoşuldu; onun qara ayısının tükü tökülüb keçəlləşsə də, mərasimə qoşulub adamların arasıyla yanını basa-basa yeriyəndə mərasimə daha ciddi və təntənəli görkəm verdi.

Mərasim iştirakçıları pivə içir, qəlyan çəkir, mahnı oxuyub bağırır, özlərini guya qəm-qüssəyə batıb dərddən üzülmüş kimi göstərirdilər və bu başıpozuq dəstə küçəylə irəlilədikcə ona yeni adamlar qoşulurdu; onların yaxınlaşdığını görən dükan sahibləri dərhal qapıları bağlayıb aradan çıxırdılar. Mərasimin son dayanacaq yeri xeyli aralıdakı çölün ucqarında yerləşən Müqəddəs Pankrat kilsəsiydi, ora çatan kimi də adamlar qəbiristanlığın içinə doluşdular ki, Rocer Klayı torpağa tapşırsınlar. Nəhayət, bu qeyri-adi, amma iştirakçıların ürəyincə olan dəfn mərasimi sona yetdi.

Ölünü dəfn eləyəndən sonra da mərasim iştirakçıları nəsə yeni bir məzhəkə çıxarıb əylənmək istəyirdi, kimsə yaxşı bir təklif verdi (bəlkə də, dəfn mərasimini şənliyə çevirməyi təklif edənin özüydü) ki, gəlin ötüb-keçən adamları saxlayıb Old Beylin xəbərçisi olmaqda şübhəli bilinən şəxs kimi sorğu-suala tutaq, beləsini tapsaq, divan tutub olub-

qalan hirsimizi də onun üstünə tökərik. Küçədən keçən xeyli adam saxlayıb dindirdilər, onlarla çox kobud rəftar elədilər, ömründə bir dəfə də olsun Old Beylə ayağı dəyməyən günahsız insanları döyüb əzişdirdilər. Bundan sonra pəncərə şüşələrinin sındırılması üzrə yarış başladı, daha sonra restoran və kafelərin soyulub talan edilməsinə keçid çox asan, təbii bir məsələ oldu. Bir neçə saat bu cür əyləndilər, xeyli kottec və həyət divarı vurub yıxdılar; dəlisov davakarlar taxta və dəmir parçalarıyla, dəyənəklərlə silahlanmışdılar. Birdən kimsə dedi ki, polis gəlir. Bu xəbər yayılmamışdan əvvəl də adamlar dağılışmağa başlamışdılar. Polis, bəlkə, gəldi, bəlkə də, gəlmədi, amma bu cür hallarda həmişə olduğu kimi küçədə toplaşanlar xeyli qışqırıb nəsə bir çaxnaşma salandan sonra dağılışıb gedir, indi də belə oldu.

Mister Krançer dağıntı və talançılıq yarışlarında iştirak etmədi, qəbiristanlıqda ləngiyib qəbirqazanlarla və dəfn bürosunun işçiləriylə söhbət edir, onlara öz təəssüfünü bildirirdi. Qəbiristanlığın ab-havası ona sakitləşdirici təsir eləmişdi; yaxınlıqdakı kafedən tənbəki əldə eləmişdi, indi də qəlyan çəkir, qəbiristanlığın ərazisinə baxır, dəmir barmaqlıqları diqqətlə nəzərdən keçirirdi.

– Cerri, – mister Krançer adətən olduğu kimi mızıldayıb öz-özüylə danışdı, – sən həmin gün öz gözünlə gördün ki, Klay cavan və güclü bir adam idi.

Qəlyanını çəkib qurtarandan sonra mister Krançer qəbiristanlıqda bir qədər də ləngiyib ora-bura baxdı, fikirləşdi, xəyala daldı, sonra ayağa durub geri qayıtdı ki, Tellson Bank bağlanmamışdan bir saat əvvəl öz iş yerində olsun. Bəlkə də, ölüm və həyat barədə uzun-uzadı fikrə dalmaq onun qaraciyərinə təsir eləmişdi, ola da bilər ki, lap əvvəldən səhhətində problem olub, ya da tanınmış böyük adama öz hörmətini ifadə etmək istəyirdi, – hər necə olsa da, o, yolüstü dönüb tanış həkimə, o dövrün məşhur cərrahına baş çəkməyi də unutmadı.

Gənc Cerri postda atasını əvəz eləmişdi, dərhal məlumat verib dedi ki, onun burada olmadığı müddətdə heç bir tapşırıq alınmayıb. Bank bağlandı, qoca bankirlər binanı tərk etdilər, gözətçi qapının ağzında öz yerini tutdu, mister Krançer oğluyla birlikdə evinə getdi.

– Eşit, gör nə deyirəm! – evin astanasından içəri girən mister Krançer arvadına dedi. – Öz əlinin zəhmətiylə çörək qazanan zəhmətkeş bir adam kimi səni xəbərdar edirəm, əgər bu gecə də işim düz gətirməsə,

zərrə qədər də şübhəm qalmayacaq ki, sən öz dualarınla mənə qarşı yenə bir hoqqa çıxarmısan. Bax deyirəm: elə olsa, sənə bir toy tutacağam, sanki mənə qarşı dua elədiyin yerdə gəlib səni tutmuşam.

Çaşıb-qalmış missis Krançer dinməzcə başını silkələdi.

– Gözümün qabağında nə durmusan? – mister Krançer incik halda dedi.

– Mən bir söz demədim.

– Nə fərqi var, ürəyində deyirsən. Sən dua elədiyin kimi, o cür də öz-özünə danışırsan, fikirləşirsən. Həmişə də çalışırsan bir yol tapıb mənim işimi əngəlləyəsən. Əl çək bu işlərdən.

– Baş üstə, Cerri.

– Baş üstə, Cerri, – çay içməyə oturan mister Krançer arvadını yamsıladı. – Eh! Bu da sənə baş üstə, Cerri. Sənə nə var ey, bir onu bilirsən ki, "baş üstə, Cerri" deyirsən, vəssalam.

Mister Krançer elə-belə deyinirdi, əslində, bunun elə bir mənası da yox idi; adətən, çox adamın elədiyi kimi, o da bunu qəsdən, içindəki narazılığı boşaltmaq üçün eləyirdi.

– Sən, bir də sənin "baş üstə, Cerri" deməyin bəsimdir, – mister Krançer belə deyib yaxmacdan iri bir dişləm aldı, nəlbəkidəki çayı iri bir qurtumla içib elə udqundu, elə bil böyük bir ilbizi uddu. – Eh! Hər halda, mən bu fikirdəyəm. Səni də tanıyıram.

– Sən bu gecə harasa gedəcəksən? – mister Krançer yaxmacın o biri tikəsini çeynəyib udandan sonra arvadı soruşdu.

– Hə, gedəcəyəm.

– Mən də sənlə gedimmi, ata? – Cerrinin oğlu soruşdu.

– Yox, olmaz. Mən balıq tutmağa gedirəm; anan bilir hara gedirəm. Mən ora getməliyəm, balıq tutmağa getməliyəm.

– Sənin tilov qarmaqların yaman paslanıb, ata. Düz demirəm?

– Sən elə şeylərə fikir vermə.

– Ata, evə balıq gətirəcəksən?

– Əgər gətirməsəm, sabah dişinin dibini soracaqsan, – evin kişisi başını silkələyib dedi. – Məni sorğu-suala tutduğun bəsdir. Mən evdən çıxanda sən artıq yatmış olacaqsan.

Mister Krançer həmin gün axşam diqqətlə missis Krançerə göz qoydu, hər addımını izlədi, qaşqabağını töküb lazım gəldi-gəlmədi danışaraq onun başını qatmağa çalışdı ki, arvadı əks dualarıyla onun işinə pəl

vurmaq fikrinə düşməsin. Bu məqsədlə o, oğlunu da işə cəlb eləyib tapşırdı ki, anasını gözdən qoymasın, danışdırıb başını qatsın; eyni zamanda qadının başqa şey barədə fikirləşməyə vaxtı olmasın deyə ona iradlar tutdu, – sözün qısası, yazıq arvadın başına turp əkdi. Duaların gücünə onda elə güclü bir inam vardı ki, yəqin, ən qatı dindar özü də duanın gücünə belə inanmır. Bu, təxminən ona bənzəyir ki, cin-şəyatinə əsla inanmayan qatı ateist cin-şəyatin barədəki söhbətdə iştirak etməkdən də qorxur.

– Bax bəri başdan deyirəm, – mister Krançer dedi. – Sabah heç bir oyunbazlıq olmayacaq. Əgər mən öz halal zəhmətimlə bir bişirimlik ət qazana bilsəm, siz yavan çörək yeməyəcəksiniz və o məsələyə toxunmayın! Əgər mən öz halal zəhmətimlə qazandığım pulla pivə alıb gətirirəmsə, su laqqıldatmaq lazım deyil. Adam gəmidə oturub gəmiçiylə dava eləməz. Ağa deyir sür dəyərə, sür dərəyə. Yadında saxla ki, burada gəmiçi mənəm.

Nəfəsini dərib yenə deyinməyə başladı:

– Bu da iş tapıb özünə, halal çörəyimizdən üz çevirir. O qədər naşükürlük edirsən ki, hərdən bir tikə çörək də tapa bilmirik. Gözünü aç, bir yaxşı-yaxşı ona bax, gör nə günə qalıb: bir dəri, bir sümükdür. Sən anasan, bir ana kimi də əsas vəzifən uşağı vaxtlı-vaxtında yedirdib sağlam böyütməkdir. Amma sən bunu bilirsənmi?

Bu söz oğul Cerrinin yaralı yerinə toxundu və o, qayğıkeş atanın toxunduğu məsələni – övlad qarşısında öz analıq borcunu yerinə yetirmək üçün dəridən-qabıqdan çıxmalı olduğunu, bu məsələyə biganə yanaşmağın düzgün olmadığını anasına dedi, təkrar elədi, zəhləsini tökdü.

Krançerlər ailəsinin bir axşamı da belə keçdi. Nəhayət, oğul Cerriyə yatmaq əmri verildi, anaya da eyni göstəriş verildi. Mister Krançer xeyli müddət tək oturub qəlyan çəkdi. Vaxt keçdi, axır ki, saat 1 oldu. Gecənin gec vaxtı o, kreslodan qalxıb cibindən açarı çıxartdı, şkafı açdı, oradan bir torba və münasib ölçülü lom götürdü; kəndir, zəncir və digər balıqçı ləvazimatı çıxartdı. Bütün bu şeyləri çox məharətlə ora-burasına taxıb yerbəyer edəndən sonra missis Krançerə hədə-qorxu gəldi, lampanı söndürüb otaqdan çıxdı.

Balaca Cerri yatmağa gedəndə özünü elə göstərdi ki, guya paltarını soyunur, amma paltar əynində yerinə girib uzanmışdı, atası evdən çıxan

kimi o da yataqdan durdu. Qaranlıq otaqdan çıxıb gözə çarpmadan pilləkənlə düşdü, həyətə çıxdı, sonra da atasını qarabaqara izləyərək küçələrdən keçib getdi; onun yenidən geri qayıdıb evə gəlməsində heç bir çətinlik yox idi, çünki binada çox adam yaşayırdı deyə ümumi giriş qapısı bütün gecə açıq olurdu.

Gecə-gündüz tər töküb çalışaraq çörək qazanan atasının gecələr nə işlə məşğul olduğunu öz gözüylə görmək, onun sirrinə bələd olmaq istəyiylə alışıb-yanan gənc Cerri binaların böyrünə, divarlara, həyət qapılarına qısıla-qısıla o qədər yaxından keçirdi, bu yaxınlıq yalnız onun bir-birinə bitişmiş kimi görünən gözlərinin arasındakı məsafəylə müqayisə oluna bilərdi. Möhtərəm valideyn şimal tərəfə dönüb bir az getmişdi ki, İsaak Uoltonun[1] mükəmməl balıqçılarından olan bir nəfər də ona qoşuldu; onlar indi birlikdə üzü şimala tərəf gedirdilər.

Evdən çıxdıqdan yarım saat sonra onlar göz qırpan lampaları arxada qoydular, kirpikləri bir-birinə yapışan gözətçinin gözündən yan keçdilər, boş çöllükdəki yola çıxdılar. Burada onlara üçüncü balıqçı da qoşuldu, həm də bu elə səssiz, elə də qəflətən baş verdi ki, özündən asılı olmayaraq, gənc Cerrinin ağlına belə bir fantastik fikir gəldi: yəqin, ikinci balıqçı hansısa sirli qüvvənin təsiriylə ikiyə bölünüb.

Üç kişi gedir, gənc Cerri də onların dalınca düşüb izləyirdi. Nəhayət, yolun üstünə tərəf əyilmiş yamaca çatıb dayandılar. Yamacın lap yuxarısındakı dəmir barmaqlıqlı uçuq, kərpic divar elə də hündür deyildi. Dikdir yamacın və divarın kölgə saldığı yerdə balıqçılar yoldan çıxıb bu tərəfdə 10 futa yaxın hündürə qalxmış divar boyu uzanan cığırla üzüyuxarı getdilər. Küncə qısılıb baxan gənc Cerri buludların arasından boylanan Ayın işığında öz möhtərəm atasının dəmir barmaqlığın üstündən çox məharətlə aşıb keçdiyini aydınca gördü. Atasından sonra ikinci balıqçı, sonra da üçüncü balıqçı dırmaşıb dəmir barmaqlığın üstündən aşaraq o tərəfə keçdi. Onların üçü də darvazanın içi tərəfdən yavaşca tullanıb yerdə uzandı, bir müddət hərəkətsiz uzanıb qaldılar, yəqin ki, ətrafı dinşəyirdilər. Sonra da dizləriylə dirsəkləri üstündə imək-ləyə-imək-ləyə irəli getdilər.

Növbə gənc Cerrinin idi: o nəfəsini çəkib darvazaya yaxınlaşdı. Küncə qısılıb baxanda gördü ki, balıqçılar otların arasıyla sürünə-sürünə

[1] İsaak Uolton XVIII əsrdə yaşamış ingilis yazıçısıdır, "Mükəmməl balıqçı" əsərinin müəllifi kimi şöhrət qazanıb.

gedirlər; bura böyük bir qəbiristanlıq idi, hara baxırdın ağ libas geyinib dayanmış kabuslara oxşayan başdaşları görünürdü, kilsə qülləsinə gəlincə, o, kabuslar arasında nəhəng kabusa oxşayırdı. İməkləyərək sürünüb getməkdə olan balıqçılar çox uzağa getmədilər, axır ki, dayanıb ayağa qalxdılar. Sonra da balıq tutmağa başladılar.

Balıqçılar əvvəlcə balığı belin köməyi ilə tutdular. Sonra Cerrinin möhtərəm atası böyük qapaqaçana oxşayan bir alətlə işləməyə başladı. Balığı hansı vasitəylə tutmaqlarından asılı olmayaraq, onlar çox səylə və böyük məharətlə işləyirdilər, gənc Gerri də dayanıb baxırdı. Birdən kilsə zənginin tükürpərdici səsi onu diksindirib bərk həyəcanlandırdı, eynilə atasının pırpız saçları kimi, qorxudan onun da tükləri biz-biz oldu.

Daha çox görüb-götürmək həvəsi gənc Cerrinin qorxu hissini üstələdi və o, buradan uzaqlaşmaq, çıxıb getmək əvəzinə, bir az da qabağa getdi. Balıqçılar can-dildən işləyir, balıq tuturdular. Gənc Cerri ikinci dəfə dəmir barmaqlıqların arasından baxanda ona elə gəldi ki, balıqçılar artıq nəsə tutublar. Haradasa aşağıdan gələn iniltili xarçıltı səsi eşidilirdi, balıqçılar əyilmiş qamətlərini düzəldib nəsə çox ağır şeyi dartaraq sürüyürmüş kimi güc verirdilər. Nəhayət, ağır yükü çəkib yuxarı qaldırdılar. Balıqçıların dartıb yuxarı qaldırdığı şeyin nə olduğunu gənc Cerri yaxşı bilirdi, amma öz gözüylə görəndə ki, möhtərəm atası yuxarı qaldırılan şeyin qapağını açır, çox bərk qorxdu, dəhşətə gəldi, çünki belə şeyi ömründə birinci dəfəydi görürdü; dəli kimi yerindən sıçrayıb götürüldü, düz 1 mil bu cür qaçandan sonra dayandı.

Bu nəsə qeyri-adi bir qaçmaq idi, əgər kəsilməkdə olan nəfəsi imkan versəydi, yəqin ki, dayanmayacaqdı. Ona elə gəlirdi ki, bayaq gördüyü tabut dalınca düşüb qaçır; onu görmürdü, amma görürmüş kimi aydınca təsəvvür edirdi: qalxıb dik dayanaraq, var gücüylə qaçaraq dabanqırdı gəlir və budur, artıq çatıb, hoppanıb yan tərəfə keçir, yəqin ki, əlindən tutmaq istəyir; özü də çox inadkardır, bunun əlindən qurtarmaq mümkün olmayacaq. Bu nəsə görünməmiş bir şeydir, hər yerə baş vuran iblisdir! Gənc Cerri ondan yaxa qurtarmaq üçün qaranlıq dalanlardan çıxıb açıq yolla qaçır, tabutsa əl çəkmir, üfürülüb şişmiş, qanadsız, quyruqsuz kağız ilan kimi atıla-atıla onun dalınca gəlir. Qapıların ağzında gizlənib dəhşətli çiyinlərini divara sürtür, onları qulaqlarına tərəf elə dartır, elə bil gülür; yolun kölgə düşən qaranlıq yerlərində uzanıb

gizlənir ki, gənc Cerrinin ayağı ona ilişib büdrəsin. Bütün yol boyu tabut hoppana-hoppana dalınca düşüb onu qovdu; dabanqırdı elə gəlirdi, az qalırdı tutsun. Gənc Cerri öz evlərinin qapısına çatanda yorulub əldən düşmüşdü, güclə ayaq üstə dayanırdı, belə demək mümkünsə, yarımcan idi. Tabut burada da ondan əl çəkmədi, pilləkənlə yuxarı qalxdı, hər pilləni taqqıldatdı, onunla birlikdə otağa daxil oldu, yorğanın altına girdi, sonra da qalxıb ağır daş kimi sinəsinə çökdü; sonra balaca Cerri yuxuya getdi, tabut isə hələ də onun sinəsində oturmuşdu.

Hava işıqlaşmışdı, amma günəş hələ üfüqdən qalxmamışdı; atasının qonşu otaqdan gələn səsi gənc Cerrini yuxudan ayıltdı, gecə çox pis yatmışdı. Atasının işləri, deyəsən, yenə yaxşı getmirdi; gənc Cerri bunu dəqiq bilmirdi, amma əgər mister Krançer arvadının qulağından yapışıb başını çarpayının qırağına vururdusa, bunun nəsə ciddi bir səbəbi olmalıydı.

– Mən sənə dedim axı, – mister Krançer dedi, – dedim axı! Adama neçə dəfə deyərlər?

– Cerri, Cerri, Cerri! – qadın sızıldayıb yalvardı.

– Sən mənim işimə əngəl törədirsən, ziyan vurursan, – Cerri dedi, – məni də, tərəfdaşlarımı da ziyana salırsan. Sən məni saymırsan, sözümə əməl eləmirsən, eləmi?

– Mən əlimdən gələni edirəm ki, sənə yaxşı arvad olum, Cerri, – yazıq qadın göz yaşları içində dedi.

– Ərinin işini əngəlləməyi deyirsən? Budurmu sənin yaxşı arvad olmağın? Kişini saymamaq, ən vacib məsələlərdə onun sözünü qulaqardına vurmaqdır yaxşı arvad olmaq?

– Sən əvvəllər bu cür dəhşətli işlərlə məşğul olmurdun, Cerri.

– Yaxşı, bəsdir, – mister Krançer arvadının sözünü kəsdi. – Arvadsan, get öz işinlə məşğul ol, kişinin hansı işi nə vaxt gördüyünün hesabatını aparma. Sözəbaxan, abırlı arvad ərinin işinə burnunu soxmaz. Sən özünü dindar adam hesab edirsən? Əgər dindar arvad sənsənsə, onda dindar olmayanı göstər mənə! Bir qadın kimi öz vəzifənin nədən ibarət olduğu barədə sənin anlayışın da yoxdur, bunu sənin beyninə yeritmək mümkün deyil, – belə bir işə girişmək Temza çayının dibinə mıx çalmaq kimi mənasız bir iş olardı.

Ailədaxili mübahisə zamanı yavaş səslə danışan zəhmətkeş ər palçığa bulaşmış ayaqqabılarını çıxardıb küncə atdı, özü də döşəməyə uzandı. Gənc Cerri öz otağından gizlicə boylanıb görəndə ki, atası yastıq əvəzinə paslı əllərini başının altına qoyaraq arxası üstə uzanıb, qayıdıb təzədən yerinə uzandı, tez də yuxuya getdi.

Stulu qoltuğunun altında tutaraq Flit-stritin güntutan tərəfindən atasının yanına düşüb gedən gənc Cerri ötən gecənin zülmət qaranlığında onu qovub izləyən tabutdan xilas olmaq üçün nəfəsi kəsilə-kəsilə qaçan oğlana oxşamırdı. Gündüz işığı onu yenidən hiyləgər və bic oğlana çevirmişdi, bütün vücudunu lərzəyə salmış qorxu hissi gecənin qaranlığıyla birlikdə yox olub getmişdi və yəqin ki, həmin o gözəl səhər vaxtı Flit-stritdə, eləcə də London şəhərində çox adam belə bir hiss keçirirdi.

– Ata, – işdir, birdən atası əlini uzatsa, tuta bilməsin deyə arada məsafə saxlayan, eyni zamanda həm də, hər ehtimala qarşı, stuldan bəlgə kimi istifadə edən gənc Cerri dedi, – xortlamış adam nə deməkdir?

Mister Krançer cavab verməmişdən əvvəl ayaq saxlayıb küçənin ortasında dayandı.

– Mən haradan bilim?

– Mən elə bilirdim sən hər şeyi bilirsən, ata, – oğlan sadəlövhlüklə dedi.

– Hm! Yaxşı, – mister Krançer yenidən hərəkətə gəlib yeriməyə başladı, şlyapasını qaldırdı ki, pırpız saçlarına təmiz hava dəysin, – yəqin ki, alış-verişlə məşğul olan adamdır.

– Əsasən, o hansı malla alış-veriş eləyir, ata? – deyə oğlan əl çəkmirdi.

– Demək olar ki, – mister Krançer bir qədər fikirləşəndən sonra dedi, – əsasən, elm sahəsinə aid olan mallarla alış-veriş eləyir.

– Bəlkə, insan bədəni demək istəyirsən, ata, – deyə atasını sorğusuala tutan oğlan get-gedə şənlənirdi.

– Təxminən elədir, – mister Krançer dedi.

– Böyüyəndə mən də o bizneslə məşğul olmaq istəyirəm, ata!

Mister Krançer xeyli sakitləşdi, amma şübhə ifadə edən nəsihətverici tərzdə başını silkələdi.

– Bu sənin öz qabiliyyətlərini necə inkişaf etdirəcəyindən asılıdır. İstedadını inkişaf etdirərkən ehtiyatlı ol, lazım olandan artıq danışma; digər tərəfdən gələcəkdə sənin hansı işlə məşğul olacağını bəri başdan demək çətindir, hər şeyi zaman göstərəcək.

Atasının sözlərindən fərəhlənmiş gənc Cerri bir neçə addım irəli keçdi ki, gətirdiyi stulu Templ darvazasının kölgə yerinə qoysun, mister Krançer isə oğlunun hərəkətlərinə göz qoyaraq öz-özünə dedi: "Eh, Cerri, sən zəhmət çəkib daşdan çörək çıxardırsan, çox güman ki, oğlun böyüyəndə sənə kömək edəcək, dayaq olacaq, anasının vurduğu ziyanı qismən də olsa, kompensasiya edəcək".

XV fəsil

KƏFƏNTOXUYAN QADIN

Həmin gün müsyö Defarjın şərab dükanında müştəri çox idi. Saat 6 tamam olmamış dükanın dəmir barmaqlıqlı pəncərələrindən boylanıb içəri baxan kişilər gördülər ki, eynən özlərinə oxşayan solğun, sarısifət kişilər stolların üstündəki çaxır stəkanlarının üstünə əyilərək oturublar. İşlərinin yaxşı getdiyi əvvəlki vaxtlarda müsyö Defarj ucuz və keyfiyyətsiz çaxır satırdı, bugünkü çaxır isə əvvəlkilərdən fərqliydi; bu çaxır bir az da turş idi, eyni zamanda onu içən hər kəsin halı bədbinləşir, daha da qaşqabaqlı olurdu. Müsyö Defarjın satdığı qıcqırmış üzüm suyunda əsl vakxanaliya od-alovu yox idi, elə təsəvvür yaranırdı ki, yalnız onun xıltında közərən kösövün acı tüstüsü vurur adamı.

Artıq üç gün idi ki, adamlar müsyö Defarjın dükanında səhər tezdən yığışıb çaxır içirdilər. Səhər tezdən içməyə bazar ertəsi başlamışdılar, bu gün isə çərşənbəydi. Adamların əksəriyyəti şərab içmirdi, oturub söhbətə qulaq asır, özləri də yavaşdan pıçıldaşırdılar; bu adamlar şərab dükanı açılan kimi içəri girsələr də, çaxır alıb içməyə ciblərində bir qəpik də pulları yox idi deyə içmirdilər. Onlar özlərini elə aparırdılar, sanki bir çəllək çaxır sifariş eləmişdilər, özləri də bir yerdə bənd almır, harada boş stul varsa, keçib orada otururdular və bir də baxırdın dükanın bu başından keçib o biri başına çıxıblar; içib söhbət eləyənlərə maraq və acgözlüklə qulaq asırdılar.

Müştəri çox olsa da, dükan sahibi gözə dəymirdi. Dükan sahibinin burada olmadığını heç kim hiss eləmirdi, heç kim soruşmurdu ki, o haradadır, heç kim boylanıb baxmır, gözüylə onu axtarmırdı; sübhün erkən çağında madam Defarjın müştərilərə təkbaşına xidmət etməsi

heç kimi təəccübləndirmirdi. Madam Defarj həmişəki yerində oturmuşdu, qarşısında xırda pullarla dolu boşqab var idi; o pulları verən xırda adamlar cəmiyyətdə necə yeyilib sürtülmüş, əzilib insanlıq sifətlərini itirmişdilərsə, xırda pullar da o cür yeyilib sürtülmüşdü, əzilmişdi, əvvəlki görkəmini itirmişdi.

Kral sarayından tutmuş türmələrəcən hər yerdə gəzib-dolaşan casuslar çaxır dükanına da burunlarını soxurdular, oradakı adamların əhvalında nəsə bir dəyişiklik – qəribə bir maraq və dalğınlıq olduğunu hiss edirdilər. Kart oynayanlar nəsə ləng tərpənirdilər, domino oynayanlar fikirli halda domino daşlarını götürüb onlardan qala qüllələri düzəldirdilər, ancaq içki içməklə vaxt keçirənlər çaxır stəkanını stolun üstündə gəzdirib oradakı çaxır ləkələrindən nəsə çəkməyə çalışırdılar, hətta madam Defarj özü də diştəmizləyəni xalatın qolundakı naxışın üstündə gəzdirərək qulaq kəsilib lap uzaqlardan gəlməli olan, amma hələ ki görünməyən hansısa müəmmanın eşidilməyən səsini eşitməyə çalışırdı.

Sent Antuandakı şərab dükanına toplaşanlar günortayacan orada oturdular. Düz günorta vaxtı Sent Antuanın küçələrindəki dirəklərdən asılıb yellənən lampaların altıyla gedən, toz-torpağa batmış iki adam göründü: onlardan biri müsyö Defarj idi, o biri isə mavi şapkalı yol təmiri ustasıydı. Yorulub əldən düşmüş, susuzluqdan ciyəri yanan hər iki kişi şərab dükanına daxil oldu. Bu iki adamın gəlişiylə sanki Sent Antuanın düz mərkəzində böyük bir tonqal qaladılar, onun alovu hər tərəfə yayılıb doqqazların ağzında toplaşmış, boylanıb pəncərələrdən baxan adamların üz-gözünə işıq saldı. Onlara qoşulub dükana gələn olmadı, içəridə oturanlar o iki kişi daxil olanda bir kəlmə də danışmadılar, amma hamının baxışları onlara tərəf yönəldi.

– Hər vaxtınız xeyir, cənablar! – müsyö Defarj dedi.

Sanki bununla da bağlı ağızların açılmasına bir işarə verildi, içəridəkilər xorla: "Hər vaxtınız xeyir!" – dedilər.

– Hava pisdir, cənablar! – Defarj başını silkələyib dedi.

Bunu eşidən adamlar bir-birinə baxdılar, sonra da başlarını aşağı salıb dinməzcə oturdular. Bir nəfər ayağa durub dükandan çıxdı.

– Xanım, – Defarj arvadı madam Defarjı səsləyib bərkdən dedi, – bu oğlanın adı Jakdır, özü də yol təmiri ustasıdır. Bu gün biz onunla neçə mil yol getmişik. Mən onu təsadüfən Parisdən gün yarımlıq məsafədə

görüb tanış olmuşam. Yaxşı oğlandır; Jak həm də yol təmiri üzrə yaxşı ustadır. Ona içməyə bir şey ver.

İkinci kişi ayağa durub dükandan çıxdı. Madam Defarj çaxırla doldurduğu stəkanı yol təmiri ustası Jakın stolunun üstünə qoydu, oğlan göy şapkasını çıxardıb adamlara baş əydi və çaxırdan bir qurtum içdi. Gödəkcəsinin döş cibində bir parça qurumuş, qara çörək var idi, yol ustası çörəyi çıxardıb çaxırla yavanlıq eləyərək ağzını marçıldada-marçıldada yeməyə başladı və madam Defarjın stuluna tərəf çəkilib orada əyləşdi. Üçüncü kişi qalxıb dükandan çıxdı.

Defarj da çaxır içdi, amma yol ustasından az içdi, çünki bu onun üçün elə bir matah deyildi. O, çaxırı içib heç kimə baxmadan gözlədi ki, həmyerlisi də stəkanı boşaltsın. Hətta madam Defarj da nəsə toxuyur, öz işiylə məşğul olan adam kimi görünürdü.

– Hə, necədir, dost, yemək-içməyi qurtardınmı? – Defarj soruşdu.

– Bəli. Çox sağ olun.

– Onda gedək! Otağı sənə göstərmək istəyirəm. Yaxşı otaqdır, xoşuna gələcək.

Onlar şərab dükanından küçəyə çıxdılar, oradan həyətə girdilər, sonra da pilləkənlə binanın çardağına qalxdılar; əvvəllər bu çardaqda ağsaçlı bir kişi alçaq stulda oturub belini bükərək qabağa əyilmiş vəziyyətdə gərgin işləyir, ayaqqabı tikirdi.

Ağsaçlı kişi indi burada deyildi, amma bir-birinin dalınca şərab dükanından çıxan üç kişi buradaydı. İndi buradan çox uzaqda olan ağsaçlı kişi ilə bu üç kişi arasındakı yeganə zəif bağ ondan ibarət idi ki, bir vaxt buraya gəlib divardakı deşikdən ona baxmışdılar.

Defarj qapını ehmalca bağlayıb boğuq səslə dedi:

– Birinci Jak, ikinci Jak, üçüncü Jak! Bu şahidlə mən, dördüncü Jak, artıq deyildiyi kimi, təsadüfən tanış olmuşam. İndi o özü hər şeyi sizə danışacaq. Beşinci Jak, danış!

Yol təmiri ustası gündən yanmış alnını əlində tutduğu mavi şapkayla silib dedi:

– Haradan başlayım, müsyö?

– Lap elə başdan başla, – müsyö Defarj dedi və onun cavabı olduqca ağıllı göründü.

– Mən onu bir il əvvəl, keçən yay görmüşəm, cənablar, – yol təmiri ustası dedi, – markizin faytonunun altındakı zəncirdən asılmışdı. Hadisə

belə olub: axşamtərəfiydi, gün batırdı, mən işimi qurtarmışdım, markizin faytonu yavaş-yavaş təpənin yoxuşunu qalxırdı, o da zəncirdən asılmışdı, bax belə...

Yol təmiri ustası hadisənin necə baş verdiyini müvafiq jest və hərəkətlərlə canlı olaraq göstərməyə çalışırdı və demək lazımdır ki, bunu kifayət qədər yaxşı bacarırdı; dərhal hiss olunurdu ki, il boyu bu tamaşanı kənd camaatına göstərə-göstərə yaxşı təcrübə qazanıb.

İlk olaraq birinci Jak müdaxilə edib soruşdu ki, sən əvvəllər o adamı görmüşdün?

– Yox, heç vaxt, – deyib yol təmiri ustası qəddini düzəltdi.

Üçüncü Jak soruşdu ki, əgər elədirsə, onu görəndə bəs necə tanıdın?

– Hündürboy idi, ona görə tanıdım, – yol təmiri ustası əlini burnunun üstünə qoyub sakitcə cavab verdi. – O vaxt axşamtərəfi markiz də soruşdu ki, nə təhər adamdır? Dedim: "Hündürboydur, elə bil lampa dirəyidir".

– Gərək deyəydin ki, karlik kimi balacaboydur, – ikinci Jak dedi.

– Mən haradan bilim? O vaxt iş hələ başa çatmamışdı, mənə heç nə deyilməmişdi. Bax da! Mən özüm şahidlik eləmədim. Cənab markiz faytonu kəndin içindəki fontanın yanında saxlatdırdı, barmağıyla məni göstərib dedi: "Onu görürsünüz? O gicbəsəri bura gətirin!" Düz sözümdür, cənablar, mən özüm yaxınlaşıb heç nə demədim.

– Düz deyir, Jak, – Defarj ikinci Jaka dedi. – Davam elə!

– Yaxşı! – yol təmiri ustası sirli bir ədayla davam elədi. – Deməli, belə oldu ki, həmin o hündürboy kişi yoxa çıxdı. Onu axtardılar, axtardılar. Neçə ay axtardılar? Doqquz, on, on bir?

– Neçə ay axtarıblar, onun bizə dəxli yoxdur, – Defarj dedi. – Yaxşı gizlənmişdi, amma, bədbəxtlikdən, tapıldı. Sonrasını danış!

– Bir dəfə də təpənin üstündə işləyirdim, gün batırdı, kənddə artıq hava qaralmışdı. İş alətlərini yığıb-yığışdırdım ki, aşağı enib evə gedəm. Bir də başımı qaldırıb baxanda gördüm ki, altı əsgər gəlir, aralarında da hündürboy bir kişi var, qolları bağlıdır, bax belə!

Özünün əvəzsiz şapkasının köməyi ilə qolları yanına bağlanmış adamı təsvir elədi.

– Bax belə, cənablar, mən daş tığının yanında dayanmışdım, ötüb-keçən əsgərlərə və onların apardığı məhbusa baxırdım, – bizim yolda gediş-gəliş azdır, baxmalı nəsə bir şey də hər vaxt olmur. Bunlar

yaxınlaşanda altı əsgəri gördüm, qolubağlı, hündürboy kişini gördüm; özü də onları mən qara rəngdə görürdüm, günbatan tərəfdən isə onlar qırmızı haşiyəli kimi görünürdülər. Mən həm də görürdüm ki, onların uzun kölgələri yolun o biri tərəfindəki çala-çökəyə düşür, dikdirin üstünəcən uzanıb gedir, elə bil ki nəhəng adamların kölgəsidir. Gördüm ki, onlar toz-dumana bürünüblər, özləri də tappatarapla yeridikcə toz-duman da onlarla bir yerdə gedir! Tamp! Tamp! Onlar lap yaxınlaşanda mən hündürboy kişini tanıdım, o da məni tanıdı. Eh, yəqin, o istərdi ki, yenə də özünü təpədən üzüaşağı buraxıb dərəyə düşsün, – biz onunla birinci dəfə axşamtərəfi az qala düz elə həmin yerdə qarşılaşanda da o belə eləmişdi.

Yol təmiri ustası hadisələri elə təsvir edirdi, sanki hər şeyi indi canlı olaraq görürdü; dərhal hiss olunurdu ki, bu gen dünyada o, az şey görüb.

– Mən onu tanıdığımı əsgərlərə bildirmədim, hündürboy kişi də özünü elə göstərdi ki, guya məni tanımır, amma bir-birimizi tanıdığımız gözümüzdən bilinirdi. Dəstənin başçısı: "Tez tərpənin!" – deyib əliylə kəndi göstərdi, sonra da: "Biz onu qəbrə tez çatdırmalıyıq!" – dedi. Əsgərlər tez-tez getdilər. Mən də onların dalınca düşdüm. Qollarını kəndirlə bərk-bərk bağladıqları üçün əlləri şişmişdi, ayağına böyük olan taxta başmaqlarda çətin yeriyirdi, özü də axsayırdı. Ləng gedirdi, həm də axsayırdı deyə əsgərlər tüfəngin ucuyla onu itələyirdilər, – bax belə!

Belə deyib o, tüfəngin qundağıyla itələnə-itələnə aparılan adamın necə yeridiyini canlı olaraq göstərməyə çalışdı.

– Hamısı dəli kimi qaça-qaça təpədən enəndə məhbus yıxıldı. Əsgərlər gülüb onu yerdən qaldırdılar. Onun toz-torpağa batmış sifəti qanamışdı, amma əlini qaldırıb sifətinə toxuna bilmirdi, əsgərlər də gülməkdən uğunub gedirdilər. Əsgərlər onu kəndə apardılar, camaat tökülüb gəldi ki, baxsın. Sonra əsgərlər getdilər, dəyirmanın yanından keçdilər, hündürboy kişini türməyə tərəf apardılar; camaat gördü ki, gecə vaxtı türmənin qapıları açıldı və onu uddu, – bax belə!

Yol təmiri ustası ağzını bacardıqca geniş açdı, dişlərini bir-birinə vurub şaqqıldatdı, tez də ağzını yumdu.

Defarj görəndə ki, yol təmiri ustası danışdığı hadisənin effektini gücləndirmək üçün ağzını təzədən açmağa tələsmir, dedi:

– Sonra nə oldu, Jak?

– Bütün kənd camaatı axışıb gəlir, – yol təmiri ustası ayaq barmaqlarının ucunda dayanaraq pıçıltıyla danışdı, – fontanın yanında yığışıb pıçıldaşırlar; bütün kənd yatır, gecə hamı yuxuda görür ki, o bədbəxti zəncirləyib ağzıqıfıllı qaranlıq türməyə salıblar, ölənəcən də oradan çıxmayacaq. Səhər iş alətlərini çiynimə alıb qara çörəyimi yeyə-yeyə işə gedəndə yolumu türmə tərəfdən saldım, gördüm ki, hündürboy kişi dəmir barmaqlıqların arxasında dayanıb; keçən gecəki kimi sir-sifəti tozun, qanın içindəydi, dayanıb baxırdı. Onu səsləyib nəsə deməyə ixtiyarım yox idi, onun da qolu bağlıydı deyə mənə əl eləyə bilmədi, ölü kimi dayanıb dinməzcə baxırdı.

Defarjla üç kişi dinib-danışmadan bir-birinin üzünə baxdılar. Onların üzü tutqun idi, boğuq idi, öz həmvətənlərinin hekayətinə qulaq asdıqca intiqam almaq hissiylə alışıb-yanırdılar; hiss olunurdu ki, bu iş məxfidir, amma davranışları hökmlüydü. Bu adamlar özlərini hərbi tribunal kimi aparırdılar; birinci Jakla ikinci Jak saman döşəyin üstündə oturub əllərini çənələrinə dayaq vermişdilər, gözlərini yol təmiri ustasından çəkmirdilər; onların arxa tərəfində dizinin birini yerə qoyub çömbəltmə oturmuş üçüncü Jak da diqqətlə baxır, qulaq asırdı, eyni zamanda bir əliylə ağzının və burnunun ətrafındakı əsəb damarlarını sığallayırdı. Defarj isə yaxşı görünsün deyə yol təmiri ustasını qəsdən pəncərənin qarşı tərəfində saxlayıb özü arada ayaq üstə durmuşdu, hərdən çevrilib gah üç kişiyə, gah da ustaya baxırdı.

– Davam elə, Jak, – Defarj dedi.

– Dəmir qəfəsdə neçə gün qaldı. Camaat gedib gizlicə ona baxırdı; hamı qorxurdu, çünki baxmaq olmazdı. Amma, hər halda, adamlar aralıdan boylanıb qayalıqdakı türməyə baxırdı, orada saxlanılan məhbusa baxırdılar; axşamtərəfi işdən sonra fontanın yanında yığışıb qeybət eləyəndə də hamı çevrilib türməyə baxırdı. Əvvəllər hamı poçtun binası tərəfə baxırdı, indi isə adamlar türməyə tərəf baxırdılar. Adamlar fontanın yanında pıçıldaşıb deyirdilər ki, ölüm cəzasına məhkum olunsa da, onu öldürməyəcəklər; deyirdilər, guya ərizə yazıb Parisə göndəriblər ki, bu adam dəlidir – uşağı öləndə dərddən ağlını itirib dəli olub, kimsə dedi ki, ərizəni aparıb kralın özünə veriblər. Mən nə bilim, nəyimə lazımdır? Amma ola bilər. Bəlkə də, elədir; bəlkə də, elə deyil.

– Bir dəqiqə, Jak, – birinci Jak onun sözünü kəsdi. – O ərizə, həqiqətən də, krala və kraliçaya çatdırılıb. Bu tərəfdə səndən başqa

hamı öz gözüylə gördü ki, faytonda kraliçayla yanaşı oturmuş kral gəlib buradan keçəndə ərizəni ona verdilər. Krala ərizəni Defarj – indi burada gördüyün bu kişi verdi, həyatını təhlükə altına qoyub əlindəki ərizəylə onların qarşısına çıxdı, faytonu saxladı.

– Onu da bil ki, Jak, – dizini yerə qoyub çömbəlmiş üçüncü Jak dedi; onun barmaqları aramsız olaraq ağzının və burnunun ətrafındakı əsəb damarlarını sığallayırdı, elə bil nə aclıq hissi, nə də susuzluq yanğısına oxşamayan hansısa yanğı onu bir an da rahat qoymurdu, – atlı və piyada mühafizəçilər dərhal onun üstünə atılıb yun kimi çırpdılar. Bildinmi?

– Bildim, cənablar.

– Elə isə sonrasını danış, – Defarj dedi.

– Deməli, adamlar fontanın yanında yığışıb pıçıldaşırdılar ki, – yol təmiri ustası dedi, – onu gətirib bizim kənddə edam edəcəklər, hökmən edam edəcəklər. Onu da deyirdilər ki, o, markizi öldürüb, markiz öz kəndlilərinin ağası, həm də atasıdır və ata qatili kimi onun boynu vurulacaq. Fontanın yanında bir qoca kişi dedi ki, onun sağ əlinə bıçağı verəcəklər, gözünün qabağında bıçaq tutan əlini yandırıb külə döndərəcəklər; əllərini, sinəsini, qılçalarını parçalayacaqlar, yaralarına qaynar yağ, sonra əridilmiş qurğuşun, qatran və qaynamış mum tökəcəklər, sonra isə hər qolunu, hər qılçını bir güclü ata bağlayıb atları dəhmərləyəcəklər, bədənini parça-parça edəcəklər. Qoca kişi dedi ki, əvvəlki kralın – XV Lüdoviqin həyatına qəsd eləmək istəyən bir nəfəri bu cür cəzalandırıblar. Mən savadsız adamam, nə bilim, bəlkə də, qoca kişi yalan deyirdi?

– Eşit, Jak, – narahat halda daim ağzının və burnunun ətrafını sığallayan kişi dedi, – o məhkumun adı Damiendir. Sənin dediklərinin hamısını günün günorta çağı camaatın gözü qabağında gətiriblər onun başına. Parisin gediş-gəlişli küçələrinin birində yığışıb tamaşa edən çoxsaylı izdihamın içində çox bahalı paltarlar geyinib bəzənmiş bir dəstə zadəgan qadının necə acgöz maraqla və necə böyük həvəslə edamı seyr etdiyi heç kimin diqqətindən yayınmayıb; deyir ki, o qadınlar düz axıracan dayanıb baxıblar, təsəvvür elə ki, Jak, axşam düşüb şər qarışanacan davam edib, deyir hətta o bədbəxt hər iki ayağını itirəndən sonra da ölməyibmiş, nəfəs alırmış! Deməli, bu hadisə olub... Dayan görüm, sənin neçə yaşın var?

– Otuz beş, – altmış yaşlı qoca kişi kimi görünən yol təmiri ustası dedi.

– Belə çıxır ki, bu hadisə baş verəndə sənin on yaşın olub; sən onu görə bilərdin.

– Yaxşı, yetər! – hövsələsi daralmış Defarj dedi. – Cəhənnəm olsun! Sonra nə oldu, Jak, sən o barədə danış!

– Yaxşı! Deməli, biri elə deyir, o biri belə deyir, hərə bir söz deyirdi, hamı pıçıldaşıb ancaq o barədə danışırdı, hərdən adama elə gəlirdi ki, fontanın suyu da şırıldayıb o barədə danışır. Bir dəfə də bazar günü gecə vaxtıydı, kənddə hamı yatmışdı, əsgərlər türmə tərəfdən enib gəldilər; onların tüfəngləri dar küçənin daşlarına dəyib danqıldayırdı. Fəhlələr işləyirdilər: yer qazır, çəkiclə döyəcləyirdilər; əsgərlər gülür, mahnı oxuyurdular. Səhər yuxudan duranda baxdıq ki, düz fontanın yanında 40 fut hündürlüyündə dar ağacı düzəldiblər, içdiyimiz suyu da murdarlamışdılar.

Yol təmiri ustası çardağın alçaq tavanı səviyyəsindən aşağı baxaraq səmada sanki dar ağacı görürmüş kimi əlini qabağa uzatdı.

– Adamlar öz işini atıb fontanın yanında yığışmışdılar; inəkləri örüşə aparan yox idi, inəklər də fontanın yanına toplaşmışdı. Günorta vaxtı baraban səsi eşidildi. O gecə türməyə çoxlu əsgər gətirmişdilər, həmin əsgərlər də hündürboy kişini araya alıb fontana tərəf gəlirdilər. Əvvəlki kimi qolları bağlıydı, xüsusi paz düzəldib ağzına soxmuşdular, sapla da dartıb elə bağlamışdılar, sanki gülür. – Dediklərini əyani olaraq nümayiş etdirmək üçün o hər iki əlinin orta barmağını ağzına soxdu, cəhəngini dartıb az qala qulağına çatdırdı. – Dar ağacının başına tiyəsi yuxarı yönəlmiş bıçaq pərçimlənmişdi, düz o bıçağın altında – 40 fut hündürlükdən asdılar onu, o cür də qaldı; indi də oradadır, içdiyimiz suyu zəhərləyir.

Yol təmiri ustası danışığına ara verib mavi şapkasıyla üz-gözünün tərini siləndə o biri kişilər dinməzcə bir-birinin üzünə baxırdılar.

– Çox qorxuludur, cənablar. Arvad-uşaq gəlib oradan su götürə bilər? Axşamtərəfi dar ağacının altında yığışıb necə söhbət eləmək olar, necə dərdləşmək olar? Bazar günü axşamtərəfi gün batanda mən kənddən çıxdım, təpənin üstünə qalxıb oradan geriyə – kəndə tərəf baxanda gördüm ki, dar ağacının kölgəsi bütün kəndin üstünə düşüb, kilsənin,

dəyirmanın, türmənin üstünə düşüb; elə bil yerlə göyün birləşdiyi yerəcən uzanıb gedir, oradan da o yana çatır.

Əliylə ağzını və burnunun yanlarını sığallayaraq acgözlüklə qulaq asan kişi o biri üç kişiyə baxıb titrəyən barmaqlarını dişlədi; sanki o, doyub-dolanmayan aclığını bununla ram etmək istəyirdi.

– Vəssalam, cənablar. Günbatan çağı (necə ki, deyilmişdi) kənddən çıxdım, bütün gecəni yol getdim, səhərisi gün də günortayacan yol getdim, axır ki, bu kişiyə rast gəldim (bu da əvvəlcədən deyilmişdi). Onunla birlikdə gah piyada, gah da ata minib getdik; dünən günortadan sonra da yol getdik, bütün gecəni yol getdik. Axır ki, gəlib bura çatdıq. Budur, indi mən buradayam!

Xeyli davam edən ağır sükutdan sonra birinci Jak dedi:

– Sən çox yaxşı elədin ki, hər şeyi necə olubsa, elə də danışdın. İndi zəhmət olmasa, qapıdan çıxıb çöldə bir-iki dəqiqə bizi gözləyə bilərsənmi?

– Gözləyərəm, – yol təmiri ustası dedi və dərhal da Defarjın müşayiətiylə otaqdan çıxıb pilləkənəcən getdi. Defarj onu orada oturdub özü geri qayıtdı.

Defarj çardağın qapısını açıb içəri daxil olanda hər üç kişi başını qaldırdı; onlar aşağı əyilib nə barədəsə danışırdılar.

– Hə, necə bilirsən, Jak, – birinci nömrə dedi, – bunu da siyahıya salaqmı?

– Məhv edilməyə məhkum olunanların siyahısına yazın, – Defarj dedi.

– Çox gözəl! – aclığını ram eləyə bilməyən kişi xırıltılı səslə dedi.

– Qəsri və bütün nəslini? – birinci kişi soruşdu.

– Qəsri və bütün nəsli məhv edilməlidir, – Defarj dedi.

Aclığını ram eləyə bilməyən kişi vəcdə gəlib: "Çox gözəl!" – dedi və o biri barmağını çeynəməyə başladı.

– Sən əminsən ki, – ikinci Jak Defarjdan soruşdu, – bizim siyahı tərtib etmək üsulumuz bəzi çətinliklər yaratmayacaq? Şübhəsiz ki, bu, təhlükəsizdir, çünki başqa adam onun şifrini açа bilməz. Amma sizin arvadınız necə, baş açа biləcəkmi?

– Jak, – Defarj dartınıb qəddini düzəltdi, – əgər mənim arvadım o siyahını yadında saxlamaq istəsə, oradakı nəinki bir sözü, hətta bir hərfi də yadından çıxarmaz; özünəməxsus üslubda xüsusi ilmələr vurub on-

ları elə toxuyacaq ki, istənilən vaxt hər şey ona gün kimi aydın olacaq. Madam Defarja inana bilərsiniz. Ən şərəfsiz qorxaq üçün dirilər siyahısından silinmək asan bir işdir, amma onun adının və törətdiyi cinayətin bircə hərfini də madam Defarjın toxuduğu siyahıdan silmək mümkün deyil.

Təqdiredici pıçıltı səsləri eşidildi, sonra aclıq yanğısını söndürə bilməyən kişi dedi:

– Bu kəndçini tezmi yola salaq? Məncə, tez olsa yaxşıdır. Həddən artıq sadə adamdır, necə bilirsiniz, təhlükəli deyil ki?

– O heç nə bilmir, – Defarj dedi, – məncə, bir onu bilir ki, özü də həmin hündürlükdə olan dar ağacından asıla bilər. Hələlik qalsın, mən özüm ona baxaram, sonra da yola salaram gedər. Kralı, kraliçanı, saray adamlarını görmək istəyir, – istədiyi adamları bazar günü göstərib, sonra yola salacağam getsin.

– Necə? – ac adam gözlərini ona zilləyib həyəcanla dedi. – Onun kralı və saray adamlarını görmək istəyi məgər yaxşı əlamətdir?

– Jak, – Defarj dedi, – pişiyi südə dadandırmaq üçün südü ona göstərmək lazımdır. İtin ov quşunu ovlaması üçün ilk öncə onu tanıması lazımdır.

Bununla da müzakirə bitdi. Pilləkənin üstündə oturub mürgüləyən yol təmiri ustasına məsləhət gördülər ki, saman döşəyin üstündə uzanıb dincəlsin. Sözü təkrar etmək lazım gəlmədi, yol təmiri ustası dərhal uzanıb dərin yuxuya getdi.

Kənddən gəlib Parisə çıxmış sadə bir kənd adamı üçün Defarjın şərab dükanı heç də pis dayanacaq deyildi. Burada hər şey onun üçün yeni və maraqlıydı, madam Defarjın onda yaratdığı müəmmalı qorxu hissi nəzərə alınmasa, qalan hər şey qaydasındaydı. Madam Defarja gəlincə, öz yerində əyləşib özünü elə göstərirdi ki, guya onun burada olub-olmadığını əsla hiss etmir və bunun fərqinə varan yol təmiri ustasının gözü hər dəfə bu zabitəli qadına baxanda öz taxta ayaqqabılarında onu titrətmə tuturdu. Ona elə gəlirdi ki, bu qadın nə istəsə, onu eləyə bilər, məsələn, birdən onun bəzəkli başına belə bir fikir gəlsə ki, yol təmiri ustası qatildir – adam öldürüb, dərisini də soyub, onu bu fikirdən heç kim döndərə bilməz, əksinə, o özü hamını bu fikrə inandıra bilər.

Ona görə də yol təmiri ustası biləndə ki, bazar günü Versala gedəndə madam Defarj da onlarla gedəcək, kefi pozuldu. Faytonda yol getdikləri

vaxt bütün yol boyu madam Defarjın əlində nəsə toxuması onun kefini bir az da pozdu; bu azmış kimi, günorta vaxtı onlar izdihama qoşulub kralla kraliçanı gətirməli olan faytonu gözləyəndə də madam dayanmadan toxuyurdu. Buna fikir verən bir kişi dedi:

– Nə bərk işləyirsiniz, madam?

– Bəli, elədir, – madam Defarj dedi, – işim həddən artıq çoxdur.

– Siz nə toxuyursunuz, madam?

– Çox şey.

– Məsələn...

– Məsələn, – madam Defarj halını da pozmadan cavab verdi, – ... məsələn, kəfən.

Bu cavabdan sonra kişi dərhal çəkilib aralıda dayandı, yol təmiri ustası da özünü narahat hiss elədi, elə bil havası çatmırdı, ona görə də mavi şapkasıyla üzünü yelləndi. Elə həmin vaxt yekəsifət kral və mələksima kraliça qızıl faytonda gəlib çıxdılar, gözlərindən gülüş yağan saray adamları onları müşayiət edirdilər; gözəl geyinib daş-qaşlarla bəzənmiş ledilər və lordlar, onların pudralı parikləri, xoşbəxt və gülümsər simaları, gözəl və parıltılı geyimləri, gəzdirdikləri qızıl və brilyantın parıltısı yol təmiri ustasında elə güclü təəssürat oyatdı, elə həyəcanlandırdı ki, özündən asılı olmayaraq, "Yaşasın kral! Yaşasın kraliça! Yaşasın hamı və hər şey!" – deyib elə qışqırdı, sanki bu adam hər şeydən və hər yerdən xəbərdar olan Jak barədə heç nə eşitməmişdi. Sonra yol təmiri ustası bağları, kral sarayını, küçələri, fontanları, yaşıllıqları gördü, daha çox gülümsər gözlər, lordlar, ledilər gördü və qışqırıb yenə: "Yaşasın hamı və hər şey!" – dedi, nəhayət, həyəcandan kövrəlib ağladı. Üç saat davam edən bu təntənəli mərasimdə yol təmiri ustası boğazı yırtılanacan qışqırdı, doyunca ağladı; bütün bu vaxt ərzində Defarj həmişə bir əliylə onun qolundan tutub buraxmırdı ki, bu adam həyəcandan özünü itirə bilər və onu həyəcanlandıran adamlardan kiminsə üstünə atılıb parçalaya bilər.

– Əhsən! – mərasimin sonunda Defarj ərkyanalıqla onun kürəyinə vurub dedi. – Sən yaxşı oğlansan!

Yol təmiri ustası artıq özünə gəlmişdi, amma bir qədər narahat idi ki, görəsən, sonuncu nümayiş vaxtı səhvə yol verməyib ki, belə məlum olurdu ki, heç bir səhvə yol verməyib.

– Sənin kimi oğlanlar bizə lazımdır, – Defarj onun qulağına pıçıldadı, – sən onları inandırdın ki, hər şey qaydasındadır və həmişə də bu cür davam edəcək. İndən belə özlərinə daha çox qürrələnəcəklər, bu isə onların sonunu yaxınlaşdıracaq.

– Aha! – yol təmiri ustası qışqırdı. – Düz deyirsiniz.

– Bu səfehlər heç nə başa düşmürlər. Onlar səni və minlərlə sənin kimisini it yerinə də qoymurlar; öz itləri və atları barədə fikirləşirlər, amma sənin kimiləri barədə əsla narahat olmurlar. Eybi yoxdur, qoy keflərini çəksinlər, özlərini aldatsınlar; onların da axırına çox qalmayıb.

Madam Defarj yol təmiri ustasına ikrahla baxıb, onu tanıdığını bildirmək üçün başını tərpətdi.

– Yaman bərk qışqırırdın ha! – madam Defarj dedi. – Nəsə maraqlı bir şeyə baxıb göz yaşı tökmək xoşuna gəlir, eləmi?

– Düz deyirsiniz, madam. İndi bu saat mən özüm də o fikirdəyəm.

– Sənə bir yığın kukla verib desəydilər ki, hansını istəyirsən soyundur, sındır, dağıt, onda, yəqin ki, sən o kuklalardan ən qəşəngini və ən zəngin paltarda olanı seçərdin, eləmi?

– Çox düz deyirsiniz, madam.

– Yaxşı. Bəs əgər sənə uça bilməyən bir dəstə quş verib desəydilər ki, onların tükünü yolub özünə götürə bilərsən, onda, yəqin ki, sən quşların içində lələkləri daha qəşəng olandan başlayardın, eləmi?

– Düz buyurursunuz, madam.

– Sən bu gün o kuklaları da gördün, quşları da, – madam Defarj bunu deyib əliylə bayaq dayanıb cəlbedici tamaşaya baxdıqları yeri göstərdi, – indi isə öz evinə gedə bilərsən!

XVI fəsil

KƏFƏNTOXUMA

Madam Defarj öz əriylə birlikdə Sent Antuana qayıtdı; mavi şapkalı, yoxsul yol təmiri ustası isə gecə vaxtı tozlu yollardan keçərək neçə mil qət elədi və nəhayət, gəlib o yerə çatdı ki, indi qəbirdə çürüyən cənab markizin möhtəşəm qəsri orada sakitcə dayanıb ağacların xışıltısına qulaq asırdı. Qəsrin daş sifətləri indi nə qədər istəsə, ağacların xışıltısına və fontan suyunun şırıltısına qulaq asa bilərdi. Yeməyə otəncər və yandırmağa çır-çırpı axtaran kənd adamlarından kimsə azaraq bu tərəflərə gəlib çıxsa və ürək eləyib hasarın üstündən həyətə, daş məhəccərli daş pilləkənlərə baxsaydı, acından ayaq üstə güclə dayanan o adama elə gələrdi ki, qəsrin daş sifətləri indi əvvəlki kimi baxmır. Kənddə söz gəzirdi ki, guya markizin ürəyinə bıçaq soxulandan sonra daş sifətlərdəki məğrurluğu ağrı və inciklik əvəz eləyib, 40 fut hündürlükdən asılıb yellənən cəsədi görən kimi daş üzlərdəki ifadə yenidən dəyişib: intiqam almış adamlar kimi o vaxtdan bəri yenə amansız qəzəblə baxırlar; amma kənd adamlarının özləri kimi, bu söhbətlər də o qədər zəif əsaslıdır ki, ayaq üstə güclə dayanır. Markizin qətlə yetirildiyi otağın böyük pəncərəsindən görünən heykəlin daş sifətində isə əvvəllər heç kimin görmədiyi bir əlamət var idi: heykəlin yaraşıqlı burnunda hər iki tərəfdən aydınca hiss olunan balaca çökəklər peyda olmuşdu; çox nadir hallarda buralara gəlib çıxan ac-yalavac kəndlilərdən kimsə arıq barmağıyla markizin daş sifətini göstərən kimi onlar o tərəfə baxır və dərhal da qaçır, özlərini mamır və yarpaqların arasına salıb elə gizlənirdilər, elə bil özünə yem axtaran, amma daha xoşbəxt olan dovşanlar idi.

Qəsr və daxma, daş sifət və dar ağacından asılıb yellənən cəsəd, daş döşəmədəki qırmızı qan ləkələri və kəndin təmiz suyu, minlərlə hektar torpaq sahəsi, Fransanın bütöv bir əyaləti və bütövlükdə Fransa özü sap kimi nazik üfüq xəttində yerlə qovuşan gecə səmasının altında uyuyurdu. Yaşadığımız bu dünyada ən böyükdən tutmuş ən balacayacan nə varsa, səmada güclə görünən balaca bir ulduzda yerləşib. İnsan öz məhdud ağlıyla onun quruluşunu öyrənmək, dərk etmək istədiyi kimi, yüksək ali ruh da üstündə yaşadığımız planetin zəif işartısına nəzər salıb, öz əməllərinə görə cavabdeh olan yer sakinlərinin fikrini, niyyətini, amalını, günah və savab işlərini oxuya bilir.

Müsyö Defarj həmin o ulduzlu gecə öz arvadıyla birlikdə səmişin daşıyan faytonda oturub Parisin darvazasına tərəf gedirdi. Həmişə olduğu kimi gözətçi məntəqəsində onları saxladılar, əllərində fənər tutmuş gözətçilər ora-buranı axtarıb yoxladılar, sorğu-sual elədilər. Buradakı əsgərlərdən bir-ikisini və bir polisi tanıdığı üçün müsyö Defarj faytondan yerə düşdü; polis onun dostuydu, onlar görüşüb hal-əhval tutdular.

Sent Antuan yenidən Defarjları öz qaranlıq qoynuna aldı. Nəhayət, onlar kilsə tərəfdə faytondan düşüb qara palçıqlı, zir-zibilli küçələrlə piyada gedəndə madam Defarj ərinə dedi:

– Hə, dostum, de görüm, Jak – polis sənə nə deyirdi?

– Çox şey demədi, amma, hər halda, nə bilirdisə, hamısını dedi. Bizim məhəlləyə başqa xəfiyyə göndəriblər. Bəlkə də, bir deyil, çoxdur, amma o yalnız bir nəfər barədə məlumat alıb.

– Hə, lap yaxşı! – deyə madam Defarj işgüzar soyuqqanlıqla qaşını qaldırdı. – Onu qeydə almaq lazımdır. Adı nədir?

– İngilisdir.

– Lap yaxşı. Bəs adı nədir?

– Familiyası Barseddir, – Defarj ingilis familiyasını fransızsayağı tələffüz elədi, sonra da hərfbəhərf dedi ki, arvadının yadında qalsın.

– Barsed, – madam təkrar elədi. – Yaxşı. Adı nədir?

– Con.

– Con Barsed, – madam əvvəlcə öz-özünə dedi, sonra bərkdən təkrar elədi. – Yaxşı. Görkəmi necədir? Tanınmış adamdır?

– 40 yaşlarında bir adamdır, boyu haradasa 5 fut 9 düymdür, saçları qaradır, qarabuğdayı kişidir, sir-sifətdən yaraşıqlıdır; qaragözdür, uzun

sifəti arıqdır, bənizi solğundur, qartalburunudur, amma burnu düz deyil, bir qədər sol yanağı tərəfə əyilib deyə ona qəddar görkəm verir.

– Portretini çəkdin! – madam gülüb dedi. – Sabah onun adını siyahıya salaram.

Onlar şərab dükanı tərəfə döndülər. Artıq gecəyarıydı deyə dükan bağlanmışdı. Madam Defarj dükana girən kimi dərhal həmişə oturduğu yerə keçib özü burada olmadığı müddətdə yığılmış pulları saydı, malın qalığını yoxladı, mədaxil kitabını gözdən keçirib özü də nəsə yazdı, onu əvəz eləmiş adama, hər ehtimala qarşı, bəzi suallar verdi və nəhayət, onu yatmağa göndərdi. Bundan sonra madam Defarj boşqabdakı pulları ikinci dəfə piştaxtanın üstünə töküb hər dəyərdən olan pulları ayrıca yığdı, zəncir kimi səliqəylə düzdü, dəsmalla bağlayıb gizlətdi. Müsyö Defarj isə qəlyan çəkə-çəkə ora-bura gedir, dükanda gəzişirdi, məmnun halda gözaltı arvadına baxır, amma müdaxilə eləmirdi. Əslində, istər ticarət məsələlərində, istərsə də ev işlərində müsyö Defarj həmişə bu cür idi: arvadının işinə qarışmır, qəlyan çəkə-çəkə gəzişirdi.

İsti bir gecəydi, qapı-pəncərələri bərk-bərk bağlanmış dükan hər tərəfdən çirkab və zibillə əhatə olunmuşdu deyə içəridə pis bir qoxu var idi. Müsyö Defarjın qoxubilmə qabiliyyəti elə də güclü deyildi, amma bu gecə çaxır çəlləyi çaxırın özündən tünd qoxurdu; rom, konyak və anis qoxusu da ona qarışmışdı. Ağzındakı tüstünü elə üfürdü, sanki hər tərəfdən onu bürüyən qoxuları qovub uzaqlaşdırmaq istədi, sonra qəlyanı söndürdü.

– Sən yorulmusan. – Pulları dəsmala büküb bağlayan madam Defarj başını qaldırıb ərinə baxdı. – Dukanın qoxusu əvvəl necəydisə, indi də elədir.

– Bir az yorğunam, – müsyö Defarj arvadının sözünü təsdiq elədi.

– Həm də bir qədər sıxıntı keçirirsən, – madam dedi; onun iti gözü ötəri baxanda da ən çətin vəziyyətdə yanılmırdı, indi də elə oldu. – Ah, bu kişilər, kişilər!

– Bilirsən, əzizim! – Defarj dedi.

– Bilirsən, əzizim! – deyə madam Defarj ərini yamsılayıb qətiyyətlə başını silkələdi. – Bilirsən, əzizim! Gecənin bu vaxtı sən çox əzginsən, mənim əzizim!

– Düz deyirsən, – Defarj elə dedi, sanki sözləri onun ağzından güclə çəkib çıxartdılar, – iş çox uzanır.

– İş çox uzanır, – madam təkrar elədi. – İş nə vaxt uzanmır ki? İntiqamı ancaq vaxtı çatanda almaq lazımdır; qayda belədir.

– İldırımın adamı vurması üçün çox vaxt lazım deyil, – Defarj dedi.

– Buluddan ildırım çaxması üçün nə qədər vaxt lazımdır? – madam halını pozmadan dedi. – Sualıma cavab ver.

Defarj fikirli halda başını qaldırdı, sanki bununla o nəsə demək istədi.

– Bütöv bir şəhəri yerlə yeksan eləmək üçün zəlzələyə çox vaxt lazım deyil, – madam dedi. – Yaxşı, belədir. Onda de görüm, zəlzələnin hazırlanması üçün nə qədər vaxt lazımdır?

– Yəqin ki, çox vaxt lazımdır, – Defarj dedi.

– Amma elə ki tam hazır olur, onda qarşısına çıxan hər şeyi dağıdıb məhv eləyir. Onun necə hazırlandığını isə görmək və eşitmək mümkün olmur. Sən bunu nəzərə almalısan və özünə təsəlli verməlisən.

Madam belə deyəndə gözlərində alov parladı, öz düşmənini boğurmuş kimi dəsmala bərk bir düyün vurdu.

– Eşit, gör nə deyirəm, – madam belə deyib sözündəki mənanı xüsusi olaraq nəzərə çarpdırmaq üçün sağ əlini qabağa uzatdı, – ləngisə də, yoldadır, gəlir; heç vaxt dayanmır, geri də çəkilmir, bunu mən deyirəm sənə, anbaan yaxınlaşır. Başını qaldır, yaşadığımız dünyaya bax, tanıdığımız insanların üzünə bax, yaşayışına bax, onların içində qaynayan qəzəb və narazılığa fikir ver, gör Jakeriya necə məharətlə, necə inamla – hər saat artmaqda olan bir inamla – ona istinad edir. Bəyəm bu iş çox ləngiyə bilərmi? Bah! Gülməli adamsan.

– Sən mənim igid arvadımsan, – Defarj belə deyib başını azca aşağı əydi, əllərini arxada tutaraq arvadının qarşısında elə dayandı, elə bil çalışqan və nizam-intizamlı şagird öz millətiminin qarşısında dayanmışdı. – Mən heç nəyi sual altına almıram, şübhəylə də yanaşmıram. Amma iş uzanır, sən özün də bunu yaxşı bilirsən; burada nəsə bir ləngimə var; belə getsə, biz o günü görməyə də bilərik.

– Belə de! Hə, nə olsun? – madam bunu deyib başqa bir düyün vurdu, həm də bunu elə etdi, sanki növbəti düşməni boğdu.

– Məsələ belədir ki, – Defarj şikayətlənirmiş kimi, bir qədər də üzrxahlıqla dedi, – biz qələbəni görməyəcəyik.

– Biz ona kömək edəcəyik. – Madam qətiyyətli hərəkətlə yenə əlini qabağa uzatdı. – Bizim çəkdiyimiz əziyyət boş yerə deyil. Mən qəti olaraq inanıram, zərrə qədər də şübhə etmirəm ki, biz qələbəni görəcəyik. Əgər görməsək belə, o günün nə vaxt gələcəyi dəqiq məlum olmasa belə, hansı aristokratı, yaxud hansı tiranı istəyirsən göstər, əsla tərəddüd etmədən elə bu saat onun boynunu...

Madam belə deyib dişlərini qıcadı, sözün həqiqi mənasında, qəzəbli bir hərəkətlə növbəti düyünü vurdu.

– Bəsdir! – Defarj qışqırdı, sanki qorxaqlıqda ittiham olunubmuş kimi azca qızardı. – Məni də, əzizim, məni də heç kim, heç nə saxlaya bilməz!

– Çox yaxşı! Sənin zəif cəhətin ondadır ki, daxilindəki mətinliyi saxlamaq üçün öz qurbanınla vaxtaşırı qarşılaşıb gücünü yoxlamalısan. Bunlar olmadan da qətiyyəti saxlamaq lazımdır. Hər şeyin öz vaxtı var; iblislə pələngi azad etməyin də öz vaxtı var, amma hələlik onları zəncirdə saxlamaq lazımdır, heç kimə də göstərmək lazım deyil.

Madam öz sözünü təsdiq etmək üçün dəsmala zəncir kimi düyünləyib yığdığı xırda pulları piştaxtaya elə çırpdı, sanki piştaxtanın başını partladıb beynini yerə tökmək istəyirdi; sonra ağırlaşmış dəsmalı qoltuğunun altında gizlətdi, heç nə olmayıbmış kimi sakitcə dedi ki, artıq yatmaq vaxtıdır.

Səhərki gün günorta vaxtı həmin o gözəl qadın şərab dükanında həmişə oturduğu yerdə oturub səylə toxuyurdu. Onun düz elə böyründə bir gül var idi, qadın hərdən gülə baxsa da, üzündəki qayğılı, işgüzar ifadə dəyişmirdi. Elə də çox olmayan müştərilərdən kimisi oturmuşdu, kimisi ayaq üstəydi, içki içəni də var idi, içməyəni də. Hava istiydi, milçəklər vızıldaşıb hara gəldi qonur, qətiyyət və inadkarlıqla hər yeri yoxlayıb baxır, madamın yaxınlığındakı stəkanların dibinə enir, oradakı yapışqanlı mayeyə yapışıb məhv olurdular. Bu milçəklərin başına gələnlər o birilərinə dərs olmurdu və onlar bu mənzərəni çox soyuqqanlılıqla seyr edir (sanki onlar özləri milçək deyil, tamam fərqli bir canlı, məsələn, fil idilər), geri çəkilmədən stəkanın dibinə enir, özləri də məhv olurdular. Milçəklərin necə ağılsız olduğunu müşahidə etmək təəccüb doğurmaya bilməzdi və yəqin ki, həmin o günəşli yay günü sarayda da bu cür fikirləşirdilər.

Qapıdan içəri girən adamın kölgəsi madam Defarjın üstünə düşdü və o başını qaldırmadan da hiss elədi ki, hər kimdirsə, bu, təzə adamdır. Madam əlində toxuduğu şeyi yerə qoydu, təzə gələn adama baxma-

dan gülü götürüb başına bağladığı yaylığın dolaqlarından birinin altına bərkitdi.

Təəccüblüydü: madam Defarj gülü götürən kimi dükandakı söz-söhbət kəsildi, müştərilər durub bir-bir çıxdılar.

– Hər vaxtınız xeyir, madam, – təzə müştəri dedi.

– Hər vaxtınız xeyir, müsyö.

Madam bu sözü bərkdən dedi, öz-özünə isə belə dedi: "Aha! Xoş gəlmisiniz! Deməli, belə: yaşı 40-a yaxın, boyu 5 fut 9 düym, saçları qara, belə baxanda ümumi görünüşü kifayət qədər yaxşıdır, qarabuğdayıdır, gözləri qaradır, uzunsov sifəti arıqdır və xəstəhal görünür, qartal dimdiyinə oxşayan burnu sol yanağına tərəf azca əyilib, o səbəbdən daha iyrənc təəssürat yaradır! Hər vaxtınız xeyir, xoş gəlmisiniz!"

– Madam, xahiş edirəm, mənə bir az köhnə konyak, bir qurtum da soyuq su verəsiniz.

Madam çox böyük məmnuniyyətlə müştəriyə konyak da verdi, su da.

– Əla konyakdır, madam!

Konyakın bu cür tərifləndiyi birinci dəfəydi, madam Defarj isə onun necə konyak olduğunu gözəl bilirdi. Amma, bununla belə, konyakının tərifləndiyini eşidib məmnunluğunu bildirdi, piştaxtanın üstünə qoyduğu əl işini götürüb toxumağa başladı. Təzə müştəri bir müddət onun barmaqlarına fikir verərək, gözaltı dükanı nəzərdən keçirib dedi:

– Siz çox məharətlə toxuyursunuz, madam.

– Adət eləmişəm.

– Yaxşı da naxışlar vurursunuz!

– Xoşunuza gəlir? – Madam gülümsəyərək təzə müştəriyə baxdı, əlləri isə işdən qalmadı.

– Əlbəttə, xoşuma gəlir. Bilmək olarmı nə toxuyursunuz?

– Boş dayanmamaq üçün toxuyuram, – hələ də gülümsəyərək baxan, barmaqları isə məharətlə işləməkdə olan madam dedi.

– Belə çıxır ki, konkret olaraq heç nə deyil, eləmi?

– Yox, elə deyil. Nə vaxtsa, haradasa bir işə yarayacaq. Baxır nə alınacaq, necə toxuyacağam, – madam köksünü ötürüb tutqun şıltaqlıqla dedi. – Yəqin, bir yer tapıb istifadə edəcəyəm!

Hər şey diqqətəlayiq hesab edilə bilərdi, amma madamın baş yaylığına taxılmış gül Sent Antuan adətlərinə uyuşmurdu. Ayrı-ayrılıqda iki

müştəri dükana daxil olub içki sifariş eləmək istədikləri anda gördükləri yenilik onları bu fikirdən daşındırdı, ora-bura boylanıb özlərini elə göstərdilər ki, guya kimisə axtarırlar, amma o adam burada yoxdur və o səbəbdən çıxıb getdilər. Təzə müştəri gələndə içəridə olanlar da hamısı artıq dükanı tərk etmişdi. Xəfiyyə nə qədər diqqətlə fikir versə də, heç bir şərti işarə görə bilmirdi. Görkəmindən fağırlıq, kasıb-kasadlıq yağan müştərilər buraya elə-belə gəlir, heç bir alış-veriş etmədən, əsla şübhə doğurmadan da çıxıb gedirdilər. Təzə müştəridən gözünü çəkməyən və toxumağını bir an da dayandırmayan madam öz-özünə dedi: "Con, burada o qədər dayan ki, sən gedənəcən imkan tapıb familiyan Barsedi də toxuya bilim".

– Ərdəsiniz, madam?

– Bəli.

– Uşaqlar necə?

– Uşaq yoxdur.

– Alış-veriş necədir, bir şey çıxırmı?

– Alış-veriş pisdir; camaat çox kasıbdır.

– Ah, yazıq camaat! Dediyiniz kimi, o qədər sıxıntı içində yaşayırlar ki...

– Mən elə söz demədim, siz elə deyirsiniz, – deyə madam etiraz eləyib ona düzəliş verdi, eyni zamanda onun adına elə naxışlar vurdu ki, bunun nəsə yaxşı bir nəticə verəcəyini gözləmək olmazdı.

– Üzr istəyirəm, mən elə dedim. Amma, təbii ki, siz də elə fikirləşirsiniz.

– Mən o fikirdəyəm? – madam səsini qaldırıb dedi. – Ərimlə mən ancaq bu dükanı saxlamaq barədə fikirləşirik. Necə yaşamaq? Biz bu barədə fikirləşirik, səhərdən axşamacan baş sındırıb ancaq bu məsələni həll etmək istəyirik. Öz dərdimiz özümüzə bəsdir, başqaları barədə fikirləşməyə vaxtımız yoxdur. Yox, yox! Elə bir o qalmışdı!

Xəfiyyə bəzi məlumatlar toplayıb yuxarı ötürmək üçün gəlsə də, çətin vəziyyətə düşmüşdü, amma onun qəddar sifəti nə təəssüf, nə də çaşqınlıq ifadə etmirdi; heç nə olmayıbmış kimi dirsəyini piştaxtaya söykəyib qabağa əyilmişdi, konyak içir, bütün görkəmiylə demək istəyirdi ki, qeybət qırmağa hazırdır.

– Deyirəm bu Qasparın edam edilməyi heç yaxşı iş olmadı, madam. Eh, yazıq Qaspar! – Casus dərin təəssüflə köksünü ötürdü.

– Yox, elə deməzdim! – madam soyuqqanlıqla etiraz elədi. – Əgər adamlar hər şeydən ötrü bıçağa əl atırlarsa, buna görə cavab verməlidirlər. O nə elədiyini və əvəzində nə alacağını yaxşı bilirdi. Cəzasına çatdı.

– Mənə elə gəlir ki, – casus səsinə həmsöhbətinə etibar edən adamlar sayağı ton verdi; indi o özünü arzuları puç olmuş bir inqilabçı yerinə qoymuşdu və o cür də danışırdı, – bu, əlbəttə, mənim şəxsi fikrimdir, amma mənə elə gəlir ki, bu edam camaat arasında ciddi narazılığa səbəb olub. Öz aramızda qalsın, amma, hər halda, düzmü deyirəm?

– Düzmü deyirsiniz? – madam dalğın halda dedi.

– Düz demirəm?

– Hə, budur, ərim də gəldi! – madam Defarj dedi.

Dükan sahibi içəri girən kimi casus şlyapasına toxunaraq onu salamladı, gülümsəyərək: "Hər vaxtınız xeyir, Jak!" – dedi. Defarj ayaq saxlayıb ona baxdı.

– Hər vaxtınız xeyir, Jak! – casus təkrar elədi, amma bu baxışın qarşısında nəsə bir inamsızlıq hiss elədi, çalışıb birtəhər gülümsədi.

– Siz məni kiminləsə səhv salırsınız, müsyö, – şərab dükanının sahibi dedi, – mənim adım Ernest Defarjdır.

– Nə fərqi var ki, – casus heç nə olmayıbmış kimi dedi, amma üzə vurmasa da, tutulmuşdu, – hər vaxtınız xeyir!

– Hər vaxtınız xeyir! – Defarj soyuq bir cavab verməli oldu.

– Elə siz içəri girəndə madamla mən o barədə danışırdıq; söz gəzir ki, Qasparın edam olunması çox adama təsir eləyib, camaat o bədbəxtin halına acıyır; məncə, burada təəccüblü bir şey də yoxdur.

– Burada heç kim mənə elə bir söz deməyib, – Defarj başını silkələyib dedi. – O barədə mən heç nə bilmirəm.

Belə deyib o piştaxtanın arxasına keçdi, əlini arvadı oturan stulun söykənəcəyinə toxunduraraq qarşısında dayanmış adama baxdı; indi bu anda arvadı da, özü də əsla heyifsilənmədən gülləni bu tipin kəlləsinə çaxar və bundan zövq alardılar.

Casus öz işini yaxşı bilən adam kimi, heç nəyə fikir vermədən balaca stəkandakı konyakı içib qurtardı, üstündən bir qurtum soyuq su içdi, yenə konyak istədi. Madam Defarj ona bir stəkan konyak süzdü, dodaqaltı mızıldayıb hansısa mahnı zümzümə edərək yenidən toxumağa başladı.

– Belə görürəm ki, bu məhəlləni siz məndən yaxşı tanıyırsınız, elədirmi? – Defarj dedi.

– Heç də yox. Amma ümidvaram ki, yaxından tanıya biləcəyəm. Mən, sözün həqiqi mənasında, bu bədbəxt insanların halına acıyıram.

– Hm! – Defarj mızıldandı.

– Müsyö Defarj, sizinlə söhbət eləmək mənə zövq verir, – casus dedi. – Sizin adınızla bağlı xeyli maraqlı xatirələrim də var.

– Nə danışırsınız?! – Defarj etinasızlıqla dedi.

– Bəli, həqiqətən elədir. Mənə məlumdur ki, doktor Manett həbsxanadan azad ediləndə keçmiş qulluqçusu kimi siz onu öz himayənizə götürmüsünüz; daha doğrusu, onu sizə təhvil veriblər. İndi gördünüzmü ki, mən kifayət qədər məlumatlı adamam?

– Bu bir faktdır, – Defarj dedi. Burnunun altında mızıldayıb mahnı oxuyan arvadı bu vaxt sanki təsadüfən dirsəyiylə ona toxunub işarə verdi ki, susmaq lazım deyil, danış, cavab ver, amma kəsə danış.

– O vaxt doktorun qızı sizin yanınıza gəlmişdi, – casus dedi, – qızla birlikdə yaşlı bir kişi də gəlmişdi; təmiz-təraq, səliqəli bir adamdı, başına da sığallı, balaca parik qoyur. Başdan-ayağacan qəhvəyi geyimdə olan cənabın adı nə idi? Dayan görüm... Hə, yadıma düşdü, Lorri. Tellson Bankın işçisi Lorri. Onlar doktoru götürüb İngiltərəyə apardılar.

– Tamamilə düz deyirsiniz, – Defarj dedi.

– Çox maraqlı xatirələrdir! – casus dedi. – Mən sonralar İngiltərədə doktor Manettlə və onun qızıyla görüşüb tanış olmuşam.

– Doğrudanmı? – Defarj dedi.

– Siz onlar barədə heç nə eşitməmisiniz? – casus soruşdu.

– Yox, – Defarj dedi.

– Biz onlarla əlaqə saxlamırıq, – madam Defarj əli işləyə-işləyə zümzüməsinə ara verib başını qaldırdı, söhbətə müdaxilə etdi. – Buradan yola düşəndən sonra məktub yazdılar ki, sağ-salamat gedib çatıblar. Sonralar bir, ya da iki məktub almışıq, vəssalam. O vaxtdan bəri də yazışmırıq, əlaqəmiz yoxdur; həyatda onların öz yolu, bizimsə öz yolumuz var.

– Tamamilə düz buyurursunuz, madam, – casus dedi. – Doktorun qızı ərə gedir.

– Ərə gedir? – madam soruşdu. – O cür qəşəng qız çoxdan ərdə olmalıydı. Mənə elə gəlir ki, siz ingilislər soyuqqanlı adamlarsınız.

– Oh! Siz artıq bilirsiniz ki, mən ingilisəm.

– İngilis ləhcəsiylə danışırsınız, – madam dedi. – Ona görə hesab edirəm ki, ingilissiniz.

Müqayisə, çox güman ki, casusun xoşuna gəlmədi, amma bunu qulaqardına vurub güldü, konyakını axıracan içib dedi:

– Bəli, miss Manett ərə gedir. Amma ingilislə evlənmir, bir nəfər var, qızın özü kimi, o da fransızdır, ona ərə gedir. Biz burada Qaspardan danışdıq (ah, yazıq Qaspar! Qəddarlıqdır, çox böyük qəddarlıqdır!), məsələnin maraqlı cəhəti ondadır ki, miss Manett qətlində Qasparın suçlandırıldığı markizin qardaşı oğluna ərə gedir, əslində, bugünkü markizə ərə gedir. Amma İngiltərədə onu markiz kimi tanımırlar, orada onun adı Çarlz Darneydir. Anasının qızlıq familiyası D`Aulnais olub.

Madam Defarj heç nəyə fikir vermədən toxuyurdu, amma bu xəbər onun ərinə güclü təsir etmiş, həyəcanlandırmışdı. Piştaxtaya nə eləmək mümkünsə, onu elədi ki, özünü ələ alsın: od yandırıb qəlyanını tüstülətdi. Amma elə həyəcanlıydı ki, əlləri elə bil sözünə baxmırdı. Bütün bunları görüb yadında saxlamasaydı, onda casus heç casus olmazdı.

Mister Barsed artıq şübhə eləmirdi ki, nəsə bir əlyeri tapıb, amma bilmirdi bunun nəticəsi nə olacaq, digər tərəfdən dükanda başqa müştərilərin olmaması üzündən əlavə nəyəsə ümid etmək də düz deyildi, ona görə də içkinin haqqını ödəyib dükandan çıxdı; getməmişdən əvvəl isə dedi ki, gələcəkdə müsyö Defarjla və madam Defarjla görüşmək istərdi, buna görə çox məmnun olardı. Casus dükandan çıxandan sonra da onun Sent Antuanda dolaşdığını, hər an geri qayıda biləcəyini ehtimal edən ərlə arvad bir müddət yerlərindən tərpənmədilər.

– Necə bilirsən, – Defarj ayaq üstə dayanıb qəlyan çəkə-çəkə əlini stulun söykənəcəyindən götürmədən yuxarıdan aşağı arvadına baxıb yavaş səslə dedi, – madmazel Manett barədə onun dedikləri düz ola bilərmi?

– Əgər bu sözü o deyirsə, çox güman ki, yalandır, – madam Defarj qaşlarını azca qaldırıb dedi. – Amma doğru da ola bilər.

– Əgər düzdürsə, – Defarj belə deyib susdu, cümləsi yarımçıq qaldı.

– Əgər düzdürsə? – madam təkrar elədi.

– Əgər biz deyən olsa, biz o qələbəni görsək, ümid edirəm ki, böyük Yaradan o qıza rəhm edəcək, onun ərini Fransadan uzaqlarda saxlayacaq.

– Ərinin taleyi onu hara lazımdırsa, ora aparacaq, – madam Defarj özünəməxsus sakit tərzdə dedi, – sonu necə olmalıdırsa, elə də olacaq. Mən bunu bilirəm.

– Amma qəribədir, hər halda, çox qəribədir, elə deyil? – Defarj əl çəkmir, sanki təkidlə arvadını dilə tuturdu. – Bizim onun atasına və qızın özünə olan hörmətimizə rəğmən sən onun ərinin adını indicə buradan çıxan o alçağın adıyla yanaşı yazmaq istəyirsən. Bu nə dərəcədə düzdür?

– Vaxt gələcək, çox şey bizə qəribə görünəcək, – madam dedi. – Hər ikisinin adı siyahıya düşüb, həm də məhz layiq olduqları üçün adları siyahıya düşüb, vəssalam.

Sözünü tamamlayan kimi madam əlində toxuduğu şeyi büküb yığışdırdı, dərhal da başına örtdüyü dəsmalın altına taxdığı gülü çıxartdı. Sent Antuanın ya elə hissiyyatı vardı ki, xoşlamadığı bəzəyin yox olduğunu dərhal duya bildi, ya da Sent Antuan baxıb göz qoyurdu, hər necə olsa da, artıq adamlar gəlib pəncərədən içəri boylanırdılar və az keçməmiş şərab dükanı öz əvvəlki görkəmini aldı.

İlin bu vaxtları axşamtərəfi sanki Sent Antuanın içini çölə çevirirdilər; hamı evdən çıxırdı, kimisi çıxıb küçədə qapının ağzında dayanırdı, ya da otururdu, bəzi adamlarsa çirkli həyətlərdə, ya da küçələrin tinində oturub vaxt keçirir, havalarını dəyişirdilər. Həmin vaxt madam Defarj da boş dayanmırdı: əlində nəsə toxuyan madam adamların bir dəstəsinə yaxınlaşır, bir az sonra o biri dəstəyə tərəf yollanırdı, – missionerlik eləyirdi; belə missionerlər o vaxt çox idi, Allah belələrindən saxlasın. Qadınların hamısı əlində nəsə toxuyurdu. Kim nə bacarırdı, onu da toxuyurdu, təki əlində bir iş olsun; mexaniki iş aclığı unutdurur, susuzluğu kəsirdi, əllər işləyir və ağızla mədənin işini əvəz edirdi, sümüyü çıxmış barmaqlar dayanan kimi mədə öz tələblərini irəli sürürdü.

Barmaqlar işə düşəndə göz də işləyirdi, beyin də. Madam Defarj qadınların bir dəstəsindən aralanıb o birinə yaxınlaşırdı və bu vaxt əvvəlki dəstənin qadınları daha səylə toxuyurdu, onların barmaqları, gözləri və beyinləri haradansa güc alaraq daha sürətlə işləməyə başlayırdı.

Madam Defarjın əri öz qapısının ağzında dayanıb qəlyan çəkir, heyranlıqla arvadına göz qoyur, öz-özünə deyirdi: "Güclü adamdır, əvəzsiz qadındır; həqiqətən, möhtəşəm insandır!"

Ətraf qaranlığa qərq olurdu, kilsə zənginin səsi eşidildi, sonra da kral qvardiyasının hərbi paradını müşayiət edən barabanların uzaqdan gələn səsi eşidildi; qadınlar isə oturub hələ də toxuyurdular, qaranlıq onları hər tərəfdən bürüyürdü. Başqa bir qaranlıq da yaxınlaşmaqdaydı; bütün Fransanı bürümüş kilsə zənglərinin səsi top səslərinin içində əriyərək itdiyi vaxt, döyüş barabanlarının səsi hələ də Hakimiyyət və Bolluq, Azadlıq və Həyat deyən zəif səsi boğduğu vaxt gəlir o qaranlıq. Oturub dayanmadan toxuyan qadınların ətrafında sıxlaşır qaranlıq, qadınlar özləri də sanki hələ tikilib qurtarmamış hansısa tikilinin ətrafında sıxlaşırlar, dayanmadan toxuyur, toxuyur, toxuyurdular və kəsilib yerə düşən başları sayırdılar.

XVII fəsil

BİR GECƏ

O gün axşamtərəfi doktorla qızı çinar ağacının altında oturub söhbət elədikləri vaxt sakit Soho küçəsinin bu qədər əlvan rənglərə qərq olduğu əvvəllər nədənsə heç müşahidə olunmamışdı. Böyük London səmasında yüksəlməkdə olan Ay əvvəllər heç vaxt bu qədər yumşaq və zərif şüalar saçmamışdı; Ay oradan boylanıb çinarın altında oturmuş ata ilə qızı tapdı, yarpaqların arasından süzülən şəfəqləriylə onların üzünü işıqlandırdı.

Lüsinin toyu sabaha təyin olunmuşdu. Qız ata evində keçirdiyi son gecəni də atasına həsr etmək istəyirdi və indi onlar çinar ağacının altında oturmuşdular.

– Kefin necədir, ata, yaxşısanmı?

– Yaxşıyam, bala.

Onlar xeyli vaxtdır burada otursalar da, az danışırdılar. Gün batmamışdan əvvəl axşam hava işıqlı olanda da Lüsi kitab oxumağa və əl işləriylə məşğul olmağa vaxt sərf etmədi. Əvvəllər burada oturanda həm kitab oxumaqla, həm də nəsə bir iş görməklə vaxtını boş keçirməməyə çalışan Lüsi bu axşamın əvvəlkilərə bənzəmədiyini – xüsusi bir axşam olduğunu nəzərə alaraq heç bir iş görmədən sakitcə oturmuşdu.

– Bu axşam mən özümü çox xoşbəxt hiss edirəm, ata. Taleyimdən razıyam ki, mənim sevgimi Çarlza, Çarlzın da sevgisini mənə bəxş edib. Əgər öz həyatımı sənə həsr edə bilməsəydim, ya da əgər ərə getməyimlə əlaqədar olaraq ayrı yaşamalı olsaydım, özümü bədbəxt hiss edərdim, sözlə ifadəsi çətin olan vicdan əzabı çəkərdim. Hətta əgər...

Bu yerdə artıq səsi onun sözünə qulaq asmadı.

Qız zəif Ay işığında atasının boynunu qucaqladı, başını onun sinəsinə qoydu. Ay işığında nəsə bir kədər var, gəldi-gedər insan həyatı da Ay işığı kimi kədərlidir.

– Dünyada ən əziz adamdan da mənə əziz olan ata! Sən indi bu axşam, bu son gecə deyə bilərsənmi ki, heç bir yeni bağlılıq, yeni qayğılar bizim aramıza girib az da olsa, əngəl törədə bilməz? Bunu mən bilirəm və əminəm, bəs sən necə, əminsənmi?

Ata ürəkdən gələn səmimiyyətlə, əsla şübhə yeri qoymayan bir inamla dedi:

– Bütün qəlbimlə inanıram, əzizim! – Qızının alnından öpüb sözünə davam elədi: – Bundan əlavə, sənin ərə getməyin mənim həyatımı daha mənalı edir; bu belə olmalıydı, başqa cür mümkün deyil; mən çox şadam, xoşbəxtəm.

– Mən bunun həqiqətən belə olduğuna inanmaq istərdim.

– İnan, əziz balam, həqiqətən belədir. Sən bir özün də fikirləş, gör necə sadə və təbiidir; başqa cür ola da bilməzdi. Sən bir övlad kimi mənə çox bağlısan, özünü mənə həsr edirsən, bir iş də var ki, axı sən gənc qızsan və sənin həyatının bu cür boş-boşuna keçdiyini görüncə mənim ürəyim ağrıyırdı.

Qız əlini uzatdı ki, onun bu cür danışmağına mane olsun. Amma atası onun əlini öz əliylə tutub, sözünə davam elədi:

– Həyatı boş yerə sərf eləmək olmaz, qızım. Sən mənim xatirimə həyatın təbii axarının əksinə çıxmaq, başqa cür yaşamaq istəyirsən, amma belə olmaz. Bütün fədakarlığına rəğmən, bəlkə də, bilmirsən ki, səni ailə həyatından kənarda görmək mənə necə ağırdır.

– Əgər mən Çarlza rast gəlməsəydim, sənin yanında olmaq özü mənim xoşbəxtliyim üçün bəs edərdi.

Qızının özündən asılı olmayaraq, Çarlzsız xoşbəxt ola bilməyəcəyini etiraf etməsi doktoru gülümsəməyə məcbur elədi.

– Mənim balam, sənin qarşına çıxan adam odur, Çarlzdır. Əgər Çarlz olmasaydı, başqa birisi olacaqdı. Əgər başqası olmasaydı və mən sənin həyatının tam fərqli bir yolla getməsinə bais olsaydım, onda həyatımın qaranlıq hissəsinin kölgəsi sənin də üstünə düşərdi.

Məhkəmədən sonrakı dövrdə ilk dəfəydi ki, doktor qızına öz çəkdiyi əzablardan söz açırdı. Atasına qulaq asan qız nəsə yeni, qəribə hisslər keçirirdi və sonra uzun müddət bunu unuda bilmədi.

– Ora bax! – boveli doktor bunu deyib əlini Aya tərəf uzatdı. – Mən ona həbsxananın pəncərəsindən baxırdım, hətta o zəif işıq da gözlərimi qamaşdırırdı. O işığın həyatda itirdiklərimin də üstünə düşdüyünü fikirləşəndə ağlım başımdan çıxırdı, başımı həbsxananın divarlarına çırpırdım. Küt və laqeyd halda dayanıb Aya baxırdım, heç nə barədə fikirləşmirdim, yalnız tam dəyirmilənmiş Ayın səthindən neçə üfüqi və o xətlərlə kəsişən neçə perpendikulyar xətt keçirməyin mümkünlüyü barədə düşünürdüm. – Doktor yenidən Aya baxıb özünəməxsus daxili düşüncə manerasıyla əlavə elədi: – Cəmisi iyirmi xətt alınırdı; iyirminci xətti birtəhər güclə yerləşdirmək mümkün olurdu.

Atasının öz keçmişini xatırlaması qızın vücuduna qəribə bir titrətmə salırdı, doktor danışdıqca bu hiss güclənirdi; amma burada həyəcanlanmağa əsas da yox idi, çünki doktor sanki sakitcə oturub indiki xoşbəxt günlərini keçmişdəki əzablarıyla müqayisə edirdi.

– Aya baxa-baxa hələ anadan olmağa macal tapmamış itirdiyim, bircə dəfə də üzünü görmədiyim körpə barədə fikirləşirdim. Görəsən, ölüb, yoxsa yaşayır? Dirimi doğulub, yoxsa anasının keçirdiyi sarsıntılar onu elə ana bətnindəcə öldürüb? Bəlkə də, oğlandır və gün gələcək, atasının intiqamını alacaq. (Bir vaxtlar, həbsxanada yatdığım zaman intiqam hissi mənə rahatlıq vermirdi). Bəlkə də, oğlandır, amma atasının başına gələnlərdən heç vaxt xəbər tutmayacaq, ya da bəlkə, böyüyəndə fikirləşəcək ki, yəqin, atası öz istəyiylə yoxa çıxıb. Əgər qızdırsa, yəqin, artıq böyüyüb qadın olub.

Qız atasına tərəf bir qədər də yaxınlaşdı, onun yanağından, əlindən öpdü.

– Təsəvvür edirdim ki, qızım məni tamam unudub, mənim barəmdə əsla düşünmür, yaxud mənim hələ də həyatda olduğumdan xəbərsizdir. İlləri sayırdım, xəyalən də olsa, hər il onun necə böyüdüyünü görürdüm; mən onun ərə getdiyini və ərinin mənim barəmdə heç nə bilmədiyini görürdüm. İndiki nəsillərin yaddaşından silinmişdimsə, gələcək nəsillər də mənim barəmdə heç nə bilməyəcəkdi.

– Ata! Sizin o mövcud olmayan qız barədə düşüncələri yada salmağınız mənim ürəyimi ağrıdır, hətta elə bilirəm ki, o uşaq mənəm.

– Nə danışırsan, Lüsi? Sən məni həyata qaytarmısan, mən indi öz keçmiş günlərimi xatırlayıram, bu son gecə o xatirələr bizimlə Ayın arasından ötüb-keçir. Bayaq mən nə dedim?

– Qız sənin barəndə heç nə bilmirdi. O barədə heç fikirləşmirdi.

– Belə! Amma bəzi gecələr Ay işığı mənə tamam başqa cür təsir edirdi, sakit və qəmli bir sükuta dalırdım – hər bir ağrılı düşüncədən sonra belə olur – və təsəvvür edirdim ki, mənə baş çəkmək üçün qızım həbsxanaya gəlib, məni o divarların arasından götürüb azadlığa çıxarır. Ay işığında tez-tez gözümün qabağına gəlirdi; indi səni gördüyüm kimi, mən onu da aydınca görürdüm, amma əlimlə toxuna bilmirdim, həmişə də dəmir barmaqlıqlı pəncərə ilə qapının arasında dayanırdı. Sən indi başa düşdünmü haqqında danışdığım uşaq deyil o?

– Obraz deyil o; görüntüdür, yoxsa fantaziya?

– Yox. O, başqa şeydir. Mənim zəifləmiş gözlərimin qarşısında dayanırdı, amma heç vaxt hərəkət eləmirdi. Mənim xəyalımdakı o qız real insan idi, görkəminə gəlincə, onu deyə bilərəm ki, sənin kimi, o da anasına oxşayırdı, amma bir az fərqliydi. Sən mənim fikrimi tuta bilirsən, Lüsi? Yəqin ki, çətinlik çəkirsən, eləmi? Belə incəliklərin fərqinə vara bilmək üçün insan gərək tənha həbsxana həyatının nə olduğunu bilsin, o həyatı yaşamış olsun.

Doktorun sakit, ağıllı danışıq tərzi, öz keçmişiylə bağlı çətin psixoloji vəziyyəti soyuqqanlıqla analiz etməsi qızı dəhşətə gətirir, az qalırdı damarlarında axan qan da soyuyub buza dönsün.

– Ay işığında o cür sakit, qəmli düşüncələrə daldığım vaxt mənə elə gəlirdi ki, qızım gəlib məni həbsxanadan götürərək ərə gedəndən sonra yaşadığı evə aparır və məlum olur ki, o ev yoxa çıxmış atayla bağlı xatirələrlə doludur. Onun otağında mənim portretim asılmışdı, dualarında mənim adım çəkilirdi. Qızım xoşbəxt, işgüzar, faydalı bir həyat yaşayırdı, amma mənim həyatımın acı xatirəsi hər şeydə özünü büruzə verirdi.

– O qız mən idim, ata. Düzdür, o qız qədər yaxşı deyiləm, amma sənə olan məhəbbətimlə o qız mənəm.

– Qızım öz uşaqlarını göstərirdi mənə, – boveli doktor dedi, – uşaqlar mənim barəmdə eşitmişdilər və halıma acıyırdılar. Uşaqlar həbsxananın yanından keçəndə onun zəhmli divarlarından aralıda dayanır, boylanıb yuxarıdakı dəmir barmaqlıqlara baxır, pıçıltıyla danışırdılar. O qız məni həbsdən azad edə bilmirdi, təsəvvür edirdim ki, o məni gəlib evinə aparır, ev-eşiyini göstərir, uşaqlarını göstərir, sonra geri qaytarır. Mən də diz üstə çöküb göz yaşları içində ona dua edirəm.

– O qız mənəm, ata; inanıram ki, o mənəm. Oh, mənim əzizim, əzizim ata, sabahkı gündə də sidqi-ürəkdən mənə dua edəcəksənmi?

– Lüsi, mən keçmiş əzablarımı indi ona görə xatırladım ki, səni sözlə ifadəsi mümkün olmayan bir məhəbbətlə sevdiyimi bu axşam bildirəm, mənə bu qədər böyük səadət bəxş etdiyi üçün Allaha minnətdarlığımı ifadə edəm. Sənin yanında keçən xoşbəxt günlər, eləcə də bizi gələcəkdə gözləyən daha gözəl günlər barədə heç fikirləşməmişdim.

Doktor qızını qucaqladı, ona bu səadəti bəxş edən göylərə öz minnətdarlığını bildirdi. Sonra onlar birlikdə evə getdilər.

Toya mister Lorridən başqa, heç kim dəvət olunmamışdı, gəlinin rəfiqələrini isə qaşqabaqlı miss Pross əvəz edirdi. Toydan sonra gənc ərarvad başqa yerə köçməli olmayacaqdı: əvvəllər hansısa gözəgörünməz kirayənişinin yaşadığı yuxarı mərtəbə indi boş idi, oranı tutmaq olardı, cavanlara da bundan artıq heç nə lazım deyildi.

Şam yeməyi zamanı doktor Manettin kefi yaxşıydı. Süfrə arxasında oturanda onlar üç nəfər idilər, üçüncü adam isə miss Pross idi. Doktor təəssüflənirdi ki, Çarlz şam yeməyində iştirak eləmir; ataya hörmət əlaməti olaraq bu gecə onun buradan uzaqlaşdırılmasına qarşı etiraz elədi və onun sağlığına badə qaldırdı.

Doktor, nəhayət, Lüsiyə "Gecəniz xeyrə qalsın!" deyib öz otağına getdi. Gecənin gec vaxtı – saat 3-də, səssizliyin hər tərəfdə hökmranlıq sürdüyü vaxt Lüsi öz otağından çıxıb pilləkənlə aşağı düşdü, yavaşca doktorun otağına daxil oldu; nəsə tutqun bir həyəcan qıza rahatlıq vermirdi.

Amma, yaxşı ki, hər şey öz yerində, öz qaydasındaydı; doktor yatmışdı, onun ağ saçları balışın üstünə dağılıb diqqətçəkən bir mənzərə yaratmışdı, hər iki əli yorğanın üstündəydi. Qız indi ona lazım olmayan şamı uzaq küncdəki kölgəyə qoyub çarpayıya yaxınlaşdı, atasını öpdü, dayanıb xeyli müddət onun üzünə baxdı.

Doktorun qəşəng siması uzun həbsxana həyatının izlərini saxlamışdı, amma o artıq özünü ələ almışdı deyə hətta yuxuda olduğu vaxtda da o izləri görmək çətinlik törədirdi. Sakit və qətiyyətli sifətə baxanda adama elə gəlirdi ki, onun sahibi hansısa gözəgörünməz düşmənlə ölümdirim mübarizəsi aparır, – o gecə dərin yuxuya getmiş insanlar arasında kiminsə belə sifətini görmək, yəqin ki, mümkün deyildi.

Qız əliylə ehmalca onun sinəsinə toxundu. Allaha dua etdi ki, ömrü boyu bu insana etibarlı dayaq olmaqda ona kömək etsin, atası da öz əzablarına görə layiq olduğu qayğını onda tapa bilsin. Sonra qız əlini çəkdi, atasını bir də öpüb otaqdan çıxdı. Budur, artıq günəş də doğdu, çinar yarpaqlarının kölgəsi doktorun üzündə elə zərif oynaşdı, elə bil qızı onun üçün dua edəndə dodaqları tərpənirdi.

XVIII fəsil

DOQQUZ GÜN

Toy günü hava aydın və günəşliydi, adamlar doktorun otağı tərəfdən qapının ağzına toplaşmışdılar; qapı bağlıydı, doktor içəridə Çarlz Darneylə nə barədəsə danışırdı. Qəşəng gəlin, mister Lorri, bir də miss Pross hazırlaşmışdılar ki, kilsəyə getsinlər; miss Pross, axır ki, bu qaçılmaz ayrılıqla barışmalı olmuşdu, amma, hər halda, qəlbinin dərinliklərində təəssüflənir və hesab edirdi ki, özündənbəy gərək onun qardaşı Solomon olaydı, o halda bugünkü toyun misli-bərabəri olmazdı.

– Hə, bax belə, – gəlindən, onun dəbdəbədən uzaq, lakin çox qəşəng və yaraşıqlı geyimindən gözünü çəkə bilməyən mister Lorri dedi, – əzizim Lüsi, balaca körpəykən səni qucağıma alıb Lamanş boğazını elə buna görə keçirtmişdim! Allah özü şahiddir! Nə elədiyim barədə heç fikirləşmirdim. Dostum mister Çarlzı necə qiymətli hədiyyəylə xoşbəxt edə biləcəyim ağlıma da gəlməmişdi!

– Siz o barədə heç nə bilmirdiniz, – miss Pross öz iradını bildirdi. – Bilmirdinizsə, necə fikirləşə bilərdiniz? Mənasız sözlər deyirsiniz!

– Eləmi? Yaxşı, siz deyən olsun, amma ağlamayın, – mister Lorri nəvazişlə dedi.

– Mən ağlamıram, – miss Pross dedi, – siz ağlayırsınız.

– Mən ağlayıram, miss Pross? – Elə bir vaxt idi ki, mister Lorri bu qadınla zarafat etməyi özünə rəva bilirdi.

– Bəli, ağlayırdınız; bax elə indicə öz gözümlə gördüm, amma təəccüblənmirəm, – miss Pross dedi. – Sizin hədiyyə elədiyiniz boşqabları görən hər kəs ağlayar. Kolleksiyadakı hər qaşığı, hər çəngəli əlimə götürəndə ağlamışam; qab-qaşıq dəsti dünən axşam sizdən gətiriləndən sonra o qədər ağlamışam ki, gözüm yaxşı görmür.

– Mən hədsiz dərəcədə məmnun oldum, – mister Lorri dedi, – amma nəyə deyirsiniz and içə bilərəm ki, bu cür xırda-para şeylərlə heç kimin gözünü qamaşdırmaq niyyətim olmayıb. Aman Allah! Belə yerdə adam istər-istəməz nələri itirdiyi barədə fikirləşməli olur. Təsəvvür edin ki, əlli il ərzində mənim yanımda missis Lorri adlı bir xanım da ola bilərdi!

– Yox, ola bilməzdi! – miss Pross etiraz elədi.

– Deməli, siz hesab edirsiniz ki, bu dünyada missis Lorri adlı bir qadının olması mümkün deyildi? – mister Lorri soruşdu.

– Pah! – miss Pross yenidən söhbətə qoşuldu. – Siz anadangəlmə subaysınız.

– Yaxşı! – Mister Lorri gülümsəyib parikini düzəltdi. – Ola da bilər ki, siz düz deyirsiniz.

– Subaylıq sizin boyunuza biçilib, – miss Pross öz fikrini daha aydın ifadə etməyə çalışdı, – siz ana bətnindəykən məlum idi ki, ömrü boyu subay qalacaqsınız.

– Onda hesab edirəm ki, yaxşı iş görməyiblər, – mister Lorri dedi, – məni hansı nümunə üzrə hazırlayırdılarsa, gərək deyəydilər, razılığımı alaydılar. Bu müzakirəni bitirdik! Əzizim Lüsi, – mister Lorri belə deyib təzəgəlinin belindən tutdu, – mən artıq içəridən gələn addım səsləri eşidirəm; miss Prossla mən ikimiz də iş adamıyıq, yaranmış vəziyyətdən istifadə edib sənə nəsə demək istəyirik, sən özün də, yəqin ki, bizdən nəsə eşitmək istəyirsən. Mənim əzizim, sən öz atanı onu sevən və hörmət edən adamların ümidinə qoyub gedirsən, ona necə lazımdırsa, o cür də qayğı göstəriləcək. Sizin Yorkşirdə olacağınız iki həftə ərzində Tellson Bank mənim üçün ikinci plana keçəcək, əsas diqqətimi doktora yönəldəcəyəm. İki həftədən sonra atanız gəlib sizə və sevimli ərinizə qoşulacaq, üçünüz bir yerdə Uelsə səfər edəcəksiniz. Onda görəcəksən ki, biz doktoru sizin yanınıza sağlam və yüksək bir əhvali-ruhiyyədə göndərmişik. Hə, budur, kimsə qapıya yaxınlaşır. Mən geridəqalmış, subay bir kişiyəm, indi icazə ver başqaları gəlib araya girməmiş səni öpüm, öz xeyir-duamı verim.

Mister Lorri qızın gözəl sifətini bir qədər aralıda saxlayıb onun alnındakı tanış ifadəni bir də nəzərdən keçirdi, sonra parlaq qızılı saçları öz başındakı balaca, qəhvəyi parikə tərəf elə incə bir həssaslıqla yaxınlaşdırdı, buna əsla köhnə dəbli demək olmazdı; bu, Adəmdən bəri belə olub, indi də belədir.

Otağın qapısı açıldı, doktorla Çarlz Darney içəridən çıxdılar. Doktorun üzü meyit üzü kimi sapsarı saralmışdı; Darneylə birlikdə otağa girəndə o belə deyildi. Amma artıq o özünü ələ alıb hisslərini ram eləmişdi, yalnız mister Lorrinin nüfuzedici gözü nəsə sezdi: mister Lorri doktorun üzündə əvvəllər gördüyü qorxunun izini gördü, sanki onu o dəhşətli qorxunun soyuq küləyi vurmuşdu.

Doktor Manett qızının qolundan yapışıb onu pilləkənlə aşağı düşürtdü, mister Lorrinin bugünkü mərasim üçün icarəyə götürdüyü qəşəng faytona tərəf getdi. O biri adamlar başqa faytona mindilər və yaxınlıqdakı kilsəyə getdilər. Orada heç bir kənar adamın iştirakı olmadan Çarlz Darneylə Lüsi Manett evləndilər.

Üzlərində təbəssüm görünən kiçik dəstənin üzvləri kilsədən çıxanda parıldayan göz yaşlarının arasında bir şey də parıldayıb göz qamaşdırırdı ki, bu da təzəgəlinin barmağındakı brilyant üzük idi – o üzük mister Lorrinin geniş ciblərinin birindəki qaranlıq küncdən çıxmışdı. Onlar evə qayıdıb səhər yeməyi yedilər. Hər şey öz axarıyla gedirdi.

Ayrılıq zamanı gəldi. Qapının girəcəyində gənclərlə vidalaşanda qızın qızılı saçları ilk dəfə Paris binalarından birinin çardağında çəkməçinin ağ saçlarına qarışdığı kimi yenə atasının ağ saçlarına qarışmışdı.

Ayrılıq uzun çəkməyəcəkdi, amma nəsə ağır ayrılıq idi. Ata öz övladını təbrik edirdi. Nəhayət, ehmalca onu özündən aralayıb: "Bu qız sənindir, Çarlz! Onu gözündən uzağa qoyma!" – dedi. Sonra faytonun pəncərəsindən çıxan titrək əl onlarla vidalaşdı. Lüsini aparan fayton uzaqlaşıb getdi.

Küçədə gediş-gəliş az idi, toyda da az adam iştirak edirdi deyə doktor, mister və miss Pross tamam tək qaldılar. Onlar geri qayıdıb sərin kölgəyə çatanda mister Lorri hiss elədi ki, doktor bərk tutulub: sanki divardan çıxıbmış kimi görünən qızıl əl ona dəhşətli bir zərbə vurub ölümcül yaralamışdı.

– Mənə elə gəlir ki, – həyəcanlı, qısa müzakirədən sonra mister Lorri pıçıldayıb miss Prossa dedi, – mənə elə gəlir ki, yaxşısı budur, biz indi onunla danışmayaq; ümumiyyətlə, narahat etməyək. Mən Tellson Banka getməliyəm, indi gedib ora baş çəkib tez də qayıdacağam. Sonra hamımız birlikdə gəzməyə gedərik, şam yeməyini də orada yeyərik; hesab edirəm ki, hər şey qaydasına düşəcək.

Mister Lorrinin Tellson Banka getməsi çətin olmadı, amma oradan çıxması çətin oldu və orada nə az, nə çox, düz iki saat ləngidi. Geri qayıdanda isə qulluqçudan heç nə soruşmadan təkbaşına pilləkənlə yuxarı qalxdı, doktorun otağına tərəf yönələndə zəif tappıltı səsi eşidib dərhal dayandı.

– Aman Allah! – sanki qorxub diksinmiş adam kimi dedi. – Bu nədir belə?

Üz-gözündən həyəcan və qorxu yağan miss Pross mister Lorridən azca arxada dayanmışdı.

– Mən indi neyləyim? Neyləyim? – deyib əllərini bir-birinə sıxdı. – Hər şey batdı. Mən öz mələyimə nə deyəcəyəm, nə cavab verəcəyəm ona? Məni tanımır, oturub ayaqqabı tikir.

Mister Lorri miss Prossu sakitləşdirməyə çalışdı, sonra da doktorun otağına daxil oldu. Çəkməçini ilk dəfə binanın çardağında gördüyü vaxt olduğu kimi, indi də alçaq oturacaq pəncərənin ağzına tərəf çəkilmişdi ki, işıq düşsün; doktor başını aşağı salıb belini əyərək işləyirdi, qırımından görünürdü ki, başını qaşımağa da vaxtı yoxdur.

– Doktor Manett. Əziz dostum, doktor Manett!

Doktor bir anlığa başını qaldırıb ona baxdı; onun baxışında sual var idi, inciklik də var idi, çünki onu danışığa tutub işindən ayırmışdılar. Bir müddət belə baxdı, sonra başını aşağı saldı və işinə davam elədi. Əvvəllər işləyəndə elədiyi kimi pencəyiylə jaketini çıxartmışdı, köynəyinin yuxarı düymələri açılmışdı, sifətinin əvvəlki solğunluğuyla üzgünlüyü də qayıtmışdı; sanki kiminsə ona mane olub işdən ayıracağını hiss edibmiş kimi inadla işləyirdi və hövsələsi daralmış kimi görünürdü.

Mister Lorri onun əlindəki ayaqqabıya diqqətlə baxanda gördü ki, bu lap əvvəl tikdiyi ayaqqabıyla eyni ölçüdə, eyni formadadır. Ayaqqabının o biri tayını döşəmədən götürüb baxdı, soruşdu ki, bu nədir belə?

– Gənc ledinin gəzintiyə çıxanda geyəcəyi ayaqqabıdır, – doktor başını qaldırıb yuxarı baxmadan mızıldandı. – Mən onu çoxdan tikib qurtarmalıydım. Haradan götürmüsünüzsə, ora qoyun.

– Yaxşı, doktor Manett. Başınızı yuxarı qaldırın, mənə baxın!

Doktor mexaniki mütiliklə başını qaldırıb baxdı, amma işinə ara vermədi.

– Əziz dostum, sən məni tanımırsan? Bir fikirləş. Bu iş sənlik deyil. Bir fikirləş gör nə edirsən?

Onu danışmağa vadar eləmək mümkün deyildi artıq; nəsə bir söz soruşanda isə bir anlığa başını qaldırıb baxırdı, vəssalam. Heç bir yalvarışla, heç bir xahişlə ondan söz qopartmaq da mümkün deyildi. Əl saxlamadan işləyir, işləyir, işləyirdi; ona deyilən sözlər daşa, divara müraciətlə deyilmiş kimi cavabsız qalırdı. Amma hərdən də heç kim ona müraciət etməsə belə, başını azca qaldırıb, sanki gizlicə ətrafa baxırdı və məhz bunun fərqinə varan mister Lorri hələ ki ümidini tamam itirmirdi. Başqalarına sezdirmədən başını qaldırıb ətrafına baxanda üzündə nəsə bir şübhə oxunurdu: sanki o nəyisə anlamaq istəyirdi, amma axıracan dərk edə bilmirdi.

Mister Lorri özlüyündə hələlik iki vacib məsələnin həlli üçün çalışmalı olduğunu müəyyən etdi: birincisi, bu hadisə barədə Lüsiyə heç nə deyilməməlidir; ikincisi, bu barədə onları tanıyan adamlar da heç nə bilməməlidirlər. Miss Prossun köməyi ilə o, qabaqlayıcı ehtiyat tədbirləri gördü; bütün dost-tanışlara xəbər göndərib bildirdi ki, doktor özünü yaxşı hiss eləmir, o səbəbdən də bir müddət tam sakitlik şəraitində yaşamaq məcburiyyətində qalıb. Miss Pross Lüsiyə məktub yazıb bildirdi ki, doktoru nəsə çox təcili surətdə hansısa xəstənin yanına çağırdılar, o da yola düşməzdən əvvəl bu barədə ancaq bir-iki sətirlik məktub yaza bilib.

Bu cür qabaqlayıcı tədbirləri həyata keçirən mister Lorri ümid edirdi ki, doktor tezliklə özünə gələcək, vəziyyəti yaxşılaşacaq. Vəziyyətin düzələcəyi təqdirdə isə bu sahədə mütəxəssis olan bir həkimlə məsləhətləşməyi də planlaşdırırdı. Xəstə sağalıb özünə gələnəcən onu narahat etmədən göz qoymaq, hər ehtimala qarşı, diqqət mərkəzində saxlamaq lazım idi. Bu məqsədlə də mister Lorri ömründə ilk dəfə Tellson Bank rəhbərliyinə müraciət edib bir neçə günlüyə icazə aldı və doktorun otağındakı pəncərənin qarşısında, belə demək mümkünsə, bir növ gözətçi postu düzəltdi.

Mister Lorri tezliklə əmin oldu ki, doktorla danışmaq, onu söhbətə cəlb etmək cəhdləri mənasızdır, bunun heç bir xeyri yoxdur; əksinə, hər belə cəhd onu əsəbiləşdirir, halını daha da pisləşdirir. Dərhal da fikrini dəyişib qərara gəldi ki, doktorun düşdüyü, ya da düşməyə başladığı bu vəziyyətə qarşı etiraz əlaməti olaraq bütün günü onunla bir otaqda, düz

elə gözünün qabağında dinməzcə otursun. Mister Lorri pəncərənin ağzı tərəfdə oturub ya nəsə yazırdı, ya da kitab oxuyurdu; mümkün olan bütün vasitələrlə göstərmək istəyirdi ki, burada o, tamamilə azaddır, nə istəsə, onu da eləyə bilər.

Doktor dinib-danışmadan işləyir, nə versələr yeyir, nə versələr içirdi; birinci gün hava qaralıb görmə qabiliyyəti çətinləşənəcən bu cür işlədi. Mister Lorrinin gözü pis görürdü deyə artıq yarım saat idi yazı yazmağı, kitab oxumağı dayandırmışdı və görəndə ki, doktor da sabahacan işi dayandırıb alətləri yığışdırır, o da ayağa durub dedi:

– Bəlkə, gəzməyə gedək?

Doktor lap əvvəlki vaxtlarda olduğu kimi gözünü döşəməyə zilləyib ora-bura baxdı, özünü elə göstərdi ki, guya nəsə axtarır, sonra başını qaldırıb güclə eşidilən yavaş səslə təkrar elədi:

– Gəzməyə?

– Bəli, mənimlə birlikdə gəzməyə. Niyə də yox?

Doktor özünü əziyyətə salıb suala cavab vermədi, amma başqa bir söz də demədi. Mister Lorri ona baxa-baxa hiss elədi ki, axşam vaxtının ala-toranında öz balaca stulunda oturub dirsəklərini dizinə söykəyərək qabağa əyilmiş vəziyyətdə başını əllərıylə tutmuş doktor bu sualı özözünə verir: "Niyə də yox?" Qoca bankirin nüfuzedici baxışları burada nəsə yaxşı bir əlamət sezib qərara gəldi ki, oyunu bu cür də davam etdirməlidir.

Miss Prossla mister Lorri o gecə növbəylə yatmayıb qonşu otaqdan doktora göz qoydular. Yatmazdan əvvəl doktor uzun müddət otaqda ora-bura gəzişdi, nəhayət, gəlib çarpayıya uzandı, o dəqiqə də yuxuya getdi. Səhər hava işıqlaşan kimi yuxudan ayıldı, dərhal işə başladı.

Növbəti gün mister Lorri onunla salamlaşıb, heç nə olmayıbmış kimi adıyla müraciət elədi, söhbəti son vaxtlar müzakirə elədikləri məsələlərin üstünə gətirdi. Doktor cavab vermədi, amma görünürdü ki, ona nə deyildiyini eşidir, hətta dumanlı şəkildə olsa da, o barədə fikirləşir. Bundan ruhlanan mister Lorri miss Prossa təklif elədi ki, o da öz işini gətirib doktorun otağında görsün; miss Pross elə də elədi və gün ərzində bir neçə dəfə onlara baş çəkdi, hər dəfə də gördü ki, bankirlə doktor heç nə olmayıbmış kimi oturub Lüsi barədə, onun atası barədə danışırlar. Bütün bunlar çox ehtiyatla elə edilirdi ki, doktor yorulub əsəbiləşməsin; xeyirxah bir insan olan mister Lorri görürdü ki, doktor

daha tez-tez başını qaldırıb onlara baxır, hiss edir ki, ətrafında baş verən hadisələr arasında nəsə bir uyğunsuzluq var.

Axşam düşüb şər qarışanda mister Lorri əvvəllər olduğu kimi dedi:

– Əzizim doktor, bəlkə, çıxıb bir az gəzərdik?

Doktor keçən dəfəki kimi təkrar elədi:

– Gəzərdik?

– Bəli, çıxıb bir az gəzərdik. Niyə də yox?

Bu dəfə də heç bir cavab almayan mister Lorri özünü elə göstərdi ki, gəzməyə gedir. Çıxıb həyətdə bir saat ləngiyəndən sonra geri qayıtdı. Bu müddət ərzində doktor pəncərənin ağzında oturub aşağıda görünən çinar ağacına baxırdı; mister Lorri qayıdıb gələn kimi yerini dəyişib öz balaca stulunda əyləşdi.

Vaxt çox ləng keçirdi; mister Lorrinin ümidləri puça çıxır, qəlbinə bir ağırlıq çökür, vəziyyət günbəgün daha da ağırlaşırdı. Üçüncü gün gəldi və getdi, dördüncü gün də elə, beşinci də. Beş gün, altı gün, yeddi gün, səkkiz gün, doqquz gün.

Ümidləri boşa çıxsa da, qəlbindəki ağırlıq günbəgün artsa da, mister Lorri o günləri həyəcan içində birtəhər yola verdi. Sirr çox yaxşı saxlanılırdı deyə heç nədən xəbəri olmayan Lüsi xoşbəxt günlərini yaşayırdı. Mister Lorri görürdü ki, ilk gün əli o qədər də işə yatmayan doktor getgedə daha yaxşı işləyir; öz işində o, heç vaxt belə inadlı, belə məharətli olmamışdı. Doqquzuncu gün axşamtərəfi isə daha böyük əzm və inadla işləyirdi.

XIX fəsil

HƏKİM MƏSLƏHƏTİ

Yorulub əldən düşmüş mister Lorri növbə çəkdiyi vaxt postda yatıb yuxuya getmişdi. Həyəcanlı dövrün onuncu günü səhər vaxtı pəncərədən içəri düşən günəş şüaları gecəyarıdan sonra yatıb yuxuya qalmış mister Lorrini diksindirib ayıltdı. Gözlərini ovuşdurub ayağa durdu, amma şübhələndi: hələ də yatırdı, yoxsa artıq oyaq idi. Doktorun otağına tərəf gedib qapıdan içəri baxanda gördü ki, balaca stul və pinəçi alətləri yığışdırılıb kənara qoyulub, doktor özü pəncərənin qarşısında oturub kitab oxuyur. Doktor həmişə səhərlər geyindiyi libasdaydı, onun sifəti (mister Lorri o sifəti aydın görürdü) hələlik çox solğun olsa da, sakit idi, əqli işə meyilli olan adamlardakı kimi diqqətliydi.

Mister Lorri artıq şübhə eləmirdi ki, yuxu görmür, oyaqdır, amma, bununla belə, onda şübhə yarandı: çəkməçi və ayaqqabı tikilməsiylə bağlı əhvalatı, bəlkə, o, yuxuda görüb? Doğrudan da, budur, dostu həmişəki paltarını geyinib, adətən olduğu kimi oturub öz işini görür. Bəs ona bu qədər güclü təsir edib sarsıdan o dəhşətli dəyişikliyin izləri, o hadisənin həqiqətən baş verdiyini göstərən əlamətlər hanı?

Amma bu sual çaşqınlığın ilk anında yarandı, cavab isə göz qabağındaydı. Əgər kifayət qədər əsaslı səbəb olmasaydı, o – Carvis Lorri burada nə axtarırdı? Necə olub ki, o, geyimli-kecimli halda doktorun qəbul otağındakı divanda yatıb yuxuya getmişdi və indi, səhərin erkən vaxtı doktorun yataq otağının qapısı ağzında dayanıb öz aləmində bu məsələni götür-qoy edirdi?

Bir neçə dəqiqədən sonra miss Pross onun yanında dayanıb nəsə pıçıldadı. Əgər onda nəsə azacıq bir şübhə olsaydı belə, bu pıçıltıdan sonra yox olmalıydı. Amma həmin anda mister Lorrinin başı saat kimi

işləyirdi. Bu vəziyyətdə o məsləhət gördü ki, səhər yeməyinəcən doktoru narahat eləmək lazım deyil, yemək otağında isə elə davranmaq lazımdır ki, sanki heç bir ciddi hadisə baş verməyib. Əgər məlum olsa ki, doktorun əhvalı yaxşıdır, narahatçılıq üçün elə ciddi bir əsas yoxdur, onda mister Lorri ehtiyatla söhbəti istədiyi məcraya yönəldər, onu maraqlandıran, ciddi surətdə narahat edən məsələlər barədə öz suallarını verər. Miss Pross mister Lorrinin təklifini bəyəndi, deyilənlərə diqqətlə əməl etdi.

Vaxt çoxluğundan istifadə edən mister Lorri üst-başını qaydaya saldı, səhər yeməyi vaxtı da yemək otağına adətən olduğu kimi ağ, təmiz yaxalıqda, dizəcən çəkdiyi səliqəli kip corablarda gəldi. Doktora xəbər verildi ki, səhər yeməyi süfrəsi açılıb; o da yemək otağına gəldi.

Səhər yeməyi vaxtı dediyi hər sözü diqqətlə ölçüb-biçən, həddən ziyadə ehtiyatla davranan mister Lorriyə məlum oldu ki, doktor əsla şübhə etmir ki, qızının toyu dünən olub. Mister Lorri guya elə-belə təsadüfən ona həftənin hansı günü, ayın neçəsi olduğunu xatırladanda isə doktor fikrə getdi, beynində nəsə hesablayıb tutuldu. Amma, bununla belə, doktor kifayət qədər sakit vəziyyətdə olduğuna görə mister Lorri bir məsələ – şəxsən doktorun özünə aid olan məsələ barədə bəzi suallar verib, onun fikrini öyrənmək istədi.

Ona görə də səhər yeməyi yeyilib süfrə yığışdırılandan sonra onlar təkbətək qalanda mister Lorri səmimiyyətlə dedi:

– Əzizim Manett, məni həddən ziyadə maraqlandıran bir məsələylə bağlı sizinlə məsləhətləşmək istəyirəm, amma öz aramızda qalsın; daha məlumatlı olduğunuz üçün bu məsələ sizə elə də maraqlı görünməyə bilər.

Son günlər gördüyü gərgin fiziki iş nəticəsində rəngi dəyişmiş əllərinə baxaraq təəccübləmiş kimi görünən doktor diqqətlə qulaq asırdı. Onun öz əllərinə bu gün belə baxdığı birinci dəfə deyildi.

– Doktor Manett, – mister Lorri belə deyib nəzakətlə onun qoluna toxundu, – bu məsələ mənim yaxın bir dostumla bağlıdır. Sizdən çox xahiş edirəm, dostumun xatirinə və qızının xatirinə – hesab edirəm ki, ən əsası da elə budur, məhz qızının xatirinə – öz məsləhətinizi əsirgəməyəsiniz.

– Bilmirəm nə qədər düz başa düşürəm, – doktor sakitcə dedi, – amma mənə elə gəlir ki, hansısa ruhi sarsıntı barədə danışırsınız...

– Bəli!

– Onda bir qədər dəqiq olmaq lazımdır, – doktor dedi. – Heç nəyi gizlətməyin.

Mister Lorri gördü ki, onlar bir-birini başa düşürlər.

– Əzizim Manett, – mister Lorri davam elədi, – bu, uzun müddət davam eləyən bir sarsıntıdır; hisslərin, ağılın, sizin dediyiniz kimi, ruhun sarsıntısıdır. Ruhi sarsıntıdır. Nə o adam özü, nə də başqaları bilmir bu nə vaxt başlayıb, neçə müddət davam edib. Ruhi sarsıntı keçib, bunun necə baş verdiyini o adam xatırlamır, amma bir dəfə öz dilindən eşidəndə həddən artıq təəccübləndim. O adam o sarsıntıdan sağalıb, demək olar ki, hər şey keçib-gedib, fiziki cəhətdən çox dözümlü, yüksək intellektual səviyyəli bir ziyalıdır, yorulmadan daim çalışıb öz biliyini artırır. Amma, bədbəxtlikdən, iş elə gətirib ki, zəif formada olsa da, sarsıntı yenidən təkrar olub.

Doktor güclə eşidilən səslə soruşdu:

– Neçə gün davam eləyib?

– Doqquz gün, doqquz gecə.

– Sarsıntı özünü necə büruzə verirdi? – doktor bunu deyib yenə öz əllərinə baxdı. – Əvvəlki ruhi sarsıntıyla bağlı bir hadisə, ya da səbəb olubmu?

– Olub.

– Elədirsə, siz onu əvvəllər, o sarsıntını keçirdiyi dövrdə görmüsünüzmü? – doktor alçaq tonda, sakit və aydın danışaraq soruşdu.

– Bir dəfə görmüşəm.

– Ruhi sarsıntı sonuncu dəfə təkrar olunanda həmin adam özünü tamamilə əvvəlki dövrdə olduğu kimi aparırdı, yoxsa fərqli davranırdı?

– Mənə elə gəlir ki, tamamilə əvvəlki kimi davranırdı.

– Siz onun qızı barədə danışdınız. Xəstəliyin yenidən təkrar olunması barədə qızı bilirmi?

– Yox, bilmir. Bu hadisə barədə ona heç nə deyilməyib, hər şey sirr olaraq saxlanılıb; ümid edirəm ki, gələcəkdə də ona heç nə deyilməyəcək, çünki sirri bir mən bilirəm, bir də sirr saxlamağı bacaran başqa bir adam.

Doktor onun əlindən tutub: "Yaxşı eləmisiniz, o barədə qıza heç nə deməməkdə çox ağıllı iş görmüsünüz!" – dedi. Mister Lorri də onun əlindən tutdu; bir müddət heç biri dinib-danışmadı.

– Əzizim Manett, – mister Lorri özünəməxsus qayğı və nəvazişlə dedi, – mən sadə bir iş adamıyam, belə çətin məsələlərdən baş açmıram. Belə şeylər barədə kifayət qədər məlumatım yoxdur, bu cür incə

mətləblərdən baş çıxara biləcək qədər ağıllı deyiləm, ona görə də köməyə, ağıllı məsləhətə ehtiyacım var. Kömək və ağıllı məsləhət almaq üçün bu gen dünyada sizdən başqa ayrı bir adamım da yoxdur. Mümkünsə, indi deyin görüm, bu niyə belə olub? Belə bir hal yenə təkrar ola bilərmi? Onun qarşısını almaq üçün hansı qabaqlayıcı tədbirlər görmək lazımdır? Hadisə təkrar olunacağı təqdirdə nə etmək lazımdır? Ümumiyyətlə, bu necə baş verir? Mən öz dostuma kömək üçün nə edə bilərəm? Dostuma kömək edə bilmək üçün hər şeyə hazıram, amma bunun yolunu bilmirəm. Əgər siz öz biliyiniz, təcrübəniz və ağlınızla mənə düzgün yol göstərsəniz, çox iş görərəm; indi olduğu kimi, məsələnin mahiyyətinə varmadan kor-koranə hərəkət etməli olsam, bunun heç bir xeyri olmayacaq. Sizdən xahiş edirəm, gəlin bu məsələni müzakirə edək, hadisənin mahiyyətini daha yaxşı dərk etməkdə mənə kömək edin, çətin məqamda dostum üçün daha faydalı olmağın yolunu mənə öyrədin.

Bu səmimi və ciddi sözlərdən sonra doktor fikrə getdi, mister Lorri cavab üçün onu tələsdirmədi.

– Əziz dost, mənə elə gəlir ki, – çətinliklə də olsa, doktor sükutu pozdu, – sizin təsvir elədiyiniz ruhi sarsıntı onu keçirən adam üçün elə də gözlənilməz olmayıb.

– Demək istəyirsiniz ki, hadisənin təkrar olunacağı onu qorxuya salıbmış? – mister Lorri bir qədər cəsarətlənib soruşdu.

– Bəli, elədir, – doktor özündən asılı olmayaraq titrəyib dedi. – Siz hətta təsəvvür edə bilməzsiniz ki, o qorxu hissi xəstənin süuruna necə təsir edir, onu necə əzir və o barədə kiminləsə danışmaq xəstə üçün necə çətindir, hətta, demək olar ki, mümkün deyil.

– Bəs əgər belə demək mümkünsə, – mister Lorri dedi, – o adam özünə qalib gəlib, ürəyində saxladığı sirri yaxın adamlarına danışsa, dərdini onlarla bölüşsə necə, bunun xeyri olarmı?

– Məncə, olar. Amma artıq sizə dediyim kimi, bu onun üçün, demək olar ki, mümkün deyil; hətta hesab edirəm ki, bəzi hallarda heç mümkün deyil.

– Bəs sarsıntının özünü büruzə verməsi necə, – kiçik bir pauzadan sonra mister Lorri bunu deyib əlini çox nəzakətlə doktorun qoluna toxundurdu, – bunu nə ilə izah etmək olar?

– Hesab edirəm ki, – doktor Manett dedi, – pasiyent qəflətən xəstəliyin başlanğıc dövrünə aid olan fikir və xatirələrin güclü təsirinə məruz qalıb. Çox güclü təsir edib dərin kədər hissi oyadan assosiasiyaların yaranması da mümkündür. Ola da bilər ki, dediyiniz hadisə baş verməmişdən xeyli əvvəl onun şüurunda hansısa xüsusi bir şəraitdə belə assosiasiyaların yarana biləcəyi ehtimalı artıq var imiş. Nahaq yerə cəhd eləyib toparlanmaq, özünü bu təhlükəyə qarşı hazırlamaq istəyib, amma bunun xeyri olmayıb, lazımsız gərginlik isə onun halının pisləşməsinə səbəb olub.

– Axırıncı dəfə sarsıntı keçirdiyi zaman nə baş verdiyini necə, xatırlaya bilirmi? – mister Lorri bir qədər tərəddüddən sonra soruşdu.

Doktor sanki çətin vəziyyətdə qalıbmış kimi boylanıb otağı nəzərdən keçirdi, başını silkələyib güclə eşidilən səslə dedi:

– Yox, heç nə yadında deyil.

– Bəs gələcək barədə nə demək olar? – deyə mister Lorri eyham vurdu.

– Gələcəklə bağlı onu deyə bilərəm ki, – doktor qətiyyətlə dedi, – mən gələcəyə inanıram. Allahın köməyi ilə əgər o, qısa müddətdə özünə gəlibsə, mən gələcəyə çox böyük ümidlə baxıram. Əgər öz daxilindəki qorxu hissini cilovlamaq üçün uzun müddət çalışaraq məğlub olubsa, amma tez bir zamanda özünə gəlibsə, qara bulud üstünü alıb, sonra da keçib-gedibsə, əminəm ki, təhlükə artıq sovuşub.

– Yaxşı, çox yaxşı! Mən artıq arxayın oldum. Çox sağ olun, minnətdaram! – mister Lorri dedi.

– Sağ olun, mən də sizə minnətdaram! – doktor belə deyib baş əydi.

– İki məsələ də var ki, mən o barədə sizinlə məsləhətləşmək istəyirəm, – mister Lorri dedi. – İcazə verirsinizmi?

– Siz dostunuza bundan yaxşı kömək edə bilməzsiniz, – doktor bunu deyib əlini ona uzatdı.

– Elə isə birinci məsələ. O adam oturaq həyat tərzinə adət eləyib, özü də çox enerjilidir; öz peşəsiylə bağlı yeni biliklər əldə etmək üçün çox axtarışlar edir, təcrübələr aparır, bir sözlə, çox işləyir, çox çalışır. Necə bilirsiniz, bu, ziyan deyil ki?

– Məncə, yox. Hətta hesab edirəm ki, onun indiki psixoloji durumunda beyinin nə iləsə gərgin məşğul olması vacibdir. Müəyyən dərəcədə, olsun ki, bu onun təbii tələbatıdır, keçirdiyi ruhi sarsıntı isə

o tələbatı xeyli gücləndirib. Onun fikir dəyirmanı sağlam qida alır, o halda pis olardı ki, bu vəziyyətdə onun beyni qeyri-sağlam qida alaydı. Ola da bilsin ki, özünümüşahidə və təhlil yoluyla özü bu nəticəyə gəlib.

– Gərgin zehni əməyin ona ziyan gətirməyəcəyinə əminsiniz?

– Demək olar ki, tamamilə əminəm.

– Əzizim Lorri, nəsə bir ziyan olacağına mən inanmıram. Onun ağlı indiyəcən var gücüylə bir istiqamətdə işləyib, tarazlıq yaratmaq üçün eyni çəkidə olan başqa bir yük lazımdır.

– Mən iş adamıyam, bəlkə də, yersiz inadkarlıq eləyirəm, ona görə üzr istəyirəm. Amma, hər halda, bir anlığa fərz edək ki, ağır zehni əməkdən yorulub, o halda ruhi sarsıntı yenidən təkrar oluna bilərmi?

– Mən belə fikirləşmirəm, – doktor tam bir əminliklə və qətiyyətlə dedi, – müəyyən assosiasiyalardan başqa nəyinsə yeni ruhi sarsıntıya səbəb ola biləcəyinə inanmıram. Hesab edirəm ki, indən belə bəzi qeyri-adi hadisələr onun yaralı yerinə toxunmasa, qalan heç nə əsəb sarsıntısına səbəb ola bilməz. Baş verən hadisə və onun yenidən özünə gəlməsi belə deməyə əsas verir ki, ruhi sarsıntı yaradacaq səbəb artıq yox dərəcəsindədir. Mən əminəm, hətta qəti olaraq inanıram ki, hadisələrin bu cür inkişaf ehtimalı, demək olar ki, yoxdur.

İnsan beyninin incə, həm də çox mürəkkəb bir şey olduğunu, onun normal fəaliyyətinin bəzən elə də əhəmiyyətli olmayan boş bir şeydən pozula biləcəyini bilən adam kimi doktor kifayət qədər ehtiyatla danışırdı, digər tərəfdən onun səsində bir inam var idi ki, bunu o öz acı həyat təcrübəsi nəticəsində ağır əzablar, dözüm və mətanət sayəsində qazanmışdı. Dostu isə bu inama az da olsa, xələl gətirmək istəmirdi, özünü əslində olduğundan daha sakit və cəsarətli göstərirdi; nəhayət, o, axıra saxladığı ikinci məsələyə keçdi. Dərhal da hiss elədi ki, bu çox çətin məsələdir, ötən bazar günü miss Prossla olan söhbətini və doqquz gün ərzində gördüklərini xatırlayıb onu da başa düşdü ki, bu çətinliyi dəf etməlidir.

– Xoşbəxtlikdən, artıq ötüb-keçmiş o bədbəxt hadisənin təsirini biz, belə deyək də, – mister Lorri öskürüb boğazını təmizlədi, – dəmirçi işi adlandıracağıq. Bəli, dəmirçi işi. Real təsəvvür yaratmaq üçün fərz edək ki, lap o pis vaxtlarda bu adam hansısa dəmirçixanada işləyib. Təsəvvür edin ki, indi heç gözlənilmədən yenə balaca çəkic və zindanla

işləməyə başlayıb. Bugünkü gündə dəmirçi alətlərini daim göz qabağında saxlamaq nə dərəcədə düzdür?

Doktor oturub əliylə gözünü daldalamışdı, əsəbi halda ayağını döşəməyə vururdu.

– Dəmirçi alətlərini həmişə yanında saxlayır, – mister Lorri narahat halda dostuna baxıb dedi. – Necə bilirsiniz, o alətləri götürüb gözdənuzaq başqa bir yerdə gizlətmək daha yaxşı olmazmı?

Doktor hələ də oturub əliylə gözünü daldalamışdı, əsəbi halda ayağıyla döşəməni döyəcləyirdi.

– Siz mənə məsləhət verməkdə çətinlik çəkirsiniz, eləmi? – mister Lorri dedi. – Bunun belə çətin məsələ olduğunu bilməzdim. Amma, hər halda, hesab edirəm ki... – Bu yerdə başını silkələyib susdu.

– Bilirsinizmi, – xeyli davam edən ağır və üzücü sükutdan sonra doktor Manett dedi, – sizin fağır dostunuzun beyninin içində nə baş verdiyini izah etmək mənim üçün çox çətindir. Həmin iş üçün bir vaxtlar o, dəhşətli dərəcədə darıxırdı, işləmək imkanı əldə edəndə isə çox sevindi; şübhəsiz ki, beyin əzablarının barmaqların əzabıyla əvəz edilməsi onun ağrılarını xeyli azaltmışdı. Əlləri işə öyrəşəndən sonra ağır beyin işini barmaqların məharəti əvəz elədi, o vaxtdan bəri də o işdən ayrılmaq istəmir. Hətta indinin özündə belə əvvəlki dövrlə müqayisədə özünə olan inamın hissolunacaq dərəcədə artdığı, özü barədə əminliklə danışdığı bir vaxtda da həmin işin ona gərək olacağını, o işlə məşğul olmaq imkanını itirəcəyini ağlına gətirəndə kimsəsiz səhrada azmış uşaq kimi dəhşətə gəlir.

Doktor başını qaldırıb mister Lorrinin üzünə baxanda təsvir elədiyi mənzərənin canlı simvolunu xatırlatdı.

– Üzr istəyirəm, doktor, daim kimlərinsə bank hesabıyla, giyenayla, şillinqlə, banknotlarla əlləşən bir adam kimi soruşuram, sizə elə gəlmirmi ki, dəmirçi alətlərinin daim göz qabağında saxlanılması onlarla bağlı olan ideyaları da saxlayır, daim yada salır? Əzizim Manett, əgər maddi dəlillər yox olubsa, onlarla bağlı olan qorxu hissi də yox olmalıdır, elə deyilmi? Sözün qısası, onun çəkic-zindanla olan bağlılığı, əslində, qorxu qarşısında geriçəkilmə deyilmi?

Yenə heç kim dinib-danışmadı.

– Siz onu da nəzərə almalısınız ki, – doktor titrəyib dedi, – o şeylər bir növ köhnə dost kimidir.

– Mən onları saxlamazdım, – doktorun narahatlıq keçirdiyini görüb daha da inamla danışan mister Lorri dedi, – şəxsən mən ona məsləhət görərdim ki, o alətləri ləğv eləsin, belə demək mümkünsə, qurban versin. Amma mən bunu ancaq sizin razılığınızla edərdim. Əminəm ki, o şeylərin ancaq ziyanı var. Buyurun! Əziz və hörmətli bir adam kimi mənə öz məsləhətinizi verin. Onun qızı var, onun xatirinə edin bunu, əzizim Manett!

Görünürdü ki, doktorun daxilində gərgin bir mübarizə gedir və bunu hiss eləmək özü də adama qəribə gəlirdi.

– Qızın xatirinə olar, mənim də etirazım yoxdur; siz deyən olsun. Amma o şeyləri götürüb başqa yerə aparanda elə eləsinlər ki, o adam bunu görməsin. O evdə olmayanda eləsinlər bunu; qoy o öz köhnə dostunu itirdiyini bir müddət keçəndən sonra hiss eləsin.

Mister Lorri etiraz eləmədi, bununla da müzakirə sona yetdi. Həmin günü onlar şəhər kənarında keçirdilər, orada doktorun halı bir az da yaxşılaşdı. Sonrakı üç gün ərzində doktor özünü əla hiss elədi, ikinci həftənin sonunda isə Lüsi ilə Çarlza qoşulmaq üçün yola düşdü. Bir müddət susmasının səbəbini Lüsiyə necə izah etdiklərini də mister Lorri ona dedi, doktor özü bu barədə qızına məktub yazıb deyilənləri təsdiq elədi; Lüsi də inandı ki, həqiqətən, belə olub.

Doktor Manett yola düşdüyü günün axşamı mister Lorri balta, mişar, çəkic, zubul götürüb doktorun otağına getdi, əlində şam tutmuş miss Pross onu müşayiət edirdi. Onlar qapını daldan bağlayıb, cinayətkarlara məxsus oğrun davranışla işə başladılar; mister Lorri balaca çəkməçi stulunu baltayla doğrayıb parça-parça elədi, "qətl"in iştirakçısı – miss Pross qaşqabağını töküb əlindəki şamla otağı işıqlandırırdı və öz görkəmiylə o, həqiqətən, əsl cinayətkara oxşayırdı. Cinayət qurbanının cəsədini (əvvəlcədən şaqqalanıb doğranmış vəziyyətdə) mətbəxə daşıyıb sobada yandırdılar; çəkməçi alətlərini, ayaqqabıları və dəri parçalarını bağa aparıb yeri qazaraq orada basdırdılar. Nəyisə məhv etməli olan, amma bunu gizli həyata keçirmək məcburiyyətində qalan adamlara elə gəlir ki, onlar cinayət törədirlər, – mister Lorri ilə miss Pross da gizli iş görür, adamların gözündən yayınırdılar, ona görə də özlərini cinayətkar kimi hiss edir, o cür də görünürdülər.

XX fəsil

BƏRAƏT

Təzəbəylə gəlin evə qayıdanda onları təbrik etməyə ilk gələn Sidni Karton oldu. Cavan ərlə arvad evə çatandan bir neçə saat sonra Karton artıq onlardaydı; həyat tərzində, rəftarında, oturuş-duruşunda heç bir dəyişiklik yox idi, amma, bununla belə, Çarlz Darney onda köntöy bir sədaqət və etibar olduğunu hiss elədi ki, bu da nəsə bir yenilik idi.

Karton fürsət tapıb heç kim eşitməsin deyə Darneyi kənara – pəncərənin ağzına çəkərək dedi:

– Mister Darney, mən istəyirəm ki, sizinlə dost olam.

– Hesab edirəm ki, biz artıq dostuq.

– Sizin belə danışmağınız çox yaxşıdır, amma mən bunu elə-belə, söz xatirinə demədim. Əgər mən deyirəmsə ki, sizinlə dost olmaq istəyirəm, deməli, həqiqətən də, dost olmaq istəyirəm.

Çarlz Darney təbii dostyanalıqla gülümsəyib soruşdu ki, bununla o nə demək istəyir.

– Doğrusu, – Karton gülümsəyib dedi, – bunu özümün başa düşməyim nə qədər asandırsa, sözlə ifadə etməyim bir o qədər çətindir. Amma, hər halda, cəhd edəcəyəm. Əgər yadınızdadırsa, həmin o əlamətdar gün mən adi vaxtlarda olduğundan, belə deyək, xeyli çox içmişdim, elədirmi?

– Yaxşı yadımdadır. Həmin o əlamətdar gündə siz az qala zorla mənə dedirtdiniz ki, çox içmisiniz.

– Mənim də yaxşı yadımdadır. O gün baş verən hadisələr mənə o qədər güclü təsir edib ki, yadımdan çıxmır. Bütün ömrüm sona yetəndən sonra da olsa, yəqin ki, o gün mənim hesabıma yazılacaq. Qorxmayın, mən sizə moizə oxumaq fikrində deyiləm.

– Mən qorxmuram. Sizin ciddiyyətiniz xoşuma gəlir.

– Eh! – Karton sanki bunu qəbul etmirmiş kimi əlini yellədi. – Həmin o əlamətdar gün (bildiyiniz kimi, mənim belə günlərim çox olur) mən dözülməz idim və soruşurdum ki, xoşuma gəlirsiniz, yoxsa gəlmirsiniz? Mən çox istəyirəm ki, siz onu unudasınız.

– Mən onu çoxdan unutmuşam.

– Siz yenə öz dediyinizdən əl çəkmirsiniz. Mister Darney, unutmaq, əslində, sizin təsəvvür etdiyiniz qədər asan bir iş deyil. Mən ki unutmamışam və sizin üzdəngetdi cavabınız da mənə kömək edib unutdura bilməz.

– Əgər mənim cavabım sizə üzdəngetdi təsiri bağışlayırsa, – Darney dedi, – buna görə üzr istəyirəm. Hər xırda şeyə fikir vermək istəmirəm, amma sizin belə xırdalıqlara görə bu cür narahat olmağınız məni təəccübləndirir. Mən bir centlmen kimi sizi inandırıram ki, o barədə heç fikirləşmirəm də. Aman Allah, fikirləşməli bir şey də yoxdur axı! Sizin o gün mənə elədiyiniz yaxşılıqdan başqa yadda saxlamalı nə vardı ki?

– Mənim o vaxt sizə elədiyim yaxşılığa gəlincə, – Karton dedi, – etiraf etməliyəm ki, o, sırf professional tryukdan başqa bir şey deyildi. Mən onu eləyəndə sizin taleyiniz barədə o qədər də düşünmürdüm. Nəzərə alın ki, mən keçmiş zamandan danışıram və o vaxt olanı deyirəm.

– Siz məsələni çox sadələşdirirsiniz, – Darney dedi, – üzdəngetdi cavab budur, amma mən sizinlə mübahisə etməyəcəyəm.

– Mən sizə həqiqəti deyirəm, mister Darney, inanın mənə! Dostluqdan danışırdım, əsas məsələdən yayındım. Siz artıq məni tanıyırsınız və bilirsiniz ki, yüksək hisslər, alicənab jestlər mənim üçün xarakterik deyil. Əgər inanmırsınızsa, Strayverdən soruşun, o sizə hər şeyi deyəcək.

– Mən istəyirəm onun köməyi olmadan sizin barənizdə öz şəxsi fikrim olsun.

– Lap yaxşı! Amma, hər ehtimala qarşı, bilirsiniz ki, mən zəncirdən açılıb buraxılmış itəm, heç kimə ziyan vurmamışam, gələcəkdə də vurmayacağam.

– Sizin gələcəkdə də ziyan vurmayacağınız barədə heç nə deyə bilmərəm.

– Amma mən bilirəm, siz də mənə inanmalısınız. Yaxşı! Əgər siz mənim kimi reputasiya sarıdan zəif, özü də əhəmiyyətsiz olan bir ada-

ma darılmasanız, istədiyim vaxt sizə gəlmək, özümü burada yaxın adam kimi hiss etmək istəyirəm; siz mənə köhnə və lazımsız mebel kimi yanaşıb fikir verməyə bilərsiniz (mən hətta eybəcər mebel də deyərdim, bizim aramızda belə bir oxşarlıq olduğunu müəyyən etmişəm), köhnə mebelə də fikir vermir, uzun müddət istifadə etdikləri üçün evdən bayıra atmırlar. İcazə verəcəyiniz təqdirdə mən zəhlənizi tökmərəm və ən çoxu ildə cəmi dörd dəfə öz hüququmdan istifadə edərdim. Amma belə bir hüquqa malik olduğum üçün çox məmnun olardım.

– Siz cəhd edəcəksinizmi?

– Bax bu, başqa məsələ! Mən görürəm ki, təklifim qəbul olunub. Təşəkkür edirəm, Darney. Sizə adınızla müraciət edə bilərəmmi?

– Etirazım yoxdur, Karton.

Onlar bir-birinin əlini sıxdılar və Sidni aralandı. Bir dəqiqə sonra isə Sidni Karton əvvəllər necəydisə, o cür: sanki burada yoxmuş kimi, heç nə ilə nəzərə çarpmadan susub oturmuşdu.

Sidni Karton gedəndən sonra axşam miss Pross, doktor və mister Lorriylə söhbət zamanı Çarlz Darney Kartonla nə barədə danışdığını ümumi şəkildə yada salıb dedi ki, bu adamın yüngülməzaclığı, qeyriciddiliyi onu təəccübləndirir. Karton barədə danışanda Darney onu ittiham eləmirdi, hərəkətlərindən qeyzlənmirdi, onun cəmiyyət arasında özünü necə apardığını görmüş bir adam kimi danışırdı. Darneyin heç ağlına da gəlməzdi ki, onun bu sözləri gənc arvadına təsir edə bilər. Amma sonra yuxarı mərtəbədəki otaqlarına qalxanda onu gözləyən arvadının fikirli olduğunu gördü – bunu o, Lüsinin alnına baxan kimi bildi.

– Bu axşam biz nəsə yaman fikirliyik! – Darney bir əliylə arvadını qucaqlayıb dedi.

– Düz deyirsən, əzizim Çarlz, – Lüsi əllərini ərinin sinəsinə qoyub sualedici nəzərlə onun üzünə baxdı, – biz bu axşam xeyli fikirliyik, çünki bu axşam bəzi şeylər barədə fikirləşirik.

– Mənim Lüsim nə barədə fikirləşir?

– Söz verirsənmi ki, istəmədiyim sualı verməməyi xahiş etsəm, o sualı verməyəcəksən?

– Söz verirsənmi? Mən Lüsinin hansı xahişini yerinə yetirməyə bilərəm?

Çarlz bir əliylə Lüsinin yanağına düşmüş qızılı saçları kənar elədi, o biri əlinin altında isə yalnız onun üçün döyünən ürəyi hiss edirdi; bu insan üçün, sözün həqiqi mənasında, o nəyi etməzdi?

– Çarlz, mənə elə gəlir ki, o bədbəxt mister Karton sənin bu gün ona göstərdiyin münasibətdən daha yaxşısına layiqdir.

– Doğrudanmı, əzizim? Səbəbi nədir?

– O barədə soruşma. Mənə elə gəlir ki... Mən bilirəm ki, o, hörmətə layiqdir.

– Əgər sən lazım bilirsənsə, bu artıq yetərli səbəbdir. Amma de görüm, mən nə etməliyəm, əzizim?

– Əzizim, xahiş edirəm, ona qarşı diqqətli olasan, özü burada olmayanda nöqsanlarından danışıb onu çox da qınama. İnan ki, onun çox təmiz ürəyi var, amma bunu göstərmir; bu adam həyatdan küskündür, qəlbinə çox yaralar vurulub, mən o yaraların necə sızladığını görmüşəm.

– Mən çox təəssüf edirəm ki, – Çarlz Darney heyrət içində dedi, – ona qarşı münasibətdə nəyisə düz eləməmişəm. Amma heç vaxt belə bir fikrim olmayıb.

– İnan ki, bu belədir, əzizim. Hətta qorxuram ki, onu xilas etmək artıq mümkün olmasın; onun xasiyyətinin, ya da taleyinin yaxşıya doğru dəyişəcəyinə inanmaq çətindir. Amma əminəm ki, onun çox yaxşı keyfiyyətləri var, qəlbində incə hisslər və comərdlik var.

Həyatda öz yolunu itirmiş bu insana olan təmiz inamıyla Lüsi elə gözəl görünürdü, əri saatlarla dayanıb ona baxmağa hazır idi.

– Mənim əzizim, yadında saxla, – Lüsi belə deyib başını ərinin sinəsinə qoydu, gözlərinə baxıb davam elədi, – biz öz xoşbəxtliyimizlə nə qədər güclüyüksə, o da öz bədbəxtliyiylə o qədər zəifdir!

Arvadının xahişi Çarlzı kövrəltdi və o: "Mən bunu heç vaxt yadımdan çıxarmaram, əzizim! Bütün həyatım boyu unutmaram!" – dedi. Sonra qızılı saçlara tərəf əyildi, gül kimi dodaqları öpdü. Əgər indi qaranlıq küçələrdə tək-tənha gəzib-dolaşan o bədbəxt adam o qızın ona necə qahmar durduğunu, ərinin öpüşlərə qərq etdiyi üzündən axan göz yaşlarını görsəydi, əlini gecənin dərin qaranlığına uzadıb qışqırmaqdan özünü saxlaya bilməzdi və bu sözlər də birinci dəfə deyildi ki, deyilirdi:

– Allah o rəhmdil insanı qorusun!

XXI fəsil

AYAQ SƏSLƏRİNİN ƏKS-SƏDASI

Doktorun yaşadığı küçədə səslərin qəribə əks-sədası barədə artıq deyilib. Ərini, atasını, özünü, köhnə dostu, həm də yaxın köməkçisi miss Prossu qızıl bağlarla bir-birinə bağlayan Lüsi xoşbəxt həyat yaşayırdı və sakit küçədə oturub illərin ayaq səslərinin əks-sədasına qulaq asırdı.

Ərə getdikdən sonrakı ilk dövrdə Lüsi ailə qurmuş gənc xanım kimi, həqiqətən, xoşbəxt idi, hərdən də elə olurdu əlinin işə yatmadığını, dolmuş gözünün tor gördüyünü hiss edirdi. O əks-sədayla nəsə bir yenilik gəlirdi, qarşıdan gəlirdi, səsi güclə eşidilirdi və bunu hiss edən Lüsinin ürəyi titrəyirdi. Ümidlər və şübhələr – ona tanış olmayan sevginin ümidi, o xoşbəxt günəcən yaşaya bilməyib vaxtından əvvəl dünyadan köçmək qorxusunun yaratdığı şübhə – onun içində çarpışır, ürəyini parçalayırdı. O əks-sədaların arasında elələri də vardı ki, onun təzə məzarının yanından ötənlərin addım səslərindən qaynaqlanırdı; həyat yoldaşını vaxtsız itirib tənha və kimsəsiz qalmış ərinin ağlayıb göz yaşları tökdüyünü təsəvvür edəndə özünü saxlaya bilmir, özü də ağlayırdı.

Amma o günlər arxada qalıb, balaca Lüsi indi anasının qucağında uyuyur. Əks-sədaların arasında o körpənin ayaq səslərinin tappıltısı, təzə açılan dilinin şirin kəlmələri də eşidilir. Amma nə qədər səs-küy qopsa da, hansı səsin əks-sədası nə qədər güclənsə də, beşiyin başında dayanan ana yüz səsin içində o səsi seçir. Budur, o gəlib, kölgədəki ev uşaq

səsinin, uşaq gülüşünün nuruyla işıqlanıb, sanki o həyəcanlı günlərində üz tutub dua etdiyi ilahi qüvvə – körpələrin dostu və himayədarı – onun da körpəsini qucağına alıb, gənc anaya müqəddəs bir sevinc bəxş edib.

Lüsinin qayğıkeş əlləri qızıl sapla neçə insanı bağlayıb bir yerə toplayıb, sanki gözəl naxışlı qəşəng parça toxuyur, o insanların hər birinin həyatına öz sevgisi və qayğısıyla təsir edir; addım səslərinin əks-sədasında da o, dostluq, əmin-amanlıq notları eşidirdi. O səslərin arasında ərinin möhkəm və inamlı addım səslərini, atasının qəti və rəvan addım səslərini eşidirdi. Bu da miss Prossun ayaq səsləridir: elə bil ipəsapa yatmayan dəlisov at çapır; irəli cumur, sonra da çinar ağacının altında dayanıb fınxırır, ayaqlarını yerə döyür!

O səslərin arasında kədər və qüssə gətirən amansız səslər olanda onlar elə də üzücü və amansız olmurdu. Hətta anasının qızılı saçlarına oxşayan saçları yastığın üstünə dağılmış balaca oğlan uşağının solğun üzündə təbəssüm görünüb pıçıltıyla "Əziz ata, əziz ana, mən sizi və sevimli, qəşəng bacını tərk etməli olduğum üçün kədərlənirəm, amma məni çağırırlar, mən getməliyəm" deyəndə gənc ana nə qədər kədərlənsə də, itki nə qədər ağır olsa da, bu, Allahın əmri kimi qəbul olundu və o, həyata yenə ümidlə baxır.

Lüsinin eşitdiyi səslər içində mələk qanadlarının xışıltısı da var; o, Yer üzünü dolduran səslər içində göylərdən gələn səsləri, ilahi nəfəsi də duyurdu. Küləyin nəfəsi balaca məzara toxunur, yay vaxtı dənizin ləpələri qumlu sahilə dəyib şırıldayır, Lüsi bu səsləri eşidir, – qızı, balaca Lüsinin şəhərlər çox ciddi bir ədayla oturub dərs oxuyarkən, ya da anasının ayağı tərəfdən balaca stulda oturub kuklasını geyindirəndə İki Şəhərin dillərini (o dillər bu uşağın həyatında qarışıb bir dil olmuşdu) bir-birinə qarışdırıb öz-özünə nəsə danışdığı vaxt çıxardığı səsləri eşitdiyi kimi, Lüsi o səsləri də eşidirdi.

O səslərin içində bəzən Sidni Kartonun ayaq səsləri də eşidilir. İstədiyi vaxt dəvət olunmadan gəlib onların yanında gecə keçənəcən oturmaq hüququndan istifadə edərək il ərzində beş-altı dəfə doktor Manettgilə gəlirdi; əvvəllər daha tez-tez gələrdi. Özü də bu evə gələndə heç vaxt içib gəlmir. Kartonun addım səslərinin əks-sədası da onun barəsində başqalarının bilmədiyi həqiqəti pıçıldayır, – həqiqi əks-sədalar həmişə belə olur, onlar ancaq həqiqətin pıçıltısı olub, həmişə də belə olacaq.

Kişi bir qadını sevib ondan ayrılırsa, qadın başqasına ərə gedib ana olandan sonra da sevgi dəyişməz qalırsa, qadının uşaqları instinktiv olaraq o kişiyə yaxşı münasibət bəsləyir, hətta onun halına acıyırlar. Hansı gizli hisslərin oyandığı barədə əks-səda heç nə demir, amma bu belədir; Sidni Karton da bundan yan keçə bilməzdi. Balaca Lüsinin öz balaca əllərini uzatdığı ilk yad adam Karton oldu, qız böyüdükcə onların dostluğu da davam edirdi. Qızılı saçlı balaca oğlan bu dünyadan köçəndə son nəfəsdə demişdi: "Yazıq Karton! Onu mənim əvəzimdən öpərsiniz!"

Nəhəng gəmi tutqun dəniz sularında üzə-üzə irəliləyib yedəyindəki balaca qayığı da sürüyərək apardığı kimi, mister Strayver hüquq aləmində yüksəlir, öz faydalı dostunu da dartıb özüylə aparırdı. Yedəkdəki qayığın vəziyyəti heç də yaxşı olmur: hey suya batıb-çıxır, bir də görürsən batdı və xeyli müddət görünmədi, – Sidninin də həyatı beləydi. Bütün varlığına hakim kəsilmiş zərərli vərdiş onun həyat tərzini birdəfəlik elə müəyyənləşdirmişdi, şirin çaqqalı rolundan imtina edə bilmirdi; əsl çaqqal şir ola bilmədiyi kimi, o da düşdüyü təhqiramiz vəziyyətdən – şirin çaqqalı statusundan çıxa bilmirdi. Strayver isə daha da varlanmışdı; yumru başlarında düz-düz bitmiş saçdan başqa bir şey olmayan üç oğlanın anasıyla – varlı, dul bir qadınla evlənmişdi.

Bir dəfə də himayədarlıq nümayiş etdirən mister Strayver bu üç gənci üç qoyun kimi qabağına qatıb Sohonun sakit guşəsinə gətirdi və onları Lüsinin ərinə şagirdliyə vermək niyyətiylə dedi: "Salam, Darney! Budur, bu da sənə üç şagird; hər halda, bu da bir parça çörəkpuludur, ailə süfrəsinə xeyri olar!" Darneyin bu üç parça pendir-çörəkdən nəzakətlə imtina etməsi Strayveri hədsiz qəzəbləndirdi və o, himayədarlıq elədiyi üç gəncə öyüd-nəsihət verib bu cür yekəxana, dilənçi ev müəllimlərindən uzaq olmağı tövsiyə etdi. Mister Strayver yaxşıca içib hallanandan sonra missis Strayverə danışırdı ki, missis Darney bir vaxtlar onu ələ keçirmək üçün dəridən-qabıqdan çıxırmış, hətta hiyləyə də əl atıb, amma, sən demə, daş qayaya rast gəlib və o, bic tərpənib aradan çıxa bilib – "ələ keçməyib". Yaxın həmkarları hərdən qonaq gələndə onun içib hallanandan sonra danışdığı rəvayətlərə qulaq asmalı olur, yalan danışdığını üzrlü hesab edirdilər, öz aralarında isə deyirdilər ki, bu adam bu nağılları o qədər tez-tez danışır ki, onların doğru olduğuna inanmağa başlayıb, amma bu, düzəlməsi qeyri-mümkün olan elə naqislikdir ki, belə sini cəmiyyətdən təcrid etmək, ya da dar ağacından asmaqdan başqa ayrı bir çıxış yolu da yoxdur.

Küçədən eşidilən səslərin bu cür əks-səda verməsinə qulaq asan Lüsi fikrə gedir, hərdən kədərlənir, bəzən də sevinib gülürdü; illər beləcə keçirdi və nəhayət, onun körpə balası balaca Lüsinin 6 yaşı tamam oldu. Qızının tıppır-tıppır yerişinin, atasının enerjili və inamlı addımlarının, sevimli ərinin ayaq səslərinin əks-sədası onun qəlbinə elə yaxın, elə əziz idi, bunu sözlə ifadə etmək, yəqin ki, heç mümkün də deyil. Onun ağılla, məhəbbətlə, qənaətcilliklə idarə etdiyi doğma evində çox qazanıb pulu göyə sovuran çoxlarının evindəkindən daha artıq bolluq, rahatlıq var idi; o səslərin arasında Lüsi öz evinin də səsini eşidirdi və bu zaman sanki həzin bir musiqiyə qulaq asırdı. Ətrafda ona xoş gələn əks-səda çox idi, atası neçə dəfə demişdi ki, sən ərə gedəndən sonra mənə daha çox vaxt ayırırsan (imkan daxilində), sevimli əri tez-tez deyirdi ki, sən üzərinə düşən bütün vəzifələri yerinə yetirməyə də, mənə diqqət və qayğı göstərməyə, hətta kömək eləməyə də vaxt tapırsan, hərdən də soruşurdu:

– Mənim əzizim, de görüm, bizim hər birimiz üçün dünyada hər şey olmağın və sanki hər kəsin burada tək olduğu, sənin də bütövlükdə özünü ona həsr etmiş kimi görünməyin, o cür də olmağın, heç vaxt tələsməməyin, "işim başdan aşır, macalım yoxdur" deməməyinin sirri nədədir?

Soho küçəsində lap uzaqlardan gələn başqa gurultulu səslərin qorxunc əks-sədası da eşidilirdi. Balaca Lüsinin 6 yaşı qeyd olunduğu vaxt Fransada dəhşətli dəniz kükrəməsini xatırladan bir fırtına qopdu, onun qorxunc səsinin əks-sədası Sohonun sakit bucağına da gəlib çatdı.

1789-cu il iyul ayının ortalarında mister Lorri Tellson Bankdan gec çıxıb doktor Manettgilə gəldi, qaranlıq pəncərənin qarşısında oturub küçəyə baxan Lüsiylə Çarlzın yanında oturdu. Axşam vaxtı olsa da, istiydi, hava boğanaq idi; onlar əvvəl bir dəfə də bazar günü, gecə vaxtı elə bu pəncərənin qarşısında oturub şimşək çaxdıqca qaranlıq səmanın işıqlandığına baxdıqlarını yada saldılar.

– O qədər iş var ki, – mister Lorri qəhvəyi rəngli parikini geri itələyib dedi, – dedim, yəqin, bu gecə bankda gecələməli olacağam. Bütün günü baş qaşımağa macalımız olmayıb, bilmirik işin hansından başlayaq, hansını sonraya saxlayaq. Parisdə vəziyyət yaxşı deyil, ona görə də bizə etibar edənlərin sayı birdən-birə artıb. Bizim oradakı müştərilərimiz

öz kapitallarını buraya köçürməyə tələsirlər; onların çoxu başına hava gəlmiş kimi nələri varsa, hamısını İngiltərəyə göndərmək istəyir.

– Bu heç də yaxşı əlamət deyil, – Darney dedi.

– Deyirsiniz yaxşı əlamət deyil, eləmi, əzizim Darney? Düzdür, amma bunun içində gizlənən səbəbi bilmirik. Adamlar elə bil başlarını itiriblər! Tellson Bankda işləyənlərin çoxu yaşlı adamlardır, səbəbsiz yerə adi iş rejimindən çıxmaq bizim əsəblərimizə təsir edir, işləyə bilmirik.

– Amma, hər halda, siz özünüz də bilirsiniz ki, – Darney dedi, – hava necə tutulub, göy üzünü buludlar alıb.

– Əlbəttə, bilirəm, – mister Lorri onunla razılaşdı və özünü inandırmaq istədi ki, əhvalı pozulub deyə gileylənir, – amma məni də qınamayın, həyəcan içində keçən ağır iş günündən sonra deyinməmək olmur. Manett haradadır?

– Mən buradayam, – deyib doktor elə həmin anda qaranlıq otağa girdi.

– Mən çox şadam ki, siz evdəsiniz; bugünkü hay-küylü iş günündən, qanqaraldan xəbərlərdən sonra heç nədən əsəbiləşirəm. Deyəsən, harasa getmək istəyirsiniz?

– Yox. Əgər etiraz eləmirsinizsə, sizinlə nərd oynaya bilərəm, – doktor dedi.

– Düzünə qalsa, nərd oynayası halda deyiləm; bu vəziyyətdə oynasam, onsuz da uduzacağam. Çay podnosu buradadır, Lüsi? Nəsə gözümə dəymir.

– Əlbəttə, buradadır, sizə görə saxlamışıq.

– Sağ ol, əzizim. Bizim gözəl balamız neyləyir, yatıb?

– Hə, yatır.

– Hə, lap yaxşı, hamı buradadır, hamı sağ-salamatdır. Allahın köməyi ilə bu evdə hər şey yaxşı olmalıdır, salamatçılıq olmalıdır. Amma mən bütün günü işdə çox narahat olmuşam, nigarançılıq keçirmişəm. Əslində, bunun hamısı yaşla bağlıdır, axı mən cavan deyiləm. Çayı mənə gətirdin? Sağ ol. Gəl sən də burada, bizim yanımızda otur. Hamımız sakitcə oturub səslərin əks-sədasına qulaq asaq, səslərlə bağlı sənin öz nəzəriyyən də olmalıdır. Elədirmi?

– Yox, nəzəriyyə deyil, bu mənim fantaziyamdır.

– Yaxşı, fantaziya olsun, əzizim, – mister Lorri belə deyib Lüsinin əlini sığalladı. – Amma bu gün, deyəsən, addım səsləri çoxalıb, özü də daha bərk tappıldayır. Siz də eşidirsinizmi? Gəlin qulaq asaq!

Üç-dörd nəfərlik bir dəstə adam Londondakı qaranlıq pəncərənin qarşısında oturduğu vaxt bu yerdən çox-çox uzaqlarda – Sent Antuanda dəlisov, təhlükəli addımlar kimlərinsə həyatına müdaxilə edir, yerə düşən qırmızı qan ləkələri silinib getmir, artıb-çoxalırdı.

Həmin günün səhəri Sent Antuanın küçələri adamla doluydu; nəhəng, tutqun insan kütləsi ora-bura gedir, vurnuxurdu, dalğalanan insan başlarının üstündə isə günəş şüalarının parıldatdığı polad tiyələr və nizə ucları göz qamaşdırırdı. Sent Antuanın boğazından dəhşətli bir qışqırtı qopdu, qışda quruyub çılpaqlaşmış və küləyin yelləyiyi ağac budaqlarını andıran minlərlə çılpaq insan qolu havaya qalxıb meşə kimi dalğalandı, gərilmiş barmaqlar aşağıdan (bilən yox idi haradan) atılan silahı, ya da silahı əvəz eləyən istənilən şeyi göydə qamarlayıb tuturdu.

Silah haradan gəlmişdi, necə gəlmişdi, kim gətirmişdi – bunu bilən yox idi. Amma kütlənin başı üstündə şimşək kimi havada parıldayan silah adamların əlinə keçirdi; tüfənglər paylandı, patron da, qırma da, barıt da paylandı, ağac və dəmir parçaları, baltalar, bıçaqlar, ucuşiş nizələr... – kimin əlinə nə keçirdisə, onunla da silahlanırdı. Heç nə tapa bilməyənlər əllərinin qanı axa-axa dartıb divarlardan daş və kərpic qoparır, onunla silahlanırdılar. Sent Antuanda insanların səbir kasası dolub, əsəblər tarıma çəkilib, damarlarda qaynayan qan ürəklərə sığışmır; orada heç kim öz həyatını qorumaq barədə əsla fikirləşmir, əksinə, hər kəs dəlisov bir ehtirasla fürsət axtarır ki, öz həyatını qurban verib qurtarsın.

Hər burulğanda su axını fırlanıb mərkəzə yönəldiyi kimi, qəzəbli insan kütləsi də Defarjın şərab dükanının ətrafında fırlanırdı, bu qaynayan qazandakı hər damcı mərkəzə – Defarjın dayandığı yerə can atırdı; barıt və tərdən qaralmış Defarj isə orada göstərişlər verir, silah paylayır, kimisini geri itələyir, bir başqasını qabağa dartır, silahı birindən alıb başqasına verirdi, – qaynayan insan qazanının düz ortasında çalışıb-vuruşurdu.

– Mən tərəfə gəl, üçüncü Jak, – Defarj qışqırdı, – sizinləyəm birinci Jak, ikinci Jak, aralanın, o patriotlardan bacardıqca bir yerə toplayın, irəli gedin. Mənim arvadım haradadır?

– Ey, mən buradayam! – həmişə olduğu kimi madam yenə soyuqqanlıqla cavab verdi; indi o heç nə toxumurdu, sağ əlində milçə əvəzinə balta tutmuşdu, belindəki kəmərdən tapança və iri bıçaq asılmışdı.

– Hara gedirsən, ay arvad?

– Mən indi sənin lə gedirəm, – madam dedi. – Sonra arvadlara qoşulub onlara rəhbərlik edəcəyəm.

– Gəlin! – Defarj öz gurultulu səsiylə qışqırdı. – Patriotlar və dostlar, biz hazırıq – Bastiliya!

İyrənc "Bastiliya" sözünü demək üçün sanki bütün Fransa nəfəsini çəkib eyni vaxtda bağırdı, insan dənizi kükrəyib qalxdı, şahə qalxan dalğalar şəhərin küçələrini bürüyüb ağzına aldı, izdiham Bastiliyaya tərəf axışdı. Həyəcan təbili vuruldu, barabanlar gumbuldadı, qəzəblənmiş dəniz gurlayıb yeni sahillərə tərəf şığıdı, hücum başladı.

Dərin xəndəklər, ikiqat aşırmalı körpü, qalın daş divarlar, səkkiz nəhəng qala qülləsi, toplar, tüfənglər, mərmi və güllə səsləri, alov və tüstü. Bu od-alovun, bu tüstünün içində çaxırsatan Defarj topçuluq eləyir – insan dənizinin dalğaları vurub onu buraya gətirib və indi igid əsgər – sərrast topçu Defarj əsl qəhrəman kimi döyüşür; iki saat davam eləyən ağır döyüşdə əzmlə, fədakarlıqla vuruşdu.

Dərin xəndək, aşırma körpü, qalın daş divar, səkkiz nəhəng qala qülləsi, top və tüfənglər, alov və tüstü. Aşırma körpünün biri çöküb!

– Güc verin, qardaşlar, hamınız güc verin! Güc verin, birinci Jak, ikinci Jak, mininci Jak, iki mininci Jak, iyirmi beşinci Jak; Allah eşqinə, şeytan naminə – kim nəyə inanırsa, onun eşqinə, onun naminə – güc verin! – Bu sözləri çaxırsatan Defarj deyirdi; lüləsi od tutub yanan topun yanında dayanıb qışqırır, insanları döyüşə səsləyirdi.

– Qadınlar! Buraya, mənim yanıma! – Defarjın arvadı qışqırdı. – Yeri gələndə biz öldürməyi kişilərdən heç də pis bacarmırıq!

İntiqam alovuyla alışıb-yanan qadınlar tükürpədici səslə qışqırıb ona tərəf qaçdılar; onların hərəsi bir cür silahlanmışdı, amma hamısının əsas silahı aclıq və intiqam idi.

Topdan, tüfənglərdən açılan atəş səsləri və tüstü; amma yenə qarşıda dərin xəndək, aşırma körpü, qalın daş divarlar və səkkiz nəhəng qala qülləsi dayanıb. Ön sıralardakı yaralıların yıxılması qəzəbli dənizdə elə bil tərəddüd yaratdı. Top və tüfənglər atəş açıb od saçır, fakellərin işığı göz qamaşdırır, od almış nəm küləş vaqonu tüstüləyir, qonşu barrikadalarda gərginlik yaşanır; qışqırtı, atəş səsləri, lənət səsləri, insanlar heç nədən çəkinmədən cəsarətlə irəli cumur; səs-küy, toqquşma, gurultu və kükrəyib coşan insan dənizinin qəzəbli səsi; amma hələ də qarşıda dərin xəndək, aşırma körpü, qalın daş divarlar və səkkiz nəhəng qala qülləsi var, çaxırsatan Defarj dörd saat mərmi yağdırandan sonra lüləsi qızıb qıpqırmızı olmuş topun yanından kənara çəkilmir.

Budur, nəhayət, qalanın içində yellənən ağ bayraq görünür – tərəfləri danışıqlar aparmağa çağırır; qəzəbli fırtınada heç nə görünmür, heç nə eşidilmir, dərhal da dəniz ağlasığmaz bir sıçrayışla kükrəyib qalxır, dalğalar çaxırsatan Defarjı götürüb endirilmiş körpünün üstündən aşırır, qalın daş divarların yanından keçirir və təslim olmuş qalanın içərisindəki səkkiz bürcün arasına gətirib çıxarır!

Defarjı süpürləyib aparan insan dənizi dalğası o qədər güclüydü ki, nəfəsini çəkməyə macal tapmadı və bir də baxdı ki, Bastiliya qalasının həyətindədir. Burada, divarın künc tərəfində az da olsa, imkan tapıb ətrafına göz gəzdirdi. Üçüncü Jak yaxındaydı, əlində bıçaq tutub bir dəstə qadını arxasınca aparan madam Defarj xeyli aralıdaydı. Aləm birbirinə qarışmışdı, ağız deyəni qulaq eşitmirdi, hamı qışqırırdı, adamlar sevindiklərindən bilmirdilər neyləsinlər; qəzəbli, dəlisov hayqırtılara baxmayaraq, adama elə gəlirdi ki, bu bir başıpozuq pantomima teatrıdır.

– Məhbuslar!

– Siyahılar!

– Gizli kameralar!

– İşgəncə alətləri!

– Məhbuslar!

Güclü dəniz dalğaları kimi axışıb gələn on minlərlə insanın qatmaqarışıq qışqırtı və hayqırtıları arasında "Məhbuslar!" deyən səslər daha gur idi və ara vermədən elə təkrar olunurdu, sanki məkan və zaman kimi, bunun da nə bir əvvəli olub, nə də sonu olacaq. İnsan dənizinin irəlidəki dalğaları həbsxana zabitlərini gizli kameraların yerini deməyəcəkləri təqdirdə dərhal öldürməklə hədələyərək götürüb özüylə aparanda Defarj öz güclü əliylə saçına dən düşmüş və əlində fakel tutmuş bir zabitin yaxasından tutub qırağa çəkdi, divara dirəyib dedi:

– Şimal qülləsini mənə göstər! Tez ol!

– Baş üstə, – zabit dedi, – gəlin gedək. Amma indi orada heç kim yoxdur.

– "Şimal qülləsi, yüz beş" nə deməkdir? – Defarj soruşdu. – Tez cavab ver!

– Siz nəyi nəzərdə tutursunuz, cənab?

– Bu, məhbusun nömrəsidir, yoxsa kameranın? Cavab ver! Bilmirsən ki, bu saat səni öldürərəm?

– Onu öldür! – üçüncü Jak yaxına gəlib mızıldandı.

– Cənab, bu, kameranın nömrəsidir.

– O kameranı mənə göstər!

– Onda bu tərəfdən gəlin.

Qan hərisi üçüncü Jak danışığın qan tökməklə nəticələnmədiyini görüncə Defarjın qolundan tutdu, Defarj özü də həbsxana zabitinin qolundan tutdu. Qalanın içinə dolub həyəti, dəhlizləri, keçidləri, pilləkənləri, bir sözlə, hər tərəfi bürümüş okean dalğalarının dəhşətli gurultusu qulaqları batırıb bütün səsləri eşidilməz eləmişdi, ona görə də bu üç nəfər bir-birinin nə dediyini eşitmək üçün qısa danışıq vaxtı başlarını birləşdirmişdi, hər kəs söz deyəndə ağzını o biri adamın qulağına dirəyib var gücüylə bağırırdı. Qaladan çöldə isə okean özünü divarlara çırpır, dəhşətlə guruldayırdı, yalnız təsadüf nəticəsində ondan bir damcı qopub qalanın içinə düşmüşdü.

Defarj, həbsxana nəzarətçisi və üçüncü Jak əl-ələ tutub bacardıqları qədər sürətlə gedirdilər; onlar heç vaxt gün işığının düşmədiyi zirzəmilərdən keçdilər, qəfəs və kameraların qorxunc qapılarının yanından ötdülər, kələ-kötür pilləkənlərlə mağaraya oxşayan hansısa çuxurlara düşdülər, sonra da pilləkəndən çox suyu qurumuş şəlalə yatağına oxşayan dik pilləkənlə yuxarı qalxdılar. Gah orada, gah burada, ələlxüsus da yolun başlanğıcında harasa tələsən adamlar onlara çatır, sıxışdırır, yanlarından ötüb-keçirdilər, aşağı düşüb qala bürcünün gizli yoluna çıxdıqdan sonra vintvarı pilləkənlə qalxanda isə heç kim onlara mane olmurdu. Burada qalın divarların və alçaq tavanın əhatəsində tam bir sakitlik hökm sürürdü; elə təsəvvür yaranırdı ki, indicə içindən çıxıb gəldikləri dəhşətli gurultu, guppultu və hayqırtı onların qulaq pərdələrini deşib kar eləyib, ona görə də heç nə eşitmirlər.

Həbsxana nəzarətçisi alçaq bir qapının qarşısında dayandı, açarı qapının kilid yerinə soxub çətinliklə fırladı, itələyib yavaş-yavaş açdı, üçü də başını əyib içəri girəndən sonra dedi:

– Şimal qülləsi, yüz beş buradır.

Divarın yuxarısında pəncərəni əvəz eləyən qalın, dəmir barmaqlıqlı, şüşəsiz balaca bir nəfəslik var idi, onun qarşısında bir növ dimdik kimi qabağa çıxmış daş elə dayanmışdı ki, ancaq lap aşağı əyilib yuxarı baxanda səmanı görmək mümkün olurdu. Qalın, dəmir barmaqlıqlı sobanın içində çoxdan sönmüş ocağın bir qalaq soyuq külü qalmışdı. Sobadan başqa içəridə balaca stul, stol və üstünə küləş döşək salınmış çarpayı var idi. Qaralmış dörd divardan birində paslanmış dəmir halqa görünürdü.

– Fakeli divarlara yaxın tut görüm orada nə var, – Defarj həbsxana nəzarətçisinə dedi.

Həbsxana nəzarətçisi əmri yerinə yetirdi. Defarj üstünə işıq düşən divarları diqqətlə gözdən keçirdi.

– Dayan! Bura bax! Jak!

– A.M., – ac gözlərini divara zilləyib baxan Jak xırıltılı səslə dedi.

– Aleksandr Manett, – Defarj üçüncü Jakın qulağına pıçıldadı və barıtdan qaralmış şəhadət barmağını hərflərin üstündə gəzdirdi. – Bura bax, burada "bədbəxt doktor" yazıb. Şübhəsiz ki, daşın üstündəki bu təqvim də onun cızma-qarasıdır. Sənin əlindəki nədir? Lomdur? Onu bəri ver.

Defarj hələ də topun fitil çubuğunu əlində tutmuşdu, tələsik onu üçüncü Jaka verib lomu aldı, iki-üç zərbəylə stolla stulu sındırıb parça-parça elədi.

– Fakeli yuxarı qaldır! – qəzəblənmiş Defarj həbsxana nəzarətçisinə dedi. – Jak, taxta qırıqlarının arasını yoxla, bax. Bəri baxsana! Mənim bıçağımı al, – belə deyib bıçağı ona atdı, – döşəyi kəs içinə bax. Ey, sənin ləyəm, fakeli yuxarı qaldır!

Həbsxana gözətçisinə qəzəblə baxa-baxa Defarj sobanın üstünə dırmaşdı, soba divarlarını lomla döyəcləyib yoxladı. Yuxarıdan əhəng və toz töküldü, Defarj üzünü çevirdi ki, gözünə düşməsin. Divarları yoxlayandan sonra sobadakı külü eşələyib baxdı, lomun zərblə dəydiyi yerdə əmələ gəlmiş deşiyə baxdı; ehtiyatla hər yeri yoxladı.

– Taxta qırıqlarının arasında, küləşin içində bir şey tapmadın, Jak?

– Heç nə tapmadım.

– Taxta-tuxtanı, küləşi bir yerə yığ. Hə, yaxşı. İndi od vur!

Həbsxana nəzarətçisi fakeli küləşə yaxınlaşdırıb yandırdı; bir yerə toplanmış taxta və küləş qarışığı parlaq alovla yanmağa başladı. Tonqa-

lı elə bu cür yana-yana qoyub onlar aşağı əyilərək alçaq qapıdan çıxdılar, gəldikləri yolla geri qayıtdılar ki, həyətə çıxsınlar; aşağı endikcə səs-küy və qışqırıq səsləri eşidilməyə başladı və sanki kar olmuş qulaqlar yenidən eşitməyə başladı. Az sonra onlar kükrəyən dənizə oxşayan insan axınına qarışdılar.

Kükrəyib qaynayan kütlə Defarjı axtarırdı. Sent antuanlılar qışqırıb tələb edirdilər ki, Bastiliya qalasının müdafiəsini təşkil edən və adamlara atəş açmaq əmri verən komendantı aparan mühafizə dəstəsinə Defarj başçılıq etsin. Əks təqdirdə, komendantı bələdiyyə binasına aparıb mühakimə etmək mümkün olmayacaq və o aradan çıxıb əkiləcək, xalqın tökülən qanı yerdə qalacaq (əvvəllər heç bir dəyəri olmayan o qan indi birdən-birə qiymətə minib matah olmuşdu), intiqamı alınmayacaq.

Qırmızı işləməli boz pencək geyinmiş, qaşqabaqlı, qoca komendantı hər tərəfdən əhatə edib qəzəblə qışqıran insan dənizində yalnız bir nəfər sakit görünürdü: o qışqıraraq əlini uzadıb: "Budur, bu da mənim ərim! Defarj gəldi", – dedi. Madam Defarj qoca komendantın böyrünü kəsdirib dayanmışdı; ərinin başçılığıyla hərəkət eləyən mühafizə dəstəsi küçələrdən keçərək komendantı apardığı vaxt da onunla yanaşı yeriyirdi. Dəstə bələdiyyə binasına çatıb dayandı, komendanta ilk zərbələr dəyəndə də, ucu-bucağı görünməyən insan dənizindən hər kəs əlinə keçəni onun başına yağış kimi yağdıranda da, aldığı çoxsaylı zərbələrdən nəfəsi kəsilib yerə yıxılanda da madam Defarj komendantdan aralanmadı, sanki bunu gözləyirmiş kimi dərhal hərəkətə gəldi: ayağını yerdə uzanıb qalmış komendantın boğazına dirəyərək artıq bayaqdan bəri əlində hazır saxladığı bıçaqla onun başını kəsib bədənindən ayırdı.

Nəhayət, elə bir vaxt gəlmişdi ki, Sent Antuan öz dəhşətli niyyətini həyata keçirir – dirəklərdən fənər əvəzinə adam asırdı, bununla da özünün nəyə qadir olduğunu nümayiş etdirirdi. Sent Antuanın qanı kükrəyib coşmuşdu, damarlarda qaynayan qanı sakitləşdirmək üçün tiranların və zülmkarların qanı tökülməliydi. Qan isə artıq tökülürdü: budur, bələdiyyə binasının pilləkəni qala komendantının qanına boyanıb, o qan hətta komendantın başını bıçaqla kəsmək üçün ayağını onun boğazına dirəmiş madam Defarjın çəkməsinə də çilənib.

– Fənəri endirin! – yeni cəza üsulu tapmış Sent Antuan qışqırdı. – Komendantın əsgərlərindən birini dirəkdən asaq ki, rəisinin keşiyini çəksin!

– Əsgəri dərhal asdılar, onun cəsədi dirəyin başında fənərin əvəzinə yellənəndə izdiham hərəkətə gəlib oradan uzaqlaşdı.

Dənizin dalğaları tutqundu, qorxuncdu, hündür dalğalar dalbadal gəlirdi. Bilən də yoxdur ki, bu tələtüm hansı dərinlikdən başlayır, gücü nə qədərdir. İntiqama çağıran insan dənizi gurlayırdı, əzab çəkməkdən yanıb-yaxılmış, ürəyi bərkiyib daşa dönmüş, insaf nə olduğunu bilməyən insanlar heç nədən çəkinmirdilər, bu axının qarşısını almaq da mümkün deyildi.

Qəzəbli insan sifətləri dənizində o birilərindən kəskin fərqlənən və hər birində yeddi sifət olmaqla iki dəstə var idi, – sulara qərq olmuş gəminin qalıqları dalğaların üstündə atılıb-düşdüyü kimi, fərqli sifətləri də insan dənizinin dalğaları götürüb harasa aparırdı. Onlardan yeddisi qəflətən azadlığa çıxmış və sanki fırtınanın vurub qəbirdən çıxartdığı yeddi məhbus idi; qorxudan, həyəcandan və dəhşətdən özlərini itirib heç nə başa düşməyən o bədbəxtləri adamlar yuxarı qaldırıb elə aparırdılar, elə bil qiyamət günü mələklər ölüləri məhşər ayağına aparırdı. Adamların yuxarı qaldırıb başları üstündə apardıqları o biri yeddi sifət isə yarıaçıq gözləriylə baxıb qiyamət gününü gözləyən ölüləri izləyirdi. O laqeyd, ölü sifətlər sanki bir anlığa dəhşətdən donub-qalmışdı, deyərdin elə indicə göz qapaqlarını qaldırıb qansız dodaqlarını tərpədərək deyəcəklər: "Bunu sən eləmisən!"

Azad edilmiş yeddi məhbus, şiş payaların ucuna taxılmış yeddi qanlı baş, lənətə gəlmiş qalanın səkkiz nəhəng qülləsinin açarları, zindanlarda çürüyüb məhv olmuş məhbusların məktubları və onlardan yadigar qalmış bəzi xırda-para şeylər, – 1789-cu il iyul ayının ortalarında Sent Antuandan gəlib Parisin küçələrindən keçən izdihamın ələ keçirdiyi qənimət bundan ibarət idi, – bu adamların ayaq səslərinin əks-sədası uzaqlardan da eşidilirdi. Allah eləsin, Lüsi Darneyin fantaziyası doğru çıxmasın: bu ayaq səsləri onun həyatına müdaxilə etməsin! Çünki bu addımların səsində ağılsızlıq var, təhlükə var; lap çoxdan bir dəfə Defarjın çaxır dükanının ağzında çaxır çəlləyi yerə düşüb dağıldığı vaxt olduğu kimi qan rəngli qırmızı ləkələri təmizləmək çox çətin olur.

XXII fəsil

DƏNİZ HƏLƏ DƏ KÜKRƏYİR

Yoxsul Sent Antuanın qələbə sevinci ancaq bir həftə çəkdi; bir həftə ərzində adamlar öz ağır həyatlarını az da olsa, yüngülləşdirmək üçün dostcasına qucaqlaşıb öpüşür, bir-birini təbrik edirdilər, madam Defarj isə həmişə olduğu kimi şərab dükanındakı piştaxtanın arxasında öz yerini tutub oturmuşdu, müştərilərə göz qoyurdu. Madam Defarj indi başındakı şalın altına gül taxmır, çünki casuslar qəflətən yamanca ehtiyatlı olublar, Sent Antuan əhlindən də uzaq olmağı üstün tuturlar. Küçədəki dirəklərdən asılmış fənərlər tükürpərdən qəribə səslər çıxararaq oyan-buyana yellənməkdədir.

Madam Defarj günəşli səhərin isti vaxtı əlini əlinin üstünə qoyub şərab dükanını, qarşıdakı küçəni nəzərdən keçirirdi. Dükanda da, küçədə də ac-yalavac, cındırından cin ürkən işsiz, kasıb, yazıq görkəmli adamlar görünürdü; onlar orada-burada toplaşmışdılar, bu adamlar özlərinin nəyə qadir olduqlarını artıq hiss edirdilər. Onlardan ən kasıbı, lap cındır geyimlisiylə də qarşılaşsan, adam onun üzündən oxuyurdu: "Həyatımın necə ağır olduğunu bilirəm, bəs sən necə, bilirsənmi ki, sənin həyatını cəhənnəmə çevirmək mənim üçün əsla çətin deyil?" Arıq, çılpaq qollar əvvəl işsiz idi, indi isə özlərinə məşğuliyyət tapmışdılar, bu da vurub-yıxmaq, uçurub-dağıtmaqdan ibarət idi; bu işi yerinə yetirməyə onlar həmişə hazır idi. Qadınların corab toxuyan barmaqları insan bədənini didib-parçalamağı təcrübədən keçirəndən sonra bir növ adətkar olmuş-

dular. Sent Antuanın əsrlər boyu formalaşmış xarici görkəmində də hissolunacaq dəyişiklik baş vermişdi; belə ki, son tamamlama işləri nəticəsində əsas ştrixlər fərqli xüsusiyyətlər kəsb etməyə başlamışdı.

Madam Defarj piştaxtanın arxasında oturub baş verən dəyişikliyi Sent Antuan qadınlarının liderinə məxsus soyuqqanlıqla təqdir edirdi. Yaxın rəfiqələrindən biri onunla yanaşı oturub nəsə toxuyurdu; ortaboy, dolubədənli bu qadın müflisləşmiş baqqalın arvadıdır, özü də iki uşaq anasıdır, çox haqlı olaraq da ona İntiqam ləqəbi veriblər.

– Dayan! – İntiqam dedi. – Eşidirsən? Kimsə gəlir.

Sanki Sent Antuanın girəcəyindən başlayıb şərab dükanınacan uzanan barıt cərgəsinə od vurmuşdular; küçədən gələn həyəcanlı danışıq səsi eşidildi.

– Defarjdır, – madam dedi. – Sakit olun, patriotlar!

Defarj təngnəfəs içəri girdi, başındakı qırmızı şapkanı çıxardıb ətrafına baxdı.

– Sakit olun! – madam yenə dedi. – Qulaq asın!

Defarj hələ də ağır nəfəs alaraq dayanmışdı, qapının ağzına toplaşmış adamlar ağızlarını açıb acgözlüklə ona baxırdılar, içəridəki müştərilər sıçrayıb ayağa durdular.

– Hə, danış, – madam dedi. – De görək, nə olub?

– O dünyadan təzə xəbər var!

– Nə dedin? – madam ikrahla qışqırdı. – O dünyadan?

– Qoca Fulon yadınızdadır? Ac adamlara deyirdi ki, gedin otlayın, sonra da öldü, o gorbagor yadınızdadır?

– Onun xəbəri çıxıb: o ölməyib! Bizdən qorxurdu, bərk qorxurdu, özü də bu qorxu səbəbsiz deyildi; ona görə də öldüyü barədə xəbər yayıb təmtəraqlı dəfn mərasimi düzəltdi. Amma, sən demə, diriymiş, gedib kənddə yaşayırmış. Tapıb bura gətiriblər. Elə indicə öz gözümlə gördüm, silahlı nəzarətçilər bələdiyyə binasına tərəf aparırdılar. Deyirəm də, boş yerə qorxmurmuş. Mən indi sizdən soruşuram: bizdən qorxmaqda haqlıymış?

Hər halda, o qoca hərif 70 yaşa çatanacan anlamayıbsa, heç olmasa indi – Defarjın sualına cavab verən kütlənin gurlayan səsini eşidib anlamalıydı.

Sonra dərin bir sükut oldu. Ər-arvad Defarjlar diqqətlə bir-birinin üzünə baxdılar. Madam Defarjın rəfiqəsi İntiqam əyildi, piştaxtanın da-

lındakı barabanı ayağıyla itələyib çıxartdı, dərhal da zərb alətinin gumbultusu eşidildi.

– Patriotlar! – Defarjın qətiyyətli səsi eşidildi. – Hazırsınızmı?

Madam Defarjın toqqasından asılmış bıçaq göründü, sanki hansısa sehrbaz barabanı gətirib barabançıya verdi. Baraban gumbultusu küçələrə yayıldı, əlini başının üstünə qaldırıb yelləyən İntiqam evdən evə qaça-qaça qadınları meydana səsləyib tükürpərdici səslə elə qışqırırdı, elə bil qırx qadının ətini tikə-tikə doğrayırdılar.

Kişilərin üz-gözündən dəhşət yağırdı, onlar başlarını pəncərələrdən çıxarıb baxdılar, evdən çıxdılar, əllərinə nə keçdisə, onunla silahlanıb küçəyə axışdılar; qadınlara gəlincə, onları görən ən cəsarətli adamı da soyuq tər basırdı. Qadınlar güzəranlarına zərrə qədər də xeyri olmayan ev işlərini ataraq, ac-yalavac uşaqlarını, xəstə valideynlərini tərk edib başıaçıq, səliqəsiz saçları üz-gözünə tökülmüş halda evdən güllə kimi çıxdılar, qışqırıb bir-birini danladılar, irəli itələdilər, qollarını qaldırıb havada yellədilər, dəli kimi qışqırdılar.

– Əclaf Fulonu tutublar, bacı!

– Qoca Fulon ələ keçib, ana!

Səsə çıxan qadınlar küçələrə axışır, əllərivlə başlarına, sinələrinə vurur, saçlarını yolur, qışqırıb deyirdilər ki, Fulon sağdır, ac adamlara "Gedin ot yeyin!" deyən Fulon ölməyib, diridir.

– Ac qalmaqdan döşüm quruyub süd olmayanda, Fulon deyirdi ki, sənin uşağın otları sorsun. Aman Allah, o Fulon sağdır! Zülmə bax, Allah! Acından ölən körpəm, saralıb-solan atam, mən bu daşların üstündə diz çöküb and içirəm: sizin intiqamınızı Fulondan alacağam!

– Atalar, ərlər, qardaşlar! Fulonun qanını verin bizə, Fulonun başını verin bizə, Fulonun ürəyini verin bizə, Fulonun cəsədini verin bizə, Fulonun ruhunu verin bizə; onu tikə-tikə doğrayın, qara yerə quylayın, qoy qəbrinin üstü otla örtülsün.

Bu cür qışqıran yüzlərlə qadın dəli kimi vurnuxur, əl-qollarını ölçür, qəzəblərini soyutmaq üçün bir-birinin üstünə atılıb didib-parçalayırdılar; neçəsi huşunu itirib yerə yıxılırdı. Kişilər onları dartıb qırağa çəkirdilər ki, ayaq altında qalıb ölməsinlər.

Amma hər necə olsa da, bir dəqiqə belə ləngimək olmaz! Fulon artıq meydandadır. Onu azad eləyib buraxa da bilərlər. Yox, heç vaxt! O alçağın kimə neylədiyini Sent Antuan yaxşı bilir, unutmayb, yadından

çıxarmayıb! Silahlanmış kişilərlə qadınlar evlərdən çıxaraq qarşılarına çıxan hər kəsi özləriylə götürüb elə sürətlə küçələrə axışırdılar, 15 dəqiqədən sonra məhəllədəki evlərdə bir neçə körpə uşaqdan və heysiz qocadan başqa heç kim qalmadı.

Yox. Həmin vaxt Sent Antuan sakinləri hamısı meydana toplaşmışdı. Camaat ağzınacan adamla dolu olan məhkəmə zalına daxil olmağa can atırdı, çünki həmin o eybəcər, qoca kişini orada mühakimə edəcəkdilər. Mərkəzi meydan, ətraf küçələr adamla doluydu. Ər-arvad Defarjlar, İntiqam və üçüncü Jak artıq zalda, özü də ön sıralardan birindəydilər deyə Fulonla aralarındakı məsafə də çox deyildi.

– Ona baxın! – madam qışqırıb əlindəki bıçağı Fulona tuşladı. – Baxın, qoca köpəyin əl-qolu kəndirlə bağlanıb. Çox yaxşı eləyiblər ki, onun kürəyinə bir dəstə ot da bağlayıblar. Ha-ha! Əladır. Qoy indi ot yesin! – madam bunu deyib bıçağı qoltuğunun altına qoydu; sanki teatr tamaşasına baxırmış kimi əl çaldı.

Madamdan arxa tərəfdə dayananlar onun bu məmnunluğunun səbəbini yaxındakı adamlara izah elədilər, onlar da bu xəbəri yaxın cərgədəki adamlara ötürdülər. Tezliklə bütün izdiham iştirakçıları bunu bildi, dərhal da meydanda və yaxın küçələrdə toplaşmış adamlar hamısı əl çalmağa başladı. Küçə dartışmasına oxşayan və cəfəng çıxışlarla yadda qalan bu mühakimə iki-üç saat çəkdi, bu vaxt ərzində madam Defarjın hövsələsiz iradları dərhal az qala göydə tutularaq izdiham iştirakçılarına çatdırılırdı, çünki xüsusi adamlar heyrətamiz məharət və cəldlik nümayiş etdirərək çöl tərəfdən binanın divarlarına dırmaşıb pəncərələrdən içəri baxır, yaxşı tanıdıqları madam ilə izdiham arasında bir növ teleqraf rolu oynayırdılar.

Nəhayət, günəş səmada o qədər yuxarıya qalxdı ki, onun isti şüaları qoca məhkuma qahmar durumuş kimi Fulonun başına düşdü. Yox, bu mərhəmətə artıq göz yummaq mümkün deyildi: izdihamı məhkumdan ayıran manea bir andaca yox oldu. Neçə saat ərzində bu manea necə davam gətirmişdi – bu özü də təəccüb doğurmaya bilməzdi. Fulon artıq Sent Antuanın əlindəydi.

Xəbər tezliklə izdihamın lap arxa cərgələrinə çatdırıldı. Defarj məhəccərin və stolun üstündən sıçrayıb məhkumu hər iki əliylə bərk-bərk tutan kimi madam Defarj dərhal onun böyrünü kəsdirdi, Fulonun əl-qolunu bağlayan iplərdən yapışdı; İntiqam ilə üçüncü Jak hələ ki gəlib

onlara qoşula bilməmişdi, pəncərələrin ağzına toplaşmış kişilər havadan ov üstünə şığıyan qartallar kimi tullanıb zalın içinə düşmüşdülər. Elə həmin anda "Onu çölə çıxardın! Fənərin altına gətirin!" deyib qışqıran izdihamın səsi şəhəri lərzəyə saldı.

Fulonun bağlandığı iplərdən dartaraq onu binanın pilləkənləriylə üzüaşağı apardılar. Fulon gah yıxılır, gah qalxır, gah dizi üstə, gah üzüqoylu, gah dalı üstə sürünə-sürünə gedirdi; saman və ot dəstəsi tutmuş yüzlərlə əl hər tərəfdən sifətinə çırpılaraq onu döyür, boğur, nəfəsini kəsirdi; heyi kəsilib əldən düşmüş, üz-gözü didilib parçalanmış, göyərib qançır olmuş, güclə nəfəs alan Fulon qanı axa-axa yalvarıb aman diləyir, ilan kimi dil çıxardır, adamları insaflı olmağa çağırırdı; budur, arxa cərgələrdən irəli cumub onu görmək üçün can atan adamların yeni dalğası gəlir, ön cərgədəkilər sıxlaşır. Meşədə içini qurd yeyib çürümüş, artıq dik dayana bilməyib yıxılaraq yolu kəsmiş ağacı sürüyən kimi, Fulonu da sürüyə-sürüyə aparırdılar; onu yaxındakı küçənin tinində dar ağacına oxşayan, qorxunc görkəmli, düz kəlləsində fənər yellənən tirin altına gətirdilər. Burada madam Defarj əlini çəkib ona sərbəstlik verdi – pişik də siçanı yeməmişdən əvvəl ona sərbəstlik verir, – dayanıb əsla halını pozmadan baxdı ki, görsün qoca məhkum neyləyəcək. Fulon madama yalvarır, adamlar hazırlıq işi görürdülər, qadınlar boğazları yırtıla-yırtıla qışqırırdılar, kişilər isə bağırıb tələb edirdilər ki, Fulonun ağzını otla doldurub sonra öldürmək lazımdır. Nəhayət, budur, Fulonu yuxarı qaldırırlar, amma ip qırılır, adamlar qışqırıb onu göydə tuturlar. İpi düyünləyib Fulonu ikinci dəfə qaldırırlar, tərslikdən, ip yenə qırılır, adamlar yenə qışqırıb onu havada tuturlar. Amma, yaxşı ki, ip insafa gəlib üçüncü dəfə qırılmadı. Tezliklə ağzı otla dolu olan Fulonun başı dirəyin kəlləsindən sallandı, bunu görən Sent Antuan əhli sevinc içində rəqsə başladı.

Sent Antuanın bədnam iş günü başa çatmamış axşamtərəfi hələ də sevinc içində rəqs eləyən camaatın qulağına təzə bir xəbər çatdı: məlum oldu ki, insanlara zülm eləyib qanına susayanlardan bir başqası – indicə edam olunmuş Fulonun kürəkəni tutulub, əl-qolu bağlı halda 500 say-seçmə süvarinin nəzarəti altında Parisə aparılır. Bu xəbəri eşidən kimi Sent Antuanın qanı yenidən qaynayıb coşdu. O alçağın törətdiyi cinayətlərin uzun bir siyahısı tərtib olundu. Tezliklə özü də ələ keçdi – onu 500 atlı yox, bütöv bir süvari ordusu da Fulonu cəzalandıranların

əlindən xilas edə bilməzdi – tez bir zamanda başını kəsib payaya keçirtdilər, sinəsini parçalayıb ürəyini çıxartdılar. Qanlı ürəyini də payaya keçirtdilər, sonra da başları üstündən yuxarı qaldırıb təntənəylə şəhərin küçələrindən keçdilər.

Axşam düşüb hava qaralandan sonra kişilər və qadınlar öz evlərinə – tək qoyduqları ac-yalavac uşaqlarının yanına qayıtdılar. Sonra da yoxsul çörək dükanlarının qarşısındakı uzun növbələrdə dayanıb saatlarla gözlədilər ki, heç olmasa bir tikə yavan çörək alıb evə aparsınlar; acqarına dayanıb gözləmək çətindir, vaxtı öldürmək üçün bir-birini qucaqlayıb bugünkü qələbə münasibətilə təbrik edir, gün ərzində eşitdiklərini, gördüklərini danışıb təəssüratlarını bölüşürdülər. Ac-yalavac adamların uzun növbələri tədricən seyrəlib qısalır, bir də baxırsan ki, sənin də növbən çatıb. Sonra yuxarıdakı pəncərələrdən süzülən solğun işıq görünür, qonşular küçədə tonqallar qalayıb nəsə bişirir, qapıların girəcəyində oturub yeyirlər.

Ancaq qara çörəyi islatmağa yarayan dadsız-duzsuz, ədviyyatsız və ətsiz yaxantıdır onların şam yeməyi. Amma insan həmrəyliyi o dadsız-duzsuz yaxantıya dad-tam verir, adamlar doyur, gözlərində nikbinlik qığılcımları da görünür. Gün ərzində baş vermiş qanlı hadisələrdə fəal iştirak etmiş atalar və analar öz sısqa övladlarıyla oynayır, əylənirlər. Aləm qarışmışdı, çox pis zaman idi, gələcək də yaxşı heç nə vəd etmirdi, amma sevgililər yenə sevişir, nəyəsə ümid edirdilər.

Defarjlar sonuncu müştəriləri də yola salıb qapını bağlayanda artıq hava işıqlaşır, səhər açılırdı. Müsyö Defarj xırıltılı səslə arvadına dedi:

– Axır ki, o gün gəldi, əzizim!

– Hə, düzdür, – madam dedi, – demək olar ki, artıq gəlib.

Sent Antuan yatır, Defarjlar yatır, hətta İntiqam özü də müflis baqqalla yatır; onun barabanı susur, o da istirahət edir. Sent Antuanda baş verən qanlı hadisələr təkcə barabanın səsini dəyişdirə bilməyib. Barabanı öz evində saxlayan İntiqam bu saat yuxudan oyanıb onu gumbuldatsa, baraban Bastiliya alınandan əvvəl, Fulon asılandan əvvəl necə gumbuldayırdısa, indi də o cür səslənəcək. Amma Sent Antuanda yaşayan bütün kişilərin və qadınların səsi dəyişib, indi onlar hamısı xırıltılı səslə danışır.

XXIII fəsil

TONQAL ALOVLANIR

Hələ də kasıb yol təmiri ustası hər gün öz çəkiciylə daşdan çörək çıxardır, öz cılız canını ölməyə qoymur, kəndin içindəki fontanın suyu əvvəlki kimi yenə axıb gedirdi. Amma orada nəsə bir dəyişiklik baş vermişdi. Qayalıqdakı həbsxana əvvəllər olduğu kimi qorxunc görünmürdü; oranı əsgərlər qoruyurdu, amma onlar çox deyildi; zabitlər əsgərlərə əmr verirdilər, amma hər zabit onu da bilirdi ki, əsgərlər istədikləri vaxt əmrə tabe olmayacaq, öz bildiklərini edəcəklər.

Hara baxırdın göz işlədikcə uzanıb gedən xaraba çöllər görünürdü ki, onun da yetirib-bitirdiyi ancaq yoxsulluq və səfalət ola bilərdi. Oradakı hər bir ot, hər yarpaq, hər taxıl cücərtisi eynən yerli sakinlər kimi solğun idi, cılız idi, kədərliydi. Hər şey əzilib sıxılmışdı, sındırılmışdı, yerə yapıxıb qalmışdı. Daxmalar, çəpərlər, ev heyvanları, kişilər, qadınlar, uşaqlar, hətta onları yetirən torpaq özü də üzülüb əldən düşmüşdü, heyi kəsilmişdi, elə ölüvay nəfəs alırdı, sanki ömrünün son günlərini yaşayırdı.

Bu yerlərin sahibi olan mülkədar öz şəxsi keyfiyyətlərinə görə ləyaqətli bir insan olmaqla bərabər, həm də millətin fəxri sayılan adamlardandır, gözəl və dəbdəbəli həyat sürməyi bacarmaqla yanaşı, digər fəzilətləriylə də seçilir, eyni zamanda cəngavərlik şücaətlərinin timsalıdır; amma hər necə olsa da, ona təmsil elədiyi sinfin tipik nümayəndəsi kimi baxılarsa, vəziyyətin bu yerə gəlib çıxmasının səbəbkarı o idi. Çox qəribədir ki, burada hər şey məxsusi olaraq onun üçün yaranmış olsa da, tez bir zamanda korlanıb istifadəyə yararsız hala düşdü, hər tərəf xarabazara çevrildi. Şübhəsiz ki, öz köklərilə dərinlərə gedən

mövcud qaydalarda nəsə düz deyildi və hər şey heç də uzaqgörənliklə hesablanmamışdı. Mülkədar bacardıqca kəndlini sıxırdı; tamam sıxıb suyunu çıxardandan sonra heç nə çıxmadı. Nəsə ağlasığmaz bir hadisə baş verməkdəydi və belə olan halda baş götürüb qaçmaqdan başqa, mülkədarın ayrı bir çıxış yolu qalmadı.

Amma bu kənddə və digər oxşar kəndlərdə baş verən dəyişiklik tək elə bundan ibarət deyildi. Neçə illərdir mülkədar kəndlinin nəyi vardısa əlindən alır, amma o yerlərə ayaq da basmırdı; hərdən insan ovlamağa, bəzən də kefinə düşəndə heyvan ovlamağa gəlirdi ki, onda da yalnız bu məqsəd üçün ayrılmış, heç vaxt da əkilib-becərilməyən çox geniş ərazilərdə olurdu. Yox, dəyişiklik tək elə bundan ibarət deyildi. Yüksək təbəqədən olan adamlar kənddən üz çevirəndən sonra aşağı təbəqədən olan yad adamlar orada tez-tez görünməyə başlamışdı.

Həmin vaxt günlərin birində yol təmiri ustası tozun-torpağın içində tək-tənha işləyirdi, əsla ağlına da gəlmirdi ki, torpaqdan yaranıb, torpağa da çevriləcək; fikirləşirdi ki, axşam yeməyinə çörəyi azdır, amma çox yemək istəyir, yeməyə isə bir şey yoxdur. Bu cür fikirləşə-fikirləşə işinə azca ara verib başını qaldırdı və yaxınlaşmaqda olan bir nataraz kişi gördü, əvvəllər bu tərəflərdə yad adam görmək çətin məsələydi, indi isə yad adamların sayı artmışdı. Yolçu yaxınlaşanda yol təmiri ustası gördü ki, bu, qatma-qarışıq saçlı, sifəti gündən yanıb-qaralmış, hündürboy bir adamdır, özü də vəhşiyə oxşayır; ayağına hətta yol təmiri ustasının da bəyənmədiyi kobud taxta ayaqqabı geyinib; tozlu, palçıqlı yollardan keçib gəldiyi üçün üst-başı toz-torpağın içindəydi, palçığa bulaşmışdı, paltarı cırılmışdı, yaş idi; meşələrdən keçib gəldiyi üçün paltarına yarpaq, pıtraq, mamır yapışmışdı.

İyul ayında günün günorta çağı bu cür bir adam sanki yerin altından çıxmış cin-şəyatin kimi gəlirdi və həmin vaxt yol təmiri ustası qaya çıxıntısının altındakı çınqıl tığının üstündə oturmuşdu ki, yağan doludan başını daldalasın.

Yad adam yol təmiri ustasına baxdı, dərədəki kəndə baxdı, dəyirmana baxdı, qayalıqdakı həbsxanaya baxdı. Gördüklərini öz fikrindəkilərlə müqayisə edib nəsə qəribə, amma anlaşıla bilən bir ləhcəylə dedi:

– İşlər necədir, Jak?

– Yaxşıdır, Jak.

– Onda əlini ver!

Onlar bir-birinin əlini sıxdılar. Yad adam çınqıl tığının üstündə oturub dedi:

– Nahar eləməyə nəyin var?

– Nahara heç nəyim yoxdur, ancaq axşam yeməyinə nəsə olacaq, – üz-gözündən aclıq yağan yol təmiri ustası dedi.

– İndi qayda belədir, – yad adam dedi. – Heç kim nahar eləmir.

Yad adam cibindən qara qəlyan çıxartdı, tənbəkiyə doldurdu, çaxmaqdaşıyla yandırdı, bir-iki dəfə sümürdü ki, yaxşı yansın; sonra qəflətən qəlyanı ağzından çıxardıb tənbəkinin üstünə nəsə səpdi və barmağıyla basıb yastıladı, tənbəki alovlandı, göy tüstü qalxdı.

– Onda əlini ver, – yad adamın hərəkətlərinə göz qoyan yol təmiri ustası dedi, onlar əl-ələ tutdular. – Deməli, bu gecə?

– Bəli, bu gecə, – yad adam qəlyanı ağzına yaxınlaşdırıb dedi.

– Harada?

– Elə burada.

Yad adamla yol təmiri ustası çınqıl tığının üstündə oturub bir-birinə baxırdılar; göydən tökülən dolu dənələri daşlara dəyib elə şaqqıldayırdı, elə bil balaca nizələr idi. Nəhayət, kəndin üstünü almış bulud seyrəldi, hava açıldı.

– Göstər görüm! – yad adam dedi və qalxıb təpənin üstünə tərəf getdi.

– Ora bax! – yol təmiri ustası barmağını qabağa uzadıb dedi. – Siz buradan aşağı enin, küçə ilə düz gedib fontanın yanından...

– Bu, boş söhbətdir! – yad adam onun sözünü kəsdi, başını qaldırıb ətrafı nəzərdən keçirdi. – Mən heç bir küçəylə gedən deyiləm, fontanın da yanından keçməyəcəyəm. Bildin?

– Bildim! Onda belə elə, təpənin o üzünə aşıb 2 mil gedərsən.

– Yaxşı. Sənin işin nə vaxt qurtarır?

– Gün batanda.

– İşini qurtarıb evə gedəndə məni oyadarsan? İki gecədir ayaq qatlamadan yol gəlirəm. Qəlyan çəkib qurtaran kimi yıxılıb yatacağam. Deməli, sən məni oyadacaqsan, eləmi?

– Əlbəttə, oyadacağam.

Yad adam qəlyanı çəkib qurtardı, söndürüb döş cibinə qoydu; çox iri, ağac ayaqqabılarını çıxartdı, çınqıl tığının üstünə uzandı, dərhal da yuxuya getdi.

Yol ustası yenidən öz çirkli və ağır işinə başladı. Dolu buludları dağılıb seyrəldikcə açıq səmanın ara-bərədən görünən zolaqları orada-burada əmələ gəlmiş gölməçələrdə əks olunurdu. Yad adam çınqıl tığının üstündə uzanıb yatırdı, əvvəlki vaxtdan fərqli olaraq, indi başına qırmızı şapka qoymuş yol təmiri ustası bu adama nəsə çox qəribə bir maraqla baxırdı, hətta belə demək mümkünsə, gözünü ondan çəkə bilmirdi və əlləri işləsə də, fikri dağınıq olduğuna görə işi səmərəsiz alınırdı. Yad adamın gündən qaralıb mis rənginə çalan sifəti, qara, pırpız saç-saqqalı, kobud yun materialdan olan qırmızı şapkası, əldətoxunma parça ilə tüklü heyvan dərisinin qarışığından tikilmiş paltarı, yuxuda olduğu vaxtda da qəzəblə bir-birinə sıxılmış dodaqları yol təmiri ustasını qorxudur, bütün varlığını lərzəyə salırdı. Yad adam uzaq yollardan keçib gəldiyi üçün ayaqları döyənək olmuşdu, topuqları cızılıb qanamışdı, iri taxta ayaqqabıları palçığa bulaşmışdı, üst-başı pıtraqla, yarpaqla və otla doluydu; kişinin bütün bədəni cızılmış, qançır olmuş yaralarla doluydu. Yol təmiri ustası əyilib gizlicə onun sinəsinə tərəf baxdı ki, orada gizlədilmiş silahı görə bilsin, amma bir şey çıxmadı, çünki qolları da sinəsinin üstündə bir-birinə bərk-bərk sıxılmışdı. Yol təmiri ustasına elə gəldi ki, hündür qalaları nə qədər möhkəm divarlar, keşikçi postları, dəmir qapılar, içinə su doldurulmuş dərin xəndəklər, asma körpülər qorusa da, bu adamın qarşısında heç nə dayana bilməz. Nəhayət, o, gözünü yatmış yad adamdan çəkib üfüqə tərəf baxdı, hər tərəfi gözdən keçirdi, fantaziyası nə qədər məhdud olsa da, ona elə gəldi ki, Fransanın hər tərəfindən eynilə bu adam kimi öz yolunda qarşısına çıxacaq bütün maneələri süpürüb ata biləcək insanlar axışıb paytaxta doğru hərəkət edirlər.

Yad adam yağan doluya, günəşin gah buludların arasından boylanıb üstünə işıq salmasına, gah da gizlənib yox olmasına və üstünə kölgə düşməsinə, bədəninə dəyən buz parçalarının günəş şüaları altında neçə rəngə düşərək yaratdığı mənzərəyə əsla fikir vermədən çınqıl tığının üstündə yatırdı. Nəhayət, günəş qərb tərəfdə lap aşağı enib üfüqü qırmızı rəngə boyadı. Yol təmiri ustası iş alətlərini toplayıb bir yerə yığdı ki, kəndə getsin. Yad adamı oyatmalıydı, odur ki yaxınlaşıb onu səslədi:

– Yaxşı, – yad adam oyanıb dirsəyinə söykəndi, – deməli, deyirsən ki, təpənin o üzüylə 2 mil getmək lazımdır, eləmi?

– Bəli, haradasa 2 mil.

– Haradasa 2 mil. Yaxşı!

Yol təmiri ustası evə getdi; külək onu yolda qovur, toz burulğanını isə öndə aparırdı. Tezliklə fontana çatdı, özünü suvarılmağa gətirilən inəklərin və orada toplaşmış adamların arasına vurdu, gah inəklərə, gah da adamlara müraciət edərək pıçıltıyla danışmağa başladı. Həmin axşam kənd camaatı nəsə bir şey tapıb yeyəndən sonra əvvəllər olduğu kimi yatmağa tələsmədi, adamlar küçəyə çıxdılar. Gecə vaxtı fontanın yanında yığışıb qəribə bir maraqla pıçıldaşırdılar, elə bil hamı yoluxucu pıçıldaşma xəstəliyinə tutulmuşdu; maraqlı cəhət bir də ondaydı ki, adamlar pıçıldaşa-pıçıldaşa gözlərini göyə zilləyib nəsə gözləyirmiş kimi harasa baxırdılar. Poçt rəisi müsyö Qabell bərk narahat idi: öz evinin damına çıxıb adamlar baxdığı istiqamətdə göyə baxdı, tüstü bacasından üzüaşağı – fontanın yanında toplaşmış adamların tutqun sifətlərinə göz yetirdi, sonra da kilsə gözətçisinə xəbər göndərdi ki, kilsənin açarı səndədir, bir şey olsa, kilsə zəngiylə həyəcan siqnalı verərsən.

Gecə keçirdi. Köhnə qəsri dövrələyib onun əzəmətli tənhalığını qoruyan ağaclar sanki nəhəng daş tikilini və gecənin zülmət qaranlığını hədələyirmiş kimi küləkdən tərpənib hərəkətə gəldi. Yuxarı dəhlizə qalxan hər iki pilləkəni yağış dəli kimi döyəclədi, böyük qapını elə çırpdı, elə bil qaçaraq gəlmiş çapar səs salıb içəridəkiləri ayağa qaldırmaq istəyirdi; külək kükrəyib dəhliz boyu getdi, divarlardan asılmış nizələrin, xəncərlərin arasından keçdi, inildəyib pilləkənlə yuxarı qalxdı, sonuncu markizin yatdığı otaqdakı pərdələri yellədi. Dörd tərəfdən: şərqdən, qərbdən, şimaldan və cənubdan meşəni keçib gələn cır-cındır geyimli, pırtlaşıq saçlı dörd kişi hündür otları, yerə tökülmüş xəzəli, quru budaqları tapdalayaraq ağır addımlarla gəlib qəsrin həyətində bir yerə toplaşdılar. Orada dörd tonqal qalandı, onların alovu dörd tərəfə yayıldı, sonra yenidən ətraf zülmətə qərq oldu.

Amma bu, çox çəkmədi. Nə qədər qəribə olsa da, tezliklə gecənin qaranlığında qəsr görünməyə başladı: sanki onu öz içindəki hansısa mənbə işıqlandırırdı. Sonra fasadın arxa tərəfindən boylanan alov dilləri göründü, binanın pəncərələri, məhəccərləri, tağları, sütunları işıqlandı; alov dilləri yuxarı atıldı, böyüdü, daha parlaq rəng aldı. Dərhal da böyük pəncərələrdən çölə püskürən alov dilləri göründü, qəsrdəki daş üzlər diksinib yuxudan ayılaraq alovun içindən çölə baxdı.

Qəsrdə zəif pıçıldaşma səsi eşidildi, – orada xeyli adam saxlamışdılar, danışan da onlar idi. Kimsə ata minib çaparaq aradan çıxdı. Atı qaranlıqda dördnala çaparaq suyu, palçığı sıçradıb gələn süvari fontan tərəfdə, müsyö Qabellin qapısına çatanda atı saxladı.

– Kömək edin, Qabell! Ay camaat, kömək edin!

Kilsə zəngi dayanmadan həyəcan təbili vururdu, amma bunun da xeyri olmadı – heç kim köməyə gəlmədi. Yol təmiri ustası iki yüz əlli dost-tanışıyla birlikdə fontanın yanında əllərini ciblərinə soxub dayanmışdı, od tutub yanan qəsrin göyə yüksələn alovlarına baxırdılar. Kimsə dedi: "Alov hara qalxır! Yəqin, 40 fut olar". O birilər onunla razılaşdılar, amma heç kim yerindən tərpənmədi.

Qəsrdən gələn süvari qan-tərə batmış köpüklü atın üzünü çevirib kəndin içiylə çapdı, dik yamacla üzüyuxarı qayalıqdakı həbsxanaya tərəf getdi. Həbsxananın qapısı tərəfdə bir neçə zabit dayanıb yanğına baxırdı, onlardan bir qədər aralıda əsgərlər toplaşmışdı. Süvari dedi:

– Cənab zabitlər, kömək edin! Qəsr yanır, kömək gəlsə, qiymətli şeyləri xilas etmək olar! Kömək edin! Kömək edin!

Zabitlər yanğına tamaşa edən əsgərlərə tərəf baxdılar, heç bir komanda vermədilər; çiyinlərini çəkib dodaqlarını çeynədilər və dedilər: "Yanmalı şey yanmalıdır".

Süvari təpədən enib atını yenidən kəndin içiylə çapanda bütün kənd işıqlanmışdı. Yol təmiri ustasının və onun iki yüz əlli dost-tanışının ağlına eyni vaxtda qəflətən bir fikir gəldi: onlar tez evə qaçıb şam yandırdı və öz pəncərələrinin ağzına qoydular. Çatışmazlıq burada da özünü göstərdi – şam az idi; adamlar poçt rəisindən tələb etdilər ki, şam versin, amma o tərəddüd eləyir, adamlara şam vermək istəmirdi. Adətən, səlahiyyət sahibləriylə çox nəzakətlə davranan yol təmiri ustası dedi ki, faytonlardan yaxşı tonqal qalamaq olar, poçt atlarını da yaxşıca qızartmaq olar.

Köhnə qəsr alova bürünüb yanırdı. Qəsrin içində ləngiyib köz kimi qızmış hava burulub qeyzlə divarlara çırpılır, sanki cəhənnəmdə yanıb qovrulurdu. Nəhəng divar və onunla birlikdə taxta örtüyü uçub töküləndə burnunun yanında iki balaca çökək olan daş sifət yox oldu, lakin dərhal da tüstünün içində yenidən peyda oldu və elə təsəvvür yarandı ki, bu, qəddar markizin özüdür, var gücüylə çalışıb yanğını söndürmək istəyir.

Qəsr yanırdı; binanı hər tərəfdən bürüyən hündür ağaclar yanıb kösövə dönmüşdü. Dörd qəzəbli kişi bir qədər aralıdakı ağacları yandırmışdı, onların ətrafa yaydığı qalın tüstü alovlanıb tonqala çevrilmiş qəsri hər tərəfdən dövrələmişdi. Həyətdəki fontanın suyu qurumuşdu, orada indi ərimiş qurğuşun və dəmir qaynayırdı, isti günün altında qalmış buz necə əriyirsə, qəsrin göyə millənən dörd nəhəng qülləsi də alovda o cür əriyərək kükrəyən yanğının yaratdığı dörd böyük çuxura tökülürdü. Qalın daş divarlarda böyük çatlar əmələ gəlir, kristallarda olduğu kimi çatlar dərhal budaqlanıb hər tərəfə yayılırdı; gecə vaxtı yuvasından perik düşmüş quşlar tüstüdə özlərini ora-bura vurur, sonra da nəhəng tonqalın içinə düşürdülər; dörd qəzəbli kişi ağır və yorğun addımlarla yeriyərək gecə vaxtı zülmətə qərq olmuş yollarda özlərinin yandırdığı siqnal mayaklarıyla istiqamət götürüb şərqdə, qərbdə, şimalda və cənubda yerləşən məntəqələrə tərəf gedirdi. Gecə vaxtı işıqlanıb nura qərq olmuş kəndin camaatı kilsəyə doluşdu, həyəcan siqnalı vuranı tutdular, onu əvəz eləyənlər isə sevinc və şənlik zəngləri vurdular.

Tək elə bu deyildi; aclıqdan, yanğından, tüstüdən və kilsə zənginin aramsız səsindən həyəcanlanıb ağlı çaşmış adamların ağlına haradansa bir fikir də gəldi ki, vergi və icarə haqqı məsələsi müsyö Qabellin fırıldağından başqa bir şey deyil. Düzünə qalsa, müsyö Qabell son günlər az miqdarda vergi toplasa da, bir qəpik də icarə haqqı almamışdı. Amma hər necə olsa da, adamların ağlına təzə bir fikir gəlmişdi və tezliklə müsyö Qabellin evini mühasirəyə alıb tələb elədilər ki, gəlsin özü məsələyə aydınlıq gətirsin. Müsyö Qabellin əlindən nə gəlir? Tez evinin qapısını daldan bərk-bərk bağladı, oturub fikirləşdi ki, bu işlərin axırı, görəsən, necə olacaq, indi o nə etməlidir? Çox fikirləşəndən sonra evin damına dırmaşıb bacanın dalında gizləndi və qəti qərara gəldi ki, əgər adamlar qapını sındırıb evə doluşsalar, damdan düz camaatın gur yerinə atılacaq, özü ölsə də, heç olmasa bir-iki nəfəri əzib xurd-xəşil eləyəcək. Balacaboy, kinli bir adam olan Qabell əslən cənubluydu, ondan nə desən gözləmək olardı.

Kilsə zənginin şən sədaları altında qapısının tappatap döyüldüyü, alova qərq olub yanan qəsrin tonqalına baxa-baxa tüstü bacasının dalında gizlənib səhərəcən çimir eləməyən müsyö Qabell üçün o dəhşətli gecə, yəqin ki, həyatında ən uzun gecə oldu; bu azmış kimi, yolun o üzündə, duz elə poçtun binasıyla üzbəüz dirəkdən asılmış fənər də ona

rahatlıq vermirdi, adamlar isə fənərlə onun yerini dəyişmək üçün bərk tələsirdilər. Amma, hər halda, yay gecəsi səhərəcən evin damında oturmaq, aşağıda qaralan insan dənizinə baxmaq, hər an o qaranlığa atılmaq üçün özünü hazır vəziyyətdə saxlamaq heç də asan məsələ deyil. Nəhayət, budur, çoxdan gözlənilən səhər açıldı, evlərdə yanan şamlar əriyib söndü, meydana toplaşmış adamlar dağılıb getdi, müsyö Qabell də evin damından aşağı düşdü – heç olmasa bu dəfə canını salamat qurtara bildi.

Yüzlərlə kilometr uzanan geniş ərazilərdə başqa yanğınlar törəyir, başqa malikanələr yanırdı, amma hər poçt rəisinin bəxti gətirmirdi, səhər açılıb gün çıxanda neçə-neçə məmurun fənər əvəzinə dirəkdən asıldığı da az olmurdu; heç də hər kənddə yol təmiri ustasının və onun dostlarının işi yaxşı getmirdi, o yerdəki məmurlarla əsgərlər fərasətli tərpənib üstünlük qazanırdı, orada camaatı ayağa qaldırıb qarışıqlıq salanların özləri fənər əvəzinə dirəklərdən asılırdılar. Amma kimin fənər əvəzinə dirəkdən asılmasından, hansı malikanənin yandırılmasından asılı olmayaraq, dörd qəzəbli kişi dayanmadan ağır addımlarla şərqə, qərbə, şimala və cənuba tərəf getməkdəydi. Dar ağacının hündürlüyü neçə fut olmalıdır ki, onu su şırnağına çevirəndə baş verən yanğınları söndürə bilsin? Heç bir məmur bu çətin riyazi hesablamanın öhdəsindən gəlmək iqtidarında deyildi.

XXIV fəsil

MAQNİTLİ QAYAYA CƏZB OLUNMA

Güclü zəlzələ vaxtı sahildə dayanıb qorxu və dəhşət içində baxanların istək və həyəcanına rəğmən qəzəblə gurlayan okean suları daim yüksəlib qalxır, elə təsəvvür yaranır ki, hər şey dağılıb məhv olacaq. İndi də beləydi – səngimək bilməyən yanğınlarla, dəniz fırtınasını xatırladan təlatümlərlə dolu üç il də belə keçdi. Balaca Lüsinin üç ad günü sakit məkandakı sakit evin sakit həyatına qızıl saplarla bənd olundu.

Bu sakit evin sakinləri gündüzlər, bir də gecə vaxtı nəfəslərini çəkib küçədən gələn addım səslərinin əks-sədasına qulaq asırdılar. O səslərin içində onlar hərdən öz uzaq vətənlərində qırmızı bayraq altında qışqırıb-bağıraraq hərəkətə gəlmiş insan dənizinin qorxunc addım səslərinin əks-sədasını da eşidirdilər, ora indi təhlükəliydi, neçə müddətdi ki, adamlar orada ağıllarını itirib vəhşiyə çevrilmişdilər.

Baş verən ağlasığmaz hadisələrin fonunda aristokratiya bir sinif kimi parçalanıb dağıldı; o artıq Fransaya lazım deyildi, bu azmış kimi, üstəlik imkan düşəndə onu məhv etməkdən də çəkinmirdilər. Hansısa nağılda bir kəndli çox əlləşib-vuruşandan sonra, axır ki, şeytanı görmək imkanı əldə edir, amma görən kimi qorxudan dili tutulur, dərhal da dabanına tüpürərək qaçıb aradan çıxır, – aristokratiya da uzun illər boyu əsla utanıb-qızarmadan, qorxu nə olduğunu bilmədən, Allaha da məhəl qoymadan əlləşib-vuruşdu ki, insanlar insanlıqdan çıxsınlar. Nəhayət,

istəyinə nail oldu, amma görəndə ki, vəziyyət çox dəhşətlidir, qorxusundan o da baş götürüb qaçdı.

Kral sarayının parlaq simaları fırtına kimi kükrəyib ayağa qalxmış xalqın güllələsinə hədəf olmamaq üçün qaçıb aradan çıxdı; onların görən gözü çoxdan kor olmuşdu, iblis kimi təşəxxüslüydülər, Assuriya çarı Sardanapalus kimi eyş-işrət içində yaşamaqdan köstəbəyə dönmüşdülər, burunlarının ucunu da görə bilmirdilər, ona görə də qaçıb aradan çıxdılar, yox oldular. Kralın ən yaxın adamları yoxa çıxdı, ən müxtəlif intriqaların ustası, rüşvətxorluqda isə tayı-bərabəri olmayan yüksəkvəzifəli məmurlar yoxa çıxdı. Kral hakimiyyəti yox oldu: söz gəzirdi ki, sonuncu dəfə baş vermiş kütləvi ixtişaşlar zamanı kral özü sarayda ələ keçib, edam olunub.

1792-ci ilin avqust ayında aristokratiya qaçıb aradan çıxmış, hərəsi bir diyara səpələnib gizlənmişdi.

Londonda fransız aristokratiyasının əsas iqamətgahı məhz Tellson Bank oldu. Deyilənə görə, bədəndən ayrılan ruh tez-tez bədənin dolaşdığı yerlərə baş çəkir, pulsuzlaşmış fransız aristokratları da pulları haradaydısa, oraya gedirdilər. Eyni zamanda Fransadakı vəziyyət barədə ən səhih məlumat ilk öncə Tellson Banka gəlirdi. Digər tərəfdən Tellson Bank qeyri-adi əliaçıqlıq nümayiş etdirib müflis vəziyyətə düşmüş öz keçmiş müştərilərinə hər cür kömək göstərirdi. Elə müştərilər də vardı ki, yaxınlaşmaqda olan fəlakəti qabaqcadan görmüş, qarət, konfiskasiya və sairə hallardan qorunmaq məqsədilə öz pullarını vaxtında Tellson Banka köçürmüşdülər. Bank isə öz növbəsində ehtiyacı olan fransızlara kimə müraciət etməyin yolunu öyrədirdi. Beləliklə, iş elə gətirmişdi ki, Fransadan gələn hər kəs ilk növbədə Tellson Banka üz tutur və gətirdiyi təzə xəbərləri də orada danışırdı. Bu və digər səbəblər üzündən o vaxt Fransayla bağlı məsələlər üzrə Tellson Bank bir növ birja rolunu oynayırdı və bunu camaat da yaxşı bilirdi, ona görə də hər gün buraya çoxlu adam gəlirdi; vəziyyəti görən bank rəhbərliyi göstəriş vermişdi ki, Templ Bara gələn hər kəsi məlumatlandırmaq üçün son yeniliklərin hamısını yazıb pəncərənin şüşəsinə yapışdırmaq lazımdır.

Dumanlı, tutqun günlərin birində mister Lorri öz iş yerində oturmuşdu, Çarlz Darney isə kontorun piştaxtasına söykənib qabağa əyilmişdi, yavaş səslə danışaraq onunla söhbət edirdi. Bir vaxtlar firma başçısının qəbul otağı olan balaca kabinet indi birjaya çevrilmişdi, orada adam

əlindən tərpənmək mümkün deyildi. Bankın bağlanmasına isə yarım saat qalırdı.

– Düzdür, siz yaşınızdan çox cavan görünürsünüz, – Çarlz Darney bir qədər tərəddüdlə dedi, – amma, hər halda, deməliyəm ki, ...

– Mən sizi başa düşdüm. Demək istəyirsiniz ki, mən qocalmışam, eləmi? – mister Lorri dedi.

– Bu cür havada uzaq səfərə çıxmaq istəyirsiniz, ölkədə hərc-mərclik baş alıb gedir; belə bir vəziyyətdə şəhər özü də təhlükəsiz deyil.

– Əzizim Çarlz, – mister Lorri nikbin bir əminliklə dedi, – sənin dediklərin məni burada qalmağa yox, getməyə sövq edir. Əslində, qorxulu bir şey yoxdur. O qədər adamın içində yaşı 80-i haqlamış qoca kişiyə fikir verən də olmayacaq. Deyirsən ki, şəhərdə hərc-mərclikdir, əlbəttə, elə olmasaydı, işi yaxşı bilən, şəhərə yaxşı bələd olan etibarlı adamı məxsusi olaraq bizim oradakı filiala kim göndərərdi? Nəticəsi şübhəli olan səyahət, uzaq yol... Mən neçə ilin işçisi Tellson Bankın mənafeyi naminə bu cür əhəmiyyətsiz narahatçılıqlara hazır deyiləmsə, onda bəs bu işi kim görməlidir?

– Mən özüm də gedərdim, – Çarlz Darney bir qədər narahatlıqla elə dedi, sanki öz aləmində fikirləşirdi, amma özünə demək istədiyi sözü bərkdən demişdi.

– Düzdür! Siz nəyəsə irad tutmağı da, məsləhət verməyi də yaxşı bacarırsınız! – mister Lorri həyəcanla dedi. – Siz özünüz getmək istərdiniz? Özü də fransız ola-ola? Çox ağıllı məsləhətçisiniz.

– Əzizim mister Lorri, fransız olduğuma görə Fransa barədə çox fikirləşirəm; amma, düzü, bu barədə indi danışmaq istəmirdim. Hərdən də fikirləşirəm ki, – Darney özünəməxsus tərzdə ciddiyyətlə danışırdı, – bədbəxt xalqın halına acıyan, ona görə hansısa imtiyazlardan imtina edən bir adam çətin anda xalqa öz sözüylə təsir etmək gücünə malikdir. Dünən gecə siz gedəndən sonra Lüsi ilə o barədə danışırdıq, mən ona dedim ki, ...

– Lüsi ilə o barədə danışırdınız, – mister Lorri onun sözlərini təkrar elədi. – Bəli. Heç ayıb deyil Lüsinin adını çəkirsən? Özün də ilin-günün bu vaxtı Fransaya getmək istəyirsən!

– Amma, hər halda, getmirəm, – Çarlz Darney gülümsəyib dedi. – Əsas məsələ odur ki, siz gedirsiniz.

– Bu, aydın məsələdir ki, mən, doğrudan da, gedirəm, əzizim Çarlz, – mister Lorri belə deyib xeyli aralıda oturmuş bank sahibinə tərəf gözaltı baxdı və bir qədər də alçaqdan danışmağa başladı. – Sən təsəvvür edə bilməzsən işimiz indi necə çətinləşib, bizim oradakı sənədlərimizi necə böyük təhlükə gözləyir. Bir Allah bilir ki, oradakı sənədlərdən hansınınsa ələ keçməsi, yaxud məhv edilməsi bizim çoxsaylı müştərilərimizin bəziləri üçün necə böyük fəlakət olardı. İndi heç kim deyə bilməz ki, Paris bu gün yandırılmayacaq, yaxud da sabah oranı soyub talamayacaqlar. Ona görə də vaxt itirmədən o sənədləri götürüb daha təhlükəsiz yerdə gizlətmək, əgər mümkün olsa, şəhərdən çıxardıb bura gətirmək lazımdır; indiki şəraitdə bu işi məndən başqa heç kim bacarmaz. Tellson da bunu bilir, o da belə deyir; belə olan halda mən, 60 ildir onun çörəyini yeyən bir adam belimin, yaxud qılçamın ağrıdığını bəhanə gətirib getməyə bilərəmmi, əlimdən gələni etməyə bilərəmmi? Burada işləyən o biri qocalarla müqayisədə mən cavan oğlanam!

– Mister Lorri, sizdəki cavanlara xas olan bu cəsarəti görüb heyran olmaya bilmirəm.

– Yox, ser, nə danışırsınız! Əzizim Çarlz, – mister Lorri bank sahibi oturan tərəfə yenə gözaltı baxdı, – yadınızda saxlayın ki, hal-hazırda Parisdən sənəd çıxartmaq, yaxud, ümumiyyətlə, nəsə başqa bir şey çıxartmaq nəinki çox çətindir, əslində, qeyri-mümkündür. Bax elə bu gün biz oradan xeyli sənəd və bəzi qiymətli şeylər almışıq (bu barədə mən heç kimə, hətta sənə də bir kəlmə deməməliyəm), onları kimlərin gətirdiyini ağlınıza da gətirə bilməzsiniz; yol boyu keçid məntəqələrindən keçib bura gələnəcən onların hər biri kiçik bir səhv üzündən elə yerindəcə asıla bilərdi. Əvvəllər oradan bizə, yaxud bizdən oraya göndərilən bağlama və sənədlər eynilə İngiltərədə olduğu kimi, sərbəst şəkildə heç bir problem olmadan gedib-gəlirdi; amma indi vəziyyət başqadır, hər şey dayanıb.

– Siz, doğrudanmı, bu axşam gedirsiniz?

– Bəli, mən, doğrudan da, bu axşam gedirəm. Ləngimək, vaxt itirmək olmaz.

– Tək gedirsiniz, yoxsa özünüzlə kimisə aparacaqsınız?

– Bir neçə adam var, təklif olunur ki, onlardan kimisə aparım, amma mən hələlik bu barədə heç kimə heç nə deməmişəm. Fikrim var ki, Cerrini aparım; neçə illərdir ki, bazar günü axşamlar evə çatanacan məni

müşayiət edir, cangüdənim kimi öz köməyini əsirgəmir, nəsə gözüm bir növ ona öyrəşib. Cerri eynən ingilis buldoqu kimidir, yiyəsinə qarşı kiçicik bir təhlükə hiss etsə, dərhal qarşısına çıxan hər kəsi parçalamağa hazırdır.

– Yenə təkrar edib deməliyəm ki, sizdəki bu həyat eşqini, gənclərə məxsus cəsarəti görüb təəccüblənməyə bilmirəm.

– Mən isə yenə təkrar edirəm ki, bunlar hamısı mənasız söhbətlərdir! Mənə həvalə olunmuş bu kiçik tapşırığı da yerinə yetirəndən sonra, olsun ki, Tellsonun təklifini qəbul edib işdən uzaqlaşdım, daha sakit bir həyat tərzinə keçdim. Onda qocalıq barədə fikirləşməyə kifayət qədər vaxtım olacaq.

Mister Lorri öz iş stolunun arxasında oturub Çarlz Darneylə danışırdı, onlardan iki-üç addım aralıda toplaşmış fransız aristokratları ağızdolusu danışıb özlərini öyür, cır-cındır içində olan kasıb-kusubu hədələyərək intiqam alacaqlarını deyirdilər. Yəqin ki, bunlar qaçqın kimi buraya gəlmiş aristokratlar idi. İngilis aristokratları da eynilə bu fikirdəydilər və Fransadakı dəhşətli inqilab barədə elə danışırdılar ki, guya baş verənlər arasında heç bir səbəb-nəticə əlaqəsi yoxdur, yəni nə edilibsə, yaxud edilməli olan nə edilməyibsə, onların heç biri vəziyyətin bu yerə gəlib çıxmasına səbəb ola bilməzdi. Əslində isə Fransada milyonlarla insanın aclıq və səfalət içində yaşadığını, digər tərəfdən də xalqın sərvətini talayıb eyş-işrətə, zinətə xərcləyərək göyə sovuranların həyat tərzini müşahidə və müqayisə edən bir çox ağıllı adamlar neçə illər öncə bunun heç də yaxşı nəticə verməyəcəyini, fəlakətə gətirib çıxaracağını dəfələrlə demiş, həyəcan təbili çalmışdılar. Fransız aristokratlarının mənasız söhbətlərini, onların artıq yeri də, göyü də bezdirmiş, ayağa durmağa taqəti olmayan çürük rejimi bərpa etmək üçün ağlasığmaz avantüralardan belə çəkinməyərək qurduqları cəfəng planlar barədə gəvəzələmələrini eşitmək həqiqətdə nə baş verdiyini bilən, eyni zamanda həm də düzgün fikirləşməyi bacaran hər kəs üçün ağır idi; bu həm də sağlam düşüncəyə əsaslanan etiraza səbəb olurdu. Aristokratların yekəxana danışığını eşitmək Çarlz Darneyi artıq bezdirmişdi; o özünü çox narahat hiss edir, əzab çəkir, qanı qaralırdı.

Danışanların arasında Kral Məhkəməsinin üzvü, yüksək mənsəbə çatmış Strayver də var idi; o, bərkdən danışır, qara camaatı Yer üzündən silməyin yollarını özünəməxsus pafosla fransızlara öyrədirdi; müxtəlif

məsləhətlər verir, o adamları necə məhv etməyi və nədən başlamağı izah edirdi. Sən demə, hər şey nağıllarda olduğu kimi çox asan imiş, necə ki, qartalları tutmaq üçün əsas məsələ onların quyruğuna duz səpməkdən ibarətdir, sonra da nə vaxt istəsən, əl atıb qartalı tuta bilərsən. Strayverin danışdığı Darneyi hövsələdən çıxarırdı, qırıla-qırıla qalmışdı; bir istəyirdi bu mənasız söhbəti eşitməmək üçün çıxıb getsin, digər tərəfdən də etiraz etmək, öz iradını bildirmək istəyirdi. Ona görə də tərəddüd içində bir müddət ləngidi və o anda təsadüf öz işini gördü.

Bank sahibi özü mister Lorriyə yaxınlaşıb onun stolunun üstünə ləkələnib çirklənmiş, amma açılmamış bir zərf qoydu, soruşdu ki, burada göstərilən ünvan üzrə məktubun çatacağı adamı necə tapmaq olar? Bank sahibi zərfi stolun Darneyə yaxın olan küncünə qoymuşdu, o da baxan kimi zərfin üstündəki ünvanı və öz adını oxuya bildi. Zərfin üstündəki yazı ingilis dilinə çevriləndə belə oxunurdu: "Çox təcili. Keçmiş fransız markizi cənab Sent Evremonda. Tellson Bank vasitəsilə. London, İngiltərə".

Toy günü doktor Manettin xahişi müqabilində Çarlz Darney and içib söz vermişdi ki, doktor özü icazə verməyincə adıyla bağlı sirri heç kimə açmayacaq və bunu onlardan başqa heç kim bilməyəcək. Odur ki onun əsl adının necə olduğunu nəinki arvadı Lüsi, hətta mister Lorri də bilmirdi.

– Yox, – mister Lorri bank sahibinə dedi, – mən bura gəlib-gedənlərin hamısından soruşmuşam, amma bu adamın harada yaşadığı barədə heç kim heç nə bilmir.

Saatın əqrəbləri bankda iş gününün sona yetdiyini xəbər verəndə o tərəfdə toplaşıb söhbət eləyənlər mister Lorrinin oturduğu otağın yanından keçib çıxış qapısına doğru getdilər. Mister Lorri zərfi əlində tutub bir-bir hamıdan soruşur, soraqlayırdı. Narazı və qəzəbli qaçqınlar zərfin üstündəki yazıya baxırdılar; biri baxdı, ikincisi baxdı, üçüncüsü baxdı. Hər biri də yoxa çıxmış markiz barədə fransızca, ya da ingiliscə ikrahla nəsə dedi.

– Mən bilən, öldürülən markizin qardaşı oğludur; yolunu azıb boş-boş işlərlə məşğul olan avaranın biridir. Şükürlər olsun ki, mən bu adamla tanış deyiləm, – qaçqınlardan biri dedi.

– Qorxağın biriydi, bir neçə il əvvəl öz üzərinə düşən vəzifədən imtina eləmişdi, – bir başqası dedi, – bu adam samandaşıyan arabada

gizlənib birtəhər Parisdən çıxıb, samanın içində az qala öləcəkdi, ayağından dartıb yarımcan halda güclə arabadan çıxardıblar.

– Dəbdə olan təzə nəzəriyyələrə uyub ağlı çaşmışdı, – üçüncü qaçqın eynəyini zərfə yaxınlaşdırıb yazını diqqətlə oxuyandan sonra dedi. – Sonuncu markizlə arası yox idi, varislik hüququndan imtina eləyib bütün əmlakını quldur dəstəsinin ixtiyarına verdi. Yəqin ki, hər şeyi nəzərə alıb necə lazımdır mükafatlandıracaqlar.

– Nə danışırsınız? – çığırğan Strayver səsinin yoğun yerinə salıb qışqırdı. – Doğrudan, elə iş görüb? Bu necə adamdır? İmkan verin ala itdən məşhur olan adamın ad-familiyasına biz də baxaq!

Artıq dözə bilməyən Darney Strayverin çiyninə toxunub dedi:

– Mən o adamı tanıyıram.

– Doğrudan tanıyırsınız? Yupiterə and içərsiniz? – Strayver dedi. – Amma mən buna təəssüf edirəm.

– Niyə?

– Mister Darney, hələ bir soruşursunuz da niyə? Eşitdiniz o neyləyib? İndiki zamanda soruşma niyə.

– Amma mən soruşuram: niyə?

– Elə isə yenə təkrar edirəm, mister Darney, mən buna görə təəssüflənirəm. Həm də sizin qəribə suallarınıza görə təəssüflənirəm. Bu adamın beyni dünyada ən qorxulu, ən zərərli ideyalarla, mikroblarla zəhərlənib, o öz var-dövlətini ağına-bozuna baxmadan hər şeyi dağıdıb məhv edən, xoşuna gəlməyən hər kəsi öldürən bir dəstə quldura verib. Siz də soruşursunuz ki, niyə? Bizim gənclərə tərbiyə verib ağıl öyrədən bir adamın o cür alçağı tanıdığını eşidəndə mən təəccüblənməməliydim? Yaxşı, mən sizə cavab verərəm. O cür adamla oturub-duran hər kəs o xəstəliyə yoluxur. Mənim təəssüflənməyimin səbəbi budur.

Sirrini açmamaq barədə söz verib and içdiyini yaddan çıxarmayan Darney çətinliklə də olsa, hisslərini cilovlayıb dedi:

– Ola da bilər ki, siz o centlmeni yaxşı başa düşmürsünüz.

– Mən sizin cavabınızı verib yerinizdə oturda bilərəm, – höcət Strayver dedi. – Sizin dediyiniz kimi, əgər o adam centlmendirsə, mən, doğrudan da, onu başa düşmürəm. Mənim sözlərimi ona çatdırın. Eyni zamanda onu da çatdırın ki, öz var-dövlətini qaniçən quldurlara verən adamın onlara başçılıq etməməsi də məni təəccübləndirir. Amma yox, cənablar, – Strayver barmağını silkələyib dedi, ətrafa göz gəzdirib başına toplaşmış adamlara baxdı, – mən insan psixologiyasına kifayət qədər bələd olan bir adam kimi sizi əmin edirəm ki, bu cür araqarışdıranlar heç vaxt öz sirlərini dost-tanışlarına açıb demirlər. Yox, cənablar, onların işi ancaq ara qarışdırmaqdan ibarətdir, dava başlayan kimi dabanlarına tüpürüb aradan çıxırlar.

Dinləyicilərin ümumi təqdir sədaları altında mister Strayver sonuncu dəfə barmağını silkələyib kontoru tərk elədi və Flit-stritə çıxdı. Tezliklə o biri adamlar da getdilər, mister Lorri ilə Çarlz Darney tək qaldı.

– Məktubu aparacaqsınız? – mister Lorri dedi. – O adamın harada yaşadığını bilirsinizmi?

– Bilirəm.

– Siz ona deyə bilərsinizmi məktub bizə ünvanlanıb, hesab ediblər ki, onun harada yaşadığını bilirik, ona görə də bir qədər gecikib?

– Deyərəm. Siz Parisə elə buradanmı gedəcəksiniz?

– Saat 8-də buradan yola düşəcəyəm.

– Mən gəlib sizi yola salaram.

Özünə, Strayverə və digər adamlara görə qanı qaralıb dilxor olmuş Darney Templ qapılarına tərəf getdi, sakit bir yerdə zərfi açdı. Məktubun məzmunu beləydi:

"Abbat türməsi. Paris. 21 iyun 1792-ci il.

Cənab keçmiş markiz.

Ölüm qorxusu altında uzun müddət kənddə yaşadıqdan sonra qəzəblənmiş adamlar məni tutdular və Parisəcən piyada yol getməyə məcbur etdilər. Yolda başıma çox işlər gəldi. Tək bu olsaydı, nə vardı ki, onlar mənim evimi soyub taladılar, uçurub yerlə yeksan elədilər.

Cənab keçmiş markiz, həbs olunmağımın səbəbi odur ki, məni möhtərəm xalqa xəyanətdə və emiqrasiyada yaşayan adama xidmətdə ittiham edirlər. Əgər sizin köməyiniz olmasa, çox güman ki, edam edəcəklər. Sizin göstərişinizə əsasən, onların zərərinə yox, xeyrinə çalışdığımı nə qədər desəm də, izah eləsəm də, xeyri yoxdur. Mənasız yerə sübut edirəm ki, emiqrantın mülkiyyəti dövlətin ixtiyarına keçməmişdən əvvəl mən onlardan nə vergi tuturdum, nə də icarə haqqı, heç kimə də heç bir iddia irəli sürmürdüm. Amma onlar heç nə başa düşmək istəmir, ancaq eyni cavab verirlər: "Sən emiqranta xidmət etmisən. Emiqrant özü haradadır?"

Ah! Möhtərəm keçmiş markiz, o emiqrant haradadır? Mən yuxuda da qışqırıram: o haradadır? Allaha dua edib yalvarıram, soruşuram: o gələcəkmi, məni xilas edəcəkmi? Cavab yoxdur. Ah, möhtərəm keçmiş markiz, mən dənizin bu tayından o tayına qışqırıb köməyə çağırıram və inanıram ki, Parisdə də tanınan möhtəşəm Tellson Bankın köməyi sayəsində siz mənim səsimi eşidəcəksiniz!

Allah eşqinə, ədalət naminə, öz vicdanınız naminə, mötəbər adınız naminə, sizə yalvarıram, möhtərəm keçmiş markiz, köməyinizi əsirgəməyin, məni xilas edin. Mənim bir səhvim var ki, axıracan sizə sədaqətli olmuşam. Oh, möhtərəm keçmiş markiz, xahiş edirəm, yalvarıram, siz də mənə sədaqətli olun!

Möhtərəm keçmiş markiz, hər ötən saatın məni ölümə yaxınlaşdırdığı bir vaxtda bu dəhşətli həbsxanadan sizə müraciət edib deyirəm: sizə sədaqətlə xidmət etdiyimə əmin ola bilərsiniz.

Sizin bədbəxt Qabell".

Bu məktubu oxuyandan sonra Darneyin içindəki narahatçılıq kükrəyib tüğyan elədi. Yeganə günahı ona və ailəsinə sədaqətlə xidmət etməkdən ibarət olan qoca Qabellin başının üstünü almış təhlükə gözünü zilləyib utanmazcasına elə baxırdı, Templdə ora-bura gəzişib nə etməli olduğunu götür-qoy edən Darney xəcalətdən özünə yer tapa bilmir, ötüb-keçən adamlardan üzünü gizlətməyə çalışırdı.

O, yaxşı bilirdi ki, bu dəhşətli vəziyyətin yaranmasına mənsub olduğu nəslin iyrənc əməlləri və çox pis ad çıxarması səbəb olmuşdur. Sonuncu dəfə görüşdükləri vaxt əmisinin onda necə nifrət və şübhə oyatdığı yadına düşdü. O, uçub-dağılmaqda olan mənfur quruluşa dayaq olmalıydı, onun çökməməsi üçün əlindən gələni etməliydi, amma bunu etməmişdi. O, yaxşı bilirdi ki, öz sosial statusundan imtina etməklə elə ciddi bir iş görməyib; Lüsiyə olan sevgisi onu tələsdirmişdi və hər şey yarımçıq qalmışdı. O, yaxşı bilirdi ki, məqsədyönlü şəkildə daim işləmək, müşahidələr aparmaq, işi axıra çatdırmaq lazım idi. Amma, təəssüf ki, heç bir iş görülməyib.

İngiltərədəki evində tapdığı ailə səadəti, daim işləmək məcburiyyəti, dəhşətli hadisələrin bir-birini əvəz etməsi, vəziyyətin hər gün dəyişib sürətlə inkişaf etməsi hərdən beynində tam şəkildə formalaşmamış planları qısa bir vaxtdan sonra mənasız edirdi, yaranmış yeni vəziyyətə

uyğun yeni planlar tərtib etmək lazım gəlirdi; o, yaxşı bilirdi ki, nigarançılıq və narahatlıq içində seyrçi mövqe tutub, qarşıya çıxan maneələri dəf etmək üçün inadkarlıqla mübarizə aparmayıb. Nəsə bir iş görmək üçün o, məqam gözləyirdi, vaxt isə gözləmirdi və nəhayət, məlum oldu ki, artıq gecdir, fransız zadəganları baş götürüb necə gəldi və hara gəldi qaçırdılar ki, canlarını qurtara bilsinlər; onların mülkləri yandırılır, vardövlətləri zəbt edilir, dağıdılırdı, adları dirilər siyahısından silinirdi, – bütün bunları o, yaxşı bilirdi, Fransanın indiki hakimiyyəti də yaxşı bilirdi və ondan şübhələnməkdə haqlıydı.

Amma o heç kimə zülm etməyib, heç kimi həbsxanaya salmayıb, kəndlilərdən nə vergi, nə də icarə haqqı almayıb və bu hüquqlarından könüllü olaraq imtina edib, öz ürəyincə olan bir həyat yolu seçib, öz zəhmətiylə çörək qazanıb. Xirtdəyəcən borc içində olan mülkün idarə olunması müsyö Qabellə həvalə olunmuşdu; o isə yazılı təlimatlar alaraq adamlara qayğı göstərməliydi – onlara qışda acgöz borcverənlərin əlindən xilas olunmuş yanacaq verməliydi, yayda isə məhsuldan pay verməliydi – və şübhə yoxdur ki, indi o, müsyö Qabell öz həyatını xilas etmək üçün faktları ortaya qoyub hər şeyə aydınlıq gətirməyə çalışacaq.

Uzun götür-qoydan sonra Çarlz Darney mövcud şəraitdə ağılsızlıq kimi qiymətləndirilə biləcək qərar qəbul etdi: Parisə gedəcək.

Bəli, gedəcək. Qədim bir rəvayətdəki matrosun başına gələn əhvalatda olduğu kimi səmt küləyi və dalğalar onu sıldırım qayaya tərəf qovurdu, hansısa bir qüvvə onu çəkirdi və getməliydi. Gözünün qarşısında canlananlar onu daim artmaqda olan, qarşısıalınmaz bir qüvvəylə dəhşətli hadisələrin baş verdiyi məkana dartıb aparırdı.

Son vaxtlar keçirdiyi narahatlıq ondan ibarət idi ki, bədbəxt vətənində həmvətənləri pis məqsədləri pis vasitələrlə həyata keçirməyə başladığı bir vaxtda o, adamları pis yola çəkənlərdən yaxşı olduğu halda, Fransada deyil, insanları talançılıq, kütləvi qırğınlar və digər pis əməllərdən çəkindirmək üçün heç nə eləyə bilmir. İçində kükrəyən vicdan əzabını boğmağa çalışdığı bir vaxtda necə oldusa, vəzifə borcunu yerinə yetirmək üçün heç nədən çəkinməyən, hətta öz həyatını belə təhlükəylə üzləşdirən qoca centlmen – mister Lorrini xatırladı və onunla müqayisədə özünü çox zəif gördü; həmvətənləri olan fransız zadəganlarının kinayəli danışıb mənasız gülmələri, aralarında köhnə ədavət olan Strayverin yersiz sözləri, kobud danışıq tərzi yadına

düşdü. Sonra da heç bir günahı olmadığı halda həbs edilmiş Qabellin məktubunu xatırladı: o adamı edam gözləyir və indi məktub yazıb ədalət naminə ondan kömək istəyir.

Artıq qərar qəbul olunub – o, Parisə getməlidir.

Bəli, gedəcək. Maqnitli qaya onu cəlb edir, o qayayla toqquşanacan gəmidə üzməlidir. Darney qayanı görmürdü, ümumiyyətlə, qarşıda onu gözləyən hər hansı təhlükə barədə heç bir təsəvvürü yox idi. Necə gözəl planları var idi, amma hamısı yarımçıq qaldı. Lakin, buna baxmayaraq, indi gedib o barədə danışsa və dediklərini sübut eləyə bilsə, bütün Fransada hörmətlə qarşılanacaq. Vətəni və xalqı üçün yaxşı işlər görmək imkanı əldə edəcək. Artıq xəyalən də olsa, görürdü ki, məhz onun birbaşa təsiri nəticəsində inqilabın qəzəbli tələtümü səngiyib düzgün istiqamətə yönəlir, hadisələr öz sakit axarını, axır ki, tapır, – əksər yaxşı adamlar üçün xarakterik olan bu cür xəyalpərvərlik onda da var idi.

Artıq qəti qərar qəbul etmiş Darney küçədə ora-bura gəzərək fikirləşirdi ki, Lüsi ilə doktor Manett bu barədə ancaq o yola düşəndən sonra xəbər tutmalıdırlar. Lüsini ayrılıq anında keçirəcəyi qüssədən qorumaq lazımdır, doktor Manettin beynində keçmişin ağır xatirələrini oyatmamaq, şübhələr içində bədbin düşüncələrə qapılmasına yol verməmək üçün onlar bu işdən gec xəbər tutmalıdırlar. Doktor Manetti narahat etməmək, Fransa ilə bağlı ağır düşüncələrin onun səhhəti üçün necə təhlükəli olacağını nəzərə almaq özü də onu ehtiyatlı olmağa sövq edən amillərdən biri olmuş, bütövlükdə fəaliyyətinə təsir göstərmişdi.

Bu cür düşüncələr içində ora-bura çox gəzdi. Bir də baxdı ki, artıq vaxtdır, Tellson Banka gedib mister Lorrini yola salmaq lazımdır. Onsuz da Parisə çatan kimi gedib köhnə dostuna baş çəkəcək, amma hələlik bu barədə ona bir kəlmə də deməməlidir.

Poçt atları qoşulmuş fayton artıq bankın qapısı ağzında dayanmışdı, uzaq səfər üçün məxsusi olaraq geyinib-kecinmiş Cerri də oradaydı.

– Məktubu sahibinə çatdırdım, – Çarlz Darney mister Lorriyə dedi. – Yazılı cavabla bağlı çətinlikləri nəzərə alıb, sizə əziyyət vermək istəmədim. Şifahi cavab çatdıra bilərsinizmi?

– Məmnuniyyətlə çatdıraram, – mister Lorri dedi, – amma bir şərtlə ki, bu, təhlükəli olmasın.

– Yox, təhlükəli bir şey yoxdur. Cavab Abbatlıq həbsxanasında yatan bir məhbusa çatdırılmalıdır.

– Adı nədir? – mister Lorri bloknotunu çıxardıb dedi.

– Qabell.

– Qabell. Həbsxanada yatan bədbəxt Qabellə nə demək lazımdır?

– Cavab sadədir: məktub ünvanına çatıb, o adam gələcək.

– Nə vaxt gələcəyini demədi?

– Sabah axşam yola düşür.

– Adını necə, demədi?

– Yox.

Bundan sonra o, mister Lorriyə altdan-üstdən çoxsaylı jaketlər, pencəklər, plaşlar geyinib bərk-bərk bürünməkdə kömək elədi və onlar bankın isti binasından buz kimi soyuq Flit-stritə çıxdılar.

– Mənim əvəzimdən Lüsini, bir də balaca Lüsini öpərsiniz, – onunla görüşüb ayrılan mister Lorri dedi. – Mən gələnəcən onlardan muğayat olun, göz bəbəyiniz kimi qoruyun.

Çarlz Darney başını tərpətdi, şübhəylə gülümsədi. Fayton yerindən tərpənib yola düşdü.

Həmin gecə, avqust ayının 14-də Çarlz Darney gecə keçənəcən oturub iki məktub yazdı. Məktubun biri Lüsiyə ünvanlanmışdı, orada Parisə getməyin necə zəruri olduğunu izah etməklə yanaşı, həm də arvadını inandırmağa çalışırdı ki, şəxsi həyatı üçün heç bir təhlükə yoxdur. Doktora ünvanladığı o biri məktubda da getməyin zəruri olduğu, əslində, onu heç bir təhlükə gözləmədiyi fikrini sübut etməyə çalışan Darney Lüsinin və onların əziz balasının qayğısına qalmağı xahiş edirdi. Hər iki məktubda o, mənzilbaşına çatan kimi oradakı vəziyyət barədə məktub yazacağını vəd edirdi.

Birgə yaşadıqları dövrdə ilk dəfəydi ki, onlardan nəyisə gizli saxlayırdı, ona görə də səhərisi gün Darney üçün çox ağır keçdi, yalan danışması və onların da bunu başa düşməməyinin fərqinə varmaq onu sıxırdı, vicdan əzabı çəkirdi. Hər dəfə onun nəvaziş dolu baxışları ev işləriylə məşğul olmaqdan böyük sevinc duyan arvadına tərəf yönələndə bu sirri açmamaq barədə verdiyi qərarın düzgünlüyünə bir daha əmin olurdu (amma bu sirri Lüsiyə açmaq və onun köməyinə arxalanmaq istəyi də güclüydü); o gün də belə keçdi və bir də baxdı ki, axşam düşür. Axşamın ilkin çağı o, arvadı və qızıyla vidalaşdı, yalandan dedi ki, tezliklə qayıdacaq (artıq evdə demişdi ki, vacib bir işlə əlaqədar olaraq harasa getməlidir, eyni zamanda səfər üçün lazım olan əl çantasını da hazırla-

mışdı). Bax belə, qəlbi ağır ayrılıq hisslərilə dolu olan Çarlz Darney qalın duman çökmüş qaranlıq küçəyə çıxdı.

Hansısa gözəgörünməz bir qüvvə onu çəkib aparırdı, səmt küləyi də, dalğalar da onu qovur, tələsdirirdi. Məktubları o, inandığı bir adama verib tapşırmışdı ki, gecəyarısı gətirib evdəkilərə çatdırsın. Duvracan getmək üçün at götürüb yola düşdü. "Allah eşqinə, ədalət naminə, öz vicdanınız naminə, mötəbər adınız naminə, sizə yalvarıram, köməyinizi əsirgəməyin, məni xilas edin!" deyə çağıran bədbəxt məhbusun səsi qulağında əks-səda verdikcə tərəddüd içində çırpınan ürəyinə təpər və qətiyyət gəldi, hiss elədi ki, dünyada ən əziz olan nəyi vardısa, onları itirir. Onu aparan gəmi isə artıq maqnitli qayaya tərəf üzməkdəydi.

ÜÇÜNCÜ KİTAB

FIRTINANIN İZİ

I fəsil

GİZLİ KAMERA

1792-ci ilin payızında İngiltərədən Parisə gedən yolçu mənzilbaşına gec çatırdı. Fransanın keçmiş, bədbəxt kralı taxtda oturub dövləti idarə elədiyi vaxtda da bərbad yollar, sınıq-salxaq faytonlar və yorğun atlar mənzilbaşına tez çatmağa imkan vermirdi, indi isə vəziyyət dəyişib – köhnə əngəllərə yeniləri əlavə olunub. Hər şəhərin giriş-çıxış qapılarında, hər kəndin girəcəyindəki şlaqbaumun yanında bir dəstə əlitüfəngli patriot – vətəndaş dayanmışdı, onlar gəlib-gedənləri saxlayır, sorğu-suala tutur, sənədlərini alıb yoxlayır, özlərindəki siyahıyla tutuşdurur, sonra kimisini geri qaytarır, kimisini azad buraxır, yolunu davam etməsinə icazə verir, kimisini də saxlayıb həbs edirdilər, – sözün qısası, yeni yaranmış Vahid, Bölünməz, insanlara Azadlıq, Bərabərlik, Qardaşlıq və ya Ölüm gətirən Respublikanın çiçəklənməsi naminə ağıllarına nə gəlirdisə, onu da eləyirdilər.

Fransa torpağıyla bir neçə mil gedəndən sonra Çarlz Darney özü üçün yəqin elədi ki, Fransanın ləyaqətli vətəndaşı olduğunu Parisdə sübut eləyə bilməsə, geri qayıda bilməyəcək. Amma hər necə olsa da, yoluna davam edib səfərini başa çatdırmalıdır. Hər kəndin yanından ötəndə arxasınca aşağı enib bağlanan şlaqbaumu görəndə bilirdi ki, bu onu İngiltərədən ayıran dəmir qapılar seriyasından növbəti qapıdır. Rastına çıxan adamlar qəribə ayıq-sayıqlıqla onu elə güdürdülər, elə bil tora düşmüş balıq idi, ya da əl-qolu bağlı halda onu qəfəsə salıb harasa aparırdılar, sözün qısası, özünü azad hiss eləmirdi.

Bu ümumi ayıq-sayıqlıq onu hər addımda izləyirdi, keçdiyi qısa bir yolda da azı iyirmi dəfə saxlayırdılar, gün ərzində gedə biləcəyi yolu

iyirmi dəfə azaldırdılar; bir az getmiş dalınca çapar göndərib geri qaytarırdılar, ya da saxlayıb mühafizəçi qoşur, gözdən qoymurdular. Neçə gün Fransada bu cür yol getdi, axır ki, Parisdən xeyli aralıdakı balaca bir şəhərdə gecələmək üçün dayanmalı oldu.

Buraya qədər gəlib çıxmasının əsas səbəbi də bədbəxt Qabellin Abbatlıq həbsxanasından yazdığı məktub idi, onu hər postda göstərib yoluna davam edirdi. Amma bu balaca şəhərin mühafizə postunda qarşılaşdığı çətinlikdən sonra anladı ki, məsələ çox qəlizdir, hətta ona elə gəldi ki, səfəri burada başa çata bilər. Gecəyarısı gəlib çatdığı və ancaq səhərəcən qalmalı olduğu balaca mehmanxanada təzəcə uzanıb yuxuya getmişdi ki, onu oyatdılar, amma, bununla belə, o təəccüblənmədi.

Əlində tüfəng, ağzında qəlyan olan üç nəfər qırmızı şapkalı patriotla otağa daxil olan yerli hakimiyyət orqanının utancaq nümayəndəsi Darneyi yuxudan oyadıb dedi:

– Emiqrant, mən sizi Parisə mühafizəçilərin nəzarəti altında göndərəcəyəm.

– Vətəndaş, mən Parisə mümkün qədər tez çatmaq istərdim, mühafizəçilərə də elə bir ehtiyac görmürəm.

– Sakit! – qırmızıpapaqlılardan biri mızıldandı, tüfəngin küpüylə yorğana bir zərbə endirdi. – Mübahisə etməyin, aristokrat!

– Nümunəvi vətəndaş düz deyir, – yerli hakimiyyətin utancaq nümayəndəsi dedi. – Siz aristokratsınız, mühafizəçilərin nəzarəti altında getməlisiniz və bu xidmətin haqqını ödəməlisiniz.

– Bir halda ki başqa çıxış yolu yoxdur, siz deyən olsun, – Çarlz Darney dedi.

– Çıxış yolu yoxdur! Eşitdiniz nə dedi? – bayaqkı qırmızı şapkalı patriot qışqırdı. – Hələ xəbəri yoxdur ki, biz buna görə narahatıq, deyirik yolda tutub lampa dirəyindən asarlar!

– Nümunəvi vətəndaş nə deyirsə, düz deyir, – yerli hakimiyyətin utancaq nümayəndəsi dedi. – Qalxın, paltarınızı geyinin, emiqrant.

Darney göstərişə əməl etdi. Onu qaytarıb gözətçi otağına apardılar, orada isə tonqalın ətrafına toplaşmış qırmızı şapkalı gözətçilərin kimisi qəlyan çəkir, kimisi içki içir, kimisi də uzanıb yatırdı. Burada o, mühafizəçilərin müşayiətiylə getməli olduğu üçün xidmət haqqı olaraq böyük miqdarda pul ödədi. Gecə saat 3-də isə mühafizəçilərin nəzarəti altında palçıqlı, sürüşkən yolla Parisə yollandı.

Mühafizə dəstəsi qırmızı papaqlarında üçrəngli emblem olan iki süvaridən ibarət idi; tüfəng və qılıncla silahlanmış mühafizəçilər Darneyin sağ və sol tərəfiylə gedərək onu araya almışdılar. Atı Darney özü idarə eləsə də, yüyənə bağlanmış uzun ipin ucunu patriotlardan biri əliylə tutub biləyinə dolamışdı. Üzlərinə çırpan yağışın altında yola düşüb getdilər, şəhərətrafı kələ-kötür daş yollardan, palçığı dizə çıxan torpaq yollardan keçdilər. Acı bağırsaq kimi getdikcə uzanan palçıqlı yollardan keçərək ölkənin paytaxtına doğru dayanmadan gedirdilər, arabir ləngiyib atları dəyişir, dərhal da yola düşürdülər.

Onlar bütün gecəni yol gedir, hava işıqlaşandan bir-iki saat sonra bir yer tapıb dincəlir, gözlərinin acısını alırdılar, axşamtərəfi hava qaralan kimi yenə yola düşürdülər. Mühafizəçilərin əyni-başı it kökündəydi, onlar öz yalın ayaqlarına küləş dolamışdılar, yağışdan islanmamaq üçün cındır paltarın altından bellərinə və sinələrinə küləş doldurmuşdular. Bu cür adamların nəzarəti altında yol getməyin yaratdığı narahatçılıq, eləcə də mühafizəçilərin birinin daim sərxoş olması və tüfənglə çox məsuliyyətsiz davranmasıyla bağlı olan narahatçılıq nəzərə alınmasa, mühafizəçilərlə Çarlz Darney arasında elə ciddi bir problem yox idi. O hesab edirdi ki, bütün bunlar onun şəxsi işlərinə təsir edə bilməz, verəcəyi ifadələrə, ortaya qoyacağı dəlil-sübutlara gəlincə, Abbatlıq həbsxanasında yatan məhbus hər şeyi təsdiq edəcək.

Elə ki axşamtərəfi onlar küçələri adamla dolu olan Bove şəhərinə çatdılar, Darney başa düşdü ki, özünü aldatmaq düz deyil və etiraf etmək lazımdır ki, vəziyyət çox pisdir. Qəzəbli kütlə poçtun binası tərəfdə toplaşıb onun atdan düşməsinə tamaşa edirdi, "Rədd olsun emiqrant!" deyib bərkdən qışqıranların səsi eşidilirdi.

Vəziyyəti belə görəndə o, atdan yerə düşməyə tələsmədi, yəhərdə oturmaq daha təhlükəsiz idi; Darney elə atın üstündən adamlara müraciət elədi:

– Emiqrant nədir, dostlar?! Bəyəm siz görmürsünüz ki, Fransaya mən könüllü olaraq özüm gəlmişəm?

– Sən lənətlənmiş emiqrantsan. – Dəmirçi əlindəki çəkici qəzəblə yelləyərək, adamların içindən çıxıb Darneyə tərəf cumdu. – Sən lənətəgəlmiş aristokratsan!

Poçt rəisi dəmirçiylə atın arasına girdi (dəmirçi atın yüyənindən tutmaq istəyirdi) və sakit tonda danışaraq dedi:

– Ona baş qoşmayın, fikir verməyin! Parisdə o mühakimə olunacaq!

– Mühakimə olunacaq! – dəmirçi əlindəki çəkici yelləyib dedi. – Ay! Satqın kimi edam olunacaq.

Bu sözü eşidən kütlənin alqış ifadə edən səsi gurladı.

Darney atları həyətə çəkməkdə olan poçt rəisini saxladı (ipin bir ucunu biləyinə dolayaraq yəhərdə az qala sərilib oturmuş sərxoş mühafizəçi bu mənzərəni sakitcə seyr edirdi), izdihamın uğultusu kəsiləndə dedi:

– Dostlar, siz səhv edirsiniz, ya da kimsə sizi səhv yola təhrik edir. Mən satqın deyiləm.

– Yalan deyir! – dəmirçi qışqırdı. – Təzə dekret üzrə o, satqındır. Onun həyatı xalqa məxsusdur. Onun lənətə gəlmiş həyatı özünə məxsus deyil!

Darney bir anlığa başını qaldırıb izdihama baxanda ona elə gəldi ki, adamlar bu saat hərəkətə gəlib üstünə cumacaqlar, amma elə həmin anda poçt rəisi onun atını döndərib həyətə saldı, mühafizəçilər də hər iki tərəfdən eyni vaxtda həyətə girdilər. Laxlayan, ikitaylı qapını poçt rəisi dərhal bağlayıb daldan cəftələdi. Dəmirçi öz çəkiciylə qapıya zərbə vurub səs saldı, izdiham qışqırdı. Amma qarşıdurma bununla da bitdi.

Darney həyətdə poçt rəisinə minnətdarlıq eləyəndən sonra dedi: – – Dəmirçi hansı dekretdən danışırdı?

– Düz deyir, təzə dekret çıxıb ki, emiqrantların əmlakı satışa çıxarılsın.

– Nə vaxt çıxıb?

– Bu ayın 14-də.

– Mən İngiltərədən çıxan gün!

– Hamı deyir ki, belə dekretlər çoxdur, o birilər də çıxacaq; bəlkə də, çıxıb. Emiqrantların hamısını qanundankənar elan edəcəklər, qayıdıb gələnləri də edam edəcəklər. Yəqin, o deyəndə ki, sizin həyatınız özünüzə məxsus deyil, elə bunu nəzərdə tuturdu.

– Axı belə bir dekret hələ ki yoxdur!

– Bir söz deyə bilmərəm! – poçt rəisi çiyinlərini çəkib dedi. – Bəlkə, çıxıb, bəlkə də, çıxacaq; onsuz da fərqi yoxdur. Neyləyə bilərsiniz?

Onlar çardaqdakı samanın üstündə uzanıb gecə yarıya qədər yatdılar, şəhər yatıb yuxuya gedəndən sonra qalxıb yola düşdülər. Bu səfər zamanı Darneyi təəccübləndirən qeyri-adi dəyişikliklərdən biri də adamların çox az yatmağıydı. Kimsəsiz yollarda saatlarla gedib gecəyarısı hansısa

balaca bir kənddən keçəndə evlərdə işıq yandığını, kabusu xatırladan adamların küçələrdə əl-ələ tutub ölgün Azadlıq ağacı ətrafında dövrə vurub rəqs elədiyini, ya da xorla Azadlıq nəğmələri oxuduğunu görürdü. Amma o gecə Darneyin bəxti gətirmişdi – Bove şəhərinin sakinləri yatırdı, ona görə də tez bir zamanda şəhərdən çıxa bildilər; mövsümə uyğun olmayan soyuq havada yağışın döydüyü becərilməmiş tarlaların, çöllərin ara-bərəsindən görünən yandırılmış malikanələrin yanından keçib kimsəsiz yollarla gedirdilər, hərdən də onları pusquda dayanıb bütün yollara nəzarət edən patriot-patrul dəstələri saxlayırdı.

Onlar gəlib Parisin giriş qapısına çatanda hava təzəcə işıqlaşırdı. Qapı bağlanmış, mühafizə güclənmişdi.

– Məhbusun sənədləri haradadır? – mühafizəçilərin çağırışına gəlmiş hakimiyyət nümayəndəsi tələbkar qətiyyətlə soruşdu.

Yersiz işlənmiş sözdən narahat olan Çarlz Darney tez-tələsik həmin adama izah elədi ki, o, məhbus deyil, azad bir insandır, Fransa vətəndaşıdır, sadəcə olaraq, ona mühafizəçilər təhkim olunub və bu xidmətə görə o, haqq ödəyib.

– Məhbusun sənədləri haradadır? – Darneyin dediklərinə əsla əhəmiyyət verməyən hakimiyyət nümayəndəsi sualı yenə təkrar elədi.

Sərxoş mühafizəçi sənədləri şapkasının içində gizləyib saxlayırdı və indi çıxardıb həmin adama verdi. Qabellin məktubunu gözdən keçirən hakimiyyət nümayəndəsinin üzündə təəccüb ifadəsi göründü, diqqətlə Darneyə baxdı. Bundan sonra o, bir kəlmə də dinib-danışmadan Darneyi öz mühafizəçiləriylə birlikdə qapının ağzında qoyub gözətçi otağına getdi. Tutqun bir nigarançılıq içində dayanıb gözləməli olan Çarlz Darney ətrafına baxıb gördü ki, giriş qapısının mühafizə dəstəsi əsgərlərlə patriotların qarışığıdır, amma patriotlar daha çoxdur; digər tərəfdən, arabayla ərzaq məhsulları daşıyan kəndçilərin şəhərə girişi nə qədər asan olsa da, ən adi adamın da şəhərdən çıxışı bir o qədər çətin məsələdir. Kişilər və qadınlar ən müxtəlif yüklərlə, ev heyvanlarıyla, araba və faytonlarla yükləyib apardıqları ərzaqla növbəyə durub gözləyirdilər, amma onların hər biri o qədər ciddi yoxlamadan keçirdi ki, uzun növbə sanki azalmaq bilmirdi. Növbənin uzandığını görənlər vaxt öldürmək üçün söhbət edir, siqaret çəkirdi, kimisi də quru yerdə uzanıb yatırdı, ya da boş-bikar ora-bura gəzirdi. İstər kişi olsun, istərsə də qadın, hamının başında üçrəngli emblem olan qırmızı papaq var idi.

Yarım saat olardı ki, Darney yəhərdən yerə düşmədən gözləyir, ətrafdakı adamlara baxır, müşahidə aparırdı. Bir də baxdı ki, bayaqkı hakimiyyət nümayəndəsi gəlib onunla üzbəüz dayanaraq mühafizəçilərə göstəriş verir ki, qapını açsınlar. Sonra o, gətirilən adamı təhvil aldığı barədə ayıq və sərxoş mühafizəçiyə sənəd verdi, Darneyə dedi ki, sən atdan düş. Darney göstərişə əməl edib atdan düşdü; onu gətirən mühafizəçilərdən biri süvarisiz qalmış atın yüyənindən yapışdı və onlar qapının ağzında çevrilib geri qayıtdılar.

Darney bir nəfərin müşayiətiylə gözətçi otağına daxil oldu; otaq əsgərlər və patriotlarla doluydu, içəridən siqaret tüstüsü və çaxır qoxusu gəlirdi; baxırdın kimisi yatıb, kimisi oyaqdır, kimisi sərxoşdur, bəziləri də neytral vəziyyətdəydi: nə yatmışdı, nə oyaq idi, nə sərxoş idi, nə də ayıq idi. Erkən səhərin pəncərədən düşən işığı neft lampasının öləziyən işığına qarışıb otaqda nəsə qeyri-müəyyən bir işıqlanma yaratmışdı. Üstündə kağız-kuğuz olan stolun arxasında qaşqabaqlı bir zabit oturmuşdu, kağız götürüb yazmağa hazırlaşaraq Darneyi müşayiət eləyən kişiyə müraciət elədi:

– Vətəndaş Defarj, emiqrant Evremond budur?

– Bəli, budur.

– Neçə yaşınız var, Evremond?

– Otuz yeddi.

– Evlisiniz, Evremond?

– Bəli.

– Harada evlənmisiniz?

– İngiltərədə.

– Şübhəm yoxdur. Arvadınız haradadır, Evremond?

– İngiltərədə.

– Şübhəm yoxdur. Evremond, siz buradan birbaşa La Forse həbsxanasına göndərilirsiniz.

– Aman Allah! Siz nə danışırsınız?! – Darney qışqırdı. – Mən neyləmişəm, hansı qanunu pozmuşam, nə cinayət törətmişəm?

Zabit bir anlığa başını kağızdan qaldırıb ona baxdı.

– Siz bu tərəflərə təşrif buyurandan sonra bizim qanunlarımız dəyişib, yeni cinayətlər peyda olub, – zabit belə deyib kinayəylə gülümsədi, yenə nəsə yazmağa başladı.

– Xahiş edirəm, nəzərə alasınız ki, mən buraya öz həmvətənimin xahişi ilə gəlmişəm, o məktub sizin qarşınızdadır. Çox istərdim ki, ləngimədən onun xahişini yerinə yetirmək üçün mənə imkan yaradasınız. Mənim belə bir xahişlə sizə müraciət etməyə ixtiyarım varmı?

– Emiqrantların heç bir hüququ yoxdur, Evremond, – zabit laqeydcəsinə cavab verdi, yazdığını bir də nəzərdən keçirib üstünə qum səpdi və Defarja verib: "Gizli kameraya", – dedi.

Defarj əlindəki kağızı yelləyib məhbusa onunla birlikdə getmək işarəsi verdi. Məhbus deyiləni elədi; onlar əlisilahlı iki patriotun müşayiətiylə otaqdan çıxdılar.

– Artıq mövcud olmayan Bastiliya qalasındakı həbsxanada yatmış doktor Manettin qızına evlənən sizsiniz? – onlar mühafizəçi otağının pilləkəniylə aşağı düşüb şəhərə çıxanda Defarj yavaş səslə dedi.

– Bəli, – Darney dedi və təəccüblə Defarja baxdı.

– Mənim adım Defarjdır, Sent Antuanda çaxır dükanım var. Bəlkə də, siz mənim barəmdə eşitmisiniz.

– Mənim arvadım öz atasını aparmağa gələndə sizin evdə olub? Hə, bildim.

Darneyin dediyi "arvadım" sözünü eşidən Defarj tutuldu, qəflətən hövsələdən çıxaraq dedi:

– Yeni doğulmuş Gilyotin adlı qadının şərəfi naminə, deyin görüm, Fransaya niyə gəlmisiniz?

– Bir-iki dəqiqə bundan əvvəl niyə gəldiyini dedim, siz də eşitdiniz. Dediyim sözlərin doğru olduğuna inanmırsınız?

– Bu sizin üçün çox pis bir həqiqətdir, – Defarj qaşlarını çatıb düz qabağa baxaraq dedi.

– Doğrudan da, deyəsən, mən məhv olacağam. Burada hər şey elə dəyişib, elə ədalətsiz, elə insafsız olub ki, bunu görən adam əməlli-başlı özünü itirir. Siz kiçik bir məsələdə mənə kömək edə bilərsinizmi?

– Yox, – Defarj düz qabağa baxaraq dedi.

– Bir sualım var, ona cavab verərsinizmi?

– Baxır necə sualdır. Hər halda, soruşun.

– Məni həbsxanaya salmaq ədalətsizlikdir, amma heç olmasa ətraf aləmlə əlaqə yaratmaq imkanım olacaqmı?

– Orada özünüz görəcəksiniz.

– Belə çıxır ki, özümü müdafiə etmək üçün mənə heç bir imkan verilməyəcək, orada diri-diri dəfn olunacağam, eləmi?

– Orada özünüz görəcəksiniz. Amma nə olsun? Əvvəllər başqalarını daha pis həbsxanalarda diri-diri məhv edirdilər.

– Mən heç vaxt elə iş görməmişəm, vətəndaş Defarj.

Defarj tutulub ona baxdı, sonra düz qabağa baxaraq bir kəlmə də olsun danışmadan addımladı. Bu sükut nə qədər çox davam etsə, onun yumşalması da bir o qədər çətin olacaq, – hər halda, Darneyə belə gəldi və odur ki tələsik soruşdu:

– Mənim üçün həddən artıq vacib olan bir məsələ var (siz özünüz məndən də yaxşı bilirsiniz ki, vətəndaş, bu nə qədər vacibdir): bu da ondan ibarətdir ki, indi Parisdə olan bir ingilis centlmenlə əlaqə yaratmaq istəyirəm; o adam Tellson Bankda işləyir – mister Lorri, ona çatdırın ki, məni həbs edib La Forse həbsxanasına salıblar. Bunu etmək imkanınız varmı?

– Mən sizin üçün heç nə etməyəcəyəm, – Defarj həddən artıq soyuqqanlıqla dedi. – Mənim vəzifəm vətənə və xalqa xidmət etməkdən ibarətdir; onlara xidmət edib sizə qarşı vuruşacağıma and içmişəm. Sizin üçün heç nə etməyəcəyəm.

Çarlz Darney gördü ki, bu adamı yola gətirmək mümkün olmayacaq, digər tərəfdən də özünü alçaltmaq istəmədi. Onlar küçəylə gedəndə Darney ona da fikir verdi ki, kiminsə həbsxanaya aparılması adamları əsla təəccübləndirmir, hətta uşaqlar da ona qarşı heç bir maraq göstərmədilər; görünür, hamı artıq adət eləmişdi. Ötüb-keçənlərdən bir neçə kişi aristokrat olduğu üçün barmağını silkələyib onu hədələdi; diqqətəlayiq sayıla biləcək başqa heç nə baş vermədi, – yaxşı geyinmiş adamın həbsxanaya aparılması da iş paltarı geyinib nəsə bir iş görən fəhləyə baxmaq qədər adi hala çevrilmişdi. Darısqal, qaranlıq və zibilli bir küçədən keçəndə gördülər ki, orada adamlar toplaşıb, bir kişi də stulun üstünə çıxıb nitq söyləyir – başda kral olmaqla kral ailəsinin xalqa qarşı törətdiyi cinayətləri sadalayır. O kişinin nitqindən az-çox eşitdiklərinə əsasən Darney bildi ki, kral həbs olunub, bütün xarici ölkələrin səfirləri hamı bir nəfər kimi Parisi tərk edib öz vətənlərinə gediblər. Boveni çıxmaq şərtilə Parisəcən yol boyu heç kimdən heç nə eşitməmişdi; çünki mühafizəçilərin və adamların ümumi sayıqlığı nəticəsində o, ətraf aləmdən tamamilə təcrid olunmuşdu.

Darney ancaq indi anlayırdı ki, İngiltərədən yola düşərkən ehtimal etdiklərindən qat-qat artıq təhlükəylə üzləşib. Vəziyyətin çox təhlükəli olduğunu, gərginliyin anbaan artdığını ancaq indi anlamağa başlayırdı. Öz-özünə etiraf edirdi ki, əgər başına hansı işlərin gələcəyini əvvəlcədən bilsəydi, heç vaxt bu səfərə çıxmazdı. Vəziyyətinin bu qədər acınacaqlı olduğunu son vaxtacan təsəvvür edə bilmirdi, əslində isə çox acınacaqlı hala düşmüşdü. Baş verənləri tam dərk edə bilmədiyi üçün qeyri-müəyyən gələcək nə qədər qaranlıq təsəvvür olunsa da, orada nəsə bir ümid işartısı var idi. Bir neçə gündən sonra gecə-gündüz səngimək bilmədən günlərlə davam edəcək kütləvi qırğın və talanların baş verə biləcəyini o təsəvvür edə bilməzdi. Əksər adamlar kimi, o da "təzə doğulmuş itidiş Gilyotin xanım"la hələ tanış olmamışdı. Gilyotinin köməyi ilə sonradan qanlı cinayətlər törədən adamlar özləri də o fəlakəti təsəvvür etmək imkanında deyildilər. Belə olan halda Darney kimi bir adam nədən şübhələnə bilərdi?

Darney hesab edirdi ki, onunla ədalətsiz davranıb bir müddət ağır şəraitdə saxlaya bilərlər, qəddarlıq eləyib arvadından və qızından ayrı sala bilərlər, – onun fantaziyası bundan artıq bir təhlükənin mümkünlüyünü qəbul etmirdi. Beynində bu cür fikirlər həbsxananın həyətinə daxil oldu. Qarşıda isə La Forse həbsxanası görünürdü.

Şişkinsifət kişi ağır qapını açdı, Defarj gətirdiyi məhbusu təqdim edib dedi:

– Emiqrant Evremond.

– Sizi görüm lənətə gələsiniz! Bunlar nə qədərdir! – şişkinsifət kişi donquldandı.

Defarj ağzını açıb bir kəlmə də danışmadan məhbusu təhvil verdiyi barədə sənədi alıb iki silahlı patriotla birlikdə geri qayıtdı.

– Yenə deyirəm; sizi görüm lənətə gələsiniz! – arvadıyla tək qalmış həbsxana nəzarətçisi dedi. – Bunlar nə qədərdir!

Həbsxana nəzarətçisinin arvadı cavab verməyə çətinlik çəksə də, ərini sakitləşdirmək üçün dedi: "Hər halda, səbirli olmaq lazımdır, əzizim!" Qadının zəngindən sonra gəlmiş üç nəzarətçi də onun sözünə qüvvət verdi, onlardan biri: "Azadlıq naminə!" – dedi, amma bu nədənsə yersiz göründü.

La Forse həbsxanası zəhmlidir, çirklidir, qaranlıqdır, üfunətlidir. Adamların soyunmadan harada gəldi yatdığı binada bu ürəkbulandırıcı üfunətin necə əmələ gəldiyi də sual doğurmaya bilməz.

– Özü də gizli kameraya, – kağızda yazılanları gözdən keçirən həbsxana nəzarətçisi donquldandı. – Ağzınacan doludur ora, yer də yoxdur!

Nəzarətçi kağızı qovluğa tikdi, Çarlz Darney isə sonra nə olacağını gözləyərək yarım saat ərzində alçaq tavanlı, qalın divarlı otaqda orabura getdi, daş oturacağın üstündə oturdu; onu qəsdən burada saxlamışdılar ki, nəzarətçilər məhbusun sifətini yadda saxlaya bilsinlər.

– Gəl, – nəhayət, baş nəzarətçi açarları götürüb dedi, – gəl gedək, emiqrant.

Üfunətli, alaqaranlıq həbsxananın yeni sakini baş nəzarətçinin müşayiətiylə dəhlizdən keçdi, pilləkənlə qalxdı, neçə qapı danqıldayıb açıldı, sonra yenidən bağlandı. Axır ki, onlar gəlib alçaq tavanlı geniş zalı xatırladan bir otağa çatdılar; otaq hər iki cinsdən olan məhbuslarla doluydu. Qadınlar uzun stolun arxasında oturub kitab oxuyur, nəsə yazır, corab toxuyur, nəsə tikirdilər, kişilərin bir qismi otaqda gəzişir, bir qismi də qadınların oturduqları stulların arxasında ayaq üstə dayanmışdı.

Adətən olduğu kimi, məhbusu hansısa bir cinayətlə, yaxud rüsvayçı hərəkətlə eyniləşdirən yeni həbsxana sakini bu qədər adam görəndə özündən asılı olmayaraq diksinib geri çəkildi. At belində uzun yollar keçib gəldiyi vaxt baş verənlərin reallıq olduğuna inanmadığı kimi, indi də bu adamların onu qarşılamaq üçün ayağa qalxaraq nəzakətlə salamlayıb qəbul etmələri onun üçün gözlənilməz oldu, elə bildi ki, bu özü də reallıq deyil.

İncə nəzakət qaydaları həbsxanaya xas olan qaranlıq bir dumana elə bürünmüşdü, iyrənc çirkabla üfunətin içində elə yersiz görünürdü, Çarlz Darney fikirləşdi ki, yəqin, o, ölülərin yığıncağına düşüb. Hamısı xortlayıb! Hamısı kabusdur! Gözəllik kabusu, möhtəşəmlik kabusu, zəriflik kabusu, məğrurluq kabusu, yelbeyinlik kabusu, ağız kabusu, gənclik kabusu, ahıllıq kabusu, – fırtına hamısını vurub ümidsizlik sahilinə atıb, hər biri nə vaxt xilas olacağını gözləyir; bura gələn kimi də ölüm hamısının gözünü möhürləyib və indi onların gözündən boylanan ölüm təzə gələn adama baxırdı.

Darney yerindəcə donub-qalmışdı. Onunla yanaşı dayanmış baş nəzarətçi, eləcə də yaxınlıqda var-gəl edən o biri nəzarətçilər öz kobud reallıqlarıyla bu kədərli, məhbus analardan, yetişmiş qəşəng qızlardan, işvəkar gözəllərdən, xanım-xatın qadınlardan o qədər fərqlənirdilər ki,

Darney bunun həqiqi həyat səhnəsi olduğuna inana bilmirdi, əsla şübhə etmirdi ki, kölgələr dünyasına düşüb. Həqiqətən də, bunlar hamısı kölgələrdi. Həqiqətən də, reallığa oxşamayan uzun səfər onun ağlını çaşdırıb, xəstəliyə düçar edib; bu da nəticəsi: gəlib kölgələr dünyasına düşüb.

– Burada toplaşmış bədbəxtçilik yoldaşlarının adından La Forse həbsxanasına gəlişiniz münasibətilə sizi salamlayır, "xoş gəldiniz" deyirəm, – saray adamlarına məxsus alicənab rəftarıyla seçilən bir kişi irəli çıxıb dedi. – Eyni zamanda başınıza gəlmiş fəlakətlə əlaqədar olaraq təəssüfləndiyimizi bildiririk. Təəssüf ki, siz də gəlib bizim sıralarımıza qoşuldunuz. Çox istərdik ki, hər şey yaxşı sonluqla başa çatsın! Başqa yerdə bu, nəzakətsizlik olardı, amma bura fərqli məkandır, odur ki icazənizlə adınızı və titulunuzu bilmək istərdik.

Çarlz Darney birtəhər özünə gəlib az-çox bacardığı tərzdə verilən sualı cavablandırdı.

– Ümidvaram ki, – alicənab görkəmli centlmen otağın o biri başına tərəf hərəkət edən baş nəzarətçiyə baxa-baxa nitqinə davam elədi, – sizi gizli kameraya göndərməyəcəklər.

– Mən gizli kamera termininin burada hansı mənada işlədildiyini bilmirəm, amma onların o sözü bir neçə dəfə işlətdiyini eşitmişəm.

– Ah, heyif! Biz hamımız dərin təəssüf hissi keçiririk! Amma özünüzü ələ alın, cəsarətli olun; bizlərdən xeyli adam əvvəlcə ora düşmüşdü, amma bu çox çəkmədi. – Sonra həmin adam digər məhbuslara tərəf çevrilərək hamı eşitsin deyə səsini qaldırıb dedi: – Nə qədər kədərli olsa da, deməliyəm ki, gizliyə düşüb.

Çarlz Darney otağın o biri başındakı dəmir barmaqlıqlı qapının yanında dayanıb gözləyən baş nəzarətçiyə tərəf gedəndə onu təskinlik verən pıçıldaşma səsləri müşayiət edirdi, o səslərin arasında qadınların səsi özünəməxsus qayğıkeşlik, həssaslıq və mərhəmət ifadə edir, qulaqoxşayan ürək-dirək verir, cəsarətli olmağı və bu fəlakətin yaxşı qurtarmasını arzulayırdı. Darney dəmir barmaqlıqlı qapıya çatıb geri çevrildi, hamıya öz səmimi minnətdarlığını bildirdi; baş nəzarətçi onunla birlikdə içəri keçib qapını bağladı, kölgələr isə həmişəlik yox oldu.

Dəmir qapı yuxarı qalxan daş pilləkənə açılırdı. Onlar qırx pillə qalxandan sonra (məhbus düz yarım saat idi ki, onları sayırdı) baş nəzarətçi alçaq, qara bir qapını açdı, onlar təkadamlıq kameraya daxil oldular. Kamera qaranlıq deyildi, amma soyuq və nəm idi.

– Sizin kamera budur, – baş nəzarətçi dedi.

– Məni niyə təkadamlıq kameraya salıblar?

– Mən haradan bilim?

– Mən haqqını ödəyib kağız, mürəkkəb-qələm ala bilərəmmi?

– Belə şeylər mənim səlahiyyətimə aid deyil. Sizin yanınıza gələcəklər, onlardan soruşun. İndiki halda onu deyə bilərəm ki, istəsəniz, haqqını ödəyib yemək ala bilərsiniz, başqa heç bir şeyə icazə verilmir.

Kamerada stol, stul və içi küləşlə dolu döşək var idi. Baş nəzarətçi kameradan çıxmamışdan əvvəl bütün bu predmetləri, eləcə də dörd divarı diqqətlə nəzərdən keçirəndə qarşı divara söykənib onun hərəkətlərinə göz qoyan məhbusun ağlına haradansa bir fikir gəldi ki, suda batıb boğulmuş adamın bədəni kimi, baş nəzarətçinin də bədəni su ilə dolub şişib. Baş nəzarətçi gedəndən sonra yenə bayaqkı kimi fikirləşib özözünə dedi: "Ölmüş adam kimi məni tək qoyub getdilər". Aşağı əyilib döşəyə baxdı, qəflətən iyrənc bir fikirdən diksinib geri çəkildi, özözünə dedi: "İnsan ölən kimi dərhal bədənində bu cür həşəratlar peyda olub qıvıldaşır".

Məhbus kamerada irəli-geri gedir, addımlarını sayır, öz-özünə deyirdi: "Bu divar boyunca beş addım, o biri divar boyunca dörd addım yarım; beş addım, dörd addım yarım; beş addım, dörd yarım". Təkadamlıq kamerada məhbus ora-bura gedib addımlarını saydığı vaxt küçədəki böyük izdihamın qəzəbli səsi yüzlərlə təbil səsinin gumbultusu kimi gurlayıb göylərə ucalırdı.

– O, pinəçilik edirdi, pinəçilik edirdi, ayaqqabı tikirdi. – Məhbus yenidən addımlarını saymağa başladı; sürətlə yeridi, yenə saydı ki, beynində dolaşıb təkrarlanan sözləri unutsun. – Qapı bağlanan kimi kölgələr yox oldu. Onların arasında qara paltarlı bir qadın var idi, əyilib pəncərənin qarşısına söykənmişdi, işıq onun qızılı saçlarına düşmüşdü; o qadın kiməsə oxşayırdı... Sakinləri gecələr yatmayan, pəncərələrindən işıq süzülən kəndlərin içindən keçib uzun-uzadı yollar getmək nə gözəl idi, Allah!.. O, ayaqqabı tikirdi, pinəçiydi, ayaqqabı tikirdi. Beş addım vuraq dörd yarım. – Yaddaşının ara-bərəsindən qopub gələn xatirələr nizamsız olaraq bir-birini əvəz edirdi, məhbus daha sürətlə gedə-gedə inadkarcasına addımlarını sayırdı; gumbuldayan təbil səslərini xatırladan gurultulu şəhərin səsi ara verdikdə onun qulağı tanış və əziz səsləri də eşidirdi – öz yaxınlarının kədərli səsini eşidirdi.

II fəsil

BÜLÖV DAŞI

Tellson Bankın Paris filialı Sen-Jermen kvartalında, hündür divar və möhkəm qapıyla küçədən ayrılan böyük binanın həyətə tərəf uzanan qanadında yerləşirdi. Bina özü varlı bir zadəgana məxsus idi, ölkədə qarışıqlıq başlayanacan o özü də bu binada yaşamışdı, vəziyyət pisləşəndə isə öz aşpazının paltarını geyinib aşpaz qiyafəsində aradan çıxmış, başqa ölkəyə getmişdi. Ovçu əlindən güc-bəlayla qaçıb canını qurtarmış vəhşi heyvan həyatı yaşamış olsa da, indi yenə zəngin aristokrat həyatı sürməkdəydi; belə ki, işi bərkə düşəndə paltarını alıb geyindiyi aşpazı nəzərə almasaq, səhərlər onun şokoladının hazırlanması və fincanda gətirilib dodaqlarına yaxınlaşdırılmasıyla bağlı işləri üç cavan, pəhləvan kimi güclü kişi yerinə yetirirdi.

Aristokrat qaçıb aradan çıxdı, üç sağlam kişi mənasız bir işə görə yüksək maaş alaraq günaha batdıqlarını, amma bu günahı yumaq üçün aristokratın başını öz əlləriylə kəsib yeni yaranmış, insanlara Azadlıq, Bərabərlik, ya da Ölüm gətirən Respublikanın ayaqları altına atmağa hazır olduqlarını bildirdilər; binaya gəlincə, qapıları möhürləndi, sonra da müsadirə olundu. Hadisələr çox sürətlə inkişaf edirdi, dekret dekretin dalınca çıxırdı. Nəhayət, sentyabr ayının 3-də, bir payız axşamı qanun keşikçiləri olan patriot emissarlar aristokratın evinə gəlib binanın üstündən üçrəngli bayraq asdılar, sonra da banket zalında oturub konyak içdilər.

Tellson Bankın Londondakı ofisi bankın Paris filialının binasında yerləşsəydi, bank sahibi ağlını itirər, bankrot kimi adı qəzet səhifələrinə düşərdi. Ağlı başında olan və özünə hörmət etməyi bacaran hansı ingilis öz bankının həyətində portağal ağacları əkdirər, yaxud kassanın üstündə Kupidonun heykəlini qoydurar? Bəli, belə şeylər olub. Düzdür, Kupidonun üstünü suvayıb əhənglə ağardıblar, amma tavana baxanda aydınca görünür: açıq-saçıq geyinib (adətən olduğu kimi), gözünü zilləyib gecə-gündüz oradan pullara baxır. Londondakı Lombard-stritdə yerləşən Tellson Bank bu gənc bütpərəstə görə hökmən bankrot olardı; həmin əbədiyaşar oğlanın arxa tərəfindən divardakı pərdələnmiş dərin oyuq, eyni zamanda heç də yaşlı olmayan, hətta ən əhəmiyyətsiz bir bəhanə tapıb müştərilərin gözü qarşısında rəqs etməyə hazır olan bank əməkdaşları da öz davranışlarıyla bu fəlakəti tezləşdirərdi. Amma Tellson Bankın Fransadakı filialı ölkədə qarışıqlıq yaranan günəcən fəaliyyət göstərdi; bütün bu qəribəliklər heç kimi qorxutmurdu, heç kim də öz pullarını bankdan çıxartmaq istəmirdi.

Hansı hesablardakı pullar geri alınacaq, hansı pullar isə geri tələb olunmadan bankda qalıb tamam unudulacaq, sahibləri həbsxanalarda çürüyüb sonda qəddarcasına öldürüldüyü vaxt ərzində Tellson Bankın zirzəmilərində nə qədər zinət əşyalarının, qızılın, gümüşün, brilyantın üstünü toz basıb örtəcək, hələ bağlanmamış, bəlkə də, heç vaxt yekun vurulub bağlanılmayacaq neçə şəxsi hesabı Tellson özüylə götürüb o dünyaya aparacaq – bu suallara mister Carvis Lorridən başqa heç kim cavab tapa bilməzdi, amma həmin gecə onun özü də baş sındırıb nə qədər fikirləşsə də, bir nəticəyə gələ bilmirdi. O, təzəcə yandırılmış odun peçinin yanında oturmuşdu (fəlakətlə dolu yoxsul ilin soyuqları da vaxtından əvvəl gəlmişdi), onun aydın və mərd sifətinə tutqun bir qaranlıq çökmüşdü, amma bu nə lampadan, nə də otaqdakı parlaq əşyalardan düşən işığın yaratdığı kölgə deyildi; bu, dəhşət kölgəsiydi.

Mister Lorri bankın otaqlarından birində məskunlaşmışdı; gövdəsinə sarındığı nəhəng ağacla birləşib bir bədən əmələ gətirən qoca sarmaşıq kimi, o da uzun illər sədaqətlə xidmət etdiyi bankla doğmalaşıb onun bir parçasına çevrilmişdi. Əsas binanı patriotlar zəbt edəndən sonra təhlükə azalsa da, ehtiyatlı adam olan qoca centlmenin ürəyi sakit olmurdu. Amma, bununla belə, heç nəyə fikir verməməyə çalışaraq öz vəzifə borcunu yerinə yetirirdi. Qarşı tərəfdəki həyətin o üzündə, daş

kolonların altındakı geniş dayanacaqda əvvəllər mülk sahibinin faytonları dayanardı, indinin özündə o faytonların bəziləri hələ də oradaydı. Kalonların ikisinə parlaq alovla yanan fakellər bərkidilmişdi, onların işığı yaxınlıqda qoyulmuş böyük bülöv daşının üstünə düşürdü; bu nəsə çox kələ-kötür bir alət idi, onu, yəqin ki, yaxınlıqda yerləşən hansısa dəmirçixanada tez-tələsik düzəldib sonra da bura gətirmişdilər. Mister Lorri ayağa qalxıb pəncərədən çölə – ilk baxışdan elə də əlamətdar olmayan bülöv daşına baxdı, nəsə bir üşütmə tutdu onu, geri qayıdıb sobanın yanında oturdu. Pəncərənin həm özü, həm də çöl qapağı açıq idi və indi o bunların hamısını bağlasa da, qızdırmalı adam kimi titrəməsi keçmədi.

Hündür divarın və möhkəm qapının o biri tərəfindən gələn özünəməxsus gecə səsləri eşidilirdi, amma, bununla belə, o səslərin içində sözlə ifadəsi çox çətin olan qeyri-adi səslər də eşidilməkdəydi, – sanki hansısa dəhşətli varlıqlar Yer üzündə yaşayanlara xas olmayan qorxunc səslərlə ulayıb göylərdən kömək diləyirdilər.

– Allah, sən saxla! – mister Lorri əllərini bir-birinə sıxıb dedi. – Nə yaxşı ki, mənə yaxın olan, əziz adamların heç biri bu gecə bu dəhşətli şəhərdə deyil. Kimin ki həyatı təhlükədədir, qoy Allah özü onun köməyinə çatsın!

Az sonra həyət qapısı döyüldü, mister Lorri öz-özünə dedi: "Onlardır, qayıdıb gəldilər!" İndi o, sakitcə oturub qulaq asırdı, amma onun gözlədiyi kimi olmadı – həyətdə səs-küy qalxmadı. Qapı yenə döyüldü, yenə sükut çökdü.

Öz keçirdiyi qorxu və həyəcana indi bankın taleyiylə bağlı qorxu da əlavə olunmuşdu, – bu qarışıqlıqda nə desən ola bilərdi, bu adamlardan nə desən gözləmək olardı. Amma, bununla belə, bank yaxşı mühafizə olunurdu. Mister Lorri ayağa durdu ki, etibar elədiyi mühafizəçilərlə danışsın, düz elə həmin anda qəflətən otağın qapısı açıldı, iki adam içəri soxuldu. Onları görəndə qoca centlmen heyrət içində yenidən oturdu.

Gələnlər Lüsi ilə atasıydı! Lüsi çox güclü əsəb gərginliyi ifadəsi olan bir ciddiyyətlə mister Lorriyə tərəf əlini elə uzatdı, elə baxdı, sanki özü yox, qəlbi dil açıb yalvarırdı.

– Nə olub? – çaşqınlıq içində nə edəcəyini bilməyən mister Lorri soruşdu. – Sizə nə olub? Lüsi! Manett! Deyin görüm, nə olub? Siz bura necə gəldiniz? Nə olub?

Mister Lorridən gözlərini çəkməyən Lüsi rəngi ağarmış halda ağlını itirmiş kimi, dəlisov bir hərəkətlə onun sinəsinə sığınıb nəfəsi kəsilə-kəsilə yalvararaq dedi:

– Oh, əziz dost! Ərimin başına iş gəlib!

– Sən nə danışırsan, Lüsi, ərinə nə olub?

– Çarlzı deyirəm.

– Çarlza nə olub?

– O, buradadır.

– Parisdədir?

– Bir neçə gündür buradadır; deyəsən, üç-dörd gündür, dəqiq bilmirəm, başımı itirmişəm. Öz vəzifə borcunu yerinə yetirmək üçün gəlib, bizə də heç nə deməyib. Sərhədi keçən kimi tutub həbsxanaya salıblar.

Mister Lorri özündən asılı olmayaraq qışqırdı. Elə o anda həyət qapısı yenə döyüldü, həyətə doluşan adamların ayaq səsləri eşidildi, bərkdən nəsə danışırdılar.

– Bu nə səsdir? – doktor bunu deyib pəncərəyə tərəf çevrildi.

– Pəncərədən baxma! – mister Lorri qışqırdı. – Həyətə baxma! Allah xatirinə, Manett, pəncərə qapağını açma!

Doktor əlini pəncərə çərçivəsindən çəkmədən cəsarət ifadə edən soyuqqanlıqla gülümsədi.

– Mənim həyatım bu şəhərdə ovsunlanıb. Mən Bastiliya həbsxanasında məhbus olmuşam. Parisdə elə bir patriot yoxdur ki... Təkcə Parisdəmi? Bütün Fransada elə bir adam tapılmaz ki, Bastiliya həbsxanasında olduğumu bilən kimi qucaqlayıb məni bağrına basmasın. Keçmiş əzablarım mənə güc, qüvvə verir, ona görə də heç bir maneəylə qarşılaşmadan gəlib bura çıxmışıq, Çarlz barədə lazım olan məlumat almışıq. Mən bilirdim ki, belə olacaq, bilirdim ki, Çarlzı təhlükədən qurtara biləcəyəm, Lüsiyə də belə demişəm. Bu nə səsdir belə? – Doktor yenidən pəncərədən yapışdı.

– Baxmayan! – mister Lorri dəhşət içində qışqırdı. – Yox, Lüsi, sən yox! – bunu deyib Lüsini qucaqladı. – Sən bu cür həyəcanlanma, əzizim. Nəyə desəniz and içə bilərəm ki, Çarlzın başına gələnlərdən əsla xəbərim olmayıb; heç ağlıma da gətirə bilməzdim ki, o gəlib bu fəlakətin içinə girə bilər. Hansı həbsxanadır?

– La Forse!

– La Forse! Lüsi, mənim balam, özünü ələ al, möhkəm ol – sən əvvəllər də həmişə bunu bacarmısan. İndi mən nə desəm, onu eləməlisən; inan ki, hazırkı vəziyyətdə çox şey bundan asılıdır. Bu gecə heç nə etməməlisən, hətta yerindən də tərpənməməlisən. Bilirəm ki, Çarlz üçün sən hər çətinliyə hazırsan, ona görə də Çarlzın xatirinə nə desəm, əməl elə. İndi sakitləşib özünə gəlməlisən, deyilənlərə əməl etməlisən. İcazə versəydin, səni qonşu otağa aparardım. Bir neçə dəqiqəliyə atanla məni tək qoymalısan; burada ölüm-dirim məsələsi həll olunur, ləngimək olmaz.

– Nə desəniz, onu edəcəyəm. Üzünüzdən oxuyuram ki, dediyinizə əməl etməkdən başqa ayrı yol yoxdur. Bilirəm ki, dediklərəniz həqiqətdir.

Mister Lorri Lüsini öpdü, tələsik onu qonşu otağa aparıb qapını örtdü və açarla bağlayıb tez doktorun yanına qayıtdı; gələn kimi pəncərəni açdı, pəncərə qapağını da qaldırdı, doktorun qolundan tutub onunla birlikdə həyətə baxdı.

Onlar gördülər ki, həyətdə xeyli adam toplaşıb, o qədər də çox deyildilər, qırx beş-əlli adam olardı; kişisi də var idi, qadını da. Evə hal-hazırda sahiblik eləyənlər o adamları qapıdan içəri buraxdılar, onlar da hansısa işi görmək üçün bülöv daşına tərəf cumdular; daşı, yəqin ki, o məqsədlə münasib yerdə qoymuşdular.

Amma iş də, işçilər də çox dəhşətliydi.

Hər iki tərəfdən əllə tutmaq üçün bülöv daşının dəstəyi var idi, başı pırtlaşıq iki uzunsaç kişi hərəsi bir tərəfdən daşın dəstəyindən yapışaraq dəlisov canfəşanlıqla onu fırladırdı. Bu zaman onların saçları vaxtaşırı geri atılır, vəhşi adamların vəhşi ritual rəqsləri zamanı rəngləyib eybəcər görkəmə saldıqları sifətlərə oxşayan sifətləri görünürdü. Qanqarışıq tərə batmış o sifətlərə yalançı bığlar, saqqallar yapışdırılmışdı, çox da eybəcər görünürdülər; vəhşi kimi qışqırırdılar deyə üzgözləri əyilib qorxunc şəklə düşmüşdü, gözlərindən vəhşi qaniçənlik yağsa da, sanki yuxuluydular, ya da yatmaq istəyirdilər. Quldurlar bülöv daşını dayanmadan fırlayırdılar, qatma-qarışıq saçları gah qabağa tökülüb üz-gözlərini örtür, gah da geri axıb çiyinlərinə tökülürdü və bu zaman qadınlardan bir neçəsi içində çaxır olan qabı onların dodaqlarına elə yaxınlaşdırırdı ki, işlərinə ara vermədən içə bilsinlər; qan kimi damcılayıb axan çaxır, bülöv daşının ağzından fışqırıb çıxaraq səpələnən qığılcım dəstəsi – bütün bu vəhşi mənzərə sanki qan ilə oddan ibarət idi.

Bu adamların içində qan ləkəsinə bulaşmamış olan bir nəfər də yox idi. Bülöv daşının ətrafında toplaşıb növbə gözləyən kişilərin ələləri vardı ki, toqqalığacan yarıçılpaq vəziyyətdəydi, onların bədəni, qolları qana batmışdı; cındır geyimli adamların əynindəki cındır paltarın hamısına, hətta başlarına bağladıqları qırmızı lent, əsgi parçası, qadın krujevasına, – bir sözlə, hər şeyə qan çilənmişdi. Bülöv daşında itilənən hər şey: baltalar, bıçaqlar, xəncərlər, nizələr, qılınclar qana bulaşıb qızarmışdı. Əlində qılınc gəzdirənlər haradansa tapdıqları qanlı çit, ya da kətan parçayla onu biləklərinə bağlamışdılar. Özlərini dəli kimi aparan bu adamlar itilənmiş silahlarını dartıb bülöv daşından fısqıran qığılcımın içindən çıxardaraq küçələrə axışırdılar, küçədə qarşılaşdıqları hər kəs onların hədəqədən çıxmış dəli gözlərində qırmızı alov yandığını görürdü; o alovu söndürmək üçün bircə yol var idi: iyirmi il həbsxanaya düşməkdən çəkinməyib gülləni düz o gözün içinə sıxmaq. O alovu başqa yolla söndürmək mümkün deyildi.

Onlar bu mənzərəni bir anda gördülər, – ölümün bir addımlığında dayanan, yaxud suda boğularaq nəfəsi kəsilməkdə olan adamın öz həyatını ani olaraq gözü qabağında canlandırdığı kimi gördülər, dərhal da pəncərənin ağzından geri çəkildilər. Doktor öz dostunun rəngi qaçıb ağappaq ağarmış sifətinə baxdı ki, bunun nə demək olduğunu soruşsun.

– Onlar məhbusları öldürürlər, – mister Lorri qorxu və dəhşət içində çevrilib bağlı qapıya tərəf baxa-baxa dedi. – Əgər özünüzə əminsinizsə, əgər burada, doğrudan da, sözünüz keçirsə, – əminəm ki, bu belədir, – onda gedin, kim olduğunuzu o iblislərə bildirin, qoy sizi La Forse həbsxanasına buraxsınlar. Bəlkə də, artıq gecdir, mən dəqiq bilmirəm, amma indi vəziyyət elədir ki, bir dəqiqə də gecikmək olmaz!

Doktor Manett dostunun əlini sıxdı, başıaçıq tələsik otaqdan çıxdı, mister Lorri bir də boylanıb pəncərədən baxanda onu həyətdə gördü.

Doktorun qarışıq, ağ saçları, özünəməxsus sifəti, davranışındakı qətiyyət və özünəinamı görən kütlənin ehtirası üstünə su tökülmüş alov kimi bir andaca səngiyib sakitləşdi, adamlar dərhal onu araya aldılar. Bir neçə dəqiqəliyə sükut çökdü, sonra səs-küy qalxdı, doktorun bərkdən danışdığı eşidildi. Mister Lorri bir də baxdı ki, adamlar çiyin-çiyinə dayanıb sıraya düzülüblər, doktor iyirmi nəfərlik cərgənin ortasında dayandı, hamı xorla: "Yaşasın Bastiliya məhbusu! Bastiliya məhbusunun qohumuna yardım edək! Bastiliya məhbusunun yeri buradadır! La Forse məhbusu Evremonda azadlıq!" – deyərək qışqırıb irəli atıldı. Minlərlə səs onların səsinə səs verdi.

Mister Lorri pəncərə qapağını yenidən bağladı, pəncərəni örtdü, həyəcan içində Lüsinin yanına tələsdi ki, adamların köməyinə güvənərək atasının Çarlzı axtarmağa getdiyini desin. Miss Prossla körpə Lüsini də otaqda görən mister Lorri o qədər həyəcanlıydı ki, ilk anda buna əhəmiyyət vermədi, yalnız həmin gecə onlarla xeyli bir yerdə oturandan sonra təəccübləndi ki, bu adamlar bura nə vaxt gəliblər.

Lüsinin halı özündə deyildi, mister Lorrinin əlindən bərk-bərk tutub döşəmədə oturmuşdu. Miss Pross uşağı qoca centlmenin çarpayısında yatırtdı, az keçmiş öz başı da əyilib yastığa düşdü. Oh, yazıq qadının öz əri üçün göz yaşı töküb inlədiyi o gecə nə qədər uzun bir gecə oldu! Oh, doktorun qayıdıb gəlməsi nə yaman ləngidi! Heç bir xəbər də yoxdu!

Zülmət gecənin qatı qaranlığında qapı iki dəfə döyüldü, adamlar həyətə doluşdular, bülöv daşı yenidən fırlandı, xırhaxır işlədi. Lüsi diksinib qorxu içində: "Bu nədir?" – dedi.

– Sakit! Əsgərlərin qılıncları itilənir burada. Ev indi dövlətin ixtiyarına keçib və buranı bir növ silah anbarına çeviriblər. Sakit ol, əzizim, – mister Lorri belə deyib Lüsini sakitləşdirməyə çalışdı.

Gecə vaxtı bu hadisə iki dəfə təkrar olundu, amma sonuncu dəfə nəsə çox çəkmədi. Az sonra hava işıqlaşmağa başladı, mister Lorri ehtiyat və nəvazişlə əlini Lüsinin əllərindən azad eləyib pəncərəyə yaxınlaşdı, gizlicə həyətə baxdı. Başdan-ayağa qana bulaşmış bir kişi bülöv daşının yaxınlığında uzanıb azca qalxınaraq ətrafa boylanırdı; onu döyüş meydanında ağır yaralanıb qanına qəltan olmuş əsgərə də bənzətmək olardı. Nəhayət, o qatil erkən səhərin ala-toranında mülk sahibinin faytonlarını gördü, ayağa durub səndirləyə-səndirləyə faytonun birinə yaxınlaşdı, dartıb qapını açdı, zəngin bəzənmiş tərtəmiz balışların, döşəklərin üstünə uzanıb yuxuya getdi.

Mister Lorri bir də pəncərədən baxanda gördü ki, böyük bülöv daşı – Yer kürəsi fırlanıb bir dövrə vurdu, qırmızı günəşin ilk qanlı şüaları həyətə düşüb oranı qan rənginə boyadı. Balaca bülöv daşı isə erkən səhərin sakit vaxtında yalqız qalmışdı, onun da rəngi qırmızıydı, amma günəş şüaları ona toxunmamışdı; toxunsa da, onun qan rəngini heç vaxt soldurmayacaqdı.

III fəsil

KÖLGƏ

Şəhər açılıb növbəti iş günü başlayanda mister Lorrinin işgüzar ağlına gələn ilk fikir ondan ibarət oldu ki, məhbus emiqrantın arvadına bankın binasında sığınacaq verməklə Tellson Bank üçün təhlükə yaradıb. Əgər şəxsən onun öz əmlakı, öz həyatı təhlükə qarşısında qalsaydı, Lüsi və onun uşağı üçün zərrə qədər də çəkinmədən hər şeyi qurban verməyə hazır idi. Amma ona etibar olunan bu boyda var-dövlət özgənin idi və bu cür məsələlərdə mister Lorri ancaq işgüzarlıq prinsiplərini əsas götürürdü.

Əvvəlcə istədi çaxırsatan Defarjı tapıb onunla məsləhətləşsin, görsün aləmin bir-birinə qarışdığı bir şəhərdə daha təhlükəsiz bir mənzil tapmaqda kömək eləyə bilərmi. Amma dərhal da bu fikirdən imtina elədi, çünki Defarj ən çox qarışıqlıq olan məhəllədə yaşayırdı, özü də bu qanlı hadisələrin iştirakçısıydı, təşkilatçılardan biriydi.

Günorta idi, doktor hələ də gəlib çıxmamışdı, ötən hər dəqiqə Tellson Bankın adına ləkə gətirir, təhlükəsizliyini qorxu altına alırdı. Mister Lorri Lüsi ilə məsləhətləşməyi lazım bildi. Lüsi dedi ki, atası elə bu ərazidə, banka yaxın olan evlərdən birində mənzil tutmaq istəyirdi. Mister Lorrinin bu planla bağlı heç bir etirazı olmadı, eyni zamanda fikirləşdi ki, əgər Çarlzı həbsxanadan azad etmək mümkün olsa belə, onsuz da şəhəri dərhal tərk eləməyə icazə verməyəcəklər, ona görə də vaxt itirmədən mənzil axtarışına başladı. Çox çəkmədi ki, yaxınlıqdakı sakit küçələrdən birində rahat mənzil tapdı; ətrafdakı evlərin bağlı pəncərə qapaqları, melanxolik səssizliyi sakinlərin oranı tərk etdiyindən xəbər verirdi.

Dərhal da Lüsini, uşağı və miss Prossu ora apardı, əlindən gələni elədi ki, şəraitləri yaxşı olsun, onun bankdakı otağında olduğundan rahat və yaxşı yaşasınlar. Onların mühafizəsi və yarana biləcək bu cür problemlərin həllini belə işlərdə kifayət qədər təcrübəli olan Cerriyə həvalə edib öz iş yerinə qayıtdı. Amma ürəyi heç sakit olmurdu, ağır və kədərli fikirlər ona rahatlıq vermirdi; iş günü ləng keçir, mister Lorrini məngənə kimi sıxırdı.

İş günü sona yetib bank bağlananda da belə davam elədi. Mister Lorri otağında tək oturub ötən gecəki hadisələr barədə fikirləşir, daha nə etməli olduğunu götür-qoy edirdi. Birdən pilləkən tərəfdən gələn addım səsləri eşidildi. Bir qədər keçdikdən sonra bir kişi qapını açıb içəri daxil oldu, mister Lorrini diqqətlə gözdən keçirib ona adıyla müraciət elədi.

– Buyurun, mən sizi eşidirəm, – mister Lorri dedi. – Siz məni tanıyırsınız?

Gələn adam qırx beş-əlli yaşlarında, qıvrım, qara saçlı, möhkəm bədənli bir kişiydi, mister Lorrinin ona ünvanladığı sualın deyiliş tonunu da dəyişmədən təkrar elədi:

– Siz məni tanıyırsınız?

–Deyəsən, mən sizi haradasa görmüşəm.

– Bəlkə, mənim çaxır dükanımda görmüsünüz.

Mister Lorri həyəcanlanıb maraqla soruşdu:

– Sizi doktor Manett göndərib?

– Bəli. Məni doktor Manett göndərdi.

– Doktor nə deyir? Sizi niyə göndərdi?

Defarj bir parça kağız çıxarıb həyəcanlanmış mister Lorriyə verdi. Orada doktor öz dəstxətiylə yazmışdı:

"Çarlz təhlükədən sovuşub, amma hələlik mən buranı tərk etməyə qorxuram. Öz nümayəndəmdən xahiş etdim ki, Çarlzın məktubunu Lüsiyə çatdırsın. Bu adamın Lüsi ilə görüşməsinə şərait yaradın".

Məktubun altındakı qeyddən belə məlum olurdu ki, cəmi bir saat bundan əvvəl La Forse həbsxanasında yazılıb.

– Siz indi onun arvadını görmək üçün mənimlə birlikdə gedəcəksinizmi? – mister Lorri məktubu bərkdən oxuyub sakitləşəndən sonra dedi.

– Bəli, – Defarj dedi.

Defarjın soyuq və mexaniki danışıq tərzinə əhəmiyyət verməyən mister Lorri şlyapasını başına qoydu, onlar həyətə çıxdılar. Burada onları gözləyən iki qadından biri əlində nəsə toxuyurdu.

– Yəqin ki, bu da madam Defarjdır! – mister Lorri dedi, dərhal da yadına düşdü ki, düz 17 il əvvəl bu qadını elə bu cür əlində nəsə toxuyan görmüşdü.

– Bəli, özüdür ki var, – madamın əri dedi.

Mister Lorri görəndə ki, Defarjın arvadı da onlarla birlikdə gedir, soruşdu:

– Madam da bizimlə gedəcək?

– Bəli, gedəcək. O adamların təhlükəsizliyi üçün madam onları görüb üzdən tanımalıdır.

Mister Lorri narahat olub şübhəylə Defarja baxdı, bir az da sürətlə yeridi; qadınlar da onlarla gedirdi, o biri qadın isə İntiqam idi.

Onlar küçələrdən bacardıqca tez keçərək gəlib axtardıqları mənzilə çatdılar, pilləkənlə yuxarı qalxdılar, qapının ağzında Cerri onları qarşılayıb Lüsinin otağına apardı. Lüsi otaqda tək-tənha oturub ağlayırdı. Mister Lorri ərindən gələn xoş xəbəri ona çatdıranda Lüsi çox sevindi, məktubu gətirən adamın əllərini hərarətlə sıxdı. Amma əsla təsəvvür eləyə bilməzdi ki, bu əllər bu gecə ərinin qaldığı kameranın yaxınlığında nələr eləyib və əgər təsadüf nəticəsində xilas olmasaydı, Çarlzın da başına o fəlakət gəlməliydi.

"Əzizim, özünü ələ al. Mən sağ-salamatam. Burada sənin atanın sözü keçir. Məktuba cavab yazmaya da bilərsən. Mənim əvəzimə balamızı öpərsən".

Kiçik məktubda yazılan elə bu idi. Amma Lüsiyə bu da bəs idi, hətta çox idi; o, sevincək Defarjın arvadına tərəf çevrildi, onun toxumaqla məşğul olan əllərindən birini öpdü. Bu, sevgi və minnətdarlıq dolu qadın ürəyinin təşəkkürüydü, amma onun öpdüyü əl cavab vermədi; daş kimi soyuq, zindan kimi ağır əl öz işindəydi – dayanmadan toxuyurdu.

Madamın əlinə toxunanda Lüsi nə hiss elədisə, diksinib dayandı; həmin anda o hazırlaşırdı ki, məktubu qatlayıb qoynunda gizlətsin, amma əl saxladı, qorxmuş halda madam Defarja baxdı. Madam Defarj isə halını da pozmadan gənc xanımın azacıq yuxarı qalxmış qaşlarına və alnına soyuqqanlıqla baxdı.

– Mənim əzizim, – mister Lorri izah etməyə başladı, – indi şəhərdə tez-tez toqquşmalar olur; düzdür, bu sizə aid deyil, elə bir təhlükəsi də yoxdur, amma, hər halda, madam Defarj sizi görüb üzdən tanımaq istəyir ki, işdir, lazım olsa, qorusun, müdafiə eləsin. Səhv eləmirəmsə, mən sizi düzgün başa düşmüşəm. – Dediyi sözlərə özü də inanmayan, bu üç nəfərin daş kimi donuq sifətindən, buz kimi soyuq rəftarından get-gedə daha çox şübhələnməyə başlayan mister Lorri əlavə elədi: – Elədirmi, vətəndaş Defarj?

Defarj qaşqabaqlı halda dodağının altında nəsə mızıldayıb arvadına baxdı.

– Lüsi, siz belə eləyin, – mister Lorri öz hərəkətləriylə, danışıq tərziylə mümkün qədər çalışırdı ki, gərginliyi azaltsın, – miss Prossa deyin ki, uşağı da götürüb bura gəlsin. Defarj, onu da deməliyəm ki, miss Pross ingilisdir, fransız dilini bilmir.

Qollarını sinəsində çarpazlamış miss Pross içəri girdi; heç bir təhlükə, heç bir hədə-qorxu ona təsir edə bilməzdi və o, qəti əmin idi ki, istənilən xarici ölkənin xanımı onun ayağının tozuna da dəyməz. İçəri girən kimi də ilk gözünə sataşan İntiqamı başdan-ayağa gözdən keçirib ingiliscə dedi: "Əsla şübhə etmirəm ki, kobudun birisən! Onu da bilirəm ki, özünü yaxşı hiss edirsən!" Madam Defarja baxıb fısıldadı, onun ünvanına da ingiliscə nəsə dedi. Amma qadınların heç biri ona baş qoşmadı.

– Məhbusun uşağı budur? – Madam Defarj toxumaq üçün istifadə etdiyi dəmir mili uşağa tərəf elə uzatdı, sanki bu, taleyin öz barmağıydı.

– Bəli, madam, – mister Lorri cavab verdi, – bu uşaq o bədbəxt məhbusun əziz balasıdır, yeganə övladıdır.

Madam Defarjın və onunla birlikdə gələn iki nəfərin gətirdiyi təhlükəli qara kölgə körpə Lüsinin üstünə çökdü, bunu sövqi-təbii olaraq dərhal hiss edən ana diz üstə çöküb uşağı sinəsinə sıxdı. Madam Defarjı və onun dəstəsini müşayiət edən təhdidedici qara kölgə indi həm ananın, həm də körpənin üstünə düşmüşdü.

– Məncə, kifayətdir, – madam Defarj ərinə dedi. – Mən onları gördüm. Gedə bilərik.

Bu gərgin davranışda nəsə bir təhlükə var idi; o görünmürdü, amma varlığı hiss olunurdu, aşkar deyildi, amma özünü büruzə verirdi, – bunu

hiss eləyən Lüsi özünü saxlaya bilməyib həyəcandan titrəyən əliylə madam Defarjın paltarına toxundu.

– Siz mənim bədbəxt ərimlə yaxşı davranacaqsınız, onu incitməyəcəksiniz. Əgər imkan olsa, məni onunla görüşdürəcəksiniz, eləmi?

– Mən bura sizin ərinizə görə gəlməmişəm, – yuxarıdan aşağı Lüsiyə baxan madam Defarj tam bir soyuqqanlıqla dedi. – Mən buraya sizin atanızın qızına görə gəlmişəm.

– Elə isə mənim xatirimə ərimə qıymayın. Bu uşağın xatirinə! Baxın, o, əllərini göyə qaldırıb yalvarır, sizdən mərhəmət diləyir. Biz o birilərindən çox sizdən qorxuruq.

Madam Defarj bu sözləri kompliment kimi qəbul edib ərinə baxdı. Narahatlıq içində əl barmağının dırnağını çeynəyən Defarj da arvadına baxdı, üzünün ifadəsi dəyişib soyuq buza döndü.

– Əriniz məktubda nə yazır? – madam Defarj səsini alçaldaraq gülüb dedi. – Sözü keçir nədir, deyəsən, o barədə nəsə yazır, eləmi?

– Atam barədə yazır. – Lüsi qorxu ifadə edən gözlərini madam Defarjdan çəkməyərək qoynunda gizlətdiyi kağızı çıxartdı. – Yazır ki, burada onun hörməti var, sözü keçir.

– Doğrudan da, ərinizin azad edilməsində bunun köməyi ola bilər! – madam Defarj dedi. – Təki elə olsun.

– Bir qadın kimi, ana kimi sizdən xahiş edirəm, – Lüsi yalvararaq dedi, – əgər siz bir ixtiyar sahibisinizsə, mənim günahsız ərimə ziyan gətirəcək heç nə eləməyin, ona kömək edin. Anam, bacım, bir bizə bax, mənə rəhm elə. Ana kimi, qadın kimi sizdən xahiş edirəm, yalvarıram!

Madam Defarj ona yalvaran qadına soyuqqanlıqla baxdı, sonra üzünü rəfiqəsi İntiqama tərəf çevirib dedi:

– Biz də o uşaq kimi balaca olmuşuq, amma o vaxtdan bəri, lap əvvəl də qadınlar və analar barədə kiminsə düşündüyünü, onlara rəhmi gəldiyini görmüşükmü? Bəyəm biz o anaların, o qadınların ərləri və atalarının həbsxanalarda çürüdüyünü azmı görmüşük? Bütün həyatımız boyu ana-bacılarımızın, onların uşaqlarının dilənçilik, aclıq, səfalət, xəstəlik içində necə yaşadığını, it yerinə də qoyulmadığını görən biz deyilikmi?

– Biz bundan başqa heç nə görməmişik, – İntiqam cavab verdi.

– Biz bunlara uzun illər boyu dözmüşük, – madam Defarj belə deyib Lüsiyə baxdı. – İndi buyurun, özünüz də fikirləşin! Bundan sonra hansısa bir qadının, ananın kədəri bizim üçün nəsə bir əhəmiyyət kəsb edərmi?

Madam Defarj sözünü tamamlayıb yenə toxumağa başladı və otaqdan çıxdı, İntiqam onun dalınca getdi. Defarj axırıncı çıxıb qapını örtdü.

– Əzizim Lüsi, özünü ələ al, – mister Lorri Lüsinin qolundan tutub ayağa qaldıraraq dedi. – Özünü üzmə, möhkəm ol! Başqalarına baxanda bizim vəziyyətimiz çox yaxşıdır. Sakit ol, Allaha şükür elə.

– Yox, mən naşükür deyiləm, ümidimi üzmürəm, amma bu dəhşətli qadın elə bil mənim də, ümidlərimin də üstünə bir kölgə saldı.

– Yaxşı, yaxşı! – mister Lorri dedi. – Bu balaca, amma cəsarətli ürəkdə ruh düşkünlüyü haradandır? Kölgə, həqiqətən də, kölgədir, Lüsi, çünki kölgənin içində heç nə olmur.

Mister Lorri belə danışırdı, amma Defarjların qırımında, rəftarında nə vardısa, onun da üstünə kölgə salmışdı, qəlbinin dərinliklərində baş qaldıran həyəcan ona da rahatlıq vermirdi.

IV fəsil

FIRTINADA SAKİTLİK

Doktor Manett dörd gün sonra səhər tezdən qayıdıb evə gəldi. Həmin o dəhşətli günlərdə nə baş verdiyini mümkün qədər Lüsidən gizli saxlamağa çalışırdılar, yalnız çox sonralar – Fransanı tərk edib gedəndən sonra Lüsi bildi ki, hər iki cinsdən olan qocalı-cavanlı 1100 köməksiz məhbus azğınlaşmış kütlə tərəfindən qətlə yetirilib, gecə-gündüz dayanmaq bilməyən kütləvi qırğın dörd gün davam edib, dörd bir yan iylənmiş insan cəsədinin üfunətiylə dolubmuş. Qəzəbli izdiham həbsxanaya hücum edib, bütün siyasi məhbusların həyatı təhlükədəymiş; ələ keçən məhbusları nümayişçilər dartıb küçəyə çıxararaq qəddarcasına qətlə yetirib.

Doktor Manett mister Lorridən bu sirri heç kimə açmayacağı barədə vəd alandan sonra demişdi ki, həmin gecə adamlar başına toplaşıb onu La Forse həbsxanasına aparanda qırğını öz gözləriylə görüb. Doktor görüb ki, həbsxanada yalançı tribunal əyləşib, adamları da o mühakimə edir; məhbusları bir-bir tribunalın qarşısına gətirirlər, tez-tələsik hökm çıxardılır: məhbusu ya kütlənin ixtiyarına verib qətlə yetirir, ya azad edir, ya da (çox nadir hallarda) geriyə – kameraya qaytarırmışlar. İzdihamın müşayiətiylə tribunala yaxınlaşan doktor özünü təqdim edərək adını, familiyasını, nə işlə məşğul olduğunu, eləcə də heç bir ittihamsız və məhkəməsiz 18 il Bastiliyada, təkadamlıq kamerada həbsdə saxlanıldığını deyib; tribunal üzvlərindən biri ayağa qalxıb deyib ki, mən bu adamı tanıyıram, düz deyir, – doktorun sözünü təsdiq eləyən adam Defarj olub.

Bundan sonra stolun üstündəki siyahıları gözdən keçirən doktor əmin olub ki, onun kürəkəni hələ sağdır. Doktor Manett tribunal qarşısında çıxış edib – gecənin gec vaxtı tribunal üzvlərindən kimisi yatıbmış, kimisi oyaq imiş, kimisi sərxoş olub, kimisi oyaq, kimisi kütləvi qətldə iştirak edib qana batıbmış, kimisinin üstündə qan ləkəsi yox imiş – mümkün olan bütün dəlil-sübutları ortaya qoyaraq çalışıb ki, Çarlzın həyatını xilas etsin, onu azadlığa çıxartsın. Devrilmiş rejimin günahsız qurbanı kimi ilk anda onu gurultulu alqışlarla qarşılayan tribunal üzvləri qərara gəliblər ki, Çarlz Darney məhkəmə qarşısında cavab verməlidir. Elə təsəvvür yaranıb ki, Çarlzı dərhal azadlığa buraxacaqlar, amma izahı çox çətin olan bir hadisə baş verib (doktor heç cür anlaya bilməyib ki, bu nə deməkdir), tribunal üzvləri pıçıldaşaraq gizli bir müzakirə keçiriblər. Sonra tribunalın sədri elan edib ki, məhbus həbsdə saxlanılmalıdır, amma doktorun xahişi nəzərə alınaraq onun həyatı üçün heç bir təhlükə yaranmayacaq. Dərhal da məhbusu geriyə – kameraya qaytarıblar. Yaranmış vəziyyətdə doktor tribunal üzvlərinə müraciət edərək inadkarlıqla xahiş edib ki, hər hansı bədbəxt hadisə, yaxud qəsd nəticəsində kürəkəninin həyatı üçün yarana biləcək təhlükəni aradan qaldırmaq üçün onun da həbsxanada qalmasına icazə verilsin. Doktorun bu xahişi də nəzərə alınıb və o, dörd gün davam edən qanlı hadisələr qurtarıb təhlükə sovuşanacan həbsxanada qalıb.

Arada bir qədər yatmağa, bir qədər də yeməyə sərf elədiyi vaxtı nəzərə almasaq, dörd gün ərzində baş verən qanlı hadisələr onun gözü qarşısında cərəyan edib, nə baş verdiyini isə sözlə ifadə etmək mümkün deyil. Hər bir məhbusun həbsdən azad edilməsi izdihamın dəlisov sevincinə səbəb olurdu, – bu, doktoru elə həmin izdihamın digər məhbuslara qarşı amansızlıq göstərib onları tikə-tikə doğramasından daha çox təəccübləndirirdi. Doktor danışırdı ki, bir məhbusu azad edib həbsxanadan buraxıblar, küçəyə çıxan kimi izdihamdan kimsə səhvən onu nizə ilə vurub yaralayıb. Doktoru çağırıblar ki, gəlsin yaranı sarısın. Doktor çağırışa gedib, qapının çölündə, öz qurbanlarının cəsədləri üstündəcə oturmuş qatillərin səhvən yaralanan adama kömək göstərdiklərini görüb. Qaniçən qatillər yaralıya çox böyük nəvaziş göstəriblər, özləri xərək düzəldib yaralını onun üstünə uzadaraq evinəcən aparıblar. Sonra hər kəs yenidən öz silahını götürüb, kütləvi qırğın zamanı daha çox adam qətlə yetirmək üçün can-başla ça-

lışıb, neçə adamı tikə-tikə doğrayıb, – bunu görən doktor dəhşət içində gözlərini əlləriylə örtüb, qətl meydanının düz elə ortasındaca huşunu itirərək yerə yıxılıb.

Mister Lorri doktorun ona etibar edib danışdığı əhvalatları heyrətlə dinləyir, eyni zamanda 62 yaşlı dostunun üzünə diqqətlə baxaraq narahat olur, qorxurdu ki, bu dəhşətli olayların güclü təəssüratı doktoru ruhən sarsıda bilər, köhnə xəstəliyi yenidən baş qaldırar. Amma o öz dostunu heç vaxt belə görməmişdi – indi onun xarakterinin tamam başqa cəhətlərini görürdü. Doktor hiss edirdi ki, əzablar içində keçən illər ona güc və qüvvət verib. Doktor hiss edirdi ki, amansız işgəncə alovlarında tədricən yanıb bərkimiş silahla həbsxana divarını deşib qızının ərini xilas edə bilər. Doktor Manett dostuna deyirdi: "Hər şey yaxşı olacaq. Baş verənlər heç də boş yerə olmayıb. Bir vaxt əziz balam məni həyata qaytarıb, indi də mən əlimdən gələni etməliyəm ki, əziz ömürgün yoldaşını ona qaytarım. Allahın köməyi ilə mən bu işin öhdəsindən gələcəyəm" – doktor Manett belə deyirdi, mister Lorri dinləyir, doktorun gözlərindəki parıltıya, üzündəki qətiyyətə, sakit baxışına gözaltı fikir verirdi, ona elə gəlirdi ki, bu adamın həyatı saat mexanizmi kimi bir dəfə dayandırılıb və uzun müddət işləməyib; saz saat mexanizmi yenidən işə düşəndə əvvəlki kimi necə işləyirsə, doktorun həyatı da yenidən işə düşüb: əvvəlki kimi səhvsiz işləməkdə davam edir.

Əgər ən çətin məsələlərin də həllinə belə bir inadla, bu cür enerjiylə girişə bilsəydi, doktor çox böyük işlər görərdi. Bir həkim kimi onun vəzifəsi insanların pis, yaxud yaxşı, varlı, yaxud kasıb olmasından, eləcə də həbsdə, yaxud azadlıqda olmasından asılı olmayaraq, hamıya yardım etmək idi. Bu statusundan istifadə edərək o, adamlar arasında böyük hörmət qazanmışdı. Hər yerdə elə məhəbbətlə qarşılanırdı ki, tezliklə La Forse həbsxanası da daxil olmaqla üç həbsxanada səhiyyə xidmətinə nəzarət edən həkim-müfəttiş səlahiyyətləri ona həvalə olundu. İndi o, Lüsini inandırmağa çalışırdı ki, Çarlz artıq təkadamlıq kamerada deyil, onu ümumi kamerada xeyli məhbusla bir yerdə saxlayırlar. Doktor həftədə bir dəfə Çarlzı görürdü, onun ağzından eşitdiyi salamları Lüsiyə çatdırırdı. Hərdən əri Lüsiyə məktub da göndərirdi (məktubu doktorla yox, poçt ilə göndərirdi), Lüsinin o məktublara cavab verməyə ixtiyarı yox idi, çünki məhbusların heç birinə zərrə qədər də olsa, inanmırdılar. Xaricdə dost-tanışı olan emiqrantlar isə ən ağır və ağlasığmaz cinayətlərdə ittiham olunurdular.

Şübhəsiz ki, doktorun yeni həyat tərzi həyəcanla, nigarançılıqla doluydu. Amma, bununla belə, müdrik bir insan olan mister Lorri doktorda bir fəxarət hissi olduğunu da sezirdi ki, bu da ona əlavə güc, qüvvə verirdi. Bu əsla yersiz məğrurluq deyildi, olduqca təbii və sağlam düşüncəyə əsaslanan bir məğrurluq idi, mister Lorri də özünəməxsus bir maraqla onu müşahidə edirdi. Doktor əmin idi ki, onun həbsxanaya düşüb əzablara düçar olmasını, ağlını və sağlamlığını itirməsini qızıyla dostu indiyə qədər mənasız bir bədbəxtlik kimi qiymətləndiriblər. Amma artıq hər şey dəyişib və belə məlum olur ki, məhz o vaxt çəkdiyi ağır əzablar onu indi güclü eləyib, məhz o gücün sayəsində qızı da, dostu da bütün ümidlərini ona bağlayıblar, çünki Çarlzı ölümün əlindən ancaq o qoparda bilər. Doktorun rəftarı da dəyişmişdi, indi o, güclüydü, özünü bu cür də aparırdı. Zəif olduqları üçün qızıyla dostunu öz gücünə inandırmağa çalışırdı. Əvvəllər Lüsi ona dayaq olur, qayğısına qalırdı, indi vəziyyət dəyişib – o, Lüsiyə kömək edir, dayaq olurdu; sevimli övladı onun yolunda çox şeylər eləmişdi, indi elə bir vaxt gəlmişdi ki, doktor onların əvəzini çıxmaq imkanı qazanmışdı. Tükü tükdən seçən mister Lorri doktora göz qoyub baxır, öz-özünə deyirdi: "Çox maraqlıdır, eyni zamanda hər şey təbiidir – belə də olmalıdır; bu ailənin başçısı, yolgöstərəni, dayağı sən olmalıydın, dostum, olmusan da, bunu səndən yaxşı heç kim bacarmaz".

Doktor var gücüylə çalışırdı ki, Çarlz Darneyi həbsdən azad eləsin, yaxud heç olmasa onun işinə məhkəmədə baxılmasına nail olsun, amma hələ ki bu mümkün olmurdu: zaman onun əleyhinə işləyir, vəziyyət get-gedə çətinləşirdi. Yeni bir era başlamışdı: kralı mühakimə edib ölüm cəzasına məhkum elədilər, başını bədənindən ayırdılar; Azadlıq, Bərabərlik, Qardaşlıq, ya da Ölüm Respublikası ona qarşı silahlı mübarizəyə qalxmış bütün dünya ilə ölüm-dirim savaşına girişdi; Notr-Dam kilsəsinin nəhəng qülləsindən asılmış qara bayraq gecə-gündüz dalğalanmaqdaydı; əjdaha dişləri kimi Fransanın hər tərəfindən: dağlardan, düzlərdən, qayalıqlardan, çınqıllıqlardan, bataqlıqlardan, cənubdakı günəşli səmanın altından, şimaldakı buludlu göylərin altından, meşələrdən, üzümlüklərdən, zeytun bağlarından, otlaqlardan, tarlalardan, böyük çayların məhsuldar vadilərindən, qumlu dəniz

sahillərindən baş qaldıran tiraniyaya qarşı mübarizə aparmaq üçün 300 min adam ordu sıralarına çağırıldı. Azadlığın birinci ilində göylərdən tökülüb gəlməyən, – göylərin qapı-pəncərəsi bağlanmışdı, – yerin altından kükrəyib qalxan coşqun sellərin tüğyan elədiyi bir vaxtda hansısa bir adamın şəxsi problemləri heç kimi maraqlandırmırdı!

Elə bir zaman idi ki, nə istirahət, nə mərhəmət, nə fasilə, nə də interval yox idi, hətta vaxt ölçüsü də yox idi. Düzdür, gecə gündüzü əvəz edir, sutka tamamlanırdı, amma lap qədimdə – dünyanın təzə yarandığı gündə ilk gecəni ilk səhər əvəz eləyəndən sonra bəşər övladı günlərin sayını itirdiyi kimi, vaxt ölçüsü itmişdi. Qızdırma içində alışıb-yanan xəstə kimi millət huşunu itirmişdi, vaxtın necə keçdiyindən xəbəri yox idi. Bütün şəhəri bürümüş qeyri-adi sükutun fonunda kralın kəsilmiş başını cəllad yerdən qaldırıb adamlara göstərir, az keçmir ki, əri öləndən sonra həbsxanada səkkiz ay dul qalıb kədərdən saçları ağarmış kraliçanın da kəsilmiş başı nümayiş etdirilir.

Vaxt özü sürətlə keçməli olduğu halda, bu cür hallar baş verəndə hansısa ziddiyyətli qanuna tabe olaraq ləngiyib yavaş gedir. Paytaxtda inqilabi tribunal yaradılıb, bütün ölkə üzrə qırx-əlli min belə tribunal fəaliyyət göstərir; şübhəli şəxslər haqda qanun qüvvəyə minib – hər kəsin azadlığı, hər kəsin həyatı təhlükə altındadır, istənilən günahsız və təmiz insan boş bir şeydən ötrü suçlu sayılıb ittiham edilə bilər; həbsxanalar heç bir cinayət işləməmiş, günahsız insanlarla doludur, onların işinə heç bir məhkəmə baxmır, səslərini eşidən də yoxdur, – bu vəziyyəti yaradan qanunlar cəmi bir neçə həftədir qüvvəyə minsə də, insanları toparlayıb elə bir çərçivəyə salıb ki, sanki cəmiyyət ta qədimdən bəri elə bu qanunlarla yaşayırmış. Ələlxüsus da Gilyotin – bu itidiş xanıma insanlar elə öyrəşib, elə adətkar olublar, sanki dünya bina olan gündən o da bu şəhərdə mövcud olub.

Gilyotin ən müxtəlif lətifələrin və zarafatların mövzusuna çevrilmişdi; başağrısına qarşı ələ dərman idi, saçağarmanın qarşısını alan əvəzsiz vasitə idi, üzün rəngini yaxşılaşdırmaq üçün ən gözəl məlhəm idi; başı lap dibdən qırxan Milli Ülgüc idi. Gilyotin elə bir nazlı xanım idi, onu öpən hər kəs balaca bir pəncərədən boylanıb baxırdı, dərhal da asqırırdı və başı torbaya düşürdü. Gilyotin bəşər övladının yenidən doğulmasıydı. O, xaçı əvəz eləyirdi. İnsanlar sinələrindən asıb gəzdirdikləri xaçı çıxardıb atır, onun yerinə gilyotinin simvolunu asırdılar, qarşısında baş

əyirdilər; bir vaxtlar xaçа inandıqları kimi, indi də gilyotinə inanır, ona səcdə edirdilər.

Gilyotin o qədər başlar kəsmişdi, özü də qana boyanıb qıpqırmızı olmuşdu, torpaq da qandan doyub iyrənmişdi. Balaca şeytanın primitiv oyuncağı kimi, onu asanca söküb hissələrə ayırır, lazım olan kimi də dərhal bir yerə yığıb işə salırdılar. Gilyotin dilli-dilavər natiqləri susdurdu, güclüləri yerlə yeksan edirdi, yaxşı və gözəl nə varsa, hamısının axırına çıxırdı. İyirmi iki yüksək titullu məmurdan biri ölü, qalan iyirmi biri diri olmaqla bir gün səhər vaxtı gilyotinin hüzurunda dayandılar, həmişə olduğu kimi bir göz qırpımındaca hamısının başı yox oldu; baş cəllad Tövratdakı pəhləvan cəlladın adaşıdır, amma onun əlində gilyotin kimi güclü bir silah var deyə öz adaşından güclüdür, korluğu isə daha dəhşətlidir, çünki o, hər gün Allah evinin qapısını çalıb-çapır, viran qoyur.

Baş verən dəhşətli hadisələrin və onlardan törəyən digər qorxunc olayların içində dolaşan doktor Manett ruhdan düşmür, öz qüvvəsinə inanırdı, inadkarlıq göstərir, amma ehtiyatla davranırdı; əsla şübhə etmirdi ki, nəyin bahasına olursa olsun, Lüsinin ərini xilas edəcək. Amma vaxt axını coşqun bir sürətlə gedir, günləri, ayları da bir göz qırpımında götürüb özüylə aparırdı. Çarlz Darney nə az, nə çox, düz bir il üç ay idi həbsdəydi, doktor isə hələ də inanırdı ki, onu həsbdən azad edəcək. Həmin ilin dekabr ayında inqilab daha dəhşətli, daha qəzəbli görkəm aldı, nəticədə isə Fransanın cənubundakı çaylar gecə vaxtı qətlə yetirilmiş insanların cəsədləriylə dolub daşmağa başladı, cənub qışının şəfəqləri görünən kimi dərhal başqa məhbusları sıraya düzüb güllələyirdilər. Doktor bu dəhşətli hadisələrin əhatəsində olsa da, hələ ki ruhdan düşmür, ümidini itirmirdi. O vaxt Parisdə doktor Manett qədər məşhur olan başqa bir adam tapmaq mümkün deyildi; bu məşhurluq ona xüsusi bir status da vermişdi. Həm xəstəxanada, həm də həbsxanada qatilə də, qatilin qurbanına da lazım olan təcrübəli həkim kimi heç kimdən öz köməyini əsirgəmirdi, əlahiddə bir insan kimi qəbul olunurdu. Bacarıqlı həkim olan bu adamın xarici görkəmi də cəlbediciydi, bundan əlavə, Bastiliya məhbusu kimi haqqında danışılanlar da onu bütün başqa adamlardan fərqləndirirdi. Ondan şübhələnmək, onun fəaliyyətində nəyisə şübhə altına almaq heç kimin ağlına da gəlmirdi; sanki o, 18 il bundan əvvəl o dünyadan qayıdıb gəlmişdi, yaxud ruhu o dünyadan gəlib dirilərin arasında dolaşırdı.

V fəsil

ODUNDOĞRAYAN

Bir il üç ay. Bütün bu vaxt ərzində Lüsi daim şübhələr içində yaşayaraq fikirləşirdi ki, bu gün olmasa da, sabah gilyotin onun ərinin də başını bədənindən ayıracaq. Hər gün ölüm cəzasına məhkum olunmuş məhbuslarla dolu arabalar daş yollarda taqqataraq səs salaraq ötüb-keçirdi. Gözəl qızlar, qəşəng xanımlar, kiminin saçı qara, kiminin saçı sarı, kiminin də saçı ağarıb; cavan oğlanlar, sağlam kişilər, ahıl qocalar, zadəgan və kəndli – bunlar hamısı gilyotinə qıpqırmızı çaxır hazırlamaq üçün lazımdır və hər gün də həbsxanaların qaranlıq zirzəmilərindən çıxardıb küçələrlə aparırlar ki, onun doyub-dolanmaq bilməyən yanğısını söndürsünlər. Azadlıq, Bərabərlik, Qardaşlıq, ya da Ölüm. Bu sonuncunu sən əsla xəsislik etmədən sağa-sola səpələyirsən, oh, gilyotin, gilyotin!

Əgər naqafil bədbəxtlik və sonu görünməyən intizar bir gün doktorun qızının qollarını yanına salsaydı, burada qeyri-adi nəsə axtarmağa dəyməzdi, çünki o vaxt bu çoxlarının başına gələn bir iş idi. Amma Sent Antuandakı binanın çardağında ağsaçlı atasının başını öz sinəsinə sıxdığı gündən bəri o bir övlad kimi öz borcunu yerinə yetirirdi. Bəxtinə düşmüş bu ağır günlərdə də öz kömək və qayğısını atasından əsirgəmirdi.

Onlar təzə mənzilə köçüb yerləşəndən, atasının başı öz işlərinə qarışandan sonra Lüsi ev işlərini nizama salıb elə dəqiqliklə yerinə yetirirdi, sanki əri də bu evdə, onların yanındaydı. Evdə hər şey öz yerindəydi, hər iş öz vaxtında görülür, heç nə nəzərdən qaçmırdı. Hər gün o, balaca Lüsiyə də nəsə öyrədirdi və bunu elə edir, o qədər vaxt ayırırdı ki, sanki onlar hamısı əvvəlki kimi Londonun sakit bir küçəsində yaşayırdılar. Ən müxtəlif vasitələrlə özünü aldadıb inandırmaq istəyirdi ki, tezliklə

onlar yenidən birlikdə olacaqlar, – guya ərinin indilərdə qayıdacağına hazırlıq görürmüş kimi evi qaydaya salır, Çarlzın kitablarını stolun üstünə qoyur, onun stulunu qabağa çəkirdi... Bütün bunlarla və bir də gecələr yatmazdan əvvəl həbsxanada ölüm cəzasına məhkum edilmiş günahsız insanlara, ələlxüsus da qəlbinə çox yaxın olan bir nəfər üçün etdiyi dualarla az da olsa, təskinlik tapır, ağır kədərini bir qədər yüngülləşdirirdi.

Lüsinin görkəmində elə ciddi bir dəyişiklik yox idi. Yas mərasimlərində geyilən qara paltara oxşayan tutqun rəngli don geyinirdi, qızına da o cür paltar geyindirirdi, amma bu paltar çox təmiz və səliqəliydi deyə xoşbəxt günlərdə geydiyi bəzəkli, al-əlvan paltarlar kimi ona çox yaraşırdı. Bənizi solmuşdu, əvvəllər hərdənbir üzündə görünüb tez də yox olan qayğılı ciddilik çöhrəsində qalmışdı; amma, hər halda, o, qəşəng idi, gözəgəlimliydi. Hərdən də axşamlar atasını qucaqlayıb öpür, kədərli göz yaşları tökərək deyirdi ki, ümidi bir Allaha, bir də onadır. Atası da həmişə olduğu kimi əsla şübhə yeri qoymayan bir inamla deyirdi: "Mənim icazəm olmadan ona heç nə eləyə bilməzlər, Lüsi. Mən onu xilas edəcəyəm. Sənin buna şübhən olmamalıdır".

Təzə mənzilə köçəndən bir neçə həftə sonra bir axşam atası işdən qayıdıb evə gələndə dedi:

– Lüsi, əzizim, həbsxananın yuxarı mərtəbəsində bir pəncərə var, hərdən Çarlz gündüz saat 3-də onun qarşısında dayana bilər. Əgər pəncərəyə yaxınlaşa bilsə, – bəzi naməlum səbəblər üzündən bu, mümkün olmaya da bilər, – o səni küçədən keçəndə görə bilər, yalnız bir şərtlə ki, gərək mənim göstərəcəyim yerdə dayanasan. Amma, mənim əziz balam, sən onu görə bilməzsən, işdir, birdən görsən, o halda ona heç bir işarə-filan eləmə, çünki bu çox təhlükəlidir.

– O yeri mənə göstər, ata! Mən hər gün ora gedəcəyəm.

O vaxtdan bəri havanın necə olmasından asılı olmayaraq, Lüsi hər gün o yerə gedir, iki saat orada dayanıb gözləyirdi. Saat zəngi 2-ni vuranda artıq orada olurdu, saat 4-də isə qəm-qüssə içində qayıdıb evə gəlirdi. Hava yağışlı və nəm olmayanda qızını da özüylə aparırdı, hava pis olanda tək gedirdi, amma hər gün gedirdi.

Doktorun Lüsiyə göstərdiyi yer küləktutan, balaca küçənin qaranlıq, zibilli küncüydü. Küçənin hər iki tərəfi divar idi, lap axırda isə odun-

doğrayanın balaca daxması var idi. Lüsi oraya üçüncü dəfə gedəndə odundoğrayan onu gördü.

– Hər vaxtınız xeyir, vətəndaş, – odundoğrayan dedi.

– Hər vaxtınız xeyir, vətəndaş, – Lüsi dedi.

Adamların bir-birinə məhz bu cür müraciət etməsi yeni dekretlə müəyyən olunur. İlk vaxtlar bəzi patriotlar öz aralarında danışanda bir-birinə bu cür müraciət edirdilər, son vaxtlar isə bunu hamıya şamil edib qanuniləşdiriblər.

– Yenə burada gəzirsiniz, vətəndaş? – odundoğrayan dedi.

– Gördüyünüz kimi, gəzirəm, vətəndaş.

Odundoğrayan balacaboy, danışanda həddən artıq jestlər eləyən bir kişiydi (əvvəllər o, yol təmiri ustası olub), həbsxana tərəfə boylanıb hər iki əlinin barmaqlarını çal-çarpaz üst-üstə qoydu – həbsxana barmaqlığına oxşatdı, zarafatla gözünün qabağına tutub baxdı.

– Yox, bu mənim işim deyil, – odundoğrayan dedi, mişarı götürüb odun doğramağa başladı.

Səhərisi gün odundoğrayan artıq onu gözləyirdi, görən kimi dedi:

– Siz yenə gəzməyə gəlmisiniz, vətəndaş?

– Bəli, vətəndaş.

– Özü də uşaqla! Balaca vətəndaş, bu sənin anandır, eləmi?

– Nə deyim, ana, deyim ki, anamsan? – balaca Lüsi anasına qısılıb pıçıltıyla soruşdu.

– Hə, elə de, – anası dedi.

– Bəli, vətəndaş.

– Aha! Yox, bu iş mənlik deyil. Öz işim başımdan aşır. Bu mişarı görürsünüz? Mən onun adını Balaca Gilyotin qoymuşam. La-la-la, la-la-la! Bax belə, odunun başı kəsildi!

Odundoğrayanın başı söhbətə qarışanda odunun kəsilmiş başı yerə düşdü və o, kəsilmiş odunu götürüb səbətə atdı.

– Mən özümə Odun Gilyotininin Samsonu adı vermişəm. Bir baxın! Lu-lu-lu, lu-lu-lu! Bax belə, bunun başı kəsildi! İndi də uşağın başını kəsək. Tikl, tikl, pikl, pikl! Uşağın da başı kəsildi. Bütün ailənin başı kəsildi!

Odundoğrayan belə deyib ikiyə bölünmüş odun parçalarını səbətə atanda Lüsi diksinib titrədi. Amma bu adam burada işləyir, günün bu vaxtı onun gözünə görünmədən bu tərəfə gəlmək də mümkün deyil.

O vaxtdan bəri günorta vaxtı bura gələndə Lüsi ilk olaraq özü onunla salamlaşır, xoş danışırdı, çox vaxt da boğazını yaşlamaq üçün odundoğrayana pul verirdi və o da bu hədiyyəni məmnuniyyətlə qəbul edirdi.

Odundoğrayan ayıq-sayıq adam idi, Lüsi bəzən ərini görmək üçün həbsxananın yuxarı mərtəbəsindəki dəmir barmaqlıqlı pəncərəyə baxa-baxa bir anlıq özünü unudurdu, qəflətən çevrilib baxanda isə görürdü ki, odundoğrayan əl saxlayıb diqqətlə ona baxır, hərəkətlərinə göz qoyur. Xanımın narahat olduğunu görən odundoğrayan: "Eh, bu mənim işim deyil!" – deyir, yenidən işə girişir, odun doğrayırdı.

Lüsi qışın qarlı-şaxtalı havasında, küləkli yaz günlərində, yayın qızmar istisində, payızın yağışlı günlərində gəlirdi. İl tamam oldu, yenə qış gəldi, qarlı-şaxtalı havada yenə gəlirdi, iki saat dayanıb gedirdi, gedəndə əvvəlcə həbsxananın divarlarını öpür, sonra uzaqlaşırdı. Çarlz onu görürdü (bunu Lüsiyə atası demişdi), beş-altı dəfə görmüşdü; elə olmuşdu ki, iki-üç dəfə dalbadal görmüşdü, bəzən də həftələrlə görə bilmirdi. Əsas məsələ də bu idi: Çarlz onu görə bilər və hərdən də təsadüf elə gətirir ki, görür, – tək elə buna görə Lüsi həftənin yeddi gününü səhərdən axşamacan orada dayanmağa hazır idi.

Düz bir il beləcə keçdi, dekabr ayı gəldi; Lüsinin atası bu qanlı hadisələrin içində dolaşır, amma inamını itirmirdi. Bir dəfə azacıq qar yağdığı vaxt günortadan sonra Lüsi yenə həmişəki yerə gəldi. Hansısa bayram qeyd olunurdu, adamlar küçələrə axışıb dəlisovcasına şənlənirdilər. Gələndə yolüstü görmüşdü ki, evlərin qarşısına balaca nizələr sancıb ucuna qırmızı şapkalar keçiriblər, üçrəngli lentlər asıblar, üçrəngli hərflərlə (üçrəngli hərflər bərk dəbdəydi) hər yerdə eyni sözlər yazıblar: "Vahid və Bölünməz Respublika. Azadlıq, Bərabərlik, Qardaşlıq, ya da Ölüm!"

Odundoğrayanın balaca, yoxsul daxması bu boyda əfsanə üçün bəs eləməmişdi; kimsə bu sözləri onun daxmasının divarına tez-tələsik yazmışdı, amma sonuncuya – "Ölüm"ə yer azlıq eləmişdi deyə onu çox çətinliklə birtəhər yerləşdirə bilmişdi. Əsl vətənpərvər vətəndaş kimi odundoğrayan öz daxmasının damına nizə sancıb onun da ucuna qırmızı papaq keçirtmişdi, pəncərənin qarşısından üstünə "Müqəddəs Gilyotin" yazılmış mişar asmışdı, – itidiş Gilyotin xanım o ərəfədə xalq arasında çox populyar idi, artıq onun adının əvvəlinə "müqəddəs" sözü

qoşurdular. Odundoğrayanın daxması bağlıydı, Lüsi bundan bir yüngüllük duydu, özünün, axır ki, tək qaldığını hiss elədi.

Amma, sən demə, odundoğrayan uzaqda deyilmiş; tezliklə Lüsi ayaq səsləri, həyəcanlı qışqırtı səsləri eşidib bərk qorxdu. Az sonra həbsxana divarlarının tinindən bir dəstə adam çıxdı, dəstənin düz ortasında odundoğrayanla İntiqam əl-ələ tutmuşdu. İzdihamda iştirak edən adamların sayı 500-ə yaxın olardı, amma elə təsəvvür yaranırdı ki, 5 min iblis rəqs eləyib şənlənir. Onların öz oxuduqları mahnının ritmindən başqa ayrı bir musiqi səsi eşidilmirdi; o dövrdə bəstələnmiş, ritmi də, əsasən, diş qıcırtması və şaqqıldamasını xatırladan inqilab mahnısını xorla oxuyurdular. Qadınlarla kişilər bir-birinə qoşulub rəqs edirdilər; təkcə qadınlardan və təkcə kişilərdən ibarət olan dəstələr də var idi, – kim necə gəldi rəqs edirdi, kim kimi tutdu onunla rəqs edir, şənlənir, oxuyurdu. İlk anda elə təsəvvür yarandı ki, bu nəsə kobud, qırmızı şapkalardan və qırmızı cır-cındırdan ibarət olan bir axındır, amma elə ki gəlib Lüsinin yaxınlığındakı meydançaya doluşdular, onda hansısa dəlisov rəqsin çılğın elementləri özünü büruzə verməyə başladı. Onlar irəli gəlir, bir-birinin əlinə vurub geri çəkilirdilər, kimsə kiminsə başından tutub təkbaşına fırlanır; bir-birindən yapışıb ikilikdə o qədər fırlanırdılar ki, axırda müvazinətlərini itirib yerə yıxılırdılar. Adamlar əl-ələ tutub yerə yıxılanların ətrafında dövrə vuraraq rəqs edirdi, sonra dövrə vuranların nizamı pozulur, kiçik dəstələrə parçalanırdı, yenidən ikibir, üçbir, dördbir rəqs eləməyə başlayırdılar; fırlanırdılar, fırlanırdılar və birdən hamısı dayanırdı, sonra hər şey təzədən başlayırdı: yenə qarşı-qarşıya gəlib bir-birinin əlinə vurur, geri çəkilirdilər, kimsə o birinin başından tutub fırlanırdı, iki nəfər bir-birindən tutub fırlanırdı. Qəflətən yenə dayandılar, bir fasilə oldu. Sonra küçənin eni boyda cərgələrə düzülüb hamılıqla başlarını aşağı əydilər, əllərini yuxarı qaldırdılar, gücləri gəldikcə qışqıra-qışqıra çıxıb getdilər. Heç bir döyüş səhnəsi bu rəqs qədər dəhşətli ola bilməzdi. Qədim sənət nümunəsi, həm də gözəl əyləncə olan rəqsi qəddar və amansız hisslər oyadan, insan qanını qəzəblə coşdurub qaynadan, ürəyi bərkidib daşa döndərən iblisvarı atılıb-düşməyə çevirmişdilər. Təbiətin gözəl yaratdığı şeylərin mahiyyəti eybəcərləşdirilib iyrənc şəklə salındığı üçün bu vəhşi rəqsdə hərdən gözə çarpan hansısa harmonik hərəkət və ya element də əsla gözəl görünmür, dəhşətli dərəcədə eybəcər olurdu. Sinəsini açmış qızın

çılpaq döşləri, uşaqsayağı sifəti, çaşqınlıq içində donub-qalmış baxışları, qanqarışıq palçığı tapdalayan ayaqları – ritmi və ahəngi pozulmuş zamanın tipik obrazları bu idi.

Bu, "Karmanola" rəqsiydi. Rəqs eləyən izdiham ötüb-keçdi, Lüsi odundoğrayanın daxması tərəfdə qorxu və çaşqınlıq içində dayanmışdı; qar sakitcə yağır, hər tərəf ağappaq, yumşaq qar örtüyünə bürünürdü, – yəqin ki, əvvəl heç vaxt belə qar yağmayıb.

– Oy, ata! – Lüsi əlini üzündən çəkərək başını qaldırıb baxanda düz qarşısında dayanmış atasını gördü. – Necə dəhşətli mənzərəydi!

– Bilirəm, əziz bala, bilirəm. Mən o mənzərəni çox görmüşəm. Qorxma! Onlar sənə heç bir şey eləməzlər.

– Mən özümə görə qorxmuram, ata. Mən Çarlzdan nigaranam; bu adamlardan nə desən gözləmək olar...

– Biz tezliklə onu həbsdən azad edəcəyik. Mən bura gələndə gördüm ki, yuxarı, pəncərəyə tərəf qalxır; gəldim ki, sənə deyəm. İndi burada səni güdən, göz qoyan heç kim yoxdur, istəsən, Çarlza öpüş də göndərə bilərsən; dam örtüyünün altındakı çıxıntı tərəfdə dayanıb sənə baxır.

– Göndərərəm, ata! Mən ona öz ürəyimi də göndərərəm!

– Yazıq bala, sən onu görə bilmirsən?

– Yox, ata, – Lüsi atasının əlini öpüb onun göstərdiyi tərəfə həsrətlə, acgözlüklə baxdı, – yox, görmürəm.

Qarın üstüylə yeriyən kiminsə ayaq səsləri eşidildi; gələn madam Defarj idi.

– Hər vaxtınız xeyir, vətəndaş, – doktor ona salam verdi.

– Hər vaxtınız xeyir, vətəndaş, – madam Defarj da doktora salam verib keçdi.

Ətrafa yenə sükut çökdü. Madam Defarj ağ yolda kölgə kimi əriyib yox oldu.

– Əlini mənə ver, Lüsi. Gəl buradan gedək. Çarlzın xatirinə özünü ələ al, möhkəm ol. Bu gün yaxşı oldu; hər halda, bunun da köməyi olacaq. Sabah Çarlzın məhkəməsidir.

– Sabah?!

– Bəli. Vaxt itirmək olmaz. Mən necə lazımdır hazırlaşmışam, bəzi ehtiyat tədbirləri görülməlidir, amma tribunal başlamayınca heç nə eləmək olmaz. Məhkəmə barədə Çarlza hələ ki deyilməyib, amma mən

bilirəm ki, onu sabah çağıracaqlar, özünü də Konserjeri həbsxanasına köçürəcəklər. Vaxtlı-vaxtında mənə məlumat verirlər. Qorxmursan ki?

– Bütün ümidim sənədir, ata, – Lüsi güclə dillənib cavab verdi.

– Sənin nigarançılığına son qoyulacaq, əzizim, əmin ola bilərsən; bir neçə saatdan sonra Çarlz sənin yanında olacaq. Mən əlimdən gələni eləyirəm ki, onu azadlığa çıxarım. İndi isə mən Lorriyə baş çəkməliyəm.

Doktor ayaq saxladı. Yaxından ötüb-keçən arabaların təkərləri taqqıldayırdı, – bunun nə demək olduğunu onlar yaxşı bilirdilər. Bir, iki, üç. Dəhşətli yüklə dolu üç araba qarlı yollardan keçib gedirdi.

– Mən Lorrini görməliyəm, – doktor yenə təkrar elədi və qızıyla birlikdə çevrilib başqa yolla getdi.

Vəzifə borcuna sədaqətli olan əzmkar, qoca centlmen heç nəyə fikir vermədən hələ də çalışıb-vuruşurdu. Şəxsi əmlakın müsadirə edilib milliləşdirilməsiylə əlaqədar olaraq Tellson Bankın ünvanına çoxsaylı tələblər daxil olurdu, mister Lorri mühasibat kitablarının köməyi ilə onları yerinə yetirirdi. Əmanətçilərin nəyini xilas etmək mümkün idisə, hamısı xilas edilmişdi və bunu mister Lorridən yaxşı heç kim bacarmazdı. Tellson Bankda saxlanılan var-dövləti qoruyub saxlamaq, eyni zamanda həm də əmanətçilərin adını gizli saxlaya bilmək olduqca çətin məsələydi, amma mister Lorri bu işin öhdəsindən gəlirdi.

Səma tutqun-qızartdaq rəngə boyanmışdı, Sena çayının üstündən duman qalxırdı, hava qaralırdı. Doktorla Lüsi banka çatanda artıq qaranlıq düşmüşdü. Aristokratın əzəmətli iqamətgahı bomboş, kimsəsiz görünürdü. Həyətdəki küllü zibil tığının üstündə "Xalq mülkiyyəti. Vahid və Bölünməz Respublika. Azadlıq, Bərabərlik, Qardaşlıq, ya da Ölüm" yazılmış lövhə var idi.

Kiminsə səfər plaşı kreslonun üstünə atılıb, – görəsən, mister Lorrinin qonağı kimdir? Özünü göstərmək istəməyən qonaq haradan gəlib, nə xəbərlə gəlib? Mister Lorri üzünü indicə çıxdığı otağın qapısına tərəf çevirib səsini qaldıraraq Lüsidən eşitdiyi sözləri kiminsə eşitməsi üçün təkrar edirdi: Konserjeriyə köçürüləcək, məhkəmə sabaha təyin olunub.

VI fəsil

TRİUMF

Beş hakimdən, ictimaiyyət adından çıxış edən ittihamçı – prokurordan və məhkəmə iclasçılarından ibarət olan dəhşətli tribunal hər gün işləyirdi. Həbsxanalarda baş nəzarətçilər hər gün tribunala çağırılan məhbusların siyahısını oxuyurdular. Baş nəzarətçi zarafatla deyirdi: "Ey, orada kim var? Gəlin axşam qəzetindəki yeniliklərə qulaq asın!"

– Çarlz Evremond, eyni zamanda Darney!

Nəhayət, La Forse həbsxanasında axşam qəzetinin xəbərləri belə başladı.

Adı çəkilən adam xüsusi olaraq ayrılmış yerə keçirdi; ora çox dəhşətli yer idi. Çarlz Evremond – Darney artıq gözəl bilirdi ki, siyahı üzrə adları oxunan yüzlərlə adam o tilsimli yerə keçəndən sonra birdəfəlik yox olur.

Şişkin adam olan baş nəzarətçi siyahını oxumaq üçün gözünə taxdığı eynəyin üstündən baxaraq Darneyin gəlib öz yerini tutduğuna əmin olduqdan sonra kiçik bir fasilə verdi, sonra növbəti məhbusun adını oxudu. Bu qayda ilə hər addan sonra eyni müddət davam edən fasilələrlə bütün siyahını oxuyub başa çıxdı. Siyahı üzrə iyirmi üç məhbusun adı oxunsa da, əslində, tribunala iyirmi məhbus göndəriləcəkdi, çünki məhbuslardan biri həbsxanada ölmüşdü, hətta artıq unudulmuşdu. İki nəfərinsə boynu gilyotinlə vurulmuşdu, onlar da artıq unudulmuşdu. Siyahı Darneyin həbsxanaya gəldiyi birinci gecə gördüyü və o vaxt məhbuslarla dolu olan ümumi zalda oxundu. O gecə onun burada gördüyü məhbusların hamısı kütləvi qırğın vaxtı qətlə yetirildi, eyni zamanda həbsxanada görüb tanış olduğu adamların da hamısı artıq edam olunub.

Vidalaşma mərasimi çox çəkmədi, məhbus yoldaşları bir-iki kəlmə xoş söz dedilər, vəssalam; bununla da hər şey bitdi. Bu hadisə hər gün təkrar olunaraq, artıq adət halını almışdı deyə elə bir maraq doğurmadı, digər tərəfdən La Forsenin rəhbərliyi həmin axşam hansısa mərasimə hazırlaşırdı, hətta balaca bir konsert də olacaqdı. Tribunala çağırılanlar arakəsmənin yanında toplaşıb göz yaşı tökürdülər, oyundan çıxmış iyirmi nəfəri isə kimsə əvəz etməliydi, vaxt yox idi, tezliklə ümumi kameraların qapılarını bağlayıb adamyeyən itləri dəhlizlərə buraxacaqlar ki, gecə səhərəcən məhbuslara keşik çəksin. Məhbuslar, əslində, hissiyyatsız, daşürəkli adamlar deyillər, zaman və şərait onları dəyişdirib başqa adam eləmişdi. Dəyişən tək elə məhbuslar deyildi, kütləvi sərsəmlik ölkədə baş alıb gedirdi, hətta elə adamlar vardı ki, heç bir zərurət olmadan belə hansısa naməlum ehtirasın təsiriylə gilyotinə can atır, son nəticədə məhv olurdular. Vəba və taun kimi qorxulu xəstəliklərin epidemiyası zamanı da oxşar hadisələr olur: bir çox adamlarda o xəstəliklərə mübtəla olub o dərddən ölmək istəyi yaranır. Deməli, belə çıxır ki, bizim hər birimizin içində özünəməxsus qəribəliklər gizlənib, müəyyən şərait yaranan kimi dərhal baş qaldırır, özünü büruzə verir.

Konserjeri həbsxanasına aparan qısa keçid qaranlıq idi; bit, sirkə və digər həşəratların qaynaşdığı kameralar soyuq idi, gecə qurtarmaq bilmir, acı bağırsaq kimi uzanırdı. Səhərisi gün Çarlz Darneydən əvvəl tribunal qarşısına on beş məhbus çağırıldı. On beş nəfərin hamısına edam cəzası verildi; onların hamısının işini tribunal cəmisi saat yarım ərzində araşdırıb hökm çıxartdı.

– Çarlz Evremond, eyni zamanda Darney, – axır ki, onun adı elan olundu.

Stolun arxasında oturmuş hakimlər başlarına lələkli şlyapa qoymuşdular, yerdə qalan hər kəs üçrəngli emblemi olan, kobud materialdan düzəldilmiş qırmızı şapkalardaydı. Hakimlərə, sakitləşmək bilməyən adamlara baxan Darneyə elə gəldi ki, hər şey dəyişib tərsinə çevrilib, indi cinayətkarlar cinayət törətməyən digər adamları ittiham edirlər. Elə bil şəhərdə nə qədər zırrama, qanmaz, qaniçən quldur, başdanxarab adam vardısa, hamısını gətirib məhkəmə zalına doldurmuşdular və əslində, məhkəmə prosesini də onlar idarə edirdilər: nəsə xoşlarına gəlməyəndə qışqırıb səs-küy salır, etiraz edir, öz aralarında müzakirə edir, əl çalır, heç bir dəlil-sübut və əsas olmadan nəyin necə

olacağını özləri müəyyən edir, hakimlərdən də bu cür qərar çıxartmağı tələb edirdilər, son nəticədə isə istədiklərinə nail olurdular. Kişilərin əksəriyyəti müxtəlif silahlarla silahlanmışdı; qadınlara gəlincə, əsasən, bıçaqla, xəncərlə silahlanmışdılar, onlar vaxtlarını boş keçirmir, yemək yeyir, su içir, nəsə toxuyurdular. Toxumaqla məşğul olan qadınların arasında bir nəfər toxuduğu corabı, ya nəyisə qoltuğunun altında saxlayıb dayanmadan işləyir – toxuyurdu. O qadın qabaq cərgədə bir kişiylə yanaşı oturmuşdu. Darney o kişini, yalnız bir dəfə – həbsxanaya gəldiyi gün gördüyü Defarjı dərhal tanıdı. Darney onu da gördü ki, qadın bir, ya da iki dəfə əyilib kişinin qulağına nəsə pıçıldadı, çox güman ki, ər-arvad idilər. Ön cərgədə oturmuş ər-arvad lap yaxında olsa da, bir dəfə də olsun Darneyə tərəf baxmırdılar. İkisi də səbirsizliklə nəsə gözləyirmiş kimi heç kimə, heç nəyə fikir vermədən gözlərini məhkəmə iclasçılarına zilləyib baxırdı. Doktor Manett tribunal sədrinə yaxın yerdə, amma aşağıda oturmuşdu, özü də adi libasdaydı; məhbus ona da fikir verdi ki, zaldakı bu qədər adamın içində yalnız iki nəfər: doktor Manettlə mister Lorri "Karmanola" forması geyməmişdilər.

Xalq ittihamçısı özünü Darney kimi qələmə verən Çarlz Evremondun Respublika qanunlarıyla günahkar olduğunu bildirdi; həmin qanuna görə, bütün emiqrantlar vətənə qayıtmaq hüququnu itirirdi, vətənə qayıdacaqları təqdirdə onları edam gözləyirdi. İttihamın əsaslandığı qanun Evremond vətənə qayıtdıqdan sonra qüvvəyə minsə də, bunun əhəmiyyəti yoxdur. O, emiqrantdır, emiqrantlar haqda qanun var və onu Fransada saxlayıb həbs ediblər, indi boynu vurulmalıdır.

– Boynu vurulsun! – zaldakılar qışqırdılar. – Respublikanın düşmənidir!

Sədr əlindəki zəngi səsləndirib zaldakıları sakitliyə əməl etməyə çağırdıqdan sonra məhbusdan soruşdu ki, doğrudanmı, o, uzun illərdir İngiltərədə yaşayır?

Şübhəsiz ki, bu belədir.

Belə olan təqdirdə bəyəm o, emiqrant deyil? Emiqrant deyilsə, onda özünü nə hesab edir?

Qanunda nəzərdə tutulan emiqrantlardan söz gedirsə, müttəhim özünü emiqrant hesab eləmir.

Sədr bilmək istəyir ki, nəyə görə o özünü emiqrant hesab eləmir.

Ona görə ki o – Darney nifrət etdiyi markiz titulundan və səlahiyyətlərindən könüllü olaraq imtina edib öz vətənindən getmişdir, – nəzərə alınmalıdır ki, o vaxt emiqrant anlayışı tribunalın indiki qanunlara əsaslanaraq müəyyən etdiyi kimi başa düşülmürdü. O, İngiltərədə məskunlaşaraq orada öz zəhmətiylə halal çörəkpulu qazanmışdır, fransız xalqını istismar etməklə qazanılan çörəyi yeməmişdir.

Müttəhim öz dediklərini nə ilə sübut edə bilər?

Müttəhim öz dediklərini sübut etmək üçün iki şahidin adını çəkdi, onlardan biri Teofil Qabell, o biri isə Aleksandr Manettdir.

Axı o, İngiltərədə evlənib – məhkəmə sədri müttəhimin yadına saldı.

Düzdür, amma o, ingilis qadınla evlənməyib.

Belə çıxır ki, Fransa vətəndaşıyla ailə qurub?

Bəli, Fransa vətəndaşıyla ailə qurub.

– Lüsi Manett; burada əyləşib, yaxşı bir həkim kimi tanınan Aleksandr Manettin yeganə övladıdır.

Müttəhimin bu cavabı zaldakılara yaxşı təsir bağışladı. Tanınmış həkimin adını eşidən adamların alqış sədaları eşidildi. Bax belə, bir az əvvəl Darneyi didib-parçalamağa hazır olan qəzəbli kütlə bir göz qırpımındaca fikrini dəyişdi, hətta çoxları riqqətə gəlib rəhmdilliklə, mərhəmətlə müttəhimə baxdı, göz yaşları tökənlər də oldu.

Vəziyyətin necə təhlükəli olduğunu gözəl bilən doktor Manett Çarlz Darneyi xüsusi olaraq bu gün üçün hazırlamışdı və indi o, doktorun təlimatı üzrə hərəkət edir, onun öyrətdiyi cavabları təkrar edirdi; burada hər şey bütün incəliyinə qədər araşdırılmış, ən optimal variant qabaqcadan hesablanmışdı.

Sədr soruşdu ki, bəs nə əcəb müttəhim Fransaya əvvəl yox, məhz indi qayıtmışdır?

Darney cavab verib dedi ki, əvvəllər o, Fransaya ona görə qayıtmayıb ki, könüllü olaraq imtina elədiyi mülkdən başqa yaşamaq üçün ayrı vəsaiti olmayıb, İngiltərədə isə fransız dili və ədəbiyyatı üzrə dərslər keçməklə pul qazanırmış. İndi isə bir Fransa vətəndaşının yazılı xahişinə əsasən öz həyatını təhlükə altında qoyaraq gəlib ki, məhkəmədə şahidlik edib o adamın həyatını xilas etsin. Bəyəm Respublika bunu cinayət hesab edir?

Zaldakılar həyəcanla "Yox!" deyib qışqırdılar. Məhkəmə sədri əlindəki zəngi səsləndirib adamları sakitliyə əməl etməyə çağırdı, amma

bunun köməyi olmadı; zaldakılar özləri yorulub əldən düşənəcən "Yox!" deyib qışqırdılar.

Məhkəmə sədri Darneydən o vətəndaşın familiyasını soruşdu. Müttəhim dedi ki, həmin adamın adını şahid kimi birinci çəkib. Müttəhim onu da əlavə elədi ki, həmin vətəndaşın ona yazdığı məktubu həbs olunduğu ilk gün mühafizə otağında ondan alıblar və yəqin ki, işə əlavə olunan sənədlərin arasındadır.

Doktor çalışmışdı ki, məktub işə əlavə olunsun, Çarlzı da əmin eləmişdi ki, məktub işə əlavə olunacaq – elə də oldu; məktubu axtarıb kağızların arasından tapdılar, oxudular. Sonra vətəndaş Qabelli çağırdılar. Qabell gəlib təsdiq elədi ki, məktubu, doğrudan da, o yazıb. Vətəndaş Qabell eyni zamanda hörmət və ehtiramla işarə vurdu ki, Respublikanın çoxsaylı düşmənlərinin işinə başı qarışan tribunal onun işini, demək olar ki, unutmuşdu, bu müddət ərzində o, Abbatlıq həbsxanasında həbsdə olub, – həqiqətən də, Qabell tribunalın vətənpərvər yaddaşından az qala silinib getmişdi və yalnız üç gün bundan əvvəl yada düşdü, tələsik çağırıb sorğu-sual elədilər, dərhal da azadlığa buraxdılar, çünki həmin iş üzrə cavabdeh olan adam – özünü Darney adlandıran vətəndaş Evremond həbs edilmişdi, tezliklə məhkəmə qarşısında özü cavab verəcəkdi.

Sonra doktor Manett dindirildi. Xalq arasında çox populyar olan doktorun aydın və dəqiq cavabları zaldakı adamlarda güclü təəssürat oyatdı. Doktor sonra qeyd elədi ki, uzun müddət davam edən məhbusluq həyatını başa vurub mühacirətdə yaşadığı dövrdə ilk rastlaşıb dost olduğu adam indi müttəhim kürsüsündə əyləşmiş Çarlz Evremond olub, İngiltərədə məskunlaşmış bu adam həm də onun qızının həyat yoldaşıdır, digər tərəfdən İngiltərənin aristokrat hakim dairələriylə Çarlz Evremond arasındakı münasibətlər də gərgin olub, məhz bu səbəbə görə və Amerika Birləşmiş Ştatlarının dostu olduğuna görə həbs edilərək ölüm cəzasına məhkum edilsə də, ölümdən yaxa qurtara bilib. Doktor Manett öz fikrini elə ciddiyyətlə, elə səmimiyyətlə, elə incə bir ustalıqla və ehtiyatla ifadə edirdi ki, hakimlər də, zaldakı adamlar da onu çox böyük maraqla dinləyirdilər. Sonra o, zalda oturmuş ingilis centlmeni mister Lorrinin adını çəkib dedi ki, o adam həmin məhkəmə prosesində iştirak edib, deyilənləri öz şahid ifadəsiylə təsdiq edə bilər. Məhkəmə iclasçıları dedilər ki, işlə bağlı dinləmələr və çıxışlar hansısa bir nəticə

çıxarmaq üçün yetərlidir, əgər sədr etiraz eləməsə, öz yekdil fikirlərini indi də elan edə bilərlər.

Səsvermə açıq idi, individual idi; hər məhkəmə iclasçısı öz fikrini hamının gözü qarşısında elan edirdi və bu da hər dəfə zaldakıların gurultulu alqışlarına səbəb olurdu. Məhkəmə iclasçılarının hamısı Darneyin xeyrinə danışdı, sonra məhkəmə sədri məhbusun azadlığa çıxdığını elan etdi.

Dərhal da qeyri-adi bir mənzərə yarandı, bu elə bir mənzərədir ki, kütlə ya öz xarakterinin necə tez-tez dəyişdiyini nümayiş etdirir, yaxud nə qədər alicənab və mərhəmətli olduğunu göstərir, ya da hansısa amansız qəzəbin təsiriylə hərəkət etdiyini gizlətmir. Bu qeyri-adi mənzərənin yaranmasında o üç motivdən hansının əsas rol oynadığını heç kim deyə bilməz, amma, çox güman ki, hər üçünün də təsiri olmuşdu, ikinci amil isə o biriləri üstələmişdi. Məhbusun azadlığa buraxılmasıyla bağlı məhkəmə qərarı oxunan kimi başqa vaxt qan tökməyə yetik olan kütlə sevinc içində göz yaşları tökərək irəli atıldı; hər iki cinsdən olan adamlar qollarını açıb onu qucaqlamaq, bağrına basıb təbrik etmək üçün axışıb gəlirdilər. Uzun müddət davam edən məhbusluq həyatından zəif düşmüş, indi də həyəcandan ayaq üstə güclə dayanan Darney ona tərəf gələn insan axınını görüb bir anlığa fikirləşdi ki, elə həmin bu adamlar uf da demədən dartıb onu küçəyə çıxarar, didib-parçalaya da bilərdi, – bunu təsəvvür edəndə az qalmışdı Darneyin ürəyi getsin.

Tribunal qarşısında cavab verməli olan digər məhbusların zala gətirilməsi onu bir növ xilas elədi. Respublikanın düşməni kimi ittiham edilən beş nəfərin hamısı eyni vaxtda dindiriləcəkdi. Bu adamların cinayəti də ondan ibarət idi ki, nə öz işləriylə, nə də heç olmasa sözlə Respublikaya kömək etməmişdilər. Özünün və xalqın adını qaldırmaq məqsədilə tribunal Respublikanın düşməni olan beş nəfərin hamısına dərhal ölüm hökmü oxudu. Darney məhkəmə zalından çıxmağa macal tapmamış onları aşağı endirdilər – iyirmi dörd saat ərzində edam olunacaqdılar. Məhbuslardan biri fürsət tapıb Darneyə işarə verdi ki, ölüm cəzasına məhkum olundular: barmağını yuxarı qaldırdı, bu isə ölüm işarəsiydi. Respublika düşmənləri xorla "Yaşasın Respublika!" deyərək qışqırdılar.

Əslində, beş nəfərin məhkəməsi ona görə qısa oldu ki, zalda adam qalmamışdı; doktor Manettlə birlikdə zaldan çıxan Darney gördü ki,

içəridə kim vardısa, hamısı qapının ağzında toplaşıb, amma nə qədər diqqətlə baxsa da, qabaq cərgədə oturmuş iki nəfəri görə bilmədi. Adamlar Darneyə tərəf axışdılar: kimi ağlayır, kimi qışqırır, kimi onu qucaqlayıb bağrına basır, kimi əlini sıxır, kimi boynundan asılıb nəsə deyir, ağlayırdı; bütün bu hərəkətləri tək-tək və dəstə halında eləyənlər də var idi, – aləm qarışmışdı, sanki çay daşıb sahilləri basmışdı, dalğalar hər şeyi süpürüb aparırdı.

Adamlar Darneyi gətirib məhkəmə zalından, ya da binadakı hansısa otaqdan çıxartdıqları kresloya oturtdular, kreslonu al bayraqla örtdülər, arxa tərəfinə isə nizə bərkitdilər, nizənin də ucuna qırmızı şapka taxdılar. Doktorun etirazlarına məhəl qoymadan kişilər bu bəzəkli kəcavəni çiyinləri üstünə qaldırıb Darneyin yaşadığı evə tərəf getdilər. Hər tərəfi bürüyüb dəniz kimi dalğalanan qırmızı şapkalı sifətlərin arasında hərdən elə dəhşətli adamlar peyda olurdu, həyəcandan özünü itirmiş Darney azadlığa çıxdığına inanmırdı, ona elə gəlirdi ki, kresloda yox, arabada gedir və onu aparırlar ki, gilyotinlə boynunu vursunlar.

Darney sanki yuxu görürdü: coşqun, dəlisov kütlə onu bəzəkli kəcavəyə qoyub harasa aparırdı, küçədə kimi görsələr, onu saxlayır, qucaqlayıb öpür, əllərini uzadıb Darneyi göstərirdilər. Respublikanın əsas simvollarından olan qırmızı rəngə boyanmış küçələrdən keçirdi izdiham, yağan ağappaq qar da küçələri ağarda bilmirdi, çünki Darneyi aparan adamların tökdüyü qanların üstünü örtüb ağartmaq hələ ki mümkün olmurdu. Nəhayət, gəlib Darneyin arvadı yaşayan binanın həyətinə çatdılar. Doktor izdihamı qabaqlayıb birinci gəlmişdi ki, xəbəri Lüsiyə çatdırsın. Darney kəcavədən yerə enib ayaq üstə dayanan kimi Lüsi onun boynuna sarılıb huşunu itirdi.

Darney arvadını qucaqlayıb sinəsinə sıxdı, Lüsinin qəşəng başını öz üzüylə izdihamın arasında elə çevirdi, onların hər ikisinin göz yaşları bir-birinə qarışdı; bunu görən adamlar rəqs eləməyə başladılar. Tezliklə bütün izdiham rəqsə qoşuldu, "Karmanola" oynayanların səs-küyü həyəti başına götürdü. Sonra izdiham iştirakçıları arasından bir gənc qadını gətirib boş qalmış kresloda oturtdular. Azadlıq ilahəsi kimi onu başları üstünə qaldırıb "Karmanola" oynaya-oynaya küçələrə dağıldılar, çayın sahilinə, körpünün üstünə tərəf getdilər; qarşılarına çıxan, yoldan ötən hər kəs onlara qoşulurdu, izdiham get-gedə böyüyürdü.

Darney qalib bir ədayla qarşısında dayanıb iftixarla ona baxan doktorun əlini sıxdı, "Karmanola" oynayan izdihamın arasından güc-bəlayla keçib gəldiyi üçün təngnəfəs olmuş mister Lorrinin əlini sıxdı, balaca əllərini uzadıb boynunu qucaqlamış qızını öpdü, uşağı yuxarı qaldıran sədaqətli xidmətçi miss Prossu qucaqladı, sonra da arvadını qucağına götürüb yuxarı qalxdı.

– Lüsi! Əzizim, mən xilas oldum!

– Çarlz, əzizim, qoy diz üstə çöküb Allaha dua edim.

Onlar hamısı minnətdarlıqla baş əydilər. Lüsi dua edəndən sonra Çarlz yenə onu qucağına götürdü və dedi:

– Əzizim, indi də atana təşəkkür elə. Mənim xilasım üçün onun elədiklərini Fransada heç kim eləyə bilməzdi.

Lüsi atasına yaxınlaşıb başını onun sinəsinə sıxdı, – bir vaxt, lap çoxdan o, atasının bəlalar çəkmiş başını da öz sinəsinə beləcə sıxmışdı. Çarlzı Lüsiyə qaytara bildiyi üçün doktor xoşbəxt idi, öz gücünü hiss eləyib bundan qürur duyurdu, digər tərəfdən həm çəkdiyi əzabların əvəzini çıxıb yüngülləşirdi, həm də Lüsinin, onun yolunda çəkdiyi əziyyətlərin əvəzində o da nəsə eləyə bilmişdi.

– Sən özünü üzmə, əzizim, – doktor dedi, – bu cür titrəmək də lazım deyil. Mən onu artıq xilas eləmişəm.

VII fəsil

QAPININ DÖYÜLMƏSİ

"Mən onu artıq xilas eləmişəm". Lüsinin yuxularında o, tez-tez qayıdıb gəlirdi, amma bu, başqa yuxuydu: o, həqiqətən, xilas olmuşdu, qayıdıb gəlmişdi, arvadı isə hələ də titrəyir, tutqun və dəhşətli bir qorxu hələ də onu tərk etmirdi.

Ətrafdakı hər şeyin üstünə qatı, qaranlıq bir kölgə çökmüşdü; adamların əsəbi tarıma çəkilib, hamının içində intiqam alovu yanır, namuslu adamlar heç nəyin üstündə kimlərinsə qəzəbinə düçar olur, qətlə yetirilir; onun əri kimi neçə-neçə günahsız və yaxşı adamın qətlə yetirildiyini unutmaq mümkün deyil, ölümdən çox böyük çətinliklər bahasına xilas olmuş Çarlz ona əziz olduğu kimi, o adamların da yaxınları var, yolgözləyənləri var, – bütün bunları unuda bilməyən, heç cür yadından çıxara bilməyən Lüsinin ürəyi sakitləşmirdi. Qış günü sona yetir, axşamın ala-toranında da küçədən dəhşətli arabaların taqqıltısı kəsilmirdi. Lüsi bir anlıq təsəvvür elədi ki, edama aparılan o bədbəxtlərin arasında Çarlz da ola bilərdi; dərhal onu titrətmə tutdu, burada – böyründə olan ərinə qısıldı, titrəməsi bir az da artdı.

Atası Lüsiyə ürək-dirək verir, qızında müşahidə etdiyi qadın zəifliyinə həssaslıqla yanaşırdı. Artıq çardaq yoxdur, pinəçilik yoxdur, şimal qülləsi yoxdur, yüz beşinci təkadamlıq kamera yoxdur! O, qarşısına qoyduğu məqsədə çatdı, sözünün üstündə durdu – Çarlzın həyatını xilas elədi. İndi onlar arxayın ola bilərlər.

Bu ailə çox qənaətlə dolanırdı və həm də ona görə yox ki bu cür həyat tərzi təhlükəsiz idi, ac-yalavac xalqda qibtə hissi oyatmırdı; bu ona görə beləydi ki, onlar varlı deyildilər, digər tərəfdən də həbsdə

olduğu dövrdə Çarlz öz yeməyini çox baha qiymətə almalı olurdu, mühafizə xərclərini ödəyirdi, həm də həbsxanadakı kasıb məhbuslara kömək edirdi. Bir tərəfdən artıq xərclərə yol verməmək, digər tərəfdən də ev casuslarından yaxa qurtarmaq üçün onlar qulluqçu saxlamırdılar, həyət-bacaya göz qoyan qonşu ər-arvad hərdən nəsə bir işdə kömək edirdi; mister Lorri Cerrini, demək olar ki, tamamilə onların ixtiyarına vermişdi, o da gecə-gündüz doktorgildən çıxmırdı.

Öz vətəndaşlarına Azadlıq, Bərabərlik, Qardaşlıq, ya da Ölüm gətirən Vahid və Bölünməz Respublikanın yeni qanunları üzrə, hər binada yaşayan bütün sakinlərin siyahısı aydın xətlə, iri hərflərlə yazılıb, oxunmaq üçün münasib hündürlükdə yerləşmək şərtilə giriş qapılarından asılmalıydı. O səbəbdən mister Cerri Krançerin adı və familiyası girəcək qapısının çölündən asılmış siyahıda lap axırdaydı. Günün axırında Krançer özü də doktor Manettin çağırışıyla gəlmiş rəngsazdan işi qəbul edib sonra da onu yola salmaq üçün həyətə çıxdı; sakinlərin siyahısına rəngsaz yeni bir ad əlavə eləmişdi: Çarlz Evremond – Darney.

Hər addımda hiss olunan qorxu və inamsızlıq insanların həyatını dözülməz etmişdi; sanki həyatın adi axarı başqa səmtə yönəlmişdi, hər şey dəyişmişdi. Doktorun elə də böyük olmayan ailəsinin gündəlik tələbatını ödəmək üçün lazım olan qida məhsulları az miqdarda olmaqla müxtəlif dükanlardan axşam vaxtı alınırdı; o vaxt çox adam məhz bu üsuldan istifadə edirdi ki, başqalarının diqqətini cəlb etməsin, artıq söz-söhbətə, qibtəyə şərait yaratmasın.

Bir neçə ay idi ki, təchizat məsələləriylə miss Prossla mister Krançer birlikdə məşğul olurdular; onlardan birincisi lazım olan şeyi alıb haqqını ödəyirdi, ikincisi isə zənbilləri daşıyırdı. Hər gün axşam düşüb küçədə fənərlər yanandan sonra onlar öz vəzifələrini yerinə yetirmək üçün evdən çıxıb dükanlara yollanır, nə lazımdırsa, hamısını alıb geri qayıdırdılar. Miss Pross uzun müddət fransız ailəsində yaşamışdı və istəsəydi (əlbəttə, əgər istəsəydi), bu dili öz ana dili kimi öyrənərdi, amma onun belə bir istəyi olmamışdı və təbii ki, öz aləmində "nonsense" – cəfəngiyyat hesab elədiyi fransız dilini mister Krançerdən yaxşı bilmirdi. Onun özünəməxsus alış-veriş üsulu var idi: dükana daxil olan kimi heç bir girişsiz, izahatsız-filansız nəsə bir şeyin adını çəkirdi və bunu elə deyirdi ki, dükan sahibinin diqqətini cəlb edirdi, əgər dediyi söz istədiyi şeyin adını ifadə etmirdisə, ora-bura boylanıb o şeyi axtarır,

tapan kimi də ikiəlli yapışıb götürürdü, sövdələşib qiyməti salmayınca malı əlindən yerə qoymurdu. Sövdələşməmiş heç nə almırdı, satıcı öz barmağının köməyi ilə hansı qiyməti göstərsə də, fərqi yox idi, miss Pross başını silkələyib razılaşmır, öz barmaqlarıyla daha aşağı qiymət təklif edir, qiyməti salmağa çalışırdı.

– Yaxşı, mister Krançer, – bu xoşbəxt gündə ağlamaqdan gözü qızarmış miss Pross dedi, – mənlik bir iş qalmayıb, əgər hazırsınızsa, gedək.

Cerri dillənib xırıltılı səslə dedi ki, hər şey qaydasındadır, geri qayıtmaq olar. Cerrinin bədənindəki pas artıq xeyli vaxtdı ki, yox olmuşdu, amma saçlarının pırpızlığı əvvəlki kimiydi – heç sığala yatmırdı.

– Bu gün biz çox şey olmalıyıq, – miss Pross dedi, – vaxtımız da azdır. Üstəlik hələ çaxır da almalıyıq. Qırmızıpapaqlar indi çaxır dükanlarında oturub gözəl-gözəl tostlar deyirlər.

– Nəyinizə lazımdır, miss? – Cerri dedi. – Sizin sağlığınıza, ya da başqa birisinin sağlığına deyirlər, özləri bilərlər.

– Başqa birisi kimdir? – miss Pross dedi.

– Qoca Nikin, – mister Krançer o qədər də anlaşılmayan bir tərzdə izah elədi.

– Pah! – miss Pross dedi. – Burada başa düşülməsi çətin olan heç bir şey yoxdur. Onlar ancaq bir şeyi yaxşı bacarırlar: gecəyarısı qətliam törətmək, bir də ziyankarlıqla məşğul olmaq.

– Sakit olun, əzizim! Allah xatirinə, xahiş edirəm, ehtiyatlı olun! – Lüsi həyəcanla dedi.

– Bəli, bəli, düzdür, ehtiyatlı olmaq lazımdır, – miss Pross dedi. – Amma öz aramızda qalsın, tənbəki, bir də soğan iyi verən başdanxarablar var ha, özləri də küçədə qucaqlaşıb rəqs eləyirlər, hər dəfə evdən çıxanda fikirləşirəm ki, kaş onlara rast gəlməyəydim. İndi də, mənim göyərçinim, mən qayıdıb gəlincə buradan heç yerə tərpənmə! Kişin də gəlib çıxıb, başını qoy onun sinəsinə, gözündən uzağa buraxma. Getməmişdən əvvəl bir söz soruşmaq olarmı, doktor?

– Siz azad adamsınız, belə bir hüququnuz, əlbəttə, var, – doktor gülümsəyib dedi.

– Allah xatirinə, xahiş edirəm, azadlıq barədə danışmayın: biz o barədə kifayət qədər eşitmişik, – miss Pross dedi.

– Sakit, əzizim! Siz yenə o cür danışırsınız? – Lüsi etiraz elədi.

– Yaxşı, yaxşı, mənim şəkərim, – miss Pross təsdiq işarəsi olaraq başını tərpədib dedi, – sözün qısası, onu demək istəyirəm ki, mən əlahəzrət möhtərəm kral III Georqun təbəəsiyəm, – miss Pross bunu deyib ehtiram əlaməti olaraq diz çöküb baş əydi, – araqarışdıranları, fırıldaq işlədib aləmi bir-birinə qatanları, hər şeyi dağıdıb alt-üst edənləri bəyənmirəm, heç görmək də istəmirəm; bütün ümidlərimi krala bağlamışam, Allah onun canını sağ eləsin, pis adamlardan qorusun!

Mister Krançer nümunəvi vətənpərvər kimi öz xırıltılı səsiylə dodağının altında mızıldayıb miss Prossun son sözlərini elə təkrar elədi, elə bil kilsədə oturub keşişin oxuduğu duanın sözlərini təkrar edirdi.

– Mən çox şadam ki, siz əsl ingilissiniz, – miss Pross rəğbət dolu nəzərlərlə mister Krançerə baxıb dedi, – amma, heyif ki, soyuqlamısınız, səsiniz də bir balaca xırıldayır. Doktor Manett, sözümün üstünə qayıdıb onu demək istəyirəm ki, – miss Pross, adəti üzrə, nəsə çox vacib bir məsələdən söz açmaq istəyəndə elə danışırdı, guya bunun elə bir əhəmiyyəti yoxdur və o mətləbə də elə-belə, təsadüfən toxunub, – necə bilirsiniz, bizim buradan çıxıb getmək imkanımız varmı?

– Məncə, hələlik yoxdur. Bu məqamda getmək barədə düşünmək, o məsələni qabartmaq Çarlz üçün təhlükəli olardı.

– Eh, heyif! – Miss Pross təəssüfünü gizlədərək nikbin görünməyə çalışdı, sobanın alovunda parıldayan qızılı saçlara baxdı. – Elə isə səbirlə gözləməliyik, vəssalam. Qardaşım Solomon demişkən, başını dik tut, ehtiyatı əldən vermə. Yaxşı, mister Krançer, gedək! Mənim göyərçinim, biz qayıdıb gəlincə heç yana getməyin!

Onlar getdilər; Lüsi, Çarlz, doktor Manett və balaca Lüsi gur yanan sobanın yanında qaldılar. Mister Lorri bankdan çıxıb doktorgilə gəlməliydi. Miss Pross lampanı yandırsa da, onu küncdə qoymuşdu ki, evdəkilər sobadan düşən işıqda oturmaqdan zövq ala bilsinlər. Balaca Lüsi babasının boynunu qucaqlayıb oturmuşdu, doktor isə yavaş səslə pıçıldayıb nəvəsinə hansısa qüdrətli tilsimkarın bir vaxtlar ona yaxşılıq etmiş məhbusu həbsdən necə azad etməsi barədə nağıl danışırdı. Hər tərəfdə bir sakitlik hökm sürməkdəydi, Lüsi də şakitləşmişdi. Amma qəflətən o: "Bu nədir?" – deyib qışqırdı.

– Əzizim, özünü ələ al, – doktor nəvəsinə danışdığı nağılı yarımçıq kəsib qızının əlindən tutdu, – sən çox həyəcanlısan. Hər xırda şeydən əsəbiləşirsən. Bu sənsən, Lüsi, öz atanın qızısan!

– Mənə elə gəldi ki, ata, – rəngi qaçıb ağappaq ağarmış Lüsi titrəyən səslə danışıb üzrxahlıq elədi, – mənə elə gəldi ki, pilləkənlə kimsə qalxır, addım səsi gəldi qulağıma.

– Əzizim, pilləkənlə heç kim qalxmır, orada sakitlikdir, sən narahat olma.

Doktor sözünü deyib qurtaran kimi qapı döyüldü.

– Ah, ata, ata! Bu kim ola bilər? Çarlzı gizləyin. Onu xilas edin!

– Mənim balam, – doktor ayağa qalxıb əlini çiyninə qoydu, – mən artıq onu xilas etmişəm. Sən çox zəifləmisən, əzizim! Dayan görüm qapını döyən kimdir.

Doktor lampanı əlinə götürdü, iki iç-içə otaqdan keçib sonuncunun qapısını açdı. Başlarında kobud qırmızı şapka olan, tapança və qılınclarla silahlanmış dörd patriot içəri girib ayaqlarıyla döşəməni tappıldatdı.

– Darney adlı vətəndaş Evremond, – birinci patriot dedi.

– Onu kim axtarır? – Darney soruşdu.

– Mən axtarıram. Biz axtarırıq onu. Mən sizi tanıyıram, Evremond, tribunaldan əvvəl görmüşəm. Respublikanın qanunlarıyla siz yenidən həbs olunursunuz.

Darney dörd patriotun əhatəsindəydi, arvadıyla qızı hərəsi bir tərəfdən ona qısılmışdı.

– Deyin görüm, necə olub ki, məni təzədən həbs edirlər?

– Biz nə lazımdısa, hamısını sizə dedik. Buradan birbaşa Konserjeri həbsxanasına aparılacaqsınız, sizi maraqlandıran başqa sualların cavabını orada öyrənə bilərsiniz. Sabah məhkəmə qarşısında cavab verməli olacaqsınız.

Bu gözlənilməz qonaqların gəlişi doktoru dondurub daşa döndərmişdi, özü də elə dayanmışdı, sanki lampanı saxlamaq üçün daşdan yonulmuş heykəl idi. Amma bu sözdən sonra daş heykəl hərəkətə gəldi, lampanı stolun üstünə qoyub Darneylə danışan patriotun üstünə yeridi, onun açıq-qırmızı rəngli düymələri olan yun köynəyinin yaxasından tutub dedi:

– Siz dediniz ki, onu tanıyırsınız. Bəs məni necə, məni də tanıyırsınızmı?

– Tanıyıram, vətəndaş doktor, sizi də tanıyıram.

– Biz hamımız sizi tanıyırıq, vətəndaş doktor, – o biri patriotlar xorla dedilər.

Doktor dalğın halda onları bir-bir nəzərdən keçirib bir qədər fasilədən sonra yavaş səslə dedi:

– Siz onun sualının cavabını mənə deyə bilərsinizmi? Nə olub, bu nə deməkdir?

– Vətəndaş doktor, – birinci patriot candərdi dedi, – Sent Antuan bölməsinə şikayət daxil olub. Bax bu vətəndaş, – böyründə dayanmış kişini göstərdi, – Sent Antuandandır.

Həmin kişi təsdiq əlaməti olaraq başını tərpədib əlavə elədi:

– Onu Sent Antuan ittiham edir.

– Nədə? – doktor soruşdu.

– Vətəndaş doktor, – birinci patriot laqeydcəsinə dedi, – bundan artıq heç nə soruşmayın. Əgər Respublika qurban tələb edirsə, siz nümunəvi bir vətəndaş kimi məmnuniyyətlə o qurbanı verməlisiniz. Respublika hər şeydən yüksəkdə dayanır. Xalqın iradəsi yerinə yetməlidir. Evremond, vaxt yoxdur, biz tələsirik.

– Bir dəqiqə, – doktor dedi. – Ondan kim şikayət edib?

– Bu suala cavab vermək qanunla düz gəlmir, – birinci patriot dedi, – amma elə vacibdirsə, Sent Antuandan olan vətəndaşdan soruşun.

Doktorun nəzərləri Sent Antuandan gəlmiş kişiyə çevrildi. Kişi narahat halda ayağının birinci götürüb o birini qoydu, saqqalını qaşıdı və nəhayət, dedi:

– Yaxşı! Bu barədə danışmaq qanuna ziddir, – ciddi bir görkəm aldı, – amma bir halda ki soruşursunuz, onda deyərəm. Ondan şikayət edənlər vətəndaş Defarj, bir də onun arvadıdır. Bir nəfər başqası da var.

– O kimdir?

– Siz o adamın adını soruşursunuz, vətəndaş doktor?

– Bəli.

– Sizin sualınıza sabah cavab veriləcək, – Sent Antuan vətəndaşı belə deyib doktora nəsə çox qəribə baxdı. – Mən bundan artıq heç nə bilmirəm.

VIII fəsil

KART OYUNU

Evdəkilərin başına gəlmiş fəlakətdən xəbərsiz olan miss Prossun kefi yaxşıydı, haradan nəyi, nə qədər alacağı barədə fikirləşirdi; dar küçələrdən, Nyu Pont körpüsündən keçdi. Mister Krançer zənbili əlində tutub onunla yanaşı gedirdi. Onlar yolun sağına və soluna baxır, şübhəli adamlar görən kimi yollarını dəyişib başqa istiqamətdə gedirdilər ki, səsküy salıb özünü apara bilməyən adamlara rast gəlməsinlər. Axşamtərəfi hava rütubətli idi, çayın üstünə çökmüş dumanda zəif işığı görünən gəmilərdən gələn taqqıltı-guppultu isə Respublika ordusu üçün silah düzəldən dənizçilərin harada işlədiyini göstərirdi. Bu ordunun qarşısına çıxanın, yaxud onunla zarafat eləmək istəyənin vay halına! Milli Ülgüc onun başını dibindən elə qırxar ki, bir də heç vaxt nəinki saçında, heç saqqalında da tük bitməz.

Ərzaq dükanlarından bəzi şeylər, həm də lampa üçün neft alandan sonra miss Prossun yadına düşdü ki, çaxır da almaq lazımdır. Bir neçə şərab dükanının pəncərəsindən boylanıb içəri baxandan sonra, axır ki, əvvəllər adı Tyulri olmuş (sonradan ikinci dəfə o adı özünə qaytarıb) Xalq sarayının yaxınlığında, qapısının üstünə "Antik dövrün şanlı respublikaçısı Brut" yazılmış bir şərab dükanı miss Prossun diqqətini cəlb elədi. O biri dükanlara nisbətən bura sakit yer idi; düzdür, orada da bir dəstə qırmızıpapaq patriot oturmuşdu, amma onlar çox deyildi. Miss Pross mister Krançerlə məsləhətləşdi, görəndə ki, dükan onun da xoşuna gəlir, vaxt itirmədən öz kavaleriylə birlikdə "Antik dövrün şanlı respublikaçısı Brut" dükanına daxil oldu.

Siqaret tüstüsüylə dolmuş dükanın tutqun işığında kişilər qəlyan çəkə-çəkə oturub sürtülmüş kartlarla kart oynayır, ya da köhnəlib sa-

ralmış domino daşlarını stolun üstünə çırpırdılar; köynəyinin qolunu çırmayıb yaxasını açmış, üst-başı hisə-pasa bulaşmış bir kişi qəzet oxuyur, bir neçə kişi də onun ətrafına toplaşıb qulaq asırdı; kişilərin çoxu silahlıydı, bəziləri silahını açıb böyrünə qoymuşdu, iki-üç nəfər başını stola söykəyib yatmışdı. Dövrün dəbdə olan tüklü gödəkcələrini geymiş bu adamlara arxadan baxanda onlar ayıya, ya da qıllı itə oxşayırdılar; elə həmin vaxt dükana xarici ölkə vətəndaşı olan iki nəfər daxil olub əl işarəsiylə nə istədiklərini bildirdilər.

Xaricilərə şərab süzülüb hazırlandığı vaxt küncdə oturmuş bir dəstə kişinin arasından bir nəfər ayağa durub dükanın çıxışına tərəf yönəldi, bu zaman onun üzü miss Prossa tərəf idi deyə qadın bir anlıq çevriləndə onu gördü. Kişi onun üzünü görməyə macal tapmamış miss Pross qışqırıb əlini əlinə vurdu.

Dərhal da dükandakıların hamısı ayağa qalxdı. Belə yerdə sözləri çəp gələn adamların mübahisəsi çox vaxt kiminsə qətlə yetirilməsiylə nəticələnirdi, ona görə də hamı diqqətlə baxırdı ki, görsün kim kimi vurub yerə yıxacaq. Amma adamlar başqa mənzərə gördülər: bir qadınla bir kişi üzbəüz dayanıb təəccüblə bir-birinə baxırdı; kişi bütün görkəmiylə fransızdı, respublikaçıydı, qadın isə, çox güman ki, ingilis idi.

Nə miss Pross, nə də onun mühafizəçisi "Antik dövrün şanlı respublikaçısı Brut" dükanındakı kişilərin öz aralarında nə barədə danışdıqlarını eşitmirdilər; fərqi yoxdur, əgər qulaqlarını şəkləyib qulaq assalar da, qədim haldey, ya şumer dili qədər onlar üçün anlaşılmaz olan bir dildə nə danışıldığını onsuz da başa düşməyəcəkdilər, yalnız onu deyə bilərdilər ki, bu adamlar çox danışır, səsləri də bərkdən çıxır. Hər iki xarici ölkə vətəndaşı elə təəccüblənmişdi ki, heç nə eşitmirdilər. Miss Pross, əlbəttə, əməlli-başlı özünü itirmişdi, qeyd eləmək lazımdır ki, mister Krançer də yalnız şəxsən özünə bəlli olan subyektiv səbəblər üzündən bərk həyəcanlıydı.

– Nə olub? – miss Prossu qışqırmağa vadar eləyən kişi əsəbi halda yavaşdan, özü də ingiliscə dedi.

– Ah, Solomon, əzizim Solomon! – miss Pross əlini əlinə vurub qışqırdı. – Neçə illərdir səni görmürəm, bilmirəm haradasan, neyləyirsən, nə xəbər var, nə ətər. Səni harada-harada, burada görə biləcəyim ağlıma da gəlməzdi!

– Mənə Solomon demə, sən məni öldürmək istəyirsən? – kişi qorxub yavaş danışaraq dedi.

– Qardaş, qardaş! – miss Pross göz yaşları içində dedi. – Hansı günahın sahibiyəm, sənə nə pislik eləmişəm ki, mənimlə belə danışırsan?

– Yaxşı olar ki, sən o başabəla dilini gödək eləyəsən, – Solomon dedi, – əgər mənə sözün varsa, çıxaq küçədə danışaq. Çaxırın pulunu ver, dükandan çıx. Bu kişi kimdir?

Miss Pross göz yaşlarını saxlaya bilmirdi, sevgi və məhəbbət dolu baxışlarla qardaşına baxıb: "Mister Krançer", – dedi, amma hiss olunurdu ki, qardaşı onunla heç də nəzakətlə davranmır.

– De ki, o da çıxsın, – Solomon dedi. – Deyəsən, o elə bilir ki, mən xortdanam.

Həqiqətən də, mister Krançerin baxışları belə deməyə əsas verirdi. Miss Pross göz yaşları içində birtəhər ridiküldən pul çıxartdı, sayıb çaxırın pulunu verdi. Mister Krançer isə gözlərini bərəldib hələ də Solomona baxırdı, amma bir kəlmə də danışmırdı. Solomon çevrilib "Antik dövrün şanlı respublikaçısı Brut" dükanındakı tanışlarına fransız dilində nə dedisə, onlar sakitləşib hər kəs öz stolunun arxasında əyləşdi.

– Hə, – Solomon küçənin qaranlıq küncündə ayaq saxlayıb dedi, – de görüm, nə istəyirsən?

– Mənim kimi bacı öz qardaşından necə münasibət görür! – miss Pross qışqırdı. – Bir xoş söz nədir, onu da eşitmir!

– Yaxşı da, sən deyən olsun, – Solomon belə deyib miss Prossu öpdü. – Sakitləşdin? Razı qaldın?

Miss Pross dinməzcə dayanıb göz yaşları içində başını silkələdi.

– Elə bilirsən səni görüb təəccübləndim? – Solomon dedi. – Yox, təəccüblənmədim, çünki sənin burada olduğunu bilirdim; tək sənin yox, çox adamın burada olduğunu bilirəm. Əgər mənim həyatımı təhlükə altında qoymaq istəmirsənsə, – mən bu məsələdə sənə o qədər də etibar eləmirəm, – tez ol buradan get, imkan ver mən də öz yolumla gedim. Mənim belə söhbətlərə vaxtım yoxdur; vəzifə adamıyam, işim var.

– Mənim qardaşım, ingilis Solomon, – qəm-qüssə içində göz yaşı tökən miss Pross dedi, – sən istəsəydin, öz vətənində böyük adam ola bilərdin, amma gəlib yad yerdə özgə adamlara, özü də necə adamlara xidmət edirsən! Bunu görməkdənsə, əziz qardaşının vaxtsız ölümünü...

– Mən dedim axı! – miss Prossun qardaşı qışqırıb onun sözünü kəsdi. – Bilirdim sən belə eləyəcəksən! Sən mənim ölməyimi istəyirsən. Sən, mənim doğma bacım, istəyirsən ki, məndən şübhələnsinlər. İndi-indi qabağa gedirəm, onu da sən qoymazsan.

– Aman Allah, rəhm elə, günahımdan keç! – miss Pross qışqırdı. – Əzizim Solomon, mən səni bir də heç vaxt görməsəm də, həmişə olduğu kimi, həqiqi bir bacı məhəbbətiylə sevəcəyəm. Amma bir kəlmə söz de; de ki, məndən inciməmisən, üz döndərməmisən. O sözdən sonra mən səni bir saniyə də ləngidib yolundan saxlamayacağam.

Bədbəxt miss Pross! Bu qadın elə bilirdi ki, qardaş-bacı arasındakı münasibətlərin bu həddə çatmasında günahkar özüdür – qardaşını incidib. Amma mister Lorri bir neçə il əvvəl Sohodakı o sakit küçədə keçən sakit günlərdə dəqiq öyrənmişdi ki, bu əziz-xələf qardaş öz bacısının pullarını aldadıb alıb, son qəpiyinəcən göyə sovurandan sonra da aradan çıxıb!

Axır ki, qardaş insafa gəlib candərdi də olsa, bacısına bir neçə xoş söz deməli oldu, amma bunu sanki himayədarlıq edirmiş kimi elə bir minnətlə elədi (dünyanın işi əvvəldən də belə olub), guya bacı ona borcluydu, ömrü boyu da minnətdar olmalıydı. Elə həmin anda mister Krançer gözlənilmədən onun çiyninə toxunub dedi:

– Üzr istəyirəm! Bir söz soruşmaq olarmı? Sizin adınız Con Solomondur, yoxsa Solomon Con?

Özünü rəsmi adam kimi təqdim edən qardaş qəfil narahatçılıq içində mister Krançerə tərəf çevrildi; miss Prossu müşayiət edən bu adam bayaqdan bəri ağzını açıb bir kəlmə də danışmamışdı.

– Cavab verin! – mister Krançer dedi. – Deyirəm ki, sizin adınız nədir (mister Krançer özü də bunu bilmirdi), Con Solomondur, yoxsa Solomon Con? Bacınız, hər halda, yaxşı bilir, o sizi Solomon deyə çağırır. Amma mən bilirəm ki, sizin adınız Condur. Bunun hansı birinci gəlir? Pross familiyası da aydın deyil. Deyəsən, burada səhv var.

– Siz nə demək istəyirsiniz?

– Demək istəyirəm ki, adınızı bilirdim, amma indi xatırlaya bilmirəm.

– Xatırlaya bilmirsiniz?

– Yox. Amma and içə bilərəm ki, adınız iki sözdən ibarətdir.

– Doğrudanmı?

– Bəli. O birinin adı bir sözdən ibarətdir. Mən sizi tanıyıram; Old Beyldə yalandan şahidlik edirdiniz. Lənətə gələsən, kor şeytan, necə də yadımdan çıxdı! O vaxt sizin adınız nə idi?

– Barsed, – başqa bir səs eşidildi; kimsə bir nəfər onların mübahisəsinə müdaxilə elədi.

– Düzdür! Min funtdan mərc də gələrəm ki, düz dedi! – Cerri qışqırdı.

Onların danışığına müdaxilə edən Sidni Karton idi; o, mister Krançerin böyründə dayanmışdı, əllərini səfər plaşının altından keçirib arxada tutmuşdu, eynən bir vaxtlar Old Beyl məhkəməsində olduğu kimi, bezikib darıxmış adamlar sayağı laqeyd görünürdü.

– Siz qorxub-eləməyin, əzizim miss Pross. Dünən axşam gəlmişəm, mister Lorri məni görəndə gözlərinə inanmadı; onunla şərtimiz belə oldu ki, hər şey qaydasına düşməyincə heç yana çıxmayacağam, ya da o yerə gedəcəyəm ki, orada kiməsə lazımam, nəsə bir köməyim dəyə bilər. Miss Pross, bura ona görə gəldim ki, sizin qardaşınızla bir balaca danışmaq istəyirəm. Mən çox istərdim ki, sizin qardaşınız mister Barseddən də yüksək vəzifələrdə çalışsın. Sizin xatirinizə onu da istərdim ki, kaş ki mister Barsed həbsxana qoyunu olmayaydı.

Həbsxana qoyunu o vaxtlar xəbərçi xəbis adamlara deyirdilər, həbsxana nəzarətçiləri belələrini məhbusların arasına buraxırdı. Sifətinin rəngi onsuz da solğun olan yalançı şahidin rəngi tamam ağardı, Sidni Kartona dedi ki, hansı ixtiyarla onunla belə danışır.

– İndi deyəcəyəm, – Sidni dedi. – Haradasa bir saat bundan əvvəl siz Konserjeri həbsxanasından çıxırdınız, o vaxt mən divarın qarşısında dayanmışdım. Sizin yaddaqalan sifət quruluşunuz var, mən də onu yadda saxladım; mən adamların sifətini yadda saxlamağı bacarıram. Bir vaxtlar mənim dostumun başına gələn fəlakətlərdə az rol oynamamısınız, ona görə də maraqlandım ki, həbsxana ilə nə əlaqəniz var. Odur ki dalınızca düşüb şərab dükanına gəldim, qonşu stolda oturdum. Öz danışığınızdan, barənizdə danışılanlardan müəyyən nəticələr əldə elədim, nə işlə məşğul olduğunuzu dəqiqləşdirdim. Sonra da tədricən beynimdə bir plan formalaşdı, mister Barsed.

– Nə plan! – yalançı şahid soruşdu.

– Mən sizə izah edərdim, amma küçənin ortasında dayanıb o cür məsələlərdən danışmaq düz deyil, hətta təhlükəlidir. Əgər etiraz

eləmirsinizsə, sakit bir yerdə, məsələn, elə Tellson Bankda sizinlə bu barədə danışa bilərdik. Razısınız?

– Siz məni hədələyirsiniz?

– Yox, canım! Bəyəm mən sizi hədələdim?

– Elə isə niyə mən ora getməliyəm?

– Düzü, mister Barsed, əgər bunu siz bilmirsinizsə, mən də bilmirəm.

– Bəlkə, demək istəmirsiniz, ser? – yalançı şahid tərəddüd içində dedi.

– Siz çox fəhmli adamsınız, mister Barsed. Demək istəmirəm.

Bu cür adamlardan istədiyini almaq üçün Kartonun şəraiti tez bir zamanda qiymətləndirmək qabiliyyəti, az qala ağılsızlıq təsiri bağışlayan saymazlığı, digər tərəfdən də fəndgirliyi öz təsirini göstərdi; onun iti gözü hər şeyi vaxtında gördü deyə bu adamla necə rəftar etməyi də asanlıqla müəyyən etdi.

– Gördün neylədin? – yalançı şahid məzəmmətedici nəzərlə bacısına baxıb dedi. – Başıma nə pis iş gəlsə, hamısı sənin ucbatından olur, yadında saxla.

– Gedək, gedək, mister Barsed! – Sidni dedi. – Naşükürlük etməyin. Məhz elə bacınıza hörmət elədiyim üçün hər ikimizə sərfəli olan planın mahiyyətini açıb sizə deyəcəyəm. Hə, nə deyirsiniz, mənimlə birlikdə banka gedirsinizmi?

– Nə demək istədiyinizi eşitmək istərdim. Sizinlə birlikdə banka gedərəm.

– Amma yaxşı olardı ki, əvvəlcə bacınızı yaşadığı küçənin tininəcən müşayiət edək. Miss Pross, icazə verin qolunuza girim. İndiki vaxtda bu şəhərdə sizin tək gəzməyiniz düz deyil; sizi müşayiət edən adam da mister Barsedi tanıyır, mən təklif edərdim ki, o da bizimlə birlikdə mister Lorrinin yanına getsin. Hə, necədir, hazırıq! Yaxşı, getdik!

Miss Pross o hadisəni ömrü boyu unutmadı, hətta sonradan xatırlayıb deyirdi ki, Sidninin əlindən yapışıb xahiş edirmiş ki, onun qardaşıyla işi olmasın, Solomona rəhm eləsin, lakin yapışdığı əldə nəvaziş və mülayim davranışa rəğmən nəsə bir qətiyyət, əzmkarlıq hiss edib; nə qədər qəribə olsa da, bu adam heç də onun əvvəllər tanıdığı köntöy Sidni Kartona oxşamırmış, məhz elə bu da Sidnini onun gözündə yüksəklərə qaldırıb. Qardaşının fikri başını elə qarışdırıb, bir tərəfdən

də Sidninin ürək-dirək verməsi və əmin etməsindən elə təsirlənib ki, başqa heç nə barədə fikirləşmirmiş.

Küçənin tinində onlar miss Prossdan ayrıldılar, doktorgilin yaxınlığında məskunlaşmış mister Lorrinin yanına getdilər. Con Barsed, yaxud Solomon Pross da onlarla birlikdə gedirdi.

Mister Lorri şam yeməyindən sonra sobanın qarşısında əyləşib yanan kösövlərin oynaq alovuna baxır, heç özü də bilmirdi nəyə görə neçə illər öncə Tellson Bankdan olan yaşlı, amma mister Lorrinin indiki vaxtıyla müqayisədə xeyli cavan olan centlmenin Duvrdakı mehmanxanada soba qarşısında əyləşib alova tamaşa etdiyini xatırlayırdı. İçəri daxil olan adamların səsinə çevrilib baxdı, tanımadığı bir nəfəri görəndə xeyli təəccübləndi.

– Bu kişi miss Prossun qardaşıdır, – Sidni dedi, – mister Barsed.

– Barsed? – qoca centlmen dedi, sualı bir də təkrar elədi. – Barsed? Ad da tanışdır, bu adamın üzünü də elə bil haradasa görmüşəm.

– Görürsünüzmü, mister Barsed, mən düz demişəm ki, sizin çox əlamətdar, yaddaqalan sifətiniz var, – Karton sakitcə dedi. – Xahiş edirəm, əyləşin.

Mister Karton stul çəkib oturduğu anda qaşqabaqlı halda əyilib mister Lorrinin qulağına pıçıldadı:

– Ovaxtkı məhkəmədə şahid ifadəsi verən bu adam idi.

Mister Lorrinin dərhal yadına düşdü, təzə qonağı ikrahla gözdən keçirdi.

– Miss Pross mister Barsedi görən kimi öz sevimli qardaşını dərhal tanıdı; siz onun qardaşı barədə artıq eşitmisiniz, – Sidni dedi. – Bax belə, miss Pross bu adamla yaxın qohum olduğunu təsdiq elədi. İndi də bəd xəbərə keçirəm. Darneyi yenidən həbs elədilər.

Qoca centlmen dəhşətə gəlib qışqırdı:

– Siz nə danışırsınız?! Vur-tut iki saat bundan əvvəl onu evdə qoyub çıxmışam, indi də ora getməliyəm.

– Amma, bütün bunlara baxmayaraq, o həbs edilib. Mister Barsed, bu hadisə nə vaxt olub?

– Əgər həbs olunubsa, bu hadisə indi baş verib.

– Mister Barsed belə məsələlərdə kifayət qədər məlumatlıdır, – Sidni dedi. – Mən bu barədə onun özü kimi türmə qoyunu olan həmkarıyla

şərab içə-içə söhbət elədikləri vaxt eşitdim, məlum oldu ki, Darney artıq həbs olunub. Mister Barsedin danışığından o da məlum oldu ki, məhbusu gətirənləri həbsxananın qapısınacan müşayiət edib, qapıçının onları içəri buraxdığını öz gözləriylə görüb. Onun yenidən həbs olunduğu şübhə doğura bilməz.

Mister Lorrinin ağıllı gözləri Kartonun üzünə baxan kimi bildi ki, nəyisə dəqiqləşdirmək üçün sorğu-sual lazımsız yerə vaxt itirməkdən başqa bir şey deyil. Bu çətin məqamda əsas məsələ özünü ələ almaqdan ibarətdir. Bunu gözəl bilən mister Lorri mümkün qədər soyuqqanlı davranaraq Kartonu diqqətlə dinləməkdə davam elədi:

– Mən inanıram ki, – Sidni mister Lorriyə dedi, – doktorun adı və hakimiyyət dairələrinə təsir etmək imkanı yenə onun köməyinə çatacaq. Mister Barsed, siz dediniz ki, sabah o, tribunal qarşısında cavab verəcək, elədirmi?

– Bəli, çox güman ki, elə olacaq.

– Bu gün həbsdən azad olunduğu kimi, sabah da azad olacaq. Amma başqa cür də ola bilər. Düzünü bilmək istəyirsinizsə, mister Lorri, mənim inamım xeyli sarsılıb, çünki doktor bugünkü həbsin qarşısını ala bilməyib.

– Doktor o barədə əvvəlcədən bilə bilməzdi, – mister Lorri dedi.

– Əgər həbs olunan doktorun kürəkənidirsə, onda bu vəziyyətin özü də həyəcan doğurmaya bilməz.

– Düzdür. – Mister Lorri həyəcandan titrəyən əlini çənəsinə dayaq verdi, təşviş dolu gözləriylə Kartona baxdı.

– Sözün qısası, – Sidni dedi, – bu dəhşətli zamanda dəhşətli oyunlar gedir. Qoy doktor qələbə üçün oynasın, mən isə məğlubiyyətə can atıram, uduzmaq üçün oynayıram. İndi burada insan həyatının bir qəpik qiyməti yoxdur. Bu gün qalib kimi başları üstünə qaldırıb apardıqları adamı sabah edam edirlər. Mən bu dəfə Konserjeridəki dostuma görə oynayıram. Udmaq istədiyim dostumun adı mister Barseddir.

– Məqsədinizə çatmaq üçün əlinizdəki kartlar yaxşı olmalıdır, ser, – yalançı şahid dedi.

– Bu saat baxım görüm əlimdə hansı kartlardır. Mister Lorri, siz özünüz də yaxşı bilirsiniz ki, mən köntöyün biriyəm; əgər varsa, mənə bir az konyak verin.

Mister Lorri stolun üstünə bir butulka konyak qoydu. Sidni stəkana konyak süzüb içdi, sonra stəkanı doldurub yenidən içdi və fikirli halda butulkanı kənara itələdi.

– Deməli, məsələ belədir, mister Barsed, – Sidni belə deyib özünü elə göstərdi ki, sanki, doğrudan da, əlindəki kartları nəzərdən keçirir, – siz həbsxana qoyunusunuz, Respublika Komitəsinin məxfi agentisiniz, gah həbsxana nəzarətçisi, gah da məhbus rolunda çıxış edirsiniz, amma həmişə casus və məxfi informator olaraq qalırsınız; bu cür adamların əməyi burada yüksək qiymətləndirilir, əgər o adam ingilisdirsə, bu lap göydəndüşmə hesab olunur, çünki fransızla müqayisədə ingilisi satın almaq xeyli çətindir; onu da nəzərə almaq lazımdır ki, bu ingilis başqa ad altında işləyir. Bax bu, əla kartdır. Bu gün Fransa Respublikasının məxfi orqanlarında çalışan mister Barsed əvvəllər ingilis aristokrat hökumətinin – Fransanın və azadlığın düşməni olan bir hökumətin müvafiq strukturlarında çalışmışdır. Bu, başqa məsələdir – söz yox ki, kart əladır. İndi bu məmləkətdə hamıdan və hər şeydən şübhələndikləri bir zamanda birmənalı olaraq belə nəticəyə gəlirik ki, mister Barsed indinin özündə də aristokrat İngiltərə hökumətinə xidmət edir, yəni Pittin casusudur, Respublikanın etibarını qazanmış satqının biridir, haqqında çox söz danışılan, adına ən müxtəlif ziyankarlıqlar yazılan, amma hələ də izinə düşüb tapa bilmədikləri ingilis şpionudur. Bax bu kartı heç nə ilə vurmaq mümkün deyil. Mister Barsed, fikir verirsiniz mənim əlimdə necə kartlar var?

– Mən sizin oyununuzu başa düşmürəm, – yalançı şahid narahat halda dedi.

– Mən əlimdəki kartlarla oynayıram, indi bu saat gedib yaxınlıqdakı komitəyə mister Barsed barədə şikayət edəcəyəm. Öz əlinizdəki kartlara baxın, mister Barsed, fikirləşin, sonra oynayın. Tələsməyin.

Karton butulkanı özünə tərəf çəkib stəkanı konyakla doldurdu və içdi. Gözaltı fikir verib gördü ki, satqın qorxuya düşüb və şübhəsiz, fikirləşir ki, içib dəm olmuş bu adamdan nə desən gözləmək olar: həqiqətən də, elə indi gedib ondan şikayət eləyə bilər. Bunu hiss eləyən Sidni tam əminlik üçün bir stəkan da doldurub içdi.

– Kartlarınıza yaxşı baxın, mister Barsed. Tələsməyin, hələ vaxtınız var.

Satqının kartları Sidni Kartonun təsəvvür etdiyindən də fərsiz idi; onların arasında hətta elə pisləri vardı ki, o barədə Karton heç

fikirləşməmişdi. Onun xidmətinə ehtiyacın olmaması səbəbindən yox, tez-tez yalançı şahidlik elədiyi üçün xüsusi xidmət orqanlarından kənarlaşdırılan mister Barsed Lamanş boğazını keçib Fransaya gəldi. Düzdür, son vaxtlar casusların xidmətinə ehtiyac qalmadığını deyirlər, onlara qarşı nifrət ifadə edən ibarəbazlıq da dəb olub, amma, əslində, elə deyil, ona görə də mister Barsed Fransaya gələn kimi xüsusi xidmət orqanlarında işə düzəldi, ilk vaxtlar Fransada yaşayan həmvətənləri arasında ara qarışdırmaqla və xəbərçiliklə məşğul oldu, sonra həmin işi yerli əhali arasında davam etdirdi. Fransada hakimiyyət çevrilişi ərəfəsində isə Sent Antuan üzrə polis casusu kimi fəaliyyət göstərirdi, hətta bir neçə dəfə Defarjın dükanına da baş çəkmişdi. Defarjlarla başlanan işi asanlaşdırmaq üçün əvvəlki ayıq-sayıq polis doktor Manettin uzun müddət həbsdə olması, azadlığa çıxması və digər məsələlər barədə onu məlumatlandırdı, amma Barsed bir neçə dəfə Defarjın arvadıyla bu barədə danışmağa çalışsa da, heç nəyə nail olmadı. Söhbət zamanı gözünü ondan çəkməyən, əli də toxumaqdan qalmayan o dəhşətli qadın hər dəfə yadına düşəndə Barsedi titrətmə tuturdu. Sonradan həmin qadını o, dəfələrlə Sent Antuan komitəsində görmüşdü: madam Defarj orada özünün toxuduğu siyahılar üzrə kimlərinsə cəzalandırılmasını tələb edirdi və tezliklə onların hamısının boynu gilyotinin dişinə elə ilişirdi, bir də heç vaxt bitişib bitmirdi. Bu cür işlərlə məşğul olan hər kəs kimi, mister Barsed də heç vaxt sakitləşib özünü təhlükəsiz hiss edə bilmirdi; qaçıb aradan çıxmaq da mümkün deyildi, sanki onun əl-qolunu bağlayıb gilyotinin altında saxlamışdılar; var gücüylə çalışıb nə qədər casusluq, donosbazlıq, satqınlıq eləsə də, mümkün olan və olmayan bütün vasitələrlə hökm sürən terrorçu rejimə yaltaqlansa da, ürəyi sakit olmurdu, hiss edirdi ki, bir kəlmə, tək bircə kəlmə şikayət onu güdaza verə bilər. Əgər indi həmsöhbətinin eyham vurduğu ittihamlar üzrə ondan şikayət olunsa, o dəhşətli və amansız qadın (onun necə amansız olduğunu dəfələrlə öz gözüylə görmüşdü) öz qara siyahısıyla ona qarşı çıxıb göz açmağa da imkan verməden məhv edəcək. Casusluqla məşğul olan adamların əksəriyyəti kimi, Barsed də qorxaq idi, indi o, əlindəki qara kartlara baxanda rəngi ağappaq ağardı.

– Deyəsən, kartlarınız yaxşı deyil, – Sidni soyuqqanlıqla dedi. – Oyunu davam etdirək?

– Mənə elə gəlir ki, ser, – ikrah doğuran təhqiramiz formada özünü alçaldan casus mister Lorriyə müraciət elədi, – siz yaşlı və mötəbər bir centlmen kimi bu gənc centlmenə məsləhət versəniz yaxşıdır, qoy indiki şəraitdə o, dediyi kimi eləyib əlindəki kartlarla oynamasın. Bəli, mən gizlətmirəm, açıq etiraf edirəm ki, casusam, onu da bilirəm ki, bu, iyrənc peşə hesab olunur. Amma bu işlə də kimsə məşğul olmalıdır. Bu centlmen casus deyil, belə olan halda niyə o özünü alçaldıb donosbazlıq etməlidir?

– Mən tuzla oynayacağam, mister Barsed, – mister Lorriyə ünvanlanan suala Karton özü cavab verdi, eyni zamanda həm də qol saatına baxdı, – sizə bir neçə saat vaxt verirəm, sonra isə tərəddüd etmədən oyunu özüm bildiyim kimi davam etdirəcəyəm.

– Ümidvaram ki, – casus hələ də mister Lorrini söhbətə cəlb etmək üçün əlindən gələni edirdi, – bacıma olan hörmətiniz müqabilində, heç olmasa onun xatirinə...

– Sizin kimi qardaşdan onun canını qurtarmaqla mən bacınıza olan hörmət və rəğbətimi bir daha təsdiq edəcəyəm, – Sidni Karton dedi.

– Siz, hər halda, o fikirdə deyilsiniz, ser, elədirmi?

– Mən artıq belə bir qərar qəbul etmişəm və onu yerinə yetirəcəyəm.

Casusun ütülü rəftarı, kobud və sadə geyimi, adi maneraya çevrilmiş sərbəst rəftarı arasında bir ziddiyyət var idi, indi o daha ağıllı, daha namuslu adamları da çətin vəziyyətə salmaqda mahir olan Kartonun soyuqqanlılığıyla toqquşub fiaskoya uğramışdı. Casus artıq özünü itirib deməyə söz tapmırdı. Belə bir bir vəziyyətdə Karton yenə özünü elə göstərdi ki, guya əlindəki kartlara baxır.

– Burada, mənim əlimdə bir yaxşı kart da var imiş, bayaqdan bəri necə olubsa, gözümdən yayınıb. Sizin bir dostunuz da var, o həbsxana qoyununu deyirəm, bərk öyünürdü ki, əyalət həbsxanalarını özü üçün otlağa çevirib. O kimdir?

– Fransızdır. Siz onu tanımırsınız, – casus tələsik cavab verdi.

– Deməli, fransızdır, – Karton təkrar eləyib elə danışdı, sanki kiminləsə yox, öz-özüylə danışırdı. – Ola bilər.

– Həqiqətən, fransızdır, – casus dedi, – düzdür, bunun məsələyə dəxli yoxdur, amma mən sizi əmin edirəm.

– Düzdür, bunun məsələyə dəxli yoxdur, – Karton tutuquşu kimi mexaniki olaraq təkrar elədi, – bunun məsələyə dəxli yoxdur. Yox,

bunun məsələyə dəxli yoxdur. Yox. Mən o adamın sifətini haradasa görmüşəm.

– Məncə, görməmisiniz. Əminəm ki, görməmisiniz. Ola bilməz, bu, mümkün deyil, – casus dedi.

– Bu, ... mümkün... deyil, – Sidni Karton burnunun altında mızıldandı, nəsə xatırlamağa çalışaraq stəkanı yenidən ağzınacan konyakla doldurdu (xoşbəxtlikdən, stəkan balacaydı). – Ola bilməz. Fransızca yaxşı danışır. Amma ləhcəylə danışır; yadelli ləhcəsiylə danışır, elədirmi?

– Əyalət ləhcəsiylə danışır, – casus dedi.

– Yox, yadelli ləhcəsiylə! – Nəsə yadına düşdüyünü hiss edən Karton sevinclə əlini stola çırpdı. – Klaydır! Əlbəttə, Klaydır. Maskalanıb, amma həmin adamdır. Old Beyl məhkəməsində o da iştirak edirdi.

– Siz burada bir qədər tələsdiniz, ser, – Barsed belə deyib gülümsədi, bu təbəssümdən onun qartal burnu bir qədər yana əyildi. – Klay mənim həmkarım olub (çoxdankı hadisə olduğu üçün mən açıq danışa bilərəm və etiraf da edirəm), neçə il bundan əvvəl vəfat eləyib. Sonuncu dəfə xəstələnəndə mən ona baş çəkmişəm. Londonun Müqəddəs Pankrati çəmənlik qəbiristanlığında dəfn olunub. Deməliyəm ki, bir dəstə başıpozuq kütlə dəfn mərasimini pozub sonuncu borcumu verməyə mane oldu, amma onu tabuta öz əlimlə qoymuşam.

Bu məqamda mister Lorri oturduğu yerdən gördü ki, divarda adamı qorxuya salan qəribə bir kölgə peyda oldu. Kölgənin haradan başlayıb harada qurtardığını diqqətlə nəzərdən keçirən qoca centlmen, nəhayət, başa düşdü ki, qorxunc kölgənin peyda olmasına səbəb saçı onsuz da ipə-sapa yatmayan mister Krançerin başındakı tüklərin hamısının eyni vaxtda biz-biz dayanması olub.

– Gəlin ağıllı olaq, danışığımıza fikir verək, – casus dedi. – Dediklərinizin əsassız olduğunu, həqiqətə uyğun olmadığını sübut etmək üçün sizə Klayın dəfni barədə şəhadətnaməni göstərəcəyəm; təsadüfən cibimdəki kağızların arasında qalıb, neçə müddətdir özümlə gəzdirirəm, – casus bunu deyib bloknotu tələsik cibindən çıxartdı və oradan bir kağız götürdü. – Buyurun, baxın. Yaxşı baxın. Siz onu əlinizə götürüb yoxlaya bilərsiniz, saxta olmadığına özünüz də əmin ola bilərsiniz.

Bu vaxt mister Lorri gördü ki, divardakı kölgə uzandı, mister Krançer isə ayağa durub qabağa gəldi; onun saçları əvvəllər heç vaxt belə

qatma-qarışıq, belə pırpız olmamışdı, hətta elə təsəvvür yaranırdı ki, o saçları mahnılardakı Cekin tikdiyi tövlədən çıxmış buynuzuqırıq inək öz buynuzuyla darayıb.

Mister Krançerin gəlib yaxında dayandığını casus hiss eləmədi, amma qəflətən kiminsə əli çiyninə toxundu və ona elə gəldi ki, gələn jandarmdır, ona görə də diksindi.

– Siz Rocer Klaydan danışırsınız, – mister Krançer qaşqabaqlı halda dedi. – Deməli, deyirsiniz ki, onu öz əlinizlə tabuta qoymusunuz, eləmi?

– Bəli.

– Bəs onu tabutdan kim çıxardıb?

Barsed kəkələyib: "Siz nə demək istəyirsiniz?" – dedi, geri qanrılıb stulun arxasına söykəndi.

– Onu demək istəyirəm ki, Klay orada olmayıb. Olmayıb! Tabutdakı o deyildi! Başımla cavabdehəm ki, Klay həmin tabutda olmayıb.

Casus çevrilib centlmenlərə baxanda gördü ki, onlar ikisi də heç nə başa düşmədən təəccüblə Cerriyə baxır.

– Siz o tabutun içini daşla, torpaqla doldurub basdırmışdınız, – Cerri dedi, – ona görə də Klayı dəfn elədiyiniz barədə nağıl danışmayın. Bunu mən bilirəm, məndən başqa iki nəfər də bilir.

– Siz haradan bilirsiniz?

– Bunun sizə nə dəxli var? – mister Krançer mızıldandı. – Belə çıxır ki, çoxdankı haqq-hesabı da sizinlə çürütməliyəm. Zəhmətlə çörəkpulu qazanan adamlara da fırıldaq gəlirsiniz! Yarım giyena verən olsaydı, bu saat tutub boğazını üzərdim!

Mister Lorri kimi, Sidni Karton da çaşıb özünü itirmişdi, amma hər necə olsa da, dillənib mister Krançerdən xahiş elədi ki, yaxşı olar özünü ələ alıb nə baş verdiyini izah eləsin.

– Başqa vaxt danışaram, ser, – mister Krançer üstüörtülü şəkildə cavab verdi, – o barədə indi danışmaq, burada izahat vermək yaxşı deyil. Sözümün canı odur ki, bu adam özü də çox gözəl bilir ki, Klayı heç vaxt o tabuta qoymayıblar. Əgər bir də elə söz desə, yarım giyena əlmuzdu alıb onun boğazını elə buradaca üzərəm, – mister Krançer heç də pis əlmuzdu olmayan yarım giyenadan çox bərk yapışmışdı, – ya da bu saat gedib ondan şikayət edərəm.

– Aha! Deməli, belə məlum olur ki, mister Barsed, mənim əlimdə bir yaxşı kart da var, – Karton dedi. – Parisdə indi terror baş alıb gedir, hamı bir-birindən şübhələnir, heç kim də heç kimə etibar eləmir, belə bir şəraitdə kiminsə səndən şikayət eləməsi dəhşətdir. Belə bir şəraitdə ittiham irəli sürülsün ki, sən elə özün kimi, əvvəllər aristokrat dövlətin gizli xidmət orqanlarında çalışmış bir nəfərlə yaxınlıq eləyirsən, özü də o adam çox müəmmalı şəkildə ölüb, dəfn olunsa da, sonradan dirilib! Həbsxana divarları arxasında xaricilərlə əlbir olub Respublika əleyhinə sui-qəsd hazırlayır. Bu çox güclü kartdır, əməlli-başlı gilyotin kartıdır! Hə, nə deyirsiniz, oynayaqmı?

– Yox! – casus dedi. – Mən oyundan çıxıram. Etiraf edirəm ki, bu üsyançı tör-töküntünün bizi görən gözü yox idi, mən də ölüm təhlükəsinin lap yaxın olduğunu hiss eləyib İngiltərədən çıxdım. Klaya gəlincə, onu hər yerdə axtarırdılar, o yalançı dəfn mərasimi olmasaydı, heç cür canını xilas edə bilməyəcəkdi. Amma bu adam o məsələdən necə xəbər tutub – mənim üçün həddən artıq təəccüblü olan da budur.

– Siz bu adam barədə narahat olmaya bilərsiniz, – mübahisə eləməyi xoşlayan mister Krançer dedi, – yaxşı olar ki, sizinlə danışan centlmenin dediklərinə fikir verəsiniz. Amma bax ha! Bir də eşitsəm, – mister Krançer öz liberallığıyla başqalarını heyrətə salmaq məharətini nümayiş etdirməkdən özünü saxlaya bilmədi, – yarım gieyena əlmuzdu alıb boğazını üzərəm!

Həbsxana qoyunu Sidni Kartona tərəf çevrilərək işgüzarlıqla dedi:

– Artıq vaxtdır, mən növbəyə çıxmalıyam, ləngiyə bilmərəm. Nəsə demək istəyirdiniz, deyin görüm, nə istəyirsiniz? Məndən çox şey xahiş etməyin. Əgər vəzifə borcumu yerinə yetirməkdən imtina etməyimi tələb etsəniz, başıma bəla açıb razı ola bilmərəm; o halda təklifinizdən imtina edib edam olunmağıma üstünlük verəcəyəm, onsuz da fərqi yoxdur, hər iki halda məni edam gözləyir. Siz dediniz ki, aləm qarışıb, burada it yiyəsini tanımır. Biz özümüz də buradakı qarışıqlıqda yaşayırıq. Yadınızda saxlayın! Yaxşı fikirləşsəniz, görərsiniz ki, mən də sizdən şikayət edə bilərəm, hətta şahidlər tapa bilərəm. Sözün qısası, siz məndən nə istəyirsiniz?

– Çox şey istəmirəm. Siz Konserjeri həbsxanasının nəzarətçisiniz, elədirmi?

– Hər şeydən əvvəl, sizə deməliyəm ki, oradan qaçmaq heç cür mümkün deyil, – casus qətiyyətlə dedi.

– Mən sizinlə o barədə danışmıram, siz niyə mənə belə söz deyirsiniz? Mən soruşuram ki, siz həbsxanada nəzarətçisiniz?

– Hərdən nəzarətçi də oluram.

– Siz bunu istədiyiniz vaxt edirsiniz?

– Bəli, mən istədiyim vaxt həbsxanaya girirəm, istədiyim vaxt da çıxıram.

Sidni Karton bir stəkan konyak süzüb yavaşca onu ocaqdakı alovun içinə boşaltdı, stəkanı yuxarıda saxlayıb sonuncu damcıların da axıb közün üstünə tökülməsini gözlədi. Stəkanda bir damcı da konyak qalmayanda ayağa durub dedi:

– Bayaqdan bəri biz bu iki nəfərin iştirakı ilə danışırdıq; mən istəyirdim onlar bilsinlər ki, kimin əlində hansı kartlar var. İndi isə gəlin o biri otağa keçək, söhbətimizi ikilikdə davam etdirək.

IX fəsil

OYUNUN DAVAMI

Sidni Kartonla həbsxana qoyunu qonşu otaqda səsləri əsla eşidilmədən nə barədəsə danışdıqları vaxt bu biri otaqda oturmuş mister Lorri şübhəylə Cerriyə baxır, öz aləmində nəsə götür-qoy edirdi. Zəhmətkeş bir adam olan Cerri bu baxışların altında özünü çox narahat hiss edirdi, ayağının birini götürüb o birini qoyurdu, həm də bunu elə tez-tez edirdi ki, sanki əlli ayağı var idi, hamısının da işlək vəziyyətdə olduğunu yoxlamaq lazım idi; gözünü əl barmaqlarına zilləyib dırnaqlarını diqqətlə gözdən keçirirdi. Nəhayət, bir anlıq da olsa, mister Lorriyə tərəf baxdı, elə o anda onu qəribə bir öskürək tutdu, əlini ağzına tərəf tutub öskürdü. Deyilənə görə, ürəyiaçıq adamda heç vaxt belə öskürəktutması olmur.

– Cerri, – mister Lorri dedi, – bura gəl.

Mister Krançer yanpörtü dayanıb bir çiyni qabaqda olmaqla yaxınlaşdı.

– Sən bizim tapşırıqları yerinə yetirməkdən əlavə, ayrı işlə də məşğul olurdun?

Diqqətlə öz patronuna baxan Cerri xeyli fikirləşəndən sonra, axır ki, nəsə fərli bir cavab tapdığını zənn edib dedi:

– Kənd təsərrüfatı işləriylə də məşğul olurdum.

– Sən şübhəli adama oxşayırsan, – mister Lorri barmağını silkələyib onu hədələdi, – mənə elə gəlir ki, adamların etibarını qazanmış Tellson Bankda xidmətçi vəzifəsini yerinə yetirməkdən əlavə, sən hansısa qeyri-qanuni və lazımsız işlərlə də məşğul olursan. Əgər elədirsə, İngiltərəyə qayıdan kimi sənin xidmətindən imtina edəcəyəm. Mən bu barədə susmayacağam, Tellsonu aldatmayacağam.

– Ser, onu demək istəyirəm ki, – mister Krançer xəcalət içində büzüşüb dedi, – mən inana bilmirəm ki, ömrüm boyu sədaqətlə xidmət edib yolunda saç-saqqal ağartdığım sizin kimi mötəbər bir centlmen məni məhv etmək barədə fikri ikinci dəfə ağlına gətirə bilər. Bu deyilənlərin doğru olub-olmaması ayrı məsələdir; lap tutaq ki, doğrudur, onda bütün günahı ancaq bir tərəfin üstünə yıxmaq düzgün deyil. Burada ikinci tərəf də var. İndiki zamanda zəhmətkeş insan o biznesdən, olsa-olsa, qəpik-quruş qazana bilər. Həkimlər isə bic tərpənib milyonlar qazanır, əsla utanıb-qızarmadan öz pullarını Tellson Bankda saxlayır, öz faytonlarında ora-bura gedir, kef çəkirlər. Onlar da Tellson Bankın adına şərəf gətirmirlər. Belə çıxır ki, kiməsə var-dövlət, şərəf gətirən bir iş başqasına yasaq edilir, alın təriylə qazandığı üç-beş qəpik qeyri-qanuni olur, haram sayılır. Hələ onu demirəm ki, o vaxt arvadım – miss Krançer İngiltərədəki evimizdə işimin düz gətirməməsi üçün necə də özünü döşəməyə çırpır, gecə-gündüz dua edirdi; ona nə var, elə indinin özündə də öz əməlindən əl çəkmir. Ona görə də işim düz gətirmir, heç nə qazana bilmirəm. Amma heç bir doktor arvadı özünü yerə çırpıb ərinin işinə əngəl törətmək üçün dua eləməz; eləsə də, xəstələrin sayının çox olması üçün edər. Hər halda, bu işə birtərəfli yanaşmaq düz deyil, məsələnin o biri tərəfi də var. Digər tərəfdən, nəzərə alınmalıdır ki, zəhmətkeş adam əldə etdiyi gəlirdən qəbiristanlıq qarovulçusuna, qəbirqazana və keşişlərə də pay verməli olur, özünə isə çox az qalır. Əvəzində o hamının qınağıyla üzləşir; qazandığı bir şey yoxdur, özünə ancaq ziyan gətirir. Amma vəziyyətdən çıxmaq üçün yol da tapa bilmir. Əlbəttə, bütün bunları deməkdə məqsədim o deyil ki, belədir, sadəcə olaraq, əgər fərz eləsək ki, belədir, mən də bunu nəzərdə tutub belə deyirəm.

– Fu! – mister Lorri qışqırdı, amma hiss olunurdu ki, bir qədər yumşalıb. – Səni görəndə ətim ürpəşir.

– Ser, xahiş edirəm, başqa yerə yozmayın, – mister Krançer dedi, – mən demirəm elədir, deyirəm əgər deyilənlər doğru olsaydı...

– Yaxşı, yaxşı, sözü yayındırmaq lazım deyil, – mister Lorri dedi.

– Yox, ser, nə danışırsınız, – mister Krançer elə danışırdı, guya həyatda nə belə bir iş olub, nə də onun ağlına belə bir fikir gəlib, – mən demədim ki, elə bir şey olub, əgər olsaydı, mən sizdən heç nə xahiş etməzdim. Templ Bar darvazasının ağzındakı stulda indi mənim oğlum oturur; onu mən tərbiyə etmişəm, böyüdüb boya-başa çatdırmışam ki,

sizə kömək eləsin, nə desəniz, hansı işin dalınca göndərsəniz, canla-başla yerinə yetirsin. Əgər dediyim kimi olsaydı, demirəm ki, elədir, amma əgər elə olsaydı (yox, mən sözü yayındırmaq fikrində deyiləm, ser), imkan verin oğlum öz atasının yerini tutsun, anasına dayaq olsun; oğlumun atasına da rəhminiz gəlsin, onu məhv etməyin, imkan verin öz günahını yusun, zəhmətlə çörəkpulu qazanan əsl qəbirqazan olsun, ölüləri dəfn edəndə qəbri elə qazsın, tabutun üstünü elə örtsün ki, bir də heç kim onu oradan qazıb çıxarda bilməsin. Bax belə, mister Lorri, – mister Krançer belə deyib əliylə alnını sildi, bununla da göstərmək istədi ki, nitqini başa vurub, – mənim sizdən acizanə xahişim bundan ibarətdir. Burada baş verən dəhşətli hadisələri görməmək də mümkün deyil, nə qədər başıkəsik adam var; çoxdu deyə qiymət də düşür, yəqin ki, ancaq yolxərci verərlər ki, əziyyət çəkib gətirmisən, vəssalam. Başqa nə verəcəklər? Adam belə şeyləri görəndə ağlına yüz fikir gəlir. Bax belə, ser, mən nə varsa, hamısını açıb sizə dedim, deməyə də bilərdim.

– Yaxşı ki, heç olmasa indi düz danışdın, – mister Lorri dedi. – Artıq heç nə lazım deyil. Əgər öz səhvini etiraf edirsənsə, öz günahını işdə, sözdə yox, məhz işdə yumağa hazırsansa, onda mən aramızdakı dostluğu saxlaya bilərəm. Nəsə başqa bir söz deməyin lazım deyil.

Mister Krançer dinmədi, barmaqlarıyla alnına vurdu. Bu vaxt o biri otaqdan Sidni Kartonla casus çıxdı.

– Xoş gəldiniz, mister Barsed, – Karton dedi, – necə ki razılaşmışıq, elə də olacaq; mən tərəfdən sizə heç bir təhlükə olmayacaq.

Sidni Karton sobanın yanında, mister Lorrinin qarşı tərəfindəki kresloda oturdu. Onlar otaqda ikilikdə qalanda mister Lorri nəyəsə nail olub-olmadığını soruşdu.

– Elə ciddi bir şey yoxdur. Belə razılaşdıq ki, əgər məhbusun vəziyyəti pisləşsə, həbsxanaya mənim girişimi təmin edəcək.

Mister Lorrinin sifəti tutuldu.

– Bundan artıq heç nə mümkün olmadı, – Karton dedi. – Çox dərinə getmək də olmaz, əks təqdirdə, onun özünü edam edərlər, bu isə, özü də dediyi kimi, məsələnin ən pis həlli olardı və kiminsə ondan şikayət etməsindən də betərdi. Açıq-aşkar görünür ki, indiki vəziyyətdə bundan artıq heç nə eləmək mümkün deyil. Başqa çıxış yolu da yoxdur.

– Əgər məhbusu tribunalda xilas etmək mümkün olmasa, – mister Lorri dedi, – sizin onunla həbsxanada görüşməyinizin heç bir köməyi olmayacaq.

– Mən demədim ki, bu yolla onu xilas edə bilərəm.

Mister Lorrinin gözləri sobanın alovuna zilləndi; sevdiyi insanların başına gələn fəlakət, Darneyin ikinci dəfə həbs olunması, ətrafda baş verənlər qoca centlmenə güclü təsir eləmişdi və indi o, həqiqətən, qoca kişiydi, ona görə də özünü saxlaya bilmədi, göz yaşları axıb üzünü islatdı.

– Siz gözəl insan, vəfalı dostsunuz, – Karton titrək səslə dedi. – Kövrəldiyiniz bir vaxtda sizi narahat etdiyim üçün üzr istəyirəm. Əgər atam yanımda oturub ağlasaydı, buna laqeyd qala bilməzdim. Mən sizin kədərinizi öz atamın kədəri kimi qəbul edirəm. Allah üzünüzə baxıb – sizə belə bir bədbəxtlik nəsib etməyib.

Sidni son sözləri özünəməxsus sürüşkən tərzdə desə də, bütövlükdə onun budəfəki nitqində səmimi hisslər, həqiqi hörmət var idi. Mister Lorri ondan belə şey gözləmirdi, odur ki, sözün həqiqi mənasında, mütəəssir olub əlini uzatdı, Karton onun əlini nəzakətlə sıxdı.

– Bədbəxt Darneyə gəlincə, – Karton dedi, – burada olan söz-söhbət barədə və əldə olunmuş razılıq barədə onun arvadına heç nə deməyin. Onsuz da əriylə görüşməyə ona icazə verilməyəcək. Elə fikirləşə bilər ki, söhbət məhz bu görüşə icazə almaqdan gedirmiş, biz də guya bu yolla məhbusun vəziyyətini yüngülləşdirmək, edamdan xilas etmək niyyətində olmuşuq.

Bu barədə fikirləşmək mister Lorrinin heç ağlına da gəlməmişdi, amma indi Kartonun üzünə elə baxdı, sanki onun beynində, həqiqətən, belə bir fikir olduğuna əmin olmaq istəyirdi. Baxdı və əmin oldu.

– Lüsinin ağlına çox şey gələ bilər, – Karton dedi, – hər yeni fikir də ancaq yeni həyəcan, yeni narahatlıq gətirəcək. Mənim barəmdə ona heç nə deməyin. Mən bura gələn kimi də dedim ki, onlara getməsəm yaxşıdır; onlara getməyəcəyəm, amma əlimdən gələn köməyi də əsirgəməyəcəyəm. Siz indi onlara gedəcəksiniz, eləmi? Yəqin, Lüsinin halı elə də yaxşı deyil.

– Mən elə indi durub onlara gedəcəyəm.

– Hə, lap yaxşı. Lüsi sizə çox bağlanıb, inanır, etibar edir. İndi necədir, dəyişibmi?

– Çox həyəcanlıdır, bədbəxt görünür. Amma gözəldir.

– Ah!

Bu, uzun bir kədər həniriydi, bəlkə də, bir ahçəkməydi, ya da, olsun ki, hönkürtüydü, – mister Lorri sanki diksindi, çevrilib Kartonun alova

tərəf çevrilmiş üzünə baxdı. İşıq idi, yoxsa kölgə? Nəsə bir şey keçdi o sifətdən (qoca centlmen dəqiq bilmədi o nə idi), elə bil günəşli havada təpənin üstündən əsən meh idi, bir göz qırpımındaca keçib getdi. Karton ayağını qaldırıb çəkmənin burnuyla qıraqdakı balaca kösövü irəli – sobanın içinə itələdi; o, açıq rəngli səfər plaşı, dəbdə olan uzunboğaz çəkmə geyinmişdi, sobanın alovunda üzü solğun görünürdü, qəhvəyi saçları uzanıb səliqəsiz halda çiyninə tökülmüşdü. Çəkmənin burnuyla ocağa tərəf itələdiyi balaca kösöv od alıb yansa da, Karton alovun istisini hiss eləmirdi, – nə baş verdiyini görən mister Lorri onu xəbərdar etmək üçün səsini qaldırdı.

– Tamam yadımdan çıxıb, – Karton dedi, tez də ayağını kösövdən çəkdi.

Mister Lorrinin baxışı yenidən Kartonun sifətinə tərəf yönəldi. Kartonun yaraşıqlı sifətinə tutqun kölgə çökmüşdü; məhbusların da sifətinə bu cür kölgə çökür, mister Lorri məhbusların sifətini yaxşı xatırlayır: indi gördüyü sifət də eynilə məhbus sifətinə oxşayırdı.

– Siz buradakı işlərinizi qurtardınızmı, ser? – Karton belə deyib mister Lorriyə tərəf çevrildi.

– Bəli. O gecə mən elə o barədə danışanda gözlənilmədən Lüsi gəldi. Deməli, nə eləmək mümkün idisə, hamısını eləmişəm. Fikirləşdim ki, bunların vəziyyəti artıq yaxşıdır, mən də Parisi tərk etməliyəm; sənədlərimi hazırlayıb yola düşməyə hazırlaşırdım.

Hər ikisi susdu.

– Yaşanmış böyük bir ömür qalıb arxada, eləmi, ser? – Karton fikirli-fikirli dedi.

– Mən 78 yaşın içindəyəm.

– Mənalı və faydalı bir həyat yaşanmışdır; yorulmaq bilmədən daim çalışmısınız, işləmisiniz. Sizə inanıblar, hörmətlə yanaşıblar, düzdürmü?

– Həmişə işimlə məşğul olmuşam; indi də eləyəm, cavan vaxtımda da elə olub, hətta uşaq vaxtı da eləydim.

– 78 yaşlı insan həyatda öz yerini və mövqeyini tutub. Siz öz yerinizdə olmayanda çoxları kədərlənəcək!

– Mən tək adamam, qoca kişiyəm, – mister Lorri başını silkələyib dedi, – ailəm yox, uşağım yox; öləndə heç kim ağlamayacaq.

– Elə deməyin! Bəs Lüsi ağlamayacaq? Onun qızı ağlamayacaq?

– Hə, düzdür, onlar ağlayacaqlar, Allaha şükürlər olsun. Mən heç də elə demək istəmirdim.

– Allaha şükür etmək üçün səbəblər çoxdur, elə deyil?

– Səbəb var, əlbəttə, var.

– Əgər bu gecə siz tək oturub fikirləşərək özünüz öz vicdanınız qarşısında etiraf edib "Məni heç kim sevmir, hörmət eləmir, heç kimə yardım əli uzatmamışam, heç kimə xeyrim dəyməyib; heç kimə lazım deyiləm, heç kim məni xatırlamayacaq, yada salmayacaq" desəydiniz, onda yaşadığınız yetmiş səkkiz ili yetmiş səkkiz dəfə lənətləməyə dəyərdi. Elədirmi?

– Bəli, mister Karton, çox düz deyirsiniz.

Sidni çevrilib sobanın alovuna baxdı, bir müddət dinmədi, sonra dedi:

– Mən sizdən soruşmaq istəyirəm: öz uşaqlıq illərinizi xatırlayanda sizə elə gəlmirmi ki, o illər çox uzaqda qalıb? Ananızın dizi üstündə oturduğunuz o illər çoxmu uzaq keçmişdə qalıb?

Kartonun çox nəvazişlə davranması mister Lorriyə təsir eləmişdi.

– İyirmi il bundan əvvəl eləydi, amma indi, bu yaşımda elə deyil. Ömrün sonuna doğru getdikcə elə təsəvvür yaranır ki, dövrə vurmaqla bir səfərə çıxmısan: yolun sonu başlanğıcla üst-üstə düşür, sona yetməkdə olan həyat həm də get-gedə öz ilkin başlanğıcına qayıdır; sonra keçiləcək yolun asanlaşması üçün bir növ elə bil hazırlıq görülür. Bəzi yatmış xatirələr var ki, indi yadıma düşəndə qəlbim titrəyir, məsələn, öz gənc və gözəl anamı xatırlayıram (təsəvvür edin ki, bu yaşda qoca kişinin gənc və gözəl anası olub!), o vaxtı xatırlayıram ki, Dünya adlandırdığımız bu aləmi öz həqiqi reallığında görə bilmirdim, səhvlərim və nöqsanlarım isə daşlaşıb həyat normasına çevrilməmişdi.

– Bu hisslər mənə də tanışdır! – Karton həyəcanla dedi. – Sonra elə bil adam bir az da yaxşı olur, eləmi?

– Bəli, elədir ki var.

Karton bu yerdə söhbəti tamamlayıb ayağa qalxdı ki, paltosunu geyinməkdə mister Lorriyə kömək etsin. Qoca centlmen yenidən mövzunun üstünə qayıdaraq dedi:

– Siz hələ çox cavansınız.

– Düzdür, – Karton dedi. – Mən hələ qocalmamışam, amma mənim bu gənc həyatım elə bir yolla gedir ki, sonda o, heç vaxt gəlib qocalığa çata bilməyəcək. Eh, ser, məndən danışmağa dəyməz.

– Sizi inandırıram ki, heç məndən də danışmağa dəyməz, – mister Lorri dedi. – Siz evdən çıxacaqsınız?

– Mən onların qapısınacan sizinlə gedəcəyəm. Siz mənim boş-boş veyillənib gəzməyi sevdiyimi bilirsiniz. Küçələrdə çox gəzib gec qayıtsam, narahat olmayın, səhər tezdən hökmən gələcəyəm. Sabah məhkəməyə gedəcəksiniz?

– Çox təəssüf ki, bəli.

– Mən də gedəcəyəm, amma adamların arasında olacağam. Casus özü mənə yer saxlayacaq. Qolumdan yapışın, ser.

Mister Lorri Kartonun qolundan yapışdı, onlar birlikdə pilləkənlə aşağı düşüb küçəyə çıxdılar. Bir neçə dəqiqədən sonra mister Lorrinin baş çəkməli olduğu evə çatdılar. Burada Karton ləngiyib gözlədi, qapı bağlanandan sonra yaxınlaşıb əliylə ona toxundu. Lüsinin hər gün gedib həbsxana tərəfdə dayandığını o da eşitmişdi.

– Hər gün o bu qapıdan çıxırmış, – Karton öz-özünə dedi, boyanıb ətrafa baxdı, – qayıdıb bu yolla gəlirmiş, bu daşların üstüylə yeriyirmiş. Mən də onun getdiyi yolla gedim...

Gecə saat 10 idi, Karton gəlib La Forse həbsxanasının yaxınlığında dayandı – bura Lüsinin hər gün gəlib saatlarla dayandığı yer idi. Balacaboy odundoğrayan daxmanın qapısını bağlamışdı, çöl tərəfdə oturub qəlyan çəkirdi.

– Axşamınız xeyir, vətəndaş, – gözünü zilləyib diqqətlə baxan odundoğrayanla salamlaşdı.

– Axşamınız xeyir, vətəndaş, – odundoğrayan dedi.

– Respublikada işlər necə gedir? – Karton soruşdu.

– Siz, yəqin, gilyotini nəzərdə tutursunuz. Bu gün üçün altmış üç. Tezliklə yüzə çatacağıq. Samson da, köməkçiləri də yorulub əldən düşüblər. Ha-ha-ha! Samson gülməli adamdır. Dəlləkdir də!

– Ona baxmağa tez-tezmi gedirsən?

– Üz qırxmağına? Həmişə gedirəm. Hər gün gedirəm. Amma dəlləkdir ha! Görmürsünüz necə işləyir?

– Yox, heç bir dəfə də görməmişəm.

– Bir dəfə gedin baxın, görün işi çox olanda necə işləyir. Təsəvvür

edin ki, vətəndaş, mən macal tapıb ikinci dəfə qəlyan çəkənəcən altmış üç adamın üzünü qırxdı. İkinci qəlyan çəkməyə macal tapmadım. Həqiqi sözümdür!

Odundoğrayan qəlyanı ağzından çıxardıb hırtıldaya-hırtıldaya baş kəsmək üçün nə qədər vaxt lazım olduğunu izah eləyəndə Karton az qaldı tutub onun boğazını üzsün, amma vaxtında geri döndü.

– Siz ingilislər kimi geyinsəniz də, məncə, ingilis deyilsiniz, – odundoğrayan dedi.

– Yox, ingilisəm, – Karton ayaq saxlayıb çiyninin üstündən cavab verdi.

– Fransız kimi danışırsınız.

– Tələbəlik illərim burada keçib.

– Deyirəm də, əsl fransız kimi danışırsınız. Gecəniz xeyrə qalsın, ingilis.

– Gecəniz xeyrə qalsın, vətəndaş.

– Amma gedib o gülməli itə baxsanız, pis olmazdı, – odundoğrayan onu arxadan səsləyib dedi. – Özünüzlə qəlyan götürməyi unutmayın!

Sidni odundoğrayanın gözündən yayınandan sonra uzaq getmədi, fənərlərin birinin altında, düz elə küçənin ortasında ayaq saxlayıb qələmini çıxartdı, kağıza nəsə yazdı. Sonra da getdiyi yola yaxşı bələd olan adamlar kimi bir neçə çirkli küçədən keçərək yoluna davam elədi; terrorun bütün ölkədə baş alıb getdiyi o günlərdə ən çox gediş-gəliş olan küçələri də yığışdırıb süpürən yox idi deyə zibil dizə çıxırdı. Nəhayət, gəlib farmasept dükanının qarşısında dayandı, dükan sahibi qapını bağlayıb evə getməyə hazırlaşırdı; gediş-gəlişli küçənin qaranlıq döngəsindəki balaca, tutqun, əyri-üyrü dükanın balaca, tutqun, əyri-üyrü də sahibi var idi.

Bu vətəndaşa da "axşamınız xeyir, vətəndaş" deyib salamlaşdıqdan sonra əlindəki kağız parçasını piştaxtanın üstünə qoydu. Dükan sahibi kağızı oxuyub "fyuu!" deyə fit çaldı, sonra güldü: "Hi-hi-hi!"

Karton ona baş qoşmadı.

– Özünüz üçün alırsınız, vətəndaş?

– Bəli, özüm üçün alıram.

– Bilirsinizmi onları ayrı saxlamaq lazımdır? Onları qarışdıranda nə baş verdiyini bilirsiniz?

– Yaxşı bilirəm.

Tələb olunan maddələr dərhal da balaca, kağız torbalara tökülüb ona verildi. Karton onları əlində tutub ikisini də birlikdə pencəyinin qoltuq cibinə qoydu, sayıb pulunu verdi, dərhal da dükandan çıxdı. Başını qaldırıb göydəki Aya baxdı, öz-özünə dedi: "Bundan başqa sabahacan ayrı bir işim qalmadı. Onsuz da yata bilmirəm".

Bu sözləri özünəməxsus laqeyd tonda demədi, səmada sürətlə keçib gedən buludlara baxa-baxa bu sözləri bərkdən dedi, nə kiməsə meydan oxumaq, nə də ədabazlıq eləyib özünü göstərmək istəyi yox idi bu sözlərdə; yolunu azıb cığırından çıxmış, gəzib-gəzib yorulmuş, əldən düşüb heyi kəsilmiş, bezikib cana doymuş, yorğun adamın, axır ki, öz yolunu tapıb bir anlığa da olsa, rahat nəfəs alaraq yolun sonuna baxıb dediyi sözlər idi bu.

Lap çoxdan, öz yaşıdları arasında gözəl gələcəyi olan ən bacarıqlı bir gənc kimi tanındığı vaxt atasını son mənzilə yola salmışdı. Anası atasını qabaqlayıb ondan bir neçə il əvvəl dünyasını dəyişmişdi. İndi o, kölgə basmış qaranlıq küçələrlə gedirdi, yuxarıda isə sürətlə ötüb-keçən buludlar, bir də Ay görünürdü, elə həmin anda da atasının baş daşına yazılmış sözlər düşdü yadına: "Mən ölüb yenidən dirilmişəm və həyatın özüyəm, – Allah buyurdu, – mənə inananlar ölsə də, diriləcək, mənə inamla yaşayanlar isə heç vaxt ölməyəcəklər".

Baltanın hökmranlıq elədiyi şəhərdə gecə vaxtı tək-tənha gəzən adamın qəlbində həmin gün boynu vurulmuş altmış üç nəfərlə bağlı kədərli hisslərin baş qaldırmasında qeyri-adi heç nə yox idi, amma həbsxana divarlarının arxasında oturub sabahkı gün edam olunacağını gözləyən yüzlərlə adam var, hər sabahdan sonra ayrı bir sabah gəlir, – Kartonun fikri daim sabahkı günə qayıdırdı, dənizin dibindəki paslı lövbərə ilişib qalmış gəmi kimi, o da atasının məzarındakı baş daşına yazılmış sözlərdən yapışıb tarazlığını saxlamağa çalışırdı. Karton o sözləri özözünə təkrar edə-edə gedirdi.

Karton ciddi bir maraqla evlərin işıqlı pəncərələrinə baxdı, o evlərdəki adamlar indi yatmağa hazırlaşırlar ki, baş alıb gedən terroru bir neçə saatlığa da olsa, unutsunlar; uzaqda görünən kilsə qülləsinə baxdı, söz gəzir ki, xalq uzun illər boyu hər sözünə inanıb etibar etdiyi keşişlərin oğru, quldur və fırıldaqçı olduğunu, axır ki, başa düşüb, hamı kilsədən üz döndərib, indi heç kim ora gedib ruhunun xilas olması üçün dua eləmir; darvazalarının üstünə "Əbədi yuxu" yazılmış

qəbiristanlıqlar gəldi gözünün qabağına, məhbuslarla dolu həbsxanalar gəldi gözünün qabağına, edam olunmuş altmış nəfərin izinə düşüb küçələrdən keçərək o da ölümə gedirdi; ölümə gəlincə, o, çox adiləşib, hətta dayanmadan işləyən gilyotinin yaratdığı qorxunc əfsanələr də heç kimə təsir eləmir artıq. Bax belə, bütün günü cəhənnəm qazanı kimi qaynamış, gecə vaxtı isə sakitləşib bir neçə saatlığa da olsa, dincəlməyə hazırlaşan şəhərin qaranlıq küçələriylə gedən Sidni Karton həyat və ölüm haqda ciddi düşüncələr aləminə qərq olmuşdu. Bir də baxdı ki, Sena çayının körpüsünü keçir, o biri sahildə isə küçələr işıqlıydı.

Bir neçə fayton gördü, amma indi faytonda gəzmək qorxuludur, dərhal şübhə doğurur; ona görə də zadəganlar indi faytonda gəzmək əvəzinə, iri çəkmələrini sürüyə-sürüyə birtəhər piyada gəzir, başlarına qırmızı şapka qoyurlar. Teatrlarda isə vəziyyət başqadır; orada adam əlindən tərpənmək mümkün deyil; budur, elə indicə teatrdan çıxan adamlar küçələrə axışıb bərkdən danışa-danışa evlərinə gedirlər. Bir teatr binasının qarşısından keçəndə isə Karton gördü ki, anasının yanına düşüb gedən balaca qızcığaz palçığa batmaqdan qorxduğu üçün küçəni keçmək istəmir. Karton qızı qucağına götürüb küçənin o biri tərəfinə keçdi, uşağı yerə qoymağa hazırlaşanda isə boynunu qucaqlamış balaca əllər onu öpmək üçün icazə istədi.

"Mən ölüb yenidən dirilmişəm və həyatın özüyəm, – Allah buyurdu, – mənə inanan ölsə də, diriləcək, mənə inamla yaşayan isə heç vaxt ölməyəcək".

İndi artıq küçələr sakit idi, gecə hökmranlıq edirdi, ayaq səsləri əks-səda verdiyi kimi, o sözlər də Kartonun qulağında əks-səda verirdi; o, sakit və qətiyyətli addımlarla gedirdi, hərdən də o sözləri təkrar edirdi, qulağı isə onları həmişə eşidirdi.

Gecənin qara örpəyi hələ də şəhərin üstündən çəkilməmişdi, Karton şəhərin orta göbəyindəki adada dayanıb suların sahil qayalıqlarına dəyib necə şappıldadığına qulaq asırdı, əzəmətli binaların əhatəsində kilsə qülləsi Ay işığında parıldayırdı, açılmaqda olan şəhərin boz sifəti ölü sifəti kimi zühur etməkdəydi. Sonra gecə də, Ay da, ulduzlar da solğunlaşdı, sönüb yox oldu, bir anlığa da olsa, elə təsəvvür yarandı ki, sanki bütün kainatda Ölümün hökmranlığı bərqərar olub.

Budur, artıq günəş də doğdu, onun isti, uzun, düz şüaları Kartonun ürəyindəki sözlərin üstünə düşərək nura boyadı; o, əliylə gözünü

gündən daldalayıb özüylə günəşin arasındakı işıqlı körpünü, körpünün altında bərq vuran çayın sularını gördü.

Suların güclü, dərin, sürətli, qarşısıalınmaz axını erkən səhərin sakitliyində nəsə yaxın bir sirdaş təsiri bağışladı. Karton çayın qırağıyla gedib evlərdən xeyli uzaqlaşdı, sahildə günəxoş bir yer tapdı. Orada uzanıb yatdı. Yuxudan oyanandan sonra bir müddət ləngiyib suyun qırağındakı balaca burulğana baxdı, su orada ləngiyib hey burulur, qabağa gedə bilmirdi, axır ki, güclü axın onu sorub özüylə dənizə tərəf aparanda Karton öz-özünə dedi: "Eynən mənim kimidir!"

Solğun yarpaq rənginə çalan yelkənli ticarət gəmisi göründü, üzərək gəlib onun yanından ötdü, uzaqlaşıb gözdən itdi. Gəminin sulardakı səssiz izi yox olanda Kartonun qəlbinin dərinliklərindən qalxıb gələn bir səs eşidildi: "Mən ölüb sonra dirilmişəm və həyatın özüyəm", – bu onun öz zəifliyi, korluğu üçün, səhvlərinin bağışlanması üçün elədiyi duanın sözləriydi.

Karton qayıdıb gələndə mister Lorri artıq evdə yox idi, onun hara getdiyini bilmək üçün baş sındırmaq lazım deyildi. Sidni Karton kofe içdi, bir az çörək yedi, yuyundu, paltarını dəyişib məhkəməyə getdi.

Məhkəmə zalında adam əlindən tərpənmək mümkün deyildi, səsdən qulaq tutulurdu; Kartonu darta-darta adamların arasından keçirərək gətirib bir küncdə yerləşdirən casusu – həbsxana qoyununu görən kimi adamlar gəhşət içində diksinib qırağa çəkilirdilər. Mister Lorri də zaldaydı, doktor Manett də zaldaydı; Lüsi də oradaydı – atasının böyründə oturmuşdu.

Əri zala gətiriləndə Lüsi ona sevgi və mərhəmət dolu baxışlarla elə toxtaq, elə sakit baxdı ki, Darney o baxışlardan dirçəlib canlandı, ürəyi şiddətlə döyündü, al-qırmızı qan sifətinə vurdu. O baxışlar Sidni Kartona da eyni təsiri göstərdi; şübhəsiz ki, bunu yalnız Kartonu müşahidə edən – əgər belə bir adam vardısa – kəs görə bilərdi.

Öz mahiyyəti etibarilə ədalətsiz olan o məhkəmədə müttəhimin işiylə bağlı dinləmə zamanı bu və ya digər prosedur qaydalarına əməl olunacağına heç bir zəmanət yox idi. İllər boyu xalqa zülm etmiş rejimi devirən inqilab əvvəlki hakimiyyətdən qalan bütün normaları, qaydaları, qanunları, məcəllələri ayaq altına salıb tapdalayır, məhv edirdi.

Hamının nəzərləri məhkəmə iclasçılarına zillənmişdi. Onlar dünən də orada oturmuşdu (hamısı patriotdur, əsl respublikaçıdır), bu gün

də oradadırlar, sabahkı, o biri günkü məhkəmələrdə də həmin adamlar olacaq. Onların arasında amansız qəddarlığıyla seçilən bir nəfər var idi, həmişə də əlinin orta və baş barmağıyla ağzının qıraqlarını sığallayırdı, onun görünüşü və hərəkətləri zaldakıların xüsusi rəğbətinə səbəb olurdu. Əslən Sent Antuandan olan bu adamın ləqəbi üçüncü Jak idi; xoşu gəlməyən adamı parçalayıb yeməyə hazır olan o qaniçən cəllad indi tribunalda məhkəmə iclasçısıydı, bir qayda olaraq, ancaq edam tərəfdarıydı. Bütövlükdə isə məhkəmə iclasçıları maralın üstünə tökülərək didib-parçalayan köpək sürüsünə oxşayırdı.

Hamının nəzərləri beş hakimə, bir də prokurora yönəlmişdi; bu gün onların qırımından qaniçənlik yağırdı, yəqin ki, hansısa güzəştdən, rəhmdillikdən danışmağa dəyməzdi – ancaq edam, ancaq gilyotin, vəssalam. Bunu hiss eləyən adamların hər biri zala göz gəzdirib tanışlarına göz vurur, uzaqdan-uzağa himləşir, rəğbətlə bir-birinə baxır, başlarını tərpədir, sonra da diqqət kəsilib qulaq asırdılar.

Çarlz Evremond, eyni zamanda Darney. Dünən həbsdən azad edilib. Dünən də ittiham olunaraq yenidən həbs edilib. İttiham aktı ona gecə təqdim olunub. Respublikanın düşməni kimi ittiham olunur, qanunla son nəfərinədək hamısı məhv edilib Yer üzündən kökü kəsilməyə məhkum edilmiş aristokrat nəslinin tipik nümayəndəsidir; onun mənsub olduğu tiranlar nəsli öz səlahiyyətlərindən istifadə edərək uzun illər boyu insanların başına ağlasığmaz fəlakətlər gətirmiş, xalqa zülm etmişdir. Yuxarıda göstərilənlərə əsasən, Çarlz Evremond – Darney qanundankənar elan edilir, bütün vətəndaşlıq hüquqlarından məhrum olunur.

Prokuror öz qısa çıxışında ancaq bunları dedi.

Məhkəmə sədri prokurora sual verdi ki, müttəhim hansı yolla həbs olunub: gizli yolla, yoxsa açıq şəkildə daxil olmuş şikayət əsasında?

– Açıq şikayət əsasında, cənab sədr.

– Şikayətçi kimdir?

– Üç nəfərdir. Biri Sent Antuanda çaxırsatan Ernest Defarjdır.

– Yaxşı.

– O biri onun arvadı Tereza Defarjdır.

– Yaxşı.

– Üçüncü isə doktor Aleksandr Manettdir.

Zalda hay-küy qopdu və bu arada yerindən qalxıb rəngi ağappaq ağarmış, titrəməkdən özünü saxlaya bilməyən doktor Manett göründü.

– Möhtərəm sədr, mən qəti şəkildə öz etirazımı bildirirəm; bu, yalandır, iftiradır. Siz özünüz də yaxşı bilirsiniz ki, müttəhim mənim qızımın əridir. Qızım, eləcə də ona əziz olan hər kəs mənə öz həyatımdan da əzizdir. Qızımın ərinə qarşı ittiham irəli sürdüyümü deyən o böhtançı kimdir?

– Vətəndaş Manett, sakit olun. Məhkəməyə hörmətsizlik, tribunala tabe olmamaq qanunla qadağandır. Siz bu cür davranmaqla qanuna qarşı çıxırsınız. Həyatınızdan artıq sevdiyiniz əzizlərə gəlincə, bu gün həqiqi vətəndaş üçün Respublikadan əziz heç bir şey yoxdur.

Məhkəmə sədrinin iradı zaldakıların gurultulu alqışına səbəb oldu. Sədr zəngi cingildədib zaldakıları sakitliyə çağırdıqdan sonra çıxışına davam elədi:

– Əgər Respublika öz övladınızı qurban verməyi tələb edirsə, siz qeyd-şərtsiz övladınızı qurban verməyi bacarmalısınız. Yerinizdə sakit oturun, diqqətlə qulaq asın, məhkəmənin işinə mane olmayın!

Yenidən dəlisov, gurultulu alqış səsləri yüksəldi. Dodaqları titrəyən doktor ətrafına baxıb əyləşdi. Lüsi bir az da ona yaxın oturdu. Üzgözündən qaniçənlik yağan məhkəmə iclasçısı əllərini bir-birinə sürtdü, sonra sağ əlini qaldırıb iki barmağıyla ağzının qıraqlarını sığalladı.

Defarj ifadə verəndə onun səsi yaxşı eşidilsin deyə zaldakılar susub diqqətlə qulaq asdılar. Şahid qismində dindirilən Defarj dedi ki, hələ uşaqkən doktorun xidmətçisi olub; doktorun uzun müddət həbsdən sonra azad edilərək onun himayəsinə verilməsinin qısa tarixçəsini danışdı. Məhkəmə vaxt itirmədən dərhal sorğu-suala keçdi.

– Siz Bastiliyanın alınmasında fəal iştirak eləmisiniz, elədirmi, vətəndaş?

– Bəli, elədir.

Zalda oturan adamların arasından bir qadın ayağa qalxıb qışqırdı:

– Bastiliyanın alınmasında ən çox fəallıq göstərən siz olmusunuz. Niyə o barədə danışmırsınız? Bastiliyanı top atəşinə tutan topçu siz olmusunuz. O mənfur qala alınanda siz oraya ilk daxil olanların sırasındaydınız. Patriotlar, mən əsl həqiqəti deyirəm.

İcazəsiz danışıb məhkəmənin işinə müdaxilə edən qadın İntiqam idi, onun çıxışı zaldakıların alqışına səbəb oldu. Məhkəmə sədri zəng çalıb zalda sakitlik yaratmaq istədi, zalın rəğbətini hiss eləyib daha da

cəsarətlənən İntiqam: "Zəng-zad vecimə deyil!" – deyib qışqırdı, bu isə zaldakıların daha gurultulu alqışına səbəb oldu.

– Vətəndaş, Bastiliyaya daxil olarkən nə elədiyiniz barədə məhkəməyə məlumat verin.

– Mən bilirdim ki, – Defarj belə deyib pilləkənin aşağısında ayaq üstə dayanaraq gözünü ondan çəkməyən arvadına baxdı, – mənə artıq məlum idi ki, haqqında danışmaq istədiyim məhbus həbsxananın şimal qülləsindəki yüz beşinci kamerada saxlanılırmış. Bu barədə onun özündən eşitmişdim. Mənim himayəm altında yaşayıb pinəçiliklə məşğul olduğu dövrdə də özünü bu cür adlandırırdı: Yüz beş, Şimal qülləsi. Bastiliya alınan gün mən topçu idim, qərara gəldim ki, həbsxanaya daxil olan kimi o kameranı axtarıb tapacağam. Qala təslim oldu. İndi iclasçılarının arasında oturmuş yoldaşlardan biriylə mən həbsxana nəzarətçisini də götürüb o kameraya qalxdım. Kameranı çox diqqətlə gözdən keçirib yoxladım. Soba divarlarından birinin daşla qapanmış oyuğunda yazılı kağız vərəqləri tapdım. Həmin yazılı vərəqlər budur. Mən doktor Manettin xəttini tanıyıram, onun öz əliylə yazılmış vərəqləri məhkəmə sədrinə verirəm.

– Qoy orada yazılanları oxusunlar.

Zalda milçək uçsa, səsi eşidilərdi, məhbus sevgi və məhəbbət dolu baxışlarıyla arvadına baxırdı. Arvadı da eyni baxışlarla ona göz gəzdirir, arada çevrilib həyəcanla atasına baxırdı, doktor Manettin nəzərləri kağız vərəqlərini oxuyan adama tərəf yönəlmişdi, madam Defarj gözünü məhbusdan çəkmirdi, Defarj isə arvadının qalibiyyət ifadə edən üzünə baxırdı, zaldakıların hamısı doktora, o isə heç kimə, heç nəyə fikir vermədən kağız oxuyan adama baxırdı.

X fəsil

KÖLGƏNİN BƏDƏNİ

"Mən bədbəxt həkim Aleksandr Manett əslən Bovedənəm, sonradan köçüb Parisdə məskunlaşmışam. Bu kədərli qeydləri 1776-cı ilin son ayında, Bastiliya həbsxanasının təkadamlıq kamerasının divarları arasında yazıram. Heç kim görməsin deyə imkan düşəndə gizli yazıram, fasilələrlə yazıram, bu isə çox çətindir. Qərara gəlmişəm ki, vərəqləri sobanın divarında xüsusi olaraq düzəltdiyim yerdə gizləyim. Olsun ki, öz kədərli ömrünü başa vurub toz-torpağa çevriləndən sonra bu vərəqlər hansısa mərhəmətli bir insanın əlinə düşə bilər.

Sobanın divarlarındakı hisi, qurumu qaşıyıb qanla qarışdıraraq mürəkkəb düzəldirəm, ucuşiş paslı məftildən qələm kimi istifadə edib həbsxanada yatdığım onuncu ilin sonuncu ayında yazıram. Artıq heç nəyə ümidim qalmayıb. Həkim kimi özünümüşahidə yoluyla belə bir nəticəyə gəlmişəm ki, belə getsə, ağlımı itirəcəyəm. Amma tam məsuliyyətlə deyə bilərəm ki, hal-hazırda ağlım da, yaddaşım da qaydasındadır, yazdığım hər sözə görə gələcəkdə onu oxumaq imkanı əldə edən insanlar qarşısında, eləcə də bizi xəlq eləyən böyük Yaradanın qarşısında cavab verməyə hazıram.

1757-ci il dekabr ayının üçüncü həftəsiydi (deyəsən, ayın 22-di) buludlu bir axşam çağı evdən çıxdım ki, Ay işığında Senanın sahilində bir qədər gəzib soyuq, şaxtalı havada nəfəs alım, yorğunluğum çıxsın. Tibb məktəbi küçəsindəki evimdən çıxıb bir saata yaxın yol getmişdim ki, birdən böyük sürətlə küçədən keçən fayton səsi eşidib qıraға çəkilərək yol verdim, yoxsa məni vurub yıxacaqdı. Bu vaxt faytonun pəncərəsindən bir baş çıxıb faytonçuya dayanmaq əmri verdi.

Faytonçu yüyəni çəkib atları saxladı, bayaq faytonçuya saxlamaq əmri verən səs məni öz adımla səsləyib çağırdı. Cavab verdim. Mən gəlib faytonun dayandığı yerə çatanda qapılar açıldı, iki centlmen yerə düşdü. Gördüm ki, ikisi də plaş geyinib, bərk-bərk bürünüb, hətta tanınmamaq üçün üzlərini gizlədirdilər. Onlar faytonun qapısına yaxın dayanmışdılar, hiss elədim ki, mənimlə eyni yaşdadırlar, bəlkə də, bir az cavandırlar; onların bədən quruluşu, davranışları, səsləri, jestləri birbirinə çox oxşayırdı, az-maz görə bildiyim sifətləri də oxşar idi.

– Siz doktor Manettsiniz? – onlardan biri dedi.

– Bəli, – dedim.

– Doktor Manett, siz əslən Bovedənsiniz, – kişilərdən biri dedi, – gənc həkim, bacarıqlı cərrah kimi son iki ildə Parisdə ad-san qazanıb məşhurlaşmısınız, elədirmi?

– Bəli, centlmen, – mən dedim, – haqqında xoş sözlər dediyiniz doktor Manett mənəm.

– Sizin evə getmişdik, – birinci kişi dedi, – amma dedilər ki, evdə yoxsunuz, gəzməyə çıxmısınız və çox güman ki, çayqırağı yolla gedirsiniz, biz də sizə çatmaq üçün bu yolla, bu istiqamətdə gəldik. Bəlkə, zəhmət çəkib faytonun içinə keçəsiniz?

Onların davranışı hökmlüydü, söz tamama yetincə hər ikisi qapıdan kənara çəkilib aradan içəri keçmək üçün mənə yol verdilər. Onlar silahlı, mən isə silahsız idim.

– Üzr istəyirəm cənablar, – mən dedim, – bir yerə çağırılanda köməyimə kimin ehtiyacı olduğuyla maraqlanıram, eyni zamanda xəstənin nədən şikayət etdiyini soruşuram.

İkinci kişi mənə cavab verib dedi:

– Doktor, sizə müraciət edənlər yüksək mənsəb sahibləridir. Xəstəliyin xüsusiyyətlərinə gəlincə, o barədə bizim uzun-uzadı danışmağımızdansa, özünüz baxıb nəticə çıxarmağınız daha yaxşı olar. Bu qədər. İndi fikriniz nədir, faytona minəcəksinizmi?

Onların dediyinə əməl etməkdən başqa ayrı çıxış yolum yox idi, dinməzcə faytona mindim. Sonra onlar da içəri keçdilər; sonuncu minən kişi cəld pilləkəni qaldırıb qapını örtdü. Faytonçu atların üzünü geri döndərdi, fayton gəldiyi yolla geri qayıtdı.

Kişilərlə olan söhbəti olduğu kimi yazıram, əsla şübhəm yoxdur ki, bir kəlmə sözü də dəyişdirməmişəm; hadisəni bütün təfsilatıyla yazı-

ram, nəyisə gizlətmək niyyətində deyiləm. Yazıda ulduz işarələri qoyub fasilə verirəmsə, deməli, onu davam etdirmək imkanım yoxdur – vərəqləri gizlətməliyəm.

* * *

Fayton şəhərin küçələrini arxada qoyub şimal tərəfdəki postların yanından keçdi, şəhərətrafı yola çıxdı. Postları keçib haradasa 1 milə yaxın – həmin vaxt mən nə qədər yol getdiyimizə fikir verməsəm də, sonra bunun fərqinə vardım – yol gedəndən sonra dönüb əsas magistraldan çıxdıq. Tezliklə əlahiddə dayanmış böyük bir binaya çatdıq. Üçümüz də faytondan düşüb bağçadakı nəm cığırla getdik, suyu hovuza tökülərək daşıb dağılan fontanın yanından keçib qapıya yaxınlaşdıq. Kişilərdən biri qapını döydü, amma qapını dərhal açmadılar. Bizi qarşılamağa çıxan adamı həmin kişi vurdu – ağır əlcəkli əliylə düz sifətinə vurdu.

Burada mənim üçün qeyri-adi heç nə yox idi, çünki sadə adamların it kimi döyüldüyünü gördüyüm birinci dəfə deyildi. Amma qəzəblənmiş o biri kişi də eyni hərəkətlə xidmətçini vuranda onların hər cəhətdən bir-birinə oxşadığını görüb təəccübləndim, hətta belə qənaətə gəldim ki, bu adamlar əkiz qardaşdır.

Biz həyət qapısından içəri girən kimi (qapını qardaşlardan biri açdı, hər üçümüz içəri keçəndən sonra da özü bağladı) mən evin yuxarı mərtəbəsindən gələn qışqırtı səsi eşitdim. Onlar məni yuxarı apardılar. Biz pilləkənlə qalxdıqca qışqırtı səsi güclənirdi. Səs gələn otağa daxil olanda qızdırma içində alışıb-yanan bir qadının yataqda uzandığını gördüm.

Mənim pasiyentim yaşı 20-dən çox olmayan gözəl bir qadın idi. Onun saçları üz-gözünə tökülmüş, balışın üstünə dağılmışdı, əl-qolunu dəsmallarla, şərflərlə bağlamışdılar. O saat başa düşdüm ki, qandal kimi istifadə olunan dəsmal da, şərf də hansısa centlmenə məxsus olan geyim şeyləridir; xüsusi mərasimlər üçün hazırlanmış naxışlı şərfin üstündə "E" hərfi və zadəgan nəslinin gerbi var idi.

Bütün bunları mən xəstəyə yaxınlaşdığım ilk anda gördüm; xəstə sakitləşmək bilmədən çırpınır, çapalayır, o tərəf-bu tərəfə çevrilirdi. Çarpayının lap qırağında üzüqoylu düşüb qaldı, şərf ağzına girmişdi deyə nəfəsi kəsilib ölə bilərdi. İlk öncə şərfi onun ağzından kənar

elədim, elə həmin anda da onun üstünə həkk olunmuş hərfi və emblemi gördüm.

Mən çox ehtiyatla xəstəni arxası üstə çevirib əlimi sinəsinə qoydum ki, bir qədər sakitləşsin, həm də ki təzədən üzüqoylu çevrilməsin; üzünə baxdım. Onun geniş açılmış gözlərindən dəlilik yağırdı, elə bil ağlı başından çıxmışdı, ara vermədən "Mənim ərim, atam, qardaşım!" deyib qışqırır, on ikiyəcən sayır, "Sus!" deyirdi. Sonra yenidən "Mənim ərim, atam, qardaşım!" deyib qışqırır, on ikiyəcən sayır, "Sus!" deyirdi... Heç bir dəyişiklik, başqa bir əlavə yox idi, hər şey bu ardıcıllıqla təkrar olunurdu. Dayanmaq yox idi, yalnız çıxardığı səslərin arasında müəyyən kiçik fasilələr olurdu.

– Çoxdan belədir bu? – mən soruşdum.

Qardaşları bir-birindən fərqləndirmək üçün onları böyük və kiçik qardaş kimi təsvir edəcəyəm, özünü daha hökmlü aparanı isə böyük qardaş adlandıracağam. Mənim sualıma böyük qardaş cavab verdi:

– Dünən gecə elə bu vaxtdan başlaşıb.

– Onun əri, qardaşı və atası var?

– Qardaşı var.

– Bəlkə, mən onun qardaşıyla danışıram?

Böyük qardaş ikrahla: "Yox!" – dedi.

– Son vaxtlar 12 rəqəmiylə bağlı nəsə bir sarsıntı keçiribmi?

Kiçik qardaş əsəbi halda: "Saat 12 ilə bağlı olub", – dedi.

– Bilirsiniz, cənablar, – əlimi hələ də xəstənin sinəsi üstündən götürmədən dedim, – siz məni bura gətirdiniz, amma əlimdən bir iş gəlmir. Əgər bilsəydim ki, vəziyyət belədir, lazım olan hər şeyi özümlə götürərdim. Vaxt gözləmir. Lazım olan dava-dərmanı mən burada tapa bilməyəcəyəm.

Böyük qardaş kiçiyin üzünə baxdı, o isə lovğa bir ədayla: "Burada bizim dava-dərman ehtiyatımız var", – dedi, dərmanla dolu qutunu şkafdan çıxardıb stolun üstünə qoydu.

* * *

Mən butulkalardan bir neçəsini açıb qoxladım, qapaqlarını dodağıma yaxınlaşdırıb tamına baxdım. Xəstəyə yuxu dərmanı vermək istəməsəydim, bu dərmanlardan istifadə etməzdim; yuxu dərmanı özü də bir zəhərdir.

– Bu dərmanlar sizdə şübhə doğurur? – kiçik qardaş dedi.

– Mən onlardan istifadə edəcəyəm, cənab, – dedim, cavabıma nəsə əlavə etməyi lazım bilmədim.

Bir neçə cəhddən sonra çox çətinliklə də olsa, xəstəyə az miqdarda dərman içirdə bildim. Az sonra xəstəyə yenidən dərman içirtmək istəyirdim, amma birinci dozanın necə təsir etdiyini müşahidə etmək lazım idi, ona görə də yatağın yanında oturub gözləməli oldum. Bayaq biz gələndə çöl qapını açan kişinin yazıq görkəmli, utancaq arvadı da otaqdaydı – çəkilib bir küncdə oturmuşdu. Ev rütubətliydi, köhnəydi, zövqsüz mebeli necə gəldi düzmüşdülər, hiss olunurdu ki, hər şey müvəqqəti məskunlaşmaq üçün nəzərdə tutulub. Xəstənin qışqırtıları ətrafa yayılmasın deyə pəncərələri qalın pərdələrlə örtüb mismarlamışdılar. Xəstə isə ara vermədən qışqırıb "Mənim ərim, atam, qardaşım!" deyir, on ikiyəcən sayır, "Sus!" deyir, sonra hər şey yenidən təkrar olunurdu. Xəstə elə dəlisov coşqunluqla çırpınıb çapalayırdı ki, mən onun əl-qolunu açmağı lazım bilmədim, amma bağları bir az boşaltdım ki, ağrıtmasın. Yeganə ümidverici dəyişiklik ondan ibarət idi ki, əlimi xəstənin sinəsindən çəkməməyim az da olsa, onu sakitləşdirmişdi, hərdən bir neçə dəqiqə fasilə verib sakitcə uzanırdı, lakin bu da saat əqrəbi kəfkirinin əvvəlki vəziyyətə qayıtması üçün etdiyi fasilə kimiydi – xəstənin qışqırtıları müəyyən fasilələrlə davam etməkdəydi.

Yarım saat olardı ki, əlimi xəstənin sinəsi üstünə qoyub (hesab edirəm ki, az da olsa, onu sakitləşdirən elə bu oldu) çarpayının yanında oturmuşdum. Qardaşların ikisi də otaqdaydı, diqqətlə mənə göz qoyurdular. Böyük qardaş dedi:

– Burada bir xəstə də var.

Mən diksinib dedim:

– Ona da təcili yardım lazımdır?

– Özünüz baxsanız, yaxşı olardı, – böyük qardaş laqeydcəsinə dedi və şamı əlinə götürdü.

* * *

O biri xəstə arxa tərəfdəki otaqdaydı, oraya ikinci pilləkəndən keçmək olardı; bu, bir növ at tövləsinin üstündəki çardaq idi. Alçaq tavanın yarısı suvanmışdı, qalan yer açıq idi, ancaq kirəmit və onun altındakı pərdələr görünürdü. Çardağa ot, saman yığmışdılar, sobada

yandırmaq üçün çır-çırpı ehtiyatı toplanmışdı, üstünə qum səpələnmiş bir tığ alma da var idi. Mən bütün bu şeylərin arasından keçib xəstənin yanına gedə bilərdim. Yaddaşım əladır, zərrə qədər də zəifləməyib. İndi, Bastiliyadakı təkadamlıq kamerada on il həbsdə yatandan sonra bu gecə vaxtı da hər şey ən xırda detalınacan gözümün qabağındadır, sanki onları indi görürəm.

Yaşı 17-dən artıq olmayan qəşəng bir kəndli oğlan döşəməyə sərilmiş küləşin üstündə uzanmışdı, başının altında yastıq var idi. Sağ əlini sinəsinin üstünə qoyub arxası üstə uzanmış oğlan dişlərini birbirinə sıxıb çardağın tavanına baxırdı. Mən bir dizimin üstünə çöküb ona tərəf əyilərək baxsam da, yarasını görə bilmədim, amma aldığı ağır yaradan o can verir, ölürdü.

– Ay oğlan, – dedim, – mən həkiməm. Bir balaca imkan versəydin, yarana baxardım.

– Mən istəmirəm yarama baxsınlar, – oğlan dedi, – yaradır da.

Yara onun əlinin altındaydı, dilə tutdum ki, əlini bir qədər kənara çəksin. Xəncər yarasını o haradasa bir sutka əvvəl almışdı və artıq gec idi; hətta möcüzə yaratmaq qüdrətinə malik olan həkim də vaxtında gəlsəydi, onun həyatını xilas eləyə bilməzdi. Mən başımı qaldırıb böyük qardaşa baxdım, gördüm ki, can verən gözəl kəndli oğlana elə baxır, sanki bu, həyatı sönməkdə olan insan deyil, yaralı quşdur, ya da dovşandır.

– Buna nə olub, cənab? – mən soruşdum.

– Qudurmuş itdir! Gədənin biri gədə! Qardaşımın üstünə atıldı, o da xəncərlə vurdu; indi əsl centlmen kimi yaralanıb.

Onun cavabında nə mərhəmət, nə də acımaq var idi, insanpərvərlikdən danışmağa dəyməzdi; baş vermiş hadisədən təəssüflənirdi, lakin bu onunla bağlıydı ki, adam yerinə qoymadığı gədənin birisi öz daxmasının altında yox, onun evində gəbərir. Oğlanı insan kimi qəbul edib onun halına az da olsa yanmaq, vaxtsız ölümünə görə təəssüflənmək qabiliyyəti yox idi bu adamda.

Böyük qardaş danışanda kəndli balasının baxışları ona tərəf yönəldi, sonra da o cür yavaş-yavaş çevrilib mənə baxdı.

– Doktor, bu zadəganlar məğrur adamlardır, amma onların it yerinə belə qoymadığı biz kəndlilər də hərdən məğrur oluruq. Onlar bizi soyub talayır, döyür, alçaldır, öldürməkdən belə çəkinmirlər, amma biz hələ

də məğrurluğumuzu tamam itirməmişik. Siz o xəstə qızı gördünüzmü, doktor?

Bir qədər zəif və boğuq da olsa, qışqırtı səsləri eşidilməkdəydi. Kəndli oğlan xəstə qızdan elə danışırdı, elə bil o, burada, çardaqdaydı.

– Gördüm, – dedim.

– Doktor, o qız mənim bacımdır. Bu zadəganlar neçə illərdir bizim qızlarımızın namusuna toxunurlar, amma onların arasında namuslu qızlar da az deyil. Bacım yaxşı qızdır, yaxşı bir oğlana da nişanlanmışdı; oğlan bu kişinin kəndlisidir. Biz hamımız burada dayanan kişinin kəndlilərіyik. O biri kişi bunun qardaşıdır. Yer üzündə bunlar kimi əzazil, qaniçən bir nəsil olmayıb.

Oğlan çox böyük çətinliklə danışırdı, amma bu cür danışmaq onun sözlərinə qeyri-adi güc verirdi.

– Bütün zadəganlar kimi, burada dayanan bu kişi də bizi soyub talayır, it yerinə də qoymur, belimizə ağlasığmaz vergilər qoyur, haqsız, muzdsuz gecə-gündüz eşşək kimi işlədir; biz öz dənimizi ancaq onun dəyirmanında üyüdə bilərik, məhsuldar tarlalarımız onun quşlarına yem olub, quş saxlamağı bizə yasaq ediblər, əlimizdə nə varsa, hamısını alıblar; əgər təsadüfən bir tikə ət tapsaq, onu da yeməyə qorxuruq, qapı-pəncərəni bərk-bərk bağlayırıq ki, bunun adamları iy duyub gəlməsin, tikəni dartıb boğazımızdan çıxartmasın. Bizi elə çapıb-talayıblar, elə pis günə salıblar, bir tikə çörəyə həsrət qalmışıq. Mənim yazıq atam deyir ki, bizim kimi adamın dünyaya övlad gətirməsi bağışlanmaz günahdır, ona görə də Allaha dua edirik, yalvarırıq ki, qadınlarımız hamilə qalmasın, heç olmasa bu yolla talesiz, bədbəxt insanların kökü Yer üzündən birdəfəlik kəsilsin.

Mən əvvəllər heç vaxt insanın içində boğulub qalmış hisslərin birdən-birə alov kimi bu cür kükrədiyini görməmişdim; insanların içində gizli bir narazılıq olduğunu bilirdim, amma onun bu cür püskürəcəyini güman eləməzdim, ölməkdə olan oğlanda bunu görürdüm.

– Amma hər necə olsa da, bacım ərə getdi, sevdiyi oğlanla evləndi. Yazıq oğlan o vaxt xəstə idi, bacım ona ərə getdi. Oğlanın sağalıb ayağa qalxması üçün əlindən gələni edirdi, ona görə də bizim evə – zadəganın dediyi kimi, bizim it damına – köçdülər, çünki bizim şərait nisbətən yaxşıdır. Bacım ərə gedəndən bir neçə həftə sonra bu kişinin qardaşı bacımı görüb xoşlayır, öz qardaşına deyir ki, gərək o qızı mənə verəsən.

Qızın artıq ərdə olduğu barədə bu adam heç fikirləşmir də! Qardaş etiraz eləmir. Bacım gözəldir, amma hər qadının tayı deyil, eynilə mənim kimi bu qardaşlardan zəhləsi gedir, ona görə də razılıq vermədi. Belə olanda bu iki kişi bilirsiniz neylədi? Başladılar oğlanı dilə tutmağa ki, öz arvadına təsir eləyib yola gətirsin, hətta ondan imtina eləsin.

Oğlan danışdığı vaxt mənə baxırdı, yalnız indi baxışlarını çevirib qoşa dayanaraq bizə göz qoyan qardaşlara baxdı, mən də onlara baxdım, üzlərinin ifadəsindən dərhal başa düşdüm ki, oğlanın dedikləri hamısı düzdür. Mən indi Bastiliyadakı təkadamlıq kamerada olsam da, bir-birinin tam əksi olan baxışların necə toqquşduğunu görürəm: zadəganların saymazyana, qürurlu baxışını, kəndlininsə boğulub qısnanmış, intiqam alovuyla alışıb-yanan baxışını görürəm.

– Doktor, siz bilirsinizmi ki, zadəganların bizi eşşək kimi arabaya qoşub yük daşımaq hüququ var? Onlar bacımın ərini arabaya qoşaraq yük daşıtdırırdılar. Zadəganların ixtiyarı var bizi məcbur eləsinlər ki, gölməçələrin yanında gecə səhərəcən keşik çəkib qoymayaq qurbağalar quruldaşıb onların yuxusunu pozsun. Onlar bacımın ərini dumanlı, yağışlı havada bütün gecəni çöldə saxlayır, qurbağalara keşik çəkməyə məcbur edirdilər, gündüz də eşşək kimi arabaya qoşub bütün günü yük daşıtdırırdılar. Amma oğlan sınmırdı, dediyindən dönmürdü. Yox, dönmürdü! Bir dəfə də günorta vaxtı yük daşıyandan sonra onu arabadan açıb buraxdılar ki, evə gedib yemək yesin – əlbəttə, əgər yeməyə bir şey tapa bilsəydi, – oğlan evə gəldi, arvadını qucaqlayıb ağladı; həmin vaxt saat 12-ni vururdu, saat hər vuranda oğlan hıçqırırdı, – saat on iki dəfə vurdu, oğlan da on iki dəfə hıçqırdı, arvadının qucağındaca canını tapşırdı.

Ancaq ürəyini boşaltmaq, içini yandıran sözləri demək istəyi oğlanı ölməyə qoymurdu. Sağ əliylə yarasını sıxıb buraxmadığı kimi, üstünü almış ölümü də yaxın buraxmır, olub-qalan gücünü toplayıb danışırdı.

– Sonra bunun icazəsi və köməyi ilə qardaşı götürüb bacımı apardı; bacım ona öz sözünü demişdi, doktor, yəqin ki, sizə də deyib, amma, buna baxmayaraq, onun qardaşı bacımı götürüb apardı ki, bir müddət kef eləyib sonra buraxsın. Yolda yanımdan keçəndə onları gördüm. Tez qaçıb bu xəbəri evdəkilərə çatdırdım. Atam dözə bilmədi – ürəyi partladı; onun ürəyi sözlə doluydu, amma bir kəlmə də danışmadı: onun ürəyi dərdlə doluydu, amma bu dərdə dözmədi. Mən isə kiçik bacımı götürüb başqa yerə apardım – bundan başqa mənim bir bacım da var

– ki, bu adamlar onu görməsin, qız özü də bunların əlinin altında yaşamaq istəmirdi. Sonra mən, onların yaramaz it hesab etdikləri mən bunun qardaşını güddüm, keçən gecə əlimdə xəncər dırmaşıb pəncərənin nəfəsliyindən içəri girdim. Pəncərə haradasa burada olmalıdır. Hanı o?

Onun gözlərinə qaranlıq çökür, dünya daralıb balacalaşırdı. Mən ətrafa göz gəzdirib gördüm ki, döşəmənin üstündəki ot və küləş tapdanıb, elə bil orada kimsə güləşmişdi.

– Bacım səs eşidib qaçaraq gəldi, mən ona dedim ki, yaxına gəlmə, adam öldürməyə gəlmişəm, imkan ver onu öldürüm. Elə həmin vaxt bunun qardaşı da gəldi, əvvəlcə üstümə pul atdı, sonra da qamçıyla məni vurdu. Amma mən, onların yaramaz it hesab elədikləri mən xəncəri çıxardıb onun üstünə cumdum, o da görəndə ki, məsələ nə yerdədir, məcbur olub qılıncını qından çıxartdı; vurub əlimdəki xəncəri sındırdı, həm də məni yaraladı, çünki özünü müdafiə eləmək üçün əsl döyüşə girişmişdi. Onun qılıncı mənim murdar qanıma boyandı.

Mən artıq bir az əvvəl ona da fikir vermişdim ki, döşəmənin üstündə bir xəncərin qırıqları atılıb, eyni zamanda küləşin arasında bir centlmen qılıncı da var.

– Məni qaldırın, doktor, məni yuxarı qaldırın. Hanı o?

– O, burada deyil, – mən dedim. Oğlanı bir az yuxarı qaldırıb o vəziyyətdə saxladım. Bilirdim ki, kişinin qardaşını axtarır.

– Yoxdur! Görürsünüzmü, bu məğrur zadəganlar məni görməyə də qorxurlar. Buradakı kişi hanı? Mənim üzümü o tərəfə çevirin.

Mən onun dediyi kimi elədim, başını qaldırıb dizimə söykədim. Qəflətən elə bil haradansa ona güc gəldi, dikəlib ayaq üstə dayandı. Mən də qalxdım ki, yıxılıb-eləsə, onu tutub saxlayım.

– Markiz, – oğlan geniş açılmış gözləriylə qarşısındakı kişiyə baxıb sağ əlini yuxarı qaldırdı, – gün gələcək, sən və sənin lənətə gəlmiş nəslin bütün bu elədiklərinizə görə cavab verməli olacaqsınız. Mən qanlı xaçla sizə damğa vururam. Eybəcər nəslinizin ən eybəcəri olan qardaşın öz bəd əməllərinə görə ayrıca cavab verməli olacaq. Mən ona da qanlı xaç damğası vururam.

İki dəfə o, əlini sinəsindəki yaraya toxundurub qana boyadı. Qanlı barmağıyla havada xaç çəkdi. Bir müddət əli havada asılı qaldı, sonra aşağı düşdü; oğlan yıxılanda mən onu tutdum, artıq canı çıxmış cəsədi yerə uzatdım.

* * *

Mən xəstə qadının yatdığı otağa qayıdanda onu yenə də əvvəlki kimi gördüm: yenə fasilələrlə qışqırır, eyni sözləri təkrar edirdi. Bilirdim ki, onun bu halı uzun müddət davam edə bilər, yalnız ölüm onu sakitləşdirmək qüdrətinə malikdir.

Ona bir qədər də dərman verib gecə keçənəcən çarpayının yanında oturdum. O isə yorulub usanmaq nə olduğunu bilmədən fasilələrlə qışqırıb eyni sözləri təkrar edirdi: "Mənim ərim, atam, qardaşım! Bir, iki, üç, dörd, beş, altı, yeddi, səkkiz, doqquz, on, on bir, on iki! Sus!"

Onu ilk dəfə gördüyüm andan sonra düz iyirmi altı saat bu cür davam elədi. Arada mən iki dəfə evə gedib-gəlməli oldum. İkinci dəfə evə gedib qayıdanda gördüm ki, bir qədər zəifləməyə başlayıb. Yaranmış vəziyyətdə əlimdən gələn köməyi əsirgəmədim, yavaş-yavaş mürgüləməyə başladı. Nəhayət, yuxuya getdi; elə yatmışdı, elə bil ölüydü.

Sanki yağış və güclü küləklə müşayiət olunan dəhşətli fırtına, axır ki, səngimişdi. Mən onun bağlı qollarını açdım, xidmətçi qadının köməyi ilə əynindəki cırılmış paltarı çıxardıb yerinə uzatdım ki, yatıb dincəlsin. Mən onu da yəqin elədim ki, qadın hamilədir; artıq onun xilas olmasına ümidim qalmamışdı.

– Öldü? – atdan təzəcə düşüb ayağına geydiyi uzunboğaz çəkmələrlə otağa daxil olan markiz soruşdu; mən artıq əvvəldə qeyd elədiyim kimi, onu böyük qardaş adlandırıram.

– Yox, ölməyib, – dedim, – amma ölü kimidir.

– Dərisi beş qəpiyə dəyməyən adamların bədənindəki gücə bax! – böyük qardaş bunu deyib yatmış qıza maraqla baxdı.

– Dərd və kədər insana qeyri-adi güc verir, dözümlü edir, – mən dedim.

Markiz əvvəlcə mənim sözümə güldü, sonra qaşqabağını tökdü. Stulun birini ayağıyla itələyib mənim stuluma yaxınlaşdırdı, xidmətçi qadına işarə elədi ki, otaqdan çıxsın, sonra yavaşdan danışaraq dedi:

– Doktor, qardaşımın bu qancığa ilişib çətin vəziyyətə düşdüyünü biləndə kömək üçün məhz sizə müraciət olunmasını ona mən məsləhət gördüm. Yaxşı hörmət qazanmısınız, cavan adamsınız, gözəl gələcəyiniz var. Hesab edirəm ki, şəxsi marağınız sizin üçün daha vacibdir. Burada gördüyünüz şeylər burada qalmalıdır, o barədə heç kimə bir kəlmə də danışmamalısınız.

Mən xəstənin necə nəfəs almasına qulaq asır, cavab verməyə tələsmirdim.

– Deyəsən, fikriniz başqa yerdədir, doktor, nə dediyimi eşitdiniz?

– Mənim sənətim elədir ki, cənab, xəstə ilə münasibətdə olarkən həkimin görüb eşitdiyi hər şey sirr olaraq qalmalıdır, – ehtiyatla cavab verdim, çünki burada gördüklərim və eşitdiklərim məni hədsiz dərəcədə həyəcanlandırmışdı.

Xəstə o qədər zəif nəfəs alırdı ki, mən onun ölü, ya diri olduğunu müəyyən etməkdə çətinlik çəkirdim, ona görə də nəbzini tutdum ki, görüm ürəyi döyünürmü. Hələ ki bir balaca həyat əlaməti var idi. Başımı qaldırıb baxanda hər iki qardaşın dayanıb çox diqqətlə mənə göz qoyduğunu gördüm.

* * *

Mən çox böyük çətinliklə yazıram, ona görə ki kamerada soyuqdan donuram, digər tərəfdən də qorxuram ki, belə işlərlə məşğul olduğumu bilib məni cəzalandırmaq üçün tamamilə qaranlıq olan zirzəmiyə salarlar, ona görə də bacardıqca qısa yazmağa çalışıram. Yaddaşıma söz ola bilməz, hər şey ən kiçik detalınacan yadımdadır, qardaşlarla aramızda olan danışığın bir kəlməsini də unutmamışam.

Xəstə bir həftə yaşadı. Ölümünə az qalmış qulağıma pıçıldadığı bir neçə sözü başa düşdüm: soruşurdu ki, olduğu yer haradır və mən kiməm. Hər iki sualına cavab verdim. Adını öyrənmək istəsəm də, mümkün olmadı. Balışın üstündə başını azca silkələyib cavab vermədi; aldığı yaradan çardaqda ölən qardaşı da adını deməkdən imtina elədi.

Onun bir gündən artıq yaşayacağını qardaşlara deyənəcən qızdan nəsə bir şey soruşub öyrənmək üçün imkan olmadı. Xəstənin yanında olduğum vaxt o da diqqətimi cəlb elədi ki, xidmətçi qadından başqa, otaqda üçüncü bir adam da olur: qardaşlardan kimsə pərdənin arxasında oturub bizə göz qoyur. Amma onlar xəstənin cəmi bir gün ömrü qaldığını biləndən sonra qızın mənə nə deyib-deməyəcəyinə o qədər də əhəmiyyət vermədilər və bu da məndə belə bir təəssürat yaratdı ki, yəqin, mən özüm də çox yaşamayacağam.

Bir şey də diqqətimdən yayınmırdı ki, hansısa kəndçinin biriylə, özü də ağzından süd iyi gələn bir oğlanla qılınc davasına çıxıb vuruşmaq bir zadəgan kimi qardaşların qürurunu sındırıb, təmsil elədikləri nəslin

adına ləkə gətirib və heç cür özlərinə gələ bilmirlər, hətta çox gülünc vəziyyətə düşüblər. Hər dəfə kiçik qardaşa baxanda gözlərindən görürdüm ki, oğlanın son anda dediklərini eşitdiyim üçün, baş verənlərdən az-çox xəbərdar olduğum üçün o mənə nifrət edir; düzdür, böyük qardaşına nisbətən mənimlə daha nəzakətli davranırdı, amma nifrətini də gizlədə bilmirdi, – mən hər şeyi görürdüm. Böyük qardaşa gəlincə, məni görən gözü yox idi.

Mənim pasiyentim gecəyarısına iki saat qalmış vəfat etdi, ilk dəfə mən onu elə həmin vaxt görmüşdüm. Otaqda tək idim, gənc qızın bəlalı başı ehmalca yastığın üstünə düşüb hərəkətsiz qaldı; bu dünyada onun çəkdiyi zülmə, zillətə, əzablara da son qoyuldu.

Qardaşlar harasa getməyə hazırlaşırdılar, onlar yolüstü aşağıdakı otaqda ləngiyib səbirsizliklə məni gözləyirdilər. Oturduğum otaqdan onların narahatlıq içində var-gəl etdikcə ayaq səslərini, arabir də qamçını uzunboğaz çəkmələrinə vurub şaqqıldatdıqlarını eşidirdim.

– Axır ki, öldü? – mən otağa daxil olanda böyük qardaş soruşdu.

– Bəli, öldü, – dedim.

– Qardaş, səni təbrik edirəm, – böyük qardaş çevrilib kiçik qardaşa dedi.

Böyük qardaş artıq bir dəfə mənə pul təklif etmişdi, amma mən puldan imtina elədim. İndi isə o mənə balaca kisəyə yığılıb bağlanmış qızıl verdi. Mən qızılı ondan alıb stolun üstünə qoydum; qəti qərara gəlmişdim ki, onlardan heç nə almayacağam.

– Üzr istəyirəm, – dedim, – vəziyyət elədir ki, belə şeylərə ehtiyac yoxdur.

Qardaşlar bir-birinə baxdı, mənim onlara baş əydiyimə cavab olaraq başlarını azca əydilər; bir kəlmə də danışmadan ayrıldıq.

* * *

Mən çox zəifləmişəm, gücsüz olmuşam; qəm-qüssə məni elə üzüb, elə əldən salıb ki, sümüyü çıxmış əlimlə yazdığım yazını da oxuya bilmirəm.

Həmin gün səhər tezdən gördüm ki, qapının ağzında bir qutu qoyublar, üstündə isə mənim ad-familiyam yazılıb. Qutunu açıb baxanda isə qəbul etmədiyim qızılla dolu balaca bağlamanı orada gördüm. Dərhal da fikir məni götürdü: nə etməliyəm? Elə həmin gün qərara gəldim ki,

nazirə gizli məktub yazıb baş verən hadisənin qısa təfsilatı, xəstələrin vəziyyəti, müalicənin nəticəsi, hadisənin baş verdiyi yer barədə məlumat verim. Mən bilirdim ki, saraya yaxın olan adamların sözü hər yerdə keçir, onlara dəyib-dolaşan yoxdur, bu məsələ də gizli qalmayacaq, amma o məqamda susmağı vicdansızlıq hesab edərək fikrimdən dönmədim. Bu barədə heç kimə, hətta arvadıma da heç nə demədim və məsələnin bu məqamını məktubda da qeyd elədim. Mən özümə görə əsla qoxmurdum, amma başqalarının bu barədə nəsə bilməsi, onların həyatı üçün təhlükə yarana biləcəyi ehtimalını qəbul edə bilmirdim.

Həmin gün işim çox idi deyə məktubu axşam yazıb qurtara bilmədim. Səhər lap tezdən durdum ki, məktubu yazıb tamamlayım. İlin son günüydü. Məktubu təzəcə yazıb qurtarmışdım ki, bir qadının gəlib məni görmək istədiyini dedilər.

* * *

Hiss edirəm ki, günbəgün zəifləyirəm, işgörmə qabiliyyətimi itirirəm. Kamera çox soyuqdur, qaranlıqdır, hisslərim keyləşib; başımın üstünü almış zülmət get-gedə dərinləşir.

Məni görmək istəyən qadın gənc idi, gözəl idi, amma səhhətində nəsə ciddi problem olan adama oxşayırdı. Çox həyəcanlı görünürdü. Özünü təqdim edib dedi ki, markiz Sent Evremondun həyat yoldaşıdır. Yadıma düşdü ki, kəndli oğlan böyük qardaşı belə adlandırırdı, xəstə qızın ağzı bağlanmış şərfin üstünü bəzəyən yazı da onun adının baş hərfiymiş, – bütün bunlara əsasən də belə bir nəticəyə gəldim ki, məni görməyə gələn qadın o kişinin arvadı olub.

Yaddaşım qaydasındadır, amma o qadınla aramızda olan söhbəti necə vardısa, elə də yazmaq istəmirəm. Mənə elə gəlir ki, daha güclü nəzarət altındayam, yazdıqlarım ələ keçə bilər.

Qadın baş verən hadisələrlə bağlı bəzi şeyləri artıq bilirdi, nəyisə ehtimal edirdi, ərinin də o qanlı hadisələrin iştirakçısı olduğundan, sonda isə kömək üçün mənə müraciət edildiyindən xəbərdar idi. Qızın öldüyünü bilmirdi. Çox mütəəssir olmuşdu, çox da məxfi şəkildə o qadınla həmrəy olduğunu, hətta yardım etmək istədiyini bildirdi. İllər boyu insanlara zülm eləyib Allahın qəzəbinə düçar olmuş nəsli gələcək bəlalardan xilas etmək üçün bacardığını əsirgəmirdi.

Ölən qızın bacısı barədə o qadın nəsə eşitmişdi, çox istəyirdi ki, ona kömək etsin. Mən dedim ki, bəli, o qızın bacısı var, amma onun barəsində heç nə bilmirəm. Qadını mənim yanıma gətirən səbəblərdən biri də qızın bacısının adını və harada yaşadığını öyrənmək istəyiydi. Mən isə indinin özündə belə o barədə heç nə bilmirəm.

* * *

Bu kağızlar məni işə salacaq; dünən bir vərəqi əlimdə tutdular, aldılar, xəbərdarlıq da etdilər. Bu gün axırıncı vərəqi yazıb tamamlamalıyam.

Məni görməyə gələn o gözəl qadın xeyirxah bir insan idi, amma ailə həyatında bəxti gətirməmişdi, O, xoşbəxt ola bilərdimi? Qaynı ona inanmırdı, hörmət etmirdi, qardaşına da təsir göstərirdi; qadın qaynından da, ərindən də qorxurdu. Mən onu yola salarkən küçədə gözləyən faytonun içində iki-üç yaşlarında qəşəng bir oğlan uşağı olduğunu gördüm.

– Ancaq bu uşağın xatirinə, doktor, – qadın göz yaşları içində dedi, – ancaq onun xatirinə əlimdən gələni etməyə hazıram, təki o günahlardan hansılarısa yumaq mümkün olsun. Mənə elə gəlir ki, o günahları yumaq üçün əlimdən gələni etməsəm, bu uşaq gələcəkdə onlara görə cavab verməli olacaq. Ancaq özümə məxsus olan zinət əşyalarını oğluma vəsiyyət edəcəyəm; tapşıracağam, vəsiyyət edəcəyəm ki, mən öləndən sonra o ailəni, o qadının bacısını axtarıb tapsın, nəyim varsa, onlara versin və mənim – artıq bu dünyada olmayan anasının adından üzr istəsin.

Qadın uşağı qucaqlayıb öpdü və dedi:

– Mən bunu sənə görə edirəm, oğlum. Anana söz ver ki, onun dediklərini yerinə yetirəcəksən. Söz verirsənmi, Şarl?

– Söz verirəm, – uşaq cəsarətlə dedi.

Qadının əlini öpdüm, o isə uşağını nəvazişlə qucaqladı. Mən bir də heç vaxt onu görmədim.

Ərinin adını o qadın ona görə demişdi ki, elə bilirdi bu artıq mənə məlumdur. Mən də onun etibarına sadiq qalaraq nazirin adına yazdığım məktubda o adamın adını göstərmədim. Məktubu konvertə qoydum, heç kimə etibar eləməyib lazım olan yerə şəxsən özüm çatdırdım.

Həmin gün – ilin son gününün axşamı haradasa saat 9 radələrində qara paltar geyinmiş bir kişi qapını döyüb mənimlə görüşmək istədiyini

bildirdi, o vaxt xidmətçim olan gənc Ernest Defarjın müşayiətiylə içəri keçdi. Xidmətçi gəlib bu barədə mənə deyəndə sevimli arvadım olan gənc ingilis qadınıyla otaqda oturmuşdum; gələn adam bayırda gözləməli olduğu halda, Defarjla birlikdə o da gəlib qapının ağzında dayanmışdı.

– Sent Onore küçəsində yaşayan ağır xəstəyə təcili həkim lazımdır, – həmin kişi dedi; danışığından belə məlum oldu ki, ləngiyib vaxt itirməmək üçün gəldiyi faytonla da məni ünvana çatdırmaq istəyir.

O gecə məni evdən götürüb buraya – bu qəbrə gətirdilər. Evdən azca aralanan kimi arxadan kimsə məni tutub qara parçayla ağzımı bağladı, qollarımı da burub arxadan bağladılar. Küçənin qaranlıq küncündən çıxan qardaşlar dinməzcə işarə verdilər – yəni ki həmin adam mənəm, səhvə yol verilməyib. Nazirə yazdığım məktubu markiz cibindən çıxardıb mənə göstərdi, sonra fənərin alovuna tutub yandırdı, yerə atıb külünü ayağıyla tapdaladı; bir kəlmə də söz demədi. Məni gətirib burada diri-diri dəfn elədilər.

Əgər qardaşların qəlbində zərrə qədər insaf olsaydı, az da olsa, Allahdan qorxsaydılar, bu illər ərzində arvadımın ölü, ya da diri olması barədə mənə bir xəbər çatdırardılar. Amma bunu etmədilər. Mən bir daha əmin oldum ki, qanlı xaç möhrü onları əbədi olaraq nifrət və lənətə məhkum edib, böyük Yaradan onların qəlbini şeytan yuvasına çevirib. Mən, talesiz, bədbəxt Aleksandr Manett, 1767-ci ilin axırıncı gecəsi dözülməz əzablar içində o qardaşların hər ikisini, onların bütün nəslini ittiham edirəm, qoy öz əməllərinə görə cavab verib layiqli cəzalarını alsınlar. Qoy mənim səsimi göylər eşitsin, bütün dünya eşitsin.

Yazının oxunuşu başa çatan kimi zalda hay-küy qalxdı. Qəzəbli adamlar qışqırıb qan tələb edirdilər. Bu hekayət onsuz da intiqam alovuyla alışıb-yanan kütlənin qanını coşdurmuşdu, onun qarşısında tab gətirmək, hansısa başı kəsilməkdən qorumaq artıq mümkün deyildi.

Defarjların bu sənədi Bastiliya qalası alınarkən ələ keçmiş digər sənədlərdən ayırıb məhz bu gün üçün saxlamasından tribunala və publikaya danışmaq artıq mənasız idi. Lənətə gəlmiş bu ailəyə aid olan hər kəsin adının hələ çoxdan Sent Antuanda qara siyahıya düşdüyü barədə danışmaq da mənasız idi. Vətən və xalq qarşısında xidmətlərinin böyüklüyündən, cəmiyyətdə nə qədər yüksək avtoritetə malik olmasından asılı olmayaraq, indiki vəziyyətdə heç kim bu ittihamın qarşısında bir söz deyə bilməz, heç nə eləyə bilməzdi.

Müttəhimi çıxılmaz vəziyyətə salan digər səbəb də o idi ki, ona qarşı bu ittihamı irəli sürən adam adlı-sanlı həkim, hörmətli vətəndaş idi, ona çox yaxın olan adam idi, arvadının atasıydı, öz qayınatasıydı. O vaxt xalq arasında antik dövrə aid olan, həqiqətə uyğun olub-olmadığı isə sual doğuran ideyalar geniş yayılıb kök atmışdı ki, onlardan biri də vətən və xalq yolunda özünü qurban vermək ideyasıydı. Ona görə də məhkəmə sədri (onun öz başı da çiyinləri üstündə kifayət qədər möhkəm dayanmamışdı) çıxış edib "Respublikanın gözəl həkimi aristokrat zümrəsinə məxsus olan lənətəgəlmiş ailənin nəslini kəsib Yer üzündən silinməsində əvəzsiz xidmət göstərmişdir, onun öz qızını dul, nəvəsini isə yetim qoymaqdan belə çəkinməməsi hər kəsin qəlbində sevinc və iftixar hissi doğurmaya bilməz" deyəndə publika bunu mərhəmətdən əsər-əlamət olmayan coşqun, patriotik alqışlarla qarşıladı.

– Doktorun ətrafdakılara təsiri necədir, güclüdürmü? – madam Defarj mızıldayıb qımışdı, İntiqama göz vurdu. – Buyurun, doktor, onu xilas edin, görüm bacaracaqsınızmı?

Hər məhkəmə iclasçısının səs verməsi gurultulu alqışlara səbəb olurdu. Hamısı bir-bir səs verdi. Yekdilliklə qəbul olunan ölüm hökmü belə idi: xalqın zülmkarı, Respublikanın düşməni, ruhən və cismən aristokrat olan nifrətəlayiq ailənin nümayəndəsini dərhal Konserjeri həbsxanasına qaytarıb iyirmi dörd saat ərzində edam etməli!

XI fəsil

ALA-TORAN

Ölüm hökmünün elan olunması ölümə məhkum edilmiş günahsız kişinin bədbəxt arvadına ölümcül zərbə vurdu. Amma içindən gələn bir səs deyirdi ki, dözülməz dərəcədə ağır və kədərli məqamda onun yeganə köməyi sənsən, odur ki qadın bir kəlmə də dinib-danışmadan, həniri də eşidilmədən o dəhşətli zərbədən aldığı ölümcül yaranın ağrısına davam gətirə bildi.

Məhkəmə üzvləri hansısa küçə nümayişində iştirak etməliydilər deyə məhkəmənin işində fasilə elan olundu. Zalda səs-küy qalxdı, hamı hərəkətə gəlib zaldan çıxmağa başlayanda Lüsi ayaq üstə dayanıb əllərini ərinə tərəf uzatmışdı, sevgi dolu baxışlarla baxırdı, bu son anda heç olmasa ona toxunmaq, qucaqlamaq istəyini gizlədə bilmirdi.

– Ah! Kaş ki ona toxuna biləydim! Kaş ki onu heç olmasa bircə dəfə qucaqlayıb bağrıma basa biləydim! Möhtərəm vətəndaşlar, bizə rəhm edin!

Zalda məhbus, nəzarətçi, məhbusu zala gətirən dörd mühafizəçidən ikisi, bir də Barsed qaldı. Qalan adamlar hamısı axışıb küçəyə çıxdı. Barsed məhbusun yanında qalanlara dedi: "Gəlin imkan verək bir anlığa da olsa, ərini qucaqlasın". Etiraz edən olmadı, hətta oturacaqların üstündən keçib məhbusa yaxınlaşmalı olan Lüsiyə kömək də elədilər. Çarlz dayandığı hündür yerdəki məhəccərin üstündən əyilib Lüsini qucaqladı.

– Əlvida, əzizim, ruhum, həyatım! Mən səni öz sevgimə tapşırıb gedirəm. Əzab çəkmiş insanların rahatlıq tapdığı yerdə biz sənlə görüşəcəyik! – Bu, Lüsini qucaqlayıb bağrına basan Çarlzın sözləriydi.

– Əzizim Çarlz, mən bu dərdə dözəcəyəm. Mənə görə üzülmə, göylər mənə güc verir. Ayrılıq dəmində balamıza dua et.

– Mənim dualarımı ona çatdır. Onun əvəzinə səni öpürəm. Sənə əlvida deyib balamızla da vidalaşıram.

– Ah, əzizim. Yox. Bir dəqiqə! – Çarlz aralanmaq istəyəndə Lüsi onu buraxmadı. – Bizim ayrılığımız çox çəkməyəcək. Hiss edirəm ki, ürəyim bu dərdə dözməyəcək. Amma nə qədər gücüm var, qızımız üçün əlimdən gələni edəcəyəm, mən bu dünyada olmayanda isə Allah özü kömək olacaq, mənə qismət elədiyi dostlardan ona da göndərəcək.

Doktor yaxınlaşıb onların qarşısında diz çökmək üçün əyiləndə Çarlz əlini uzadıb onu tutdu.

– Yox! Yox! Siz neyləyirsiniz, siz neyləyirsiniz? Diz üstə niyə çökürsünüz? Biz ancaq indi başa düşürük sizi qocaldan nə olub. Biz indi başa düşürük mənim atamın kimliyi barədə şübhələndiyiniz vaxtdan bəri necə çətin anlar yaşamısınız; nəhayət, şübhələriniz özünü doğrultdu. İndi necə çətinliyə düşdüyünüzü də bilirik. Siz qızınızın xatirinə hər şeyə dözmüsünüz, nifrət etdiyiniz bir ailənin nümayəndəsini onun xatirinə bağışlamısınız. Biz sizə minnətdarıq, sizi sevirik və sizə borcluyuq. Allah köməyiniz olsun!

Doktorunsa cavabı o oldu ki, dəhşətli əzab içində qışqırıb ağ saçlarını yolmağa başladı.

– Başqa cür də ola bilməzdi, – məhbus dedi. – Hadisələrin inkişafı eləydi ki, gəlib məhz bu nöqtəyə çatmalıydı. Anamın vəsiyyətini yerinə yetirmək üçün elədiyim cəhdlər nəticə vermədi, əksinə, iş elə gətirdi ki, sizinlə tanış oldum, sizi də bədbəxt elədim. Cinayət və günahla başlanan işin sonu xoşbəxtlik ola bilməz. Mənə görə üzülməyin, bağışlayın. Allah köməyiniz olsun!

Darneyi dartıb araladılar. Lüsi ona baxa-baxa qaldı; dua eləmək üçün əllərini qaldırdı, gözləri sevgi və mərhəmət nuruyla doluydu, dodaqlarında bir təbəssüm donub-qalmışdı. Həbsxanaya aparan qapıdan Darney içəri keçib yox olan kimi Lüsi çevrilib atasını qucaqladı, başını onun sinəsinə sıxdı; nəsə demək istədi, amma bacarmadı, huşunu itirib yerə yıxıldı.

Zalın qaranlıq küncündə dayanıb baxan Sidni Karton yaxınlaşıb Lüsini qaldırdı. Doktor Manettdən, bir də mister Lorridən başqa, orada heç kim yox idi. Yerə yıxılmış Lüsini qaldıranda Kartonun əlləri

titrəyirdi, huşunu itirmiş qadının yana sallanmış başını bir əliylə çevirib sinəsinə sıxdı ki, narahat olmasın. Bu anda onun keçirdiyi hisslər təkcə mərhəmət və təəssüfdən ibarət deyildi, Karton hansısa gizli bir iftixar hissi də duyurdu.

– Əsla ağır deyil, – Karton dedi. – Bəlkə, elə birbaşa faytona aparım?

Karton huşsuz Lüsini məhkəmə zalından çıxardıb küçədə dayanmış faytonun içindəki oturacağa uzatdı. Doktor Manettlə mister Lorri də içəri keçdilər, Karton isə faytonçunun yanındakı oturacaqda oturdu.

Fayton gəlib doktorun mənzili yerləşən həyətin qapısına çatanda Karton Lüsini qucağına alıb daş döşənmiş ensiz yoldan keçərək pilləkənlə yuxarı qalxdı, – bir neçə saat öncə Lüsinin bu daşların üstüylə addımladığını təsəvvüründə canlandırıb öz-özünə "Qoy biz də bu yoldan keçək, ayağımız bu daşlara dəysin" deyən Karton indi Lüsini qucağına alıb o yolu keçirdi. Otağa daxil olub Lüsini divanın üstünə uzatdı. Balaca Lüsi ilə miss Pross ağlayıb göz yaşı tökdülər.

– Səs salıb onu oyatmayın, – Karton yavaşca pıçıldayıb miss Prossa dedi, – belə yaxşıdır. Müvəqqəti olaraq huşunu itirib, hələlik bu vəziyyətdə qalsa yaxşıdır.

– Ah, Karton, Karton, əzizim Karton! – balaca Lüsi qışqırdı, qaçıb Kartonun boynuna sarılaraq kədərli göz yaşları içində dedi: – Mən bilirəm ki, siz anama kömək edəcəksiniz, atamı xilas etmək üçün əlinizdən gələni əsirgəməyəcəksiniz! Görün anam nə gündədir! Siz həyatda hamıdan artıq sevdiyiniz bir adamı belə görmək istərdinizmi?

Karton əyilib üzünü uşağın yanağına toxundurdu, sonra da huşsuz uzanıb qalmış Lüsiyə baxdı.

– Getməmişdən əvvəl olarmı, – deyib Karton fasilə verdi, – onu öpüm?

Bu səhnənin şahidi olanlar sonradan o günü xatırlayıb deyirdilər ki, Karton əyilib dodaqlarını Lüsinin üzünə toxundurdu və öz-özünə nəsə mızıldandı. Balaca Lüsi lap yaxındaydı və çox sonralar – böyüyüb qəşəng qız, gözəl qadın, xoşbəxt nənə olanda da tanıdığı adamlara, öz nəvələrinə danışırdı ki, Kartonun o anda pıçıldayıb öz-özünə "Bu insanı sən öz həyatından artıq sevirsən" dediyini öz qulağıyla eşidib.

Karton otaqdan çıxdığı anda geri çevrildi, arxasınca gəlib onu müşayiət eləyən mister Lorriyə və doktor Manettə baxdı, doktora müraciətlə dedi:

– Siz dünən adamlara çox güclü təsir edə bildiniz, doktor Manett, bu gün də cəhd edin. Məhkəmə üzvləri, hakimiyyətdə olan adamlar hamısı sizin xidmətlərinizi yüksək qiymətləndirir, onlarla münasibətiniz yaxşıdır, elədirmi?

– Çarlzla bağlı olan hər şeydən xəbərim var idi, mənə vəd verib demişdilər ki, hər şey yaxşı olacaq, siz onu xilas edə biləcəksiniz. Elədim də. – Doktor çox həyəcanlıydı, ləng danışırdı.

– Yenə cəhd eləyin. Sabahacan vaxt var, amma çox azdır. Hər halda, yenə cəhd eləyin.

– Cəhd edəcəyəm, hökmən edəcəyəm. Onsuz da heç cür sakit ola bilmirəm.

– Çox yaxşı. Mən bilirəm ki, siz öz güclü iradəniz və enerjiniz sayəsində çox maneələr dəf etmisiniz, – Karton belə deyib köksünü ötürdü, azca gülümsəyib əlavə elədi: – Amma, yəqin ki, beləsiylə üzləşməmisiniz. Hər halda, bir də cəhd edin! Həyat boş yerə sərf olunubsa, elə bir qiyməti olmur, amma, hər halda, onu xilas etmək üçün çalışmağa dəyər. Həyatı xilas etmək üçün çəkilən zəhmətlərin faydası olmasa belə, itki o qədər böyük olmur.

– Mən bu saat gedəcəyəm, – doktor Manett dedi, – prokurorun, məhkəmə sədrinin yanına gedəcəyəm; başqaları da var, adlarını çəkmək istəmirəm, onların yanına gedəcəyəm. Həm də yazacağam... Bir dəqiqə dayan görüm! Bu saat şəhərdə nümayişdir, axşam düşənəcən heç kimi tapmaq mümkün olmayacaq.

– Bəli, düz deyirsiniz. Yaxşı! Ümid çox azdır, hava qaralanacan gözləsəniz, itki çox olmayacaq. Düzünə qalsa, mən nəyəsə ümid eləmirəm. Amma, hər halda, sizin fikrinizi də bilmək istərdim. Bu dəhşətli hakimiyyətin nümayəndələriylə nə vaxt görüşmək fikrindəsiniz, doktor?

– Hava qaralan kimi; ümidvaram ki, bir-iki saatdan sonra görüşə biləcəyəm.

– Saat 4-dən sonra hava qaralır. Bir-iki saat da vaxtı uzatmaq olar. Əgər saat 9-da mister Lorrinin yanına gəlsəm, onun vasitəsilə, ya da elə birbaşa özünüz nə iş gördüyünüz, nəyə nail olduğunuz barədə mənə bir xəbər çatdıra bilərsinizmi?

– Çatdıraram.

– Sizə müvəffəqiyyətlər!

Sidnini müşayiət edən mister Lorri qapıya çatanda onun çiyninə toxundu. Sidni çevrildi.

– Mənim ümidim yoxdur, – mister Lorri kədərli, yavaş səslə pıçıldadı.

– Mənim də heç bir ümidim yoxdur.

– Əgər hakimlərdən kimsə bir nəfər, yaxud, deyək ki, hakimlərin hamısı onun həyatını xilas etmək fikrinə düşsə belə, – bu isə çox az ehtimal olunandır və belə baxanda onun həyatı, yaxud başqasının həyatı onlar üçün nədir ki! – məhkəmə zalındakı o cür coşqun alqışlardan sonra başqa bir qərar verəcəklərinə heç cür inana bilmirəm.

– Mən də inana bilmirəm. Məhkəmədə camaatın çıxardığı səs, məncə, gilyotinin səsindən fərqlənmirdi.

Mister Lorri qapının çərçivəsinə söykənib başını əydi.

– Ruhdan düşməyin, – Karton nəvazişlə dedi, – özünüzü bu qədər üzməyin. Mən doktor Manettə bu ideyanı ona görə təlqin elədim ki, Lüsi üçün bir gecə də ümidlə yaşamaq çox şeydir, əks təqdirdə, fikirləşib özözünə "Onun həyatı boş yerə məhv edildi, ömrü puç oldu" deyə bilər, daha çox həyəcanlanar.

– Bəli, düz deyirsiniz, – mister Lorri göz yaşlarını silib dedi, – siz çox düz deyirsiniz. Amma o artıq məhv olub, nəyəsə ümid etmək reallıqdan çox uzaqdır.

– Bəli, o artıq məhv olub, ümid yeri qalmayıb, – Karton belə deyib pilləkənlə aşağı düşdü.

XII fəsil

ZÜLMƏT QARANLIQ

Sidni Karton küçədə ayaq saxladı, hara getməli olduğunu özü də bilmirdi. Fikirli halda öz-özünə dedi: "Saat 9-da Tellson Bankda olmalıyam. O vaxtacan buralarda görünməyim yaxşımı olar? Məncə, yaxşı olar. Mənim kimi adamın bu şəhərdə olmasını adamlar görsələr yaxşıdır; ehtiyat üçün lazımdır, bir növ zəruri hazırlıq tədbiridir. Amma fikirləşmək, çox da ehtiyatlı olmaq lazımdır".

Bir neçə addım gedəndən sonra geri dönüb qaranlıq küçədə gəzə-gəzə fikirləşdi ki, o yerə getməyə dəyərmi? Bunun nəsə bir nəticəsi ola bilərmi? İlkin təəssüratın doğru olduğu təsdiq olunanda isə öz-özünə dedi: "Düzgün fikirdir. Qoy camaat görsün ki, bu şəhərdə mənim kimi bir kişi peyda olub". Qərar qəbul olundu, Karton çevrilib Sent Antuan tərəfə yollandı.

Bu gün məhkəmədə ifadə verən Defarj özünü təqdim edib dedi ki, Sent Antuanda çaxır dükanı sahibidir. Şəhəri yaxşı tanıyan adam heç kimdən heç nə soruşmadan da o dükanı asanlıqla tapa bilərdi. Karton axtardığı binanın yaxınlığına gəlib o ərazidəki yeməkxanalardan birində yemək yedi, sonra da yatıb dincini aldı. Neçə illərdən bəri ilk dəfəydi ki, yemək vaxtı tünd içki içmirdi. Dünəndən bəri bir az yüngül çaxır içmişdi, ötən axşam isə mister Lorrinin otağında konyakın axırıncı stəkanını ocağa tökdü, – sanki bununla da içməyin daşını atmaq istəyirdi.

Haradasa saat 7-də oyanıb gümrah addımlarla yeməkxanadan çıxdı. Sent Antuana gedən yolun üstündəki dükanın güzgülü vitrini qarşısında dayanıb əzik, sallaq qalstukunu qaydaya saldı, pencəyinin boyunluğunu

düzəltdi, üz-gözünə dağılmış saçlarını sığallayıb qaydaya saldı, sonra da Defarjın çaxır dükanına yollandı.

Dükanda cəmi bir müştəri var idi ki, o da narahat barmaqlarının əlində qalmış kimi görünən daim xırıltılı səslə danışan üçüncü Jak idi. Karton bu kişini məhkəmə iclasçılarının arasında görmüşdü, indi isə o, piştaxtanın qarşısında dayanıb nəsə içir, Defarj və onun arvadıyla nə barədəsə danışırdı. Bura həmişə gəlib-gedən, etibar qazanıb inanılmış adam kimi söhbətdə İntiqam da iştirak edirdi.

Karton dükanda yer seçib oturdu, adətən danışdığı fransız dilindən tam fərqli bir dildə danışaraq içməyə bir az çaxır istədi. Madam Defarj müştəriyə ötəri bir nəzər saldı, sonra diqqətlə, lap diqqətlə baxdı, yaxına gəlib nə lazım olduğunu soruşdu.

Karton sifarişi təkrar elədi.

– İngilissiniz? – madam Defarj qara qaşlarını qaldırıb maraqla soruşdu.

Karton küt baxışlarla elə baxdı, sanki bu bir kəlmə sözü də anlamaqda çətinlik çəkirdi; nəhayət, aydın hiss olunan ingilis ləhcəsiylə cavab verib dedi:

– Bəli, madam, bəli, mən ingilisəm!

Madam Defarj qayıdıb piştaxtaya tərəf getdi ki, sifariş olunan çaxırı gətirsin, Karton isə stolun üstündəki yakobin jurnalını götürüb vərəqləməyə başladı, özünü elə göstərdi ki, guya orada yazılanları çox çətinliklə başa düşür, bu vaxt madam Defarjın "Allah haqqı, elə bil Evremonddur!" dediyini eşitdi.

Defarj çaxırı gətirib stolun üstünə qoydu, müştəriyə: "Axşamınız xeyir", – dedi.

– Nə-ə?

– Deyirəm axşamınız xeyir.

– Oh! Axşamınız xeyir, vətəndaş, – Karton stəkana şərab süzə-süzə dedi. – Ah! Yaxşı çaxırdır. Respublikanın sağlığına.

Defarj piştaxtanın yanına qayıdıb "Hə, düzdür, bir az oxşayır" deyəndə isə arvadı inciyib dedi: "Bir az oxşayır nədir? Elə bil bir almadır yarı bölünüb". Üçüncü Jak sakitcə dedi: "Yəqin, Evremond barədə çox fikirləşirsiniz, madam, ona görə sizə elə gəlir". İntiqam isə gülümsəyib dedi: "Mən də o fikirdəyəm. Yəqin ki, sabah onu bir də görmək istəyi sizə rahatlıq vermir!"

Həmin vaxt Karton köntöy bir ədayla barmağını jurnalın açıq səhifəsindəki sözlərin üstündə gəzdirib, guya çox çətinliklə başa düşürmüş kimi höccələyərək oxuyurdu. Defarjlar, üçüncü Jak və İntiqam isə piştaxtanın yanında başlarını aşağı salıb yavaşdan danışırdılar. Sonra dördü də susub bütün diqqətini yakobin jurnalında yazılanları oxumağa yönəltmiş, ətrafda baş verənlərdən tamamilə xəbərsiz kimi görünən müştəriyə baxdı. Nəhayət, bayaqkı gizli söhbəti bərkdən danışaraq davam etdirdilər.

– Madam düz deyir, – üçüncü Jak dedi. – Niyə də dayanmalıyıq? Burada böyük güc var. Niyə dayanaq?

– Yaxşı, siz deyən olsun, – Defarj dedi. – Amma biz haradasa dayanmalıyıq. Bütün məsələ də ondadır ki, harada dayanmalıyıq?

– Hamısının kökünü kəsəndən sonra, – madam dedi.

– Nə gözəl dediniz! – üçüncü Jak xırıltılı səslə dedi. İntiqam da bu təklifi alqışladı.

– Köklərini kəsmək yaxşı təklifdir, madam, – Defarj dedi, nəyə görəsə həyəcanlandı, – ümumiyyətlə götürsək, mənim etirazım yoxdur. Amma bir iş də var ki, doktor onsuz da həyatda çox əzab çəkib; bu gün yazı oxunanda onun necə əzab çəkdiyini özünüz də gördünüz.

– Mən onun üzünün nə kökə düşdüyünü gördüm! – madam Defarj incik halda ikrahla dedi. – Bəli, mən onun üzünü gördüm. Mən onun üz-gözündən gördüm ki, o adam Respublikanın həqiqi tərəfdarı deyil. Qoy öz üzü barədə fikirləşsin!

– Əzizim, sən onu da gördünmü, – Defarj az qala yalvararaq dedi, – onun qızı necə əzab çəkirdi, nə günə düşdü? Doktor bunu görüb sakit dayana bilərdimi?

– Mən onun qızını da gördüm, – madam cavab verdi, – bəli, gördüm; özü də birinci dəfə deyildi görürdüm. Mən onun üzünü bu gün gördüm, başqa vaxt da görmüşəm. Mən onun üzünü məhkəmədə gördüm, həbsxananın yanındakı küçədə də görmüşəm onun üzünü. Mənim barmağımın bir işarəsi bəsdir ki...

Deyəsən, madam barmağını qaldırdı (dükandakı yeganə müştəri isə gözünü Yakobin jurnalından çəkmirdi), sonra da endirib piştaxtanın qırağına elə vurdu, sanki balta ilə baş kəsirdi.

– Əsl vətəndaş belə olar! – məhkəmə iclasçısı xırıltılı səslə dedi.

– Sən mənim mələyimsən! – İntiqam belə deyib rəfiqəsini qucaqladı.

– Sənə qalsaydı, – madam Defarj amansızlıq ifadə edən gözləriylə ərinə baxdı, – əgər bu iş tək səndən asılı olsaydı, – xoşbəxtlikdən, elə deyil, – sən o adamı elə bu saat azad edərdin.

– Yox! – Defarj etiraz elədi. – Yox, yox, elə deyil. Əgər bu iş su içimi qədər asan bir məsələ olsaydı belə, azad eləməzdim! Amma söhbəti burada yekunlaşdırmaq istəyirəm. Mən demək istəyirdim ki, biz haradasa dayanmalıyıq.

– Eşidirsən, Jak, – madam Defarj qəzəblə dedi, – sən də eşit, mənim gözəlim İntiqam, hər ikiniz eşidin! Eşidin! Xalqa zülm eləyən bu tiranları mən hələ çoxdan qara siyahıya salıb ölümə məhkum eləmişdim. İnanmırsınızsa, ərimdən soruşun.

– Düz deyir, – Defarj sual veriləcəyini gözləmədən dedi.

– Bu möhtəşəm günlərin lap başlanğıcında, Bastiliya alınan gün Defarj kağızları tapıb evə gətirdi. Gecəyarısı, hamı çəkilib evə gedəndən sonra biz bu lampanın işığında, bax elə burada oturub hamısını başdan-ayağacan oxuduq. Əgər inanmırsınızsa, özündən soruşun.

– Düz deyir, – Defarj yenə təsdiq elədi.

– O gecə mən öz sirrimi ona açdım. İki əlimlə bax bu cür sinəmə vurub dedim: "Defarj, dəniz sahilindəki balıqçı kəndində, gözdən uzaq, könüldən iraq bir yerdə böyüməyə göndərilən o qız mən idim, Bastiliya həbsxanasından tapdığın kağızlarda təsvir olunan kəndli ailəsi mənim ailəmdir, Evremond qardaşlarının dağıdıb məhv elədiyi ailə bizim ailə idi. Ölümcül yaralanmış oğlan mənim qardaşımdı, əzablar içində ölən qız mənim bacımdı, o qızın ölən əri mənim yeznəmdi, doğulmamış ölən o uşaq mənim bacımın övladıydı, dərddən ürəyi partlayıb ölən mənim atamdı, o ölənlər hamısı mənim yaxın qohumlarımdı, – mən bu cinayətlərə görə cavab verilməsini tələb edirəm!" Bax belə dedim, özündən soruşa bilərsiniz.

– Düz deyir, – Defarj yenə təsdiq elədi.

– Onda küləyə, alova harada dayanmalı olduğunu de, – madam Defarj dedi, – amma mənə demə.

Hər iki dinləyici nifrət dolu, qəzəbli çıxışı maraqla dinləyib yüksək qiymətləndirdilər. O biri dinləyici – Karton o tərəfə baxmadan da madam Defarjın necə ağappaq ağardığını hiss edirdi. Təklənib azlıqda qalmış Defarj markizin artıq bu dünyada olmayan arvadının necə təəssüfləndiyinə toxunub gərginliyi bir qədər azaltmaq istəsə də, arvadı

bayaqkı cavabı təkrar eləyib qəzəblə dedi: "Küləyə, alova harada dayanmalı olduğunu deyə bilərsən, mənə heç nə demə!"

Dükana bir neçə müştəri daxil oldu, Defarjgilin dəstəsi söhbəti kəsib dağıldı. Bayaqdan bəri oturub çaxır içən müştəri yaxınlaşıb içkinin pulunu ödədi, pulun xırdasını köntöycəsinə sayıb cibinə qoydu, sonra da nəbələd adamlara xas olan bir ədayla fransız dilinin qol-qıçını sındıra-sındıra soruşdu ki, Xalq sarayına necə gedə bilər. Madam Defarj onun yanına düşüb qapının ağzınacan gəldi, bir əliylə müştərinin qolundan tutdu, o biri əlini qaldırıb qabağa uzadaraq Xalq sarayına necə getməli olduğunu izah edəndə Kartonun beynində bir fikir dolaşırdı: kaş ki əlində iti bir bıçaq olaydı, onu yuxarı qalxmış qolun altından var gücüylə bu arvadın düz ürəyinə saplayaydı.

Karton yola düzəlib getdi, tezliklə də həbsxana divarlarının kölgələri arasında yox oldu. Təyin olunmuş vaxtda o, mister Lorrinin otağına daxil oldu. Qoca centlmen həyəcan içində var-gəl edirdi. Mister Lorri dedi ki, Lüsinin yanındaymış, yalnız Kartonla görüşməli olduğu üçün bir neçə dəqiqəliyə bura gəlib. Doktor Manett saat 4-də bankdan çıxıb gedib, indiyəcən ondan heç bir xəbər yoxdur. Lüsi az da olsa, ümid edir ki, atası, bəlkə də, Çarlzı xilas eləyə bildi, amma bu, inandırıcı görünmür. Beş saatdan çoxdur ki, doktor yoxdur, indiyəcən harada ləngimiş olar?

Mister Lorri saat 10-a qədər gözlədi, doktor Manett isə hələ də gözə dəymirdi. Belə olanda o, Lüsidən nigaran olduğunu deyib Kartondan ayrıldı, saat 12-də gələcəyini vəd edib getdi. Karton sobanın yanında tək-tənha oturub gözləməli oldu.

Karton gözlədi, gözlədi. Saat 12-ni vurdu, doktor Manett isə hələ də yox idi. Mister Lorri gəlib çıxdı, doktordan heç bir xəbər gətirməmişdi, burada da yenilik yox idi. Görəsən, doktor indiyəcən harada ləngimiş olar?

Mister Kartonla mister Lorri bu barədə danışır, hətta doktorun uzun müddət davam edən yoxluğunu yaxşı tərəfə yozaraq nəyəsə ümid eləməyə başlamışdılar. Elə bu məqamda pilləkənlə qalxan doktorun ayaq səsləri eşidildi, az keçməmiş o, qapını açıb içəri girdi. Onu görən kimi də hər ikisi başa düşdü ki, heç bir ümid yeri qalmayıb – doktor heç nə eləyə bilməyib.

Doktor kiminsə yanında olub, yoxsa indiyəcən küçələrdə gəzib-dolaşıb – bunu heç kim bilmirdi. Doktor dik dayanıb dinməzcə baxırdı, onlar heç nə soruşmadılar, amma hər şeyi onun üzündən oxudular.

– Mən onu tapa bilmirəm, – doktor dedi, – mən onu tapmalıyam. Bilmirsiniz haradadır?

Doktor şlyapasını çıxartmışdı, köynəyinin yaxası açıq idi, danışa-danışa aciz və köməksiz halda boylanıb nəsə axtarırmış kimi ətrafa baxdı, pencəyini çıxardıb döşəməyə atdı.

– Mənim oturacağım hanı? Baxmadığım yer qalmayıb, tapa bilmirəm. Əlimdə iş görürdüm, hanı o? Neyləmisiniz? Vaxt yoxdur, mən ayaqqabıları tikib qurtarmalıyam.

Mister Kartonla mister Lorri bir-birinin üzünə baxdı, ürəkləri düşdü.

– Gəlin, tez olun! – bədbəxt görkəm almış doktor mızıldayıb dedi. – İşim tökülüb qalıb. İmkan verin işimi görüm.

Ona cavab verilmədi, belə olanda isə əl atıb saçlarını yolmağa, neylədiyini, nə istədiyini bilməyən balaca uşaq kimi ayaqlarını yerə döyməyə başladı.

– Bədbəxt adamla oyun oynamayın, – doktor yalvarıb dəhşət içində qışqırdı, – imkan verin işimi görüm! Bu gecə mən o ayaqqabıları tikib qurtara bilməsəm, heç bilirsiniz bizim başımıza nə gələcək?

Başını itirib, tamam itirib!

Doktoru ağıllandırmaq cəhdi yersiz idi və onlar sanki əvvəlcədən razılaşıblarmış kimi yaxınlaşıb onun qolundan tutdular, dilə tutub sobanın qarşısındakı stulda oturdular, dedilər ki, bu saat çəkməçi ləvazimatını axtarıb tapacaqlar. Doktor stulda oturub gözünü ocaqdakı köz qalağına dikdi, fikrə getdi, göz yaşları axıb yanaqlarını islatdı. Sanki çardaqdan sonra baş verənlər hamısı fantaziya, ya da yuxu imiş və mister Lorriyə elə gəldi ki, heç nə dəyişməyib, doktor da Defarjın himayəyə götürüb evin çardağında saxladığı həmin kişidir.

Hər iki kişi dəhşətli həyəcan içindəydi, onlar insanın məhv olduğu tamaşaya baxırdılar, amma indi emosiyalara qapılmağın vaxtı deyildi. Onun tək qalmış qızı, son ümid yeri və dayağı olan adamını da itirmiş qadın barədə fikirləşmək lazım idi. Yenə də sanki əvvəlcədən razılaşıblarmış kimi kişilər baxışdılar. İlk olaraq Karton dilləndi:

– Son ümid də puç oldu; əslində, ümid eləməli bir şey də yox idi. Deməli, belə; yaxşı olar ki, qızının yanına aparılsın. Amma getməmişdən

əvvəl xahiş edirəm, mənə diqqətlə qulaq asasınız. Bu, mümkündürmü? Söz verin ki, məndən heç nə soruşmayacaqsınız, nə desəm, ona əməl edəcəksiniz; bu cür hərəkət etmək üçün mənim əlimdə kifayət qədər tutarlı əsas var.

– Mənim əsla şübhəm yoxdur, – mister Lorri dedi, – sözünüzü deyin.

İki kişinin arasındakı stulda oturmuş varlıq inildəyib o üz-bu üzə çevrilirdi, kişilər isə yavaşdan elə danışırdılar, sanki ağır xəstənin çarpayısı yanında gecə səhərəcən növbə çəkməli olan adamlar öz aralarında dərdləşirdilər.

Karton əyildi ki, doktorun yerə düşüb əl-ayağa dolaşan pencəyini qaldırsın. Bu vaxt pencəyin cibindən gün ərzində doktorun görəcəyi işlərlə bağlı qeydlər eləyib özüylə gəzdirdiyi bloknot yerə düşdü. Karton bloknotu qaldıranda onun arasında dörd qatlanmış bir kağız gördü.

– Bu kağıza baxsaq yaxşıdır, – Karton dedi, mister Lorri təsdiq işarəsi olaraq başını tərpətdi. Karton kağızı açdı, gözdən keçirib həyəcanla dedi:

– Allah, sənə şükür!

– Nə olub? – deyə mister Lorri maraqlandı.

– Bir dəqiqə! Mən bu saat deyəcəyəm nə olub. Birincisi, – Karton belə deyib əlini pencəyin cibinə soxdu, eynən belə bir kağız çıxartdı, – bu mənə Parisdən çıxmaq hüququ verən sənəddir. Bura baxın, görürsünüz nə yazılıb? Sidni Karton, ingilis. Gördünüz?

Mister Lorri kağızı əlində tutaraq mister Kartonun həyəcanlı sifətinə baxırdı.

– Qoy bu kağız səhərəcən sizdə qalsın. Əgər yadınızdan çıxmayıbsa, mən səhər onu görməliyəm və yaxşı olar ki, bu kağızı həbsxanaya aparmayım.

– Niyə?

– Bilmirəm, mənə elə gəlir ki, belə yaxşıdır. İndi isə doktor Manettin həmişə özüylə gəzdirdiyi kağıza baxın. Bu da həmin sənədə oxşar bir sənəddir və ona, qızına, eləcə də nəvəsinə imkan verir ki, istədikləri vaxt Parisdən çıxa bilsinlər, hətta Fransadan çıxıb getmək hüququ da verir. Başa düşürsünüzmü?

– Bəli!

– Görünür, o nəsə daha pis hadisənin baş verəcəyindən ehtiyatlanaraq bu sənədi dünən əldə edib. Baxım hansı tarixdə verilib? Yox, indi

bunun əhəmiyyəti yoxdur. Dayanıb baxmayın, bunu da özünüzün və mənim sənədimlə birlikdə saxlayın. İndi görün nə deyirəm. Bir-iki saat bundan əvvələ kimi əsla şübhə eləmirdim ki, onda belə bir sənəd var, yaxud istədiyi vaxt onu əldə edə bilər. Bu, müəyyən müddətə etibarlıdır, amma istənilən vaxt ləğv edə bilərlər, hətta mənə elə gəlir ki, tezliklə ləğv olunacaq.

– Bəyəm onları hansısa təhlükə gözləyir?

– Onları çox böyük təhlükə gözləyir. Madam Defarjın çuğulluğu sayəsində onları fəlakət gözləyir; mən bunu o qadının özündən eşitmişəm. Bu axşam o qadının necə danışdığını eşidəndən sonra anladım ki, onların həyatı üçün çox böyük təhlükə var. Vaxt itirmədən artıq sizin də tanıdığınız casusla görüşdüm, mənim ehtimallarımı o da təsdiqlədi, onu da əlavə elədi ki, həbsxana divarlarının yanında yaşayan odundoğrayan Defarjlarla əlbirdir, indi də madam Defarj onu hazırlayır ki, məhkəmədə çıxış edib desin ki, onun – Karton heç vaxt Lüsinin adını çəkmirdi – hər gün həbsxananın ətrafında gəzib-dolaşaraq məhbuslara nəsə işarələr verdiyini görüb. Bu ittiham bəs edər ki, onu edam etsinlər, hətta uşağını və atasını da edam edə bilərlər, çünki onunla birlikdə uşağıyla atasını da orada görüblər. Qorxmaq lazım deyil. Siz onların hamısını xilas edəcəksiniz.

– Allah eləsin, siz deyən kimi olsun, Karton! Amma təkbaşına mən bunu bacara biləcəyəmmi?

– Bacararsınız. Nə etməli olduğunuzu da deyəcəyəm. Hər şey sizdən asılıdır və bunu sizdən yaxşı heç kim bacarmaz. Yeni donos, olsun ki, sabah yox, o birisi gün, bəlkə də, iki-üç gündən sonra olacaq; ola da bilər ki, bir həftədən sonra baş tutsun. Bilirsinizmi, gilyotin qurbanları üçün ağlayıb göz yaşı tökmək, onlara rəğbət bəsləmək özü də ağır cinayət hesab olunur. Onu və atasını məhz bu cinayətdə ittiham edəcəklər, madam Defarj (bu qadının onlara necə nifrət etdiyini sözlə ifadə etmək mümkün deyil) öz ittihamını yeni dəlillərlə sübut etmək üçün o barədə hələ ki susur, amma, şübhəsiz ki, istədiyinə nail olmaq üçün heç nədən çəkinməyəcək. Siz, deyəsən, mənim dediklərimi eşitmirsiniz.

– Mən sizə çox diqqətlə qulaq asıram, dediklərniz məni elə sarsıdıb ki, bir anlığa da olsa, bunun başına gələn fəlakəti unutmuşam, – mister Lorri belə deyib doktor Manettin əyləşdiyi stulun söykənəcəyindən tutdu.

– Sizin pulunuz var, dəniz limanına mümkün qədər tez çatmaq üçün fayton tuta bilərsiniz. Mənim bildiyimə görə, siz artıq bir neçə gün əvvəl İngiltərəyə qayıtmağa hazırlaşırdınız. Sabah səhər tezdən at sifariş edib uzağı günorta saat 2-də yola düşmək lazımdır.

– Dediklərinizin hamısına əməl olunacaq.

Kartonun odlu-alovlu danışıq tərzi mister Lorriyə də təsir eləmişdi, sanki o da cavanlaşmışdı.

– Sizin gözəl ürəyiniz var. Bu işi sizdən başqa kimə etibar etmək olar? Ona da elə bu gecə çatdırın ki, qızının, özünün və atasının həyatı təhlükədədir. Təhlükənin mahiyyətini ona elə çatdırın ki, nə baş verdiyini düzgün başa düşsün, yoxsa deyəcək ki, qoy ərimlə birlikdə mənim də boynum vurulsun. – Karton bir anlığa fasilə verib, sonra daha böyük bir ustalıqla fikrini ifadə etməyə çalışdı. – Başa salın ki, uşağın və atasının xatirinə Parisi tərk edib sizinlə getməlidir. Deyin ki, bu onun ərinin xahişidir. Qoy bilsin ki, nəyəsə ümid edib gözləməkdənsə, yeganə düzgün çıxış yolu göstərilən saatda buranı tərk etməkdir. Necə bilirsiniz, atası bu vəziyyətdə onun sözünə baxacaqmı, dediklərinə əməl edəcəkmi?

– Əminəm ki, əməl edəcək.

– Mən də o fikirdəyəm. Elə eləyin ki, düz vaxtında hər şey yerli-yerində hazır olsun, faytonda hər kəs öz yerini tutub otursun, mən gələn kimi də vaxt itirmədən yola düşək.

– Mən belə başa düşdüm ki, hər necə olsa da, sizi gözləməliyəm, eləmi?

– Mənim icazə vərəqəm o biri sənədlərlə birlikdə sizdədir. Faytonda mənim üçün də yer saxlayarsınız. Elə ki gördünüz mən gəlib öz yerimi tutdum, dərhal İngiltərəyə tərəf hərəkətə başlayarsınız.

– Deməli, belə çıxır ki, – mister Lorri Kartonun möhkəm, inamlı əlini sıxıb dedi, – heç də hər şeyi qoca kişinin ümidinə buraxmırsınız, mənim yanımda gənc bir kişi, güclü köməkçi də olacaq.

– Allahın köməyi ilə hər şey olacaq! Amma mənə söz verin ki, indi burada razılaşdığımız plan üzrə hərəkət edəcəksiniz, heç bir halda nəyisə dəyişməyəcəksiniz.

– Heç nəyi dəyişməyəcəyəm, Karton.

– Sabahkı gün üçün yadınızda saxlayın: onsuz da onun həyatını xilas etmək mümkün deyil, amma sizin ləngiməyiniz, yaxud nəyisə dəyişməyiniz neçə adamın həyatı bahasına başa gələcək.

– Yadımdan çıxmaz. Ümidvaram ki, üzərimə düşən işi layiqincə yerinə yetirə biləcəyəm.

– Mən də öz üzərimə düşən vəzifəni yerinə yetirəcəyəm. İndisə sağ olun!

Karton bu sözləri ciddiyyət ifadə edən donuq bir təbəssümlə dedi, qoca centlmenin əlini dodaqlarına yaxınlaşdırıb öpdü, amma dərhal da çıxıb getmədi; sönməkdə olan ocağın qarşısında oturmuş doktoru ayağa qaldırıb geyindirməkdə mister Lorriyə kömək elədi, eyni zamanda həm də taleyin yeni zərbələrinə dözməyib növbəti dəfə ağlını itirmiş qocanı dilə tutub dedi ki, onu qəfəsə qoymadan tələb elədiyi alçaq stulla pinəçi ləvazimatını hökmən tapıb gətirəcək. Onlar ikilikdə köməkləşib doktoru evəcən gətirdilər, orada isə Lüsi – Karton ilk dəfə onlara gəlib viranəyə dönmüş öz ürəyini açanda o necə də xoşbəxt idi – qəm-qüssə içində tək-tənha oturmuşdu, səhəri də bu cür dirigözlü açacaqdı. Karton həyətə çıxıb Lüsinin pəncərəsindən görünən işığa baxdı, getməmişdən əvvəl ona dua oxuyub "əlvida!" dedi və uzaqlaşıb getdi.

XIII fəsil

ƏLLİ İKİ

Ölüm cəzasına məhkum olunmuş məhbuslar Konserjeri həbsxanasının qorxunc divarları arasında oturub ölümün yolunu gözləyirdilər. Bu gün onların sayı bir ildəki həftələrin sayı qədər idi; günortadan sonra əlli iki nəfərin də boynu vurulacaq, onlar kükrəyən həyat dənizinin sularında qərq olub əbədiyyətə qovuşacaqlar. Məhbuslar hələ kameradaydılar, amma onların yerini kimlərin tutacağı artıq məlum idi; qanları axıb dünənki qurbanların qanına qarışmağa macal tapmamış qanı onların qanıyla sabah qarışmalı olan növbəti qurbanlar artıq seçilib ayrılmışdı.

Qırx üstəgəl on iki: bu gün əlli iki nəfər edam olunmalıydı, onların arasında 70 yaşlı tacir var idi – o qədər var-dövlət də həyatını xilas edə bilməyib, 20 yaşlı paltartikən qızı nə yoxsulluğu, nə də geridəqalmışlığı qoruya bilməyib. İnsan çirkabından törəmiş olan epidemiya ağına-bozuna baxmadan rastına çıxan hər kəsi məhv elədiyi kimi, qeyri-insani əzablardan, məhrumiyyətlərdən və qəddarlıqdan törəmiş dəhşətli ruhi sarsıntı da insanları biçib tökürdü.

Tribunaldan birbaşa həbsxanaya gətirilmiş Çarlz Darney kamerada tək oturmuşdu; artıq heç nəyə ümid eləmirdi, özünü aldatmaq da istəmirdi. Məhkəmədəki dinləmələr vaxtı eşitdiyi hər sözdə öz ittihamını oxumuşdu. Artıq tam aydınlığıyla dərk edirdi ki, onu ittiham edən milyonlardır, xalqdır və heç kəs şəxsən öz gücünə, cəmiyyətdəki mövqeyinə istinad edərək onu xilas etmək iqtidarında deyil.

Amma, bununla belə, sevimli arvadının gözəl çöhrəsi gözünün qabağına gəlincə heç cür özünü sakitləşdirib edamın qaçılmaz olduğunu

qəbul eləyə bilmirdi. Onu həyata bağlayan tellər çox möhkəm idi, onların düyününü açıb boşaltmaq isə həddən artıq çətin məsələydi: çox böyük çətinliklər hesabına hansısa bağı azca boşaldıb açа bilsə də, başqa yerdəki düyün o saat dartılıb daha bərk bağlanırdı və onu açmağa başı qarışdığı vaxt artıq açmış olduğu bağ təzədən düyünlənirdi. Onun fikirlərində nəsə bir tələsiklik var idi, ürək döyüntüləri öz ritmini itirib sel kükrəməsinə oxşayan coşqunluqla çırpınır, edamın qaçılmaz olduğunu qəbul etmir, etiraz edirdi. Hətta bir anlığa da olsa, edam fikriylə razılaşanda özündən asılı olmayaraq, arvadıyla qızı gözünün qabağında canlanır, onu ittiham edir, qınayırdılar.

Amma bütün bunlar əvvəlcə beləydi. Sonra fikirləşdi ki, onun edam edilməsində qeyri-adi heç nə yoxdur, onsuz da hər gün neçə-neçə günahsız adam edam olunur, – bu fikir onu xeyli ürəkləndirdi. Daha sonra fikirləşdi ki, edam vaxtı onun özünü necə aparması, ölüm qarşısında şax dayanıb sınmaması son nəticədə yaxınlarının da bu fəlakəti dözümlə qarşılamasına kömək edə bilər. Daha yüksək, daha abstrakt kateqoriyalarla fikirləşərək xeyli sakitləşdiyini də hiss elədi.

Edamdan əvvəlki ilk gün hava qaralıb axşam düşənəcən belə oldu. Yazı yazmaq üçün lazım olan şeyləri almağa icazə verilirdi deyə o da yazı ləvazimatı, bir də şam alıb, həbsxanadakı bütün işıqlar söndürülənəcən oturub məktub yazdı.

Yazdığı uzun məktubda Lüsiyə demək istəyirdi ki, doktorun uzun illər həbsdə olduğu barədə ancaq elə onun, yəni ki Lüsinin dilindən eşidib, doktorun başına gələn fəlakətlərdə atasıyla əmisinin günahkar olduğunu isə elə keçmiş sənədlər məhkəmə zalında oxunandan sonra bilib. O artıq əvvəl də könüllü olaraq imtina elədiyi öz həqiqi familiyasını gizlətmək məcburiyyətində qalıb, indi bunun səbəbi aydındır, atası da bu fikrin tərəfdarı olub, hətta toy gününün səhəri şərt kəsib ki, əsl familiyanın elan olunması ancaq onun icazəsiylə mümkündür. Yalvarıb xahiş edirdi ki, atasının xatirinə o kağızlar barədə ondan heç nə soruşmasın; niyə onların varlığını unudub, qaladakı tapıntı barədə o vaxt çinar ağacının altında bazar günü axşamtərəfi oturub söhbət elədikləri vaxt necə olub ki, nəsə xatırlayıb, sonra da hər şeyi unudub, – bu barədə heç nə soruşmasın. Əgər atası o kağızlar barədə nəsə bilirdisə də, şübhə eləmirdi ki, Bastiliya qalası alınanda üsyançılar tərəfindən məhv edilib, çünki məhbuslardan sonra orada elə keçən hər şey barədə qəzetlər yazıb

geniş məlumat vermişdi, kağızlar barədə isə heç nə yazılmamışdı. Xahiş edib yalvarır, dərhal da əlavə edirdi ki, bunu demək artıqdır, amma, hər halda, Lüsi atasını dilə tutub sakitləşdirsin, – bunu o bacarır, – bir valideyn kimi onlar üçün əlindən gələni elədiyini, indi də nəyə görəsə özünü ittiham eləməsinə heç bir lüzum olmadığını desin. Sonra öz sevgisindən, dualarından yazır və xahiş edirdi ki, Lüsi qəm dəryasına batmasın, özünü övladına həsr etsin, atasına dayaq olsun; lap axırda isə yazırdı ki, əlbəttə, o dünyada onlar görüşəcəklər.

Doktor Manettə də eyni məzmunlu bir məktub yazdı, qızıyla arvadını ona tapşırdığını qeyd elədi, indi onların yeganə ümid yeri və dayağı sizsiniz, – bunu yazmaqda məqsədi doktoru ümidsizlikdən, yeni ruhi sarsıntılardan qorumaq idi.

Mister Lorriyə də bir məktub yazıb yaxınlarının hamısını ona tapşırdı, öz maliyyə məsələləri barədə ona məlumat verdi; ailənin yaxın dostu, hər dərdinə şərik olan bir insan kimi ona öz minnətdarlığını bildirdi. Özünə yaxın bildiyi adamların hamısı barədə düşündü, hər birinə məktub yazdı. Karton heç yadına da düşmədi; yaxınlar barədə fikirlər hansısa Karton barədə düşünməyə imkan vermədi.

Həbsxanadakı işıqlar söndürülənəcən məktubları yazıb hazırladı. Görəcəyi işləri tamamlayıb içi samanla dolu olan döşəyin üstünə uzananda fikirləşirdi ki, bu dünya ilə onunku burayacan imiş, hər şey burada bitib sona yetir.

Yuxuda parlaq bir dünya görürdü. Yenə Soho küçəsindəki evdəydi (ev nəsə əvvəlkindən tamam fərqli bir ev idi), o isə azad və xoşbəxt idi, baş vermiş hansısa möcüzə nəticəsində azadlığa çıxmışdı; ruhu, qəlbi nura qərq olmuşdu, yenə sevimli Lüsinin yanındaydı, arvadı ona deyirdi ki, o yatıb yuxu görüb, əslində, onlar heç vaxt ayrılmayıblar, Sohodan çıxıb heç yana getməyiblər. Sonra yuxusu qarışdı və bir pauza oldu, hətta aldığı cəza icra olundu – onun boynunu vurdular. Ölü də olsa, sakit idi. Belə baxanda hansısa bir dəyişiklik baş verməmişdi. Sonra yenə yuxusu qarışdı, yenə pauza oldu... yuxudan ayıldı. Tutqun bir səhər idi, harada olduğunu, nə baş verdiyini anlaya bilmədi; qəflətən hər şey aydınlaşdı, beynindəki duman çəkiləndə öz-özünə dedi: "Bu gün mənim edam günümdür!"

O gecə belə keçdi; səhər açılmışdı; həmin gün əlli iki baş kəsilməliydi. Artıq o, sakit idi, ümid edirdi ki, öz ölümünü kişi kimi qarşılayacaq.

Amma nədənsə fikri qarışmağa başladı, bunun qarşısını almağa gücü çatmırdı.

Həyatına son qoyacaq maşını indiyəcən görməyib. Maşının hündürlüyü yerdən neçə metrdir, neçə pilləkəni var, maşının hansı tərəfində dayanacaq, ilk toxunuş necə olacaq, ona toxunan əllər qana boyanıb qızaracaqmı, üzünü hansı tərəfə çevirəcəklər, edama birinci gedəcək, yoxsa ən axırda onu aparacaqlar? Bu və buna bənzər yüzlərlə sual beynində dolaşır, onun iradəsindən, istəyindən asılı olmayaraq, haradansa çıxıb bir ucdan gəlir, dəfələrlə təkrar olunurdu. Bu suallar qorxudan yaranmırdı, çünki o qorxmurdu, qorxmadığını da anlayırdı. Bəlkə də, bu onunla bağlıydı ki, istəyirdi bilsin həmin anda nə etməlidir; bu qarşısıalınmaz, güclü istək əsas hadisənin baş verəcəyi qısa vaxt çərçivəsinə sığışmırdı, maraq içində alışıb-yanan ruh da elə bil özününkü deyildi, hansısa başqa bir ruh idi, gəlib onun içinə girmişdi.

Saatlar keçir, məhbus kamerada ora-bura gəzirdi, saat əqrəbinin göstərdiyi rəqəmə uyğun olan zəng səslərini bir də heç vaxt eşitməyəcək. Onun üçün axırıncı dəfə səslənən saat 9-un zəngi, saat 10 tamamı bildirən zəng, saat 11 tamamı bildirən zəng vuruldu, tezliklə saat 12 tamamı bəyan edən – onun üçün sonuncu olan zəng də vurulacaq. Var gücüylə çalışırdı ki, artıq heç bir məna kəsb etməyən yorucu fikirlərdən yaxa qurtarsın və axır ki, bunu bacardı. Kamerada var-gəl edərək əzizlərinin adını təkrar edirdi. Bir sakitlik yarandı; istədiyinə nail olmuşdu: qorxunc fikirlər çəkilib getdi, indi o, kamerada ora-bura gedir, əzizləri üçün dua edirdi.

Son dəfə eşitdiyi saat 12 tamamın zəngi də vuruldu.

Bilirdi ki, edam saat 3-ə təyin olunub, amma adamları edama aparan arabalar küçələrdən ləng keçir, ona görə də onu həbsxanadan tez aparacaqlar. Çox güman ki, saat 2-də gəlib onu kameradan çıxaracaqlar, o vaxtacan özünü toxtaq saxlayıb ruhdan düşməməlidir, məhbus yoldaşlarına da ürək-dirək verib ruhdan düşmələrinə imkan verməməlidir.

Qollarını sinəsində çarpazlayıb kamerada ora-bura gedirdi; indi o, bir vaxt La Forse həbsxanasındakı kamerada ora-bura gəzişən yazıq məhbusa heç oxşamırdı. Saat 1 zənginin vurduğunu eşitdi, lakin təəccüblənmədi. Bir saat da belə keçdi, eynilə o biri saatlarda olduğu kimi, bu saatın zəngi də düz vaxtında vuruldu. Əsl dindar adamlar kimi Allaha dua elədi ki, bu çətin məqamda sakitdir, özünü ələ almağı bacarır. Öz-özünə: "Hələ bir saat da var", – deyib yenidən var-gəl elədi.

Kameraların arasındakı dəhlizdən daş döşəməylə yeriyən adamın ayaq səsləri eşidildi. Məhbus yerində donub-qaldı.

Kameranın qapısına açar soxub fırladılar. Qapı açılmamışdan əvvəl, ya da bəlkə, düz elə açılan anda kimsə ingilis dilində danışaraq yavaşdan dedi: "O məni burada heç vaxt görməyib, mən özüm də onunla üzbəüz gəlmək istəməmişəm. Siz içəri tək girin, mən burada gözləyəcəyəm. Vaxt itirməyin!"

Qapı tez açıldı, dərhal da bağlandı. Məhbusun qarşısında şəhadət barmağını xəbərdaredici tərzdə dodaqlarının üstünə qoymuş, üzündə yüngül bir təbəssüm olan Sidni Karton üzbəüz dayanıb diqqətlə ona baxırdı.

Kartonun baxışları elə işıqlı, elə diqqətəlayiq idi, hətta bir anlığa məhbusa elə gəldi ki, deyəsən, ağlı çaşıb, ya da yuxu görür. Amma Karton danışırdı və bu onun səsiydi, məhbusun əlini sıxdı – bu əl də onun əliydi; Karton özünəməxsus bir ədayla onun əlini sıxdı.

– Siz, yəqin ki, məni gözləmirdiniz, eləmi? – Karton dedi.

– İnana bilmirəm ki, bu sizsiniz. İndinin özündə də inana bilmirəm. Bəri baxın, – Darneyin ağlına qorxulu bir fikir gəldi, – sizi də həbs eləyiblər?

– Yox. Həbsxana işçilərindən birinə elədiyim yaxşılıq müqabilində buraya gəlməyimə icazə verilib. Mən sizə ondan – sizin arvadınızdan xəbər gətirmişəm, əzizim Darney.

Məhbus hərarətlə onun əlini sıxdı.

– Mən gəlmişəm ki, onun xahişini sizə çatdıram.

– Nə xahişdir?

– Çox ciddi surətdə xahiş edir, – sizə olduqca doğma olan səsiylə necə xahiş edə biləcəyini, yəqin ki, xatırlayırsınız, – siz də onun xahişini yerinə yetirməlisiniz.

Məhbus üzünü azca çevirib yana baxdı.

– Məni sorğu-suala tutub niyə gəlmisən, nədən ötrü gəlmisən deməyin yeri deyil, mənim sizə izahat verməyə vaxtım da yoxdur. Siz ancaq deyilənlərə əməl etməlisiniz, vəssalam. İndi isə ayaqqabılarınızı çıxardın, mənimkiləri geyinin.

Kamerada məhbusun arxa tərəfindəki divara söykənmiş stul var idi, Karton bir göz qırpımındaca onu itələyib həmin stula oturtdu, düz qarşısında ayaqyalın dayanıb dedi:

– Alın mənim çəkmələrimi geyinin. Dedim axı, götürün geyinin. Tez olun!

– Karton, bura elə yerdir ki, heç kim qaçıb canını qurtara bilmir. Siz özünüz də mənimlə birlikdə məhv olacaqsınız. Bu, dəlilikdir.

– Əgər mən sizə qaçmaq təklif eləsəydim, bu, dəlilik olardı. Bəyəm mən sizə elə söz dedim? Əgər desəm ki, bu qapıdan dəhlizə çıxın, onda deyə bilərdiniz ki, bu, dəlilikdir, oturduğunuz yerdən də tərpənməyin. Qalstuku çıxarın, mənimkini taxın, pencəyi çıxarıb, mənimkini geyinin; siz bunları eləyənə qədər icazənizlə başınızdakı çalmanı çıxardıb saçlarınızı qarışdıracağam, öz saçlarım kimi düzəldəcəyəm!

Karton heyrətamiz cəldliklə, qarşısıalınmaz güclü bir enerjiylə hərəkət edirdi. Darney bu təzyiqin qarşısında aciz qalmışdı, onun əlində balaca bir uşağa çevrilmişdi.

– Karton! Əzizim Karton! Bu, dəlilikdir! Bu, mümkün deyil; neçə belə cəhd olub, hamısının da üstü açılıb. Xahiş edirəm, yalvarıram, öz ölümünüzü mənim ölümümə qarışdırıb vəziyyəti daha da ağırlaşdırmayın.

– Əzizim Darney, bəyəm mən sizə dedim ki, kameradan çölə çıxın? Desəm, çıxmayın. Burada stolun üstündə kağız, qələm və mürəkkəb var. Yaza bilərsiniz, əliniz əsmir ki?

– Siz bura gələnəcən əsmirdi.

– Özünüzü ələ alın, dediklərimi yazın. Tez olun, dostum, vaxt yoxdur! Dediklərimi sözbəsöz necə var, elə də yazın.

– Kimə ünvanlanacaq?

– Heç kimə. – Karton hələ də əlini pencəyinin qoltuq cibindən çıxartmamışdı.

– Hansı tarixə yazım?

– Tarix lazım deyil.

Hər dəfə sual verəndə məhbus başını qaldırıb Kartonun üzünə baxırdı. Karton isə əlini qoltuq cibindən çıxartmadan ayaq üstə dayanıb yuxarıdan aşağı ona baxırdı.

– Əgər çoxdan aramızda olmuş söhbəti xatırlayırsınızsa, – Karton diktə elədi, – oxuyan kimi başa düşəcəksiniz. Bilirəm ki, siz onu yaddan çıxarmamısınız; siz elə adam deyilsiniz.

Karton əlini cibindən çıxartdı, tələsik yazı yazan məhbus nəsə sezib ona baxdı, Kartonun əli dayandı, nəyisə yenə qaytarıb cibinə qoydu.

– Bayaq dediyim siz onu "çıxarmamısınız ifadəsi"ni yazdınızmı?

– Yazmışam. Sizin əlinizdə silah var?

– Yox, mən silahlı deyiləm.

– Bəs əlinizdəki nədir?

– İndi biləcəksiniz. Cəmi beş-altı söz qalıb, onları da yazacaqsınız, vəssalam. – Karton diktə elədi. – Yazın: "Hər halda, axır ki, o saat gəldi və mən öz vədimə əməl edirəm. Siz kədərlənməyin, təəssüf də etməyin". – Bu sözləri deyəndə Karton gözünü məhbusdan çəkmədən əlini yavaşca endirib onun üzünə yaxınlaşdırdı.

Darneyin əlindəki qələm stolun üstünə düşdü, heç nə başa düşmədi, boylanıb ətrafa baxdı.

– Bu nə dumandır? – Darney soruşdu.

– Duman?

– Üzümə vuran dumanı deyirəm, o nədir elə?

– Mən heç nə başa düşmədim, burada duman nə gəzir? Qələmi götürün, yazını tamamlamaq lazımdır. Tez olun, cəld tərpənin!

Artıq beyni dumanlamağa başlayan, əli də sözünə baxmayan məhbus özünü ələ alıb yazını tamamlamaq istəyirdi; yuxulu gözləri qaralır, ağır nəfəs alırdı. Bunu görən Karton yenidən əlini qoltuq cibinə salıb diqqətlə onun üzünə baxdı.

– Tez olun, tez!

Məhbus yenidən kağızın üstünə əyildi.

– Əgər başqa cür olsaydı, – Karton belə dedi və onun əli çox ehtiyatla yenidən aşağı endi, – onsuz da bir xeyri olmayacaqdı. Əgər başqa cür olsaydı, – onun əli məhbusun sifətinə yaxınlaşdı, – mən daha çox məsuliyyət daşıyıb buna görə cavab verməli olardım. Əgər başqa cür olsaydı... – Karton məhbusun əlinə baxanda gördü ki, o, anlaşılası heç nə yazmır, nəsə cızma-qara eləyir.

Karton bir də əlini qoltuq cibinə tərəf uzatmadı. Məhbus sıçrayıb ayağa qalxdı, ittihamedici nəzərlərlə ona baxdı, Karton isə sağ əliylə onun ağzını və burnunu tutub, o biri əliylə belindən yapışdı. Onun həyatını xilas etməyə gəlmiş adamla bir neçə saniyə zəif də olsa, güləşən məhbus bir dəqiqədən sonra heysiz halda döşəməyə yıxılıb huşunu itirdi.

Qəlbinin səsinə tabe olan əlinin cəld hərəkətiylə Karton məhbusun çıxardıb yerə atdığı paltarı cəld geyindi, saçlarını geri darayıb parça

ilə bağladı. Sonra qapıya yaxınlaşıb yavaşca dedi: "Bura gəlin! İçəri keçin!" Casus dərhal içəri girdi.

– Görürsünüz nə olub? – huşunu itirib yerdə uzanmış məhbusun yanında dayanaraq kağızı onun cibinə qoyan Karton başını qaldırıb casusa dedi. – Buna görə sizi gözləyən təhlükə çoxmu böyükdür?

– Mister Karton, – casus çəkingən tərzdə bir əliylə o biri əlinin barmaqlarını sıxdı, – mənim üçün bu, təhlükəli deyil, əsas məsələ ondadır ki, siz axıracan öz vədinizə əməl edə biləcəksinizmi?

– O barədə arxayın olun, ölümə xəyanət etmərəm

– Elə mən də onu deyirəm, mister Karton; məsələ ondadır ki, həbsxanadan əlli iki nəfər çıxmalıdır. Onun libasında sizi tanımazlar, təki özünüz buna imkan verməyəsiniz; belə olsa, mən də qorxmaram.

– Qorxmayın! Mən sizə çox da başağrısı verməyəcəyəm, qalanlar isə Allahın köməyi ilə buradan çox uzaqda olacaq. İndi isə köməyə adam çağırın, məni faytona mindirin.

– Sizi? – casus əsəbi halda dedi.

– Hm... demək istəyirəm ki, onunla yerimizi dəyişmişik. Siz indi məni içəri gətirdiyiniz qapıdan çıxardacaqsınız, eləmi?

– Əlbəttə.

– Deməli, məsələ belədir: siz məni bura gətirəndə xəstəhal və zəif olmuşam, dostumla görüşüb söhbət edəndən sonra halım xarab olub və siz də məni bu vəziyyətdə çıxardırsınız. Belə şeylər burada tez-tez olur. Tez ol, vaxt itirmə! Köməyə adam çağır! Sənin həyatın artıq öz əlindədir!

– And içirsiniz ki, məni satmayacaqsınız? – qorxudan titrəməyə başlayan casus son anda ayaq saxlayıb dedi.

– Kişi, bəsdir! – Karton ayağını yerə vurub dedi. – Mən artıq and içib söz vermişəm ki, bu işi axıra çatdıracağam. Nə dayanmısınız? Vaxt gedir axı! Bunu götürün, özünü mister Lorrinin qaldığı evin həyətinə aparın və ona təhvil verin, deyin ki, özünə gəlmək üçün buna təmiz havadan başqa heç nə lazım deyil, dava-dərman verməsinlər. Onu da deyin ki, dünən söz verdiyi kimi, vaxt itirmədən yola düşsün.

Casus çıxdı, Karton stolun arxasında oturub alnını əlinə söykədi. Casus dərhal iki nəfərlə birlikdə geri qayıtdı.

– Bu nədir? – casusla gələn iki kişidən biri huşsuz halda yerdə uzanıb qalmış adama baxıb dedi. – Deyəsən, Müqəddəs Gilyotinin uduşlu lotereyasını dostunda görüb, sevindiyindən ürəyi gedib?

– Aristokrata boş bilet düşsəydi, – o biri kişi dedi, – yaxşı patriot bundan az təəssüflənməzdi.

Kişilər köməkləşib huşunu itirmiş adamı özləriylə gətirdikləri xəraya uzatdılar, aşağı əyildilər ki, götürüb getsinlər.

– Vaxtınız azdır, Evremond, – casus xəbərdaredici səslə dedi.

– Bilirəm, – Karton dedi. – Dostumdan muğayat olun, məni tək buraxın.

– Yaxşı, uşaqlar, – Barsed dedi, – xəraya götürün gedək!

Qapı örtüldü, Karton tək qaldı. Qulaq kəsilib dinşədi ki, görsün hansısa şübhəli səs, yaxud həyəcan bildirən qışqırtı eşidə bilirmi. Sakitlik idi. Əvvəlki kimi ara-sıra hansısa kameranın qapısı açılırdı, sonra bağlanırdı, ötüb-keçən kiminsə addım səsləri eşidilirdi; nə qışqırtı qopdu, nə həyəcan siqnalı verildi, nə də tələsik hərəkət başladı. Karton bir qədər rahat nəfəs alıb stolun arxasında oturdu, yenə qulaq kəsilib dinşədi; saat 2-ni vuranacan beləcə oturdu.

Artıq onu qorxutmayan səslər eşidilirdi və bunun nə demək olduğunu o, yaxşı bilirdi. Bir neçə qapının növbəylə açıldığını eşitdi; nəhayət, onun oturduğu kameranın qapısını açdılar. Əlində siyahı tutmuş həbsxana nəzarətçisi içəri girib: "Dalımca gəlin, Evremond!" – dedi. Karton kameradan çıxıb dəhliz boyu getdi, xeyli aralıdakı qaranlıq otağa çatdı. Tutqun bir qış günüydü, edamqabağı qolları bağlanmaq üçün bura gətirilmiş məhbuslar kölgə kimi görünürdülər, Karton da onları tutqun şəkildə görürdü. Məhbusların böyük əksəriyyəti dinməzcə dayanıb otağın döşəməsinə baxırdı.

Karton otağın qaranlıq küncünə çəkilib divara söykəndi. Edama aparılacaq əlli iki nəfərdən bir neçəsini Kartondan sonra otağa gətirdilər və onlardan biri də, görünür, onu tanıyıb boynuna sarıldı, hətta üzündən öpdü. Karton hər şeyin elə indi, buradaca aydınlaşacağını fikirləşib əməlli-başlı qorxuya düşdü, amma o məhbus ləngiməyib tez də aralandı. Az keçməmiş rəngi qaçıb ağarmış qəşəng simali, bədən quruluşuna görə qıza oxşayan gənc bir qadın geniş açılmış gözləriylə ona baxdı, sonra da oturduğu yerdən durub yaxına gəldi.

– Vətəndaş Evremond, – qız belə deyib soyuq əliylə ona toxundu, – mən La Forsedə sizinlə həbsdə olmuş bədbəxt paltartikənəm.

– Düzdür, – Karton mızıldayıb cavab verdi. – Amma, düzü, nədə ittiham olunduğunuz yadımdan çıxıb.

– Sui-qəsddə. Amma Allah özü şahiddir ki, mənim heç bir günahım yoxdur. Kimin ağlına gələr ki, mən, zəif və gücsüz bir məxluq, hansısa sui-qəsddə iştirak etmişəm.

Qız belə deyib gülümsədi, o təbəssümdə o qədər təəssüf və kədər vardı ki, Karton kövrəldi, göz yaşları axıb yanağını islatdı.

– Mən ölümdən qorxmuram, vətəndaş Evremond, amma heç vaxt hansısa sui-qəsd barədə fikirləşməmişəm də. Biz yoxsullar üçün yaxşı işlər görmək istəyən Respublikanın yolunda ölməyə hazıram, əgər mənim ölməyimlə işlər düzələcəksə, heç bir etirazım yoxdur. Amma, vətəndaş Evremond, heç cür başa düşə bilmirəm, bunun məsələyə nə dəxli var? Mənim kimi zəif və zərərsiz bir məxluqu edam etmək, doğrudanmı, belə vacib idi?

Soyuyub əbədi olaraq büzə dönmək ərəfəsində olan Kartonun ürəyində bu yazıq və məzlum qıza qarşı bir hərarət alovlandı.

– Mən eşitdim ki, siz azadlığa çıxmısınız, vətəndaş Evremond. Düzü, inandım, elə bildim, həqiqətən, azadlığa çıxmısınız.

– Düz eşitmisiniz; mən, həqiqətən, azad olmuşdum. Amma sonra yenidən mühakimə edib bura gətirdilər.

– Vətəndaş Evremond, bizi edam eləməyə aparanda icazə verərsinizmi sizinlə yanaşı dayanım, əlinizdən tutum? Mən qorxmuram, amma bir iş də var ki, zəif və aciz bir adamam; deyirəm sizin yanınızda dayansam, bir az ürəkli olaram.

Həmsöhbəti başını qaldırıb baxanda Karton qəflətən o gözlərdə şübhə, tərəddüd və təəccüb ifadəsi gördü, qızın işləməkdən kobudlaşmış arıq barmaqlarını öz dodaqlarına yaxınlaşdırıb öpdü.

– Siz onun əvəzinə ölümə gedirsiniz? – qız pıçıldadı.

– Bəli. Həm də bunu onun arvadı və qızı üçün edirəm. Sus!

– Sizi tanımasam da, icazə verin mərd əlinizi sıxım!

– Sakit! Bəli, mənim əziz bacım. Axıracan.

Həbsxananın üstünə çökmüş kölgələr həmin gün günortadan sonra şəhərin qapısı tərəfdəki mühafizə postunun da üstünə çökmüşdü; o gün də postun ətrafına adamlar toplaşmışdı, orada yoxlama gedirdi – Parisdən çıxıb getməli olan faytonu yoxlayırdılar.

– Kim gedir? İçəridə kimlərdir? Sənədləriniz!

Sənədlər təqdim olundu və bir-bir oxundu.

– Aleksandr Manett. Həkim. Fransız. Kimdir o?

Büzüşüb boynunu bükmüş, anlaşılması çətin olan sözlər mızıldayaraq nəsə deyən, heysiz qoca kişini göstərdilər: budur.

– Belə görünür ki, vətəndaş doktorun başında problem var, eləmi? İnqilab alovu, görünür, onu bərk vurub, qoca kişi dözməyib.

Həqiqətən, bərk vurub.

– Eh! Elələri çoxdur. Lüsi. Doktorun qızı. Fransız. Lüsi kimdir?

– Lüsi budur.

– Yəqin ki, odur. Evremondun arvadı Lüsi sizsiniz?

Bəli, elədir ki var.

– Ah! Evremondu harasa başqa yerə göndərdilər. Onun qızı Lüsi. İngilis. Uşaq budurmu?

Əlbəttə, budur.

– Evremondun qızı, bir məni öp görüm. Bu uşaq nümunəvi respublikaçını öpdü. Ailəniz üçün əlamətdar olan bu yeniliyi yadından çıxarma, quzum! Sidni Karton. Vəkil. İngilis Karton kimdir?

Faytonun küncündə uzanıb qalmış Kartonu göstərdilər.

– İngilis vəkilin halı, deyəsən, özündə deyil.

Bəli, elədir. Amma ümid etmək olar ki, təmiz havada özünə gələcək, halı yaxşılaşacaq. Respublikanın qəzəbinə düçar olmuş dostundan ayrıldığına görə çox mütəəssir olub; zəif adamdır, ona görə də halı pisləşib.

– Elə buna görə? Nə böyük işdir! Respublikanın qəzəbinə çox adam düçar olub və vur-tut balaca bir pəncərədən boylanıb baxmaq məcburiyyətində qalıb. Carvis Lorri. Bankir. İngilis. Lorri kimdir?

– Mənəm. Dəstənin axırıncı nümayəndəsi.

Bütün suallara Carvis Lorri cavab verir. Carvis Lorri yerə düşüb, bir əliylə faytonun qapısından tutaraq postda dayanıb yoxlama aparan rəsmi adamla danışır, izahat verir. Patriotlar faytonun ətrafında fırlanıb hər yeri yoxlayırlar: oturacaqların altına, faytonun üstünə baxırlar, faytonun altına girib oradakı dəlmə-deşikləri bir-bir gözdən keçirir, yoxlayırlar... Ətraf kəndlərdə yaşayan kəndlilər faytonun yan-yörəsinə toplaşıb itələşir, acgözlüklə baxırlar; anasının əlindən tutub gedən balaca bir uşaq əlini uzadır ki, gilyotinlə boynu vurulmuş aristokratın arvadına toxunsun.

– Sənədlərinizi alın, Carvis Lorri. Yoxlanıldı, hər şey qaydasındadır.

– Gedə bilərikmi, vətəndaş?

– Gedə bilərsiniz. Atları tərpət, faytonçu! Yaxşı yol!

– Təşəkkür edirəm, vətəndaş! Bax belə, ilk təhlükə arxada qaldı!

Bu sözləri deyən də Carvis Lorridir, – əllərini bir-birinə sıxıb göyə baxırdı. Faytonun içində dəhşət var: ağlaşma səsi, göz yaşları, küncdə huşsuz halda uzanıb qalmış kişi ağır-ağır nəfəs alır...

– Biz yavaş gedirik, faytonçuya demək olmaz ki, atları bir az bərk sürsün? – Lüsi öz qoca dostuna qısılıb soruşur.

– Şübhə yarana bilər ki, qaçırıq; faytonçunu tələsdirmək düz deyil, şübhələnə bilər.

– Geriyə baxın, geriyə baxın, arxamızca gələn yoxdur ki?

– Yol boşdur, əzizim, hələ ki bizi qovan yoxdur.

İkibir, üçbir dayanmış evlər, ağaclar, ayrıca dayanmış fermalar, uçuq binalar, dəri sexi, rəngləmə sexi və buna bənzər nələrsə arxada qalır; yol geniş boş çöllərdən və ətrafı bürümüş çılpaq ağaclığın arasından keçir. Təkərlərin altında kələ-kötür daş yoldur, kənarlarda isə palçıq dizə vurur. Faytonu silkələyib taqqıltı salan daş tığının yanından keçmək üçün hərdən də palçığa bata-bata gedirik, hərdən də yolun darısqal yerində ilişib qalırıq. Keçirdiyimiz həyəcan və qorxu o dərəcəyə çatıb ki, fayton hər dəfə ləngiyib bir az dayananda az qalır ürəyimiz yerindən çıxa, özümüz də az qalırıq faytondan çıxıb qaçaq, baş götürüb gedək, ilim-ilim itək, amma dayanıb gözləməyək.

Budur, yenə geniş çöldür, biz yenə uçuq evlərin, ayrıca dayanmış fermaların, dəri sexi, rəngləmə sexi və buna bənzər nələrinsə yanından keçirik; orada-burada ikibir-üçbir dayanmış evlərdir, yolun hər tərəfini çılpaq ağaclar bürüyüb. Bəlkə, bizi aldadıb başqa yolla geri qaytarıblar? Biz buradan keçmişdik axı! Yox, yox, Allaha şükür! Başqa kənddir. Geri baxın, geri baxın, görün arxamızca düşüb gələn yoxdur ki? Sakit! Bura poçt binasıdır.

Zərrə qədər də tələsmədən bizim faytona qoşulmuş dörd atı açırlar, faytonumuz əsla tələsmədən balaca küçənin ortasındaca dayanıb qalıb, adama elə gəlir ki, bu, heç vaxt bir də hərəkətə gəlib yola düşməyəcək; faytonçular əsla tələsmədən aldıqları zəhmət haqqını sayır, artıq pul verilmədiyini biləndə isə deyinirlər, heç özləri də bilmirlər nə istəyirlər və nə qədər pul almalıydılar. Heç kimin əsla tələsmədiyi, hamının elə bil qəsdən ləng davranıb tənbəl-tənbəl hərəkət elədiyi həmin vaxt faytonun içindəkilərin dişi bağırsağını kəsir, qorxudan az qalır ürəkləri atılıb

yerindən çıxa və elə bir sürətlə döyünür ki, bu sürətlə qaçası olsa, dünyanın ən sürətli atı da dördəmə çapıb ona çata bilməz.

Nəhayət, yeni faytonçu ilə köməkçisi yəhərlərin üstündə oturub öz yerlərini tutdular, əvvəlki faytonçu ilə köməkçisi poçtun həyətində qaldı. Kənddən çıxdıq, yoxuşu dırmaşıb təpənin üstünə qalxdıq, sonra üzüaşağı endik; yenə hər tərəfdə suya qərq olmuş çəmənliklərdir, çöldür. Qəflətən səs-küy qalxdı: faytonçu əl-qolunu ölçə-ölçə öz köməkçisiylə mübahisəyə başladı; atları da qəflətən elə saxladılar, az qalmışdı fayton çevrilə. Nədir, görəsən, nə olub? Bəlkə, dalımızca düşüb gələn var?

– Ey! İçəridəkilər, sizinləyəm. Eşidirsiniz?

– Nədir, nə olub? – mister Lorri başını faytonun pəncərəsindən çıxardıb soruşur.

– Siz bilirsinizmi orada neçə nəfərdir?

– Başa düşmədim nə deyirsiniz.

– Axırıncı dayandığınız poçtda nə deyirdilər, bu gün gilyotinə neçə nəfər aparıblar?

– Əlli iki.

– Gördün ki, mən deyəndir! Min bərəkət! Mənim köməkçim, bu vətəndaş deyir ki, qırx iki nəfərdir; düz on başı hesaba almır. Gilyotin əla işləyir. Sevirəm də onu. Dəh-dəh! Getdik!

Hava qaralırdı. Faytonun küncündə huşsuz uzanıb qalmış sərnişin, deyəsən, özünə gəlir və artıq bəzi anlaşılan sözlər də deyir; ona elə gəlir ki, yenə kameradadır, həmin adamı adıyla çağırıb soruşur ki, sənin əlindəki nədir? Aman Allah, rəhm elə, köməyini əsirgəmə! Geriyə baxın, geriyə baxın, görün bizi güdürlərmi, dalımızca düşüb gələn varmı.

Külək dalımızca düşüb bizi qovur, buludlar göydə uçaraq bizi qovur, Ay da göy üzündə süzüb bizi qovur; qaranlıq gecə qovub bizə çatır, qucaqlayıb zülmətə qərq edir. Amma, deyəsən, dalımızca düşüb gələn yoxdur.

XIV fəsil

KƏFƏNİN SONUNCU İLMƏSİ

Edama məhkum olunmuş əlli iki məhbus dayanıb ölümü gözlədiyi vaxt madam Defarj, İntiqam və inqilab tribunalının üzvü üçüncü Jak toplaşaraq çox dəhşətli gizli bir müşavirə keçirirdilər. Bu gizli müşavirənin əsas əlamətdar cəhəti ondaydı ki, madam Defarj inanıb etibar elədiyi silahdaşlarıyla çaxır dükanında yox, əvvəllər yol təmiri ustası işləmiş, indi isə odun doğramaqla məşğul olan kişinin daxmasında görüşürdü. Odundoğrayan bir qədər aralıda dayanmışdı, müzakirələrdə iştirak eləmirdi, yalnız ondan nəsə soruşulsa, cavəb verməyə ixtiyarı var idi, qalan vaxtlar isə susub dinməz durmalıydı.

– Amma mən sizə deməliyəm ki, – üçüncü Jak dedi, – bizim Defarj əsl respublikaçıdır. Necə bəyəm, düz deyil?

– Bütün Fransada ona bərabər olan ikinci bir adam yoxdur, – cəhli vurmaqda usta olan İntiqam qışqırıb dedi.

– Sakit ol, əzizim İntiqam, – madam Defarj əliylə öz köməkçisinin ağzını tutdu, – qulaq as, gör nə deyirəm. Mənim ərim əsl vətəndaşdır, həqiqi respublikaçıdır, özü də igid adamdır, vətən və xalq qarşısında xidmətləri var. Amma mənim ərimin zəif cəhətləri də var və bu da ilk öncə ondan ibarətdir ki, doktora qarşı çox ürəyiyumşaqlıq eləyir.

– Çox təəssüfdoğurucu haldır, – üçüncü Jak xırıltılı səslə dedi, şübhəli görkəm alıb başını silkələdi, amansız barmaqlarıyla acgöz ağzını sığalladı, – yaxşı vətəndaşa xas olan xüsusiyyət deyil, pislənməyə layiqdir.

– Bilirsiniz, o doktor məni heç maraqlandırmır, – madam Defarj dedi. – Çiyninin üstündə başının olub-olmaması da mənim üçün heç bir əhəmiyyət kəsb eləmir. Amma Evremondların kökü kəsilməlidir, onun arvadıyla qızı da ərinin və atasının dalınca getməlidir.

– Arvadının elə qəşəng üzü var, adam az qalır tuta boynunu üzə, – üçüncü Jak qarıldadı. – Mən mavi gözlü, sarışın saçlı başların kəsildiyini çox görmüşəm; Samson kəsilmiş o cür başların saçından yapışıb qaldıranda adam baxdıqca doymur. – Bu qaniçən quldurun içində bir adamyeyən oturmuşdu, danışan da o idi.

Madam Defarj gözünü yerə zilləyib qulaq asır, dinmirdi.

– Qızı da elədir, – üçüncü Jak daha da həvəsə gəlib nitqinə davam elədi, – eynilə anası kimi, onun da mavi gözləri, sarışın saçları var. Uşaqları çox az hallarda edam edirlər. Belə bir uşağı gilyotinlə birlikdə təsəvvür edəndə görün necə gözəl mənzərə yaranır!

– Biz sözlə, – madam Defarj qısa müddət fikirləşəndən sonra, nəhayət, dilləndi, – bu məsələdə mən öz ərimə inana bilmərəm. Hətta dünən axşamkı söhbətdən sonra bu qərara gəlmişəm ki, mən öz planlarımın təfərrüatı barədə ona heç nə deməməliyəm. Digər tərəfdən mən tələsməliyəm; ola da bilər ki, ərim onlara xəbər versin, qaçıb aradan çıxsınlar.

– Bax buna yol vermək olmaz, – üçüncü Jak qarıldadı, – heç kim qaçıb canını qurtarmamalıdır. Biz onsuz da geridəyik, lazım olanın yarısına da çatmamışıq. Hər gün ən azı 120 nəfəri edam etmək lazımdır.

– Bir sözlə, – madam Defarj nitqinə yenə eyni sözlərlə başladı, – o ailəni məhv eləmək üçün mənim əlimdə olan əsas ərimi qane eləmir. Ərimin də doktora yazığı gəlib, ona rəhm eləmək istəyinin səbəbi mənə aydın deyil. Ona görə də öz bildiyim kimi hərəkət etməliyəm. Ey, balaca vətəndaş, yaxın gəl.

Odundoğrayan madam Defarjdan çox bərk qorxurdu, indi də hörmət və itaət əlaməti olaraq qırmızı şapkasını əlində tutub yaxın gəldi.

– Balaca vətəndaş, – madam Defarj soyuqqanlıqla dedi, – o qadının məhbuslara müxtəlif işarə və siqnallar verməsiylə bağlı məhkəmədə şahid ifadəsi verib, bunu öz gözünlə gördüyünü deyə bilərsənmi?

– Ay, ay, niyə də yox?! – odundoğrayan qışqırdı. – Hər gün istənilən havada, yağış olsun, qar olsun, fərqi yoxdur, hər gün saat 2-dən 4-ə

qədər gəlib buradan siqnal verirdi; hərdən qızıyla gəlirdi, hərdən də tək gəlirdi. Mən nə danışdığımı bilirəm. Öz gözümlə görmüşəm.

Odundoğrayan danışa-danışa qəribə jestlər eləyir, əsla görmədiyi siqnal və işarələrin necə verildiyini göstərmək üçün həddən ziyadə canfəşanlıq göstərirdi.

– Təmiz sui-qəsddir, – üçüncü Jak dedi. – Gün kimi aydın görünür ki, sui-qəsddir.

– O biri məhkəmə iclasçılarına necə, onlara ümid etmək olarmı? – Madam Defarj tutqun təbəssümlə gülümsəyib üçüncü Jaka baxdı.

– Hörmətli vətəndaş, məhkəmə iclasçılarının hamısı əsl patriotdur. Mən öz həmkarlarıma görə başımla cavab verməyə hazıram.

– Bax indi siz mənə deyin görüm, – madam Defarj fikirli halda dedi, – bu vəziyyətdə neyləməliyəm? Doktoru ərimə görə bağışlayımmı? Belə şeyi ağlıma da gətirə bilmirəm. Mən onu əldən necə buraxım?

– Nə qədər olmasa, bir baş özü də qənimətdir, – üçüncü Jak səsini alçaldıb yavaşdan dedi. – Bu saat kəsik başların hesabatında çatışmazlıq var. Şəxsən, mənim fikrimcə, onu əldən buraxsaq, ciddi səhvə yol vermiş olacağıq.

– Mən doktoru burada qızıyla birlikdə görəndə o özü də siqnal verirdi, – madam Defarj dedi, – bunların birini o birindən ayırıb hər biri haqda ayrıca danışmaq olmaz: mən susa bilmərəm, eyni zamanda da hər şeyi bu balaca vətəndaşın ümidinə qoya bilmərəm. Nəzərə almaq lazımdır ki, mən özüm də pis şahid deyiləm.

İntiqamla üçüncü Jak çox böyük canfəşanlıqla madam Defarjı inandırmağa çalışırdılar ki, onun kimi şahid tapmaq mümkün deyil; odundoğrayan özü də bu tərif yarışmasına qoşulub dedi ki, Yer üzündə indiyəcən belə mükəmməl şahid olmayıb.

– Qoy öz başına çarə qılsın, – madam Defarj dedi, – mən ona rəhm edə bilmərəm! Siz bu gün saat 3-də orada olacaqsınız? Edama baxmağa gedəcəksiniz? Mən sizinləyəm.

Sual odundoğrayana ünvanlanmışdı, o isə tələsik dedi ki, həqiqi respublikaçı olduğuyla fəxr edir, əgər kimsə, ya nəsə nahardan sonra gedib milli dəlləyin o cür gözəl işinə baxa-baxa qəlyan çəkməsinə maneçilik törətsə, o, çox peşman olardı. Odundoğrayan elə can-dildən danışır, elə canfəşanlıq göstərirdi, istər-istəməz şübhə yaranırdı (görünür, belə bir şübhə qara gözlərini ona zilləyib baxan madam Defarjı da dingildədirdi)

ki, bu adam, yəqin, öz canının qorxusundan rahat yata bilmir deyə belə danışır.

– Mən də orada olacağam, – madam dedi. – Elə ki hər şey yekunlaşdı, yəqin ki, saat 8-də qurtarar, bax onda Sent Antuana, mənim yanıma gələrsən. İkimiz birlikdə yerli komitəyə gedib o adamlar barədə məlumat verərik.

Odundoğrayan dedi ki, vətəndaş madamı müşayiət eləmək şərəfinə nail olduğu üçün qürur hissi duyur. Madam Defarj tərs-tərs ona elə baxdı ki, odundoğrayan tutulub özünü itirdi, mişara əl atdı, odunların arasında elə büzüşdü, elə bil balaca küçük idi, quyruğunu qısıb aradan çıxmaq istəyirdi.

Madam Defarj əlinin işarəsiylə İntiqamı və üçüncü Jakı qapıya tərəf çağırıb öz sonrakı planını onlara izah elədi:

– Doktorun qızı indi evdədir, ağlayıb-sıtqayır, ərinin edamını gözləyir; bu saat o elə vəziyyətdədir ki, Respublikanı ədalətsizlikdə ittiham edəcək, onun düşmənləriylə həmrəyliyini nümayiş etdirəcək. Mən elə bu saat onun yanına gedəcəyəm.

– Necə gözəl insan, necə heyrətamiz qadındır! – Üçüncü Jak təəccübünü gizlədə bilmədi.

– Ah, mənim əzizim, dostum, rəfiqəm! – vəcdə gəlmiş İntiqam qışqırıb madam Defarjı qucaqladı.

– Mənim toxumamı götür saxla, – madam Defarj belə deyib əlində toxuduğu nə idisə, onu öz köməkçisinə verdi, – harada ki otururam, ora qoyarsan, həmişə üstündə oturduğum stulu saxlayarsan mənə. Elə buradan birbaşa ora gedin. Bu gün, yəqin, adam həmişəkindən çox olacaq; məncə, bu gün basabas olacaq.

– Mən öz şefimin göstərişinə məmnuniyyətlə əməl edəcəyəm, – İntiqam nümayişkaranə tərzdə dedi, madam Defarjı qucaqlayıb öpdü. – Gecikmə. De görüm, gecikməyəcəksən ki?

– Çalışacağam ki, edam başlamazdan əvvəl özümü çatdırım.

– Çalış ki, arabalar gəlib çatanacan sən də gələsən. Yəqin ki, çatdırarsan, mənim mələyim, – İntiqam madam Defarjı arxadan səsləyib belə deyəndə o artıq dönüb küçəyə çıxmışdı. – Arabalar gəlib çıxanacan özünü çatdır!

Madam Defarj cavab əvəzinə əlini yüngülcə yelləyib işarə verdi ki, deyilənləri eşitdi, çalışacaq ki, düz vaxtında gəlsin. Sonra o, palçığın

içiylə yeriyərək yoluna davam elədi, həbsxana divarlarının yanından ötüb qabağa getdi. İntiqamla üçüncü Jak isə dayanıb arxadan onun tökmə bədəninə heyran-heyran baxaraq bu əvəzsiz qadının yüksək insani keyfiyyətlərini tərifladilər.

Ovaxtkı şərait çox qadınları dəyişdirib başqa cür eləmişdi, amma onlardan heç birini indi küçələrdən keçib gedən bu amansız və qəddar qadınla müqayisə etmək mümkün deyil. Anadangəlmə güclü xarakterə malik olan bu qadın qorxu nə olduğunu bilmirdi, zabitəliydi, iradəliydi, üstəlik gözəl idi. Amma bu gözəllik qadın üçün xarakterik sayılmayan keyfiyyətləri nəinki gizlədir, əksinə, daha tez nəzərə çarpdırırdı. Həmin o qarışıqlıq dövründə isə onun xasiyyəti istənilən şəraitdə özünü büruzə verirdi. Uşaqlıq dövründən qəlbində gizlənib qalmış hakim təbəqədən narazılıq, o adamlara qarşı amansız nifrət yeni şəraitdə onu qaniçən yırtıcıya çevirmişdi. Bu adamda zərrə qədər də insaf və mərhəmət hissi yox idi. Nə vaxtsa onda belə hisslər, bəlkə də, olub, amma onlar çoxdan ölüb.

Əcdadlarının günahına görə kiminsə edam edilməsində qeyri-adi heç nə görmürdü bu qadın, çünki edam olunanı yox, onun əcdadlarını görürdü. Edam olunan kəsin arvadı dul, uşağı yetim qalır, amma bu məsələlər madam Defarjı əsla maraqlandırmırdı, əksinə, onları öz təbii düşməni və qurbanı hesab edir, daim izləyir, edam olunmalarını istəyirdi, hətta onların yaşamaq hüququ olmadığını iddia edirdi. Başqalarına qarşı insaf və mərhəmət nə olduğunu bilməyən bu adam özünə qarşı da amansız idi, özünə də rəhmi gəlmirdi. İndiyəcən dəfələrlə iştirak etdiyi küçə toqquşmalarının birində kimsə onu vurub yerə sərsəydi, əsla təəssüflənməzdi, əgər günü sabah edama məhkum olunub boynu balta altına düşsəydi, özünə zərrə qədər yazığı gəlməzdi, yalnız bir istəyi olardı: onu edama məhkum edən kəslə öz yerini dəyişib onun edam olunmasına nail olmaq.

Madam Defarjın əyninə geydiyi kobud xalatın altında belə bir ürək döyünürdü. Üst-başına fikir verməyə macalı yox idi, amma, bununla belə, əynindəki kobud xalat da ona yaraşırdı, başına qoyduğu qırmızı papağın altından çıxan qara, düz saçları qəşəng idi. Xalatın altında qoltuq hissəsində pistolet var idi, belindən asdığı iti xəncərin üstünü paltarıyla örtmüşdü. Uşaqlıq və gənclik yaşlarında dəniz sahilində yaşayıb qum üstündə ayaqyalın gəzmişdi, o səbəbdən yüngül yeriməyə

adət eləmiş adamlara xas olan yerişlə yeriyirdi; silahlıydı, özünə qəti olaraq inanan bir adam kimi küçələrdən keçib gedirdi.

Dünən axşamdan planlaşdırılan səfərə hazırlıq ərəfəsində mister Lorri indi həyətdə dayanıb gözləyən faytonu sifariş edərkən ağlına gəldi ki, miss Prossu da özləriylə götürsələr, iş xeyli çətinə düşəcək. Məsələ tək elə faytona əlavə sərnişin mindirib yükü bir qədər də ağırlaşdırmaqdan ibarət deyildi, postlarda hər bir sərnişinin sənədlərini yoxlamaq xeyli vaxt tələb edirdi ki, bu da xilas olmaq üçün həddən ziyadə qiymətli saniyələrin itirilməsi demək idi. Çox fikirləşəndən sonra mister Lorri belə bir qərara gəldi: miss Prossla Cerri istədikləri vaxt sərbəst şəkildə şəhəri tərk etmək hüququna malikdirlər və yaxşı olar ki, onlar bir qədər gec, məsələn, saat 3-də yüngül bir faytona oturub yola düşsünlər; yükləri olmadığı üçün fayton tapmaq əsla çətin deyil, dayanacaqlarda – ələlxüsus da gecə vaxtı təhlükəli olan – az dayanmaqla gəlib yolda onlara çata bilərlər.

Belə ağır, bu cür təhlükəli məqamda ailəyə nə iləsə kömək edə biləcəyini eşidən kimi miss Pross dərhal təklifə razı oldu. Cerri ilə birlikdə o da çıxıb Solomonun nəzarəti altında xərəkdə kimin gətirildiyinə və onun faytona necə yerləşdirildiyinə baxdı. Fayton yola düşəndən sonra narahatlıq içində on dəqiqə dayanıb gözlədilər, sonra qayıdıb yır-yığış elədilər ki, birazdan yola düşsünlər. Madam Defarj isə küçələrdən keçib gələrək artıq boşalmış evə yaxınlaşmaqdaydı. Orada indi miss Prossla Cerri gələcək səfəri müzakirə edirdilər.

– Siz indi necə bilirsiniz, mister Krançer, – miss Pross dedi. Keçirdiyi qorxu və həyəcandan yazıq arvad bilmirdi neyləsin: otursun, dursun, yoxsa yerisin; dili də söz tutmurdu. – Bu həyətdən yola düşməyimizə necə baxırsınız? Bu gün buradan artıq bir fayton yola düşüb, bizdən şübhələnməzlər ki?

– Mənim fikrimi bilmək istəyirsinizsə, miss, – mister Krançer dedi, – hesab edirəm ki, siz düz deyirsiniz. Səhv oldu, düz oldu, nə təklif etsəniz, onunla razılaşacağam.

– Mən gözümün işığı olan əzizlərimə görə elə qorxuram, o qədər həyəcan keçirmişəm ki, – miss Pross göz yaşı tökərək dedi, – nə eləməli olduğumuz barədə heç nə deyə bilmərəm, başım şişib. Siz nə təklif edirsiniz, əzizim mister Krançer? Necə bilirsiniz, neyləyək?

– Gələcək planlar barədə deyirsinizsə, miss, nəsə deyərəm, – mister Krançer dedi. – İndi neyləməli olduğumuz barədə fikirləşib nəsə tapmağa gücüm çatmaz, amma gələcək barədə sizə iki vəd verə bilərəm. İstəyirsiniz onları deyim?

– Allah xatirinə, ürəyimi üzməyin! – miss Pross qışqırıb göz yaşları içində boğula-boğula dedi. – Tez olun deyin görüm, o iki vəd nədən ibarətdir.

– Bilirsiniz, – rəngi qaçıb ağappaq ağarmış mister Krançer həyəcandan titrəyərək ciddi bir görkəm alıb dedi, – birinci vədim ondan ibarətdir ki, əgər o bədbəxtlər canlarını qurtarıb xilas ola bilsələr, bir də mən heç vaxt belə işlərlə məşğul olmayacağam!

– Mən sizə inanıram, mister Krançer, – miss Pross dedi, – əsla şübhə eləmirəm ki, siz bir də heç vaxt elə işlərlə məşğul olmayacaqsınız, amma xahiş edirəm, o işin nədən ibarət olduğunu təsvir etməyəsiniz.

– Yox, miss, – Cerri dedi, – mən o barədə sizə heç nə demərəm. İkinci vədimə gəlincə, əgər o bədbəxt insanlar bu təhlükədən sovuşub, canlarını sağ-salamat qurtara bilsələr, bir də heç vaxt missis Krançerin döşəməyə tərəf əyilib-qalxmasına fikir verməyəcəyəm; qoy nə bilir eləsin!

– Ev işlərində ola bilər, – göz yaşlarını silib özünü ələ almağa çalışan miss Pross dedi. – Ümumiyyətlə, hesab edirəm ki, missis Krançer hər şeyə özü nəzarət etməlidir. Oh, mənim əzizlərim, yazıq balalar!

– Bilirsiniz, miss, mən onu demək istəyirəm ki, – mister Krançer sanki əxlaq mövzusunda mühazirə oxumağa hazırlaşırmış kimi ciddi bir görkəm alıb dedi, – onu demək istəyirəm ki, siz də şahidsiniz və sonra missis Krançerə özünüz də çatdıra bilərsiniz ki, onun əyilib-qalxmasına mən indi tamam başqa cür baxıram, ümid edirəm ki, indi, elə bu saat o əyilib-qalxır.

– Nə bilmək olar, bəlkə də, elədir. Əzizim, mister Krançer, ümidvaram ki, – miss Pross əsəbi halda qışqırdı, – ümidvaram ki, arvadınız elə siz deyəni eləyir və bundan nəsə gözləyir.

– Allah göstərməsin, – mister Krançer daha ciddi görkəm alıb, bir az da sakit danışmağa çalışaraq dedi, – mən sözdə də, işdə də sidqi-ürəkdən çalışıram ki, o bədbəxtlərin başına gəlməli olan iş, Allah eləməsin, baş tutsun. Elə olsa, onda gərək biz onları oradan xilas eləmək üçün gecə-gündüz hamımız əyilib-qalxaq. Allah eləməsin... Heç özüm də

bilmirəm nə danışıram, Allah eləsin, elə şey olmasın! – Mister Krançer coşub-daşan hisslərini ifadə etmək üçün nəsə dedi, amma nə demək istədiyi o qədər də aydın olmadı.

Madam Defarj küçələrdən keçib gəlir, anbaan yaxınlaşırdı.

– Əgər biz nə vaxtsa öz doğma vətənimizə qayıtmaq imkanı əldə etsək, – miss Pross dedi, – əmin ola bilərsiniz, mister Krançer, sizin bu cür təsirli danışıb dediklərinizdən yadımda nə qalsa, anlayıb başa düşdüyüm nə varsa, hamısını missis Krançerə çatdıracağam; hər halda, əsla şübhəniz olmaya bilər ki, bu dəhşətli zamanda necə ciddi olduğunuz və əsla zarafat etmədiyiniz barədə şahidlik eləyə bilərəm. İndi isə, Allah xatirinə, gəlin fikirləşək! Əziz və hörmətli mister Krançer, gəlin birlikdə fikirləşib başımıza çarə qılaq!

Madam Defarj hələ də küçələrdən keçib gəlirdi və artıq o lap yaxındaydı.

– Bəlkə, belə eləyək, – miss Pross dedi, – siz məndən əvvəl çıxın, fayton və at sifariş edin, amma həyətə gəlməyin, başqa bir yerdə gözləyin, mən də gəlim, birlikdə gedək. Hə, necədir?

Mister Krançer dedi ki, bu lap yaxşı olar.

– Bəs elədirsə, onda siz məni harada gözləyəcəksiniz? – miss Pross soruşdu.

Mister Krançer elə çaşmışdı, Templ Bardan başqa yer adı çəkə bilmədi. Fəqət Templ Bar buradan çox uzaqda – yüzlərlə mil aralıydı. Madam Defarj isə artıq lap yaxındaydı: evə çatmaq üzrəydi.

– Kilsə qapısının yanında gözləyin, – miss Pross dedi. – Atları iki qüllənin arasındakı qapının ağzında saxlayıb orada gözləyərsiniz, mən də yolu keçib gələrəm. Uzaq olmaz ki?

– Yox, miss, – mister Krançer etiraz elədi.

– Onda elə bu saat poçta gedin, at sifariş edin, mən də gəlirəm.

– Mən nəsə inanmıram, – mister Krançer başını silkələyib tərəddüd içində dayandı, – sizi burada tək qoyub getmək düz deyil. Biz haradan bilək ki, nə ola bilər.

– Biz heç nə bilmirik, nə bilir, Allah bilir, – miss Pross dedi. – Siz mənə görə qorxmayın. Saat 3-də, bir az tez, bir az gec də ola bilər, hər halda, o vaxt məni kilsənin qapısı tərəfdə gözləyərsiniz; məncə, buradan yola düşmək düz deyil, oradan getsək yaxşıdır. Gedin, mister Kran-

çer, Allah amanatında! Məndən nigaran qalmayın, həyatı bizdən asılı olan o biri adamlar barədə fikirləşin!

Miss Pross sözünü tamamlayıb ikiəlli mister Krançerdən yapışdı, elə yalvarışla baxdı ki, onun da bu təkliflə razılaşmaqdan başqa ayrı yolu qalmadı. Mister Krançer getməmişdən əvvəl miss Prossu ürəkləndirmək üçün razılıq əlaməti olaraq bir-iki dəfə başını tərpətdi, sonra otaqdan çıxdı ki, onun dediklərini yerinə yetirsin.

Hər şeyin vaxtında hazır olacağını təsəvvür eləyən miss Pross bir qədər rahat nəfəs aldı. İndi də özünün xarici görkəmini qaydaya salmalıydı ki, küçədə heç kəsin diqqətini cəlb eləməsin. Saata baxdı: 3-ə 20 dəqiqə işləyirdi. Vaxt itirmədən yola hazırlaşmaq lazım idi.

Həddən artıq həyəcanlanıb qorxu içində olan miss Pross kimsəsiz bomboş evdə tək qalanda həyəcanı bir az da artdı; ona elə gəlirdi ki, hər otağın qapısı arxasında kimsə dayanıb onu güdür. Tasa su doldurub aşağı əyilərək ağlamaqdan qızarmış gözlərini və şişmiş üzünü yumağa başladı, amma tez-tez başını qaldırıb baxırdı ki, görsün kimsə gəlib onu pusurmu, bir də baxanda otağın içində dayanmış bir adam gördü. Diksindi, qışqırıb dik atıldı.

Su dolu saxsı qab yerə düşüb çilik-çilik oldu, su döşəməyə dağıldı, axıb madam Defarjın ayağını islatdı; o ayaqlar qana boyanıb ləkələnmişdi, indi onlara su lazım idi. Madam Defarj tərs-tərs ona baxıb dedi: "Evremondun arvadı haradadır?"

Miss Pross dərhal başa düşdü ki, qapıların hamısı açıqdır, burada yaşayanların harasa çıxıb getdikləri ehtimal oluna bilər. Ona görə də ilk öncə qapıları bağladı; dörd otaq idi, hamısının qapısını örtdü, sonra da gəlib Lüsinin otağına açılan qapının ağzında dayandı.

Madam Defarjın qara gözləri onun hərəkətlərini izləyirdi, qapılar hamısı örtüləndən sonra isə o gözlər miss Prossun üzünə zilləndi. Miss Pross qəşəng deyildi, yaşanmış illər üzünün sərt cizgilərini yumşalda bilməmişdi, xasiyyətində də elə bir dəyişiklik baş verməmişdi, amma o, özünəməxsus qətiyyətli qadın idi və indi madam Defarjı başdan-ayağacan süzüb bu çağırılmamış qonağın necə adam olduğunu özü üçün müəyyən etməyə çalışırdı.

– Sir-sifətdən ifritəyə oxşayırsan, – miss Pross nəfəsini çəkib dedi, – şeytanın arvadı olsan belə, fərqi yoxdur, səndən qorxan deyiləm. Mən ingilisəm.

Madam Defarj qarşısında dayanmış qadına ikrahla baxırdı, amma onu da başa düşürdü ki, hər ikisi küncə qısnanmış vəhşi heyvan vəziyyətindədir. O, qarşısındakı qadının heç də zəif olmadığını görürdü, bu adam güclüydü, dözümlüydü, – onun güclü olduğunu neçə illər öncə mister Lorri də öz üzərində hiss eləmişdi. Madam Defarj bilirdi ki, bu qadın doktor ailəsinin sədaqətli dostudur, miss Pross da madam Defarjın doktor ailəsinə düşmən olduğunu bilirdi.

– Mən ora gedirdim, – madam Defarj əlini edam meydançasına tərəf uzatdı, – orada mənə yer saxlayıblar, əlimdə toxumam var idi, onu da verdim ki, oturacağın üstünə qoysunlar. Yolüstü döndüm ki, bu qadınla söhbət eləyim; elə bir işim yoxdur, bir-iki kəlmə danışıb gedəcəyəm.

– Sən bura elə-belə, boş yerə gəlməmisən, çox pis niyyətlə gəlmisən, – bu sənin öz işindir, amma mən sənə imkan verməyəcəyəm.

Onların hər biri öz dilində danışırdı və biri o birinin nə dediyini başa düşmürdü; ona görə də hər ikisi gözünü o birinin ağzından çəkmir, üzün ifadəsindən, dodaqların tərpənişindən nəsə başa düşməyə çalışırdı və lazım olan qədər də anlayırdı.

– İndiki məqamda onun qapını bağlayıb məndən gizlənməsi yaxşı iş deyil, – madam Defarj dedi. – Hər bir patriot bunun nə demək olduğunu yaxşı bilir. İmkan verin bir dəqiqəliyə də olsa, onu görüm, ya da özünüz içəri keçin, deyin ki, mən onu görmək istəyirəm. Eşitdiniz nə dedim?

– Gözlərini bərəldib nə qədər baxsan da, xeyri yoxdur, məni qorxuda bilməzsən, – miss Pross dedi. – Yox, bacarmazsan, yadelli, bədəməl qadın! Mən səndən zəif deyiləm.

Madam Defarj idiomatik ifadələrlə zəngin olan bu nitqi başa düşmək iqtidarında deyildi, amma fəhmiylə də olsa, anlayırdı ki, onu saymır, it yerinə də qoymurlar.

– Başdanxarab, donuza oxşayan arvad! – madam Defarj tərs-tərs baxıb dedi. – Səndən söz soruşan yoxdur. Nə boş-boş danışırsan? Mən onu görməliyəm. Ya get de ki, mən onu görmək istəyirəm, ya da qapının ağzından çəkil, özüm onun yanına gedərəm. – Belə deyib sağ əlinin hərəkətiylə bir jest elədi; əl işarəsiylə fikrini ifadə eləmək istədi.

– Sizin o qır-qur dilinizi öyrənməyi ömrüm boyu heç fikirləşməmişəm də, – miss Pross dedi, – amma indi olub-qalan nəyim varsa verərdim, təki biləydim: sən əsl həqiqətin nədən ibarət olduğunu az da olsa, qanırsanmı?

Onlar bir-birindən bir saniyə də olsa, gözlərini çəkmirdilər. Madam Defarj otağa daxil olan kimi dayandığı yerdən heç yana tərpənməmişdi, miss Pross da başını qaldırıb baxanda onu elə orada görmüşdü. Amma indi madam yerindən tərpənib bir addım qabağa gəldi.

– Mən britaniyalıyam, – miss Pross dedi, – özüm də bu saat qəzəbliyəm. Ölüm mənim üçün heç nədir. Bir onu bilirəm ki, səni burada nə qədər çox saxlasam, öz göyərçinimin həyatını xilas etmək üçün daha çox imkan əldə etmiş olaram. Hünərin varsa, barmağının ucuyla mənə toxun, onda gör saçını necə yolub yellərə verirəm!

Gözlərindən alov yağan, tez-tez danışaraq hər kəlməyə uyğun jestlər eləyən miss Pross danışdığı kimi də nəfəs alırdı; indi o, qəzəbliydi, amma ömrü boyu milçəyi də incitməmişdi. Öz xarakterinə görə bu qadın emosional idi, indiki cəsarəti də emosionallıqdan yanaydı, bu çətin məqamda özündən asılı olmayaraq gözləri yaşla doldu. Madam Defarj isə belə incəlikləri anlamaq iqtidarında deyildi, odur ki göz yaşlarını qorxaqlıq əlaməti hesab edərək güldü.

– Ha-ha! Bədbəxtin ağlamağına bax! Sən kimsən ki, mənimlə danışırsan? Mənə doktor lazımdır, mən onunla danışmalıyam, – deyib səsini qaldıraraq qışqırdı. – Vətəndaş doktor! Evremondun arvadı. Evremondun qızı! Başdanxarab arvaddan başqa bu evdə kim var? Sizinlə danışan vətəndaş Defarjdır, cavab verin!

Evdəki sakitlik, bəlkə də, miss Prossun üzünün ifadəsi, ya da bu əlamətlərin hər ikisi qəflətən madam Defarjda şübhə oyatdı, elə bil kimsə qulağına pıçıldayıb dedi ki, bu evdə heç kim yoxdur, hamı gedib. Cəld hərəkətlə qapılardan üçünü açıb içəri baxdı.

– Otaqlarda hər şey bir-birinə qarışıb, o saat bilinir ki, tələm-tələsik şeylərini yığışdırıblar, qalan nə varsa, töküb dağıdıblar. Bəs bu otaqda kim var? Dayan görüm, orada nə var?

– Orada nə olduğunu sən heç vaxt bilməyəcəksən! – madam Defarjın nə dediyini yaxşı anlayan miss Pross dedi. Madam Defarj da cavabın nə demək olduğunu dərhal başa düşdü.

– Əgər onlar bu otaqda deyillərsə, deməli, qaçıb aradan çıxıblar, – madam Defarj danışıb öz-özünə dedi. – O halda tutulub geri qaytarılmalıdırlar.

– Sən onların bu otaqda olub-olmadığını dəqiq bilməyincə heç nə eləyə bilməzsən, – bu dəfə miss Pross öz-özünə danışıb dedi, – sən heç

nə bilməyəcəksən, mən buna imkan verməyəcəyəm. Amma nəsə bilib-bilməyəcəyindən asılı olmayaraq, nə qədər ki mən sağam, sən buradan heç yana getməyəcəksən.

– Mən küçə döyüşləri başlayan gündən vuruşuram. Heç kim məni yolumdan saxlaya bilməz. Qapının ağzından kənara çəkil, yoxsa bu saat səni didib parça-parça edərəm! – madam Defarj dedi.

– Biz ucqar həyətdəki hündür binanın yuxarı mərtəbəsindəyik, səsimizi eşidən yoxdur. Allah mənə güc, qüvvə versin ki, səni burada saxlaya bilim, çünki bu dəqiqələrin hər biri mənim gözəl göyərçinim üçün dünyalar qədər qiymətlidir, – miss Pross dedi.

Madam Defarj qapıya tərəf gəldi. Miss Pross instinktiv olaraq onu tutdu, belindən ikiəlli yapışıb sıxdı. Bunu gözləməyən madam Defarj çapalayır, kəndir kimi belinə dolanmış qollardan xilas olmağa çalışırdı, amma miss Pross möhkəm tutmuşdu; ona güc verən sevdiyi insanlara olan məhəbbət idi, məhəbbətin verdiyi güc isə nifrətdən yaranan gücü həmişə üstələyir. Madam Defarjın hər iki əli işləyir, onu tutub saxlamış qadının üzünə, başına zərbələr endirir, sifətini cırmaqlayır, didib dağıdırdı. Suda boğulan adam əlinə keçən tiri qucaqlayıb buraxmadığı kimi, miss Pross da başını aşağı əyib madam Defarjın belindən yapışmışdı, var gücüylə sıxırdı və buraxmaq fikri də yox idi.

Madam Defarjın yumruq vuran qolu qəflətən boşaldı. O, əlini qoltuğuna tərəf apardı.

– Heç elə şey yoxdur! Sənin axtardığın matah mənim qolumun altındadır, – təngnəfəs olmuş miss Pross pıçıldayıb dedi, – qoymaram onu çıxardasan. Allahın köməyi ilə mən səndən güclüyəm. Nə qədər gücüm var, səni buraxmayacağam. İkimizdən biri ölməsə, əl çəkən deyiləm!

Madam Defarj sinəsi tərəfdən əlini xalatın altına soxdu, dartıb oradan nəsə çıxartdı. Miss Pross başını qaldırıb baxdı və madamın əlində tutduğu şeyin altından vurdu. Dərhal alov qalxdı, gurultu qopdu.

Miss Pross tüstü-dumanın içində heykəl kimi dik dayanıb qalmışdı, elə bil gözləri kor olmuşdu, heç nə görmürdü.

Bir saniyədən sonra tüstü seyrəldi, ev sükuta qərq oldu, qana susamış və artıq cansız cəsədi yerdə uzanıb qalmış qadının ruhu kimi hər şey sakitləşdi.

Dəhşət içində çaşıb özünü itirmiş miss Pross dərhal cəsəddən aralanıb pilləkənə tərəf qaçdı ki, köməyə adam çağırsın. Amma, xoşbəxtlikdən,

XV fəsil

ƏBƏDİ SUSAN ADDIM SƏSLƏRİ

Edama aparılanları daşıyan yük arabaları Parisin küçələrindən gurultu və taqqıltıyla keçib gedir; altı balaca araba gilyotinə gündəlik çaxır norması daşıyır. Yer üzündə mövcud olmuş və insan fantaziyasının məhsulu olan bütün acgöz, qaniçən, eybəcər, bədheybət varlıqların hamısı gilyotində təcəssüm olunub. Fransada müxtəlif torpaqlar və müxtəlif iqlimlər var, amma, buna baxmayaraq, orada bitən heç bir sünbül, heç bir şiv, heç bir yarpaq, heç bir istiot bu bədheybət qaniçən qədər münbit şəraitdə bəslənilib böyüdülməyib. Əvvəlkinə oxşayan başqa bir çəkiclə xalqı vurub sındırmaq olar və o, dərhal da dəyişib əvvəlki halına düşəcək. Yenidən despotizm və dərəbəylik toxumu səpsək, şübhəsiz, eyni məhsul yetişəcək.

Altı üstüörtülü araba Parisin küçələrindən keçib gedir. Hər şeyə qadir olan sehrbaz Zaman onları əvvəl nə olublarsa, ona çevirsə, onda biz hakimi-mütləq ağaların faytonlarını, feodal əyanların niyyətini, kurtizankaların parıltılı libaslarını, müqəddəs atanın deyil, oğru və fırıldaqçıların məskəni olan kilsəni, acından ölən milyonlarla kəndlinin yoxsul daxmasını görərdik! Amma yox, böyük Yaradanın əbədi qanunlarını icra edən böyük Sehrbaz dəyişdirdiyi heç nəyi yenidən qaytarıb əvvəlki formasına salmır. "Əgər səndəki dəyişiklik Allahın əmriylə baş veribsə, onda o cür də qalmalısan. Əgər səni bu şəklə hansısa cadugər salıbsa, onda əvvəlki görkəmə düş!" – ərəb nağıllarındakı sehrbazlar tilsimdən

qurtarmaq istəyənlərə deyirlər. Edam yerinə gedən arabalar küçələrdən keçir, artıq onların dəyişib əvvəlki kimi olması mümkün deyil.

Kotanın xışı torpaqda dərin şırımlar açdığı kimi, edam olunanları gətirən altı araba da küçələri doldurmuş insan izdihamının içindən keçərək yaxınlaşmaqdaydı; insan sifətləri o üz-bu üzə çevrilir, xış dərinə işləyib şırımlar açır. Ətraf evlərin sakinləri bu mənzərəyə o qədər öyrəşiblər ki, burada qeyri-adi nəsə bir şey də görmürlər və o səbəbdən bir çox evlərin pəncərələri bağlıdır, eyvanlarında heç kim yoxdur, adamların digər qismi isə heç nə olmayıbmış kimi öz işləriylə məşğuldur. Bəzi pəncərələrin ağzında və eyvanlarda adamlar toplaşıb, amma onlar yerli sakinlər deyil, ev yiyəsinin məxsusi olaraq bu mənzərəyə baxmaq üçün dəvət elədiyi qonaqlardır; indi də odur, ev yiyəsi sərginin əsas təşkilatçısı qismində izahat verir, iki gün əvvəl hansı arabada kimlərin edama aparıldığını, bu gün onları kimin əvəz elədiyi barədə məlumat verir.

Arabalarda edama aparılanlardan kimisi bu dünyada sonuncu dəfə getdiyi yolun üstündə gördüklərinə tam bir etinasızlıqla yanaşır, kimisi də dörd yanda qaynayan həyata maraq göstərir, diqqətlə baxır. Başlarını aşağı salıb qəm-qüssə içində itib-batanlar da var, bəziləri də diqqət cəlb eləyib adamlarda təəssürat yaratmaq üçün oyun çıxarır, artistlik eləyirlər. Kimisi gözünü yumub nə barədəsə fikirləşir, ya da özünü fikirləşməyə məcbur edir. Görkəmindən də özünü itirmiş olduğu bilinən bədbəxtin birisi baş verən dəhşətli hadisələrə davam gətirə bilməyib, ağlı başından çıxıb, indi də edama aparan arabada mahnı oxuyur, rəqs eləyir. Amma onlardan heç kim insanlardan hansısa rəhm və mərhəmət görmək istəyiylə baxmır, belə bir jest də eləmir.

Arabaları atlı mühafizə dəstəsi müşayiət edir, izdihamın ön cərgəsindəkilər onları sorğu-suala tutur. Belə görünür ki, hamı eyni sual verir, çünki maraqlananlar dərhal çevrilib üçüncü arabaya baxır. Üçüncü arabanı müşayiət eləyən mühafizəçilər əllərindəki qılıncı uzadaraq məhbuslardan birini göstərirlər. Hamını maraq götürüb: o adam kimdir, məhbuslardan hansıdır? Odur, həmin adam arabanın arxa tərəfində ayaq üstə dayanıb, düz böyründəcə qolubağlı oturmuş qızla söhbət eləyir; qız onun əlindən tutub. Həmin adam nə izdihama, nə də ətrafdakı səs-küyə əsla fikir vermir, qızla nə barədəsə hey danışır. Arabalar gəlib uzun bir küçə olan Sent Onoredən keçəndə isə izdiham qəzəblə qışqırıb onun ün-

vanına pis sözlər deyir. Qəzəbli izdihamın ona əli çatmır, ancaq üstünə qışqırıb söyüş söyür, o isə sakitcə gülümsəyir, başını silkələyir, hər dəfə belə eləyəndə saçı üzünə dağılır, amma əli bağlıdır deyə nə üzünə, nə də saçına toxuna bilmir.

Yaxınlıqdakı kilsənin pilləkənində həbsxana qoyunu – casus dayanıb arabalara baxır. Birinci araba keçdi: yox, orada yoxdur. Növbəti arabaya diqqətlə baxdı: yox, ikinci arabada da yoxdur. Casus narahat olub öz-özünə dedi: "Ola bilərmi ki, satqınlıq eləsin?" Amma üçüncü arabaya baxan kimi casusun eyni açıldı.

– Evremond hansıdır? – arxa tərəfdən lap yaxında dayanmış bir kişi casusdan soruşdu.

– Odur, arabanın arxa tərəfindəki məhbusdur.

– Qızla əl-ələ tutan kişini deyirsiniz?

– Bəli.

Kişi var gücüylə qışqırdı:

– Evremonda ölüm! Aristokratların hamısını gilyotindən keçirdək! Evromonda ölüm!

– Sakit, bir az yavaş! – casus çəkingən tərzdə yavaşdan dedi.

– Nə olub, vətəndaş, niyə sakit olmalıyam?

– İndi o bütün əməllərinə görə cəzasını alacaq; az qalıb, cəmisi beş dəqiqə. İmkan verək sakit ölsün!

Amma kişi ona fikir verməyib "Evremonda ölüm!" deyərək yenə qışqırdı. Elə həmin anda Evremond çevrilib o tərəfə baxdı, casusu gördü, diqqətlə nəzərdən keçirdi, dinməzcə keçib getdi.

Saat 3-ə qalıb, izdihamı kotan kimi şırımlayan arabalar dönüb son nöqtəyə – edam meydançasına yaxınlaşmaqdadır. Pərən-pərən olub hərəsi bir tərəfə çəkilərək yol verən adamlar axırıncı araba keçən kimi basabas salaraq gilyotinə tərəf cumdular. Orada isə yer tutub ön cərgədə oturmuş qadınlar maraqlı teatr tamaşasına gəlibmiş kimi sakitcə öz işləriylə məşğuldular – nəsə toxuyurdular. Lap qabaq cərgədə oturub nəsə toxuyan İntiqam yerindən qalxıb boylandı – rəfiqəsini axtardı.

– Tereza! – səsinin zil yerinə salıb qışqırdı. – Onu görən olmayıb? Tereza Defarj!

– Ondan çıxmayan iş, belə tədbirlərə heç vaxt gecikməz, – toxumaqla məşğul olan rəfiqələrdən bir başqası dedi.

– Yox, bu gün də gələcək, – İntiqam narahat halda qışqırdı. – Tereza!

– Bərk qışqırsana, – qadınlardan biri məsləhət verdi.

İntiqam, İntiqam! Qışqır, bərk qışqır, lap bərkdən qışqır, amma, çətin ki, o sənin səsini eşidə. Qışqır, İntiqam, bir də qışqır, nəfəsini dər, təzədən qışqır, amma, yəqin ki, səsin, harayın ona çatmayacaq. Arvadlardan bir-ikisini göndər axtarsınlar, görsünlər harada qaldı, niyə ləngiyir. Sənin çaparların cəsarətlidir, ən qorxulu işdən də çəkinən deyillər, amma, yəqin ki, itkin düşmüş rəfiqəni tapmaq üçün lap uzaqlara gedə bilməyəcəklər.

– İşin tərsliyinə bax! – İntiqam ayaqlarını yerə döyüb qışqırır. – Budur, arabalar da gəldi! Göz açıb-yummağa macal tapmamış bir də görəcəyik Evremondun boynu vuruldu, amma Tereza hələ də yoxdur! Buna bax, toxuduğu şey əlimdədir, stul da saxlamışam ki, gələn kimi otursun. Başımı itirmişəm, heç bilmirəm neyləyim? Qışqırmaqdan boğazım yırtıldı!

İntiqam ayağa qalxır ki, oturacağı bir az qaldırsın, bu vaxt arabaları boşaltmağa başlayırlar. Müqəddəs Gilyotini hərəkətə gətirib işlədən briqadanın üzvləri öz xüsusi formalarını geyinib hazır dayanıblar. Budur, başladı. Tarakk! Baş üzülüb yerə düşür. Ara vermədən toxumaqda olan qadınların başlarını qaldırmağa macalları yoxdur, onlar ancaq sayırlar: bir.

İkinci araba yükünü boşaldıb geri qayıdır. Üçüncü araba onun yerini tutur. Tarakk! Corab toxuyan qadınlar isə başlarını qaldırmadan sayırlar: iki.

Özünü Evremond kimi qələmə verən məhbusu, sonra da paltartikən qızı arabadan düşürtdülər. Evremond artıq vəd elədiyi kimi qızı bir an da tək qoymur, onun əlini əlindən buraxmır. Çox böyük nəzakət və nəvazişlə qızın üzünü özünə, arxasını isə iti baltanı endirib-qaldıraraq uğultuyla işləyən maşına tərəf çevirir. Qız onun üzünə baxıb təşəkkür eləyir.

– Yadelli insan, mən anadangəlmə zəif və qorxaq adamam, əgər siz burada olmasaydınız, heç cür sakit durub gözləyə bilməzdim; özümü ələ alıb, rahatlıq içində bizim yaşamağımız üçün ölüb göylərə qalxmış insana üzümü tutub sakitcə dua eləyə bilməzdim. Sizi mənə Allah özü göylərdən göndərib.

– Sizi də mənə göndərib, – Sidni Karton dedi. – Mənə baxın, əzizim, qorxmayın, heç nə barədə fikirləşməyin.

– Mən sizin əlinizdən tutanda qorxmuram. Əlinizi buraxsam da, qorxmuram, amma təki bu, tez olaydı, ləngiməyəydi.

– Tez olacaq, qorxmayın!

Edama məhkum olunmuşların arasında iki nəfər – Ana Təbiətin fərqli və bir-birindən uzaq iki övladı zülmətə aparan qaranlıq yolda əl-ələ tutaraq göz-gözə, nəfəs-nəfəsə dayanıb, son mənzilə çatıb orada əbədi rahatlıq tapacaqları anı gözləyirlər.

– Mərhəmətli və qüdrətli insan, əziz dost, sizə axırıncı sualımı da verə bilərəmmi? Mən savadsız və küt bir adamam, amma bir məsələ var ki, həmişə o barədə düşünürəm.

– Nə barədə düşünürsünüz?

– Bir xalam qızı var, mən onu çox sevirəm, ondan başqa qohumum yoxdur, mənim kimi, o da yetimdir. Beş yaş məndən kiçikdir, cənub tərəfdəki kəndlərin birində yaşayır; kasıbçılıq bizi ayırdı. Mənim başıma gələnlər barədə o heç nə bilmir, çünki mən ona məktub yazmıram – ona görə ki yazmağı bilmirəm. Əgər yaza bilsəydim də, yəqin ki, bu barədə ona heç nə yazmazdım; deyirəm bilməsə yaxşıdır.

– Hə, düzdür, bilməsə yaxşıdır.

– Biz bura gələndə, indinin özündə də mənə dayaq olan sizə baxıram, qorxu nə olduğunu bilməyən mətin sifətinizə baxıram və fikirləşirəm: əgər Respublika mənim kimi yoxsul adamların qayğısına qalıb onları aclıqdan və digər məhrumiyyətlərdən qoruya bilsə, onda xalam qızı çox yaşayacaq, lap qoca arvad olanacan yaşayacaq.

– Qoy yaşasın da, əziz bacım, nə olsun?

– Onda belə çıxır ki, – qızın səbir və inam ifadə edən gözləri yaşla doldu, – mən o dünyada, sizin dediyiniz kimi, rahat və gözəl bir həyat yaşayaraq onu çox gözləməli olacağam?

– Yox, gözləməyəcəksiniz, mənim balam, orada vaxt yoxdur, kədər də yoxdur.

– Nə yaxşı ki, siz varsınız, mənə ürək-dirək verirsiniz! Savadsız adamam, heç bilmirəm sizsiz neyləyərdim. Mən sizi öpə bilərəmmi? Deyəsən, vaxtdır.

– Bəli, vaxtdır.

Qız onun dodağından öpdü, o da qızı öpdü; sakitcə bir-birinə dua elədilər. Karton qızın əlini buraxdı, amma artıq o zəif əllər əsmirdi; qızın aydın sifətində nurlu bir inam var idi. Gilyotinə qız Kartondan

əvvəl gedir. Hə, budur, getdi. Corabtoxuyan arvadlar isə kəsilən başları sayırlar: iyirmi üç.

"Mən ölüb-dirilmişəm və həyatın özüyəm, – Allah buyurdu, – mənə inananlar ölsələr də, diriləcəklər, mənə inamla yaşayanlar isə heç vaxt ölməyəcəklər".

İzdiham uğuldayır, hamının üzü bu tərəfə çevrilir. Qıraq cərgədəkilərin hövsələsi daralıb, əsəbi halda ayaqlarını yerə döyür, itələşib bir-birini qabağa basırlar; insan kütləsi dəniz kimi dalğalanıb irəli atılır və qəflətən dayanır. Sonra geri çəkilir. İyirmi üç.

* * *

Həmin gün axşam adamlar orada-burada yığışıb edam barədə danışanda deyirdilər ki, hələ indiyə qədər cəllad baltası altında boynu vurulmağa gedən məhbusun üzünü belə sakit görməyiblər; bəziləri əlavə edib deyirdi ki, onun üzündə peyğəmbər nuru var idi, ölümdən də əsla qorxmurdu.

O dövrün tanınmış adamlarından olan və gilyotinlə boynu vurulan bir qadın edamdan əvvəl öz fikirlərini yazmaq üçün icazə istəmişdi. Əgər Sidni Kartona da belə bir imkan verilsəydi, biz indi onun uzaqgörənliklə dediyi aşağıdakı sözləri oxuya bilərdik:

"Mən Barsedi, Klayı, Defarjı, İntiqamı, məhkəmə üzvlərini, hakimləri və yeni tiranların uzun cərgəsini görürəm, əvvəlki zülmkarların yerini onlar tutub, amma cəzasız qalmayacaqlar, həmin gilyotin onlara da aman verməyəcək. Çoxəsrlik tarixi boyu ədalətsizliyə, qəddarlığa qarşı mübarizə apararaq öz qələbə və məğlubiyyətləriylə bütün günahları yuyub xarabalıqlar içindən dirçəlib qalxan qüdrətli xalqı, bir də gözəl səhəri görürəm.

Mən artıq bir də heç vaxt görməyəcəyim İngiltərədə sakit və xoşbəxt həyat sürən adamları görürəm, mən öz həyatımı onların yolunda qurban verirəm. Mən onu görürəm – körpəsinə mənim adımı vermiş o qadını görürəm. Mən onun atasını görürəm, illər qəddini əysə də, dirçəlib özünə gəlib, öz həkimlik borcuna sadiqdir, əlindən gələn köməyi insanlardan əsirgəmir. Uzun illərdir o ailəylə dostluq eləyən qoca centlmeni görürəm: on ildən sonra dünyasını dəyişəcək, nəyi varsa, doktorun ailəsinə vəsiyyət edib sakitcə o dünyaya köçəcək, öz xeyirxah əməllərinə görə əbədi rəhmət qazanacaq.

O insanların adımı əziz tutaraq öz ürəklərində yaşatdıqlarını görürəm; sonrakı nəsillərinin də adımı əziz tutub daim hörmətlə yad etdiyini görürəm. Mən onun yaşa dolub qoca qarı olduğunu görürəm, bu günü anıb ağladığını, mənim üçün göz yaşları tökdüyünü görürəm. Əriylə birlikdə görürəm onu, mənim adımı daim əziz tutmuş bu adamlar ömürlərini başa vurub əbədiyyət dünyasına köçüblər, mən onların qoşa məzarını da görürəm.

Görürəm ki, adımı verdikləri o uşaq böyüyüb, bir vaxtlar mənim getdiyim yolla gedir; amma inamla gedir, öz şan-şöhrətiylə adımı yüksəklərə qaldırır, şərəfləndirir. O adı bir vaxtlar mən ləkələmişdim, o isə şərəfləndirir, şan-şöhrət gətirir. Mənim adımı daşıyan oğlan böyüyüb adlı-sanlı hakim olub, ədalətli hakim olub; öz oğluna da mənim adımı qoyub, o uşağın da qızılı saçları, qəşəng siması var, atası öz oğlunu gətirib bu yerlərdə gəzdirir; keçmişdən, o dəhşətli, artıq heç bir izi qalmamış o dəhşətli hadisədən danışır; mənim barəmdə danışır, titrək səslə, həyəcanla danışır.

Bu gün mənim gördüyüm iş, atdığım addım bütün həyatım boyu elədiklərimin hamısından yaxşıdır; bu dünyada daim can atdığım, amma əldə edə bilmədiyim rahatlığa, axır ki, çata bildiyim üçün xoşbəxtəm".

Son.

MÜNDƏRİCAT

Müəllifin ön sözü 5

Birinci kitab. HƏYATA QAYTARILMIŞ

I fəsil. TARİXİ DÖVR 9
II fəsil. POÇT 12
III fəsil. GECƏ KÖLGƏLƏRİ 18
IV fəsil. HAZIRLIQ 22
V fəsil. ŞƏRAB DÜKANI 34
VI fəsil. ÇƏKMƏÇİ 45

İkinci kitab. QIZIL SAP

I fəsil. BEŞ İL SONRA 59
II fəsil. MƏNZƏRƏ 66
III fəsil. MƏYUSLUQ 73
IV fəsil. TƏBRİK 89
V fəsil. ÇAQQAL 96
VI fəsil. İNSAN AXINI 103
VII fəsil. ZADƏGAN ŞƏHƏRDƏ 117
VIII fəsil. MARKİZ KƏNDDƏ 127
IX fəsil. QORQONUN BAŞI 133
X fəsil. İKİ VƏD 145
XI fəsil. DOSTYANA SÖHBƏT 154

XII fəsil. NƏZAKƏTLİ ADAM 159
XIII fəsil. KOBUD ŞƏXSİYYƏT 167
XIV fəsil. ƏMƏLİSALEH ADAM 173
XV fəsil. KƏFƏNTOXUYAN QADIN 185
XVI fəsil. KƏFƏNTOXUMA 197
XVII fəsil. BİR GECƏ 209
XVIII fəsil. DOQQUZ GÜN 215
XIX fəsil. HƏKİM MƏSLƏHƏTİ 222
XX fəsil. BƏRAƏT 230
XXI fəsil. AYAQ SƏSLƏRİNİN ƏKS-SƏDASI 234
XXII fəsil. DƏNİZ HƏLƏ DƏ KÜKRƏYİR 246
XXIII fəsil. TONQAL ALOVLANIR 252
XXIV fəsil. MAQNİTLİ QAYAYA CƏZB OLUNMA 260

Üçüncü kitab. FIRTINANIN İZİ

I fəsil. GİZLİ KAMERA 275
II fəsil. BÜLÖV DAŞI 287
III fəsil. KÖLGƏ 294
IV fəsil. FIRTINADA SAKİTLİK 300
V fəsil. ODUNDOĞRAYAN 306
VI fəsil. TRİUMF 313
VII fəsil. QAPININ DÖYÜLMƏSİ 321
VIII fəsil. KART OYUNU 327
IX fəsil. OYUNUN DAVAMI 343
X fəsil. KÖLGƏNİN BƏDƏNİ 356

XI fəsil. ALA-TORAN 372
XII fəsil. ZÜLMƏT QARANLIQ 377
XIII fəsil. ƏLLİ İKİ 387
XIV fəsil. KƏFƏNİN SONUNCU İLMƏSİ 400
XV fəsil. ƏBƏDİ SUSAN ADDIM SƏSLƏRİ 414



ÇARLZ DİKKENS

İKİ ŞƏHƏRİN HEKAYƏTİ

Xalqın sözünü deməyi bacaran yazıçı – ÇARLZ DİKKENS

Ç.Dikkensin yaradıcılığında "İki şəhərin hekayəti" romanı xüsusi yer tutur. Üslubuna, mövzusuna və digər cəhətlərinə görə bu əsər Dikkens yaradıcılığının zirvəsi hesab edilir, başqa sözlə, "İki şəhərin hekayəti" romanı böyük ingilis yazıçısı Ç.Dikkensin şah əsəridir.

Əsər 1859-cu ildə yazılıb, romanın əsas mövzusu Böyük Fransa inqilabıdır. Məlum olduğu kimi, həmin inqilab 1789-1794-cü illəri əhatə edir. Böyük Fransa inqilabı 300 ildən artıq hökmranlıq etmiş Burbonlar sülaləsinin hakimiyyətinə son qoydu; sülalənin sonuncu nümayəndəsi XVI Lüdoviq 1793-cü ildə edam edildi.

XVIII əsrin ortalarında Fransada insan hüquqları ən kobud şəkildə pozulurdu. Zülm ərşə dirənmişdi, insanlar həyatdan bezmişdilər. "İki şəhərin hekayəti" əsərində markiz Evremondun qardaşı tərəfindən ölümcül yaralanıb can verən kəndli oğlan deyir: "Bizim atalarımız gecə-gündüz Allaha yalvarıb dua edirlər ki, qadınlarımız hamilə qalmasınlar, çünki bizim kimi ac-yalavac və heç bir hüququ olmayan insanların dünyaya uşaq gətirməsi Allah qarşısında ən böyük günahdır".

İnsanlar Allaha dua edirdilər ki, onları bu bəladan qurtarsın. Allah isə onların səsini eşitmirdi, keşişlər özləri də zalımlara qoşulub insanları çapıb-talayırdılar. Hər yerdən ümidi üzülən insanlar kilsədən də üz döndərmişdilər. Lakin hər şeyin bir sonu olur; vaxt-vədə yetişdi, əsrlər boyu insanların içində qövr eləyən qəzəb partladı – Fransanı üsyan dalğası bürüdü. Böyük Fransa inqilabının birinci mərhələsi 1789-cu ilin iyul ayında üsyan etmiş xalqın Bastiliya qalasını almasıyla başlayır. "İki şəhərin hekayəti" romanının personajlarından bir neçə nəfər o möhtəşəm hadisənin iştirakçısı olub.

Çarlz Dikkensin oxuculara təqdim olunan "İki şəhərin hekayəti" romanı Azərbaycan dilinə ilk dəfə tərcümə olunur.

Ramiz Abbaslı

ISBN 978-9952-36-421-7

9 789952 364217

Qiyməti: 9.99 ₼

QANUN NƏŞRİYYATI
kitab sifarişi (012) 431-16-62
və www.qanun.az saytında

"Əli və Nino" NƏŞRİYYATI
kitab sifarişi (012) 493-04-12
və www.alinino.az saytında

www.fb.com/qanunpublishing

www.fb.com/aliandnino.azerbaijan